AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# QƏRBİ AZƏRBAYCAN FOLKLORU

## III KİTAB

BAKI – 2024

AMEA Folklor İnstitutu Elmi Şurasının 27 iyun 2024-cü il tarixli qərarı ilə (protokol № 5) nəşr olunur.

**TOPLAYIB TƏRTİB EDƏNİ,**
**ÖN SÖZÜN MÜƏLLİFİ:** **İlkin RÜSTƏMZADƏ**
**filologiya üzrə fəlsəfə doktoru**

**ELMİ REDAKTORU:** **Əziz ƏLƏKBƏRLİ**
**filologiya üzrə fəlsəfə doktoru**

**Qərbi Azərbaycan folkloru**. III kitab. Bakı, "Elm" nəşriyyatı, 2024, 416 səh.

ISBN 978-9952-569-83-4

Kitabda Bakı şəhəri, Tərtər və Yevlax rayonlarında məskunlaşmış Qərbi Azərbaycan sakinlərindən toplanmış folklor örnəkləri yer almışdır. Bundan əlavə, kitabda bölgənin etnoqrafik həyatı, bölgədə yaşamış tayfa və nəsillər, deportasiya zamanı onların başlarına gətirilən müsibətlər haqqında öz dillərindən yazıya alınmış xatirələr də verilmişdir.

folklor.az

© Folklor İnstitutu, 2024
© İlkin Rüstəmzadə, 2024

# ÖN SÖZ

Qərbi azərbaycanlılar Tərtər rayonunun Bəyimsarov, Seydimli, Cəmilli, Qaradağlı, İrəvanlı, Dəmirçilər, Xoruzlu və Səhləbad kəndlərində məskunlaşıblar. Bəyimsarov və İrəvanlı sırf o tərəfdən gələn əhalidən ibarətdir, digər kəndlərdə isə yerli əhali ilə qarışıq yaşayırlar. Rayonda Herher, Yellicə, Goht, Əlimərdan, Bala Məzrə və Bala Qaraqoyunlu kəndlərinin əhalisi yerləşdirilmişdir. Rayonda məskunlaşanların böyük əksəriyyəti 1948-1952-ci illərdə, Bəyimsarovda məskunlaşanlar isə 1988-ci ildə deportasiya olunmuş sakinlərdir.

Yevlax rayonuna deportasiya olunanlar rayonun, əsasən, Malbinəsi, Qaraməmmədli, Nemətabad, Səmədabad, Yədilli, Havarlı, Bəydili kəndlərində, İrəvanlı qəsəbəsində və Yevlax şəhərində məskunlaşıblar. Nərimanabad, Səmədabad, İrəvanlı və Havarlı kəndləri ancaq o bölgədən gələn əhalidən ibarətdir, digər kəndlərdə isə yerli əhali ilə qarışıq yaşayırlar. Nərimankənd və Havarlı vaxtilə ermənilərin yaşadığı kəndlər olub. Havarlı kəndi 1918-ci ildə erməni-müsəlman iğtişaşları zamanı boşaldılıb, Nərimankənddə yaşayan ermənilər isə 1988-ci ildə azərbaycanlıların Ermənistandan deportasiyasından sonra kəndi tərk ediblər və onlardan boşalan kəndə o bölgədən gələn əhali yerləşdirilib. Rayonda Ermənistanın Çimənli, Təkiyə, Üşü, Cul, Çaxırlı, Köçbək və Kərimbəyli kəndlərindən köçürülən ailələr məskunlaşdırılıb. Çaxırlılar rayonun Duzdax, çimənlilər Nərimanabad, təkiyəlilər Havarlı və Bəydili kəndlərində məskunlaşıb. Qərbi azərbaycanlılar rayon ərazisinə müxtəlif illərdə gəliblər. Söyləyicilərin verdiyi məlumata görə, ilk köç keçən əsrin 20-ci illərindən başlayıb. 1924-cü ildə Türkiyə Cümhu-

riyyəti ilə Sovet İttifaqı arasında sərhədlər müəyyənləşəndən sonra sərhədə düşən kəndlərin əhalisi oradan çıxarılmış, həmin ailələrin bir çoxu Azərbaycana üz tutmuş, onların bir qismi Yevlax rayonunda məskunlaşmışlar. İkinci köç dalğası 1948-1952-ci illərədə baş verir, onda Cul, Çimən, Kərimbəyli kəndlərinin, 1988-1990-cı illərdə isə Köçbək kəndinin sakinləri köçürülür. Sakinlərin Yevlağı seçməsinin əsas səbəbi rayonun nəqliyyat yollarının qovşağında yerləşməsi idi; dəmiryol stansiyasının olması, Bakı-Qazax magistral yolunun üzərində yerləşməsi və sair. Köç zamanı yalnız yanlarında götürə bildikləri əşyaları aparmağa icazə verilmiş, illərlə tikib-qurduqları, min bir əziyyət hesabına başa gətirdiklərini isə Ermənistanda qoyub çıxmışlar. Söyləyici xatirələrindən aydın olur ki, ilk illər onlar üçün ağır keçmişdir, Yevlağın isti iqliminə uyğunlaşa bilməyən nə qədər insan dünyasını dəyişmiş, gətirdikləri mal-qara qızdırmadan tələf olmuşdur. Bölgəyə uyğunlaşa bilməyən bir çox ailələr geri dönsələr də, 1953-cü ildə təkrar geri qayıtmaq məcburiyyətində qalmışlar.

Köç zaman bir çoxlarına köçkünlük bileti təqdim olunsa da, müəyyən səbəblərdən bu bileti ala bilməyən ailələr də vardır. Herher kənd sakini Bayram Orucovun dediyinə görə, atasının erməni dostu onlara kəndə hücum ediləcəyi ilə bağlı xəbərdarlıq etmişdi. Atası bu xəbəri aldıqdan sonra 1946-ci ildə 20 ailə gecəylə Herheri tərk etmiş və Azərbaycana üz tutmuşlar. Sonradan gələnlərə köçkünlük bileti verildiyi halda, onlar köçkünlük biletini ala bilməmişlər. Sahədə olduğumuz zaman iş üçün Azərbaycana gəlib burda yaşayan qərbi azərbaycanlılarla da qarşılaşdıq. Onlarla söhbət zamanı məlum olmuşdu ki, azərbaycanlıları köçməyə məcbur etmək üçün

məqsədli şəkildə onları işlə təmin etmirdilər. Belə olduqda onlar iş dalınca Azərbaycana üz tutur, iş tapandan sonra da burada həmişəlik məskunlaşıb qalırdılar.

Söyləyici xatirələrindən məlum olur ki, 1948-1952-ci illərdə azərbaycanlılara qarşı ciddi bir zorakılıq törədilməmişdi, sakit şəraitdə oranı tərk etmişlər. Amma 1988-1991-ci illərdə ermənilər azərbaycanlılara qarışı amansız davranmış, kəndlərə basqınlar düzənləyib azərbaycanlıları öldürmüş, onlara xəsarət yetirmiş, onların sürüsünü, mal-qarasını əllərindən almışlar. Elə bir şərait yaratmışlar ki, insanlar oradan bezib xoşluqla öz kəndlərini tərk etsinlər. Kəndlərin işığını, qazını, şəhərlə nəqliyyat əlaqəsini kəsmişlər, vəziyyət o yerə çatmışdır ki, azərbaycanlılar şəhərə gedib-gəlməyə belə ehtiyat edirdilər. Xüsusən də gəlmə ermənilər (söyləyicilər onları saqqallı erməni kimi təqdim edirlər) azərbaycanlılara qarşı xüsusi amansızlıqları ilə seçilirdilər. Onlar kəndlərə hücumlar təşkil edir, azərbaycanlıları evlərini tərk etməyə məcbur edirdilər. Həmin saqqallılardan ibarət dəstələr Saral kəndində əhalini köçürən avtobuslardan birini Həmzəçimən yolunda güllə-baran etmiş, neçə nəfərin ölümünə səbəb olmuşlar.

Azərbaycanlıları bölgədən çıxartmaq, bölgədən türkün izini silmək əslində planlı bir fəaliyyət idi. 1988-ci il Sumqayıtda baş verən hadisələr ermənilərin əlində bir bəhanə olmuş, ondan istifadə edib öz planlarının icrasına başlamışdılar. Amma söyləyici xatirələri göstərir ki, onlar çoxdan bu işə hazırlaşırdılar. Hələ deportasiya məsələsi ortaya atılmamışdan xeyli əvvəl azərbaycanlılarla dostluq, yoldaşlıq edən ermənilər onlara məsləhət görürdü ki, sizin bu torpaqda axırınız yoxdur, nə qədər gec deyil buranı tərk edin. Söyləyicilərin dediyinə görə, depor-

tasiyadan əvvəl onlara tikinti üçün hər çür şərait yaratmışlar; tikinti materiallarının əldə edilməsi, daşınması, tikinti üçün icazənin alınması xeyli asanlaşmışdı. Bunların hamısını da məqsədli şəkildə etmişdilər ki, sabah azərbaycanlıları yurd-yuvalarından çıxaranda tikdikləri onlara qalsın.

Deportasiya olunmuş qərbi azərbaycanlıların məskunlaşdırılması zamanı bir prinsip izlənilməmiş, insanları pərakəndə, dağınıq halda yerləşdirmişlər. Nəticədə eyni kəndin əhalisi Azərbaycanın fərqli rayonlarına səpələnmişdir. Nəinki kənd, hətta bir ailənin üzvləri belə fərqli rayonlara parçalanmışdır. Gomur kənd sakini İzzət Məmmədovun dediyinə görə, qardaşının biri Ordubadda, biri Şahbuzda, biri İsmayıllıda, o özü isə Yevlax rayonunda məskunlaşmış, bir qardaşı da o vaxtdan baş götürüb Rusiyaya getmişdir. Bir ağsaqqalın dediyi "qərbi azərbaycanlılar arpa unu kimi Azərbaycanın dörd bir tərəfinə dağılıb" məsəli əslində onların düşdüyü durumu ifadə edir. Məskunlaşma zamanı əhalinin tərkibi, bölgənin etnoqrafik xüsusiyyəti nəzərə alınmamış, fərqli kəndlərin əhalisini bir kəndə yığmışlar. Bu da adət-ənənədə uyğunsuzluq yaratmışdır. Kəndin bir hissəsi qəbir üstünə axır çərşənbədən əvvəl, bir hissəsi Novruz bayramında gedir. Kəndin bir qismində Novruz bayramında *sulaşma* deyilən bir adət var, digər qisminin belə bir adətdən xəbəri yoxdur. Bu da bölgədə folklor mühitlərinin dağılmasına, bölgə folklorunun sıradan çıxmasına səbəb olmuşdur. Novruz bayramına məxsus bir çox adət-ənənələr bu gün unudulmuş, vaxtilə təmtəraqla keçirilən mərasimlər bu gün icra olunmur, vaxtilə coşğuyla qeyd olunan Xıdır Nəbi bayramının atributları bu gün güclə xatırlanır. Əvəzində məskunlaşdıqları bölgənin adət-ənənəsini mənimsəmiş, bölgənin ləhcə xüsusiyyətlərini götürmüş, bölgə folkloru-

nun əsas daşıyıcısına çevrilmişlər. Onların repertuarından yazıya alınmış Seyid Yusif ağa, Aşıq Valeh, Abdal Qasım haqqında mətnlər məskunlaşdıqları bölgəyə xas folklor nümunələridir. Bu da göstərir ki, onlar həm də məskunlaşdıqları bölgənin folklorunun əsas daşıyıcılarıdır.

Qərbi Azərbaycan folkloru əslində şərti bir addır, çünki qərbi azərbaycanlılar məxsus olduqları coğrafi bölgədən ayrı düşmüşlər, həmin folkloru yaradan və yaşadan etnoqrafik mühit bu gün yoxdur. Bunun nəticəsidir ki, Sabirabad rayonunda məskunlaşmış qərbi azərbaycanlılarla Tərtər və Yevlax rayonunda məskunlaşmış qərbi azərbaycanlıların repertuarı fərqlənir. Sabirabadda dinin təsiri güclü olduğu üçün burada məskunlaşmış qərbi azərbaycanlıların repertuarında bölgəyə məxsus dini məzmunlu örnəklər üstünlük təşkil edir. Yaşlı nəslin hafizəsində Qərbi Azərbaycana xas müəyyən süjetlər qalsa da, onlar da tədricən unudulur, sıradan çıxmaq üzrədir. Əsasən, pirlər və seyidlərin kəraməti, nəsil, tayfa və məkan haqqında əfsanə və rəvayətlər hafizələrdə qalmışdır. Regional folklordan o zaman danışmaq olar ki, həmin folklor müəyyən bölgəyə xas ənənələr çərçivəsində formalaşsın. Qərbi Azərbaycandan deportasiya olunan əhalinin kompakt yerləşdirilməməsi, müxtəlif rayonlara səpələnməsi buradakı folklor mühitlərinin dağılmasına səbəb olmuşdur.

***

Qərbi Azərbaycan qızılbaş şiəliyinin yayıldığı əsas bölgələrdən biridir. Bunu həm bölgənin etnik tərkibi, həm də onların adət-ənənələri təsdiq edir. Bölgədə yaşayan nəsillərin bir çoxu dini inanclarına görə vaxtilə Anadoludan köç etmiş tayfalardır. Söyləyici xatirələrində Osmanlıya qarşı baş qaldırmış ələvi

üsyanlarının adı çəkilir, həmin üsyanlar yatırıldıqdan sonra bir çox ələvi tayfaları oranı tərk edib Azərbaycana gəlmək məcburiyyətində qalmışlar. Bunu həmin tayfaların öz nəsil-şəcərələri haqqında verdiyi məlumatlar da təsdiq edir. Qərbi Azərbaycandakı bir çox kənd adlarının Türkiyə ərazisində də mövcud olması (Təkkə–Təkiyə, Bayburt-Bayburd), bu gün Anadoluda işlənən bir çox sözlərin Qərbi Azərbaycan dialektlərində də işlənməsi bundan irəli gəlir. Qızılbaş şiəliyinə məxsus bir çox ritualları – sacarası, niyaz, dayanışma və yardımlaşma kimi bir çox mərasimləri onlar bu gün də qoruyub saxlamışlar. Əksər şeylər unudulsa da, qızılbaş inancından gələn bir çox dəyərlər onların düşüncəsində qalmaqdadır. Şeyx Səfi buyruqlarında keçən "əlinə, dilinə və belinə sahib ol" ifadəsi onlar arasında bu gün də gözlənilir. Yaşlı insanlarla söhbət zamanı oğurluq etməyin, yalan danışmağın pis hal olduğu vurğulanır. Ona görə oğurluq edənə, yalan danışana, haram tikə yeyənə pis baxılmış, gələcək nəslə bu xüsusiyyətlərdən uzaq durmaq məsləhət görülmüşdür. Bu dəyərlər yalnız öyüd-nəsihət kimi gələcək nəslə çatdırılmayıb, eyni zamanda həmin görüşləri təbliğ edən folklor örnəkləri yaradılmış və onlar vasitəsi ilə camaat arasında təbliğ olunmuşdur. Bölgə sakinlərindən yazıya alınmış "Yumurta oğrusu", "Bişmə qurban" haqqında rəvayətlər belə mətnlərdir. Bu faktlar onu göstərir ki, qızılbaşlığa aid bir çox görüşlər onların təfəkküründə bu gün də yaşayır, gündəlik həyatda onların fəaliyyətinə yön verir. Əlimərdan kənd sakini Rəhim Bünyatovun dediyi "mən nə oruc tutmuşam, nə namaz qılmışam. Amma həmişə çalışmışam ki, bu konfet sənindirsə, özün götürüf verəsən, mən səndən icazəsiz onu almaram. Bir adam deyəmməz ki, mən birqadir işdiyəndə nəsə əysiyim

gəlsin, nəsə oğurluq olsun" sözləri də onun inancından irəli gələn düşüncələrini əks etdirir. Şeyx Səfi buyruqlarında da xatırlanan həmin fikirlər vaxtilə cəmlərdə seyidlər tərəfindən təbliğ olunmuş, kütləyə aşılanmışdır.

Qızılbaş inancının öyrənilməsinin bir çox çətinlikləri vardır. Təriqət sirri olduğu üçün onları açmaqda maraqlı deyillər, söyləyənlər də sanki günah iş tuturmuş kimi tez-tez "Allah günahımdan keçsin" deyir. Bu inancı yayan, təbliğ edənlər seyidlər olublar, amma maraqlıdır ki, seyidlərin özləri də onun yaşamasında maraqlı olmayıblar. Yellicə kəndində bişmə qurban mərasiminin əsas təşkilatçılarından biri Seyid Qafar olub. Tərtər rayonunda ezamiyyədə olduğumuz zaman onun oğlu ilə görüşdük. Ondan atasının qurban kəsəndə, mərasim icra edəndə söylədiyi duaları (gülbəngləri) yazıya almaq istəsək də, məlum olmuşdur ki, o heç bir dua bilmir. Atası "bu yol ağır yoldur" deyib onun bu yolu davam etdirməsini istəməmiş, ona görə ona heç bir dua öyrətməmişdi. Qızılbaş şiəliyindən gələn bir çox inanclar ortodoks islama uyğun gəlmir. Həmin görüşlərə görə, onlar uzun müddət təqib olunmuş, sıxışdırılmışlar. Seyid Qafarın bu inancın davam etdirilməsində maraqlı olmamasında, çox güman, bu təsəvvürlərin də az rolu olmamışdı.

Qərbi azərbaycanlıların adət-ənənələri humanizmiliyi ilə seçilir, dayanışmanın, yardımlaşmanın onlar üçün nə qədər önəmli olduğunu göstərir. Bunun ən bariz nümunəsini ehsan kültüründə görürük. Bala Məzrə kəndində qəbirüstü günü hər kəs bayram nemətlərindən xonçalar tutub qəbiristanlığa aparır, həmin nemətdən bir az qəbirin üstünə qoyur, qalan ərzağı isə böyük bir süfrə açıb onun üstünə tökürdülər. Həmin nemətlər orada qarışdırılır, hər kəsə ondan bir qab pay verilir, artıq

qalanı da kənddəki imkansız şəxslərin siyahısı tutulub həmin ailələrə paylanırdı. Yaxud Novruz bayramı qabağı ili çıxmamış ölülər üçün qara bayram verilirdi. Ölü sahibi heyvan kəsib Qara bayrama gələnlər üçün ehsan bişirtdirir, gələ bilməyənlərin də həmin ehsandan yeməsi üçün heyvanın qalan ətini doğratdırıb evlərə paylayırdı. Ehsan göndərəndə də ailə fərdlərinin sayını nəzərə alır, onların sayına uyğun tikə qoyurdu ki, hər kəs o ehsandan dada bilsin. Ailə başçısı öldükdə böyük qardaş o biri uşaqların himayəsini öz üzərinə götürür, yalnız ondan sonra bişən ehsandan yeyilirdi.

Dayanışmanın maraqlı bir nümunəsi toy zamanı yaşanırdı. Kəndə gəlin gətiriləndə yas düşmüş ailələr varsa, gəlini birinci həmin qapıya aparırdılar. Ev sahibini çağırıb oynadır, onu yasdan çıxardır, ondan sonra gəlini oğlan evinə gətirirdilər. Yaxud kənddə nişanlı qız və ya təzə gəlmiş gəlin varsa, toy günü ev yiyəsi çalğıçıları götürüb həmin gəlinin qapısına gedir, orada mahnı çalıb təzə gəlini və ya nişanlı qızı oynadır və onları toya dəvət edirdi. Yası düşmüş ailələri hüzrdən çıxarmaq, onların toyda iştirakını təmin etmək, yaxud təzə gəlinləri toya xüsusi dəvət etməklə onların insanlara qaynayıb-qarışmasına yardımçı olmaq – bütün bunlar dayanışmanın bir nümunəsidir. Əvvəllər yas düşəndə yasın birinci, ikinci günü o ocaqda yemək bişirilmirdi, ölü sahibinə güc düşməsin deyə yasa gələn qohum-qonşu özü ilə hazır yemək gətirir, yas sahibinə, orada əl-ayaq verənlərə həmin yeməkdən verilirdi.

Qərbi Azırbaycanda maraqlı etnoqrafik faktlardan biri də halallığa, təmizliyə verilən önəmdir. Ermənini kafir (gavur) hesab etdikləri üçün onu murdar saymış, onun əli dəyən heç bir şeyi istifadə etməmişlər. Üşü kənd sakini Salman Rzayevin

dediyinə görə, Sovet dövründə kolxozçulara əmək gününə yağ paylanırdı, erməninin əli dəydiyi üçün anası həmin yağı yemirdi, erməni qonşularına verirdi. Yaxud bir erməni onlardan su istədikdə əli quruşqaya dəyməsin deyə suyu onların ovcuna tökürdülər. Üşü kənd sakini Təvəkkül Əliyevin dediyinə görə, erməninin ayağı dəyən yerin torpağını kürüyüb atırdılar ki, o mundarlanıb. Erməni kəsən heyvanın ətindən heç kim yemirdi. Ermənilər də bunu bildikləri üçün heyvan kəsəndə onu müsəlman qəssablara kəsdirirdilər ki, azərbaycanlılar da həmin heyvanın ətindən alsınlar. İrəvanda yaşayan qərbi azərbaycanlıların dediyinə görə, vaxtilə cumə günləri ermənilər şəhərə çıxmırdılar ki, yağışın suyu onlara dəyib müsəlmanın üstünə sıçrayar, onun dəstəmazını pozar. Cümə günü müsəlmanların məscidlərdə toplu ibadət etdiyi gündür. Görünür, müsəlmanların dəstəmazının pozulmaması üçün qeyri-müsəlmanların Cumə günləri küçəyə çıxması vaxtilə qadağan edilmiş, bu təsəvvürlər də oradan qaynaqlanır. Haram hesab etdikləri üçün mağazada satılan şam, yağ və mayadan istifadə etməyiblər, şamı ev şəraitində özləri hazırlayıb, maya əvəzinə acxəmrədən, mağaza yağı əvəzinə isə nehrə yağından istifadə ediblər.

Halallıq kimi təmizliyə də böyük önəm verilib. Söyləyicilərin dediyinə görə, Əştərək sakinlərinin bir xasiyyəti vardır ki, bir paltarı nə qədər yusalar da, axar suda carramadan onu təmiz hesab etmirdilər. Ona görə paltarı vannada yuduqdan sonra mütləq axar suda yaxalayır, yalnız ondan sonra onun təmiz olduğuna əmin olurdular. Eynilə qabı nə qədər yusalar da, axar suda yaxalamadan onda yemək bişirmirdilər.

Qərbi Azərbaycan həm də qonağa münasibəti ilə seçilib. Qonağa bu münasibətin müəyyən mifoloji əsasları vardı, amma

günümüzdə onun inanc tərəfi unudulub, sadəcə bir adət-ənənə kimi yaşadılır. Bölgədə ev tikəndə mütləq ayrıca qonaq otağı nəzərdə tutulub, qonaq üçün ayrıca yorğan-döşək salınıb, yemək çəkəndə qazanda qonağın payı saxlanılıb. Qonağa toyuq kəsmək ayıb sayılıb, qonaq üçün mütləq toğlu kəsilib. Hətta qonağın üstünə başqa bir qonaq gəlibsə, onun adına da ayrıca toğlu kəsilirdi. Kənddə birinin qonağı gəldikdə yaxın qohum-əqraba növbə ilə onu öz evinə qonaq aparırdı. Uzaq yerdən kəndə toya gələn olanda kənd sakinləri onu gecələmək üçün öz evlərinə dəvət edir, qonaq getmək istəməyəndə isə ondan inciyirdilər. Qonaqsız ev suyu sovruluş dəyirmana bənzədilmişdir. Qonağa olan bu münasibət bölgədə Mehmandar kimi kənd adlarının yaranmasına səbəb olmuşdur. Fikrimizcə, qonağa bu münasibətin kökündə Xızır inancı durur. Dilimizdə işlənən "Allah qonağı" ifadəsi qızılbaş inancının yayıldığı bölgələrdə, xüsusən də Anadolu ələviləri arasında "Xızır misafiri" kimi işlənir[1]. Onlar qonağı Xızır saymış (şifahi ənənədə Xızırın müxtəlif cildlərdə qapıları gəzməsi haqqında rəvayətlər söylənilir), Xızıra olan sevgilərini, məhəbbətlərini ona göstərmişlər.

***

"Qərbi Azərbaycan folkloru" seriyasından buraxılan bu kitab 2024-cü ildə Tərtər, Yevlax rayonları və Bakı şəhərinə təşkil edilmiş folklor ezamiyələri zamanı toplanan materiallar əsasında tərtib olunmuşdur. Folklor materialları söyləyicinin öz dilindən şivə xüsusiyyətləri gözlənilməklə təqdim olunmuş, etnoqrafik materiallar isə təsvir üsulu ilə verilmişdir. Bölgədən

---

[1] Fahri Maden. Alevilik-Bektaşilikte Hızır inancı ve Hızır (Hıdır) ismiyle anılan alevi-bektaşı tekke, türbü ve ocakları // https://abked.de/index.php/abked/article/view/62

toplanmış etnoqrafik materiallar ümumiləşdirilmiş, söyləyicinin adına və qeydə alındığı məkana istinad etməklə bizim tərəfimizdən təsviri verilmişdir. Etnoqrafik materialların böyük qismi keçən ilki ezamiyyələr zamanı Sabirabad, Salyan, Biləsuvar və Bərdə rayonlarından, bir qismi də builki ezamiyyələr zamanı Tərtər, Yevlax rayonları və Bakı şəhərində məskunlaşmış qərbi azərbaycanlılardan toplanmışdır.

Kitabda diqqət çəkən bölmələrdən biri də nəsillər və tayfalar haqqında rəvayətlərdir. Həmin rəvayətlər bölgənin məskunlaşma tarixinin, bölgənin etnik tərkibinin öyrənilməsində mühüm rol oynayır. Qarabağ folklorunu toplayan zaman Laçın rayonunun Şəlvə dərəsindəki bir çox kəndlərin, həmçinin Kəlbəcərin Alxaslı kəndinin əsasının kor bir kişinin qoyması haqqında rəvayətlər yazıya almışdıq. Eyni obrazla Qərbi Azərbaycanda da qarşılaşdıq. "Söylən" haqqında rəvayətdə Söylən adının kənddə ilk məskunlaşmış Kor Hüseyn tərəfindən verildiyi deyilir. Tayfa-nəsil haqqında rəvayətlərin toplanması həm də folklor nümunələrinin yayılma coğrafiyasını müəyyənləşdirməkdə mühüm rol oynayır. Səməd Orucovdan yazıya alınmış Herher kəndi haqqında rəvayət belə mətnlərdən biridir. Həmin rəvayətin bir variantı da Kəlbəcər rayonu Məmmədușağı kəndindən yazıya alınmışdır[2]. Məlum olur ki, tayfalar yer dəyişdirərkən onların kimliyini ifadə edən nəsil-şəcərə haqqında rəvayətləri də özləri ilə aparırlar.

Folklor örnəklərini toplayarkən bölgənin şifahi tarixini də öyrənməyə çalışmışıq. Həmin mətnlər həm bölgənin keçmişinə işıq tutur, həm də bölgəni tanımaqda bizə köməklik edir.

---

[2] Qarabağ: folklor da bir tarixdir, VIII kitab (Kəlbəcər rayonundan toplanmış folklor örnəkləri), Bakı, "Zərdabi LTD", 2014, s.32

Bununla əlaqədar, Kərbəlayi İsmayıl, Qəmlo, Qaçaq Cəmil haqqında xatirələr diqqəti cəlb edir. Əslində bu mətnlər həmin şəxslərin bölgənin tarixində oynadığı rolu göz önünə sərir. Erməni-müsəlman iğtişaşları zamanı bölgə sakinlərinin qorunmasında onların əvəzsiz rolu olmuş, kəndləri erməni daşanaklarından müdafiə etmiş, silahlı dəstələr yaradaraq onlara qarşı mübarizə aparmışlar. Erməniyə qarşı vuruşan bu şəxslər sonralar xalq düşməni adı ilə damğalanmış, özləri öldürülmüş, ailələri sürgünə göndərilmişdir. Həmin mətnlər bu şəxslərin fəaliyyətinə işıq tutmaqla yanaşı burada milli dəyərləri yansıdan maraqlı motivlərlə də (Kərbəlayi İsmayılın gəlinini öz düşməninə etibar etməsi kimi) qarşılaşmaq mümkündür.

Diqqət çəkən nümunələrdən biri də Ardanış kənd sakini Abbasəli Həsənovdan yazıya alınmış “Fəttah və Qəmər” dastanıdır. Qərbi Azərbaycan folklorunun ikinci cildində həmin süjetin Böyük Şöllü kənd sakini Abbas Əliyevdən yazıya alınmış nağıl variantı verilmişdi, amma bu dəfə onun dastan variantını yazıya almaq bizə nəsib oldu. Dastan Həzrət Əlinin sadiq qulu Qəmbərdən, onun Əli ilə tanış olmasından, necə ona nökər olmasından bəhs edir. Abbasəli Həsənov həmin dastanı Zəki İslamın Həzrət Əliyə həsr etdiyi poemasından bəhrələnərək yaratmış, hətta səsyazma studiyasında lentə aldırmışdı. Özünün dediyinə görə, həmin dastan İranda o qədər maraq doğurmuşdur ki, orada nüsxəsi artırılaraq satışa buraxılmışdır.

Abbasəli Həsənov dindar bir ailədə böyüyüb. Atası molla, babası dini təhsilli müctehid olub. Özü ixtisasca tibb işçisi olsa da, dinə marağı olmuş, bu gün də mollalıq edir, kənd sakinlərinin yas məclislərini yola salır. Abbasəli Həsənovun aşıqlıq savadı yoxdur, amma aşıq məclislərində çox iştirak etdiyindən

aşıq repertuarına yaxşı bələd idi. Ümumiyyətlə, Göyçə camaatı aşıq repertuarına güclü bələd olub, deyilənə görə, onların qarşısında çıxış etmək hər aşığın hünəri deyildi. Aşıq şeirdə hansısa sözü düz söyləməyəndə, dastanın hansısa hissəsini ötürəndə, onlar aşığa irad tutur, yeri gələndə onunla mübahisə edirdilər. Ona görə hər aşıq onlar qarşısında çıxış etməyə cəsarət etmirdi. Abbasəli Həsənov da o qədər aşıq məclislərində iştirak etmişdi ki, onların repertuarına, yaradıcılıq üsullarına yaxşı bələd olmuşdur. "Fəttah və Qəmbər" dastanını yaradanda da həmin təcrübədən bəhrələnmiş, gözəl bir dastan nümunəsi ərsəyə gətirmişdir.

Cəmiyyətdə savadlılıq artdıqca buna paralel olaraq yazılı ənənənin şifahi ənənəyə təsiri də artmışdır. Söyləyicilərin verdiyi məlumatlar göstərir ki, keçən əsrin ikinci yarısından etibarən bu təsir artaraq davam etməkdədir. Məlumdur ki, uzun qış gecələrində insanlar mənəvi ehtiyaclarını nağıl məclisləri vasitəsi ilə ödəyirdilər. Kənddə hamı sözü-söhbəti ilə tanınan usta nağılçıların başına yığışır, orada həm gündəlik qayğılardan danışılır, həm də maraqlı nağıllar söylənirdi. Usta nağılçılar həm geniş repertuara sahib idilər, həm də natiq idilər, şirin danışıqları ilə auditoriyanı ələ almağı bacarırdılar. Belə şəxslərin repertuarında söylənilməsi saatlarla sürən nağıllar var idi. Həsən Mehdiyevin deyilənə görə, Almalı kənd sakini Bayram kişi güclü nağılçı idi. Nağılı elə şirin anladırdı ki, hamı onun başına yığılırdı. Söyləyicinin dediyinə görə, bir dəfə Bakıdan gələndə vaqonda oturmağa yer olmur. Bayram kişinin nağıl bildiyini eşidəndə onun üçün oturmağa yer təşkil edirlər. Bayram kişi nağıla başlayır, qatar Yevlağa çatanda nağıl hələ qutarmamışdı. Bu cür usta nağılçılar nağıla başlamazdan əvvəl pişrov söyləyir,

auditoriyanı söyləyəcəyi mətnin məzmununa köklədikdən sonra nağıla keçid edirdi. Mehmandar kənd sakini Əyyub Əzizovdan yazıya alınmış pişrov nümunəsi də belə söyləyicilərin repertuarından gəlir: "Əmmə raviyani və tokiyanı şəkkər, şəkkəri şəkkər, şirini göftər. Mazandaran şəhərində qodux ağaca çıxmışdı, mərcimək qalxana dönmüşdü, iynə mizrağa dönmüşdü. Dəvəynən qarışqa güştü tutdu, qarışqa qaldırdı dəvəni vurdu yerə. Yalan-palan, eşşəyi minif dəvəni qucağına alan". Usta söyləyicilər bunu dedikdən sonra nağıla keçid edirdi. Amma hər kənddə bu cür söyləyici tapmaq mümkün deyildi. Yazıb-oxuma vərdişlərinin olduğu bəzi ailələrdə insanlar mənəvi ehtiyaclarını artıq kitab vasitəsilə ödəməyə başlamışdılar. Məsələn, Ardanış kənd sakini Qoşqar Məmmədovun dediyinə görə, uzun qış gecələrində onlar evdə kitabdan "Koroğlu" dastanını oxuyurdular. Müasir dövrdə bu istiqamət daha da artmış, savadlı söyləyicilər əldə etdikləri məlumatın çoxunu yazılı mənbələrdən götürmüşlər. Ona görə söhbət zamanı söyləyiciləri kitabdan oxuduqlarını deyil, yaşlılardan eşitdiklərini danışmaları üçün xəbərdarlıq etmək məcburiyyətində qalırdıq. Bununla belə, bu kitaba daxil edilən bəzi nümunələr, xüsusən də Molla Nəsrəddin, Bəhlul Danəndə haqqında lətifələrin bəziləri kitab vastəsi ilə şifahi ənənəyə daxil olmuşdur. Bu da onu göstərir ki, bu gün şifahi ənənə təkcə şifahi yolla ötürülən nümunələr əsasında deyil, həm də yazılı mənbələr hesabına formalaşır. Savadlılıq artdıqca, oxuma vərdişləri çoxaldıqca yazılı məxəzlər vasitəsilə şifahi ənənəyə daxil olan mətnlərin çəkisi də artır.

Kitabın sonunda mətnlərin söyləyiciləri haqqında məlumat verilmişdir. Pasportlaşdırmada söyləyicinin deportasiya olunduğu bölgə, məskunlaşdığı rayon, təvəllüdü, təhsili, peşəsi haq-

qında məlumatlar əks olunmuşdur. Bundan əlavə, hər mətnin sonunda mötərizə içərisində də onun söyləyicisi qeyd olunmuşdur. Bu zaman müəyyən qısaltmalardan istifadə edilib. Məsələn, mötərizə içərisində verilən *S* hərfi "söyləyici" sözünün baş hərfini, nöqtədən sonra verilən rəqəm isə "Söyləyicilər haqqında məlumat" bölməsindəki sıra nömrəsini bildirir. Məsələn, mətnin sonunda (S.14) yazlıbsa, demək, mətn söyləyici siyahısında 14-cü sıradakı söyləyicidən yazıya alınıb. Yaxud mətnin sonunda (S.30) yazılıbsa, həmin mətn söyləyici siyahısındakı 30-cu sıradakı söyləyicidən toplanıb.

Folklor İnstitutunun bölgələrdən toplayaraq çap etdirdiyi toplular əslində İnstitutun yerli icra nümayəndələri ilə əməkdaşlığının bəhrələridir. Eynilə bu cilddə də söyləyicilərlə görüşlərin təşkilində yerli icra nümayəndələri bizə böyük dəstək vermişlər. Bu işdə bizə kömək etmiş Tərtər Rayon İcra Hakimiyyətinə, xüsusən icra hakiminin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Zabil Paşayevə, Yevlax Rayon İcra Hakimiyyətinə, icra hakiminin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elnarə Əzizovaya, həmin şöbənin əməkdaşı Cəsarət Səfərəliyevə dərin minnətdarlığımızı bildiririk.

*İlkin Rüstəmzadə*
*filologiya üzrə fəlsəfə doktoru*

# I. ETNOQRAFİK MƏTNLƏR

## 1. NOVRUZ BAYRAMI

Xalq arasında çərşənbələrin sabit ardıcıllığı yoxdur. Söyləyicilər bayrama qədər dörd çərşənbə qeyd etdiklərini, sonuncunun ilaxır çərşənbəyə düşdüyünü deyirlər. Həmin çərşənbələr dörd ünsürlə əlaqələndirilir və hər çərşənbə bir ünsürün oyandığı tarix kimi bayram edilir. Ünsürlərin oyanma ardıcıllığı haqqında konkret təsəvvür yoxdur, çox vaxt onların ardıcıllığı klassik poeziyada işlənən abi-atəş, xaki-bad şəklində qeyd edilir.

Bayramın bir çox atributları artıq birinci çərşənbədən başlayırdı. Birinci çərşənbədən etibarən yumurta döyüşdürülür, uşaqlar Dirədöymə, Ənzəli, Cızagirdi, Qataraqoyma, Yumalatma kimi oyunlar oynayırdılar. Hər çərşənbə süfrə açılır, əriştə plov bişirilir, ocaq qalanırdı. Cul kənd sakini Sona Əhmədovanın dediyinə görə, su çərşənbəsində səhər tezdən su üstünə gedilirdi. İnam var idi ki, kim sudan birinci götürüb gətirsə, onun işi avand olacaq. Ona görə hamı bir-birinin bəhsinə çalışırdı ki, birinci o, su götürsün. Həmin su ən təmiz su hesab olunurdu. Həmin suyu həyət-bacaya səpir, onunla əl-üzlərini yuyur, artıq qalan suyu isə yeməkdə istifadə edirdilər. Torpaq çərşənbəsində mütləq torpağa nəsə əkilməliydi. Novruz bayramından sonra artıq əkin başlayırdı.

Bayramdan on-on beş gün əvvəl təmizlik işlərinə başlanırdı, bayrama qədər artıq qışın qaramatından çıxılmalı idi. Xeyirbəyli kənd sakini Gülənbər Əhmədovanın dediyinə görə, evin içi tamam boşaldılır, evlər süpürülüb təmizlənir, yorğan-

döşək havaya verilirdi. Evdə qıfıllı heç nə qalmazdı. Şifonerin, sandığın ağzı açılır, içi boşaldılır, tozu alınır, paltarlar təmiz havaya verilir, yorğan-döşəyin üzü çıxarılıb yuyulurdu. Söyləyicilərin dediyinə görə, Göyçə tərəfdə xalça-palazı havaya vermək üçün damın üstünə sərirdilər, kənardan baxanda evlərin damı al-əlvan bərq vururdu. Dam evlərində təndir evin içində olduğu üçün divarlar qurum bağlayırdı. Bayramdan əvvəl divarların hisi təmizlənir, əskini una batırıb evin tavanına naxış vururdular.

Hər çərşənbə axşamı tonqal qalanır, ona *çərşənbə tonqalı* deyirdilər. Çərşənbə tonqalı odundan, təmiz samandan, tənək çubuqlarından qalanırdı. Heyvanın altından çıxan saman yandırılmır, ancaq əl dəyməmiş, təmiz samandan istifadə olunurdu. Tonqalın üstündən tullananda "ağırlığım bununla getsin", "ağırlığım-uğurluğum bu odda yansın", "atıl-batıl çərşənbə, bəxtim açıl çərşənbə", "ağrını-uğrunu yel götürsün, ruzumu Allah yetirsin", "azar-bezarımı bu od aparsın", "ağırlığım-uğurluğum, tökül bu odun üstünə", – deyib üç dəfə tullanırdılar. Tonqal üstündən tullananda geri tullanmaq olmazdı, tonqalın ətrafına dövrə vurub əvvəlki yerdən bir də tullanırdılar. Çərşənbə tonqalının külündən həyət-bacaya da səpir, onun bərəkət gətirəcəyinə inanırdılar.

Qəbirüstü gününün keçirildiyi tarix bölgədən-bölgəyə fərqlənir. Göyçə mahalında üçüncü çərşənbə *ölü təki* adlanır, qəbir üstünə həmin gün gedilir. Cul kənd sakini Nizami Orucovun dediyinə görə, qəbir üstünə çıxmamışdan bir gün qabaq hər kəs öz ölüsünün qəbrinin üstünü təmizləyib səliqəyə salırdı. Unudulan, yaddan çıxan qəbirlər varsa, onlara əl gəzdirmək savab hesab olunurdu. Bala Məzrədə qəbir üstünə gediləndə

qənd, şərbət, bayram nemətlərindən – əyirdək, qoz-fındıq, xurma aparılırdı. Hamı gətirdiyi ərzağı bir süfrənin üstünə töküb onları orada qarışdırır, qəbir üstünə gələnlərə həmin ehsandan pay verilir, artıq qalan ehsan da kənddəki imkansız şəxslərə paylanırdı. Həmin gün ili çıxmamış ölülər üçün *qara bayram* verilir. İnsanlar qəbiristanlıqdan çıxdıqdan sonra kənddə ili çıxmamış ailələrə baş çəkib onlara başsağlığı verir. Həmin ailələr yasdan çıxarılır ki, onlar da digər ailələr kimi bayramı yaxşı qarşılasınlar. Bala Məzrədə yas olan ailələrdə televizorun üstünə qara örtük salınır və il çıxana qədər televizor açılmırdı. Həmin gün televizorun örtüyü götürülür, o, işə salınır, gətirilən bayram nemətləri ev yiyəsinə verilir, yasa gələ bilmə-yənlər həmin gün o ailələri ziyarət edib onlara başsağlığı verirdi. Aqil Şərifovun dediyinə görə, Bala Məzrədə hər kəs qəbir üstünə gedirdi, orada küsülüləri barışdırır, qəbiristanlıq-dan çıxandan sonra kənddə nə qədər ili çıxmamış ölü varsa onlara baş çəkib başsağlığı verirdi. Ölü yiyəsi həmin gün süfrə açır, qara bayrama gələnlərə ehsan verirdi, ehsana gələ bilmə-yənlərin payı isə evlərə göndərilirdi. Evlərə göndərilən ehsana *çiy ehsan* deyilir. Ölü yiyəsi ehsan üçün heyvan kəsəndə ətin bir hissəsini ehsan bişirmək üçün götürür, qalan hissəsini isə kəndə paylayırdı. Əti doğratdırır, ailə üzvlərinin sayına uyğun da tikə qoyurdu ki, hər kəs o ehsandan dada bilsin. Ətə gücü çatmayanlar isə halva bişirib paylayırdı.

Vedi rayonunda isə qəbir üstünə axır çərşənbədə çıxılıb. Gölcığın kənd sakini Ağacan Sadıqovun dediyinə görə, qəbirüstü günü ölülərin gözünü yığmaq məqsədilə keçirilir. Həmin gün evdə plov bişirilir, ölülərin gözü evdə qalmasın deyə onlar ziyarət olunur. Qəbir üstünə səhər tezdən gedilir, evdə bişən

bayram nemətlərindən – qoz, fındıq, şəkərbura, kətə və sair xonça tutub qəbir üstünə aparılırdı. Hər kəs öz ölüsünün qəbirini ziyarət edir, onun üstündə “Yasin” oxutdururdu. Kimsəsiz, bivaris şəxslər varsa, onların da qəbiri ziyarət olunur, üstündə şam yandırılırdı. Bivaris şəxslərin qəbirinin ziyarət olunması savab sayılır. Bayram nemətlərindən qəbir üstünə qoyulur, qəbiristanlığa gələn şəxslərə paylanırdı. Şahvarıb kənd sakini Şəhla Hüseynovanın dediyinə görə, qəbir üstünə boyanmış yumurta, kətə, kökə aparırdılar, orada gətirilən nemətləri camaata paylayır, çay qaynadırdılar. Gətirilən ehsandan hər kəsə pay qoyur, bir az da qəbirin üstünə tökürdülər. Bayburd kənd sakini Abbas Hüseynovun dediyinə görə, axır çərşənbədə hər kəs öz ölüsünün üstünə xonça aparır, təzə ölən şəxslərin üstünə isə xüsusi xonça bəzəyib aparırdılar. Hər kəs ölüsünü ziyarət etdikdən sonra yerə böyük bir ədyal sərib gətirdikləri bayram nemətlərini ora tökürdülər. Bir-iki nəfər həmin ərzaqları qarışdırır, hərənin dəsmalına bir qab ondan pay qoyurdular. Əvvəllər bayram nemətlərindən qəbrin üstünə də tökülürdü, amma sonralar ağsaqqalların məsləhəti ilə bu adət yığışdırılmışdır. Söyləyicilərin dediyinə görə, əvvəllər qəbiristanlıqda ehsan da bişirilib, amma sonralar ancaq evdə bişirilmiş hazır ərzaqlar aparılmışdır. Hər kəs öz ölüsünün qəbiri üstündə çıra yandırırdı. Sabirabad bölgəsində baş daşın arxasında xüsusi şamdanlar vardı, çıraları həmin şamdanlara qoyub orada yandırırdılar. Bayburd kənd sakini Abbas Hüseynovun dediyinə görə, hökumət şamı donuz piyindən hazırlandığı üçün ondan istifadə etməyiblər, özləri pambıqdan çıra düzəldib, onu kərə yağına batırıb qəbir üstündə yandırıblar. Həmin çıraların həm də xoş ətri olurdu.

Hallavar, Heydərli, Güllüdərə kəndlərində bayram martın 22-si qeyd edilir, martın 23-ü isə qəbr üstünə çıxılırdı. Həmin günə *ölülər bayramı* deyilir. Qəbir üstünə əyirdək, konfet, əsasən də, qənd aparılırdı. Hər kəs qəbiristanlığın altında yolboyu düzülürdü. Molla hamının ölüsünə Quran oxuyur, bir-bir ölən şəxlərin adını çəkir və onların ehsanına qənd paylanırdı. Uşaqlar çantalarını götürüb yolboyu düzülürdü, evdə neçə nəfər varsa, hər uşağın çantasına o qədər qənd qoyulurdu. Söyləyicilərin dediyinə görə, ermənilər də gəlib onlara qoşulur, onlara da həmin ehsandan verilirdi. Bir nəfər də əlində çubuq nəzarət edirdi ki, bir uşaq iki dəfə pay almasın. Elə vaxt olub ailədə uşağın sayı çox olan şəxslər bəzən oradan evə bir kisə qənd aparırdı.

Qərbi Azərbaycanın özündə də bölgədən bölgəyə çərşənbə anlayışı fərqlənir. Göyçə mahalında dörd çərşənbə anlayışı olsa da, həmin çərşənbələr dörd ünsürə görə adlandırılmır. Birinci çərşənbəyə *boş təki*, ikinci çərşənbəyə *kül-zibil təki*, üçüncüyə *ölü təki*, sonuncu çərşənbəyə isə *ilaxır təki* deyilir. Boş təki adından da göründüyü kimi boş keçirdi, hamı o biri çərşənbələrin gəlməsini gözləyirdi. Amma səməninin cücərdilməsi boş çərşənbədən başlayırdı. Bala Məzrədə boş çərşənbədən başlayaraq cavanlar kəndin ortasındakı meydana yığışır, burada Aşıq-aşıq, Dirdədöymə, Eşşəkbeli, Ənzəli, həmçinin Novruza xas oyunlar – Yumurta döyüşdürmə, Qatara qoyma, Helləməc oynayırdılar. Kül-zibil təkində ev tamam boşaldılır, evdə nə qədər barxana, palaz, mitil varsa hamısı çölə çıxarılıb təmiz havaya verilir, palazlar çırpılır, ev-eşik təmizlənirdi.

Axırıncı çərşənbəyə xalq arasında *ilaxır çərşənbə* və ya *sonuncu çərşənbə* deyilir. Axır çərşənbə edilən diləklərin,

arzuların gerçəkləşəcəyinə, tutulan niyyətlərin hasil olacağına inanılırdı. İlin bu dövrü həm də sınamalarla zəngin idi. Bunlardan biri *qulaq falı* idi. Axır çərşənbədə eşidilən ilk sözün doğru çıxacağına inanılırdı. Qulaq falına çıxan ürəyində hansısa bir dilək tutur, heç bir kəlmə eşitməmək üçün dinləyəcəkləri qapıya çatana qədər əlləri ilə qulaqlarını tuturdu. Dinləyəcəkləri qapıya çatdıqda əllərini qulaqlarından çəkib qapını dinləyirdilər, eşitdikləri ilk kəlmənin məzmununa görə tutduqları diləklərin hasil olub-olmayacağını müəyyən edirdilər. Qulaq falını sınayanların dediyinə görə, onun qədər doğru çıxan ikinci bir fal yoxdur. Xalisa kənd sakini Çiçək Fətiyevanın dediyinə görə, qonşularında bir qız var idi, yaşı keçirdi, hələ ailə qurmamışdı. İlaxır çərşənbədə qulaq falına çıxıb qonşularının qapısını dinləyir. Bu zaman evin böyüyü arvada "əşi, al bunu, qoy ora, orda qalsın" deyir. Söyləyicinin dediyinə görə, o qız, həqiqətən, ailə qura bilmədi. Adilə İsmayılovanın dediyinə görə, qulaq falına çıxanda yanlarında qoz, fındıq, konfet götürürdülər, hansı evdə yaxşı söz eşitsəydilər, qapını döyüb qoz-fındığı evin içinə atırdılar. Pis söz eşidəndə isə qapını açıb bir qulpluca su atırdılar.

Təkcə azərbaycanlılar deyil, ermənilər də qulaq falına inanır, onlar da axır çərşənbədə azərbaycanlılar kimi qapı pusurdular. Çiçək Fətiyevanın dediyinə görə, ərinin erməni dostunun iki qızı var idi, amma oğlan uşağı da istəyirdilər. Həmin ermənininin həyat yoldaşı bu niyyətlə axır çərşənbədə qapı pusmağa çıxır, başına gələn hadisəni gəlib Çiçək Fətiyevaya danışır. Çiçək xanımın dediyinə görə, həmin qadın qulaq falına çıxanda "əşi, bu iki dənə şey buna lazım idi, qoy ora, o biri qozlar çürükdü" kəlməsini eşidir. O da erməni gəlinə

məsləhət görmüşdü ki, daha qulaq falına çıxmasın, elə bu iki qızla kifayətlənsin. Ona görə axır çərşənbədə böyüklər həmişə məsləhət görürdü ki, yaxşı söz danışın, ağzınıza pis kəlmə almayın. Bəylər Heydərov bununla bağlı maraqlı bir xatirəsi vardı: "Gözümün şahidiyəm. İlaxır gecəsidi, evdə oturmuşuq. Həmişə bizə deyərdilər ki, ilaxır gecəsi yaxşı söhbətdər eliyin, birdən qulaq falına gələn olar. Bilmirəm atam onu hiss eləmişdi ki, kimsə qapıda dayanıb, ya elə bədahətən gəlmişdi. Evdə söhbət eliyirdi. Anama dedi ki, arvad, dünən bazara getmişdim, yaxşı alma satırdılar. Qırmızı almalar idi. Ondan bir kilo aldım ki, bayramda istifadə eliyərik. Kişinin ağzından söz qutarmamış cavan bir qız girdi içəri, dədəmin boynunu qucaxladı. Demək, bunun evladı olmurmuş. Niyyət eliyib, qulaq falına çıxıb. Həqiqətən də, həmin il gəlinin övladı oldu". Təkcə insan yaşayan evlərin qapısı dinlənilmir, həm də heyvanların olduğu tövlə də dinlənilirdi. Şahvarıb kənd sakini Şəhla Hüseynovanın dediyinə görə, tövlənin qapısını dinləyirdilər, heyvan öskürürdüsə, bu da xeyrə yozulurdu. Çimən kənd sakini Göyərçin Həsənova qulaq falı ilə bağlı maraqlı bir xatirə danışdı. "Atam müharibəyə getdi. Yazığ irəhmətdih nənəm çərşənbə günü məni göndərdi, – qonşumuz Pakizə vardı, – dedi ki, mənim niyyətimə get ona qulağ as. Getdim, qulağ asdım, gəldim. O vaxdı ərişdə kəsərdilər bizdərdə. Ögey oğlu dedi ki, bacım əriştəni elə kəsir, çörəyin üssünə gəlmir. Gəldim. Anam dedi, bala, nə eşitdin? Dedim, nənə, dedi ki, bacım ərişdəni elə kəsir heç çörəyin üsdünə gəlmir. O söz doğru çıxdı. Atam müharibədən qayıtmadı". Qursalı kənd sakini Dilarə Rəşidovanın da qulaq falı ilə bağlı maraqlı xatirəsi vardı: "Mən uşağıydım, Saralda yaşıyırdım. Bizim cavan qızdar, bajım-zad baja pusmağa

çıxdılar. Çıxanda balaja uşaxlarnan mən də çıxdım. Bizim qonşu varıydı, kənt direktoruydı. Badvalda yaşıyırdılar, yuxarını remont eliyirdilər. Mən getdim bınnarın pəncərəsinnən belə baxdım. Baxdım ki, anası ploy bişirifdi, oğlu da xırdadı. Nətər oldusa gədənin ayağı ployun içinə batdı. Dedi, səni qara vurğun vursun. Səni Allah elə eləsin ki, ömür boyu pis gün görəsən. Oğluna qarğış etdi. Mən elə pis oldum ki, ana niyə balaya belə qarğış eliyir. Ordan kirimişcə geri qayıtdım. İnan, özüyün canın üçün, mən ərə gəldim, ömür boyu zillah çəhdim, xoş gün görmədim". Gülənbər Əhmədovanın kiçik bacısı xəstə idi. Axır çərşənbədə onun sağalmasını niyyət edib qapı pusur. Dediyinə görə, elə qulağını qapıya dirəmişdi ki, eşidir: "Ay Allah, pışkanı yandırdım, kutardı". O söz onun ürəyimdə bir xal olub qalmışdı. Qarğabazar kəndində niyyət tutan şəxs qapıya çıxıb qulaq asır, eşitdiyi ilk sözə görə niyyətinin hasil olub-olmayacağını müəyyən edirdi. Saral kəndində niyyət tutan küllüyün[3] başına çıxırdı, sakitcə dururdu, eşitdiyi ilk söz onun niyyəti idi. Kənd sakini Şəmsiyyə Mustafayevanın dediyinə görə, onuncu sinifdə oxuyurdu, həmin il ali məktəbə sənəd verəcəkdi. O da niyyət eliyib küllüyün başına çıxır. Üzbəüz qonşuları da uşağı evdə yatırıb həyətə tonqal qalamağa çıxıb. Uşaq yuxudan oyanır, yanında heç kimi görməyəndə "ay ana, ay ana" deyib ağlamağa başlayır. Onun eşitdiyi ilk söz də o olur. Həmin il anası rəhmətə gedir.

Çərşənbə axşamı bir nəfər hər iki əlinə boş qab (parç və s.) alıb bir şəxsə yaxınlaşır və qablardan birinə pay qoymasını (və ya su tökməsini) xahiş edir. Pay niyyət tutulan qaba qoyulursa, onda tutulan niyyətin gerçəkləşəcəyi anlamına gəlir.

---

[3] küllük – zibil tökülən yerə deyilir.

Axır çərşənbədə gerçəkləşdirilən fallardan biri də bulaq başına və ya arx qırağına yumurta basdırmaq idi. Axşam qızlar bulaq başına yumurta basdırır, yanına qırmızı və qara karandaş qoyurdular. Səhər gedib onu yoxlayırdılar. Əgər yumurtanın üstünə qırmızı xətt çəkilibsə, tutduqları niyyətlərin gerçəkləşəcəyi, qara xətt çəkilibsə, niyyətlərinin hasil olmayacağı anlamına gəlirdi.

Çərşənbələr içərisində ən təmtəraqlı axır çərşənbə qeyd olunurdu. Həmin gün üçün qabaqcadan hazırlıq görülür; odun toplanılır, lopa hazırlanır, çərşənbə tonqalı üçün hamı bir bağ saman saxlayırdı. Lopa köhnə əskilərdən hazırlanır. Köhnə əskiləri top kimi yumurlayıb məftillə sarıyır, əl tutmaq üçün məftilin bir ucu da uzun saxlanılırdı. Həmin lopa beş-on gün əvvəldən neftin içinə qoyulur ki, nefti tam canına çəksin. Lopanı atmaq üçün kənddən kənara – açıq sahəyə və ya hündür bir təpənin üstünə çıxılır, orada tonqal qalanır, lopalar atılırdı. Göyərçin Həsənovanın dediyinə görə, Çimən kəndində tut bağının yanında açıq ərazi var idi, hamı lopasını əlinə alıb ora çıxırdı. Orada lopa atır, yarışırdılar ki, kim lopanı daha yuxarı atır. Lopalar atıldıqdan sonra *qurşaqatdı* başlanırdı.

Qurşaqatılan günə *baca-baca günü* və ya *baca gəzmək* deyilirdi. Keçmişdə evlərin üstü torpaqdan idi, ona dam evləri və ya orta-baca evlər deyilirdi. Onun orta hissəsində təndir qurulur, tüstünü çəkməsi üçün evin ortasından baca açılırdı. Axır çərşənbədə uşaqlar həmin bacadan qurşaq sallayırdılar. Qurşaq qapıdan atıldıqda isə onun bir ucunu içəri atıb özləri qapının arxasında gizlənir, bayram nemətləri qurşağa qoyulduqdan sonra onu çəkib götürürdülər. Qaraçanta kəndində isə yaşlı nənələr qara parçadan torba tikirdi, baca-baca günü həmin

torbalar bacadan içəri sallanırdı. Torbaya bayram nemətləri – qoz, fındıq, boyanmış yumurta qoyulurdu. Söyləyicilərin dediyinə görə, vaxtilə təkcə uşaqlar deyil, böyüklər də qurşaq atırdılar.

Qərbi Azərbaycanın əksər hissələrində baca-baca günü axır çərşənbədə keçirilir, amma Vedi, Hamamlı rayonlarında bayram günü keçirilirdi. Vedi rayonunda martın 21-i baca-baca günü, martın 22-si isə bayramlaşma günü kimi qeyd olunurdu. Bayram bazarlığına gedən baca-baca günü üçün də ayrıca bazarlıq edir, bayram sovqatları alırdı. Bayram üçün əyirdək, qatlama, İrəvan kətəsi bişirilir. Həmin nemətlər bir teştin içinə tökülüb kürsünün üstünə qoyulurdu. Uşaqlar bacadan torba salladıqda evin yaşlı qadını teştdən bayram sovqatlarından götürüb onun torbasını doldururdu. Söyləyicilərin dediyinə görə, 1941-45-ci illərdə – ölkədə aclıq olduğu, insanlar normal qidalana bilmədiyi dövrdə belə kimsənin torbasını boş yola salmayıblar, quru çörək də olsa, qoyurdular. Həmin gün axşam qızlar əyinlərinə oğlan paltarı geyinib qulaq falına (qapı pusmaya) çıxırdılar. Səs eşitməmələri üçün əlləri ilə qulaqlarını tutur, qapıya yaxınlaşdıqda əllərini qulaqlarından çəkirdilər. Eşitdikləri ilk sözün məzmunundan çıxış edib tutduqları niyyətlərin hasil olub-olmayacağını müəyyən edirdilər. Yellicə kənd sakini Əsmər Mədətovanın dediyinə görə, qızı birinci il konkursa düşür, ali məktəbə qəbul ola bilmir. Növbəti il ali məktəbə sənəd verəndə niyyət tutub qonşularına qulaq falına çıxır. Eşitdiyi ilk söz o olur ki, “get maa nar çubuğu kəs gətir”. Həmin il qızı elə ilk cəhdəcə kəsilir.

Axır çərşənbənin əsas atributlarından biri *kosa bəzəmək* idi. Zeytə kənd sakini Bəylər Heydərovun dediyinə görə, bir nəfərə pencəyi tərs üzünə geyindirib tanınmaması üçün üzünə maska taxırlar və qapı-qapı gəzdirirdilər. Qəfildən qapını açır,

içəri girib oynayır, məzhəkə çıxarırdılar. Uşaqlar onlardan qorxur, onları görən kimi qaçıb evə girirdilər. Söyləyicinin dediyinə görə, Sabirabad rayonu Şıx Salahlı kəndinə deportasiya olunandan sonra da bir müddət bu adəti davam etdirmişlər. Cul kəndində də axır çərşənbədə keçəl-kosa bəzənir, dəstə halında kəndi gəzirdilər. Dəstədə zurna çalan, nağaraçı olurdu. Mahnı çala-çala qapıya gəlir, oynayıb ev yiyəsindən pay istəyir, ev yiyəsi də onların torbasını doldurub yola salırdı. Çimən kəndində isə kosa-kosa gəzdirəndə uşaqlardan birinin başı qırxılır, digərinin başına ucu şiş kosa papağı qoyulurdu, uşaqlar onların başına yığışırdı. Dəstədə qarmon çalan, nağaraçı olurdu, səhərə qədər bütün kəndi gəzir, həyətə girib oynayır, bayram paylarını alıb gedirdilər. Söyləyicinin dediyinə görə, Biləsuvar rayonunun Bağbanlar kəndinə köçəndən sonra da son illərə qədər bu adəti saxlamışdılar. İsrafil Əliyevin dediyinə görə, Kosa-kosa oyununu vaxtı ilə yaşlı kişilər oynayıblar. Keçəlin başına qoyun dərisi, dəri olmadıqda kapron corab keçirib üstünə də zınqırovlar asırdılar. Uşaqlar onların qorxusundan qaçıb nənələrinin arxasında gizlənirdi. Qapı gəzəndə tanınmamaları üçün oğlanlar əyinlərinə qadın, qızlar isə kişi paltarı geyinirdi.

Cavan qızlar axır çərşənbədə bir evə yığılıb *çilə çıxarırdılar*. Çilə çıxartmaq üçün əsasən kişi xeylağı olmayan evlər və ya geniş damlar seçilirdi. Əsmər Mədətovanın dediyinə görə, kiçik yaşlarından atasını itirmişdi, evdə kişi xeylağı olmadığı üçün Yellicə kəndində axır çərşənbədə cavan qızlar onların evinə toplaşırdılar. Bacaya tir atıb oradan yelləncək asır, gətirdikləri ərzaqları bir araya gətirib ondan yemək bişirirdilər. Həmin gecə qızlar oyun oynayır, üzük falına baxırdılar. Fala

baxmaq üçün çaydan çərşənbə suyu gətirirdilər. Loru mahalının Çubuxlu kənd sakini Dilarə Rəşidovanın dediyinə görə, qızlardan biri şər qarışan vaxtı lal-dinməz gedib çaydan çərşənbə suyu gətirirdi. Həmin suyu mis qabın içinə tökür, hərə öz üzüyünü və ya bir əşyasını ora salırdı. Kasanın başında bir qız oturur, onun başına da qırmızı kəlağayı atırdılar və ya gözlərini yumurdu. Qızlardan biri bayatı deyir, həmin qız sudan bir üzük çıxarırdı. Yaxud axır çərşənbədə hər qız öz saçından bir tük qoparıb verir, həmin qızın üzüyünü tükə keçirib stəkanın içinə salırlar. Üzük neçə dəfə stəkanın kənarına dəyirdisə, o yaşda da ərə gedəcəyinə inanırdılar. Söyləyicilərin dediyinə görə, saç tükü niyyət tutan qızın öz saçının tükü, üzük isə nişanlı qızın üzüyü olurdu. Çilə gecəsi qızlar *iynə falına* baxırdılar. İynənin başına pambıq dolayıb biri qızın, biri oğlanın adına suya salırdılar. İynələri suya saldıqdan sonra oxuyurdular:

Ay çilə, çilə qardaş,
Atını qəmçilə, qardaş.

İynələr suda qovuşurdusa, həmin qızla oğlanın evlənəcəyinə inanırdılar. Söyləyicilərin dediyinə görə, iynə falı zamanı fərqli niyyətlər də tutulurdu. Bu il kim universitetə girəcək, kimin övladı olacaq və sair. Əgər iynələr qovuşurdusa, tutulan niyyətlərin hasil olacağına inanılırdı.

Bala Məzrə kənd sakini Aqil Şərifovu balaca vaxtı bacıları çox çilə gecələrinə götürüb, ona görə qızların necə çilə çıxartdıqlarının şahidi olub. Onun dediyinə görə, qızlar çilə gecəsində işlənməmiş tas, xam iynə və pambıq götürürdülər. Pambığı iynələrin başına dolayırdılar. Çərşənbə suyundan tasa töküb başına pambıq dolanmış iynələri suya salırdılar. İynələrdən birinə qızın, birinə də onun istədiyi oğlanın adını verirdilər.

Hamı da diqqətlə baxırdı ki, bunlar bir-birinə yaxınlaşır, ya yaxınlaşmır. Aqil Şərifovun dediyinə görə, birdən elə olurdu, oğlanın adına olan iynə gəlirdi, amma qız qaçırdı. Onda deyirdilər, buna bax ey, qız qaçır, qızın buna könlü yoxdur. Əgər qızın oğlana könlü varsa, iynəni üfürüb onları bir-birinə yaxınlaşdırmağa çalışırdı.

Saral, Qursalı, Hallavar, Heydərli kəndlərində cavan qız-gəlinlər axır çərşənbədə ya təzə gəlinin başına toplaşır, ya da hana başına yığılırdılar. Saral kəndində təzə gəlinin başına toplaşamağa *bijək salmaq* deyilir. Söyləyicidən bijək sözünün nə anlama gəldiyini soruşsaq da, tutarlı izah ala bilmədik. Həmin gün ev yiyəsi şirniyyat süfrəsi açırdı. Hana başına çıxmaq isə belədir ki, kimin evində hana qurulubsa, axır çərşənbədə qız-gəlinlər ora toplaşırdı. Ev sahibi xalçanı toxuyub qurtarır, onun kəsilməsini axır çərşənbəyə saxlayırdı. Xalça toxunanda küj ağacından istifadə olunur, həmin ağac əriş iplərini bir-birindən ayırmağa xidmət edir. Küj ağacını əriş iplərinin arasına keçirir, xalçanı toxuyub qutarandan sonra da sıyırıb çıxarırdılar. Küjü çıxardan şəxs niyyət tutub çölə çıxır, ilk eşitdiyi söz onun niyyəti idi. Həmin küjün çıxarılmasını, adətən, axır çərşənbəyə salırdılar, həmin gün də cavan qız-gəlinlər o evə hana başına yığılırdı. Güjü adətən günorta çəkib çıxarırdılar. Çubuxlu kənd sakini Dilarə Rəşidovanın dediyinə görə, hana başına yalnız yetkinlik yaşına çatmış qızlar gedirdi, uşaqları ora buraxmırdılar. Oğlanlar isə qapı arasından xəlvəti baxırdılar. Həmin gün beş yaşında bir qız uşağını bulaqdan su gətirməyə göndərirdilər. Saral kəndində çox bulaq var idi: Qara suyun bulağı, Xallı bulaq, Ağalıq bulağı, Məmməd Eminin bulağı və sair. Hansı bulaq evə yaxın idi, həmin uşaq dillənmədən

oradan bir vedrə su gətirib mis qabın içinə tökürdü. Ev sahibi o uşağa hədiyyə verir, onun özünü başına qırmızı kəlağayı atıb qabın başında oturdurdu. Hər kəs özünə məxsus bir əşyasını niyyət edib suya atırdı. Oturan adamlar bayatı çəkirdi. Məsələn,

Göydə ulduz tək gedir,
Gah əyləşir, gah gedir.
Qorxma, ürəhsiz oğlan,
Üstüncə Allah gedir.

Həmin uşaq əlini salıb qabdan bir əşya çıxarırdı, o əşya kimə məxsusdursa, bayatının məzmunu da ona aid idi. Yaxud,

Sandıq üsdə gəzərəm,
Sandığa gül bəzərəm.
Qərib elin qızıyam,
Qürbət eldə gəzərəm.

Sudan kimin əşyası çıxırdısa, bu bayatının məzmunu da ona aid edilirdi. Saral kənd sakini Şəmsiyyə Mustafayevanın dediyinə görə, bir dəfə qonşuları bijək salmışdı, o da həmin mərasimdə iştirak etmişdi. Qızlar su falına baxırdılar, o da bəxtini sınamaq üçün öz düyməsini suya atmışdı. Söyləyicinin dediyinə görə, o bayatı indiyə qədər yadındadır:

Arazın daşqınına bax,
Su axır, coşqununa bax.
Oxuyuram dərd əlindən,
Deyirlər, eşqinə bax.

Söyləyicinin dediyinə görə, doğrudan da, onun taleyi bayatıda deyildiyi kimi olmuşdu. Çətinlik, məhrumiyyət içində yaşamış, amma heç vaxt bunu büruzə verməmişdir.

Axır çərşənbədə yetkinlik yaşına çatmış qızlar duzlu çörək (koka, kömbə, Qaraçanta kəndində qley adı ilə tanınır) bişirirdi. Çörəyi yeyib yatır, hansı oğlan yuxuda ona su verəcəksə, ona da ərə gedəcəklərinə inanırdılar.

Axır çərşənbədə icra olunan fallardan biri də *ayaqqabı falı* idi. Bir nəfər arxası darvazaya doğru durur, niyyət tutub ayaqqabını başı üstündən atırdı. Əgər ayaqqabının burnu qapıya tərəf düşürdüsə, deməl, həmin il ərə gedəcəkdir. Xalisa kənd sakini Çiçək Fətiyevanın dediyinə görə, Dilbazi adında bir qonşuları var idi, qızın yaşı da keçirdi. Dörd il hər axır çərşənbədə sınayır, hər dəfə də ayaqqabının burnu evə doğru düşürdü. Deportasiya olunan ili də ərə getmək niyyəti ilə axır çərşənbədə ayaqqabı atmış, ayaqqabının burnu yenə də evə doğru düşmüşdü.

Axır çərşənbədə səhər tezdən hələ hava işıqlaşmamış su üstünə çıxılırdı, o vaxt çaydan axan suya *çərşənbə suyu* deyilirdi. Mətləb Nəsibovun dediyinə görə, anaları sübh tezdən durub kanaldan su gətirir, yuxuda ikən onların üstünə çiləyirdi, onlar suyun sərinliyinə yuxudan ayılırdılar. Yuxudan durub həmin suda yuyunurdular, anaları həmin suyu həyət-bacaya, mal-qaranın üstünə, ağaclara səpirdi. Yellicə kənd sakini Əsmər Mədətova su üstünə çıxmaqla bağlı maraqlı bir xatirə danışdı: "Mən dayım arvadının elədiyini danışacam. Nənəmin o biri oğlu evlənmiyif, amma dayım evlənif, bunun uşağı da var. Mənim dayım arvadıynan nənəm gün batannan sora iki qız uşağının əlinə bir dənə təmiz qab verdilər, dedilər, dal-qabaq gedin. Dimməz gedin, dimməz də qayıdın ha. Kim də qabağınıza çıxsa, nəsə soruşsa, cavab verməyin. Danışmağ olmaz. Bunnar ikisi də getdilər, su götdülər, həmin qabın içinə də bulağın gözündən

daş yığdılar. Xalam ayrı yığdı, dayım qızı da ayrı yığdı. Gətdilər bunu düzdülər. – Allaha and olsun, mən gözümün şahidiyəm, yalan-zad döyül. – Gətdi nənəm də düzdü belə bacanın üsdünə, mənim dayımı niyyət elədi, evlənməmiş dayımı. Mənim dayım arvadı da düzdü daşı bacanın üsdünə, suyu da səpdilər üsdünə. Dedilər, əyər bunnar müharibədən qayıdıf gələcəksə, bu daşın altında göy ot olsun, yox, əyər gəlmiyəcəksə, heş nə çıxmasın. Mənim dayım arvadı düzdüyü daşdarın altınnan, Allaha and olsun, göy ot çıxdı. Amma nənəmin o subay dayıma niyyət eləyib qoyduğu daşın altından heş nə çıxmadı. Yazıx nənəm ölənə qədər ağladı ki, Əli gələn dəyil. Dayım gəldi, o gəlmədi".

Səkinə Məhərrəmovanın dediyinə görə, su üstünə bir oğlan, bir qız getməli idi. Özü də danışmamalı, lal gedib lal gəlməli idilər. Vedrəni götürüb bulağa gedirdilər, suyu gətirib ağacdan asırdılar. O sudan mallara, evin küncələrinə səpirdilər. Qalan suyu saxlayır, çiməndə hərənin vedrəsinə bir saplıca ondan tökürdülər. Su falına həmin su ilə baxırdılar. Çubuxlu kənd sakini Dilarə Rəşidovanını dediyinə görə, su üstünə lal-dinməz gedirdilər. "Mən gederdim lal-dimməz, heç kimi də yanımnan aparmerdım, danışmamalısan. Yeddi yerdən axar sudan su gətirməlisən. İstiyir böyründə adam olsun, səni çağıran olsun, dinməməlisən. Səhər tezdən gedif axar suyun üstündən tullanırsan, sudan götürörsön, onu lal-kar götürörsən, gətirif həyətə səpersən. Onu da dimməz gətirif həyətin küşdərinə, evin küşdərinə, hər yerə səpərdin". Şəhla Hüseynovanın dediyinə görə, həmin gün çaydan götürülən suya *bayram suyu* deyirdilər, onu gətirib qapıda heyanların üstünə, ağaclar dibinə çiləyirdilər.

Su üstünə gedən niyyət tutub çaydan və ya bulağın gözündən daş götürürdü, qismətinə ağ daş çıxırsa, tutulan niyyətin

hasil olacağı, qara daş çıxırsa, hasil olmayacağı anlamına gəlirdi. Bayburd kəndində bulaqdan götürülən daşları evin künclərinə, mal tövləsinə, həyət-bacaya, un taknəsinin içinə atırdılar, həmin daşın onlara ruzi-bərəkət gətirəcəyinə inanırdılar. Axır çərşənbədə çayların, bulaqların suyu bir anlıq dayanır, ona *suyun qədirdə qalması* deyilir. Həmin vaxt tutulan niyyət həyata keçir. Axır çərşənbədə söyüdlərin başını əydiyinə, həmin an tutulan niyyətlərin hasil olacağına inanılır. Xeyirbəli kənd sakini Gülənbər Əhmədovanın dediyinə görə, su üstünə çıxanda oturub söyüdlərin başının aşağı əyməsini gözləyərdilər.

Terp kənd sakini Mansur İmamverdiyevin dediyinə görə, çilə axşamı heç kim yatmazdı, kim yatsa idi, onu ya döşəyə tikir, ya da üstünə bir vedrə su töküb oyadırdılar. Səhər tezdən 4-5 arası "ha lələm, lələm" oxuya-oxuya axar su üstünə gedirdilər. Bir nəfər mahnının sözlərini oxuyur, dəstə üzvləri də xorla "ha lələm" nəqərat hissəsini deyirdi. Oğlanlar çərşənbə suyunda çimir, qızlar əl-üzlərini yuyurdu. Su üstündən tullanıb "dərdim, bəlam su ilə axıb getsin" deyirdilər. O sudan qablara doldurub evə gətirir, evin künclərinə, mal-qaranın üstünə səpirdilər ki, bərəkətli olsun.

Bala Məzrədə təzə gələn gəlinləri axır çərşənbədə bulaq üstünə çıxarırdılar, ondan sonra həmin gəlinin ayağı açılır, onun bulaq üstünə getməyinə, qonşuya keçməyinə icazə verilirdi. Ona görə təzə gəlinlər axır çərşənbəyə qədər gözləyirdi. Axır çərşənbədə gəlinləri qırmızı geyindirib qızlar da başına yığışıb onu bulaq üstünə çıxarırdılar. Gəlin əlində vedrə və ya səhəng bulaqdan su götürür, bulaq üstündəki qızlara konfet paylayırdı. Həmin konfeti subay qızlara verirdilər ki, gələcəkdə belə gün onlara da qismət olsun. Həmin gün hamı bir-birini sulayırdı.

Göyçə mahalında axır çərşənbənin əsas atributlarından biri də *sulaşma* idi. Toğluca kənd sakini Kamran Qasımovun dediyinə görə, axar su götürməyə tənbəllik edirdilər, gölməçələrdəki çirkli suyu götürüb atırdılar, amma kimsə bundan incimirdi. Üstləri tamam islandığı üçün həmin gün bəzən iki-üç dəfə paltar dəyişməli olurdular.

Sulaşma Qərbi Azərbaycanın müəyyən bölgələri üçün xarakterikdir. Məsələn, Xalisa tərəfdə belə bir adət olmayıb, həmin kənd sakininin dediyinə görə, deportasiyadan sonra Tərtərdə göyçəlilərlə bir kənddə məskunlaşdıqdan sonra belə bir adətin varlığından xəbər tutub. Sulaşma Dərələyəz, Göyçə mahalları üçün xarakterik idi. Hətta Tərtərin yerli sakinlərinin də belə bir adətdən xəbərləri yox idi. Söyləyicinin dediyinə görə, Tərtər rayonu Səhləbad kəndində məskunlaşandan sonra bir illəri qonşularının qapısını açıb içəri bir stəkan su atmışdı, içəridəkilər qorxudan çığırmışlar. İzah edəndə də ki, bu bir adətdir, aydınlığa çıxmağınız diləyi ilə atılıb ondan sonra sakitləşmişlər.

Bulaq üstünə səhər tezdən dan yeri söküləndə gedirdilər. Hər kəs əlinə lopa alır, onun işığında bulaq üstünə, çay üstünə gedirdi. Lopa əski parçasından hazırlanırdı. Əskini məftillə ağaca sarıyır, neftlə isladıb yandırırdılar. Suyun üstündən tullanır, çərşənbə suyunda əl-üzlərini yuyur, hamı çərşənbə suyu ilə bir-birini isladıb "qaranlığın getsin, aydınlığın gəlsin" – deyirdi. Bulaqdan su doldurur, bulağın gözündəki daşlardan səhəngin və ya vedrənin içinə atıb evə gətirirdilər. Çərşənbə suyunu həyət-bacaya, evin künclərinə, mal-qaranın üstünə səpir, uşaqların sifətinə çiləyirdilər.

Bayramın əsas əyləncələrindən biri də *kuf qurmaq* idi. Göyçə mahalında yelləncək qurulan gecəyə *kuf gecəsi* deyilir.

Evin bacasına tir atıb oradan yelləncək asırdılar. Kəndirin ortasına uzun bir taxta qoyulur, taxtanın bir tərəfində bir qız, o biri tərəfində isə digər qız oturur, bir nəfər də onları yellədirdi. Qızlar kufda yellənən vaxt *nanaylar* oxuyurdular. Yellicə kəndində isə Novruz qabağı qurulan yelləncəyə *kuflan* deyilir. Kənd sakini Əsmər Mədətovanın dediyinə görə, bayramdan azı on gün qabaq qızlar kuflan qururdular. Hər gecə ora yığışır, səhərə qədər yellənib nəğmələr oxuyurdular. Kuflanda yellənən qızlardan biri bir oğlanı istəyirmiş, həmin oğlan da qapının arasında durub yellənən qıza baxırdı. Bunu hiss edən qızlar ona belə bir söz qoşmuşdular:

Qapıda bəy durufdu,
Çiynində bel durufdu.
Qara şapka altınnan
Telləri yan durufdu.

Sabirabad rayonu Həşimxanlı kəndində məskunlaşmış Namizəd Allahverdiyevin dediyinə görə, bayram ərəfəsində qızlar Kür qırağında Tuqay meşələrində hündür qovaq ağacından yelləncək asırdılar. Yelləncəkdə yellənir, mahnılar oxuyur, haxışta deyirdilər. Qaraçanta kənd sakini Fitat Seyidovanın dediyinə görə, ata evləri böyük olduğu üçün qızlar çilə axşamı onların evinə yığışırdı. Evin bacasından atma atıb yelləncək qururdular. Rəncbər kənd sakini Nazilə Qafarovanın dediyinə görə, Sabirabadın Həşimxanlı kəndində şirə kanalının döşündə uzun söyüdlər var idi, Qarğabazar, Rəncbər kəndinin qızları həmin söyüdlərdən yelləncək asıb yarışırdı. Hərə bir niyyət tutub baş yaylığını ağacın budağına sarıyıb bir dəfə düyün vururdular. Deyirdilər, hansı yaylığın düyünü açılsa, o qız bu il nişanlanacaq. Məsimli kənd sakini Bacıxanım Əliyevanın

dediyinə görə, axır çərşənbədə qızlar həyətdə yelləncək asıb yellənirdilər. Başbilən bir qız əlinə çubuq alıb yellənən qızı arxadan vurur və istədiyi oğlanın adını soruşurdu, o da məcbur olub deyirdi. Sabirabad rayonuna deportasiya olunandan sonra da bir müddət bu ənənəni davam etdirmişlər, amma sonra sıradan çıxmışdır. Yelləncəkdə yellənən yetkinlik yaşına çatmış qızlar idi, kiçikləri həmin məclisə buraxmırdılar.

Yeni Daşkənd sakini Adilə İsmayılovanın dediyinə görə, atası deyərdi ki, axır çərşənbədə yeddi yerdə stol bəzənməlidir, dünyanın nə neməti varsa, o stolun üstünə tökülməlidir. İlaxır gecəsi yeddi löyün yemək – xəngəl plov, çolpa, qızartma, əriştə aşı və sair bişirilirdi. Söyləyicilər özləri də etiraf edirlər ki, axır çərşənbənin süfrəsi bayram süfrəsindən daha zəngin olub və axır çərşənbəni daha təmtəraqlı keçiriblər. Axır çərşənbədə süfrədə yeddi löyün nemət olurdu. Çubuxlu kənd sakini Dilarə Rəşidovanın dediyinə görə, axır çərşənbədə İrəvan kətəsi bişirirdi, iki ədəd quzu biskiviti bişirib hərəsini süfrənin bir tərəfinə qoyurdu, quzunun ağzına da ot qoyurdu. Hər çərşənbə fərqli yemək, axır çərşənbədə isə maş lobya ilə əriştə aşı bişirirdilər. Saral kənd sakini Şəmsiyyə Mustafayevanın dediyinə görə, ilaxır çərşənbədə artımlı ərzaqdan – düyü, lobya, mərci, paxlalı bitkilərdən yemək bişirirdilər ki, həmin il ruzuları artsın, bərəkətli olsun. Bayram süfrəsinə soğan, sarımsaq qoymazdılar. Qoz, fındıq, ərik qaxı, şaftalı qaxı, tut qurusu, iydədən ibarət bayram çərəzləri hazırlanıb süfrəyə qoyulurdu. Göyçə mahalının Başkənd kəndində bayram nemətlərindən – şəkərbura, qoz, fındıq və sair xonça tutulur, xonçanın ətrafına hər ailə üzvünün adına bir dənə şam qoyulurdu. Çərşənbə axşamı həmin şamlar yandırılırdı. Həmin gün evdə olmayıb

uzaqda olan ailə üzvlərinin, hətta yeznənin də adına şam qoyulurdu. Ölən şəxsin şamı isə qəbirüstü günü qəbiristanlıqda yandırılırdı. Bayram süfrəsinin ən vazkeçilməz neməti isə boyanmış yumurta idi. Yumurta soğan qabığı ilə boyanırdı. Bayramlaşmaya gedəndə uşaqlara boyanmış yumurta hədiyyə edir, baca-baca günü uşaqlar qurşaq salladıqda onların qurşağına boyanmış yumurta qoyurdular.

Bayramın əsas atributlarından olan səməni bayramdan 15-20 gün qabaq cücərdilir, belinə qırmızı bağlanırdı. Mətləb Həsənovun dediyinə görə, hər il iki-üç səməni cücərdib birini dəhlizə, birini qapının girişinə, digərini də süfrənin üstünə qoyurdular. Səməni bayrama qədər orada qalır, bayramdan sonra onu axar suya atırdılar. Səmənini natəmiz yerə atmaq günah hesab olunurdu. Səməninin düşər-düşməzi olduğuna inanılır, ona görə hər ailə səməni cücərtmirdi. O ailələr cücərdirdi ki, səməni onlara düşüb, onlar üçün xeyirli olub. Qarğabazar kənd sakini Əbdül Nəcəfovun dediyinə görə, valideynləri heç vaxt səməni cücərtməyib. Ailə qurandan sonra bir il o, bu ənənəni pozub səməni cücərdir, həmin il onlar üçün uğursuz gəldiyi üçün ondan sonra səməni cücərtməyi tərgidir.

Xeyirbəyli kənd sakini Usub İsmayılovun dediyinə görə, bayrama bir ay qalmış artıq bayram yallısı başlayır, hər gün birinin həyətində ta bayrama qədər yallı gedirdilər. Həmin kəndin digər sakini Mahmud Ələkbərovun dediyinə görə, camaat kolxozun klubuna yığışıb orada yallı oynayırdı. Bayram yallısı qara zurna, toxmaqlı nağara ilə müşayiət olunurdu. Qoçəli, Üçayaq, İkiayaq, Tello və sair yallılar oynanılırdı. Yəhya İbrahimovun dediyinə görə, qocalar deyərdi ki, yallı gedəndə ayağını yerə döymədinsə, başını yırğalamadınsa, o yallı sayılmır.

Xalisa kənd sakini Çiçək Fətiyevanın dediyinə görə, onların darvazalarının ağzı geniş idi, axır çərşənbədə hamı ora yığılır, orada təkər yandırır, tənək çubuqlarından tonqal qalayıb onun ətrafında bayram yallısı gedirdilər.

Qərbi Azərbaycanın Basarkeçər, Vedi mahallarında çərşənbələrlə yanaşı *cəmrə* haqqında təsəvvürlər də mövcuddur. Bu ifadə *cəmrə, cümlə, cəmlə* kimi müxtəlif variantlarda tələffüz olunur. Cəmrə haqqında anlayışlar daha əvvəllər məişətdən çıxdığı üçün onun haqqında dumanlı təsəvvürlər qalmışdır. Cəmrələri soruşduqda çox vaxt söyləyicilər nədən söhbət getdiyini anlaya bilmir, əlavə izah verdikdən sonra xatırlayırdılar. Aqil Şərifovun dediyinə görə, su çərşənbəsi gələndə deyirdilər ki, cəmrə suya düşdü. Cəmrələrin ardıcıllığı adətən belə təqdim edilir: birinci cəmrə havaya, sonra suya, axırda isə torpağa düşür. Söyləyicilərin dediyinə görə, cəmrə havanın isinməyini bildirir. Cəmrə havaya düşəndə hava isinir, torpağa düşəndə torpaqda hərarət yaranır, qar əriyir. Yaz qabağı qarlar əriyəndə torpaqdan duman çıxır, onda yaşlılar deyirdi ki, torpaq nəfəs alır. Əkin işləri də ondan sonra başlayırdı. Bala Məzrə sakini Saleh Abdullayevin dediyinə görə, cəmrələr gələndə deyərdilər ki, göydən yerə quyruqlu ulduz düşür, onda torpağa, suya hərarət gəlir. Herher kənd sakini Həmayə Cəfərovanın dediyinə görə, cəmrələr gələndə dədəsi deyərdi ki, balalarım, cəmrələr gəlir, düzülüblər bir-birinin dalına. Yazda göy guruldayanda yaşlılar salavat çəkib deyərdilər ki, yerin rüsxəti verildi. Haxıs kənd sakini Abbasqulu Nəcəfovun dediyinə görə, hər çərşənbə bir cəmrəyə düşürdü. Cəmrələr düşəndən sonra torpaq şumlanır, əkin üçün hazırlanırdı. Yazda nə qədər ki göy guruldamayıb, yağış yağmayıb, pencərdən yığmağa icazə vermirdilər. Deyilənə görə, onda yeyilən pencər

qarın ağrıdır. Cəmrələrdən əvvəl yağış yağanda torpaqda qabarcıq əmələ gəlmir, amma cəmrə düşəndən sonra yağış yağdıqda torpaqda su qabarcıqları yaranırdı. Onda böyüklər deyərdi ki, artıq cəmrələr düşüb, torpağa rüsxət verilib, pencər yığmaq olar.

Bölgədə Novruz bayramına *Əli bayramı*, *Əlinin qırmızı bayramı* deyirlər, onu ilin təhvil olması, yeni dövrün başlaması kimi deyil, Əlinin qırmızı geyinib taxta çıxdığı gün kimi qeyd edirlər. Bayburd kənd sakini Abbas Hüseynovun dediyinə görə, Novruz bayramı gələndə ağsaqqallar deyərdi ki, bu, Həzrət Əlinin bayramıdır. Həzrət Əli yezidlərlə dava edib, qılınc çalıb taxta çıxıb. Bununla əlaqədar həmin gün yumurta boyanıb, bayram xonçası tutulub, üstünə qırmızı örtük salınıb, qırmızı alma alınıb süfrəyə qoyulub. Başqa bir əfsanəyə görə, Həzrət Əli taxta çıxanda Novruz adlı bir nəfər əl çalıb oynayıb, Həzrət Əli də həmin günü onun şərəfinə Novruz adlandırıb. Digər əfsanədə deyilir ki, taxta çıxmağı münasibəti ilə hamı Həzrət Əlini təbrik edir, bir kasıbın isə heç nəyi olmur, Həzrət Əliyə boyanmış yumurta hədiyyə edir. Həzrət Əli onun şərəfinə həmin günü Novruz bayramı adlandırır. Hamı həmin gün qırmızı paltar geyinir, qızlar başına qırmızı kəlağayı örtürdü. Hər bir uşağın əyninə təzə paltar alınır, imkanı olmayan ailələr ən azından uşağın corabını yeniləyirdi. Hallavar, Heydərli, Güllüdərə kəndlərində isə imkanından asılı olmayaraq Novruz bayramında hər kəsin paltarı başdan ayağa təzələnirdi.

Novruz bayramı həmişə martın 21-i keçirilib, martın 22-si isə artıq bayramlaşmaya gedilirdi. Qarğabazar kənd sakini Sadəddin Qafarovun dediyinə görə, bir dəfə martın 21-i babasının bayramını təbrik etməyə gedir, babası onu qapıdan qaytarmışdı ki, mən üç otuz il ömür sürmüşəm, bir dəfə də olsun

bayramın yerini dəyişən görməmişəm. Gedin, sabah gəlin. Bayramlaşmaya birinci ailənin böyüklərindən başlayırdılar, ağsaqqal, ağbirçək şəxslərin bayramını təbrik edir, xəstə adamlara baş çəkirdilər. Qərbi azərbaycanlılar kirvəliyə xüsusi önəm veriblər, ona görə kirvənin bayramını xüsusi təbrik edirdilər. Bayramlaşmaya heç vaxt əliboş getmirdilər, bayram nemətlərindən bir qaba töküb aparırdılar. Mətləb Nəsibovun dediyinə görə, fındıq, qoz, konfet, şəkərbura kimi bayram nemətlərindən bir boşqaba yığıb qonşuya bayramlaşmaya gedirdilər, onlar da qabı boş qaytarmır, öz bayram paylarından boşqaba töküb verirdilər. Əvvəllər isə bayramlaşmaya xonça ilə gedilib. Haxıs kəndində bayramdan qabaq xonça tutmaq üçün bazarlıq edilir, kirvəyə, qohum-əqrabaya, yaxın adamlara xələtlər alınır, xonçalar tutulur, bayramın səhəri bayramlaşmaya gedəndə həmin xonçalar aparılırdı. Ocaqdan ayrılan, gəlin köçən qız varsa, həmin gün onu da yad edib ona baş çəkirdilər. Abbasqulu Cəlilovun dediyinə görə, Gəncəyə qız köçürdüblər, bayramın səhəri xonça tutub iki maşın adamla qızıgilə bayramlaşmaya getmişdilər. Məsimli kənd sakini Bacıxanım Əliyevanın dediyinə görə, bayramlaşmaya gedəndə hər evə bir xonça tutub aparırdılar, xonçanın üstünə evin ağsaqqalı, ağbirçəyi üçün yaylıq, parça, dəsmal alıb qoyurdular. Çəmbərək rayon sakini Sədaqət Vəliyevanın dediyinə görə, bayramlaşmaya gedəndə evin böyükləri üçün köynək, atrez parça alırdılar. Bəzi bölgələrdə isə bayramlaşmaya gedəndə alma aparılıb. Çiləxanlı kənd sakini Qədir Əliyevin dediyinə görə, dörd nəfərlə bayramlaşacaqsa, cibinə dörd dənə qırmızı alma qoyub gedirdi. Həmin şəxslərlə görüşəndə almanı da ovcunun içində ona təqdim edirdi. Həmin gün küsülülər barışdırılır, inciklik, narazılıqlar yeni ilə saxlanılmırdı.

Qaraçanta kəndində martın 21-i qızlar seyrana çıxırdılar. Cəlal Seyidovun dediyinə görə, seyran vaxtı Maral yaylağını, Yastı dağı, Hulley dağının ətrafını, Kazım dərəsini, Ömər dərəsini gəzirdilər, Göy bulağın üstündə süfrə açıb yemək yeyirdilər. Qızlar yolboyu mahnılar oxuyur, dağların arasında qalmış qarın üzərində sürüşürdülər. Fitat Seyidovadan yazıya alınmış mahnını da qızlar seyran vaxtı oxuyurdular:

Çoban, itin qudursun,
Arxacında su dursun.
Əgər anan verməsə,
Özünə də qıymıram,
Yengənin[4] dili dursun.

Gülənbər Əhmədovanın dediyinə görə, ilin nə vaxt təhvil olduğunu bilmək üçün tasın içinə su tökürdülər və diri balığı suya buraxırdılar. Balıq nə vaxt suda tullanıb düşürdüsə, onda ilin təhvil olduğunu bilirdilər.

Novruz bayramı ərəfəsində kiminsə qonşuda qabı-qazanı vardısa, mütləq onu geri alırdı, yoxsa onun qərib düşəcəyinə inanırdılar. Novruz bayramında küsülülər barışırdı. Bala Məzrə kəndində qəbir üstünü ziyarət edəndə hər kəs öz ölüsünü ziyarət etdikdən sonra elə ordaca küsülüləri barışdırırdılar. Belə bir inanc var idi ki, Novruz bayramında barışmayan yeddi il küsülü qalır.

Bayburd kəndində bayramlaşma günü martın 22-dən başlayıb üç gün davam edirdi. Martın 21-də bayram günü hamı ocağa ziyarətə gəlir, hər kəs özü ilə sacarası, niyaz bişirib aparırdı. Abbas Hüseynovun dediyinə görə, əvvəllər onları dədəsi

---

[4] yengə – qardaş arvadı

doğrayırdı, indi o özü bu işi görür. Sacarası və niyazı doğrayıb bir qaba yığır, ziyarətə gələn hər kəsə ondan bir dilim verirdi.

Hallavar, Heydərli, Güllüdərə kəndlərində axır çəşənbədən başlamış ta Novruz bayramına qədər bütün məhlələrdə toy çalınırdı. Hallavar kəndində camaat, əsasən, kluba toplaşırdı, amma hamı ora yerləşmədiyi üçün məhlələrdə kimin uzun tövləsi vardısa, orada ayrıca toy məclisi qurulurdu. Musiqiçilər qarmon, nağara və klarnet çalandan ibarət idi. Toy günortadan başlayıb gecəyə qədər davam edirdi. Toy çalanlar üçün şabaş yığılırdı. Kim oynamaq istəyirdisə, onu adla çağırırdılar. Məsələn, biri oynamaq istəyir, onda deyirdilər:

Ay şabaş, gəl yavaş-yavaş.
Verənin oğlu olsun,
Verməyənin kor qızı olsun.

Oynamaq istəyən şəxs də şabaşını verir, sonra öz mahnısını çaldırıb oynayırdı. Əvvəllər şabaş bayram nemətlərindən olurdu. İri teşt qoyulur, hər kəs bişirdiyi bayram nemətini o teştə atırdı. Amma sonralar pul salmaq dəbə düşür. Yığılan pullar da çalğıçılara çatır, kənddə imkanı olmayan şəxslərə paylanırdı. Novruz bayramında nişanlı qızlara bayram payı aparılırdı. Hallavar kəndində imkanı olmayan nişanlı oğlan bayram xonçasını hazırlamaq üçün yanına kosa alıb qapı gəzirdi. Ona həm bayram payı, həm də nəmər (pul) verirdilər. Yığdığı bayram nemətlərindən xonça bağlatdırıb qız evinə bayramlaşmaya gedirdi.

Sona Əhmədovanın dediyinə görə, Cul kəndində kolxoz sədri Abbas Mazanov hər il bayramda heyvan kəsib camaata paylayırdı ki, bayramda hamının evində ət yeməyi bişsin. Çiçək Fətiyevanın dediyinə görə, tut yetişənə qədər bayram davam edirdi. Belə inanc var idi ki, il meyvə yetişəndə dəyişir, ona qədər bir-birinə pay aparmaq, bir-birin qonaq çağırmaq davam edirdi.

## 2. TOY ADƏTLƏRİ

Aqil Şərifovun dediyinə görə, Bala Məzrədə nadir hallarda el adəti ilə gəlin gətirilib, gənclər çox vaxt qızı qaçırtmaqla evlənirdi. *Qız qaçırtmanın* sosial səbəbləri fərqli idi. Kimi buna bir ənənə kimi baxır, kimi qız qaçırtmanın xoş gəldiyini, kimi qızı vermədikləri üçün bu yola baş vurduğunu deyir. Hətta el adəti ilə elçi düşüb qızı istəmədən bu yola baş vuranlar da var idi. Çaxırlı kənd sakini Sırac Rzayevin dediyinə görə, qız qaçırtmaq bir ənənə idi. O özü də Böyük Məzrədə Səməd kişinin qızını gözaltı eləmişdi. Bir gün gəlib dədəsinə (ataya dədə deyirlər) Səməd kişinin qızını qaçırtmaq istədiyini deyir. Dədəsi ona cavab verir ki, ayıbdır, elçi düşüb qızı istəyək. Əgər verməsələr, onda qızı qaçırdarsan. Amma Sırac kişi dədəsinin sözünü dinləməmiş, atasının dəmkeşi Suliddinlə plan qurub qızı qaçırtmışlar. Dədəsi biləndə ki, oğlu qız qaçırdıb ona demişdi ki, çox böyük səhv etmisən. Başqa yol yoxdur, gərək barışığa gedək. Dədəsi sayılan şəxs olduğu üçün qısa zamanda barışıq əldə olunmuşdu. Göründüyü kimi, qız qaçırtmağın sosial səbəbləri fərqlidir, amma əsas amil oğlan tərəfin maddi imkansızlığı idi. Toy çaldırıb gəlin gətirmək, başlıq parasını ödəmək böyük vəsait tələb edirdi, hər ailənin o yükün altına girmək imkanı olmadığı üçün bu yola baş vurulurdu. Qızı qaçırtdıqda qohum-əqrabanın iştirakı ilə yüngül qonaqlıq verilir, əlavə xərcə ehtiyac qalmırdı. Əlimərdan kənd sakini Rəhim Bünyatovun da maddi imkanları toy etməyə yol vermədiyi üçün qız qaçırtmaqla evlənmişdi. Qızı qaçırtdıqdan sonra da mütləq barışıq əldə olunmalı idi. Barışıq əldə edilmədiyi təqdirdə münaqişə ailələr, tayfalar arasında qan davasına qədər çıxa bilirdi. Ona görə barışıq əldə olunmasını gözləyib ondan sonra toy edirdi-

lər. Hansısa nəsildən, tayfadan qız qaçırtmaq həmin nəslin, tayfanın şərəfinə toxunmaq hesab olunurdu, ona görə ağsaqqallar çox vaxt bu yolun tərədarı deyildilər. Amma qız qaçırdılandan sonra oğlan tərəfi elin, nəslin sayılıb-seçilən ağsaqqallarını qız qapısına göndərib mütləq barışıq əldə etməyə çalışırdı. Barışıq əldə etmək üçün bölgənin tanınmış seyidlərini də bu işə qoşurdular. Sırac Rzayevin dediyinə görə, Seyid Bayram Göyçə mahalında ən tanınmış ocaqlardan biri idi. Seyidin papağını yoldaşı Pəri xanım saxlamışdı. Kiminsə qapısına barışığa gedəndə Pəri xanım seyidin papağını ortalığa qoyub deyirdi ki, seyid sənin qapına minnətə gəlib.

Amma elə faktlar da var ki, qız tərəfi heç cür barışığa gəlmirdi. Səməd Orucovun dediyinə görə, imkanlı bir ailənin qızı qaçırdılır. Əslində qızın oğlana könlü var idi, onun razılığı ilə bu iş baş tutmuşdu. Qızın atası and içir ki, qarşısına çıxsalar, onların hər ikisini də öldürəcək. Qızla oğlan evlənir, onların bir oğlu olur. Aradan yeddi-səkkiz il keçir, bunlar uşağı götürüb xəlvəti qızın atasının qonşuluğuna gəlirlər. Səhər heyvanı novata yola salanda qonşu uşağın əlindən tutub qapıya çıxardır. Qapıya çıxanda qızın atası uşağı görür, qucağına alıb yanağından öpür. Qonşusundan xəbər alır ki, bu uşaq sizə oxşamır, kimin uşağıdır. Qonşu açıb həqiqəti deyir. Ondan sonra kişi yumşalır və qonşusuna deyir ki, bu uşağa qurban olsunlar, onları bu uşağa bağışladım. Barışıq əldə etmək üçün bəzən qız qaçıran tayfa öz nəslindən o biri tayfaya qız verirdi və bu yolla günahını yumağa çalışırdı. Sırac Rzayevin dediyinə görə, Daşkənd kəndində tayfalar arasında düşmənçilik o həddə çatmışdı ki, hər tayfanın öz qəbiristanlığı var idi. Tayfalar arasında barışıq əldə etmək üçün

bir tayfa o biri tayfaya qız verməsinə baxmayaraq bu gün də həmin düşmənçilik davam edir.

Əlimərdan kənd sakini İqbal Həsənov qız qaçırtma ilə bağlı maraqlı bir xatirə danışdı: “Bir gün bizim kəndə qız qaçırtmağa gəlirlər. Mənim atam Vəli addı-sannı adam olub. Deyirlər ki, Vəli o kənddədirsə, qızı qaçırda bilmərik. Bəs neyniyək? Deyirlər ki, yalannan iclas çağırax, onu da gətirək bura, ondan sonra qızı qaçırdax. İclas çağırıllar, atamı da aparıllar bura. Aradan yarım saat keçir, əmimoğlu haray salır ki, qızı qaçırtdılar. Qızın atasın, anasın bağlıyırlar keçəyə, qoyurlar küncə, qızı aparıllar. Atam atı minir, düşür dallarına. Yellicəyə çatanda – qızı qaçırdanın adı olur Səftar, – Səftar girir təndirə. Deyir ki, daşı qoy təndirin ağzına, Vəli məni görsə, öldürəjəh. Nəysə, qızı ordan götürür gətirir.

Yaz ağzı olur. Vəli deyir, Ceyran, mən gedəjəm dağa, sabah, ya birsi gün gələjəm. Yağ, pendir, qourma, lavaş – hər şey burdadı. – Üzdən irağ, iki dənə yaxşı itimiz var. – Çörək atginən itdərə. Qorxma ha. Oğlan tərəf eşidir ki, atam gedif dağa, bunlar yenə gəlirlər. Səftar qıza deyir ki, gəl gedək. Deyir, yox. Atam maa deyif itdəri güllələyif səni aparsalar eybi yoxdu, amma itdər diriykən səni aparsalar, səni doğruyacam. Mən gedə bilmərəm. Oğlan tərəfin adamları itləri öldürməyə cəsarət etmir, çıxıb gedirlər. Atam sonradan sifariş göndərir ki, it kimi oğurluq eləmiyin. Kişi kimi gəlin, el adətiynən, qayda-qanunnan götürün gedin. Ondan sonra qızı verir”.

Oğlan evi qız evinə *başlıq parası* ödəyirdi. O vaxtı başlıq parası ərzaqla ödənilirdi. Toyun günü danışılanda qız tərəfi parçabişdi üçün alınacaq ərzağın siyahısını verir, soğandan başqa toy üçün lazım olan ərzaqların hamısı o siyahıya yazılırdı. Oğlan tərəfi toydan bir gün qabaq həmin ərzaqları təşkil

edib qız evinə göndərirdi. Başlıq parası əvvəllər ərzaqla ödənilirdi, amma günümüzdə daha çox nağd pul şəklində verilir. Oğlan evi qız evinə müəyyən məbləğdə pul verir, qız evi də həmin pula qız toyu üçün lazım olan ərzağı alırdı. Günümüzdə bəzi ailələr başlıq istəməyi qızı satmaq kimi qəbul edir, ona görə başlıq parası almağı özünə sığışdırmır. Bir söyləyicinin dediyinə görə, qızı köçürdəndə "qız mənimdi, mən də onu köçürtməliyəm", – deyib qudasından başlıq pulu istəməmişdi, amma qudası "başlıq pulu adətdəndir" deyib ona etiraz etmişdir. Ondan sonra konkret məbləğ deməsə də, oğlan tərəfi qız evinə 1000 manat vermişdi.

Başlıq parasından əlavə oğlan evi qız evinə *süd pulu* da verir, həmin pul qızın anasına çatır. Süd pulunun konkret məbləği yoxdur, hər kəs imkanına görə verir. Sovet dövründə süd pulu olaraq bir qızıl onluq verilirdi, günümüzdə isə 50 manat ödənilir.

Qız toyuna *parçabiçdi* deyilir. Parçabiçdidə oğlan evindən gəlin üçün gələn çamadanlar açılır, gəlin üçün alınan paltarlar nümayiş olunurdu. Paltarları, adətən, oğlanın bacısı nümayiş etdirirdi. Parçabiçdiyə adamlar dəvət olunur, adətən, qadınlar çağrılırdı. Qız tərəfi balaca nəmər torbaları hazırlayır, onun içinə peçenye, konfet doldurub parçabiçdiyə gələn qadınlara şirinlik olaraq verirdi. Parçabiçdidə qadınlar iştirak edirdilər, oğlan evi gəlin üçün nə alıbsa, ayaqqabıya qədər hamısı nümayiş edilirdi. Gəlinin bibisi, xalası gəlinə hədiyyələr alıb gətirir, onlar da siyahıya yazılırdı. Parçabiçdidə oğlan evi gəlinin atası, anası, bacısı və qardaşı üçün ayrıca hədiyyələr alıb göndərirdi. Üşü kənd sakini Cəfər Həmzəyevin dediyinə görə, parçabiçdidə gəlinin atasına qızıl saat, ailə üzvlərinin hər birinə ayrıca xələt

alıb göndərmişdi, ayaqaçdı günü də gəlin alınan hədiyyələrin əvəzini qaytarmışdı.

Toydan bir həftə qabaq artıq toya hazırlıq başlanırdı. Lavaş bişirmək üçün ayrıca gün təyin olunur, həmin gün qohum-qonşu yığılıb toy lavaşı bişirirdi. Növbəti gün toy düyüsü artlanırdı. Həmin gün toy həyətinə gələn olanda lavaş bişirənlərə, düyü artlayanlara xələt verirdi. Toydan bir gün qabaq isə *ciyəraxşamı gecəsi* idi. Həmin gün qonşulardan qab-qacaq, stol-stul daşınır, toy mağarı qurulur, iş bölgüsü aparılırdı. Toy üçün heyvan kəsilir, onun ciyərlərindən orada əziyyət çəkənlər üçün yemək hazırlanırdı. Ona görə toya hazırlığın həmin mərhələsi *ciyəraxşamı* və ya *məsləhət axşamı* adlanırdı.

Camaatı toya dəvət etmək üçün təklifçi tutulurdu. Təklifçinin atının boynuna qırmızı parça bağlanırdı. Təklifçi atın belində kəndi gəzir, bir-bir qapıya yaxınlaşıb ev sahiblərini toya dəvət edirdi. Toy yiyəsi təklifçiyə zəhmət haqqı olaraq nəmər verirdi. Bu gün bölgədə işlənən "təklifçi atı kimi hər qapıya dönür" atalar sözü də oradan qalıb. Pəmbək kəndində toydan əvvəl zurnaçı ev damının üstünə çıxıb bir hava çalır və toyun başladığını xəbər verirdi.

Göyçədə belə bir adət var idi ki, nişanlı qızları və təzə gəlinləri çalğı ilə toya dəvət edirdilər. Toydan bir gün qabaq toy sahibi başına qohum-əqrabanı yığıb qara zurnanın sədaları altında nişanlı qızların və ya təzə gəlmiş gəlinlərin qapısına gedir, həyətdə çalıb oynayır, qızın ata-anasını, onun özünü çağırıb oynadır və onu toya dəvət edirdi. Qızın ata-anası çalğıçılara nəmər verir, onlar üçün xələt – dəsmal, corab qoyurdu.

Əvvəllər toylar üçgünlük olurdu, həftənin beşinci günü günortadan sonra toy başlayır, bazar günü gecəyarıya qədər

davam edirdi. Üçgülük toylarda birinci gün toya kənd adamları, ikinci gün qıraq adamlar çağrılır, üçüncü gün isə gəlin gətirilirdi. Qərbi Azərbaycanda toylar, əsasən, yay aylarında keçirilib, havaların isti olması və yağmursuz keçməsi toy üçün əlverişli imkan yaradırdı.

Toy üçün iki mağar qurulurdu; biri yemək-içmək, digəri isə toy mağarı idi. Uzun taxtalar gətirilib oturmaq üçün yerlər düzəldilir, qapılardan stol-stul daşınırdı. Toy mağarı, adətən, ictimai fermalarda təşkil olunurdu. Yay aylarında mal-qara, adətən, çöldə saxlanılır, fermalar boş olurdu. Onu süpürüb təmizləyir, yerə saman töküb toy üçün hazırlayırdılar. Tövlənin içini lampa işığı ilə işıqlandırırdılar. Axşam toya gələn olanda ev yiyəsi onu öncə yemək mağarına dəvət edir, ondan sonra toy mağarına gəlirdi. Xeyirbəyli kəndində toy mağarı ortadan iki yerə ayrılır, bir tərəfində kişilər, digər tərəfində isə qadınlar otururdu. Hava yağıntısız olanda isə, ümumiyyətlə, mağar qurulmur, açıq havada toy keçirilirdi.

Qərbi Azərbaycanda toylar qara zurna və aşıqla keçirilib. Axşam müəyyən saata qədər oyun havaları çalınır, ondan sonra aşıq dastana başlayır, ta səhərə qədər dastan deyirdi. Dastanı camaat özü sifariş edirdi və yaxud aşıq bildiyi dastanların adını deyir, camaat özü birini seçirdi. Bəzən aşıq dastanı bir gecəyə tamamlaya bilmirdi, ardını növbəti axşama saxlayırdı.

Toy *toybəyi* və ya *toybabası* (Göyçə zonası) tərəfindən idarə olunurdu. Toybəyi sözü keçən, sayılıb seçilən adam tutulurdu. Toybəyi elan eliyirdi ki, bu içkini filankəsin sağlığına içək. O zaman kimsə yerdən çalğıçılara pul göndərirdi ki, onun stəkanını şirin elə. Çalğıçılar da onun sağlığına bir mahnı ifa edirdi. Qaraçanta kəndində toyda içki kimi şərab verilib. Şərab

içəndə xanəndəni çağırırdılar, xanəndə şərabın üstündə mahnı oxuyur, mahnı qurtarandan sonra onu içirdilər. Şərab üstündə mahnı oxumağa *şərabı gülləndirmək* deyilir. Toya gecikən olduqda toybəyi onu cəriməlәyirdi. Acqarına ona əlli qram araq içirdir, çalğıçılar üçün nəmər alır, ondan sonra keçib yerində oturmağa icazə verirdi.

Toyda əvvəllər bir çeşid yemək verilib, toyun birinci günü qovurma, ikinci günü isə plov verilirdi. Kim toyda plov verirdisə, kənddə adla deyilirdi ki, filankəs toyda plov verib. Toyda kabab vermək, söyləyicilərin dediyinə görə, 70-ci illərdən sonra dəbə düşür, ona qədər qovurma ət və qaralı aş verilirdi. Qovurma əti qızardılmış kartofla birlikdə süfrəyə verilirdi. İçki olaraq araq və ya çaxır verilib.

Axşam olanda hamı toy mağarına yığışırdı, toybəyi də əlində çubuq toyu idarə edirdi. Kim musiqi sifariş edəcək, kim oynayacaq onların hamısını toybəyi nizamlayırdı. Kimsə həddindən artıq oynayırdısa, toybəyi onu çubuqla vurub meydandan çıxarırdı. Nəslin ağsaqqalı mahnı sifariş verəndə ancaq öz nəslindəki qızları oynada bilirdi, kiminsə başqa nəslin qızını oynatmağa ixtiyarı yox idi. Bala Məzrə kəndində axşam nəslin ağsaqqalı, ağbirçəyi və cavanlar gəlini gərdəkdən çıxarıb mahnı sədaları altında toy mağarına gətirirdilər. Ortalığa stol qoyulur, gəlin oturur, qızlar da onun ətrafına yığılırdı. Gəlini ancaq nəslin ağsaqqalı, ağbirçəyi oynadırdı.

Qızın ata-anası oğlan toyunda iştirak etmirdi, amma qız evindən nəslin sayılıb-seçilən adamları toya gəlirdi. Qız tərəfi toyda oynamırdı, ancaq yeyib içir, yekunda da nəmərlərini yazdırıb gedirdilər. Saral kəndində isə oğlan tərəfi gəlinin ata-anasının dalınca maşın göndərib onları da toya gətirirdi.

Toy ərəfəsində kənddə kimsə rəhmətə gedirdisə, ölü yiyəsindən icazə aldıqdan sonra toy edirdilər. Xeyirbəyli kənd sakini Həsən Cabbarovun dediyinə görə, qardaşına toy edəndə qonşu Əsədli kəndində bir nəfər dünyasını dəyişir. Artıq toyun ərzağı alınıb, adamlar toya dəvət olunub, ona görə toyu təxirə salmaq olmurdu. Yanına bir molla alıb qonşu kəndə yas məclisinə gedir. Orada molla vəziyyəti izah edib ev yiyəsindən toy eləmək üçün icazə istəyir. Ölü sahibindən xeyir-dua almış, ölən üçün orada "Yasin" oxutmuş, qayıdandan sonra da qardaşının toyunu eləmişdir.

Bəy toy olan həyətdə oturmurdu, onu ancaq gəlin gətirilən gün gəlinə alma atmaq üçün damın üstünə çıxanda görürdülər. Qonşu həyətdə bəy üçün ayrıca stol açılır, bəy öz tay-tuşu ilə orada əyləşirdi. Bəyin oturduğu məclisə *bəybaşı*, həmin məclisi idarə edənə isə *xan* deyilirdi. Bəyin dostlarından biri xan seçilir, ona vəzir-vəkil, qarovulçular təyin olunurdu. Kimsə xanın sözündən çıxmazdı, hətta xan kimisə şallaqlada bilirdi. Onun verdiyi əmri isə cəlladlar icra edirdilər. Qarovulçular qapı ağzında durur, başqalarından seçilməsi üçün qollarına qırmızı lent bağlayırdılar. Qohum-əqraba bəyi təbrik etməyə gəlir, gəlməyəndə isə cəlladlar onu zorla gətirir və cərimələyirdilər. Bəyi görməyə gələn bəyi təbrik edir, ona təklif edilən arağı içir və nəmər verirdi. Bəybaşında yığılan pullar da bəyə çatırdı. Məsimli kənd sakini Bacıxanım Əliyevanın dediyinə görə, bir dəfə bəybaşına bəyi təbrik etməyə gedir. İçəri girib "salamməlik, ay xan, toyun mübarək, ay bəy" deyir. Amma xan onun üzünə durur ki, sən düz demədin. Dedin ki, salamməlik, ay bəy, toyun mübarək, ay xan. Nə qədər etiraz eləsə də, xan boynuna qoyub onu 50 manat cərimələmişdi.

Bəybaşı üçün ayrıca stol bəzənirdi. Həmin məclisdə bəy yanında sağdiş soldişlə başda otururdu. Bəybaşı üçün ayrıca yemək bişirilmir, toy üçün bişirilən yeməklərdən bəybaşına da göndərilirdi. Çox vaxt bir nəfər adam təhkim olunur, o ancaq bəybaşında oturanlara xidmət edirdi. Xeyirbəyli kəndində bəybaşının xərcini sağdiş çəkir, orada yığılan pul da sağdişə çatırdı.

Göyçə tərəfdə bəyin sağdişinə *baböyü* deyilir. Baböyü bəyin ən yaxın dostları arasından seçilirdi. Bəzən kimsə əhd edirdi ki, filankəs evlənəndə onun baböyü özü olacaq, onu baböyü tuturdular. Sağdiş evli, soldiş subay adamdan seçilirdisə, baböyü üçün belə bir tələb yox idi. Baböyü evli və ya subay adamdan ola bilirdi. Sırac Rzayevin baböyü qızı qaçırtmaqda ona kömək etmiş Suliddin kişi olmuşdu. Baböyü toydan bir gün qabaq bəyin dost-tanışını yığıb onlara qonaqlıq verir, həmin qonaqlığın xərcini də baböyü çəkirdi. Bundan əlavə baböyü gəlinə üzük, qolbaq alır, bəy üçün şah bəzəyirdi. Toydan sonra da bəy baböyünün çəkdiyi xərcin əvəzini qaytarırdı. Bala Məzrə sakini Saleh Abdullayevin dediyinə görə, baböyü onun toyunda çox xərc çəkmişdi, o da toydan sonra servant, şifoner, taxt, divan alıb *qabyerinə*[5] aparmışdı. Bəyin baböyü olduğu kimi qızın da bacılığı olurdu, xına gecəsi gəlinin bacılığıgildə keçirilirdi. Cavan qızlar ora yığışır, gəlinin əlinə, ayağına xına yaxır, cavan qızlar çeçələ barmaqlarını xınaya batırırdılar. Barmaqlarını xınaya salanlar xına qabına nəmər atır, həmin pullar da gəlinin bacılığına çatırdı. Həmin xınadan oğlanın baböyüsügilə də göndərirdilər, orada da oğlanlar ovuclarının içinə sevdikləri qızın adının baş hərfini yazırdılar.

[5] qabyerinə – əvəzinə

Xınayaxdı gəlin köçən günün axşamı keçirilir. Həmin gecə gəlinin əllərinə, ayaqlarına xına yaxılıb üzəri qırmızı lentlə bağlanırdı, ovcuna pul qoyulurdu. Xına oğlan evindən gətirilirdi. Xınayaxdıda çalğıçı olmurdu, cavan qız-gəlinlər gəlinin başına yığılıb haxışda deyirdilər. Haxışda Qərbi Azərbaycanın bütün bölgələri üçün xarakterik deyil, əsasən Zəngibasar, Uluxanlı rayonlarında söylənilib. Haxışda deyən qızlar üz-üzə iki dəstə şəklində düzülür. Bir nəfər haxışdanı söyləyir, dəstə üzvləri isə misranın sonunda xorla nəqəratı deyirlər. Haxışda əl çala-çala oxunur və qızlar haxışda deyərkən irəli addım atırdılar. Bu dəstə haxışdanı deyib qurtardıqdan sonra o biri dəstə başlayırdı.

Qərbi Azərbaycan toylarında ən maraqlı məqamlardan biri *bəyin oğurlanması* idi. Məsimli kənd sakini Bacıxanım Əliyevanın dediyinə görə, bəyin oğurlanmasının özü şahidi olub. Bəybaşında bəyin başına parça atmışlar, onu parçaya bürüyüb biri baş, digəri ayaq tərəfdən tutub maşına basıb qaçırmışlar. Bəyin oğurlandığını heç kimə xəbər verməmiş-dilər, camaat bəyi təbrik etməyə gələndə onun oğurlandığı üzə çıxmışdı. Bacıxanım Əliyevanın dediyinə görə, bəyi oğurlayan-lar bəyin atasından, qayınatasından, əlavə olaraq bəyin başında oturan adamlardan da pul alıb onu buraxmışlar. Bəyin başında oturanlar bəyə cavabdeh idilər, əgər bəy oğurlanırsa, onlar məsuliyyət daşıyırdılar.

Üçgünlük toylarda gəlini bazar günü gün əyiləndən sonra gətirirdilər. *Gəlin gətirməyə* bəyin özü getmir, bəyin atası və ya qardaşı gəlini gətirirdi. Gəlinin əyninə tuman və kofta geyin-dirilir, başına qırmızı kəlağayı atırdılar, üstündən də ağ örpək örtürdülər. Ayaqqabı darlıq hesab olunduğu üçün Qaraçanta kəndində gəlinin ayağına ayaqqabı geyindirilmir, ayaqyalın

köçürürdülər. Gəlini ata evindən çıxarmazdan əvvəl üç dəfə ləmpə başına dolandırır, qaynı onun belini qırmızı lentlə bağlayırdı. Xeyirbəyli kəndində gəlin köçən qızın üz yaylığına qohum-əqraba pul bağlayır, oğlan evinə çatana qədər həmin pullar gəlinin başında qalırdı. Üşü kəndində isə qaynı gəlinin belini bağlayanda onun ovcunun içinə pul qoyub dəsmalla bağlayırdı ki, gəlin oğlan evinə dövlətli getsin. Xeyirbəyli kəndində gəlinin ovcunun içinə düyü qoyulub dəsmalla bağlanırdı ki, gəlinin əli çörəkli olsun. Gəlin qapıdan çıxanda gəlinin qardaşı və ya yaxın adamı qapını kəsib *ayaqbasdı* tələb edir, oğlan evindən ayaqbasdı aldıqdan sonra gəlinə qapıdan çıxmağa icazə verirdi.

Başqa kənddən gəlin gətiriləndə gəlin karvanının önü kəsilib *torpaqbasdı* istənilirdi. Saral kənd sakini Rəhim İbrahimovun dediyinə görə, gəlin karvanı kəndə daxil olanda elə kəndin girəcəyində qabağı kəsilirdi. Oğlan evi bir toğlu və bir qutu araq verir, ondan sonra yolu açırdılar. Torpaqbasdı alan şəxs karvan kənddən çıxana qədər onu müşayiət edirdi, karvanın önünü başqalarının kəsməsinə icazə vermirdi. Ardanış kəndində isə gəlin karvanının önünü kəsən şəxs gəlinin önünə bir qoç qoyub qaldırmasını tələb edirdi. Gəlin qoçu qaldıra bilsə, qoçu ona bağışlayır, qaldıra bilməsə, nəmərini tələb edirdi. Kənd sakini Abbasəli Həsənovun dediyinə görə, Kosa Hüseyn cəsarətli və güləşkən adam idi. Kəndirbazın yanında kosalıq etdiyi üçün Kosa Hüseyn kimi tanınmışdı, evləri də kəndin başında idi. O vaxt gəlini ZİS maşınlarda gətirirdilər. Kəndə gəlin gətirməyə gələndə Kosa Hüseyn bir qoç götürüb karvanın önünü kəsirdi, gəlindən qoçu qaldırıb maşının kabinasına qoymasını tələb edirdi. Gəlin qoçu qaldıra bilsə, onu gəlinə bağışlayırdı. Qaldıra bilməsə, qoçun dəyərində nəmərini istə-

yirdi. Nəmərini aldıqdan sonra da Qaradonu havasını çaldırıb karvanın önündə oynayırdı. Gəlini əvvəllər at üstündə köçürürdülər. Yolboyu gəlin karvanının önü iplə kəsilir, nəmər alandan sonra getməsinə icazə verilirdi. Yaxud gəlin köçəndə qolunun gücünə arxayın olan cavanlardan biri karvanın önünə çıxıb özünə qənim istəyirdi. Gəlin karvanının sahibi ya onun qabağına bir nəfər çıxarmalı, ya da onun nəmərini verib yola salmalı idi.

Qaraçanta kəndində gəlindən öncə onun *müjdə yastığı* gəlirdi. Müjdə yastığını məxməri parçadan gəlinin yengəsi düzəldir, yastığın üstü muncuqlarla, oyma naxışlarla bəzədilirdi. Həmin yastıq gəlinin yengəsində olurdu, onu gətirən şəxsə isə oğlan evi nəmər verirdi. Ona görə hər kəs yastığı yengənin əlindən alıb oğlan evinə təhvil verməyə çalışırdı. Gəlin gətirməyə gedəndə oğlan tərəfi qız evindən mütləq oğurluq edir, həyətdən çıxanda oğurlanmış əşyaları havaya qaldırıb nümayiş etdirirdi. Əsasən də, çolpa, xoruz oğurlanırdı. Üşü kənd sakini Cəfər Həmzəyevin yoldaşının dediyinə görə, ona gəlin gələndə həyətlərindəki nar ağacının başında bir dənə də nar qalmamışdı, hamısını dərib aparmışdılar. Oğurlanmış əşyalar arasında yarıyan şeylər vardısa, gəlinin cehizinin üstünə qoyulur, yeyiləsini isə yeyirdilər. Xoruz, adətə görə, onu oğurlayan şəxsə çatırdı, Xeyirbəyli kəndində isə xoruzu oğurlayan şəxs onu qırmızı lentlə bəzəyib baha qiymətə bəyə satırdı.

Gəlin gətirəndə yengənin əlində güzgü olurdu. Güzgü gəlinin önündə gətirilirdi. Namizəd Allahverdiyevin dediyinə görə, Rəncbər kəndində rəhmətlik Yaşarın xeyir işində bəy damın üstünə çıxıb almanı elə atmışdı ki, gəlinin sağdişinin

tutduğu aynaya dəyib onu sındırmışdı. Güzgünün sınması pis mənaya yozulurdu.

Gəlini gətirəndə bəy damın üstünə çıxıb gəlinə *alma atırdı*. Çubuxlu kənd sakini Dilarə Rəşidovanın dediyinə görə, belə bir inanc var idi ki, alma gəlinə dəysə, gəlin həmişəlik o evdə qalacaq. Almanı atmaq üçün bəy sağdişi ilə damın üstünə çıxır, gəlini də dama yaxınlaşdırırdılar. Gəlinə xəsarət yetirməməsi üçün bəy almanı ortadan bölüb atırdı. Amma bəzi bəylər inad edir, almanı bütöv atırdı. Qaraçanta kənd sakini Cəlal Seyidovun dediyinə görə, Vaqif adlı birinin toyunda buna təklif edirlər ki, almanı ortadan bölüb atsın. Amma qıza üç dəfə elçi düşüb onun həsini çətinliklə aldığı üçün o razılaşmır, elçiliyin hayıfını ondan almaq istəyir. Almanı damın üstündən elə atmışdı ki, onun zərbəsindən gəlinin ürəyi getmişdi. Xeyirbəyli kəndində isə almanın zərbəsini azaltmaq üçün gəlinin başına yastıq tuturdular. Almanı atdıqdan sonra bəyin sağdişi boşqab və ya sininin içindəki konfeti, qəpik pulları gəlinin başı üstündən səpir, uşaqlar yerə düşən konfetləri, qəpik pulları yığırdı.

Gəlin ata evindən çıxanda başı üstündə çörək bölünür. Çörəyin bir tərəfindən qızın, bir tərəfindən də oğlanın atası tutur və çörəyi ortadan bölürlər. Kimin qismətinə nə qədər düşürsə, həmin pay o tərəfə qalırdı. Ona görə hər iki tərəf çalışırdı ki, çörəyin çox hissəsi ona düşsün. Gəlin oğlan evinə daxil olanda pilləkənin üstünə kasada su qoyulur, nəlbəki düzülür, gəlin ayağı ilə öncə vurub suyu dağıdır, sonra nəlbəkiləri sındırır və Quranın altından keçib evə daxil olurdu.

Qaraçanta kənində gəlini gətirəndə qayınata ilə qayınananı qapıda gəlinin önündə güləşdirirdilər. Qara zurnada "Cəngi" havası çalınır və qayınata ilə qayınana güləşirdilər.

Güləş simvolik xarakter daşıyırdı və qadının kişini yenməsi ilə tamamlanırdı. Qaraçanta kənd sakini Cəlal Seyidovun dediyinə görə, bir dəfə qonşuları Gülalı kişini arvadı ilə güləşdirirlər, amma kişi kürəyini yerə vermək istəmir, gerçəkmiş kimi güləşməyə davam edir. Onda camaat kişinin qolundan, qıçından tutub yerə yıxmış, arvadı da ayağını onun sinəsi üstünə qoymuşdu. Güləş bitəndən sonra gəlinin ayağı altında qoç kəsilir, onun qanından gəlinin alnına yaxılır, gəlin nəlbəkiləri sındırıb evə qalxırdı.

Qərbi Azərbaycanda əhalinin etnik tərkibindən, bölgənin tarixi keçmişindən asılı olaraq toya xas terminoloji ifadələrdə müəyyən fərqliliklər özünü göstərir. Məsələn, bəzi bölgələrdə sağdiş, soldiş deyilirsə, Paşalı rayonunda qardaşağa ifadəsi işlənir. Bəyin sağişinə Göyçə mahalında baböyü, qızın yengəsinə isə bacılıq deyilir. Bu fərqlilik adət-ənənədə də özünü göstərir. Məsələn, gəlinin yerə düzülmüş lavaşları yığıb qayınanaya təqdim etməsi Zəngibasar rayonu üçün xarakterikdir. Rəncbər kəndində gəlin oğlan evinə gəldikdə yerdə xalçanın üstünə süfrə salınır və süfrənin üstünə 7-8 dənə lavaş düzülür. Gəlin ev daxil olmamışdan əvvəl həmin lavaşları qolunun üstünə yığıb onu qayınanasına təqdim edirdi. Qaraçanta kəndində isə lavaşların üstünə qənd də qoyulurdu. Gəlin lavaşları qolunun üstünə yığır, qəndi isə başının üstündən arxaya atırdı. Xeyirbəyli kəndində isə gəlinin qarşısına təpsidə lavaş və nehrə yağı gətirilir. Gəlin yağı lavaşın üstünə yaxıb onu başı üstündən arxaya atır, subay qızlar onu havada ikən tutmağa çalışırdı. Dürməyi havada tutan qızın bəxtinin açılacağına inanırdılar. Əştərək rayonu Üşü kəndində gəlini lampa başına dolandırmaq, Quran altından keçirmək kimi adətlər olmayıb.

Qız evindən oğlan evinə *şax* gedirdi. Çubuxlu kənd sakini Dilarə Rəşidovanın dediyinə görə, şaxı şirniyyat və meyvə ilə bəzəyirdilər. Onun üzərinə 5-6 kilo şokalad, bir o qədər də alma, armud asırdılar. Şax o qədər ağır olurdu ki, iki nəfər onu güclə götürürdü. Həmin şax gəlin otağına qoyulur, onu gətirən şəxsə oğlan tərəfi nəmər verirdi. Həmin şaxın üzərindəki nemətlərdən ilkini bəylə gəlin yeyir, qalanı isə paylanırdı. Qaraçanta kəndində bəyin qardaşlığı bəy üçün xüsusi şax bəzəyirdi. Şaxın budaqlarından konfet, cürbəcür meyvələr asılır, başına da qızardılmış beçə keçirilirdi. Gecə toy dağılandan sonra toy yiyəsi məşəl işığında zurna-balabanın müşayiəti ilə bəyin qardaşlığıgildən şaxı götürüb bəylə gəlinin otağına gətirirdi. Şaxı götürdükdə onun yerinə pul qoyulur, həmin pul da bəyin qardaşlığına çatırdı.

Saral kəndində şaxı gəlinin bacılığı və ya bəyin qardaşlığı (sağdiş) bəzəyirdi. Kənd sakini Rəhim İbrahimovun dediyinə görə, o özü kənddə yaxın bir dostuna sağdiş olmuş, onda şax bəzətmişdi. Şax ağac budaqlarından hazırlanan süstdür, onun budaqları meyvə, şirniyyatla bəzədilirdi. Kimsə həmin şaxdan bir konfet və ya meyvə qoparıb ondan əvvəl oğlan evinə çatdırsa, nəmərini alırdı. Ona görə şaxa xüsusi qoruqçular qoyulur, onlar əlində çubuq şaxı qoruyur, onun üstündən konfet qoparmaq istəyənləri çubuqla vururdular. Şaxı gətirən şəxs mağara daxil olduqda öncə əlində şax oynayır, sonra onu aparıb bəyin stolunun üstünə qoyurdu, oğlan evi də şaxı bəzəyənə nəmər – corab, köynək və sair verirdi. Mehmandar kəndində hətta şax oğurlanırdı, onu oğurlayan şəxslər nəmərlərini aldıqdan sonra şaxı geri qaytarırdılar. Kimsə nəmər verib şaxdan bir meyvə və ya konfet götürə bilirdi. Bu gün də "şaxın qara bəzənsin"

ifadəsi bölgədə qarğış kimi işlədilir və cavan, toysuz gedən adam haqqında deyilir.

Saral kəndində də şaxı bəyin sağdişi bəzəyirdi, imkanı varsa gəlinə bir üzük, bəyə köynək alırdı. Üzük almağa imkanı çatmadıqda isə, gəlinə atrez parça da olsa alırdı. Şər qarışandan sonra şax toy mağarına gətirilirdi. Şaxı gətirmək üçün çalğıçılar dəstəsi gəlirdi, şahın dörd bir tərəfində təzəhdən düzəldilmiş lopalar yandırılır, şax onların işığında musiqi sədaları altında gətirilirdi. Şaxın ətrafında əli çubuqlu qoruqçular olurdu, kimsə şaxdan nəsə götürmək istəsə acımadan onları vurur, və ya cərimələyirdilər. Şəmsiyyə Mustafayevanın dediyinə görə, xalası oğlunun toyunda qardaşı şaxın üstündə bir konfet götürdüyü üçün qoruqçular onu elə vurmuşdu ki, çubuq gicgahına dəymiş, qardaşının ürəyi getmişdi.

Zəngibasar rayonunda təzə gəlinləri çalğıyla toya aparırdılar. Çalğıçılar bir müddət həmin qapıda musiqi çalır, təzə gəlini oynadır, ondan sonra onu götürüb toy evinə gətirirdilər. Rəncbər kəndində bir ayın gəlinləri qara zurnanın müşayiəti ilə toya gətirilirdi. Zurnaçılar təzə gəlinlərin həyətində bir müddət çalır, gəlini oynadır, ondan sonra həmin gəlini də götürüb toy həyətinə gəlirdilər. Fəxriyə Miriyevanın dediyinə görə, nənəsini o şəkildə o qədər toya aparıblar ki, adını da “cingiltili gəlinlər” qoymuşdular. Toyun müəyyən məqamında meydan toy güləşinə verilirdi. Cəngi sədaları altında bir nəfər meydana girib özünə qənim tələb edirdi. Özünə, gücünə güvənən şəxs onun qarşısına çıxır, qalib gələnə də toy sahibi xələt verirdi. Toy güləşinə o qədər önəm verilib ki, hətta imkanlı adamlar toya gücünə, qüvvəsinə inandığı pəhləvanları gətirirdi. Deyilənə görə, Kərbəlayi İsmayıl Çimən kəndindəki toyların birinə bir kürd pəhləvanı

gətirir, bu pəhləvan da qabağına çıxan hər kəsin belini yerə vururdu. Usub oğlu İsmayıl kəndin cavanlarının kürd qarşısında yenilməsini özünə sığışdırmır, gecəylə oğlunu göndərib qonşu obadan gücünə inandığı Şahvələd adlı şəxsi gətirdir və səhər kürdün qarşısına çıxardır. Söyləyicinin dediyinə görə, dayısı deyirdi ki, insanın gözünün necə yerindən çıxdığını onda görüb. Şahvələd kürdün belindən yapışıb necə güc verirsə, az qala gözü həlqədən çıxsın, onu havaya qaldırıb kürəyini yerə vurmuşdu.

Toyun sonuncu günü axşam qara zurnanın müşayiəti ilə bəy *bəybaşı oxşamaq* üçün toy mağarına gətirilirdi. Qabaqcadan mağarda bəy üçün stol qoyulur, stolun üstü bəzədilirdi. Orada bir-bir bəyin qohum-əqrabası çarğılır, kişilər adətən bəyə nəmər verir, qadınlar isə onun boynuna xalat salırdılar. Kimsə bəyi oynamağa dəvət edirdisə, başqasının onun stolunda oturmaması üçün bəy oturduğu stolun üstünə dəsmalını və ya papağını qoyurdu. Qoymadıqda kimsə onun stolunda oturur, yalnız nəmərini aldıqdan sonra oradan dururdu. Bəy üçün şax bəzənirdi, bəyi qara zurnanın sədaları altında məclisə gətirəndə həmin şax da məclisə gətirilir və bəy oturan stolun üstünə qoyulurdu. Yuxarı Necili kənd sakini İsrafil Əliyevin dediyinə görə, yemək üçün bağda ağacların altında yer təşkil olunurdu, toy mağarı isə ayrı olurdu. Axşam toy mağarında bəy stolu qurulurdu, üstünə gül, mer-meyvə qoyulur, konfetlə bəzədilirdi. Sağdiş və soldişlə gedib qonşudan bəyi çalğı ilə toy mağarına bəybaşı oxşamağa gətirirdilər. Seçilməsi üçün bəyin, sağdişlə soldişin qoluna qırmızı parça bağlanırdı. Xanəndə oxuyur, bəyin əmisini, dayısını, qohum-əqrabasını bir-bir çağırır, onlar da gəlib bəyi təbrik edir, onun boynuna kəlağayı, parça atır və ya qoluna bağlayırdılar.

Qərbi Azəbaycan toylarının sonu, bir qayda olaraq, yallı ilə tamamlanır. Ən çox “Qoçəli”, “İrəvan yallısı”, “Naxçıvan yallısı”, “Tello” oynanılırdı. Tempinə görə yallılar cəld və ləng olmaqla iki yerə bölünür. Gənclər, əsasən, ritmik, yaşlılar isə ləng yallıları oynayırdılar. Kişilərlə qadınlar bir yerdə yallı gedirdilər. Yallının başını çəkənə yallıbaşı deyilir. O, əlinə qırmızı dəsmal alıb yallının başını çəkirdi. Bir nəfər də əlində çubuq yallının ayaq tərəfində durur, yallı gedənlərin ayaq hərəkətini izləyirdi. Kim hərəkətləri düzgün icra etmirdisə, çubuqla onun ayağına vururdu. Ancaq oynamağı bacaranlar yallı tuturdu, bacarmayan dəstəyə girmirdi. Söyləyicilərin dediyinə görə, yallı o qədər davam edirdi ki, yallı bitəndə hamı tər içində olurdu.

Yallının bir növü vardı ki, dəstəbaşı nə hərəkət etsə, dəstə üzvləri onu yamsılamalı idi. Məsələn, yallıbaşı ağzına qələm aldısa, dəstə üzvləri mütləq hardansa tapıb ağızlarına qələm almalı idi. Dəstəbaşı qucağına bir uşaq aldısa, dəstə üzvləri də mütləq qucağına bir uşaq almalı idi. Kim ala bilmirdisə, dəstəbaşı onları çubuqla vururdu. Yallıbaşının bu növü Zeytədə “Qazı-qazı”, Dərələyəz mahalında “İt yallısı”, Zəngibasar rayonunda “Batola” adıyla tanınır. Vedi rayonu Haxıs kəndində “Qazı-qazı” yallısı gəlini aparmağa gedəndə qız evində oynanılıb. Həyətdə zurna-nağaranın müşayiəti ilə yallı havası çalınır, bir dəstə qız evinin, bir dəstə də oğlan evinin adamları cərgə şəklində düzülürdü. Dəstəbaşının əlində nazik nar çubuğu olurdu. İnformatorun verdiyi məlumata görə, Qazı-qazı yallısında *güləşəngi* havasına bənzər bir hava çalınır. Söyləyici yallı üzvlərinin hərəkətini ilanın hərəkətinə bənzədir, yallı gedənlər ilan kimi qıvrılaraq hərəkət edirdilər. Dəstəbaşı nə hərəkət

edirsə, o biri dəstəbaşı da onu təqlid edirdi. Əgər dəstəbaşı ağzına bir qəpik alırdısa, o biri dəstəbaşı da tez ağzına qəpik alırdı. Əgər üstündə qəpik yoxdursa, dəstə üzvləri tapıb ona bir qəpik verirdilər. Həmin dəstəbaşı ağzına qəpik alana qədər o biri dəstəbaşı əlindəki çubuqla onları vururdu. Haxıs kənd sakini Telman Hüseynovun dediyinə görə, qonşularının bir küçüyü balalamışdı, "Qazı-qazı" gedəndə dəstə üzvləri həmin küçüyü gətirmiş, dəstəbaşı da onu ağzına almışdı. O biri dəstəbaşı küçük tapıb ağzına alana qədər onları şil-küt etmişdilər.

Evin küncünə taxta çarpayı qoyulur, onun ətrafına da gərdək çəkilirdi. Gərdəyi gəlinin yengəsi (yengə, adətən, xala və ya bibidən tutulur və yaşlı adam olurdu) qırmızı parçadan tikib hazırlayırdı. Gəlin gərdəyin arxasında çarpayının üstündə əyləşir, gəlinə baxmaq istəyən gərdəyi çəkib baxırdı. Qayınana ona oturacağı yeri göstərir, amma gəlin nəmərini almadan oturmurdu. Qayınana, qayınata gəlib ona nəsə boyun olduqdan sonra keçib ona təklif olunan yerdə otururdu.

Bəylə gəlin görüşəndən sonra havaya atəş açılırdı. Üç gün gəlin gərdəyin dalından çıxmırdı, onun yemək-içməyi gərdəyin arxasında verilirdi. Bəy də ata-anaya görünmür, səhər tezdən evdən çıxıb gününü dostları ilə keçirir, axşam hava qaralandan sonra evə qayıdırdı. Toydan üç gün sonra bəylə gəlini *gərdəkdən çıxarma* mərasimi keçirilir, həmin gün üçün adamlar dəvət olunurdu. Qayınana gəlini gərdəkdən çıxardır, evin adamlarını ona tanıdırdı. Gəlin üzündə yaşmaq onlara çay paylayır, onlar da çayı içdikdən sonra nəlbəkiyə nəmərlərini atırdılar. Yığılan nəmər gəlinə çatırdı. Əştərək rayonu Üşü kəndində isə ayaqaçdı gününün xərcini qız evi çəkirdi. Qız evində tənək dolması, aş bişirilir, salatlar hazırlanır və ayaqaçdı günü oğlan evinə gəti-

rilirdi. Çimən kəndində ayaqaçdı günü süfrə açılır, təzə gəlin qonaqlara çay verir, onun qonaq qəbul etməsi, qonaqlara necə qulluq etməsi sınanılırdı. Ayaqaçdıya gələnlər çayı içdikdən sonra nəlbəkiyə şirinlik atır, yaxud gəlin üçün aldıqları hədiyəni verirdilər. Söyləyicinin dediyinə görə, bir dəfə ayaqaçdıda gəlin çay verdikdən sonra keçib öz yerində əyləşir. Çay içildikdən sonra təkrar gəlindən çay istənilir, gəlin boş stəkanları süfrədən yığmadan daha dörd stəkan çay gətirir. Bu stəkanlar içildikdən sonra yenidən çay istədikdə süfrədə gətirilən çayı qoymağa yer olmur. Bununla gəlinin evdarlığının zəif olduğu üzə çıxmışdır.

Qaraçanta kəndində seyrana çıxmayan gəlinə qonşuya keçməyə, bulaq üstünə getməyə icazə verilmirdi. Ona görə təzə gələn gəlinlər səbirsizliklə Novruz bayramını gözləyirdilər. Bayram günü qəşəng xonçalar bəzədilir, yanlarında götürmək üçün şirniyyat, quru yeməklər bişirilir, cavan, nişanlı qızlar gəlinin başına yığılır və onu seyrana çıxarırdılar. Seyran zamanı yolboyu süfrə açıb yemək yeyir, oyun oynayır, yallı gedirdilər. Seyrana çıxan gəlin artıq sərbəst olur, ona qonşuya keçməyə, bulaq üstünə getməyə icazə verilirdi. Göyçə mahalında gəlini bulaq üstünə axır çərşənbədə, Saral kəndində isə pir üsünə aparırdılar, ondan sonra gəlinin ayağı açılırdı.

Qərbi Azərbaycanda gəlin qayınana, qayınata yanında danışmazdı. Böyük olan yerdə gəlinin səsinin eşidilməsi ayıb sayılırdı. Gəlin nəinki danışmayıb, ümumiyyətlə, qayınana, qayınata yanında yemək yeməyib, su içməyib, həmişə üzü yaşmaqlı gəzib. Gəlinin qayınata, qayınana yanında danışmaması, ortada pərdə saxlaması kimi izah olunur. Qaraçanta kənd sakini Cəlal Seyidovun dediyinə görə, 117 yaşlı əmiləri var idi, qulağı da eşitmirdi. Anaları həmişə onun yanında yaşmaq vurur,

danışmırdı. Ona deyəndə ki, kişinin qulağı eşitmir, sənin danışdığını bilməyəcək. Anası deyərdi ki, yox, ayıbdı, dodaqlarımın hərəkətindən biləcək ki, danışıram. Sonra fikirləşər ki, mən onu saymıram, onun yanında danışıram. Söyləyicilərin dediyinə görə, müəyyən dövrdən sonra qayınata, qayınana gəlinə hədiyyələr alıb onların yanında danışmasına icazə verirdilər. Gülənbər Əhmədovanın dediyinə görə, 71 yaşı var, amma bu gün də gəlinlik edir, özündən yaşlı kişilərin yanında danışmır. Gəlin olanda da qayınatası ilə danışmayıb, ona olan sözünü qayınanasına deyib. Qapıya yad kişi gələndə gəlinin qapıya çıxmağa ixtiyarı yox idi, qapını yalnız evin kişisi açırdı.

Söyləyicilərin dediyinə görə, İrəvanda gəlinə elə də güclü *cehiz* verilməyib. Gəlinə cehiz salmaq üçün qabaqcadan xüsusi gün təyin olunurdu. Həmin gün beş-on nəfər yığılır, kimi yun didir, kimi yun çırpır, kimi yorğan sırıyırdı. Nazilə Qafarovanın dediyinə görə, gəlin köçəndə atası ona üç dəst yorğan-döşək, qab-qacaq, sandıq, döşəküzü, ədyal, şifoner, iki gözlü qaz plitəsi cehiz vermişdi. Gəlin sandığının içində dəsmal, toxunma corablar, tikmələr, oğlanın atası, anası, bacısı üçün alınmış hədiyyəlik köynək, dəsmal olurdu. Üzəçıxdı günü gəlin sandığın ağzını açıb həmin hədiyələri ailə üzvlərinə paylayır, toyda əl-ayaq verənlərə önlük hədiyyə edirdi. Gəlinə verilən cehizin siyahısı tutulur və hər iki tərəf onu imzalayırdı. Həmin siyahıdan iki nüxsə hazırlanır, biri qız evində qalır, o biri isə oğlan evinə verilirdi.

*Gəlin sandığı* gəlin cehizinin ayrılmaz parçası idi, amma cehizin üstündə getmirdi. Gəlinin cehizini toydan bir neçə gün qabaq göndərirdilər, gəlin sandığı isə gəlin köçən gün gətirilirdi. Gəlin sandığını, adətən, gəlinin dayısı hədiyyə edirdi. Sandıqda

gəlinin qayınata, qayınana, oğlanın bacıları, qardaşları, yaxın adamları üçün aldığı hədiyyələr – corab, köynək, sağdiş, soldiş üçün alınan hədiyyələr olurdu. Üşü kəndində gəlin sandığında 40 dənə ovma olardı. Ovma un, yağ, süd və şəkər tozundan hazırlanan, üstü qara çörəkotu ilə bəzənən və təndirdə bişirilən şirin çörək növüdür. Toydan bir gün qabaq qız evi 40 ədəd ovma bişirir və oğlan evinə göndərmək üçün gəlin sandığına qoyurdu. Toydan üç gün sonra üzəçıxdıda gəlin hədiyyələri sahiblərinə verir, eyni zamanda ovma dilimlənib mərasim iştirakçılarına paylanırdı. Çəmbərək rayonunda gəlin köçən qızın sandığında toxunma çorablar, döşlüklər olurdu. Üzəçıxdı günü gəlin özü ilə gətirdyi toxunma corabları oğlanın yaxın qohum-əqrabasına hədiyyə edir, toyda əl-ayaq verənlərə isə döşlük verirdi. Göyçə tərəfdə gəlin özü ilə şirin çörək bişirib gətirirdi, həmin çörəyi də ancaq qayınana yeyirdi.

Gəlin boşanıb ata evinə qayıtmasın deyə gəlin köçən zaman qız evi oğlan evinə mismar çalır. Üşü kənd sakini Cəfər Həmzəyevin yoldaşının dediyinə görə, gəlin köçəndə anası onun yengəsinə yüzlük mismar vermişdi ki, onu oğlan evində döşəmənin küncünə vursun.

Sabirabad rayonunda məskunlaşan qərbi azərbaycanlılar bəy hamamına Şirvan rayonuna gedirdilər. Hamam xərcini isə bəy ödəyirdi.

Söyləyicilərin dediyinə görə, əvvəllər rəsmi kəbinə o qədər də önəm verilməyib, dini kəbin üstün tutulub. Toy gününə qədər mütləq dini kəbin kəsilməli idi. Həm oğlan, həm də qız evindən ağsaqqallar mollanın yanına gedir, onların şahidliyi ilə dini kəbin kəsilirdi. İsrayıl Əliyevin dediyinə görə, hər mollaya kəbin kəsməyə icazə verilmir, onlar Seyid Mirişə kəbin kəsdirirdilər.

Rəsmi nigah isə toydan sonra uşağa doğum haqqında şəhadətnamə almaq lazım gəldikdə kəsilirdi.

Göyçədə toydan üç-dörd ay sonra qız tərəfi gəlini *gecə qonaqlığına* dəvət edirdi. Gecə qonaqlığında bəy iştirak etmir, ancaq gəlin çağrılırdı. Bəy üçün qonaqlıq isə gecə qonaqlığından sonra olurdu. Onda bəy özü də iştirak edir, qız tərəfi bəyə üzük hədiyyə edirdi. Gecə qonaqlığı isə gəlin üçündür. Gəlindən əlavə oğlanın atası, anası, bacısı, yaxın qohumlar da iştirak edirdi. Gəlini gecə atası evinə qonaqlığa apardıqları üçün gecə qonaqlığı ifadəsi də oradan yaranmışdı. Qız tərəfin ağsaqqalları da çağrılır, orada qonaqlıq verilirdi. Ondan sonra gəlinə atası evinə getməyə icazə verilirdi. Gecə qonaqlığı verilməyənə qədər gəlin ata evinə gedə bilmirdi.

## 3. YAS ADƏTLƏRİ

Qərbi Azərbaycanda qədim yas adətlərinə dair maraqlı etnoqrafik faktlarla qarşılaşmaq mümkündür. Belə adətlərdən biri odur ki, ata rəhmətə gedəndə böyük qardaş mollanın iştirakı ilə o biri qardaşları himayəsinə götürməli idi. Əgər himayəsinə götürmürsə, o ehsandan heç kim yemirdi. Herherdən olan Səməd Orucovun verdiyi məlumata görə, 1905-ci ildə babası dünyasını dəyişəndə böyük əmisi o biri qardaşları himayəsinə götürmüşdü. Himayəyə götürmək o deməkdir ki, böyük qardaş onlara atalıq edəcək, onların bütün xərcini ödəyəcəkdir. Cavan ölənin ehsanı isə, ümumiyyətlə, yeyilmirdi. Köçbək kənd sakini Əyyub Həşimovun dediyinə görə, qardaşı dünyasını dəyişəndə cavan adamın ehsanı yeyilmədiyi üçün atası ehsan bişirtdirmədi, ehsan niyyətinə kəsilmiş heyvanın ətini kəndə paylamışdı.

Maraqlı adətlərdən biri də odur ki, kəndə gəlin gətirəndə əgər yas düşmüş ailələr varsa, gəlin atını birinci o həyətə sürürdülər. Ev yiyəsini çağırıb qapıya çıxardır, musiqi çalıb onu oynadır, onu toya dəvət edib sonra gəlini oğlan evinə aparırdılar.

Vedi rayonu Yellicə kəndində yas üçün lavaş bişirəndən sonra axıra qalan kündəni yağla yoğurub koka (kökə) bişirirlər, ona *ölü gözü* deyilir. Yağlı olduğundan çörəyin qoxusu ətrafa yayılır və həmin ocaqdan getmiş şəxslərin ruhu o qoxudan doyur. Ölü adına bişirilən həmin çörək yeyilmir, itə, toyuq-cücəyə atılır. Bala Məzrə kəndində isə ölü gözü yasın birinci günü bişirilən halvaya deyilir. Toğluca kəndində isə yasın birinci günü bişirilən halvaya *ağız acılığı* deyilir. Həmin halva ölü həyətdə ikən bişirilir və ölünü dəfn edəndən sonra qəbiristanlıqdan gələn camaata ondan verilirdi.

Söyləyicilərin dediyinə görə, əvvəllər üç gün yas düşən evdən tüstü çıxmırdı, qohum-qonşu yasa gələndə özü ilə hazır yemək gətirir, ev sahibinə, orada əl-ayaq verənlərə həmin xörəklərdən verilirdi. Ölü üçün üçü, yeddisi, qırxı və ilində ehsan verirdilər. Amma elə imkanlı şəxslər olub ki, onlar yasın birinci günü də ehsan verib. Toğluca kənd sakini Abbasəli Həsənovun dediyinə görə, babasının imkanı yaxşı idi, o öləndə birinci gün də ehsan verdilər, üçündə də heyvan kəsib kəndə çiy ehsan paylamışdılar. Bölgədə ehsana böyük önəm verilib, ölən şəxs üçün güclü ehsan verilib. Hətta söyləyicilərin dediyinə görə, bəzən ehsan üçün bir neçə heyvan kəsilirdi. Ona görə indiki dövrdə onlardan ehsan süfrələrini sadə etmək tələb etdikdə ona qarşı çıxır, bunu ölünü urvatsız yola salmaq kimi qəbul edirlər.

Cümə (cuma) axşamı bütün bölgə üçün xarakterik deyil, Köçbək, Mərətüst kəndlərində cümə axşamları verilməyib,

amma digər bölgələrdə cümə axşamları verilib. Bəzi bölgələrdə yaxın qohum-əqraba cümə axşamına köməklik edirdi, ev sahibi də onu borc kimi qəbul edir, gələcəkdə əvəzini qaytarırdı. Abbasəli Həsənovun dediyinə görə, ailədə dörd qardaş olublar, anaları dünyasını dəyişəndə hər qardaşı bir cümə axşamını öz öhdəsinə götürmüşdü.

Əvvəllər cənazə namazı qılınanda yerə palaz sərilir, yasa gələnlər onun üstünə pul atırdı, həmin pul da yasa xərclənirdi. Yasda dəftər qoyub pul yazdırmaq isə sonralar ortaya çıxmışdır.

Yas adətlərindən biri də odur ki, qardaşlardan biri rəhmətə gedəndə təsərrüfat dağılmasın deyə onun dul qalmış arvadını o biri qardaşa alırdılar. Deyilənə görə, Aşıq Ələsgərin qardaşı oğlu Növrəs İmanın itkin düşməsinin səbəbi də bu olub. Qardaşı rəhmətə gedəndən sonra onun dul qalmış arvadını ailə böyüklərinin məsləhəti ilə Aşıq İmana alırlar. Toydan üç gün sonra qardaşı Aşıq İmanın yuxusuna girib "evlənməyə başqa arvad tapmadın?" – deyə ondan gileylənir. Aşıq İman bu hadisədən o qədər təsirlənir ki, xəbər-ətərsiz evi tərk edir və bir daha ondan xəbər alınmır.

Kənddə ölü düşəndə hamı qırx gün yas saxlayır, nə televizor, nə radio açır, toylar dayanır, ölünün qırxının çıxması gözlənirdi. Bala Məzrə kənd sakini Aqil Şərifovun dediyinə görə, bacısını gəlin köçürəndə toydan bir gün qabaq kənddə yas düşdüyü üçün atası toyu dayandırmışdı. Digər bacısı ərə gedəndə səhər artıq gəlini aparacaqlar, gecə xəbər yayılır ki, kənddə yas düşüb. Onda atası oğlan evinə tapşırmışdı ki, gəlini səssiz aparsınlar, kənddən çıxana qədər heç bir çalğı olmasın. Ramazan kişinin dediyinə görə, qızını köçürəndə artıq toyun lavaşı bişirilib, səhər xəbər çıxır ki, kənddə yas düşüb. O, toyu

saxlatmış, xarab olmaması üçün toy üçün bişirilən lavaşları da camaata paylatmışdı. Ölünün qırxı çıxandan sonra molla ilə yas düşən qapıya gəlmiş, orada Quran oxutmuş, ölü sahibindən icazə alıb sonra qızı köçürtmüşdü.

Qəbirüstü gününün keçirildiyi tarix bölgədə fərqlənir. Qərbi Azərbaycanın Göyçə, Dərələyəz və sair bölgələrində qəbir üstünə axır çərşənbədən əvvəlki cümə axamı gedilir, amma Vedi rayonunda (Haxıs və sair kəndlərdə) ilaxır çərşənbədə gedilir. Haxıs kəndində ilaxır çərşənbəyə *ölü təki* deyilir, ilaxır çərşənbəyə məxsus atributlar – baca-baca gəzmək, qulaq falı Novruz bayramında icra olunur, ilaxır çərşənbəni isə *ölülər bayramı* kimi qeyd edirlər. Həmin gün hamı qəbiristanlıqda ölüsünü ziyarət edir, bayram nemətlərindən (şirniyyat, alma, halva və s.) aparılır, həmin nemətlərdən qəbir üstünə qoyulur, qalanı isə süfrənin üstünə tökülüb qarışdırılır, hərəyə bir nəlbəki ondan pay verilirdi. Axşam isə hər kəs evində ölülərin adına qazan asır, halva bişirirdi. Həmin gün süfrənin üstünə araq qoyulmazdı. Uzaqda olan ailə üzvləri həmin gün ocağa yığılır, molla gətirib Quran oxutdurur və ölünün ildönümü qeyd olunurdu. Toğluca kəndində qara çərşənbədə hamı evdə ət yeməyi bişirir, yeməyə duz atanda "bu ocaqda dünyasını dəyişənlərin ehsanına", – deyib duzu atırdılar. Bayburd kəndində təzə ölünün üstünə bayram sovqatlarından xonça tutub aparılırdı. Qəbiristanlıqda böyük süfrə açılır, hər kəs gətirdiyi bayram sovqatını ora tökür, onlar qarışdırılıb hərəyə bir qab pay verilirdi. Artıq qalanı da kənddəki xəstə, imkansız şəxslərin siyahısı tutulub onlara paylanırdı. Qəbir üstündə çıra yandırılırdı. Çıra kimi marketdən alınan deyil, özlərinin ev şəraitində düzəltdiyi şamlardan istifadə edirdilər.

Qəbirüstü günü Şıx Həsən babanın kümbəzi ziyarət olunur, onun üstündə çıra yandırılırdı.

*Qara bayram* da həmin gün qeyd olunur. Qəbiristanlıqdan çıxdıqdan sonra təzə ölüsü düşmüş ailələr ziyarət olunur, onlara baş sağlığı verilir, onlar yasdan çıxarılır ki, bayramı hamı kimi şən qarşılasınlar. Qara bayramda ölü sahibi ehsan verirdi. Heyvan kəsib yasa gələnlər üçün ehsan bişirtdirir, yasa gələ bilməyənlər üçün isə evlərə çiy ehsan göndərirdi. Ehsan sahibi çalışırdı ki, ölü üçün verilən ehsandan hər kəs dadsın. Ona görə hər evə ailə üzvlərinin sayına uyğun tikə qoyulurdu ki, hamı o ehsandan yeyə bilsin. Ətə gücü çatmayanlar isə halva bişirtdirib paylayırdı.

Gün dönəndən sonra ölü basdırılmır. Günortadan sonra ölü düşərdisə, saxlayıb səhər dəfn edilirdi. Gülənbər Əhmədovanın dediyinə görə, qayınatası dünyasını dəyişəndə onu yuyub kəfənləyirlər, dəfn etmək üçün qəbiristanlığa aparanda yolda ikən Günəşin üzü tutulur və hava qaralır. Molla qafiləni yolda dayandırmış, hamı bir kənarda oturub Günəşin üzünün açılmasını gözləmişdi. Günəşin üzü açılandan sonra ölünü aparıb dəfn etmişdilər. Ümumiyyətlə, gün dönəndən sonra bayatı demək, ağlamaq pis hesab olunur, ölü üçün də günortaya qədər ağlayır, günortadan sonra ağlamağı dayandırırdılar.

Söyləyicilərin dediyinə görə, goreşənlərin qəbrə yaxın gəlməməsi üçün birinci gecə təzə qəbir üstündə ocaq qalanırdı. Ölü yuyulan yerə *yuqat* deyilir, orada üç gün şam yandırılırdı.

Qəbiri ziyarət edəndə onların gəlişindən ölünün xəbər tutması üçün qəbrin baş daşını daşla döyürdülər. Herher kənd sakini İman Almuradovun dediyinə görə, kənddə Məhərrəm adında bir şəxs var idi. O danışırdı ki, oğlu olmurdu. Atası dün-

yasını dəyişəndə vəsiyyət etmişdi ki, oğlun olsa, gəl, qəbrimin baş daşını taqqıllat. Denən ki, ata, narahat olma, mənim oğlum oldu.

Ölü paltarı qəbrin üstü götürüləndə qəbrin baş tərəfində basdırılırdı. Ölünün müəyyən paltarları qırxa kimi saxlanılır, ağlaşma olanda həmin paltarlar ortaya tökülüb dil deyilirdi. Bu adət *paltartökdü* kimi tanınır. Günümüzdə bu adət sıradan çıxıb, indi dil deyəndə ölünün şəkli ortaya qoyulur. Qəbirin üstü ölünün ili çıxandan sonra götürülürdü. Yuxuya ölü girəndə onun adına Quran oxudulurdu.

## 4. KİRVƏLİK

Sünnət mərasiminin tərkib hissəsi olan kirvəlik Qərbi Azərbaycanda olduqca geniş yayılmış anlayışlardan biridir. Bölgədə işlənən "Allahından döndün döndün, bəs kirvəndən niyə dönürsən"; "kirvə kirvənin damının üstünə çıxmaz ki, kirvənin üstünə torpaq tökülər"; "kirvə qardaşdan əzizdir"; "kirvə qardaşdan irəlidir"; "asta yeri, kirvənin üstünə toz qonmasın" kimi atalar sözləri kirvəliyin onlar üçün nə ifadə etdiyini göstərir. Kirvənin timsalında sadəcə yeni bir qohumluq münasibəti yaranmır, eyni zamanda kirvə ailənin ən yaxın, ən əziz fərdinə çevrilir.

Qərbi Azərbaycanda oğlan uşaqlarının sünnət olunması üçün bəlli yaş dövrü yoxdur, amma sünnət mərasimlərinin uşaq yetkinlik yaşına çatmamış icra olunması məsləhət görülür. Cul kənd sakini Nizami Orucovun dediyinə görə, iki yaşa qədər uşağı sünnət etdirməyə islamda icazə verilmir, ona görə oğlan uşağını iki yaşından sonra sünnət etdirirlər. Sünnəti yetkinlik dövrünə saxlamaq xoş qarşılanmır. Əziz Həsənovun dediyinə

görə, Xeyirbəyli kəndində bir nəfər kasıb olduğundan oğlunu sünnət etdirə bilmirdi, uşağın da yaşı keçirdi. Onda kənd adamları yığılıb Allah rizasına onu sünnət etdirmişlər. Xalisa kənd sakini Çiçək Fətiyevanın dediyinə görə, müəyyən yaşdan sonra uşağın qanbağır dövrü olur. O, qan görəndə qorxur, havalanır, ona görə o vaxta qədər uşağı sünnət etdirməyə üstünlük verirlər. Böyük uşaqları sünnət etdirəndə kiçiyi hələ altı aylıq idi, onu da o biri uşaqlarla bir yerdə sünnət etdirmişlər. Çiçək Fətiyevanın özünün ibtidai sinifdə oxuyan iki oğul nəvəsi var. Oğlu onları sünnət etdirməyi yubatdığı üçün ona da məsəhət görür ki, nə qədər uşaqların qanan vaxtı deyil, onları sünnət etdir.

Mərasim zamanı uşağı qucağında tutan şəxsə kirvə deyilir. Kirvəlik əhəmiyyətli qohumluq institutlarından biridir, hətta qardaşdan da üstün tutulub. Kirvənin qardaşdan üstün tutulmasının səbəbi onun ətəyinə qan tökülməsidir. Çiçək Fətiyevanın dediyinə görə, qardaşa hörmət qoymaya bilərsən, amma kirvəyə mütləq hörmət etməlisən. Çünki onun ətəyinə qan tökmüsən. Rəncbər kənd sakini Nazilə Qafarovanın dediyinə görə, kirvələri onlara gələndə əgər həyətdə oturubsa, onların ixtiyarı yox idi ki, balkona çıxıb ondan yuxarıda otursunlar. Kirvə qan barışdırıb, onun bir sözü iki edilməyib, onun xahişi yerə salınmayıb. Terp kənd sakini Əsgər Hüseynovun dediyinə görə, kirvənin iti yolla gedən birinə cumur, həmin adam özünü qorumaq üçün yerdən daş götürüb itə atır. Ona irad tutublar ki, kirvə kirvənin qapısına daş atmaz. Sən nahaq kirvənin itinə daş atırsan. Yaxud, kirvə kirvənin qapısından keçməzdi ki, deyərdilər, bu niyə buna basqın elədi, qapısından keçdi. Xahiş üçün müəyyən qapıya getdikdə ev sahibi böyüyün, ağsaqqalın xahişinə əməl etməzdi, amma kirvənin sözündən keçməzdi.

Əsgər Hüseynovun dediyinə görə, kəndlərində bir nəfər altı-yeddi yaşlı qız uşağını maşınla vurmuşdu. Uşağı qucağına alıb kirvəsi ilə – qızın əmisi həm də onun kirvəsi idi – onu qapıya aparır. Uşağın atasının cavabı bu olmuşdu ki, sən ki uşağı qucağına alıb mənim qapıma gətirmisən, mənim qohumumla kirvəsən, mən bu kirvəliyə görə bu ölümdən keçirəm, şikayət eləmirəm. Bəylər Heydərovun dediyinə görə, onların kəndində bir nəfəri döyürlər. Onu nə qədər çırpırlar, dədəsini, anasını söyürlər, bu dillənmir. Axırda biri bunun kirvəsinə söyür. Həmin şəxs dayanır: – Nə, kirvəm? Bu söz ona o qədər təsir edir ki, ağacı əlinə alıb onu döyən şəxslərin üstünə düşür. Deyir, dədəmi söydünüz dinmədim, qardaşımı söydünüz dinmədim, kirvəmi söyürsüz? Döyülən şəxsin verdiyi bu təpki əslində kirvəyə olan münasibəti çox gözəl şəkildə ifadə edir. Uluxanlı kənd sakini Əkbər Əliyevin dediyinə görə, onlar tərəfdə belə bir hadisə olub ki, bir nəfər qəza ilə kimisə öldürüb, onun oğluna kirvə durmaqla arada barışıq əldə olunmuşdu. Bütün bunlar kirvəliyin qərbi azərbaycanlılar üçün nə anlam ifadə etdiyini göstərir. Təbii ki, bu qədər dəyər verildiyi üçün hər adamı kirvə tutmur, hər şəxsi evin içinə salmırlar, yalnız münasibətdə olduqları, dostluq, yoldaşlıq etdikləri, sınadıqları şəxsi kirvə tuturlar. Bununla da aradakı dostluq, yoldaşlıq bağı daha da möhkəmləndirilir, əsrlər boyu davam edəcək bir qohumluq əlaqəsi yaradılır. Kirvə ən çox sevilən, hörmət edilən şəxs olduğu üçün kirvə ifadəsi bölgədə müraciət məqsədilə də işlədilir, ermənilər də azərbaycanlılara kirvə deyə müraciət edirdilər.

Kirvəlik adətən nəsildən nəsilə ötürülür, əvvəlki uşaq kimin qucağına qoyulubsa, növbəti uşaqlar da həmin nəsildən olan şəxsin qucağına qoyulurdu. Bu ənənə nəticəsində bölgədə

kirvəlik münasibətlərinin yüz il və daha çox sürdüyü nəsillər mövcud idi. Nəsildən nəslə ötürülən kirvəliyə *kötük kirvə* deyilir. Söyləyici xatirələrindən məlum olur ki, bəzən uşaq doğulanda artıq onun kirvəsinin kim olacağı məlum olurdu. Uşağın valideyni qabaqcadan əhd edir ki, oğlum olarsa, filankəsi kirvə tutacağam. Əhdi gerçəkləşəndən sonra da həmin adamı kirvə tuturdu. Mansur İmamverdiyevin dediyinə görə, işçilərindən biri oğlu olarsa, onu kirvə tutacağını əhd edir. Oğlu olur, sünnət gününü təyin edir. Amma iş elə gətirir ki, böyrək əməliyyatı olunduğu üçün həmin ərəfədə xəstəxanada yatmalı olur. Uşağın valideyini ona görə sünnət toyunu təxirə salmış, xəstəxanadan çıxandan sonra ona baş çəkmiş, ondan sonra dəllək gətirib uşağı kəsdirmişdi. Cəlal Seyidovun dediyinə görə, bibisinin dörd qızı var idi, amma oğlu olmurdu. Seyid Heydər bir gün onlara gələndə bibisi niyyət edir ki, oğlum olsa, səni kirvə tutacam. Elə olur Allah dalbadal ona iki oğul bəxş edir, hər ikisinə də Seyid Heydər kirvə durur. Bu cür şəxslər qabaqcadan əhd etdiyi üçün uşaq doğulanda artıq onun kirvəsinin kim olacağı məlum idi.

Kirvənin yaxın dostluq etdiyi şəxs varsa, dostlar arasında inciklik salmamaq üçün bəzən hərəsi bir uşağa kirvə dururdu. Nazilə Qafarovanın dediyinə görə, qardaşlarının kirvəsi iki qardaş idi: uşağın birini bir, digərini o biri qardaşın qucağına, qoymuşlar.

Kirvə o qədər müqəddəsləşdirilir ki, onu dəyişdirmək günah hesab olunur. Ona görə bölgədə yaşı bəzən yüz ili aşan kirvəlik münasibətləri vardır. Yeni doğulan hər uşaq kirvənin nəslindən olan şəxsin qucağına qoyulur ki, bununla da kirvəlik münasibətləri yenilənir, aradakı bağ daha da möhkəmləndiri-

lirdi. Xeyirbəyli kənd sakini Mahmud Ələkbərovun dediyinə görə, yüz ildir onlar kirvələrini dəyişmirlər, oğlan uşağı olanda həmin nəsildən olan şəxsi kirvə tuturlar. Nazilə Qafarovanın dediyinə görə, oğlanlarını ərinin tələbə yoldaşının qucağına qoyublar. Tələbə vaxtı onlar hansımızın oğlu olsa, uşağı o birinin qucağına qoyacağını əhd edirlər. İlk onların uşağı olduğu üçün əri dostunu kirvə tutur. İndi həmin uşaq böyüyüb, onun oğlunu həmin kirvələrinin oğlunun qucağına qoyublar. Kirvəlik o qədər müqəddəsləşdirilir ki, kirvə dəyişdirməyə pis baxılır. Söyləyicilərin özləri də etiraf edirlər ki, kirvəni dəyişməyə qorxurlar. Kirvəni dəyişsələr, bədbəxt bir hadisə baş verəcəyindən ehtiyat edirlər. Yeni Daşkənd sakini Mələksima Bayramovanın dediyinə görə, bir nəfər kirvəsini dəyişmişdi, arxasınca doğulan uşaqların hamısı qız olmuşdu. Uşaqların hamısının qız olmasını onun kirvəni dəyişdirməsi ilə əlaqələndirmişlər.

Kirvəlikdən imtina etməyin düşər-düşməzi olduğuna inanılır. Söyləyicilərin dediyinə görə, kimsə sənin qapına gəlib kirvə olmağı təklif edirsə, gərək onun təklifini yerə salmayasan. Çiçək Fətiyevanın dediyinə görə, qayınatası bir nəfəri kirvə tutmaq istəyirdi, amma həmin şəxs işi ilə əlaqədar gəlib-gedə bilməyəcəyini bəhanə edib kirvə olmaq istəməmişdi. Həmin il onun arvadı dünyasını dəyişmişdir. Qayınatasının dediyinə görə, kirvəlikdən imtina etdiyi üçün Allah onu cəzalandırmışdır.

Kirvə olmaq müəyyən məsrəf tələb edir, uşağın geyimindən tutmuş ailə fərdlərinin hər birinin adına hədiyyə alınmalı, sünnət toyunun müəyyən xərcinə kirvə kömək etməlidir. Ona görə müəyyən məhdudiyyət qoyulur, bir insanın ancaq yeddi şəxsə kirvə dura biləcəyi söylənilir. Amma bəzən bu qaydanın

gözlənilmədiyinin də şahidi oluruq. Bayburd kənd sakini Abbas Hüseynovun dediyinə görə, indiyə qədər on nəfərə kirvə durub. Həyat yoldaşı nə qədər “daha kirvə durma”, – deyə tapşırsa da, buna əməl edə bilmir. Seyid olduğu üçün övladı olmayan şəxslər onun cəddini köməyə çağırır, oğlu olarsa, onun qucağına qoyacaqlarını niyyət edirlər. Niyyətləri gerçəkləşəndə də gətirib uşağı onun qucağına qoyurlar. Söyləyicinin dediyinə görə, bir gün darvazanın ağzında oturubmuş. Bir arvad gəlib onun əlindən öpür, onun cəddini köməyə çağırıb deyir, seyid, bəs nəvəm olmur. Sən Allahı çağır, mənə nəvə versin, gətirib sənin qucağına qoyacam. Bir müddət sonra axşam bu arvad bir qırmızı xonça bəzəyib gəlir. Deyir, seyid, burnumda qan durmurdu. Sən əlini başıma çəkdin, burnumun qanı dayandı. Sənin cəddini çağırdım, Allah mənə iki dənə də nəvə verdi. Filan vaxdı gələrsən, uşağı sünnət elətdirəcəyik. Belə istisnalar olsa da, ümumi qəbul olunmuş fikir budur ki, bir nəfər yeddi şəxsə kirvə dura bilər.

Bəzi insanları, ümumiyyətlə, kirvə tutmurlar. Məsələn, çoxlu qız övladı olub, amma oğlu olmayan şəxsləri kirvə tutmurlar. Belə şəxslərin əlinin düşərli olmadığına inanılır. Sadəddin Qafarovun dediyinə görə, ailədə dörd-beş qardaş olublar, atası hər birinə kənddə ayrı-ayrı adamları kirvə tutub. Həmin şəxslər də onun atasını kirvə tutublar ki, bu kişinin əli düşərlidir, onların da oğul evladı çox olar.

Kirvədən qız almaq, kirvəyə qız vermək günah hesab olunur. Herher kənd sakini Həmayə Cəfərovanın dediyinə görə, kirvələri onun qız nəvəsinə elçi düşmüşdü, o, bu elçiliyin baş tutmasına razı olmamışdı. Kirvə o qədər müqəddəs hesab olunur ki, ortada qan davası, ciddi səbəb olmayınca onu dəyişməzdilər.

Söyləyicilər gənclərin kirvəliyə əhəmiyyət verməmələrindən, köhnə kirvəliklərin müasir dövrdə qalmamasından gileylənirlər. Haxıs kənd sakini Abbasqulu Cəlilovun dediyinə görə, oğlu uşaqları sünnət etdirəndə onları köhnə kirvələrinin deyil, sinif yoldaşının qucağına qoyur. Həmin adamı ancaq sünnət toyunda görəndilər, üstündən neçə il keçsə də, nə kəndə gəlir, nə də onlara baş çəkir.

Qərbi azərbaycanlılar arasında *kirvə haqqı* deyilən bir ifadə işlədilir. Uşağın üzərində kirvənin böyük haqqı olduğu söylənilir. Sədaqət Vəliyevanın dediyinə görə, qardaşının birinci sinifdən onuncu sinifə qədər məktəb kostyumunu kirvələri almış, kirvələri onların evinə televizor alıb vermişdi. Kirvə qardaşdan irəli sayılıb. Qardaş qardaşın qızını ala bildiyi halda, kirvədən qız almaq, kirvəyə qız vermək günah hesab olunurdu. Nəinki kirvədən, hətta kirvəyə bir köynək yaxın qohum-əqrabadan da nə qız alar, nə də qız verərdilər. Gərək yeddi nəsil dəyişərdi, ondan sonra kirvədən qız almağa icazə var idi. Bölgədə belə bir ifadə var: kirvə olmaq asandır, amma gərək onu saxlamağı bacarasan. Yəni kirvə kirvənin ailəsinə xəyanət etməz, ailənin bütün xeyir və şərində kirvə iştirak edər, ailənin bir üzvü kimi həmişə süfrənin başında oturardı.

Sünnət mərasimindən öncə görüləcək ilk iş uşağı tutacaq şəxsi – kirvəni müəyyənləşdirmək idi. Kirvə olacaq şəxs sünnət olunan uşağın atası tərəfindən seçilir. Adətən, aradakı bağı möhkəmləndirmək üçün bu məqsədlə münasibətdə olduğu, dostluq, yoldaşlıq etdiyi şəxsə təklif götürür. Təbii ki, həmin şəxsin maddi imkanı ona kirvə olmağa əl verməlidir. Çünki kirvəlik böyük xərc tələb edir, uşağın corabından tutmuş üst qiyafəsinə qədər bütün paltarları alınır, ailə fərdlərinin hər

birinin adına hədiyyələr alınır, hətta sünnət toyunun müəyyən xərcini kirvə öz boynuna çəkir. Ona görə bəzi ailələr kirvə seçərkən həmin şəxsin imkanına baxır, arxalı yerdən, adlı-sanlı şəxsləri kirvə tutur ki, uşağa kömək edə bilsin. Hətta oğlu olmayan şəxsləri kirvə tutmağa üstünlük verirdilər. Bununla həmin şəxs özünə həm də bir oğul qazanmış olur, uşağın təhsilinə, oxumasına dəstək olur, onun xeyir işində yaxından iştirak edirdi. Əvvəllər kirvə yeni qohum qazanmaq üçün yaddan seçilirdi, amma müasir dövrdə kirvəlik münasibətləri zəiflədiyindən qohumdan, hətta qardaşdan da kirvə tutulur.

Kirvə kişi xeylağından tutulur, amma nadir hallarda qadın kirvələrə də rast gəlinir. Ələddin Əliyevin dediyinə görə, onu uşaq ikən Seyid Bayramın qızı Seyid Sədətin qucağına qoymuşlar. Atasının övladı qalmırdı. Anası ona hamilə olanda niyyət edirlər ki, uşaq sağ qalsın, onu Seyid Bayramın ocağında sünnət elətdirəcəklər. Seyid Bayramın oğul evladı olmadığı üçün onu qızı Sədətin qucağına qoymuşlar.

Sünnət toyuna qədər uşağın atası kirvə tutmaq istədiyi şəxsə eşitdirir, onun fikrini öyrənir, bu yaxınlarda evdə olub-olmayacağını xəbər alır. Onun da kirvə olmağa könlü olduğunu biləndən sonra artıq rəsmi şəkildə ona təklif götürürdü. Təklif götürəndə kirvənin evinə buynuzlu bir qoç aparılır, qoçun boğazına yaylıq bağlanır, böyük bir xonça tutulur, xonçanın üstünə qırmızı yaylıq salınıb kirvənin evinə gedilir. Orada rəsmi şəkildə təklif edilir, kirvənin razılığı alınır, sünnətin tarixi elə orada kirvəyə deyilirdi.

Sünnət toyuna bir neçə gün qalmış kirvə uşağa təzə paltar almaq üçün onu bazara aparır, buna *kirvə bazarlığı* deyilir. Kirvə əvvəlcə uşağın saçını qırxdırır, corabından tutmuş üst

qiyafəsinə qədər yeniləyir, ailə üzvlərinin hər birinin adına hədiyyələr, qadınlara sep alırdı. Həmin hədiyyələr çamadanlara yığılır, üçgünlükdə uşağı küldən çıxartmağa gələndə həmin hədiyyələr də gətirilirdi.

Uşaq sünnət üçün hazırlanırdı. Əyninə qırmızı parçadan don geyindirilirdi. Uşağın donunu anası, bibisi və ya yaxın qohumlardan kim bacarırdısa, o tikib gətirirdi. Həmin şəxs bunu özü üçün bir şərəf sayırdı. Kirvə sünnətə gələndə müəyyən şirniyyatlardan xonça bağlatdırır, sünnətdə istifadə etmək üçün dəsmal və sabun gətirirdi.

Kirvə stolda oturur, onun dizinin üstünə ağ parça sərilir ki, sünnət kəsildikdə axan qan kirvənin üstünə düşməsin. Daha sonra uşağı kirvənin qucağında oturdurlar. Kirvə qollarını uşağın ayaqları arasından keçirib onun qıçlarını tutur. Dəllək sünnətə başlamazdan əvvəl dua oxuyur. Küllə kəsəcəyi yeri keyidir, sonra qamışı keçirib ülgüclə sünnətin ucundakı əti kəsirdi. Sünnət olunan zaman uşağın üzünə qırmızı parça atılır və yaxud uşağın başı qatılır. Uşağı öyrədirdilər ki, dəllək sünnəti kəsəndən sonra "dəllək, əlin var olsun, kirvə, canın sağ olsun", – desin. Qanaxmanın qarşısını almaq üçün dəllək kəsilən yerə surğuz vurur və üzərinə kül səpirdi. Söyləyicilərin dediyinə görə, qan kəsmək üçün istifadə olunan kül yaz təzəyindən hazırlanırdı. Dəlləklər onu çöldən yığır, yaz təzəyini yandırıb onun külünü cunadan ələyir və qanaxmanı kəsməkdə ondan istifadə edirdilər. Kül müəyyən qabın içərisində olur. Həmin qab təpsinin içərisində məclisə gətirilir, sünnətin kəsilmiş parçası da həmin qabın içinə atılırdı. Qohum-əqraba həmin kül qabına pul atır, həmin pullar da dəlləyə çatırdı.

Sünnət kəsiləndən sonra kirvələr biri əlini üstdə, digəri altda tutur. Bir nəfər aftafadan su tökür, kirvələr əllərini yuyurlar. Sonra əllərinin yerini dəyişib təkrar yumağa davam edirlər. Bu şəkildə üç dəfə əllərinin yerini dəyişməklə yuyur, axıdılan su da əllərinin altındakı ləyənin içinə tökülürdü. Həmin su sonra təmiz bir yerə atılırdı. Su tökən şəxsin nəmərini kirvə ödəyirdi. Əllərini yuyub qurtardıqdan sonra kirvənin biri dəsmalın bu ucundan, digəri o biri ucundan tutub əllərini qurulayırdılar. Ondan sonra əl sıxışır, bir-birini qucaqlayıb öpürdülər. Belə bir inanc vardı ki, əllərini bir-birinin üstündə tutub yuduqları zaman qan qovuşur və kirvələr arasında qohumluq bağı yaranır.

İki uşaq sünnət olunanda onların arasında bir dənə xoruz kəsilir. Kəsiləcək xoruz xüsusi olaraq seçilir, onun boğazına qırmızı lent bağlanırdı. Uşağın biri sünnət olunandan sonra dəllək fasilə verir, o arada çöldə də xoruz kəsilir. Çiçək Fətiyevanın dediyinə görə, uşaqları sünnət edəndə sayları dörd olduğu üçün, bir dənə də xoruz kəsmişlər ki, tək Allahın adıdır. Uşaq tək olanda xoruz kəsilmir. Bundan əlavə, ananın narahatçılıq keçirməməsi üçün ayağı soyuq suya salınır. Başqa bir söyləyicinin əlavəsinə görə, ana ayağını sərin suya salanda uşağın ürəyi sərinləyir, qorxu keçirtmir. Sünnət kəsiləndən sonra uşaq yatağa uzadılır, qohumə-əqraba ona baş çəkir. Birinci kirvə gəlir, onun əlinə pul verir, sonra uşağın əmisi, dayısı, onu görməyə gələnlər pul verirdilər. Həmin pullar da uşağın yastığının altına yığılırdı. Nəzəri qaytarmaq üçün uşaq yatan çarpayının yanına su doldurulmuş bankada və ya kasada çiy yumurta qoyulur. Yumurta üç gün uşağın başı altında qalır, sonra axar suya atılır. İnanca görə, həmin yumurta nəzəri qaytarır. Nəzər dəydikdə yumurta çatlayır, amma uşağa heç nə

olmur. Çiçək Fətiyevanın dediyinə görə, uşaqlarının sünnətində çuğun qabda hər uşağın adına bir yumurta qoymuşdu, həmin yumurtalardan biri çatlamışdı.

Sünnətin kəsilən hissəsini bir çubuğa taxıb ya bir ağacın budağına keçirir, ya da evin damına sancırdılar, gün onu qurudur, yoxa çıxana qədər orada qalırdı. Göyərçin Həsənovanın dediyinə görə, kəsilən əti çubuğa taxıb hasar başına sancırdılar, ona *qarğı başı* deyirdilər. Yeni Daşkənd kəndində sünnətin kəsilən hissəsini bir ağacın altında basdırırdılar.

Sünnəti ya feldşer, ya da saç qırxan dəlləklər kəsir, onların da haqqı nağd şəkildə ödənilir. Dəlləyi ya uşağın atası, ya da kirvə danışır. Kirvə danışırsa, dəlləyin haqqını da kirvə ödəyir. Paşalı rayon sakini Bayram Orucovun dediyinə görə, uşağı sünnət etdirəndə dəlləyi kirvə danışmışdı, onun haqqını da kirvələri ödəmiş, onlar isə ev sahibi kimi çay, qənd, köynək, sabun və dəsmaldan ibarət bir zənbil hazırlayıb dəlləyə hədiyyə etmişdilər. Dəlləyin müəyyən məzənnəsi olur. Məsələn, Çiçək Fətiyevanın dediyinə görə onların kəndində dəlləyin məzənnəsi 50 manatdır. Amma elə yerlər var ki, orada dəllək nağd pula deyil, kəsəmətə gəlir. Kəsəmətə gələndə dəllək ya mərasimin əvvəlində, ya da sünnətdən sonra bıçağı göstərib xələtini istəyir. Orada nə qədər kəsəmət yığılırdısa, onlar da dəlləyə çatırdı. Bundan əlavə, kül qabına atılan pullar, kəsilən xoruzun əti də dəlləyə çatırdı. Ev yiyəsi dəlləyi yola salanda onun üçün sabun, dəsmal hədiyyə qoyur, sünnət üçün gətirilən şirniyyatlardan bir xonça tutub verirdi. Hər dəlləyə sünnət etdirilmir, hansı dəlləyin əli yüngüldürsə, ona kəsdirilirdi. İsrafil Əliyevin dediyinə görə, Necili kəndində Dəllək Bayramın, Böyükkişinin əli yüngül idi, onlar kəsən uşaq tez sağaldığı üçün çox adam da onları dəllək tuturdu.

Sünnət toyu hər uşaq üçün edilmir. Sünnət olunan uşaq ya ailənin tək uşağı olur, ya oğul evladı olmayan şəxs oğlu olarsa, ona sünnət toyu edəcəyini niyyət edir. Belə adamlar oğlunu sünnət etdirən zaman kiçik toy edirdilər. Yaxud kimsə çox toyda iştirak edib, amma öz oğlunun yaşı çox kiçikdir. Həmin toylara yazdırdığı pulu yığmaq üçün oğluna sünnət toyu edir. Sünnət mərasimi çox vaxt yayda keçirilir. Havanın yağmursuz keçməsi, məktəblərin tətildə olması sünnət mərasiminin sıxıntısız keçirilməsinə imkan verir. Sünnət toyları musiqi ilə keçirilir, toya gələn qonaqlara xaşlama verilir. Xaşlama kartof, ət və bir az da sudan ibarət olur, sarıkök və digər rəngləndiricilər qatılmırdı.

Sünnətin üçgünlüyündə *küldənçıxarma* mərasimi keçirilir. Həmin gün uşağı küldən çıxatmağa kirvə böyük payla gəlir. Çamadanlarda uşağa, ailə fərdlərinə hər birinin adına aldığı hədiyyələri gətirirdilər. Üçgünlükdə kirvənin ailə üzvlərindən əlavə onun yaxın qohum-əqrabaları da gəlir, onlar da özləri ilə xonça tutub gətirirdilər. Haxış kənd sakini Abbasqulu Cəlilovun dediyinə görə, atası iki camış satıb onun pulunu kirvə bazarlığına xərcləmiş, uşağa, kirvənin ailə üzvlərinin hər birinə xələt almışdı. Sünnət toyuna gələndə uşağın yataq dəstini kirvə alıb gətirirdi. Üçgünlükdə dəllək də iştirak edir. Uşağı kirvə üçgünlükdə yataqdan qaldırır. Dəllək sünnətin üzərindəki qartmaq kimi bərkimiş külü təmizləyir, onu marqanisli ılıq su ilə yuyur. Uşaq sünnətdən sonra bir neçə gün qorunur, xüsusən, birinci gün onu tərpətmək olmazdı. Soyuq dəyəndə yara hovluyur (irinləyir), ona görə sünnət olunan uşağı bir müddət soyuq havadan qoruyurdular. Sünnətdən sonra iyirmi, bəzən bir aya yaxın uşaq tumanda gəzirdi.

Sünnətdən sonra *kirvə görüşünə* gedilirdi. Bu dəfə uşağın atası kirvənin çəkdiyi xərcin əvəzini qaytarırdı. Adətən, çalışırdılar ki, kirvə nə gətiribsə, onun dəyərində və ya imkan varsa, ondan da artıq pay aparılsın. Kirvə görüşü xərcinə və məsuliyyətinə görə ağır bir iş hesab olunur, hətta çəkilən xərcə görə söyləyicilər onu nişana bərabər tuturdu. Kirvə o qədər əziz tutulur ki, kirvə görüşünə gedəndə kirvənin ailə üzvlərinin hər birinin adına hədiyyələr alınır, ən qiymətli şeylər onun üçün gətirilirdi. Bəylər Heydərovun dediyinə görə, böyük oğlunu ailəvi dostluq etdikləri şəxsin qucağına qoymuşdu, həmin şəxs kirvə görüşünə gələndə ailə üzvlərinə aldığı hədiyyədən əlavə özü ilə əllə toxunmuş Dərələyəz xalçası gətirmişdi. Sadəddin Qafarovun dediyinə görə, atası Tərlanın oğlanlarına kirvə duranda aldığı ayın-oyunu bir moskviç götürmürdü.

Kirvənin hörməti saxlanılırdı. Hər bayramda ona baş çəkilir, bayramı təbrik edilirdi. Deyirdilər ki, o sənin uşağının əziyyətinə dözüb, sən onu xərcə salıbsan, ona görə onun hörmətini saxlamalısan.

Sünnət İbrahim peyğəmbərin adı ilə bağlanılır. Cul kənd sakini Əhməd Əhmədlinin dediyinə görə, "İbrahim peyğəmbərin Sara xanımdan uşağı olmurdu. Misir fironu Sənan ibn Əlvan İbrahim peyğəmbərə Həcər adında bir kəniz bağışlayır. Sara deyir ki, ya İbrahim, məndən uşağın olmur. Bu cariyədi, bununla evlən, elə o uşaq mənim uşağım olar. Bu evlənir, bundan İsmayıl adında bir oğlu olur. Atalar deyib, insan çiy süd əmib. Həcər qudurur, başlayır Saraya kəllə atmağa, savaşır, sözün qaytarır. Sara İbrahimə deyir ki, bunu aparırsan, çölün düzündə tərk edib gəlirsən. Bu mənim hörmətimi başa düşmədi. İbrahimə tapşırır ki, əgər onu öpsən, dodağını kəsəcəm. Cinsi əlaqədə

olsan, oranı kəsəcəm. Əlini vursan, barmaqlarını kəsəcəm. İbrahim peyğəmbərin ayiləsidi də, o şeylərin hamısı olur. Onda Allahtala İbrahimə deyir ki, ya İbrahim, demişdi dodağını kəsəcəm, sən bığlarını kəsərsən, saqqalını qaydaya salarsan. Əlin dəyməsin demişdi, sən dırnağını tutarsan. Oranı da sünnət eliyərsən kəsmək əvəzinə. Sünnət ordandı, kökü budu. İbrahim peyğəmbər kimi kirvə tutur? Heç kimi. Uşağı alır qucağına, özü sünnətin eliyir, sonra özü özünü eliyir".

Ermənilər uşağı xaç suyuna salanda uşağı tutan şəxsə *kavor* deyirlər. Bəylər Heydərovun dediyinə görə, Mərşiylə Təpəsdəliyin arasında Ərgəz piri var idi, ermənilər xaçsuyuna salma mərasimini orada keçirirdilər. Uşağı xaç suyuna salanda onu tutan şəxsə kavor deyirdilər. Bundan əlavə, ermənilər toy edəndə müsəlmanlardan toybəyi tuturdular, həmin toybəyinə kirvə deyirdilər. Gəlin gətirəndə birinci gəlini kirvənin həyətinə aparır, orada musiqi çalıb gəlini oynadır, ondan sonra oğlan evinə gətirirdilər.

Həyat şəraitinin dəyişməsi, texnoloji yeniliklər, tibbin inkişaf etməsi ənənəvi sünnət mərasimlərinin sıradan çıxmasına səbəb olmuşdur. Əvvəllər zurna-balabanla, toy-dəsgahla icra olunan sünnət mərasimləri günümüzdə xəstəxana otaqlarında yerinə yetirilir. Ağrısız-acısız başa gəldiyi üçün gənc ailələr istər-istəməz rahatlığa qaçır, buna üstünlük verirlər. Ona görə kirvəlik artıq formal hal alıb. Uşağı həkimə sünnət elətdirsələr də, formal olaraq ona kirvə tutulur. Söyləyicilər əvvəlki kirvəlik münasibətlərinin qalmamasından, kirvə deyib ailənin içinə aldıqları şəxslərin naxələf çıxmasından şikayətlənirlər. Bunun nəticəsidir ki, Əlimərdan kəndindən olan informatorlardan biri nəvələrini sünnət etdirəndə onlara yaddan kirvə tutmağa icazı verməmiş, öz qardaşını kirvə tutmağı məsləhət görmüşdü.

Kirvəlik şiə bölgəsində yayılsa da, onun şiəliklə heç bir əlaqəsi yoxdur. Bizə məlumat verən qərbi azərbaycanlılar Sabirabad, Salyan, Biləsuvar rayonlarında məskunlaşmışlar. Bu rayonlarda da kirvəlik anlayışı var, amma qərbi azərbaycanlılar kimi onlar kirvəliyi müqəddəsləşdirmirlər. Qərbi azərbaycanlılar özləri də etiraf edirlər ki, kirvəliyi bu əraziyə irəvanlılar gətirib. Burada (Sabirabadda) kirvə kirvənin qızını alır, amma onlarda nəinki kirvədən, onun yeddi arxa dönənindən, yaxın qohum-əqrabasından belə qız alınmır. Kirvəliyin bu qədər müqəddəsləşdirilməsi qızılbaş inancı ilə bağlıdır. Qızılbaş inancında kirvəlik müsahibliyə bərabər tutulmuş, kirvə olan şəxs axirət qardaşı hesab olunmuş, ona görə kirvədən qız almaq, kirvəyə qız vermək günah hesab olunmuşdur. İndiki Ermənistanın ərazisi də qızılbaş inancının yayıldığı bölgələrdən biri olduğu üçün burada kirvəlik inancı daha güclü olmuşdur. Lənkəran, Saatlı-Sabirabad bölgəsi isə cəfəri şiəliyinin yayıldığı bölgələrdir, burada kirvəlik anlayışı olsa da, qərbi azərbaycanlılar qədər müqəddəsləşdirilmir.

## 5. QƏRBİ AZƏRBAYCAN MƏTBƏXİ

**Çörək növləri:** Qərbi Azərbaycanda çörəyin lavaş, qalın, kömbə, tapı, fəsəli, cad kimi fərqli növləri bişirilib. Çörək yer təndirində bişirilib. Təndir sarı gil torpaqdan hazırlanırdı. Söyləyicilərin dediyinə görə, təndiri qaranquş gələndən sonra qoyurdular. Öncə torpağa keçi qəzili qatıb acıtdıqdan sonra ondan təndir düzəldirdilər. Təndirlə divar arasına çay daşları yığılır, onlar təndirin isti qalmasına kömək edirdi. Təndir başa çatandan sonra qalıb quruyurdu. Onun içinə gərmə qırıntılarını doldurub təndiri qalayırdılar. Gərmə tüstülüyə-tüstülüyə

bir-iki gün yanır və təndirin divarları tam ağarırdı. Təndirin siftəsinə şirin fətir bişirirdilər. Şirin fətir süd, yumurta, un, şəkər tozu və yağdan hazırlanır, üstünə də yumurta yaxıb bişirilir. Şirin fətir səhər yeməyində istifadə olunurdu. Təndirin hava çəkən yerinə küflə deyilir. Təndir köz tutandan sonra küflənin ağzını qapayırdılar ki, təndirin istisi çölə çıxmasın. Köz xərəkləyəndə çörəyi yandırdığı üçün bir az gözləyib od səngiyəndən sonra çörəyi təndirə yapırdılar. Təndirdə lavaş bişirəndən sonra malın iri sümüklərini (zing) çölməyə doldurub üstünə də buğda yarması əlavə edib közə basdırır və gərmənin közündə səhərə qədər bişirdi. Həm doyumlu, həm də qüvvəli yemək idi, əsasən, səhər yeməyində yeyilirdi.

Bölgədə ən geniş yayılmış çörək növü *lavaşdır*. Uzun müddət saxlamaq mümkün olduğu üçün qış aylarında süfrənin vazkeçilməz nemətlərindən biri idi. Qərbi Azərbaycanda lavaş təndirdə bişirilib. Deyilənə görə, təndirdə bişən lavaşın dadı tamam fərqli olur. Kündələr öncə vərdənə ilə açılır, oxlovla yayılır və rəfətə ilə təndirə yapılır. Bişdikdən sonra sərilir, istisi çıxandan sonra üst-üstə yığılıb talvardan asılmış nənninin üstünə qoyulur, üzərinə də dəsmal sərilirdi. Yemək istədikə bir neçə dənə lavaş götürülür, öncə ılıq su ilə sulanır, dəsmalın arasında dinləndirilir, sonra süfrəyə verilirdi. Xeyirbəyli kənd sakini Cabbar Həsənovun dediyinə görə, lavaş bişən gün anası alagöz lobya qaynadardı, onu əzib duzlayar, həmin əzməni təndirdən təzə çıxmış isti lavaşın üstünə yaxıb dürmək eləyib onlara verərdi.

*Kömbə* sacın içində, xamralı isə sacın üstündə bişən çörəyə deyilir. *Tapı* südlə yoğrulmuş xəmirdən bişirilir, yağlı və şirin olduğu üçün yavan yeyilirdi. *Cad* isə qarğıdalı unundan bişirilən çörəyə deyilir. *Fəsəli* qat-qat bişirilən çörək növüdür,

üzərinə şəkər tozu səpilərək yeyilir. Təndir çörəyi Qərbi Azərbaycanda *qalın* adı ilə tanınır.

*Kələfətir* (sac çörəyi) – acımamış fətirdən sacın üstündə bişirilir. *İçli fətir* isə xəmir, yağ və südlə yoğrulur, qoz və cızdağı əzib onun üçün içlik hazırlayırlar. Həmin içliyi fətirin içinə doldurub üzünü də daraqla bəzəyib təndirdə bişirirdilər. Ziyarətgaha gedəndə içli fətir bişirib aparır, onu dilimləyib kasıba, fağır-füqəraya paylayırdılar.

*Çıppa* – lavaşdan qalın çörək növüdür, təndirdə bişirilirdi. Əştərək rayon Üşü kənd sakini Təvəkkül Əliyevin dediyinə görə, nənəsi təndirdə çörək bişirəndə çörəkdən qabax beş-altı dənə çıppa yapar, onu bişirəndən sonra çörək yapardı.

Qərbi Azərbaycanda evlər çiy kərpicdən tikilirdi, *dam ev, möhrə ev* və ya *göbəkli ev* kimi fərqli adlarla tanınırdı. Göbəkli ev adını evin formasından, möhrə onun tikilməsində istifadə olunan materialdan, torpaq ev isə evin damının torpaqla örtülməsindən almışdı. Çiy kərpic içinə saman və ya at tükü qatılmış palçıqdan hazırlanır. Kərpic üçün hazırlanan palçıq bir neçə gün qalıb qıcqırdılır, ondan sonra öküzləri salıb onu ayaqladırlar. Əlavə bir neçə gün qaldıqdan sonra taxta qəliblər düzəldib palçığı onun içinə yığırlar. Palçıq 3-4 gün qalıb quruduqdan sonra onu qəlibdən çıxarırlar. Dam evlərin uzunu və eni altı metr olurdu, üstünə 50 santimetr qalınlıqda torpaq tökülürdü. Ona görə evin divarlarının eni altmış santimetr götürülürdü ki, üstündəki ağırlığı saxlaya bilsin. Dam evlərin üstünə öncə ağacın yarpaqlı budaqları döşənir, onun üstündən də 50 santimetr qalınlıqda torpaq tökülür. Damın üstünə torpaq tökəndən sonra üstdən suvanırdı ki, yağış suyunu içəri buraxmasın. Yağış sularının axması üçün damın kənarlarında taxtadan şırran

düzəldilirdi. Dam evlərində yerə xalça-palaz döşənir. Evin bir küncünə odun yığılır, inək balalayanda onun balası da qış aylarında damın bir küncünə bağlanırdı. Evin bir küncünü arakəsmə ilə kəsib quzuları orada saxlayırdılar. İşlənməyən yorğan-döşəyi saxlamaq üçün cicimdən torba formasında mərfəc toxunurdu. Gündəlik istifadə olunan yorğan-döşək kürsünün üstünə yığılır, işlənməyənlər isə mərfəcin içində saxlanırdı. Köç zamanı yorğan-döşəyi mərfəcdə daşımaq rahat idi. Dam evinin girişinə taxta qapı qoyulurdu. Qapının əlgəyi olmazdı, açmaq lazım gəldikdə itələyib açırdılar. Qapı zəncirlə içəridən bağlanırdı. Evin divarlarında qab-qacaq yığmaq üçün taxçalar düzəldilirdi.

Dam evlərində təndir evin ortasında olur, ondan həm yemək bişirmək, həm də evi qızdırmaq üçün istifadə olunurdu. Qərbi Azərbaycanda təndirlər yerdən olub, tüstünü çəkməsi üçün evin damından baca açılırdı. Təndiri qaladıqda bacanın ağzı açılır, təndir sönəndən sonra şüşə ilə örtülürdü. Hər bir qərbi azərbaycanlının evində kürsü olurdu, o, İrəvan taxtı kimi də tanınır. Çörəyin bişirilib-bişirilməməsindən asılı olmayaraq, təndir hər gün qalanırdı. Orada həm yemək bişirir, həm də evi isitmək üçün istifadə olunurdu. Təndirin közü səngiyəndən sonra onun üstünə kürsü atırdılar, kürsünün üstündə həm yemək yeyir, həm də axşamlar təndirin istisinə orada yatırdılar. Kürsü üçün iri kürsü palazı toxunurdu, onu kürsünün üstünə sərir, təndirin kənarına isə döşəkcələr qoyurdular. Uşaqlar təndirin ətrafında döşəkcənin üstündə oturur, ayaqlarını kürsünün altından təndirə sallayıb palazı da üstlərinə çəkirdilər. Yeməklərini təndir başında yeyir, orada müxtəlif oyunlar oynayırdılar. Söhbət etdiyimiz şəxslərin dediyinə görə, on-

larda nadir hallarda revmatizma xəstəliyi olub, təndirin istisi revmatizmanın qarşısını alırdı.

Təndir çırpı və ya gərmə ilə qalanır. Təndirin qızması üçün çox çırpı tələb olunduğu üçün daha çox gərmədən istifadə olunub. Gərmənin közü həm çox qalır, həm də daha asan başa gəlirdi. Təzək boş olur, amma gərmə preslәndiyi üçün sıx olur və onun közü uzun müddət qalırdı. Fitat Seyidovanın dediyinə görə, təndirə 15 lavaş, dalınca da qalın yapırdılar, amma gərmənin közü hələ də qalırdı. Gərmənin hazırlanmasına yaydan başlanır, payız, qış aylarında isə ondan istifadə olunurdu. Gərməni hazırlamaq üçün peyini həyətə yayıb onu ayaqlayır, bir neçə gün qalıb bişəndən sonra bel ilə kəsirdilər. Gərmə barmaq qalınlıqda olur, onu bel ilə kəsib qalaq yığırdılar. Lazım gəldikdə qalaqdan götürüb istifadə edirdilər. Təzək tez alışdığı üçün təndiri qalayanda altdan təzəyi yığıb üstdən də gərməni qoyurdular. Təndirə çörək yapanda, yemək bişirəndə və ya qızınmaq istədikdə ondan istifadə edirdilər. Təndirin közündə piti bişirir, ağ çuğunduru təndirin közünə basdırır, bişəndən sonra qabığını soyub bıçaqla doğrayıb yeyirdilər.

İnsanların imkanı artdıqca dam evlərinin quruluşu da dəyişmişdir. Əvvəlcə təndir evin içindən çölə çıxarılmış, damın qabağında qurulmuşdur. Sonralar isə tamam evdən ayrılmış, evdən kənarda ayrıca *təndirəsər* adlanan tikili tikilmişdir.

Qərbi Azərbaycanda xəmir *acxəmrə* ilə yoğrulur. Mağazada satılan maya haram hesab olunduğu üçün ondan istifadə olunmayıb, acxəmrəni ev şəraitində özləri hazırlayıblar. Acxəmrənin tərkibi duz, su, un və qatıqdan ibarət olur və ağzı bağlı bankada saxlanırdı. Acxəmrə saxlanan qaba *dəstərxan* deyilir. Çiçək Fətiyevanın dediyinə görə, dəstərxanı ildə bir dəfə

yuyub təmizləyirdilər. Qayınanası deyərdi ki, dəstərxan tez-tez yuyulanda evin bərəkəti qaçır. Acxəmrəni bir dəfə hazırladıqdan sonra hər dəfə onu təkrar hazırlamağa ehtiyac qalmırdı. Həmin acxəmrə ilə yoğrulmuş xəmirdən bir az götürüb bankada saxlayır, növbəti dəfə xəmir yoğuranda ondan istifadə edirdilər.

**Bitkilər və ağartı məhsulları:** Söyləyicilərin dediyinə görə, 1941-1945-ci illərdəki aclıq Qərbi Azərbaycanda hiss olunmayıb. Meşələr meyvə ilə dolu idi, meyvədən, pencərdən yığıb yeyirdilər. Özlərinin də dediyi kimi, mayın axırlarına qədər çölə gedən şəxs heç vaxt ac qalmazdı, çöllərdə cürbəcür otlar, bitkilər bitirdi, onları yığıb yeyirdilər. Zeytə kənd sakini Əbülfəz Məmmədovun dediyinə görə, çöllərdə yabanı şəkildə sarımsaq, kişniş, tərə bitirdi. Qoyunu otarmağa aparanda yanlarında yalnız lavaş götürürdülər, həmin bitkilərdən lavaşın arasına yığıb, dürmək eləyib bulağın üstündəcə yeyirdilər.

Qərbi Azərbaycanda əvəlik, ələyəz, çaşır, qazayağı, quşəppəyi və sair bitkilərdən həm yeməklərə əlavə dad vermək, həm də şəfa məqsədilə istifadə olunub. Çox istifadə olunduğu üçün bəzi bitkilərin turşusu tutulub, qurudularaq qış ehtiyatı götürülüb. Ələyəz, qazayağı, quşəppəyi yağda qovrulur, üstünə yumurta çalınıb yeyilir. Dolma bişirəndə onun ətinə mütləq cəfəri vurulur. Deyilənə görə, dolmanın dadı cəfəridədir. Kərəvözsüz turşu qoymurlar. Qərbi azərbaycanlıların dediyinə görə, ətotusuz ətin dadı olmazdı. Ət bişirəndə üstünə mütləq qurudulmuş ətotu səpirlər. Ətotunu cunaya bağlayıb pendirin suyuna salanda pendirə xüsusi dad verirdi. Yazqabağı çiriş yığıb onun qovurmasını bişirir, çaşırın turşusunu qoyur, ya da qaynadıb lavaşın arasında pendirlə yeyirdilər. Ələyəzi saç kimi hörüb qurudur, qışda əriştəyə qatıb bişirirdilər. Soyuqdəymə-

nin dərmanı hesab olunurdu. Qırxbuğum, çiriş, xıncavız, cincilim və s. bitkilərdən kətə bişirirdilər.

Çaşırdan, əsasən, körpə vaxtı istifadə olunurdu. Onun turşusu tutulur, yağlı yeməklərin yanında məzə kimi süfrəyə verilirdi. İspanaq qovurması bişirirdilər. Öncə ispanağı qaynadır, onu sıxıb acılığını çıxardır, dağ olunmuş soğanda qovurub, bişənə yaxın üstünə yumurta vururdular. İspanaq qovurmasını sarımsaqlı qatıqla süfrəyə verirdilər. Çiriş asmanın, bronxitin dərmanı hesab olunur. Onu iki litr süddə qaynadıb içdikdə asmanı, bronxiti aradan qaldırdığı deyilir.

Müəyyən bitkilərin südündən saqqız hazırlayırdılar. Söyləyicilərin dediyinə görə, iki cür saqqız var idi: qanatama və kəsmə saqqız. Kəsmə saqqız bitkinin gövdəsindən hazırlanırdı. Onun gövdəsini kəsib südünü bir qaba yığır, bir gün qalıb quruduqdan sonra saqqız kimi çeynəyirdilər. Əvvəlcə acı dadsa da, çeynədikcə acılığı itirdi. Söyləyicilərin dediyinə görə, kəsmə saqqızın həm mədə-bağırsağa xeyri var, həm də ağızı təravətləndirirdi. Qanatma saqqız isə kol bitkisindən əldə olunurdu. Kolu çıxardıb onun kökündən axan südü əlin üstünə sürtürlər, qalıb quruduqdan sonra onu saqqız kimi istifadə edirdilər.

Qərbi Azərbaycanda bağçılıq təsərrüfatı geniş inkişaf etmiş, ağac yetişdirmə sahəsində xeyli təcrübə əldə etmişlər. Bu gün də məskunlaşdıqları bölgədə bağçılıq təsərrüfatının inkişafında böyük əməkləri vardı. Biləsuvar rayonunda qərbi azərbaycanlıların məskunlaşdığı Bağbanlar kəndi öz adını onların saldığı bağlardan almışdı. Qərbi Azərbaycanda əriyin şalaş və təbərzə növləri yetişdirilib. Şalaş ərik böyüklüyünə görə seçilir, təbərzə əriyi ondan kiçik olsa da, şirinliyi daha çox idi. Üzümün bölgədə əştərək, üşəyən kimi müxtəlif sortları

yetişdirilib. Üzümdən doşab hazırlanıb, xumlara doldurub torpağa basdırmaqla qışa saxlanıbdı. Qərbi Azərbaycanda üzüm tənəkləri yerdən olurdu, şaxtadan qorumaq üçün qışda onun üstünü torpaqla örtür, yazda isə açırdılar.

Çiləyə qarpız saxlayırdılar, amma hər qarpız qışa qalmırdı. Padar qarpızı kimi tanınan qalın qabıq qarpızları və sineyvaz yemişi qışa saxlayırdılar. Söyləyicinin dediyinə görə, sineyvaz yemişi yetişməmiş vaxtı xiyar kimi yeyirdilər. Amma torpaqla üstünü basdırdıqda torpağın altında böyüyür, rəngi də qızarırdı. Həmin yemişi samanın içində Novruz bayramına qədər saxlamaq olurdu. Onu saplağı üstündə üzürdülər, saplağı üstündə olmayanda tez xarab olurdu. Həmin bostan məhsullarını bayramda, əziz qonaq gələndə kəsib süfrəyə verirdilər.

Çay kimi də itburnunu (həmərsin) şirəsi içilirdi, təziqi olanlar üçün xeyirli hesab olunur, təziqi aşağı salır. Əbülfəz Məmmədovun dediyinə görə, iri dənəli həmərsinləri yığıb qazana tökür, üstünə çıxana qədər su əlavə edirdilər. Bir az qaynatdıqdan sonra onu aşsüzəndən keçirirdilər. Aşsüzəndən keçmiş həmərsini bir də qaynadıb içinə şəkər tozu əlavə edirdilər. Onu yedikdə bədəndəki artıq duzları yuyub aparırdı. Bölgədə çay kimi kəklikotundan istifadə olunub, onu dəmləyib içirdilər. Əbülfəz Məmmədovun dediyinə görə, qara çaydan, ümumiyyətlə, istifadə etməyiblər, yalnız evə qonaq gələndə qara çay dəmlənirdi. Çay əvəzinə kəklikotu, salmaçiçəyi, yemişan dəmləyib içirdilər. Həm susuzluğu yatırır, həm də insan üçün xeyirli idi.

Birinci yağan qar yeyilmirdi, ondan sonra yağan qar üst-üstə yığılır, altda qalan qar yazda narın-narın olurdu, o yeyilirdi. Münəvvər Zeynalovanın dediyinə görə, qardaşı dağa gedəndə samanın arasına qarı yığıb üstünə də çaşır töküb kəndə gətirirdi.

Dağdan gətirilən qarı camaata paylayır, üzərinə doşab, bal töküb yeyirdilər.

Qərbi azərbaycanlılara məskunlaşdıqları bölgənin də təsiri olub. Sabirabad rayonunda qərbi azərbaycanlıların mətbəxində yer alan *həllə-hüllə* məhz yerli əhalindən mənimsənilib. Həllə-hüllə soğan, badımcan, bibər və pomidordan hazırlanan yemək növüdür. Onlar doğranıb bir qazana yığılır, yağ əlavə edilib vam odda bişirilirdi.

Meyvə qurusundan məişətdə çox istifadə olunub, ondan müxtəlif yeməklər hazırlanıb. Qaysava belə yeməklərdən biridir. Qaysava ərik və ya alma qurusundan hazırlanır. Qaysavanı hazırlamaq üçün ərik suda qaynadılır, suyu çəkiləndən sonra içinə yağ töküb qovrulur. Əncir mürəbbəsini yağda qovurub üstünə yumurta vurmaqla yemək hazırlayırdılar.

Ağuz yeni doğmuş inəyin ilk südündən hazırlanır. Doğan inəyin ilk südü çox qatı olur. Onu vam odda bişirirlər, üzəri sarı qaymaq bağlayırdı. Bərkiyəndən sonra onu torbada süzür-lər, pendir kimi məhsul alınırdı, amma pendirdən fərqli olaraq şirin olurdu. Onu hissə-hissə doğrayıb həm özləri istifadə edir, həm də qonşulara paylayırdılar. Ağuz verilən qab boş qaytarıl-mır, içinə mütləq pay qoyulurdu. Heyvan nəzərə gələr deyə bəzi adamlar, ümumiyyətlə, ağuzu qonşuya paylamırdı. Davamlı bişirildiyi üçün ağuz südünün bişirilməsi sahəsində xeyli təcrübə də qazanmışdılar. Cəfər Həmzəyevin dediyinə görə, dibinin yanmaması üçün yoldaşı ağuzu buxarda bişirir. Ağuz südünü balaca qazana tökür, böyük qazanın içinə su doldurub onu da həmin qazanın içinə qoyurdu və suyun buxarında bişirdi. Odun üstündə bişirəndə dibi yanırdı, amma suyun içində bişirəndə dibi yanmırdı. Ağuz südünü pendir kimi dilimləyib

yeddi qapıya paylayırdılar. Növbəti üç günün südündən bulama hazırlanırdı. Bulama qatı olduğu üçün başqa inəyin südündən əlavə edib onu duruldurdular. Bulamanın içərisinə şəkər tozu qatılır və çörək dorğanıb yeyilirdi. Zövqə görə kimi bal, kimi də yağ əlavə edirdi. Bulamanı həm də qurudub qışda istifadə edirdilər. Namizəd Allahverdiyevin dediyinə görə, bulamanı qaynadanda nənəsi onun içinə bez parçası atırdı. Süd qaynadıqca bulamanın yağı həmin parçaya hopurdu, sonra onu məftildən asıb qurudurdu. Qışda kimin könlü bulama istəsə, həmin bezdən qayçı ilə bir parça kəsib suya atır, su qaynadıqca parçaya hopmuş bulama suya qarışırdı. Bulamadan sonra heyvanın südü artıq əvvəlki halına düşürdü.

Qərbi Azərbaycanda istifadə olunan əsas ağartı məhsullarından biri də qurutdur. Qurut xəmir yeməklərində istifadə olunur və həzmə kömək edir. Qurutlu xəngəl bölgədə adla tanınır və qış aylarının ən sevimli yeməyi hesab olunur. Qurutu həm ayrandan, həm də üzlü qatıqdan hazırlayırlar. Ayrandan hazırlanan zaman qatığı nehrədə çalxalayır, üzünün yağı götürüləndən sonra dibinin ayranı qalırdı. Həmin ayranı çürüdüb torbaya tökürlər. Suyu süzüləndən sonra qalan ağartını möhkəm duzlayır, yumurlayıb küftə halına salırlar. Söyləyicilərin dediyinə görə, qurudu saxlayan duz idi, duzlamayanda ona qurt düşürdü. Ona görə qurudun duzunu bol edirdilər. Qurudu günün altında qurudur, hər gün yerini dəyişirdilər ki, hər tərəfi bərabər qurusun. Qurutdan qurutlu xəngəl, qurutlu aş, qurutlu xaşıl kimi yeməklər hazırlanırdı. Qurutlu aş bişirmək üçün qurutu suda həll eləyir, ayran halına düşəndən sonra onu qaynadırlar. Adamın sayına görə bir və ya iki stəkan düyü əlavə edirlər. Düyü bişənə yaxın bir qaşıq unu suda həll edib onun üzərinə əlavə edirdilər.

Düyü tam bişəndən sonra yeməyi boşqaba çəkib üstünə də dağ olunmuş yağ əlavə edirdilər. Zövqə görə kimi onu qurutla, kimi də sarımsaqlı qatıqla yeyirdi. Qışda sağın olmayanda qurutu suda həll edib ondan dovğa bişirir, ayran kimi istifadə edirdilər. Xəmir xörəklərinin üzərinə məzə kimi əlavə edilir və həzmə kömək edirdi. Qurutu üzlü qatıqdan hazırlayan zaman qatığı süzəyə töküb suyunu süzür, suyu tam çəkiləndən sonra bərk maddə qalırdı. Onu çörəktaxtasının üstündə yumrulayıb balaca kündələr halına salır, sərib qurudurdular. Toz, milçək qonmaması üçün üstünə cuna sərirdilər. Qurut o qədər quruyurdu ki, daş kimi olurdu. Qurutdan istifadə etmək üçün onu daşqının[6] dalına sürtüb un halına salırdılar. Ona su əlavə edib sarımsaqlı qatıq hazırlayırdılar, xəngəl bişirəndə onunla birlikdə süfrəyə verirdilər.

Qərbi Azərbaycanda pendirin motal pendir, dələmə pendir, saçaqlı pendir kimi fərqli növləri hazırlanıb. Pendir dağ yerlərində dəridə, aran yerlərində isə şirli qablarda quyuda basdırma üsulu ilə saxlanırdı. Qabın ağzı qoyun dərisi – sələ ilə bağlanır və ağzı aşağı quyuya basdırılırdı. Söyləyicilərin dediyinə görə, elat camaatı yaylaqda ikən qış üçün yağ-pendir ehtiyatı görürdü. Bölgədə motal pendirdən də istifadə olunub, əsasən, dağ yerlərində yaşayanlar, qoyunu dağ-aran aparanlar motal pendir tuturdu. Bunun üçün öncədən dəri duzlanır, dərinin içinə cuna sərilir, pendir də onun içinə yığılır. Motal pendir dağ yerlərində daha gec, aran yerində isə tez yetişirdi. Motal pendirin bir növü də vardı ki, *axtarma motal* adı ilə tanınırdı. Axtarma motal mayalanmış südü dərinin içinə tökməklə əldə olunurdu. Süd həm pendiri yumuşaldır, həm də onu dada

[6] İri gözlü xəlbirə deyilir.

gətirirdi. Camış südü yağlı olduğu üçün onu birbaşa motalın içinə tökürlər, inək südünün isə üzünün qaymağını tökürlər. Qoyun südü isə may ayında daha yağlı olur, ona azacıq maya qatıb süd bərkiyənə yaxın motalın içinə tökürdülər. Südün hər təfərə yayılması üçün motalı iki-üç gün çevirmək lazım gəlirdi.

Bölgədə istifadə olunan ağartı məhsullarından biri də *döymə pendirdir*. Döymə pendiri hazırlamaq üçün öncə pendir ətdöyülən daşda döyülürdü. On kilo pendirə beş kilo şor əlavə olunurdu. Onlar yaxşı qarışdırılır, sonra saxsı çölməklərin içinə doldurulur, ağzı isə qoyun dərisi ilə bağlanırdı. Çölməyin özü qədər yerdə quyu qazılır, içinə taxta döşənir, çölmək ağzıüstə quyunun içinə qoyulub üstü torpaqlanırdı. Dekabr ayında onu çıxarıb istifadə edirdilər. *Ovma pendir* yetişmiş üzlü pendirdən hazırlanır. Pendiri suyunu süzməsi üçün sələnin üstünə yığır, suyu çəkiləndən sonra onu ovub saxsı küplərə doldururlar. Küpə doldurduqca da möhkəm sıxırlar ki, içində hava qalmasın. Küpün ağzına iydə yarpağı, keçi qəzili qoyub üstdən də sarı palçıqla suvayırlar. Həmin küplər başıaşağı torpağa basdırılır, bir-iki ay torpaqda qalıb tam yetişirdi.

Saçaqlı pendir bölgədə *çəçil* adı ilə tanınır və süd çürüntüsündən hazırlanır. Süd çürüntüsünü saqqız kimi dartıb uzadır, sonra onu qola dolayırlar. Qola doladıqdan sonra bıçaqla kəsib duza qoyulur, özünü tutandan sonra da istifadə edirdilər. Saçaqlı pendir yeməyin yanında məzə kimi süfrəyə verilib.

Pendirin bir növü də vardır ki, ona *çiçəkli pendir* deyilir. Pendirin içərisinə baldırqan çiçəyi, pendir çiçəyi qatırlar və bu çiçəklər ona xüsusi dad verirdi. Söyləyicilərin dediyinə görə, çiçəkli pendir sifarişlə hazırlanırdı, onu yalnız imkanlı adamlar alırdı. Südü çalanda baldırğanı onun içinı atırdılar, süzəkdən keçirdəndə də içində qalırdı.

*Dələmə pendir* pendirin mayasını çox etməklə əldə edilirdi. Həm tez başa gəlir, həm də qısa zamanda tükədilirdi.

Pendir mayası heyvan qursağından hazırlanıb. Pendir mayasının tərkibi mal və ya qoyun qursağı, duz, qaynadılmış düyü və ya buğdadan ibarət olub. Bunları bir bankaya yığıb bir həftə qıcqırdır, ondan sonra alınan məhluldan pendir mayası kimi istifadə edirdilər. Pendir əldə etmək üçün qızdırılmış südə ondan bir qaşıq əlavə edirdilər. Pendir mayasının tərkibi bölgədən bölgəyə dəyişir, heyvan qursağı, pendir suyu və duz hamısında istifadə olunub, bununla belə bura müəyyən ərzaqlar əlavə olunub. Məsələn, Vedi rayonunda pendir mayasına qənd də əlavə olunur. Aşağı Qarxunda pendir mayası qənd, duz və qatıq suyundan hazırlanır. Zəngibasarda isə iki ədəd yumurta, su, duz, noxud və heyvan qursağından hazırlanırdı. Zəngibasar sakini Zeynəb Məhərrəmovanın dediyinə görə, maya hasilə gələndə yumurta üzdə qalır, duzu az olanda isə bankanın dibinə çökürdü. Yumurta aşağı çökəndə duzun az olduğu bilinir, ona duz əlavə olunurdu. Maya hasilə gəldikdə onu cunadan süzür, pendir tutmaq istədikdə onun suyundan bir-iki qaşıq südə əlavə edilirdi.

*Xama* bişməmiş südün üzünün qaymağından əldə edilir. Onu çiy yeməmək üçün qazana töküb vam odda buluya-buluya bişirir, donandan sonra istifadə edirdilər. Bişmiş südün üzündən yığılan məhsula isə qaymaq deyilir. Şor çürüdülmüş ayrandan, süzmə isə qaynadılmış süddən əldə edilir. İstifadə olunan ağartı məhsullarından biri də şor idi. Şor ayrandan hazırlanır. Qatığı nehrədə çalxalayıb yağını götürdükdən sonra ayranı qaynadır, çürüyəndən sonra torbaya töküb süzür, xaş-xaş toxumu qatıb ağartı kimi süfrəyə qoyurdular.

**Yeməklər:** Qərbi Azərbaycan mətbəxi yemək çeşidləri ilə zəngindir. Günümüzdə bu yeməklərin bir çoxu artıq məişətdən çıxıb, amma onların dadı-tamı, hazırlanma texnologiyası hələ də yaşlı nəslin hafizəsində qalıb. Belə yemək növlərindən biri də *çəkmə aşıdır*. *Çəkmə aşı* düyü və ya buğda yarmasından hazırlanır, bişəndə suyu tam canına çəkdiyi üçün öz adını da buradan almışdı. Bölgədə çəkmənin ətli çəkmə, əvəlikli çəkmə kimi müxtəlif növləri bişirilib. Çəkmə aşını bişirmək üçün soğan öncə dağ edilir, üstünə su, xırda doğranmış əvəlik əlavə edilir. Əvəlik bir az qaynadıqdan sonra düyü əlavə olunur, duz vurulur və suyunu çəkənə yaxın qarışdırılıb dəmə qoyulur. Ətli çəkmə də eyni qayda ilə hazırlanır, sadəcə, onun içinə xırda doğranmış ət əlavə olunur. Çox vaxt da qovurma ətindən istifadə edilir ki, bu da onu xüsusi dad verirdi.

*Əvəlikli əriştə* – xəmirdən kəsilmiş əriştədən hazırlanır, içərisinə maş (qırmızı lobya), doğranmış əvəlik, qoyun cızdağı əlavə edilirdi. Qovurmalıq heyvanı qoyun quyruğunun yağında qovurur, oradan qalan cızdağı isə yığıb saxlayır, əvəlik aşı bişirəndə onun içinə həmin cızdağı qatırdılar.

*Əriştə aşı* – umac aşının bişirilmə qaydası ilə eynidir, sadəcə olaraq, umac yerinə əriştə əlavə edilir. Ona ələyəz, əvəlik, qara-göz lobya əlavə olunur. Ələyəzli əriştə qripin, soyuqdəymənin dərmanı hesab olunur, ona görə, əsasən, qış aylarında bişirilib.

*Şilə aşı* – Söyləyicilərin dediyinə görə, günümüzdə də bişirilir, amma indiki cavanlar onu düyü supu kimi tanıyırlar. Şilə aşının tərkibi ispanaq, düyü, yağ və toyuq ətindən ibarət olur, içərisinə duz, turşməzə olması üçün alça turşusu qatılır.

*Yarma* – ağ buğda pörtlədilir, sonra sərib qurudulur. Quruduqdan sonra dibəkdə döyüb qabığı çıxarılır və dəstərdə

çəkilir. Alınan məhsula yarma deyilir. Həmin yarmadan plov, südlü aş hazırlanır. Gülənbər Əhmədovanın dediyinə görə, qayınanası 3-4 meşox buğdanı vedrədə qaynadar, pörtləyəndən sonra onu sərib qurudardı. Gündə bir-iki verdəsini dibəkdə döyər, buğdanın qabığını təmizləyib onu meşoxlara doldurardı. Daha sonra dəstərdə çəkib onu yarma eliyərdi. Çəkmə aşı, əriştə aşı bişirəndə ondan istifadə edərdi.

*Hörrə* – Gülənbər Əhmədovanın dediyinə görə, hər bazar qayınanası hörrə bişirərdi. Unu öncə qovurar, üstünə iki stəkan su əlavə edib onu təmiz açardı. Sonra su əlavə edər, qoz ləpəsini stəkanın altı ilə əzib onu da suya əlavə edib qarışdırardı. Bişəndən sonra hörrəni boşqablara çəkib ortasına da bir qaşıq camış yağı əlavə edərdi. Deyərdi, oğlum işə gedir, yesin, canında qüvvə olsun. Hörrə süd və ya su ilə bişirilir, unun yapışmaması üçün içinə bir çay qaşığı da yağ atılır. Qızarana qədər qovrulur, sonra iki stəkan su əlavə edib qaşığın arxası ilə unu açırlar ki, yumurusu qalmasın. Açandan sonra da su əlavə edib qaynadırlar.

*Südlü aş* – südlə bişirilir. Kənarda çolpa çığırtma edilir, bişəndən sonra düyünün üstünə tökülürdü.

*Qurut aşı* – qurutlu ayrandan hazırlanmış yemək növüdür, içinə ləpə, kişmiş, qovurma və ya hinduşka əti əlavə edilir.

*Cılfır* – əməköməci və düyüdən bişirilən yemək növüdür, bişənə yaxın üzərinə yumurta çırpılır. Turşməzə olması üçün cılfıra ərik və ya alça qurusu əlavə edilir. Söyləyicilərin dediyinə görə, cılfır əməköməcidən əlavə, qazayağı və somucadan da hazırlanır.

*Kor dolma* – Azərbaycanın bir çox bölgələrində bu yeməyə yalançı dolma deyilir, amma Qərbi Azərbaycanda kor dolma adı ilə tanınır. Adi dolmadan fərqli olaraq içliyi ətdən deyil,

noxud, ağ lobya, göyərti və soğandan hazırlanır. Kor dolma, adətən, təzə tənək yarpağından bişirilir və turşməzə dadır.

*Əncir çığırtması* – əcir mürəbbəsindən hazırlanır. Əncir mürəbəsi yağda qovrulur, bişənə yaxın üzərinə yumurta çırpılır.

*Həlsə* – yarmadan hazırlanan yemək növüdür, əsasən, yazda bişirilir. Buğda öncə pörtlədilib günün altında qurudulur, daha sonra onu dibəkdə döyüb qabığı çıxardılır. Alınan məhsula yarma deyilir. Həlsə həmin yarmadan hazırlanır. Yarmanı balaca küplərə yığıb içinə qoyunun sümüklü tikələri atılır, doğranmış ələyəz əlavə edilir. Axşamdan təndirin içinə qoyulur və ağzı ötrülür, səhər öynəsi təndirdən çıxarılıb yeyilir. Həlsə nəzir olaraq bişirilirdi. O qədər qaynadılırdı ki, həlim salırdı. Söyləyicilərin dediyinə görə, gecələr təndirin közü səngiyəndə onun közünə basdırırdılar, səhərə qədər orada bişirdi. Güclü və doyumlu yemək olduğu üçün səhərlər tükədilib. Adətən, dağa qoyun, quzu aparan çobanlar bütün günü qoyunun dalınca hərəkət etdikləri üçün onlara həlsə bişirib verirdilər. Xıdır Nəbi haqqında söylənən nəğmədə də bu öz əksini tapıb. Çimən kənd sakini Göyərçin Həsənovadan yazıya alınmış həmin nəğməni sel gələndə oxuyurdular.

Çoban həlsəsini yedi,
Aldı çəliyi əlinə.
Çıxdı dağlara,
Qarı əritdi, tökdü çaylara.

*Bozbaş* – Bölgədə bozbaşın iki növü bişirilir: ət bozbaşı və yağ bozbaşı. Yağ bozbaşında ət olmur. Soğan yağda dağ edilir, ona noxud, kartof və su əlavə edilib bişirilir.

*Küftə* – tərkibi ət, noxud və soğandan ibarət olur. Noxud qabaqcadan bişirilir, ətə qarışdırılıb toxmaqla daşda döyülür.

Küftənin əti iki dəfə döyülür. Ədviyyat olaraq ona sarıkök, qurudulmuş tərxun, nanə, şüyüd, cəfəri, kişniş, mərzə qatılır. Söyləyicilərin dediyinə görə, küftəyə yaş göyərti vurulmur, onda küftə səliqəsiz olur və dadı olmur. Ona qurudulmuş göyərti vurulur. Mərzə mütləq olmadı idi, küftənin dadının mərzədə olduğu deyilir.

*Döyməc* – əsasən, təndirə lavaş yapanda hazırlanırdı. Ərinmiş kərə yağını qaba töküb üstünə də təndirdən çıxan isti lavaşı doğrayıb əlavə edirdilər. Lavaşı yağda qarışdırıb yeyir, istəyən üstünə qənd də əlavə edirdi.

*Xaşıl* – buğda yarmasından hazırlanır. Amasiya rayonunun Mağaracıq kəndində yarma hazırlayan xüsusi dəyirman var idi, ətraf kəndlərin camaatı yarmalarını orada çəkdirirdi. Xaşıl bişəndən sonra boşqablara çəkilir, ortasına da yer açıb yağ əlavə edilir. Xaşıl üstünə bəkməz əlavə edilib yeyilir, amma Saral, Hallavar, Heydərli kəndlərində qurutla, sarımsaqlı qatıqla süfrəyə verilirdi. Doyumlu yemək olduğu üçün səhər yeyilib.

*Kətə* – İrəvan kətəsi adla tanınır, digər kətələrdən hazırlandığı göyərtilərə görə seçilib. İrəvan kətəsi ispanaq, yolotu (qırxbuğum), cincilim, çuğundur yarpağından bişirilib. İstifadə olunan göyərtilər kətəyə xüsusi dad verib.

*Dovğa* – Qərbi Azərbaycanda dovğa ilə ayran aşı bir-birindən fərqləndirilir. Ayran aşı ayrandan, dovğa isə qatıqdan hazırlanır. Dovğaya baldırğan otu, salmança qatılır və yeməyə xüsusi dad verir.

Qərbi Azərbycanda plovun basdırma plov, döşəməli plov, əvəlikli plov, qaralı plov, səbzili plov kimi fərqli növləri bişirilib. Söyləyicilərin dediyinə görə, aşla plov bir-birindən fərqlənir. Aş sulu yeməklərə (məsələn, şilə aşı, umac aşı, əriştə aşı, qatıq aşı və s.), plov isə dəmə qoyulan yeməklərə deyilib.

*Ələyəzli plov* – Qovurma ətindən bişirilir, içərisinə doğranmış ələyəz tökülür, düyüyə rəng verməsi üçün sarı qaymaqçiçəyi qatılırdı. Ələyəz həm də mədə-bağırsağın dərmanı hesab olunur, müalicə məqsədi ilə də istifadə olunur.

*Döşəməli plov* – qazanın dibinin qaymağı hazırlanır, üstdən ət yığılır, ətin üstünə cuna sərilir və cunanın arasına düyü tökülür. Çəkəndə də düyü cuna qarışıq götürülüb ləyənə qoyulur, öncə düyü boşqaba çəkilir, düyünün üstünə ət, ətin də üstündən qazmaq qoyulur. Qazmaq ya lavaşdan, ya da düyüdən hazırlanır. Lavaşdan hazırlandıqda lavaşı qazanın dibinə sərib üstünə yumurta vururlar, düyüdən hazırlandıqda isə yumurta, qatıq və düyü bir yerdə qarışdırılır, qazanda yağı dağ edib həmin qarışımı onun üstünə tökürlər.

*Südlü plov* – südlə bişirilir. Südlü aşa bənzəyir, amma südlü aşda düyü çox bişdiyi üçün bir-birinə yapışır, südlü plovda isə dən-dən qalır. Südlü plova həm də kişmiş əlavə olunur. Adətən toyun səhəri qız evi südlü plov bişirib oğlan evinə göndərirdi. Şirin plov da südlü plov kimidir, amma zövqə görə kimi bal, kimi də doşab əlavə edib yeyir.

*Müşəmbə plov* – badımcandan bişirilir. Öncə badımcan yağda qovrulur, turşməzə olması üçün ona limon suyu sıxılır. Müşəmbə plov qoyun ətindən hazırlanır. Ət ayrıca qaynadılır, sonra sudan çıxarılıb yağda qovrulur, üzərinə az miqdarda ətin suyu, yağda qızardılmış soğan, qara gavalı, albuxara qatılır, üstünə də badımcan düzülür və öz buğunda bişirilir. Ayrıca dəmə qoyulmuş düyü boşqaba çəkilir, üzərinə öz şirəsində bişmiş həmin ət əlavə edilir.

*Səbzi plov* – kəvər bitkisindən bişirilir. Beş dəstə kəvərə iki dəstə turşəng, bir dəstə cəfəri, bir dəstə də göy soğan əlavə edilir. Bunlar bir yerdə qarışdırılır, qovrulmuş ətin üzərinə

əlavə edilir, bir az da ət suyu tökülür. Göyərtisi çox bişirilmir, bir az sulu olur.

*Cızda plov* – ət bişirilir, suyu tam çəkiləndən sonra yağda qovrulur, qatığı süzüb qovrulmuş ətin üzərinə əlavə edirlər. Vam odda bişir, çəhrayı rəng alanda düyünü süzüb ona əlavə edirlər. Turşməzə bir plov alınır.

*Tas kabab plov* – qışda bu yeməyin əvəzinin olmadığı söylənilir. Ət qaynadılır, daha sonra ayrıca qovrulmuş baş soğanı, kartofu halqa-halqa doğrayıb ətin üstünə tökürlər. Hazır olana yaxın da limon duzu vurulur və ya üzərinə limon suyu sıxılır.

Bu plovların düyüsü ayrıca dəmlənir, düyü boşqaba çəkildikdən sonra üzərinə hazırlanmış həmin qarışım qoyulur. Plova sarıçiçək, zəfəran, sarıkök kimi ədviyyatlar vurulur. Söyləyicilərin dediyinə görə, ən yaxşı plov o hesab olunur ki, onun düyüsü dən-dən olur.

*Təndir kababı* – gərmə yandırılır, acı tüstüsü çıxandan sonra şişə çəkilmiş ətlər onun közündə bişirilirdi.

*Büryan* – bütöv halda təndirdə bişirilmiş quzuya deyilir, qonaq gedəndə və ya gəlin görməyə gedəndə büryan aparılırdı. Büryan ediləcək quzu bir gün qabaqcadan kəsilir, duzlanır, duzu canına çəkməsi üçün dinlənməyə qoyulur. Bütöv halda təndirin közündə bişirilir. Çimən kəndində gəlingördüyə gedəndə buynuzuna qırmızı bağlanmış bir qoç, əyirdək-qatlama və təpsinin içində büryan bişirilmiş bir quzu aparılırdı.

Söyləyicilər özləri də etiraf edir ki, o tərəfin buğdasının, meyvəsinin, yağının dadını, tamını heç nə vermir. 1988-ci ildə bölgədən deportasiya olunmuş qərbi azərbaycanlı ilə yoldaşlıq edən bir nəfər maraqlı bir xatirəsini danışdı. Onun dediyinə görə, yoldaşlıq etdiyi həmin şəxs onu evlərinə xəngəl yeməyə dəvət edir. Təzə gəldikləri üçün evləri pinti halda idi, ona görə

nəfsi çəkmir, amma dostunu qırmamaq üçün xəngəldən bir qismət yeyir. Söyləyicinin dediyinə görə, xəngəl o qədər dadlı idi ki, bir sini xəngəli necə yeyib qurtarırsa, xəbəri olmur. Bir neçə gün sonra könlünə xəngəl düşür və dostundan xahiş edir ki, anası yenə həmin xəngəldən bişirsin. Dostu cavab verir ki, bişirməyinə bişirər, amma nə Göyçədən gələn yağdan var, nə də qırmızı buğdanın unundan. Söyləyicilərin özləri də etiraf edir ki, orada bitən meyvədən, buğdadan burada da var, amma onların dadını bunlardan almaq olmur.

**Şirniyyat:** Qərbi Azərbaycan bölgəsində halvanın umac halva (ovma halva), tər halva, səməni halvası kimi fərqli növləri hazırlanıb. *Umac halvasının* hazırlanması üçün öncə un ovulur, sərib qurudulur, sonra dağ olunmuş yağda qovrulur, bişənə yaxın üstünə şərbət əlavə olunur. Söyləyicilərin dediyinə görə, iki kilo una iki kilo şəkər tozu, bir kilo da yağ əlavə edilir. Umac halvası yas yerlərində, qara bayramlarda, imam təziyələrində bişirilir və yuxanın arasında paylanırdı. Niyyət edəndə, təzə evə köçəndə də umac halvası bişirilirdi. Münəvvər Zeynalovanın dediyinə görə, təzə evə köçəndə gəlinə məsləhət görmüşdü ki, qada-bəladan uzaq olması, evin xeyrini görməsi üçün halva çalıb qohum-qonşuya paylasın.

Umac halvasından fərqli olaraq *tər halvanın* hazırlanması daha asandır. Un qovrulur, qızarana yaxın içərisinə şərbət əlavə olunur. Xalisa kəndində tər halvaya şərbət əvəzinə doşab əlavə olunduğu üçün ona *doşab halvası* deyilir. Tər halvanın içinə qoz, fındıq da əlavə olunurdu. Doşab halvasının içinə isə mixək qatılır, o, halvaya xoş ətir verirdi.

*Bastıx* – şirniyyat növüdür və tər halvadan hazırlanır. Bastığı hazırlamaq üçün öncə tər halvanın bulamacı edilir, suda

açılır, açılandan sonra odun üstündə bərkiyənə qədər qaynadılır. Əlavə dad vermək üçün bastığa mixək, hil əlavə olunur. Mixəyi, hili əzib cunanın arasında həmin bulamacın içinə atırlar, bişəndən sonra da içindən çıxarırlar. Bişənə yaxın bulamacın içinə doşab əlavə edilir. Doşab gərək qərəlində olsun, çox olanda bulamacın rəngini qaraldır. Sonra sapa düzülmüş qoz ləpələrini həmin bulamacın içinə salır, quruması üçün onları ipdən asırlar. Bir həftə, on gün ipdə qalıb quruyur.

*Səməni halvası* isə Xıdır Nəbi və Novruz bayramlarında bişirilib. Səmənini bişirən adam mütləq qüsullu, dəstəmazlı olmalı idi. Öncə səməni qaranlıq bir yerdə cücərdilir. Onu tam cücərməyə qoymurlar, ağ-ağ zoğ atandan sonra toxmaqla ət daşında döyür və ya ət maşınında çəkirdilər, onu sıxıb suyunu çıxarırdılar. Həmin suya un əlavə edib tam özünü tutana qədər bişirirdilər. Səməni halvası bişiriləndə qonşular da un verir, kim nə qədər un veribsə, ona o qədər də halva verirdilər. Namizəd Allahverdiyevin dediyinə görə, səməni halvasının bişirilməsi uzun çəkirdi, anası axşamdan ocağın üstünə qoyur, gecə dördəbeşə qədər o qaynayırdı. Dibinin tutmaması üçün ərsinlə onu qarışdırırlar, qızarıb xına rəngi alanda artıq bişmiş olurdu. Səməni halvası niyyət edilərək bişirilir və qohum-qonşuya ondan pay verilirdi.

Qərbi Azərbaycan bölgəsində ən geniş yayılmış şirniyyat növlərindən biri də *yeznə qalınıdır*. Yeznə qalınının tərkibi un, süd, şəkər tozu, yumurta və yağdan ibarət olur. Təndirdə tabağın içində bişirilir, günümüzdə isə elektrik peçində bişirilir. Zəngibasar sakini Əkbər Əliyevin dediyinə görə, qız üçün oğlan evindən nişan gələndə mütləq gətirilən payın əvəzi qaytarılmalı idi. O zaman yeddi dənə yeznə qalını bişirir, üzərini kişmiş, xurma ilə bəzəyib üst-üstə təpsiyə yığır, xonça bağladıb

oğlan evinə göndərirdilər. Yeznə qalını əsasən bayramlarda, ad günlərində bişirilib.

*Əyirdək* – südlə yoğrulmuş xəmirdən hazırlanır, qızmar yağda bişirilir, üstünə şəkər tozu tökülərək yeyilir. Əyirdəyin xəmirini aşsüzənin gözündən keçirir, alınan fiqurları qızmar yağda bişirirdilər. Hər iki üzü bişəndən sonra üstünə şəkər tozu əlavə edib süfrəyə verirdilər. Bayram günlərində, qonaq gedəndə mütləq əyirdək bişirib aparırlar, Hallavar kəndində ehsan niyyətinə əyirdək bişirib ziyarətgahda paylayırdılar. *Üçqulaq əyirdək* – qoz və fındıqdan içlik hazırlanır, lavaşın arasına doldurulub ağzı bükülür. Üçqulaq əyirdəyin üstünlüyü odur ki, lavaşa büküldüyü üçün onu uzun müddət saxlamaq olurdu. Lazım gəldikdə yağın içinə atıb bişirirdilər.

*Qatlama* – xəmiri əyirdəklə eyni olur, sadəcə formasına görə ondan fərqlənirdi. On iki və ya on dörd dənə lavaşı teştin içinə yayıb yağlayır, sonra bıçaqla zolaq-zolaq kəsirlər. Kəsilmiş dilimləri ələ dolayıb içini çölə doğru qatlayır və qızmar kərə yağında bişirirdilər. Bişəndə kənarları qat-qat açılırdı. Qatlama həm də nəzir kimi bişirilib. Üşü kənd sakini Təvəkkül Əliyevin dediyinə görə, Şıx Həsənin üstünə ziyarətə gedəndə qatlama bişirib aparar, ziyarətə gələnlərə paylayardılar. Ölüsü düşən ehsana gücü çatmayanda qatlama bişirib ehsan kimi verərdi.

**Ərzağın saxlanma üsulları.** Qərbi Azərbaycan dağ yeri olduğu üçün qış çox sərt keçirdi. Söyləyicilərin dediyinə görə, elə vaxt olub qarda cığır açmaqla hərəkət ediblər. Ona görə insanlar artıq payızdan özlərinin qış ehtiyatını görür, qış üçün azuqə yığırdılar. Ərzaqları qışa saxlamaq üçün istifadə olunan əsas üsullardan biri quyuda basdırmaqdır. Kələm, kartof, buğda və digər ərzaqlar məhz bu üsulla saxlanırdı. Bunun üçün dərin quyu qazılır, quyunun altına taxta döşənir, üstünə də kələm,

kartof, buğda və digər ərzaqlar yığılırdı. Kartof, buğda quyusunun ağzı açıq olurdu, amma kələm quyusunun ağzı torpaqla örtülürdü. Quyunun dibinin quru olması üçün orada ocaq qalayır və ya kül səpirdilər. Quyunun dibinə və yan tərəflərinə saman döşəyib buğdanı orada saxlayırdılar. Quyuda saxlanılan buğda bəzən nəm çəkirdi. Ona görə qonşuya əlborcu çörək almağa gedəndə deyərdilər ki, filankəsə getməyin, onun çörəyi quyudibi dadır.

Qışda təndir qalamaq, lavaş yapmaq böyük zəhmət tələb etdiyi üçün qış üçün lavaş ehtiyatı payızdan bişirilirdi. Söyləyicilərin dediyinə görə, bir günə bir meşox, iki meşox unun lavaşını bişirərdilər. Ona görə qış lavaşının bişirilməsi bir nəfərin işi deyil, qohum-qonşu da köməyə gəlirdi. Bir gün bunun, səhər başqa birinin lavaşına kömək edirdilər. Xəmiri təknədə yoğurduqdan sonra onu acımağa qoyur, acıyandan sonra da kündələrə ayırırdılar. Lavaş bişirəndə əmək bölgüsü aparılır, biri vərdənə ilə kündəni açır, digəri oxlovda yayır, o biri isə lavaşı təndirə yapırdı. Kündələr öncə vərdənə ilə açılır, vərdənə kündənin ortasını açır, amma kənarları qalın qalırdı. Sonra oxlovla onun kənarlarını da nazikləşdirirlər. Ondan sonra üçüncü şəxs lavaşı rəfətənin üstünə sərib təndirə yapırdı. Rəfətə söyüd şivindən və ya fanerkadan hazırlanırdı. Söyüd şivini səbət kimi toxuyub üzərini bezlə örtür, bezin kənarlarını isə çuvalduzla tikib içinə saman və ya pambıq doldururdular. Rəfətənin boğaz hissəsində əl keçirmək üçün yer qoyulur. Rəfətəni ələ keçirər, lavaş onun üstünə sərib təndirə yapardılar. Közü tədirin ortasına toplamaq, küt gedən lavaşları təndirdən çıxarmaq üçün şişdən istifadə olunurdu. Bir təndir üç-dörd lavaş tuturdu. Lavaş bişəndən sonra onu süfrənin üstünə sərirdilər, səhərə qədər qalıb soyu-

yurdu. Ondan sonra lavaşların altını təmizləyib üst-üstə sələnin[7] üstünə yığır, üzərinə də toz qonmaması üçün süfrə sərirdilər. Sələni havadan asırlar, lavaş orada aylarla xarab olmadan qalırdı. İstifadə edəndə də axşamdan ılıq su (xunuş) ilə sulayar, səhərə qədər suyu tamam çəkər, ondan sonra istifadə edərdilər. Söyləyicilərin dediyinə görə, bir meşox unun lavaşını bir aya, ay yarıma yeyirdilər.

Ərzağı qışa saxlamağın digər üsulu isə onu qovurmaq idi. Bu üsulla ət, unlu məhsullar qışa saxlanırdı. Qovurma erkək qoyunun ətindən hazırlanır. Qovurmalıq heyvan qabaqcadan seçilir, ilboyu xüsusi bəslənirdi. Qovurmanın hazırlanmasına payızdan – oktyabr, noyabr aylarından başlanırdı. İri bir dana kəsilir, dana əti yağsız olduğu üçün qoyun da kəsib qatılırdı. Qovurma qoyunun yağında qovrulur, həmin yağ yetməzsə, bazardan kərə yağı alıb əlavə olunurdu. Qovurmanın hazırlanması əziyyətli iş olduğu üçün tək adamın onun öhdəsindən gəlməsi mümkün deyildi, bu işdə qohum-qonşu da kömək edirdi, qarşılıqlı yardımlaşmaqla qış üçün ərzaq ehtiyatı görülürdü. Qovurmanı hazrlamaq üçün əvvəlcə heyvanın əti suda qaynadılır, sonra öz yağında qovrulurdu. Qovurmazdan əvvəl ət möhkəm duzlanır, bir müddət dincə qoyulur, duzu tam canına çəkdikdən sonra onu iri tiyanlarda qovururdular. Ət elə qovrulmalı idi ki, içində çiylik qalmamalı idi. Ona görə əti ortadan bölüb içinə baxırlar, içərisində qırmızılıq yoxdursa, artıq ət tam bişmiş sayılırdı. Ondan sonra qovrulmuş tikələri bölgədə şirli qab kimi tanınan saxsı küplərə yığıb öz yağından da küpün içinə tökürdülər. Yağ ətin üstünü tam örtməli idi, yoxsa ət kif ata bilərdi. Küpü sərin bir yerdə saxlayırdılar. Qovurma ətinin suyuna *cığatay*

[7] Sələ – söyüd şivlərindən hazırlanır, aş süzmək üçün istifadə olunur.

deyilir, onu qablara çəkir, hər qaba da bir-iki tikə ət atıb qonşulara paylayırdılar. Söyləyicilərin dediyinə görə, qovrulmuş ət bir-iki ay qaldıqdan sonra daha dada gəlirdi, ona *ət şəhləndi* deyilirdi. Küplər qaranlıq və sərin yerdə saxlanılır, bəzi yerlərdə isə yeri qazıb torpağa basdırılır. Küpün ağzı aşılanmış dəri ilə bağlanırdı. Qalan cızdağı isə umac aşı bişirəndə, kartof qızardanda isifadə edirdilər. Söyləyicilərin dediyinə görə, qovurma ətin üstünlüyü o idi ki, ondan hazırlanmış yemək daha dadlı olur və tez başa gəlirdi. Qovrulmuş ətdən ləpə-bozbaş, borş, ətli əriştə kimi yeməklər bişirilirdi. Qərbi azərbaycanlılar deportasiyadan sonra bir müddət məskunlaşdıqları bölgədə də bu ənənəni davam etdirmişlər, amma bu gün artıq bu üsul unudulmuşdur. Sabirabadın, Salyanın isti iqlimi əti qovurma üsulu ilə saxlamağa imkan vermədiyi üçün bu gün artıq o ənənə davam etdirilmir.

Əriştə də qovrularaq qış üçün saxlanılırdı. İrəvan sakini Rəfiqə Məmmədovanın dediyinə görə, hər il bir meşox unun əriştəsini hazırlayırdılar. Bağdakı ağaclardan ip asır, əriştələr torpağa düşməsin deyə onun altına süfrə sərirdilər. Nənəsi əriştələri kəsir, onlar da əriştələri təpsi ilə bağa daşıyıb həmin iplərin üstünə sərirdilər. Bir gün orada qalıb quruduqdan sonra sacın içində yağda qovurur, qovurduqdan sonra sərib soyudur, ondan sonra meşoxlara yığıb sərin yerdə saxlayırdılar.

*Yarma* – buğdanı yüngülcə yuduqdan sonra qazana töküb pörtlədirlər. Pörtlənmiş buğdanı sərib qurutduqdan sonra dibəkdə döyürlər. Buğdanın çıxan qabıqlarını təmizləyib bu dəfə dəstərdə çəkib yarma halına salır və meşoxlara yığıb qışlıq azuqə kimi saxlayırdılar. Həlsə, südlü aş, dolma bişirəndə düyüdən daha çox buğda yarmasından istifadə olunurdu. Söyləyicilərin dediyinə görə, buğda yarmasının plovu düyüdən də dadlı olur.

Ərzağı saxlamağın üsullarından biri də onu konservləşdirilməsidir. Böldəgə *caş* qış üçün konservləşdirilmiş tərəvəzə deyilir. Söyləyicilərin dediyinə görə, caş erməni sözüdür və yemək mənasında işlənir. Caş tərəvəzdən hazırlanır. Badımcanı, bibəri, pomidoru, lobyanı qaynadıb bankalara doldurur, qışda soğanı dağ edib üstünə həmin tərəvəzi əlavə edir, bişənə yaxın üstünə yumurta çırpırdılar. Caşı hazırlamaq üçün soyulmuş badımcan pörtlədilir, sonra ət maşınında çəkilir, içinə soğan, bibər, istiot qatılır və bankaya doldurulub ağzı bağlanırdı. Caş yayda bağlanır, qışda tərəvəz olmayanda tükədilirdi.

Göy-göyərti ya qurudularaq qış üçün ehtiyat görülür, ya da konservə edilmək yolu ilə qışa saxlanırdı. Ələyəzi saç kimi hörüb evin damından asır və qışda istifadə edirdilər. Kişniş, mərzə, şüyüt kimi bitkiləri də qurudaraq saxlayırdılar. Çaşır, baldırğan kimi bitkilərin isə şorabası qoyulurdu. Qərbi Azərbaycanda şorabalar iri taxta boçkalarda tutulurdu. Baldırğan şorabası bulğur aşının, əriştə aşının, plovun, quru yeməklərin böyründə məzə kimi süfrəyə verilirdi. Çaşır isə qovurma ətindən hazırlanmış yeməklərin böyründə süfrəyə verilirdi.

Əriyi qurutmazdan öncə qaynar suya töküb çıxardırlar, duzladıqdan sonra palazın üstünə sərib qurudurlar. Günün altında çox qalanda qaraldığı üçün iki gün Günəş altında saxlayıb sonra kölgədə qurudurdular.

Ərzağı saxlamaq üçün şirli və ya şirsiz qablardan istifadə olunub. Dağ yerində yaşayanlar ərzaq saxlamaq üçün motaldan istifadə ediblər, aran bölgələrində isə ərzaq şirli və şirsiz qablarda saxlanıb. Təkcə pendiri deyil, yağı, şorabanı, qovurmanı da şirli qablarda saxlayırdılar. Şirli qabların iki nəfərin güclə qaldıra bildiyi üç qulplu, dörd qulplu iri növləri də var idi.

## 6. XALQ TƏQVİMİ

Qış fəsli üç dövrə bölünür: Böyük çilə, Kiçik çilə və Boz ay. Böyük çilə 40 gün çəkir, dekabrın 21-dən 22-sinə keçən gecə girir və yanvarın 31-ə qədər davam edir. Ondan sonra Kiçik çilə gəlir, o da fevralın 1-dən başlayıb 20-nə qədər davam edir. Kiçik çilə ömrünün az olmasına baxmayaraq, Böyük çilədən daha sərt keçir. Ona görə yaşlılar deyirdi ki, Kiçik çilə insanı təndirdən salıb külfədən çıxardacaq. Deyilənə görə, Böyük çilə ilə Kiçik çilə iki bacı olur. Bunlar qarşılaşır. Kiçik çilə böyük bacıdan soruşur ki, nə etdin? Böyük bacı cavab verir ki, havanı soyutdum, adamları təndirin başına yığdım. Kiçik çilə də cavab verir ki, sən təndirin başına yığdın, mən isə təndirdən salıb külfədən çıxardacam.

Qışın yarısına *Xıdır Nəbi* deyilir. Qərbi Azərbaycanda Xıdır Nəbi fərqli tarixlərdə qeyd olunur. Zeytə kəndində Xıdır Nəbi qış yarı olanda – fevralın 5-i tarixində, Saral kəndində fevralı 8, 9 və ya 10 tarixində, Hamamlı rayonu, Vedi mahalında fevralın 16, 17 və 18-i tarixlərində qeyd olunur. Saralda bu bayram *Xıdır Elləz* adı ilə tanınır. Kənd sakini Şəmsiyyə Mustafayevanın dediyinə görə, Xıdır Elləz bayramını fevralın birinci on günlüyündə üzü cüməyə açılan axşam keçirirdilər. Həmin gün də fevralın gah 8-i, gah 9-u, gah da 10-una düşdüyü üçün günün oynaması da bununla əlaqədar idi.

Qədimdə təqvim olmadığı üçün insanlar Xıdır Nəbinin gəlişini müəyyən əlamətlərə görə müəyyən edirdilər. Xıdır Nəbi pişiklərin kürsəyə gedən dövrünə təsadüf edirdi. Həmin dövrdə hava qarla-boranla müşayiət olunur. Həmin gün yağan qara *Xıdır Nəbi boranı* deyilirdi. Xıdır Nəbidə külək əsəndə yaşlılar deyirdi ki, Xıdır Elləz atının minib, ona görə boran

qalxıb. Bu bayram bölgədə *Xıdır, Xızır, Xızır Elyas, Xızır Elləz* və sair adlarla tanınır, bundan əlavə bu bayramla simvollaşmış nemətin adı ilə “qovurğa bayramı” da deyilir.

Çimən kənd sakini Göyərçin Həsənovanın dediyinə görə, Xıdır Nəbini Kiçik çilənin çıxmağına 7 gün qalmış qeyd edir, hər gün fərqli yemək bişirirdilər. Bir gün buğda qovurur, bir gün qovut çəkir, bir gün xaşıl, bir gün düyü-plov bişirir, Xıdır Nəbinin sonuncu günü isə həlsə bişirirdilər. Həlsəni buğda yarmasından bişirirdilər. Onu qaynadır, yarma açıldıqdan sonra içinə ət töküb ocağın közündə səhərə qədər bişirirdilər. Səhər də onu yeyirdilər. Cul kənd sakini Əhməd Əhmədlinin dediyinə görə, Xıdır Nəbi və Xıdır Ellaz iki qardaşdılar, yaz ağzı onlar görüşür, onda təbiyət oyanır. Qayınatası həmin vaxt belə bir nəğmə oxuyurdu:

Xıdır Nəbi, Xıdır Ellaz,
Töküldü nəm, gəldi yaz.

Zəngibasar mahalında Xıdır Nəbi Kiçik çilənin axırıncı cüməsi ilə birinci çərşənbə arasında qeyd olunurdu.

Zeytə kəndində Xıdır Nəbi qış yarı olanda – fevralın beşində qeyd olunub. Söyləyicilərin dediyinə görə, Xıdır Nəbi girəndə yerə oğru buğ gəlir, torpaqda hənirti yaranır, ot cücərməyə başlayır. Ona görə Xıdırdan sonra yağan qarın qorxusu yox idi, o torpaqda qalmır, tez əriyirdi. Yerdə hərarət yarandığı üçün kartof, noxud əkini də həmin dövrdən başlayırdı. Doğru buğ isə martın 21-də gəlir, ondan sonra nə əkilsə, tuturdu. Oğru buğ gələndə seyrək şəkildə ot cücərirdisə, doğru buğ gələndə artıq ot xeyli qalxır, heyvanı çölə otarmağa aparanda qarını doyurdu. Ona yerə nəfəs gəldi, yer nəfəsləndi də deyirdilər. Həmin dövrdə torpaqdan buğ qalxırdı. Onda bilirdilər ki,

yerə nəfəs gəlib. Başqa bir inanca görə, Xıdır Nəbi öz Düldülü ilə həmin gün qapıları gəzir, ruzi-bərəkət paylayır. Ona görə insanlar qovrulmuş buğdadan qovut çəkir, onu ləyənə töküb pəncərənin qabağına, damın üstünə qoyurdular. Əgər Xıdır Nəbinin atının nalı və ya əlinin izi ora düşürdüsə, onlara ruzi-bərəkət verdiyinə inanırdılar. Namizəd Allahverdiyevin dediyinə görə, Xıdır Nəbinin əli dağda buza yapışıb qalır. Həmin gün torpağa nəfəs gəldiyi üçün buz əriyir və Xıdır Nəbinin əli buzdan xilas olur.

Qovudu quru yedikdə adamı boğur, ona görə onu şərbətli su ilə yumurlayıb yeyirdilər. Bəzi bölgələrdə həmin gecə qapıları gəzənin Xıdır Elyas olduğu deyilir. Vedi rayon Haxıs kənd sakini Telman Hüseynovun dediyinə görə, həmin gün Xıdır Elyas atın üstündə əlində qamçı qapıları gəzir. Qovutu bir siniyə sərib pəncərənin qabağına taxçanın üstünə qoyurdular. Yaşlılar deyirdi, kim əməli-saleh adamdırsa, Xıdır Elyas gəlib ora iz qoyacaq – ya atının ləpiri, ya qamçısının izi düşəcək. Bayburd kəndində buğdadan əlavə qarğıdalı, noxud, çətənə toxumunu da sacda qovurub qovurğaya qatırdılar, onlar qovurğaya əlavə dad verirdi. Bayburd kəndində Xıdır Nəbi fevralın 17-dən başlayıb bir neçə gün davam edirdi. Abbas Hüseynovun dediyinə görə, hər gün bir nemət bişirirdilər. Fevralın 17-si qovurğa qovurur, 18-də qovut çəkir, fevralın 19-da isə buğda yarmasından xaşıl bişirirdilər.

Bəzi bölgələrdə isə həmin dövrə Kürdoğlu deyilir. Qaraçanta kənd sakini Cəlal Seyidovun dediyinə görə, Kürdoğlu cavan oğlan olur. Atası ilə dava eləyir, evi tərk edib atı ilə dağa gedir. Yuxusu gəlir və bir qayanın altında yuxuya gedir. Gecə qar yağır, bu, qarın altından çıxa bilmir. Bir az qarın atında

qalır, görür bunu isidən nəfəs var. Çırpınıb qarın altından çıxır. Həmin dövrə Kürdoğlu qayada qaldı, yerə nəfəs gəldi deyirlər.

Qursalı, Heydərli kəndlərində Xıdır Nəbinin gəlişi münasibəti ilə xüsusi qoç bəslənir və həmin gün qurban kəsilirdi. Xıdır üçün qoçun bəslənməsi Loru mahalının Qursalı kənd sakinlərindən toplanmış etnoqrafik məlumatlarda da qeyd olunur.

Bala Məzrə kəndində Xıdır Nəbidə çəkilmiş qovut teştlərə yığılır, teştin ətrafına ailə üzvlərinin, 12 imamın, 124 min peyğəmbərin adına şam düzülürdü. Şamlar pambıqdan hazırlanırdı. Bir çopün başına pambıq dolanır, həmin pambıq yanması üçün inək yağına batırılırdı. Həmin teşt pəncərənin önünə və ya təmiz bir yerə qoyulur. Xıdır Nəbi həmin qovuta əlini və ya əsasını basardısa, onlara ruzi-bərəkət verdiyinə inanılırdı. Səhər həmin qovut qonşulara paylanır, yanmış şamların qalan hissəsi isə ayaqlanmaması üçün təmiz yerdə basdırılırdı. Vedi rayonu İmirzik kəndində isə Xıdır Nəbinin adına çəkilmiş qovut pəncərənin önünə qoyulur, Xıdır Nəbi atının ayağını ona basdıqdan sonra qovutdan yeməyə icazə verilirdi. Qovutu quru-quru yedikdə adamı boğduğu üçün onu şəkərli su ilə qarışdırıb yumurlayır və ya dürmək halına salıb sonra tükədirdilər.

Xıdır Nəbidə buğda yarmasından xaşıl bişirilirdi. Həmin xaşılı çöpün ucuna keçirib hündür bir yerə – divarın başına, damın üstünə sancırdılar. Ala qarğa xaşılı hansı istiqamətə aparsa, evin qızının o istiqamətə ərə gedəcəyinə inanılırdı. Yaxud qarğanın xaşılı uzağa aparması qızın uzağa, yaxına aparması isə yaxına ərə gedəcəyi şəklində yozulurdu.

Axır çərşənbəyə məxsus bir çox adət-ənənələr Xıdır Nəbidə də icra olunur. Yetkinlik yaşına çatmış qızlar kimə ərə gedəcəklərini müəyyən etmək üçün Xıdır Nəbidə duzlu kömbə

bişirirdilər. Duzlu kömbədən yeyib yatır, kömbənin yarısını da başlarının altına qoyurdular. Çarpayının yanına güzgü, bir stəkan da su qoyurdular. İnanca görə, gecə onun yuxusuna gələn adamın əksi güzgüyə düşür, yuxuda kim ona su versə, ona da ərə gedəcəklərinə inanırdılar.

Xıdır Nəbidə qapı gəzilir, pay yığılırdı. Köçbək kəndindən yazıya alınmış aşağıdakı nəğməni uşaqlar qapı gəzərkən oxuyurdu:

Xıdır, Xıdır, Xıdır İlyas,
Bitdi çiçəh, oldu yaz.
Mən Xıdırın quluyam,
Boz atının çuluyam.
Boz at getdi hayınan,
Bir balaca dayınan.
Dayı palçığa batdı,
Xıdır yanında yatdı[8].

Bu bayram Heydərli, Hallavar, Güllüdərə kəndlərində Xıdır Elləz adı ilə tanınır və fevralın 11, 12, 13-ü tarixlərində keçirilib. Hallavar kənd sakini Oruc Süleymanovun dediyinə görə, Xıdır Elləz gələndə anaları payızdan saxladığı seçmə buğdanı qovurur, onu dəyirmanda üyüdüb qovut edirdi. Qovudu iri sinilərə çəkib ortasına da yeddi dənə çıra sancırdı. Maqazində satılan şamlar donuz piyindən hazırlandığı üçün ondan istifadə etmirdilər, çıranı çırttığan bitkisinin çubuqlarından hazırlayırdılar. Payızdan çırttığan bitkisini yığıb qurudur, onun başına pambıq dolayırdılar. Yandıranda da pambığı ərinmiş nehrə yağına batırıb sonra yandırırdılar. Oruc Süleymanovun dediyinə

[8] Söyləyici nəğmənin ardını unudub, ancaq bu hissəni bizə çatdıra bildi.

görə, anası çıraları qom bir yerə yığıb sininin ortasına sancır, gecə saat 12-də onları yandırırdı. Deyirdi, yatın, Xıdır Elləz gəlib payını aparacaq. Səhər qalxanda görürdülər ki, sininin kənarından bir az götürülüb. Anası deyirdi, gecə Xıdır Elləz gəlib payını aparıb. Axşamüstü hamı pirləri ziyarət edir, orada çıra yandırırdı. Evdə çıranı ailə fərdlərinin, əsgərlikdə olanın, o ocaqdan gəlin köçənin eşqinə, imamların eşqinə, mal-qaranın eşqinə – hərənin adına bir çıra düzəldib yandırırdılar, amma ziyarətlərdə yalnız ziyarət üçün yandırırdılar. Hər kəs evə yaxın pirin üstünə gedirdi. Məsələn, Hallavar kəndində kimi Miskin Abdal, kimi Tək ağac pirini ziyarət edib orada çıra yandırırdı. Saral kəndində isə Armud ocağını ziyarət edir, orada niyyət edib çıra yandırırdılar.

Çırttığan müqəddəs bitki hesab olunur, onun qada-bəlanı sovuşdurduğuna inanılır. Çırttığan bitkisinin müqəddəsliyi haqqında Saral kəndindən belə bir rəvayət yazıya alınmışdı. Kənd sakini Şəmsiyyə Mustafayevadan qeydə alınmış həmin rəvayət belədir: “Üç qardaş olur – Xıdır, Nəbi, İlyas. Padşahın bunlara qəzəbi keçir. Deyir ki, Zəmzəm suyu gətirməlisiz. Bunların da anaları bir torbaya qout doldurur – qout tutumlu şeydi, – qoyun dərisindən hazırlanmış bir suluğa da qurudu əzib doldurur ki, yolda yiyin, aj qalmayın. Bunlar yola düşüllər, xeylax gedəndən sonra oturullar yemək yeməyə. Yemək yeyəndən sonra deyirlər, bir az uzanax dincələk. Yemək yemiş, yorğun adamlardı, başlarını atan kimi yatırlar. Atlarının yüyənini də başlarının altına qoyurlar ki, atlar uzaqlaşmasın. O qədər yorğun olurlar ki, yüyən açılanda xəbər tutmurlar. O vaxt ayılırlar ki, şər qarışıb, nə yüyən var, nə də atları. Atsız da getmək mümkün döylü.

Atdarını axtara-axtara Beşbarmağacan[9] gəlirlər. Görüllər, atın yüyəni çırttoyux[10] ağacına ilişib qalıb". Söyləyicinin dediyinə görə, o vaxdan çırttığan bitkisindən müdafiə məqsədilə istifadə olunur. Xıdır Nəbi günü onun budaqlarından hərənin adına bir çöp qırar, pambığı çöpün başına dolayıb dağ olunmuş yağın içinə batırardılar. Ailə üzvlərinin, imamların, peyğəmbərlərin – hərənin adına bir çıra düzəldər, qovudu siniyə töküb çıraları da onun içinə sancardılar. Səhərisi gün nişanlı oğlanlar həmin qovutdan nişanlısı üçün xonça tutar, ocaqdan gəlin köçən qızlar varsa, onlar üçün ayrıca xonça bəzəyib aparardılar. Səhər həmin qovutdan xaşıl çalınırdı. Xaşıl qazanının ağzı açılanda birinci kənddəki kimsəsizlər, imkansızlar, xəstələr, yeni toyu olanlar, nişanlı qızlar üçün, axırda da evdəki adamlar üçün pay çəkilirdi. Saral kəndində həmin xaşıl qurutla yeyilirdi. Şəmsiyyə Mustafayevanın dediyinə görə, qardaşı o vaxt Bakıda oxuyurdu, tətilə kəndə gəlmişdi. Xaşıl çəkiləndə onun payından bir qaşıq götürüb damın üstünə qoymuşlar ki, görsünlər qarğa aparıb kimin qapısında yeyəcək. Qonşularında yaşı ötmüş bir qadın var idi, orta məktəbdə oxuyan kiçik qardaşı uşaqlarına baxırdı. Onlarla aralarında da bir divar var idi. Qarğa xaşılı damın üstündən götürmüş, aparıb onların divarının üstündə yemişdi. O vaxt onlar zarafata salmışdılar ki, yəqin qardaşları Şamamanı alacaq. Doğrudan da, illər sonra qardaşı özündən on iki yaş kiçik Şamamanı almışdı. Şəmsiyyə Mustafayevanın dediyinə görə, qonşularında bir qız var idi, əmisi oğluna nişanlı idi. Xıdır Elləzdə hara ərə gedəcəyini sınamaq üçün öz xaşıl payından bir qaşıq damın üstünə qoyur. Qızın nişanlısı kəndin sağ tərəfində olurdu,

---

[9] Xıdır Zində ziyarətgahı

[10] Həmin bitki Hallavar kəndində çırttığan, Saral kəndində çırttoyux adı ilə tanınır.

amma qarğa xaşılı sol tərəfə aparır. Qarğa xaşılı sol tərəfə apardığı üçün qız o zaman pərt olmuşdu. Sonralar, doğrudan da, o qız nişanını qaytardı, amasiyalı bir oğlana ərə getdi.

Hallavar kəndində Xıdır Nəbidə xaşıl, Xıdır Elləz aşı bişirilib. Xıdır Elləz aşı yumuru düyüdən bişirilib. Hazırlanması belədir: Düyü tam bişirilir, ayrıca qazanda da yağ-soğança hazırlanırdı. Düyü boşqaba çəkilir, üstünə əzilmiş qurut tökülür, ortasına da yağ-soğança əlavə edilirdi. Xıdır Elləz aşından həm ailə üzvləri yeyir, həm də qohum-qonşuya pay göndərilirdi. Səhər tezdən hərə bir boşqab Xıdır Elləz aşını və ya xaşılını götürüb yaxın qohumlarının başını qurutlamağa gedirdi. Hallavar kənd sakini Oruc Süleymanovun dediyinə görə, əmilərinin evi onların evindən aşağıda yerləşirdi. Səhər tezdən bir boşqab Xıdır Elləz aşından götürüb onlara gedirdi. Hamı çalışırdı ki, o qabağa düşsün. Ona görə hamıdan erkən saat beşdə, altının yarısında ayağa qalxırdı. Əmisi hələ yatıbsa, qurudu onun başına çəkirdi. Səhər də kənddə söhbət düşəndə filankəsin başını qurutlamağını bir qəhrəmanlıq etmiş kimi anladırdı. Ev yiyəsi gətirilən payı götürüb əvəzinə özünün bişirdiyi paydan qoyurdu.

Kiçik çilə çıxandan sonra Boz ay başlayır. Yaşlı insanların dediyinə görə, Boz ayda havaya etibar yox idi: hava gah açılır, gah tutulur, gah günəşli, gah da yağışlı keçir. Ona görə deyərdilər ki, Boz ay bozara-bozara keçir. Çiləbeçələr də Boz aya düşürdü. Boz ayda dörd çiləbeçə olurdu.

Mart ayı soyuq keçərdi. Ağsaqqallar deyərdi ki, nəhlət marta aprelin beşinə kimi. Söyləyicilərin dediyinə görə, aprel ayında dolu düşdüyünün, qar yağdığının, şaxtanın üzüm tənəklərini məhv etdiyinin şahidi olublar. Ona görə aprelin 15-ə qədər

odun ehtiyatı görürdülər. Belə bir deyim də işlədilir ki, mart çıxdı, dərd çıxdı.

Ondan sonra *Qarının günləri* və ya *Oğlaq qırıldı* deyilən bir dövr gəlir. Qarının borcu aprelin 11-13 arasına düşür. Deyilənə görə, çəpişləri yaza çıxan qarı "mart gözünə barmağım, yaza çıxdı oğlağım", – deyə sevinir. Qarının bu sözündən hirslənən mart apreldən üç gün borc alıb elə bir çovğun törədir ki, qarının çəpişləri qırılır. Ona görə insanlar aprelin axırına qədər ehtiyatı əldən vermir, özləri üçün odun tədarükü görürdülər.

May ayı boş ay hesab olunur, may ayında xeyir iş keçirilmir. Elbrus Xəlilovun dediyinə görə, may ayının boş ay hesab olunması xristianlardan keçmişdir. Osmanlıların Konstantinopolu fəth etməsi 1453-cü ilin may ayına təsadüf etdiyi üçün xristian dünyası may ayını qara ay kimi qəbul etmiş, həmin ay toy etməmişlər. Söyləyici məlumatları göstərir ki, may ayının boş ay hesab olunması sonrakı dövlərin təsəvvürdür, əvvəllər may ən əziz aylardan biri olub, həmin ayda toy da çalınıb. Elbrus Xəlilovun dediyinə görə, böyük qardaşının toyu 1978-ci il may ayının 13-də olmuşdu. Onda bir rus qadını ona irad tutmuşdu ki, may ayı pis aydı, utanmırsınız, may ayında toy eləyirsiniz?

Yay fəsli yarı olanda *quyruq dondu* və ya *quyruq doğdu* deyilir. Ağacan Sadıqovun dediyinə görə, həmin dövrdə Zöhrə ulduzu doğur, şüası arxada iz buraxdığı üçün ona quyruqlu ulduz da deyilir. Zöhrə ulduzu doğandan sonra artıq havalar üzü soyumağa doğru gedir. Yaylağa köç edən elat camaatı Zöhrə ulduzu doğandan sonra hazırlığını görür, bir müddət sonra mal-qaranı arana gətirirdilər. Quyruqlu ulduz doğandan sonra artıq yerə şeh düşür, səhərə yaxın hava soyuyurdu. Elat camaatı dağda heyvan kəsəndə onun quyruğunu ağacdan asır,

avqustun beşindən sonra havalar soyuduğu üçün səhərə yaxın o donurdu. Quyruq dondu ifadəsi də oradan yaranmışdı.

Bölgədə həftənin bəzi günləri də fərqli adlandırılıb. Bala Qaraqoyunlu kənd sakini Elbrus Xəlilovun dediyinə görə, anası həftənin günlərini belə adlandırardı: bazar ertəsi, tək axşamı, tək, adna axşamı, adna, şənbə, bazar. Birinci gün düşərli gün sayılmır, ona görə heç vaxt birinci günü toy keçirilməyib. Birinci günə duz günü deyilib. Ağır gün hesab edildiyi üçün həmin gün səfərə çıxılmır, elçiliyə gedilmir, toyuq kürt basdırılmırdı.

## 7-10. BİŞMƏ QURBAN

İldə bir dəfə yığılırdılar, yekə mis qazannar asırdılar, bişmə qurbanı bişirirdilər. Heyvanı soyurdular, doğramaq olmazdı, bütövcə doldururdular qazana. Buğdanı dibəkdə döyüb ağappax eliyirdilər, o buğdanı da tökürdülər onun içinə, onu bişirirdilər. Bir adam kənddə qalmamalı idi, ana bətnində olan uşaq da ondan dadmalı idi. Bir adam da ondan yeməmiş olmazdı. Bir rəvayət sənə deyim. Biz yetim uşağıx. Mən yatmışam, məndən böyük bacımı da qoyuflar mənim yanımda, gediflər bişmə qurbanın üsdünə. Mənim bacım da uşaxdı ha. Qapılar kilitdiydi. Görüfdü qapılar açıldı, iki dənə ağsakqal kişi gəldi. – Onnara qurban olum. – Gəldi dedi ki, qızım, hanı bu evin adamları? Deyif ki, qurban kəsiblər, gediflər qurban əti yeməyə. – Bəs siz niyə getmiyifsiniz? Deyif, bacım yatmışdı, onçün mən getmədim, qaldım. Dedi ki, yatmazsız. Qurban ətindən gətirəndə bacı durquzub, yeyib yatarsız, amma demə bura kim gəldi. Bax, desən, səndən inciyərəm. Özün də qorxub eləmə. Biz sizdən örtü gəlmişik ki, siz yeməmiş yatmayın. Ermənistanda olanda bacım bunu gizli saxlayır, ta Azərbaycana gələndən sonra açıb danışır.

Dedi, o vaxdı bizi qurban üsdə aparmayanda mən belə gördüm. Qapılar kilitdi idi, dedim bunlar hardan gəlib girdilər. Bax, o qurban helə qurban idi, onu gərək bir adam yeməmiş olmuyaydı. Bişmə qurbanı ildə bir dəfə kəsirdilər. İndi siz məhərrəmlik keçirtmirsiz? Bax, ildə bir dəfə onu keçirirdilər. Böyüklər otururdu, bütün imamlarımızı çağırırdı. Yadıma gəlir bugünkü kimi. Deyirdilər, Allah, Allah, sən allahlığına bağışda, sən kəsilən qurbannara bağışda, sən axan qannara bağışda, asılan qazanna-rına bağışda, İmam Hüseyn, İmam Həsənə bağışda, Yusufu zindandan qurtarana bağışda, ahunu balasına yetirənə bağışda. Okqədər deyirdilər bunu, hamı əl açırdı, sinə döyürdü bir evdə. Ondan sonra o qurbanı paylıyırdılar, oturuf yeyirdilər. Seyiddə-rimiz eləcə onu deyirdi, camaat da sinə döyürdü, dizinə döyürdü. Ondan sonra qurbanı paylıyırdılar, yeyirdilər. Qurbanın sümüyün ömründə ayağ altına atmazdılar. O qurbanın sümüyünü quyu qazıb basdırırdılar. O qurban bişirələn, verilən qabları yuyub onun suyunu da tökürdülər o quyuya ki, tapdanmasın, ayağ altına atıl-masın. Bişmə qurbanı elə bişirirdilər ki, ət özü əriyib tökülürdü. Seyid var idi, sünnü qızı almışdı. Bunu bu seyid yola gətirdi ki, qoy bu bizim dinimizi qəbul eləsin. Bax, elə bil bu qazannar asılıb bişmə qurbanı günü ha. Bax, elə bil burda qazan asılıb, burda da təndir yanır. Bax, o ordan sürünə-sürünə deyirdi ya hu, bu deyirdi ya mənə hu. Bunu deyə-deyə dizi üsdə gəlib təndirin başına dolanır, seyid nə deyirdi, o da onu təkrar eliyirdi. Onu yola gətirib sonra icazə verirdi ki, camaatnan bir yerdə o da qurban ətindən yesin. Bişmə qurbanı payız, yaz aylarında bişirirdilər.

Səməni qoyurdular, o buğdaya gərək heş kəs baxmıyaydı. Təmiz bir qadın onu becərirdi gərdəyin dalında, ondan sonra onu

döyürdülər, gedirdilər buzxanadan buz gətirirdilər, onu bişirirdilər, paylıyırdılar. Necə qurban əti paylanır o da heylə paylanır.

– Eyni vaxda olurdu?

– Yox, ayrı vaxtda. Səməni halvasını yaz qabağı bişirirdilər. Səməni halvasını o buzun suyunnan bişirirdilər. O su təmiz olurdu.

Elə bil qurban deyibsən, amma qurbana zorun çatmıyıf, sacarası bişirif paylıyırsan. Bişirirdik, seyid gəlirdi. Tərtəmiz olmalı idi hər şey, oturub durduğun yer təmiz olmalı idi, süfrəsi, hamısı. Onu bişirirdilər, seyidimiz gəlib kəsirdi, hamıya paylıyırdı. Onun xəmirini yağnan, südnən yoğururux. İki dənə saj gətirirdilər. Sajın birini altdan, birini də üstdən qoyurdular. Sajın altında kərmə yandırırdılar, onun közündən sajın üsdünə də qoyurdular. Hərdən hərsinnən qaldırıb baxırdılar, onun göbəyi olurdu, ora hərdən bir yağ tökürdülər. Seyidimiz gəlirdi, onu iki əlinin arasına alıb uzadırdı sənə, sən də "ya Həzrət Abbas" deyib onu iki əlin arasında ondan alırdın. Elə olurdu, bir neçə adam niyyət edirdi, bir yerdə oturub bişirirdilər. Seyid sacarasını doğruyurdu, iki əlin arasında götürüb sənə uzadırdı, sən də iki əlinin arasında onu almalı idin.

Niyazı təndirə yapırdılar. Niyazı sacarasıynan bərabər eliyirdilər. Onların ikisini də bir yerdə doğruyur, bir sacarası, bir niyaz qoyub paylıyırdılar.

Bizdə məhərrəmlik olmuyub, biz bişmə qurbanı bilirdik. Bişmə qurbandan bir gün, iki gün qabax, yoxsa bir həftə qabax camaat təmizdik aparardı. Çünki o qurbandan bu evə də gələjək. Bütün evlər tərtərmiz olmalı idi ki, qurban gələjək qapıya. Yekə evlər var idi, ora toplaşardılar. Erməni də gəlsəydi, onun üsdünə düşsəydi, o qurbandan ona da verilməli idi (S.34).

## 8.

Bişmə qurbanın işi ağırdı. Onu özün qurban deyirsən. Deyirsən ki, mən bu heyvanı bişmə qurbanı deyirəm. Onu ta balta götürüb doğramırsan. Onu hax-hax, hissə-hissə salamat çıxarırsan – qolun ayrı, budun ayrı, bədənin ayrı. Yekə mis qazannar vardı, qulplu. Yığırdılar onun içinə, o qədir bişirirdilər ki, onu çıxardanda əti tökülürdü, sümüyü qalırdı. Onu ta apar tulla yox ey, aparıb basdırırdılar. Əti yığırdılar yekə mis tabaxlara, yuxa bişirtdirirdilər, hazır əti yığırdılar onun içinə, bükürdülər pay-pay, kəntdə nə qədər ev var hamısına paylıyırdılar.

Buğdanı dibəkdə döyürdülər, onun üzünün qabığı gedirdi, içi qalırdı. Onu da gətirif hədik bişirirdilər.

Bizə Milli deyiblər. Yellicə, Gilənar, Bayburt, Alıqırığı, Əlimərdan, Goht, Körpü kəndi, İmirzik, Qaladibi, Hant. Əliqırığı İmam Əlinin nəslindən qalanlardı.

Seyid iki əlinin arasında tuturdu, birisinə uzadırdı o payı, sən də onu öpüb qoyurdun gözünün üsdünə, o payı alırdın onun əlindən. Niyazı təndirdə, sacarasını isə iki sacın arasında bişirirdilər. Sarı yağı sacın içinə tökürdülər, xamırı sacın içi tutduxca yayırdılar, o yağın içində bişirdi. Almənməd babanı, İmran babanı gətirirdilər, onlar duasını oxuyub bölürdülər. Onu seyidlər bölürdü. Onu hissə-hissə bölüb bütün kəndə paylıyırdılar. Sacarası çörəkdən yekə olurdu. Onu bişirəndə deyirdilər ki, qoymuyun yerə tökülsün. Yerə düşən çörəyi öpüb gözümüzün üsdünə qoyub qoyurdux ağzımıza. Getmişdim nənəmgilə. Nənəm dedi, nə yaxşı gəlmisən, dayıların işdədi, tapa bilmirik. Mən sacarası bişirmişəm, onu kişi xeylağı kəsməlidi. – Ay nənə, mən neynəməliyəm? Dedi, gir hamama qüsul alginən, ondan sonra gəl kəs. Mən qüsul aldım, çıxdım. Süfrəni

açdılar, bıçağı aldım əlimə. Dedi, yox ey, bıçaxla kəsməməlisən, onu əllə kəsməlisən. Bir əlini niyazın üstünə qoyursan, o biri əlinlə də kənarda qalan hissəni qatlayıb kəsirsən. Onu parça-parça kəsib paylıyırdılar. Sacarası kəsilir, amma niyaz kəsilmir. Onu əllə qırırdılar. Əllə qırıb sacarasının üsdünə qoyub paylıyırdılar. İyirmi il bundan qabağa qədər var idi, indi heş kim bişirmir. Onu əhd eliyib bişirirdilər. Necə filankəsə qurban kəsmirsən, bu da heylə olur. Deyirdilər, Allah ona dəyməsin, yaxşı olsun, sağalsın, bir sacarası bişirib paylayacam (S.31).

**9.**

Seyid Hüseyn vardı Körpükənddə. Onu bilirsən necə kəsirlər? İndi sən dedin, danışıram, yoxsa onu danışmazlar, günahdı. Onu hax-hax kəsirlər. Qolunu, qıçını ayırırlar. Mənim anamın babasının ocağı var idi, orda təndir var idi, orda bişirirdilər. Seyid Hüseyn onun duvasını verirdi. Onun bir qırığı da yerə düşməməlidi. Camaat hamısı yığılırdı o ocağa. Qablarda yarma olurdu. Buğdanı kirkirədə çəkib bişirirdik, onun suyunu da ora tökürdülər. Hamı yeyəndən sonra – onun sümüyü yerə düşməməlidi – onun sümüyünü yığırdılar, oturduğumuz ocaxdaca yerdən quyunu qazırdılar, doldururdular ora, üsdünü də basdırırdılar. Elə bil sən niyyət eliyirsən işim alınsın, aparıb orda bişmə qurban eliyəcəm. Kişi olmayanda mənim anamın anası onun duvasını verirdi, amma deyirdi, mənim ixdiyarım yoxdu onu kəsəm. Bir kişi xeylağın çağırıb ona kəsdirirdi, tikə-tikə doğrayıb camaata paylayırdı. Elə bilginən sən bu günnəri nəzir demisən. Onda gedib Seyid Hüseyni çağırıb gətirirdilər evə, o ətəyin bağlıyırdı belinə, onu camaata paylıyırdı. Bütün o kəndin adamı uşaxdan böyüyə yığılırdı o evə, o ocağa. Orda yeyiliyir, içilirdi, orda yuyulurdu, orda da qazılıb basdırılırdı. Ora gələnlər

ocağı ziyarət eliyirdi, əyilib təndirin qırağından öpürdü. Bir adam gedib ordan bir çöp götürə bilməzdi. Ora Xəlsə Şaabazın ocağı idi. Orda duva verəndə hamı əllərin açıb "ya Hüseyn" deyir. Həmən anda ermənilər gəlib ora, nəkqədər eliyiflər, içəri girə bilmiyiflər. Camaat çəkilif gedəndən sonra dədəmə deyiflər, siz "ya Hüseyn" dedınız, biz nəkqədər elədik girək sizin yanınıza, elə bil bizi atdılar qırağa, qoymadılar girək içəri. Qurban olduxlarım qoymuyub ha.

Mən gözümnən gördüyümü deyirəm. Seyid Hüseyn – həsirgah[11] deyirik da, – onu atdı təndirə, qıpqırmızı qızardı. Diliynən yaladı, qoydu yerə (S.30).

## 10.

Bişmə qurban çətin söhbətdi. Onun dualarını bilən lazımdı. Ona bıçaq vurulmaz, sümüyünü kəsməzdər. Onu hax-lardan ayırmırlar, təmizdiyəndə özü ayrılır. O bişəndə onun suyuna buğda yarması tökürlər, əti də püxtəliyirlər, lavaşın arasına bükürlər. Ora dəvət olunanlar, gələnlər ona inananlar olur. O məclisə Qırxlar məclisi deyilir. Bu Əli əleyhsalama aid, imamlara aid söhbətdi. Orda yarmanı yeyirsən, hərəyə də ondan pay verirlər. Orda əsas məsələ odur ki, onun duvasını bilib onu düzgün apara biləsən. Hətta bir dəfə burda İmran dayı rəhmətdih heylə məclis qurmuşdu, duvanı da İmran dayı özü oxuyurdu. Kəlbə Həsən dayının nəvələridi. Deyilənə görə, o məclis İmam Əlinin məclisidi.

– Nə vaxt keçirilərdi, tarixi var idi?

– Yox, biri bişmə qurban deyirdi, biri çiy qurban. Xoy zonasında irannılar onu bilir. O məclisdə oturana o qurbandan

---

[11] Od götürmək üçün dəmir alət

pay verilərdi. Hamı gəlir o məclisə. Onu gərək yeyib əl-ayağı da yuyasan, o sümükləri də təmiz bir yerdə basdırırlar. Onun dərisin də basdırırlar. Sümüyü dərinin arasına yığıb basdırırlar. Heyvanı harda ki kəsirlər, orda da basdırıllar. Qurbanlıq heyvanı seyidin özü kəsərdi. Duvasını oxuyur, kəsir. Onu bişirənlər qüsullanır. O məclisə gedən də qüsulsuz getmir, təmiz gedir. Ermənistanda olanda böyük ev damları olurdu, yüz-yüz əlli adam tuturdu. Hansı evdə ki bişirilir, ev sahibi oranı təmiz saxlıyır. Bişmə qurban məclisi qırxlar məclisidir.

– Qırxlar kimdir?

– Əli əleyhsalamın əsabələri ki var, o qırx nəfər yığışardılar. Eşitdiyimi deyirəm ha. Bir dənə quzu ya toğludu, nədirsə kəsirlər. Yeyəndən sonra sümüklərin yığıllar dərinin içinə, duvasın oxuyurlar, quzu dirilir. Hər cuma axşamından cuma axşamına olur bu. Birində Əli olmuyubdu, onlardan hansısa təkid eliyif, kəsifdi. O heyvan hara dirilir? Əli gələndə onu cəzalandırır. Bax, qısaca belə eşitmişəm. İki-üç dəfə rəhmətdih İmran dayı Yellicədə qurubdu o məclisi, orda iştirak etmişəm. Kənar adamlara naməhrəm deyirlər, heylə adamlara demirlər. O məclis çətin söhbətdi. Ora girən adam ürəyini düz tutmalıdı. Əgər ürəyindən başqa fikir keçirtsə, ziyandı. Onu gəlib Şəmkirdə Çinarlıda quran olubdu, Seyid Hüseyn deyirdilər, bizim kənddəndi. Onnar düzgün aparmamışdı, hamısın da maşın vurdu, öldürdü. Yerə yasdıq döşüyürlər, seyidlər başda otururdu. Əvvəl kəsəndə duasını verir, bişəndə icazə verir, təmiz adamlar onu bükürlər. Həmin məclisdə natəmiz oturmaq olmaz. Getdin oturdun, yedin, işdin, yaxşı olar, təzdən bir də get qüsullan. Qırxlar məclisində oturan yalan danışmamalı, mərdimazar olmamalı, oğru olmamalıdı. Siqaretin tüstüsünü içinə çəkməmə-

lisən. Kimsə orda siqaret çəkirsə, sən ona yaxın oturmamalısan. Əvvəldən bizim kənddə çaxır söhbəti olmuyub. Mən nə oruc tutmuşam, nə namaz qılmışam. Amma həmişə çalışmışam ki, bu konfet sənindirsə, özün götürüf verəsən, amma mən səndən icazəsiz onu almaram. Bir adam deyəmməz ki, mən birqadir işdiyəndə nəsə əysiyim gəlsin, nəsə oğurluq olsun (S.10).

## 11. SACARASI

Bu evin himi qoyulanda sacarası bişirmişəm ki, yüngüllük olsun, yaxşı olsun. Usdalar deyirdi, ay xala, sən neynədin biz nə yorulmurux, nə də dincəlmirik. On üç günə evi tikib qutardılar. Dedim, orda nəzir bişirmişəm. Onu da qəşəh yoğurursan, qoymursan bir dənəsi yerə düşə. O cılxa inək yağında bişir. Onun üsdünü kərməynən qalıyırlar. Lap mənim evimdə kərmə olmasa, gedif qonşudan alsam, puluynan almalıyam. O nə qədər desə apar, ola bilməz. Onun südünü, yağını, altının kərməsini əgər özündə varsa lap yaxşı, yoxdursa, kimdən alırsansa, onun pulunu verməlisən. Odunnan olmaz, ancax kərməynən. Axşam olanda qonum-qonşunu çağırırsan, onun da duvasını verirsən, çörək taxtasının üsdündə balaca-balaca doğruyub hərəyə bir kusok verirsən. Evdə kişi olmuyanda anamın anası duva verirdi, amma kəsmirdi. Deyirdi, gedin, kişi xeylağı gətirin, günahdı, bunu mən kəsə bilmərəm. Süd, un, yağ və duz atırdın. Acxəmrə qatılmır. Salırsan saca, göbəyin də kəsirsən, yağı tökürsən içinə. Orda qaynıyıb qıpqırmızı olur. Onun külü əəxlənməz. Onu da ayrıca komalıyırsan, aparıb ağacın dibinə tökürsən ki, əəxlənməsin. Niyaz balaca olur. Onu təndirdə bişirirdilər. Sacarasına, niyaza "təbərrih" deyilir, o qalmamalıdı. Yetim, kimsəsiz uşaqları çağı-

rırdılar ki, qoy uşaqlar yesin. Bir sacarası və iki niyaz bir bişmə qurbana bərabərdi. Onu bişirirsən, kəndi çağırıb paylıyırsan.

Bişmə qurban Xəlsə Şaabazın evində bişirdi. Hamı ora ayaxyalın gedirdi. Onu yeyib qutarandan sonra arvadlar yuyub yığışdırır, çıxıb gedirdilər. Daha evə pay aparmax yox idi. Təndirə lavaş yapılırdı. Onu ortadan bölüb camaata paylayırdılar, arasına da ət qoyurdular. Salyanda bişirmişdilər, sümüyün də qazıb polun altında basdırmışdılar. Bişmə qurban haqqında danışmaq olmaz. Böyük oğluma gəlin gətirəndə dedim ki, hamınız çimin, mən bir dənə nəzir bişirəcəm. Nəsibəgil[12] bilmirdi. Onu bişirtdirdim, qoydum ortalığa. Nəsibəyə dedim, üç dəfə əyil, deginən günahımdan keç. Əyildi onu öpdü, dedim indi sən də bizim yola gəldin. Hamı qüsullanıb gəlib onu ziyarat eləməlidi (S.30).

---

[12] Gəlinini nəzərdə tutur.

# II. MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 12-15. HAL VƏ CİN

Hal haqqında eşitmişəm. Kadın gedir doğuşa, yiyəsi yanında olur, ona qaroulçu olur. Hal ona girişə bilmir. Yiyəsiz olanda onun vaxdını tamam eliyir, hal gəlir, onun içini somurur, qanın içir, elə orda da ölür. Gözümnən görmüşəm, mənnən bir balinsada yatırdı. Mən çıxıf gəlmişəm, o qalıf. Deyirdi, Həmayə, yaman qorxuram. Ağlıya-ağlıya qaldı. Səhər kişi dedi ki, Şövkət ölüf. Yiyəsiz qalmışdı, hal onu öldürmüşdü.

Deyirlər ki, halı tutan var. Atı minir, bir aşağı çapır, bir yuxarı çapır. Onu girəvəliyiflər. Usufun dədəsinin babası halı tutuf bir qarakollux tikannıxda. Kişi görür ki, bir arvad minif atı, bir elə çapır, bir belə çapır. Guya ki, o hal olur. Deyir, sən öl, bunu tutajam. Görüm bu niyə atı öldürür? At qızıl tərin içindədi. Qılıncın çəkir vırır yerə, at tərpənmir. Gedir qızın tokqasınnan tutur, qoyur yerə. Deyir ki, üsdümdəki sancağı çıxart, ayağıma tikan batıf. Kişi də eşitmişmiş ki, halın üsdü heylə iynədi. Deyir ki, yox, mən iynəni çəkə bilmərəm. Əllərin-qolların bağlıyır, atın da cilovundan tutur gətirir evə. Öz evində onu ayilə kimi saxlıyırmış. Ağlıyırmış ki, gəl bu iynələri üsdüm-dən çıxart. Deyirmiş yox, çıxarmıyajam, sən bu evin nökəri olassan. Deyəndə dur evi süpür, evi süpürmək əvəzinə bir də görürdün sirkələnir, ev dolur zibilnən.

Ağaxanın arvadı danışırdı. Deyirdi, bizim babamız cini tutuf. İynələri sancıflarmış üsdünə ki, qaça bilməsin. Bir uşağa iynəni çıxardıfdı. Deyifdi ki, neçə il məni qulluqçu kimi saxladın, işdətdin, axırıncı diləyini dilə, mən gedirəm. Qorxusundan heş

zad isdəmiyif. Deyif ki, bərəkətini təndirimə ver. And içirdilər ki, təndirə azca şax atırlar, yarıya qədər kül olurdu. O təndir külnən dolurdu. Bərəkəti külə vermişdi. Demiyif küpəmə ver, ruzama ver, deyif təndirimə ver. Deyirdi, indi təndiri nə qədər təmizdiyirik, külü qurtarmır (S.13).

**13.**

Deyirdilər, cini tutub işdədiblər. Cin gedibdi bulaq başına. Yalvarıb ki, bu sancağı mənim üsdümdən götürün. Götürüflər. Cin gəlib bacanın başına. Deyib, məndən hər şeyi soruşdunuz, bir sarımsaq nəyə dərmandı onu soruşmadınız, bir də niyə cavan ölür onu soruşmadınız. Təhnənizə hərəkət, zibilinizə bərəkət. And içirdilər ki, o evin heç bir bərəkəti yoxdu, zibildən başqa heş nə yoxdu (S.34).

**14.**

Göyəbaxan tayfasında Hul İsmeyil[13] adında bir kişi oluf. Bunun da bir atı varmış. Hər gün səhər tezdən gedəndə görürmüş ki, bu at qan-tərin içindədi, günü-gündən də arıxlıyır. A balam, bu atı kim minir, bunu mən gətirif bağlıyıram, bunu kim sürür? Heş cür tapa bilmirmiş. Nə qədər izdiyir, atın yanında yatır, xeyri olmur. Bir gün buna kimsə deyir ki, atın belini qırra, minən ora yapışacax. Səni, yəqin, görüllər, ona görə gəlmirlər. Doğurdan da, heylə eliyir. Deməli, atının belinə qırı yapışdırer, geder. Səhər tezdən durur ki, sapsarı bir qız uşağı atın belində buna baxıb gülümsüyür. Bu deyir, kimsən sən? Deyir, mən cinəm. Kürəyinə əli çatmayan yerdən sancax yapışdırer, bu daha yox olmur. Bütün işdərini buna gördürürmüş, amma nətər görür? Deyəndə ki, bu gün çörək bişir, bişirmirmiş. Deyəndə ki, bu gün

[13] Boydan hündür olduğuna görə Hul İsmeyil deyilib.

otur dincəl, bütün günü işdiyirmiş. Bunnar da hər şeyi buna tapşırıb gedirmiş bağa, bosdana. Bunnarın da bir dənə balaca uşağı var imiş. Bu, uşağı qılıxlıyır, deyir ki, mənim kürəyimdə bir dənə sancax var. Onu çıxart, mən sənə qırmızı alma verəjəm. Bu da kürəyindən sancağı çıxaranda yanağından götürüf deyir, ala, bu da sənin qırmızı alman. Onnan da yox olur (S.39).

**15.**

Hul İsmeyil bir gün kənddən gələndə görür çay qırağında sapsarı qadındı. Baxır ki, atın üsdündə tutduğu qadındı, bir dənə ciyarı suya çəkmək isdiyir. Bu yavaş-yavaş gedir, arxadan bunun saçından tutur. Deyir, kimin evini yıxdın indi sən? Onda da Alosmanın arvadı zahı yatırdı. Deyir, onun ciyarıdı. Uşağı oldu, mən onun ciyarını götürüb gəldim. Qoymur ciyarı suya çəksin. Deyir ki, bu dəyqə səni genə sancaxlıyacam, apar ciyarı yerinə qoy. Aparır ciyarı yerinə taxır, onda zahı ayılır (S.39).

## 16. ƏZRAYIL

Əzrayıla sual verir mələklər. Deyirlər, bir belə cannının canın alırsan, heç ola bilərmi bir dənəsin canın alanda ağlıyasan? Yaxud, elə bir şey ola, ona da güləsən? Deyir, bir belə cannının canını almışam, ömrümdə bircə dəfə ağlamışam, bir dəfə ürəkdən gülmüşəm, bir dəfə də ürəkdən peşman olmuşam. Özüm öz işimə çox peşan olmuşam. Dedi, onlar nə idi? Dedi, onlar oydu ki, Allahtaala mana əmr verdi ki, getginən, filankəsin canın al. Mən getdim, ora çatanda baxdım ki, həmin adam ayakqabı tikən pinəçinin yanında durub. Ayakqabını alıb əlinə, bir cındır ayakqabıdı. Pinəçiyə deyir ki, qardaş, bunu elə tikginən ki, mən bunu bir il geyim. Pinəçi də deyir, ay qardaş, mən bunu neçə

dəfə tikib vermişəm sana, bu cırıx-cırıxdı, mən bunun harasın tikib verim? Deyir, yox ey, onu elə yama, bir ildən sonra da onu geyim. Orda məni dərindən gülmək tutdu ki, ay bədbaxt, sənin ömrünə saniyə qalıb, sən o ayakqabını nə vaxt geyinəssən? Bir dəfə orda ürəkdən gülmüşəm. Gəlmişəm, maa deyir, get filan gəmidə köç gedir, orda bir cavan gəlin var, onun canın alessan buyün. Mən gəldim, gəmiyə çatanda gəlinə baxdım, yerə baxdım, göyə baxdım, ürəyim ağrıdı ki, gəlin də hamilədi, uşağa yata-yatdı, ay Allah, mən bu gəlinin canını nətər alım? Bu iki canı burda nətər alım? Mən orda gözdədim, uşax dünyaya gəldi, gözün açanda mən gəlinin canın aldım. Canın alanda uşax elə ağladı, elə ağladı, elə ağladı, ürəyim şan-şan oldu. Orda ürəkdən mən ağladım. Gəldim dedim, ya rəsulu-əkrəm, sən məni elə bir işə göndərdin ki, mən hələ özümə gələ bilmirəm. Mən o gəlinin canın aldım, amma o uşax elə ağladı, elə ağladı, özüm peşman oldum. Dedi, sən öz işinə qarış, mənim işimnən işin yoxdu.

Bir müddət aradan keçənnən sonra çağırdı yanına. Dedi ki, get filan yerdə nurani bir axund var, buyün onun vaxdıdı, onun canın al. Mən, deyir, getdim. Qapıya çatanda hər tərəfdə mələklər, quşdar Quran oxuyurdu, moizə oxuyurdu, mən ona təəccüb qaldım. İstədim qayıdam, dedi ki, yox, gir içəri. İçəri girəndə gördüm nurani insan oturub. Üzünə baxanda özüm xəjalət çəkdim ki, ay Allah, gör mən hara gəlmişəm. Hər barının başında bir dənə mələk duva oxuyur, salavat çöyürür, mən bunun nətər canın alım? Məni məjbur elədi ki, canını al. Mən onun canın aldım, peşman-peşman qayıtdım gəldim. Dedim, ya rəsulu-əkrəm, sən məni niyə göndərdin ora? Mən onun canın aldım, hələ özümə gələ bilmirəm. Dedi, Əzrayıl, sən bilirsən o kim idi? Dedi, yox, bilmirəm. Dedi, gəmidəki ananı öldürdün ey, o uşaq qaldı,

həmən uşağ idi. Onun anası da, özü də cənnətməkandı, onları cənnətə göndərdim. Onları qoymadım ki, pis şeylər örgənələr. O kişi həmən uşağ idi, ağladın ki, bu niyə yetim qaldı. Mən səni ona görə göndərdim ki, get onun canını al, o dünyada anası ilə qovuşsun. İndi qadan alım, o qədər söhbətdər var ki (S.16).

## 17-20. MUSA PEYĞƏMBƏR

Orucluxdan söhbət düşdü. Biri dedi ki, orucu Allah üçün tuturux. Dedim, yox. Dedi, niyə? Musa peyğəmbər əleyhsalam (salavat çəkir – İ.R.) günorta idi, yolnan gedirdi. Gedəndə səda gəlir, ya Musa, hara gedirsən? Dedi, ya rəsulu-əkrəm, namazın vaxdıdı, namaza gedirəm. Dedi, o namazı kimin üçün qılırsan? Dedi, sənin üçün. Dedi, xeyir, mənim üçün qılmırsan. Dedi, bəs kimin üçün qılıram? Dedi ki, Sıratdan keçməyin üçün qılırsan. Sırat körpüsündə mələklər sənə kömək eləsin deyə qılırsan. Sən mənim üçün neynəmisən? Dedi, ya rəsulu-əkrəm, bəs mən sənin üçün oruc tuturam. Dedi, xeyir, onu da mənim üçün tutmursan. Dedi, bəs kimin üçün tuturam? Dedi, o da cəhənnəm odundan sipərindi. Cəhənnəm odunda yanmamağın üçün tutursan. Mənim üçün neynəmisən? Dedi, ya rəsulu-əkrəm, sənin üçün zikr eliyirəm. Dedi, xeyir, onu da mənim üçün eləmirsən. Zikr eliyirsən ki, ay Allah, ağlımı başımdan alma. Ay Allah, ruzumu əlimdən alma. Məndən dilək diliyirsən, mələklərimə yalvarırsan. Mənim üçün neynəmisən? Dedi, bəs mən neyniyim? Dedi, get bir yetimin qarnın doydur, get bir çılpağın əynin geydir, get bir alim tap, ona ikram eylə. Mana çatan odur.

İndi, ay qadan alım, kimə neyniyirik? Görüm kimsə bir yetimin qarnını doyurur, bir çılpağın əyninə paltar alıb geyirir, bir biləndən bir şey örgənir? (S.16).

## 18.

Allahtaala qərar verib ki, Musa əleyhsalam, artıq vaxtındı, sən getməlisən. Körpə uşağı var idi. Deyir ki, Allah, mən evdə nətər deyim ki, vaxdım çatıfdı, bu uşağ nətər olajax, onu kim saxlıyajax, nejə dolanajax? Evdə də heş nə demir. Elə bil ki, bir gün vaxdı qalıbdı. Əsasın alıb əlinə, uşağı alır qucağına, xəyalında tutur ki, ay bala, mənim bir gün ömrüm qalıfdı, uje mən gedirəm. Sənin aqibətin nolajax, sən nətər yekələssən, səni kim saxlıyajax? Allahtaalaya agahdı axı bu. Uşağı bir az sevəliyir, gedir. Buna əmr gəlir ki, get, məsələn, filan dənizin qırağına. Gəlir dənizin qırağında durur. Buna səda gəlir ki, ya Musa, çəliyini vur suya. Suya vuranda su ayrılır, böyük bir yol açılır. Deyir, o qara daşı görürsən? Deyir, hə. Deyir, get o qara daşa bir çəlik vur. Qara daşa bir çəlik vuranda daş paralanır. Baxır görür ki, daşın içində bir qurt var, qurdun ağzında təzə açılmış göy yarpaq var. Qurt o yarpağı yeyir. Belə baxır, baxır, deyir ya rəbbim, ya rəsul Allah, şükür dərgahına. Dənizin ortasında quru daş. Bu daşı da vurdum, bu aralandı. Bu yarpax hardan gəldi, bu qurt hardan gəldi? Daşın içində bu qurt yarpağı yeyir. Bu çox fikirnən gəldi çıxdı qırağa, dəniz birrəşdi. Səda gəldi. Dedi, ya Musa, sən qujağına uşağı alanda nə fikirrəşdin? Dedi, heş nə. Dedi, sən fikirrəşdin ki, o uşağın aqibəti nolajax. İndi sən bildinmi, o daşı orda yaradıb, o qurdu ora gətirib, o yarpağı orda bitirən sənin balanı da yekəldəjəh? Narahat olma, borcunu verməlisən. Get, səhər sənin vaxdındı. Səhər gəlir, çəliyə belə söykənib durur, elə orda da ölür. Elə bilirlər ki, Musa sağdı. Ta o çəliyi qurt yeyib o yıxılana qədər (S.16).

## 19.

Musa peyğəmbər Allahın ərköyün peyğəmbəri olub. Bir gün Musa peyğəmbər yolnan gedirdi. Getdi ki, üş-dört dənə uşax göldə çimir. Çimməndə bir kor uşax oturub bınnara tamaşa eliyir. Musa peyğəmbər Allaha şikayətlənir ki, bını niyə kor eləmisən? Mən olsaydım, bının gözün açardım. Deyir, ya Musa, mən icazə verdim, onu sağalt. Musa bının gözün aşdı. Qayıdanda gördü ki, bı uşax qamışların başını vırıf, sancıbdı bı gölün içinə. Uşaxlar kəllə vırır, vıranda hamı qarğıya pərçim oldu, qırıldı. Dedi, ya Musa, gördün onu niyə kor eləmişdim? Musa peyğəmbər Allahdan üzr istədi. Dedi, ya Allah, məni bağışdaynən, mən bilmədim (S.25).

## 20.

Bir gün də Musa peyğəmbər gənə gedirdi Allahtalanın yanına, Mehraca çıxırdı. Allahtalaynan min kəlmə danışdı, min birinci kəlmədə dedi ki, ya Allah, sənə agahdı, bilirsən noldu. Dedi, noldu? Dedi, yolnan gəlirdim mən, bir adam qabağımı kəsdi. Dedi, ya Musa, hara gedirsən? Dedim ki, gedirəm Allahtalaynan söhbətə. Dedi ki, bizim ərz-halımızı Allaha çatdır. Biz çox əziyyət çəkirih maddi tərəfdən, denən bizə yardım eləsin. Allahtala dedi ki, yaxşı, verdim, get. Bı gəldi bir dənə inəy aldı, ekiz doğdu, beş dənə qoyun aldı, nə bilim neylədi. Bir-iki ildən sonra bu oldu trilyon yiyəsi. Ədə, bı gördü ki, heş bı variyatın qabağını ala bilmir, əsir olufdular bı variyatın əlində. Musa peyğəmbər genə gedirdi. Gedəndə bı kişi kəsdi qabağını. Dedi, ya Musa, hara gedirsən? Dedi, gedirəm Allahtalanın yanına. Dedi, Allahtaladan xayiş elə ki, verdığına min şükür, bınnan birəz alsın, biz yığıb-yığışdıra bilmirix. Musa peyğəmbər getdi, Allahtalaynan söhbət eliyəndə dedi, ya Allah, sana agahdı da,

mana belə dedi. Dedi, get denən ki, o variyatın içində nə var bir şey götürsünnər, qalanın əllərinnən alajam.

Musa gəlirdi. Bırdan keçəndə dedi ki, dedin? Dedi, dedim. Dedi, nə dedi Allahtala? Deyir, dedi ki, o variyatın içinnən maldı, qoyundu, qızıldı, gümüşdü, nəysə bir şey götürsünnər, qalanın əlinnən alajam. Ha bı fikirrəşdi, dedi mən bını təh deyə bilmərəm, gedim nəfərimi yığım başıma. Bı gəldi nəfərini yığdı başına, bir də gəlini vardı bının. Biri dedi qaragöz inəyi götürəh, biri dedi beş qoyunu götürəh, biri dedi evi götürəh. Bı qaynata dedi, ay qızım, bə sən nə deyirsən, nəyi götürəh? Dedi ki, ay qaynata, mən heş bi şey deyəmmərəm. Denən ki, birjə ağlımıza dəyməsin, başqa nəyimizi əlimizdən alır, alsın. Kişi baxdı, baxdı, dedi hə. Musuya dedi ki, ya Musa, gedəndə denən ki, birjə ağlımızı əlimizdən almasın, başqa nəyimizi alır, alsın. Getdi Allahtalanın yanına, bını deyəndə dedi, ya Musa, mən onun ağlın alasıydım ki, onun variyatın əlinnən alam. Ağlın almıyannan sora mən onun variyatın nətəri əlinnən ala bilərəm? Hələ o birə beş artajaxdı (S.25).

## 21. HƏVVA NƏNƏ

Üş nəfər qadın sorğu-sualsız cənnətə gedifdi. Hansılardı? Birinci Asyadı, Musanı saxlıyan, fironun arvadı. Musa peyğəmbəri Nildən tutdular çıxartdılar ha, çıxardanda o qoymadı öldürə. Dedi, öldürmə da, bəlkə, bizə xeyir gətirəjaxdı. Qoymadı öldürə, Musanı saxladı, yekəltdi. İkinci Fatmeyi-Zəhradı, İmam Əlinin arvadı. Üçüncü Havva nənədi. Hamısının tərcümeyi-halını deyərəm ki, bınnar nətəri sorğusuz, sualsız cənnətə getdilər. Asya Musanın hesabına, Musanı saxladığına görə getdi cənnətə. Peyğəmbərin də qızı peyğəmbər qızıydı da, o da sorğusuz,

sualsız getdi cənnətə. Havva nənəyə gələndə, Havva bir qadın xeylağıydı, əri də naxırçıydı, mala gedirdi. Hansı peyğəmbərdənsə biri getdi, baxdı ki, bir qadın günün altında oturufdu, Ərəbistanın çölü, cəhrə qavağında, yanında bir dənə ağaş, bir bardax su, bir də günün qavağında çörəhdi. Gəldi belə baxdı, baxdı, dedi, bı arvad nəğayrır, neyniyir? Sual elədi. Dedi, ay bajı, ay xanım, ay filankəs, axı mənə de görüm bı nədi, günün qabağında niyə oturmusan? Kölgədə otu, cəhrəni işdət. Bəs bı ağaş nədi, bı suyu bırda niyə qaynadırsan, bı çörəyi niyə qurudursan? Dedi, mənim ərim mala gedir, çöldə o günün qabağında təpəsinə gün döyür, qoy məni də gün vursun. Onun çörəyini gün qufquru eliyifdi, həmin quru çörəyi yiyəjəx, mən də onnan yeyim. O nətər su içir, mən də həylə su içim. Dedi, bə o ağaş nədi? Dedi, kişidi, gəldi, birdən ajığı tutdu, oana-buana ağac axtarana kimi hazır durub orda, qoy götürsün, məni döysün. Ona görə o sorğu-sualsız cənnətə getdi. Heç bir insan pramoy cənnətə getmir, rəvayətə görə, Quranın dediyinə görə. Cəhənnəmi görüf sonra getməlidi (S.25).

## 22-26. MƏHƏMMƏD PEYĞƏMBƏR

Məhəmməd peyğəmbər əleyhsalam (salavat çəkir) Allahtaalanın elçisi idi. Gedirdi Allahnan kəlmələşməyə. Deyirlər guya min kəlmə verib, min bir kəlmə alıb. Xeyir, qırx kəlmə verib, qırx bir kəlmə alır. Tur dağının sinəsinə gedir, iki yüz metirriyində gətdiklərin ona verir, onun da gətdiklərin özü alır. Səhər-səhər gedəndə yolun qırağında cavan bir oğlan duruf. Ağlıyır, başına döyür, əlin tutur Allaha yalvarır. Gəlir, oğlana salam verir, oğlan bunun salamın almır. Sabahın xeyir, – deyir, cavab vermir. Addıyır keçir. Bir az gedəndə səda gəlir, ya

Məhəmməd, ayağ saxla. O oğlannan niyə örgənmədin? Dedi, salam verdim, salamımı almadı. Sabahın xeyir dedim, dinmədi. Mən nə deyim ona? Deyir, qayıt, onun dərdin örgən. Qayıtdı, gəldi. Dedi, ay oğul, ay bala, başına dönüm, dərdin nədir, maa niyə demədin? Başın qaldırıb dedi, ya Məhəmməd, cəddinə fəda olum, mən görmədim, fikirri idim. O gedən milləti görürsən? Dedi, hə. Dedi, doqquz bajının bircə qardaşı idi. Toy elədi, gəlin qapıya çatanda oğlan qapıda yıxıldı öldü. Hətta Allaha da yalvardıx, mələklər də yalvardı, bir heylə hamımız yalvardı ki, ay Allah, buna heç olmasa şəfa ver, qoy bu gejə yarıynan görüşsün, səhər canın alarsan. Heç on dəyqə də yaşatmadı. Nolar, gedirsən, mənim də ərzi-bəndəliyimi de. Denən ki, hər şey sənin əlindədi, isdəsən eliyə bilərdin, niyə onu eləmədin? Dedi, yaxşı.

Gedir Allahtaalanın hüzuruna, gətdiklərinin hamısın bir-bir buna deyir, amma oğlanın sözlərini demir. Qayıdanda deyir, ya Məhəmməd, ayağı saxla. Ayağın saxladı. Dedi, ya rəsulu-əkrəm, mən nə iş gördüm ki, sən məni saxladın? Dedi, oğlan səni gözdüyür, gedif ona nə deyəssən? Dedi, özünə agahdı. Dedi, mana agahdı ey, mən bilirəm, bəs sən ona nə deyəssən? Dedi, nə bilim? Dedi, get o oğlana deginən ki, ölən oğlanın talehini mən qırx il özünnən qabax yazmışam. Mən talehi yazanda qırx il qabax yazıram. Hətta mələklərim də mana diz çökdü, yalvardı, mən onu poza bilmədim. Mən özüm öz yazdığımı poza bilmirəm, bəndəm kimdi mənim yazımı poza? – Çünki o arxivi töküb onu axtarıb tapana qədər onun sümüyü də çürüyəjək. – Denən öz işinnən məşğul olsun, mənim işimə qarışmasın (S.16).

## 23.

Belə rəvayət eliyillər ki, Məhəmməd peyğəmbər Mehraca çıxmışdı. İndi Allahnan öz arasında nə söhbət olufdu, onu

bilmirəm. Tam gəldi orda, aş. Məhəmməd peyğəmbər gördü ki, pərdənin dalınnan bir dənə tühlü əl bunnan bərabər başdadı aşı yeməyə. Amma Məhəmməd peyğəmbərin gözü bının əlindəydi, bı nədi, nə dəyil. Baxdı ki, bının əli tühlüdü, bı düyüdən biri sıçradı tüşdü bunun əlinin üsdünə. Bı əl də çəkildi, sırfa da yığıldı getdi. Peyğəmbər gəldi öz iqamətgahına. Əli də gəldi, oturdular, yenə çörəh yedilər. Məhəmməd peyğəmbərin gözü sataşdı, gördü həmən düyü bının əlindədi. Orda peyğəmbər dedi ki, sənin anadan doğulduğunu öz gözümnən görməsəydim, sənə Xuda deyərdim.

Belə bir variant var ki, bı dünya beş kimsənənin üsdündə bərqərar tutufdu. Bərqərar tutmurdu, ləngər vururdu. Bu beş kimsənə kimdi? Əli, Həsən, Hüseyn, Məhəmməd, Fatimeyi-Zəhra. Ərşi-əlada lövhənin üstündə guya bunnarın adı yazılıfdı. Dünya bu beş kimsənənin üsdündə dayandı (S.25).

**24.**

Məhəmməd peyğəmbər Turi-Sənaya gedəndə yolda birinci şir çıxır qarşısına. Görür ki, şirlə bacara bilməyəcək, hansısa qızıl əşyasını şirə atır, o da ağzında qapıb götürür. Məhəmməd peyğəmbər Turi-Sənaya gedəndə göstəriş verənnər var da, böyürdə bir pərdə olur, ordan bir səs gəlir. Peyğəmbərə deyir ki, yemək ye. Axı peyğəmbər də heç vaxt tək yemir. Duruxanda, deyir, bir tüklü əl gəlir, ordan yeməkdən götürüb gedir. Məhəmməd peyğəmbər görür ki, bir dənə düyü qırığı düşdü tükün içinə. Sonra da bir dənə alma gətirirlər ortaya. Deyirlər ki, bunu da böl, ye. Bölüb yarısın götürür.

Əlinin uşaq vaxdarı olub. Axı Məhəmməd peyğəmbərə qırx yaşında peyğəmbərlik verilib. Bu hadisə də Əlinin dokquz-on

yaşları olan vaxdarı olub. Qayıdıb gedəndə birinci qarşısına yüyürən Həzrət Əli olur. Deyir, əmioğlu, Mehracın mübarək. Bu da Mehraca getdiyini heç kimə demiyib axı. Fikirrəşir, amma ta sözün çöyürmür, öz-özünə deyir ki, bu hardan bildi, deyir Mehracın mübarək. Deyir, getdin, nə gördün, neynədin? Deyir, madam ki, mənim Mehracımı sən təbrik elədin... Belə bir şir çıxdı qabağıma, ona qızıl boyunbağı atdım, götürdü. Deyir, ta nə gördün? Deyir, bir dənə tüklü əl gəldi, mənnən yemək yedi. – Başqa nə gördün? – Alma gətirmişdilər, onun da parasını gətirmişəm sənə. Deyir, ver mana. Almanı verəndə Həzrət Əli əlini uzadır ki, almanı alsın, qolunun üstündəki düyünü görür. Deyir ki, əmioğlu, bu düyü... Əli almanın o biri yarısını cibindən çıxarır, qoyur ağız-ağıza. Deyir ki, bu alma həmən almadımı? Deyir, hə. Bir də əlin salır, qoynundan şirin ağzına atdığı həmin boyunbağını çıxarır. Verəndə Məhəmməd peyğəmbər deyir ki, Əli, gözlərimlə sənin doğulduğunu görməsəm, əstafrullah, səni Allah bilərəm (S.10).

## 25.

Bir dəfə deyir ki, Əli, möcüzələrindən birini mənə göstər də. Harasa döyüşə gedibmişlər. Döyüşdən qayıdanda Cənab Əlini sancı tutur, yıxılır yerə, partdıyır, rəhmətə gedir. Axı peyğəmbərin öz qoyduğu qanundu. Rəhmətə gedən harda ölübsə, orda da dəfn olunmalıdı. Torpağın fərqi yoxdu. Deyir ki, balam, bəs bunu neyniyək? Camaat da deyir ki, ay kişi, buna ehsan da verilməlidi burda. Axı müharibələr olanda hazırlıqlı gedirlər də, aylarnan yol gedirlər, ilnən döyüşlər çəkir. Sajları qoyub orda halva çalırlar. Halva hazır olur, hamı Məhəmməd peyğəmbərin üzünə baxır ki, bu yeməsə, kim əlini uzadacaq halvaya?! Deyir, ta olan olub, keçən keçibdi. Özü də götürüb

halvadan yeyir, ac idi də, döyüşdən çıxmış adamlar idi. Əli də həmin vaxt Fatma nənənin yanında olub. Deyib ki, Fatma, dədən gəlir, çıxaq qarşılayaq. Çıxırlar Mədinənin kənarına. Məhəmməd peyğəmbər qabaxda, qoşun da arxada gəlir. Peyğəmbər Əlini qucaqlayır. Deyir, ə, bu nə oyundu mənim başıma açdın? Bunu başlayır dannamağa. Deyir, əmioğlu, sən filan vaxt maa demədin ki, bir möcüzə göstər. Deyir, mən saa dedim belə möcüzə göstər? Mənim evimi yıxıb, ürəyimi üzübsən. Bax, belə bir epizodları olubdu.

Mənim dediklərimi Bəhram dayı, atam yanımda danışıb, yadımda qalıbdı (S.10).

**26.**

Keşiş kopoğlu oturub keçi otarırmış. Hələ Məhəmməd peyğəmbər yoxdu. Oxuyub ki, belə bir peyğəmbər gələjək, müsəlmanların peyğəmbəri olajax, özü də sonuncu peyğəmbər olajax. Xristiannarın kitabında oxuyub ki, belə bir adam gələjək. Onun kürəyində işarə olajax, bir də onun ürəyində qara qan olan döylü. Keşiş görür ki, bir uşax gəlir. Onnarın dini bizdən qabaxdı ha. Həmin keşiş görür ki, bir uşax gəldi, göydən bir qara bulud yendi, bunun ürəyini çıxartdı, – ürəkdə siz bilirsiniz ki, üş dənə qulaqcıx var, – ordan bir belə qara qanı çıxartdı, ürəyi qoydu yerinə. Uşaq da getdi, o da getdi. Kopoğlun keşişi deyif ki, bax, bu Məhmməd peyğəmbərdi. Ondan sonra Məhəmməd peyğəmbər dünyaya gəlif (S.24).

## 27-29. HƏZRƏT ƏLİ

Cənabı Cəbrayıl gəlirdi, Allahdan səda gəlir. Deyir, sən kimsən, mən kiməm? Deyir, sən sənsən, mən də mənəm. Göydə

qanadı yanır, düşür yerə. Bu neçə dəfə qalxır, hər dəfə də qanadı yanıb düşürdü yerə. İmam Əli gələndə dedi ki, qalxıram yuxarı, belə deyirəm, qanadım yanır, düşürəm aşağı. Dedi, heylə demə. Dedi, nətər deyim? Dedi, səni qaldıranda desə, sən kimsən, mən kiməm, denən, sən yaradansan, mən yaranan, biz can verənıx, sən can alan, sən ruzi verənsən, biz ruzini qəbul eliyən. Belə deginən, gedəjəhsən. Bax "ustadına rəhmət" ordan qalıfdı. "Ustadına rəhmət" Cənabı Əmirin həmən Cəbrayıla örgətdiyi sözdü. Onnan sora deyəndə sən kimsən, mən kiməm, İmam Əlinin örgətdiyin təkrar eliyir. Deyir, sən yaradansan, mən yarananam. Belə dedi, uşdu, çıxdı getdi. Cənabı Cəbrayıl vəhy gətirəndi. Peyğəmbərrərin hamısının vəhini Cənabı Cəbrayıl gətirifdi (S.25).

**28.**

Əli qəvi pəhlivan oluf da. Elə pəhlivannarı yerə sərif ki, onnar qolu qatdanmaz pəhlivannardı. Əli o vaxd belə bir iddia elədi. Dedi, yarəbb, sənin aslanınam mən, görəm mənnən də qüvvəli bir adam yaratmısan? Əliyə buyruldu ki, getginən filan qəbirsannığa. Gedəndə qəbirsannığa Cəbrayıl üsdən yendi ki, ya Əli, çağırginan. Əli çağırdı, Rüsdəm, Rüsdəm. Qəbirsannıxdan, bəlkə, əlli dənə əl çıxdı. Əl çıxanda Cənabı Cəbrayıl dedi, yox, ya Əli, sən çağırdıqlarının adı Rüsdəmdi, sən çağırginən, Rüsdəm Zal. Əli, – Rüsdəm Zal, – deyəndə bir əl çıxdı. Bı isdədi bına salam verə, Cəbrayıl dedi, yox, yox, yox. Ona salam vermə, əlinə bir daş götür, sonra salam verginən. Yerdən bir daş götdü, buna salam verəndə nətər daşı sıxdısa, daş əlində oldu qum. Rüsdəm dedi, ya Əli, sən nə dini qəbul eləmisənsə, mən də o dini qəbul eliyirəm, amma dünyada sənnən ikinci bir qüvvəli adam ola bilməz (S.25).

## 29.

Deyir, Həzrət Əliynən gavurrarın davası olur. Gavurar Düldülü quyuya salırlar. Həzrət Əli gavurların hamısını qırır, qılışdan keçirir. Bir qancıx qalır, bir də it. İt yaralı qancığı ağzına alıb qaçır. Allahdan səda gəlir. Deyir ki, hamısını öldürdünmü? Deyir, öldürdüm, bircə dənə it qaldı, bir də yaralı qancıx. Qılıncıma hayıfım gəldi, murdarramax istəmədim, ona görə onu öldürmədim. Deyir, o it erməni keşişi idi, qancıx da onun arvadı idi. Keşiş İsfahan duası oxuyub özünü it, arvadını da qancıx cildinə salıb. Nahax onları öldürmədin, onlar artıb genə sizi qırajaxlar (S.39).

## 30. TƏPƏSDƏLİK PİRİ

Təpəsdəliyin içində pir var idi. İrəvayətə görə, Ağrı dağ, Fağrı dağ, Təpəsdəlik – olar üç qardaş oluflar. Bular üçü də dalaşıf, bu qardaşı döyüflər, o da ucuf gejə, gəlif bizim tərəfdə dağ olub. O dağın da içində pir oluf. O pirə getmişik. Yığışıf demişik, köçəjeyik, gedək o piri ziyarət eliyək. Okqədər qurban kəsmişdilər onun üsdündə. Bir dənə daş var idi, o daşı götürüf qoyurdular bulağın içinə, ta ki o daşı götürmüyüncax sel gedirdi. O daşı qoyan adam gedib o daşı çıxardandan sonra yağış kəsirdi. Daşı əlimizə götürürdük, belə vururdux difara, elə bil difarda maqnit var idi, daş yapışırdı. Nəzir aparırdıx, niyaz aparırdıx, qurban aparırdıx. Yeyirdik, içirdik, sevinirdik ki, tutyəyə gəlmişik. Piyada o dağı çıxırdıx, piyada da ordan enirdix. O dağın ayağında da qumlu bulax deyirdilər, o dağın içindəki su ordan çıxıb gəlmişdi, dağın ətəyində çıxmışdı. Təhnə qayırmışdılar, mal-heyvan gediv o təhnədəki sudan içirdi. Təpəsdə-

liyin içində inəy əmcəyinə, qoyun əmcəyinə oxşuyan qoşaməməli daşdar var idi, suların qırağında idi. O daşdarı götürüf suya qoyan kimi yağış yağırdı. Bir tikili də içində oluf. O tikilini heş kim tikmiyif. O gəlif binasın qoyannan o tikili Təpəsdəliyin içində gəlif (S.13).

## 31. GÖRGƏC

Görgəç elə yerdə tikilmişdi ki, qayanı yarıb orda kilsə salmışdılar. İmam Əli xristian məbədlərini dağıdırmış. Ora gəlib çatanda başının əlaltılarına deyir ki, buranı görün, keçin. Yəni, baxın keçin, dağıtmıyın o məbədi. Elə adı qalmışdı Görgəç. Camaat da gücü çatan qoyun aparırdı, çatmayan hinduşka aparırdı (S.31).

## 32. ƏRGƏZ PİRİ

Fətir deyirik, yağla, südlə yoğurub təndirə yapırdılar. Deyirdilər, pirin vaxdı gəlir, ziyarətə gedirik. Dünyada nə qədər müsəlman var idi, hamı gəlirdi o pirə. Ərgəz pirini erməni də ziyarət eliyirdi. Ərgəz pirinin tikilisinin başında yekə daş var idi – mən nənəmin dalına düşüb getmişəm ora, – o quru daşdan qan sızıb gəlib düşmüşdü ayağına. Demək, erməni-müsəlman davasında erməni güllələyirmiş müsəlmanı. Müsəlmana güllə atanda pirin girəcəyində bu yekəlikdə daş var idi, o daşa güllə dəymişdi, ordan qan sızıb gəlib ayağında durmuşdu, bax, bu bərəkət haqqı (S.13).

## 33. AĞOĞLAN

Orda Qarnıyarıq bir dağ var, başı haçadır. Onun içində bir pir var, ora Ağoğlan deyirlər. Dədələrimiz, babalarımız deyir ki, guya bir azərbaycannı qızını keşiş qovurmuş. Bir çoban

qoyun otarırmış. Qız gəlif çobanın yanına çatanda deyif ki, ay çoban qardaş, mənim yerimi o gələn adam demə. Bir daşın dalında gizdənifdi. Keşiş gəlif bu çobanın yanına çatanda deyifdi ki, o qız hara girdi? Deyif ki, odur, o daşın dalında. Qız qalxır ordan. Deyir, çoban, sənin özün də, qoyunnarın da, itin də daş olasınız. Mənim yerimi niyə dedin? O ziyarəti özüm də görmüşəm. Həmən çoban əlində tütək çaldığı yerdə daşa dönüb, iti yanında daşa dönüb, qoyunnar da otdadığı yerdə daşa dönüb. Baxırsan, elə bilirsən, qoyundu, amma hamısı daşa dönüb. Qız da orda qeybə çəkilifdi. O iki dağın arasından damcı damır, quyu kimi yerə tökülür. Yay-qış ordan su damır. Deyirlər o su qızın gözünün yaşıdı. Amma o keşiş də orda ölüfdü, onu da ora basdırıflar. Ermənilər də ora ziyarata gedirdi, musurmannar da. Biz elə bil ki, qızın üsdünə ziyarata gedirdih, onnar da keşişin. Balaca uşağ idim, özümdən böyüh qardaşdarım gedirdi, mən də onnarnan gedirdim, onda görmüşəm.

Nəziri olan qurban da aparıf kəsirdi. Nəzir eliyirdilər, nəzirləri qəbul olanda aparırdılar nəzirlərini, qurban kəsirdilər. Ermənilər cücə də aparıb kəsirdi, adicə cücə, qan çıxsın deyə. Biz yox, biz qurban aparıb kəsirdik. O gözyaşı ki tökülürdü, biz yalnız oranı ziyarət eliyərdik. Gözün ağrıyardı, başın ağrıyardı, o sudan sürtsən yaxşı olurdu. Haçanın arası idi, qabağı da geniş yer idi, qoyunnar qabağında otdadığı yerdə daş olufdu. O dağa Qarnıyarıx deyilirdi. Üş dağ var orda. Elə bil bu tərəfi Ələyəzdi, biz onun döşündə yerrəşmişik. Bu biri tərəfdə Qarnıyarıxdı, biri də Ağrıdağdı Türkiyənən Ermənistan arasında. Yayda da qar olur başı. Üş qardaş deyiblər onlara.

Ağoğlanda bir dənə bulax çıxırdı. Yaz olanda bir belə çıxırdı, yayda bircə belə (suyu azalırdı) su çıxırdı. Su da elə bil

malın döşündən südü sağıf buraxmısan, süd rəngində suyu olurdu. Ələyəzin dalında həmən o dağın başında bir dənə göl varıydı. Deyirdilər, o gölün ayağı aşağı kəndlərdən çıxır. Ordan saman töküflər, gəlif aşağı kəndlərdən çıxıfdı. Gəlirmiş o kəndlərə torpağın altıynan. Ora Qara göl deyərdilər (S.38).

## 34-36. ARMUD OCAĞI

Böyük bir zağa idi, qabağında da böyük armud ağacı var idi. Erməninin böyük daş karxanası var idi. Bir erməni Sarala nə üçün gəlibsə, – o armud ağacının oyuğuna bir insan girərmiş, – gedəndə ona od vurur. Karxanada lağım atıb daş çıxarırdılar, göy qranit daşdar çıxırdı ordan. Səhərsi günü daş çıxartmaq üçün lağım atanda lağım açılıf həmən ermənini öldürmüşdü. Demək, o ağacı gəlif söndürmüşdülər, ağac qırılmışdı, kötüyü qalmışdı. Bizim kənddən bir nəfər o ağacın odununnan aparıf evdə yandırır. İndi də o nəsil onun cəzasını çəkir. Onların neçə uşağı xəsdə oldu, uşaqlarının başında tük bitmədi (S.39).

## 35.

Təzə gəlin gələndə onun ayaqaçdısını o ojağda eliyirdik. Kətə, qatdama bişirirdilər, kanfet alırdılar, kəndin qız-gəlinləri yığılırdı, təzə gəlini o ojağa aparırdılar, ora nəzir qoyurdular, çıra yandırırdılar. Çox sınaxlı ojax idi. İnanca görə, guya imamlarımız orda dəfn olunub. Zağanın içində böyük sal daşdar var idi. O daşdara parça bağlayardılar, üsdü oyuğ-oyuğ idi, o oyuxlarda çıra yandırardılar. Toydan bir həftə sonra gəlinə təzə paltar geyindirirdilər, qız-gəlinlər yığılırdı, şirniyyatnan-zadnan gedirdilər, oranı ziyarət eliyirdilər, qayıdanda da yolboyu bayram nemətlərini paylayırdılar.

Deməli, Hacıyev Bədəl Birinci Qarabağ Müharibəsinin şəhididir, itgin düşüf. Onun da təzəcə toyu olmuşdu, təzə gəlini həmin ocağa ziyarətə aparmışdılar. Orda da qəndi götürürsən, daşa sürtürsən, əgər həmin qənd daşa yapışdısa, niyyətin hasil olurdu. Yapışmadısa, deməli, sənin niyyətin hasil olmur. Ziyarətdə balaca-balaca qəmbər daşdar var idi. Bədəlin yoldaşı təzə gəlindi, nə niyyət eliyirsə, o daşdan götürüb belə sürtdü, daş yapışdı, amma tez də qopub düşdü. Bu pis oldu. Buna dedilər, nədən qorxursan, artıq ərə getmisən. İllər keçdi, həmin gəlinin iki uşağı oldu, amma əri müharibədə şəhid oldu. İllər keçəndən sonra xatırlayırdı ki, onun daşı tutdu, amma tez də qopub düşdü (S.39).

**36.**

Mənim atam danışırdı, onun özündən eşitmişəm. Deməli, bizim inəyimiz itif. Ziyarətin yanında kol deyilən yer var idi. Atam, deyir, mən oranı gəzdim ki, bəlkə, inək ordadı. Şər qarışan vaxd idi, armud ojağının yanından keçəndə baxdım ki, ojağın yanında iki dənə qaraçuxalı kişi var, içəridə də çıra yaner. Öz-özümə fikirrəşdim ki, biz günüz gedirik ojağı ziyarət eləməyə, şər vaxdı bura gələn kimdi? Getdim ki, görəm bunlar kimdi. Gördüm heş kim yoxdu. Onda, deyir, vahimə məni bürüdü. Gəldim anama danışdım, anam dedi ki, a bala, onlar oranın yiyələridi (S.39).

## 37-52. ÇİDƏMLİ MİRƏLİ AĞA

Ağamın dokquz qız evladı oluf, oğul evladı olmuyufdu. Mamam yekəsi olufdu. Ağamnan da bütün illərini, günnərini, yəni bir oğul kimi hər bir şeyi mamam onnan bölüşüf. Ağam 53-də rəhmətə gedifdi. Onda mənim mamamgil ayilə qurmuyuf.

O vaxt Vedidə olanda seyiddəri, mollaları tutan vaxt gəlif giriflər evə ki, bütün veş-meşok yığılsın, azərbaycannılar burdan çıxmalıdı. Onda ağamın hər şeyin yığıflar, ağam da oturuf, deyib gedəyin. Onda maşın tərpənmiyif. Tərpənmiyəndə kənd sakinnəri, rayon adamları hərə bir tərəfdən yığılıf. O deyif yalan deyirsiz, bu nəmənə şeydi ki, bir maşın xoddanmasın. Ermənin biri gəlir. Yəqin ki, ağamı tanıyan oluf da. Mamam deyirdi, onun evladı olmurdu, o ağamı hardasa görüf, onnan danışıb, ağam ona əlinnən gələn köməyi eliyif. Deyib ki, bu kişini siz nahaq yerə belə çıxardırsız, özünün könlü olmasa siz onu çıxarda bilmərsiniz. Onda Yerevannan gələn KKB işçiləri deyif ki, bunu hardan gətirifsinizsə, aparın qoyun yerinə. Ağamı maşından düşürdürlər. Deyiblər, bağışda, üzr isdiyirih, səni incitdik. Deyib, oğul, olan şeydi. Mən indi heş nəyə qarışammaram. Devlət nə deyər, odu.

Mircəfər Bagırovun vaxtında ağama çıxış verilif. Onda ağam deyif, camaat nətər, mən də helə. Onda elə çıxıflar, gəliflər Salyana. Mamam deyir, orda da il yarım qaldıx. Orda kənd soveti onları yığıb bir evə ki, ağa, nə qədər ki burdasan, sən bu otaxda qal, mən o biri otaxda qalım. Mamam deyir ki, bir gün bir qoca kişi rəhmətə gedir. Salyanın hər bir tərəfi sucuxdu[14] da, qardaş. Ağam gəlib baxanda görür ki, qəbir boğaza qədər sudu. – İndi biz ağamı görməmişik, amma Vaqifin atası görüf. Kök, cannı, yaraşıxlı bir kişi oluf. Mamam deyirdi ki, mən o qədər seyiddər, möhtəbər adamlar gördüm, amma ağama bənzərini görmədim. – Gəlib nənəmə deyir ki, Dilbər, ora saman atdılar, meyidi qoydular ora, amma mən bu canı İrəvandan sağ-salamat gətdim bura, məni bu cür basdırmalarını isdəmirəm. Mən burda qalammaram. Maa təmiz bir yer lazımdı, isti də olsa, sakitçilik olsun.

[14] sucux – su çıxan yer

Gəlir Yevlax rayonuna, Malbinəsi kəndinə. Burda iki otaxlı ev tikdirir, il yarım yaşadı orda. Nənəm bunu yayda Kəlbəcərə – dağa göndərir. Gedir bir ay, iki ay dağda qalır. Orda deyir ki, Dilbərə deyin, məni yendirsin aşağı, mənim vaxtım tamamdı. Elə 24-ü gəlir bura, 25-i də rəhmətə gedir. Deyir, Dilbər, yeməyi bişir, hamı yığılsın. Elə yeməyi yeyiflər. Deyib, Dilbər, mənim vaxtım tamamdı, Hümmət kişini çağır, gəlsin məni rahatdasın. Ağamın ölümü belə olub, oğul. Öz ölümünü bilirdi (S.2).

## 38.

Ağam bir gün Vediyə gedirmiş, elə bil burdan Gəncəyə gedirmiş da, ordan bir dənə atdı gəlir. Ağamnan rasdaşır. Erməni deyib, mən gedirəm seyid ağagilə. Deyif ki, adı nədi? Deyif ki, Mirəli ağa. Deyif, o seyidağa mənəm. Nə sözün var, oğul? Həmişə rayona gedəndə nənəm bunun xurcunun hər şeynən doldururmuş ki, birdən gəlib sizin evə düşər. Ola bilər ki, ev yiyəsində bir şey olmaz. Qoy sumkadan hər şeyi çıxarsın yesin, Allaha təvəkkül, dalını Allah yetirər. Orda ağama deyir ki, ağa, cəddinə qurban olum, mənim evladım olmur. Maa bir dua yaz da. Deyir, vallah, mən dua-zad yazmıram. Əl atır xurcundan bir alma çıxardır. Deyir, ay oğul, mənim duvam da, hər şeyim də budu. Mən bunu saa verirəm, apar, bunu böl, yarısın özün ye, yarısın da yoldaşın yesin. Gələn il bu zamana qədər Allahtala sizə bir evlad verər, bax, bu alma kimi.

Vaxt-vədə hərrənir, il keçir, bunun bir evladı olur, oğul. Bir qurban alır, gəlir ağamın evinə. Gələndə deyir ki, Mirəli ağa, yadına gəlir, filan vaxdı gedirdin filan yerə, mən də sənnən rastdaşdım. Həmin o almanın sahibiyəm, bu da mənim evladımdı. Ağam əlini bunun başına çəkir. Mamama deyir ki, Əliyə, gəl buna bir dənə köynək tik. Mamam da tikməkdə, bişməkdə başaratlı

insan olub. Mamam uşağa bir dənə köynək tikib geyindirir. Deyir ki, get, qorxma. Qurban kəsillər, yeyillər, içillər.

Zaman hərrənir, vaxt keçir. Bir gün ağam genə getdiyi yerdə meşədə, – yolların qırağı meşə imiş da, – həmin erməniynən bu genə rasdaşır. Rasdaşanda erməni düşüf ağamın əlinnən, ayağınnan öpür, qucaxlıyır. Deyir, ağa, cəddinə qurban olum, mən o adamam ki, sən o almanı verdin mənə. Bilmirəm indi sənin almandandı, yoxsa mollanın duasındandı. Ağam belə baxır buna. Deyir ki, oğul, yer, göy qərar tutub bir ayə üstündə. Quranı da, imamı da, peyğəmbəri də Allah yaradıb. Mən kiməm ki? Mən sadə bir insanam. Mən almanı geri götürürəm. Almanı geri götürürəm deyəndə həmin saniyədə, həmin dəyqədə, oğul, erməni tez saata baxır. Saata baxır, bilir ki, ağamla saat 11-12 ərəfəsində bu rasdaşıb. Burda ağam deyir ki, almanı geri götürürəm, uşaq orda çönür. Bu da harasa iş dalınca gedir, kəndə qayıdanda görür o qaçır, bu qaçır. Deyir ki, bu nə qaçaqaçdı? Bu gedir, gedir, küçələrinə çatır. Evinə yaxınnaşanda görür ki, hamı bunun evinə istiqamət eliyir. Özünü döyüb-öldürür ki, nə olub, nədi? Ordan ermənินin biri deyir ki, bəs oynadıxları yerdə uşağ ağzıüstə düşür yerə. Onda əlini dişdiyir ki, mən filan saatda filan yerə gedirdim, mən onda seyidağanı gördüm. Soruşuf bu saat neçədə oluf, deyiflər filan vaxdı. Hamı bunu danlayır ki, uşağı götür düz ora. Ağam da nə gəzir evdə, yoluna düzəlib gedib. Bir neçə erməni uşağı götürüb gəlir. Elə olur ki, axşam tərəfinə çatıllar ağamgilin evinə. Nənəmnən mamam oluf evdə. Nənəmdən soruşuf ki, ağa evdədi? Deyif, yox. Nədi? Deyif, bəs filan vaxdı ağanı gördüm, belə dedim, getdim ki, uşax belə olufdu. Anam da qayıdıf deyif ki, elə haqq olub. Sən bilmirsən o ağır nəfəsli seyitdi? Sən onun almasın niyə geri götürürsən? Hər

kim bu işi düzəldifsə də, denən Allah hamısına kömək olsun. Ağam seyid evladı olub. Onlar dördüncü imamın törəmələridi. Nəysə, gəlir təzdənnən mamamı çağırıllar, mamam əlini çəkir, qabda su verir, uşaq yaxşı olur, gedir. Uşağın hər yaşına qurban deyif gətirirdi, – onda biz Vedinin dağlarında olurdux, – gətirif orda kəsirdi (S.2).

## 39.

Mamam deyir ki, bizim bir tanış var, həməşə gəlirdi bizə. Bir gün bunun uşağı xəsdələnir. Xəsdələnəndə ata uşağı gətirif bizə. Elə bil ki, uşağın meyidini götürüb gəlib. Uşaq burda yaxşı olur, ağam ona əlini çəkir, su verir, öz qabınnan buna çay verir, bu uşax yaxşı olur. Nəysə, axşam düşəndə ağam deyir ki, ay Hənifə kişi, gecəyə düşür, uşax da qundaxdadı. Qal, səhər gedərsən. Bu deyir, uşax anasız qalmaz, qoy gedək. Gedir, qardaş, yolda bir dumana, çənə düşür ki. Axı ağam buna deyib ki, qal, səhər gedərsən da. Gedir, bir də həmən yolu qayıdır, dan yeri ağaranda ağamın qapısına gəlif çatır. Ağamın qapısına çatanda, ağam da sübhə durubbuş namaza. Qapını döyür. Qapı döyüləndə ağam deyir ki, Dilbər, qoy, gedim görüm kimdi gələn? Yəqin ki, xəstə gəlib. Gedir qapını açır, amma o qədər duman, çən olur ki, göz-gözü görmür. Ağam da bunu görmür kimdi. Atdan düşür, elə bilir öz ayiləsidi, evidi. Deyir, boy, Mirəli ağa, mən gəldim genə sizə çıxdım? Deyir, Hənifə kişi, gəl. Sən mənim sözümü eşitmədin, bir də qayıtdın bura gəldin.

İndi onun nəvə-nəticələri, – and olsun Allaha, – bura gələndə deyirəm ki, oturun. Deyir, yox, Sevda bajı, mən qorxuram, sən deməsən, biz oturan deyilik (S.2).

## 40.

Bunlara Çidəmli seyidləri deyilir. Çidəm də Yerevandadı. Ağamın bünövrəsi Çidəmli seyidlərindəndi. Böyük Vedi var, Kiçik Vedi var. Ağam Böyük Vedidən idi. Sonra gəliflər Məsimliyə. Mollaları, seyidləri tuthatut vaxtında ağam yerini dəyişirmiş. Dövlət işçiləri hərəsi bir tərəfdən çağırırmış, ağa, gəl burda məskunlaş, evimin birini verirəm sana. Gəlirmiş ağam uşaqlarla orda qalırmış. Axırda gəlib Şüğayıb kəndinə. Ordan da Mircəfər Bağırovun vaxtında köç eliyib Salyana. Atasının adı Mirtahir ağa olub. Bizim yeddinci babamız Seyid Yasin ağa olub. İğdır mahalı Ağrı dağında dəfn olunub.

On beş əsr bundan qabağ ağamın birinci babası burda ehsanın verib, zəvvarlarnan gedib Həccə. Mamamın dediyini deyirəm. Ehsanını verib, halallaşıb bütün qohumnan, evladnan ki, mən Kəbədən gəlmiyəjəm. Gəlməyimə üş gün qalmış mənim başım möhürdə qalajax. Vaxt-vədə hərrənib, bunun vaxtı tamam oluf da, yəni getdikləri müddət. Elə iki gün, üç gün qalmış Kəbənin ətəyində namaz qıldığı yerdə rəhmətə gedir. Orda bunu dəfn eliyillər. Deyəsən, Mircavad olub o babamın adı (S.2).

## 41.

Əlinin kəraməti var idi, ağzı ilə kimə nə deyərdi o idi. Məsələn, biri əsgər gedərdi. Ağam cibinnən dəsmal çıxardardı, bir dəfə alnını silərdi, dəsmalı verərdi ona. Belinin qurşağınnan götürərdi, – ağam qurşağlı olub da, – o qurşaxdan bir dənə sap çıxardardı, bükərdi bir dənə qara parçaya, deyərdi, oğul, səni verirəm Allaha əmanət, yerdə də mənim cəddim səni sağ aparsın, salamat gətirsin. Elə gedərdi, elə gələrdi. Mamam deyir ki, Yerəvanda bizim bir qonşu var, onun da bir ahmadar oğlu var. Ana gətirib ki, uje müharibəyə yola salırıx. Bir dənə dəsmalını

çıxardıb deyib ki, bunu verirəm sana, sağ get, salamat gəl. Vaxt-vədə hərrənir, müharibə başa çatır, bilmirəm bir il oluf, iki il oluf, bütün qohum-qonşuya qara kağız gəlib, amma bundan xəbər yoxdu. Arvad gəlib ağlıyır, yapışıf ağamın ətəyinnən ki, Mirəli ağa, bəs Səfərdən xəbər yoxdu, Səfər ölüfdü, yəqin. Ağamın özünün təsbehi durur. Deyir, qızım, narahat olma, qoy bir zikr eliyim. Təsbehi çəkir, çəkəndə qayıdıf deyif ki, qızım, qorxma, o tezliknən gələjək, amma ikibaş, dördayax gələjək. Bunun bir dənə inəyi olub, təzə də balası olub. Arvad deyib, ağa, cəddinə qurban olum, sənin dediyin gerçək olsun, Səfər qapıya gələn kimi bu inəyi çəkib gətirəcəm, sənin qapına bağlıyacam.

Vaxt-vədə hərrənir, bilmirəm bir ay çəkir, iki ay çəkir, tezdənnən ağamgilin qapısı döyülür. Ağamgilin qapısı döyüləndə qapını açırlar ki, gələn həmin bu Səfər. Hərbi formada, yanında da bir dənə qız. Ağam bunları görəndə deyir ki, ay oğul, bəs xoş gəlmisən, beş gəlmisən, bə bu nədi? Başını dikif aşağı. Deyib, nə bilim, ay ağa. Deyif, gəl gedək. Anan neçə gündü məni öldürür ki, Səfərdən xəbər yoxdu. Ağamgil gedirlər, qapını döyürlər, ana çıxır. Ananın ürəyi gedir bəridən ənə, gör neçə vaxtdı Səfərdən xəbər yoxdu. İməkliyə-iməkliyə gəlib ağamın ayağınnan yapışıb deyif ki, ağa, cəddinə qurban olum, sənin ayağının altında ölüm, sənin dediklərin oldu.

Onun bir dənə dediyi yanılmazdı, oğul. O qədər ağzı əyilən, zincirdə dəli gətirən, o qədər qorxan xəsdələr olub, meyit xəstələr gətiriblər. Neçə ayın söhbətidi. Ağdaşdan bir kişini gətiriblər ölü vəziyyətdə. Gedən də, gələn də deyirmiş ki, indi ölər, bu dəyqə ölər. Televizordan Yevlaxda Mirəli ağanın adını eşidir, bu söz kişinin yadında qalır. Həmin kişinin beş dənə oğlu var idi, qucaqlarında gətirmişdilər onu. Ağır xəstə idi. Bunu gətir-

dilər. İçəri aparanda dedim, oğul, qoy ağamın ayağının altına bir döşək atım, bunu burda uzadaq. Uzatdıx, bu kişi orda mürgülədi, birdən ayıldı. Ayılanda bərk çığırdı. Arvadı qorxdu. Elə bildi ki, buna nəsə oldu. Kişi durdu, gözünü ovcaladı. Mən tez çöndüm dedim, dayı, yuxu gördün? Dedi ki, hə. Yuxuda məni çəliknən bir nurlu kişi vurdu, dedi sən niyə uşaxlarını incidirsən? Dur get uşaxlarınnan. Bax, bu ocax haqqı, bu tam haqqı, kişi dedi ki, mənim əlimi buraxın, ağa maa qüvvə verdi. Qucaxda gələn bu kişi ordan yavaş-yavaş durdu, uşaxlar qolunnan tutdu, yemək də yemir da bu adam, taqətsizdi. Öz-özünə durdu getdi. Evdə də bunun gəlini xəstəymiş də, başında ağrılar-zad. Aradan beş gün keçdi, kişi gəlinnən gəldi. Dedi, qızım, mən ölmüşdüm, gələn deyirdi ki, iki gün qalar, üç gün qalar, hətta mənim xırıltım boğazda idi. Özümüz də bilirik ki, can verən adamın xırıltısı boğaza qədər gəlir. Burda Allahdan mana vəh gəldi ki, sən bu şəkildən yapış, gəlinini bura niyyət elə. O kişi o gəlinini də götürdü gəldi. Qurban olum ağamın cəddinə (S.2).

## 42.

Nənəm deyir ki, o vaxt ağam rəhmətə gedəndə tez-tələsik hərə bir tərəfdən götürüb aparıb dəfn elədilər. Qəbirstannıxda böyük çinarın altında dəfn eliyiblər. Bu kəndin[15] tarixi böyükdü. O çinarlara baxıb 200-300 il yaş vermək olar. Bu kənd aşağıda qəbirsannığın yanında olub. Dilbər nənəm deyirdi ki, ağanı ora basdıranda orda nə boyda hacıleylək yuvaları olub. Ağamın yeddisinə qədər o boyda hacıleylək yuvaları ovum-ovum oldu töküldü yerə. Ora baxsan oranın yarısı çinar ağacıdı, qırılan, ovalanan, dağılan. Ağanınkını gedif görsən, oğul, sən təsəvvü-

[15] Malbinəsi kəndinin

rünə gətirəmməzsən ki, bu gözəllikdə ağac olar? Bir dənə quş onun üsdündə yuva qurmur.

Firdovsi rəhmətə gedən vaxdı Bəstixanım xalamnan bunun yeddisi günü durmuşux orda. Elə bil bir civilti, gurultu səs gəldi orda. Bəstixanım xalamnan getdik ora. Köçəri quşlar idi, elə bil hardansa köç eliyib gəlillər. Gəldilər ora doldular, oğul, gözünnən görməsən, inanmazsan. Quyruğu uzun sərçə boyda quşlar idi. Ora çöp gətirən, özlərinə yuva tikən. Bir neçə gündən sonra bir külək, bir tufan başdadı, onun bir dənəsin də orda qoymadı qalsın. O külək, tufan onların yuvaların apardı. Nabələd quş çoxdu da. Görərsən, hərdən-birdən biri gələr, o da qalmır ha. Onu buranın qarğaları, quşdarı, ağamın cəddi haqqı, gözünnən görsən inanarsan, bir dənə qoymaz orda qalsın. Mamamnan ora getmişdik, Əhmədin dədəsi üş-dörd dənə qanad-quyrux gətirdi, qara qarğanın qanadları idi. Mamama yaxınlaşdı, əlini öpüb dedi ki, qızım, mən bir sirr gördüm burda. – Oranın qaroulçusu idi. – Dedi, Hümbət dayı, nə gördün? Dedi, bura bir qarğa gəldi, burda yuva qurdu. Buranın qarğaları onu nətər başına döydülərsə, o öldü, and olsun Allaha. Bu qanadları saxladım ki, Əliyə xanım gələndə bunu göstərim ona (S.2).

## 43.

Bir dəfə mən orta məktəbdə oxuyanda ağamın əkdiyi tutun altında oturmuşdum. Gördük, bir avtobus gəldi, dədə-baba sarı avtobuslardan. Beş-altı dənə kişi gəldi, içəri girəndə mamamnan görüşdü. Ağam Salyanda olduğuna görə oranın camaatı ağama başqa cür itayət edirdi. Gəldilər ki, qurban gətirmişik, ağanın kümbəzində kəsməyə, ilan bizi buraxmır. Qapı açıxdı, amma ilan qapının üsdünə çıxıf başını qaldırıf heş

kimi içəri buraxmır. Mən özüm də getdim mamamnan, mamamı tək qoymadım. İlan başını qaldırıf diliynən hökm eliyir ey, oğul, gözünnən görsən, inanmazdın. Ağamın kümbəzinin qabağına daş, ağac, nə bilim, o qədər şey atırlar ki, ilan getsin, getmir, fısıllıyır, imkan vermir. Mamam ora çatan kimi dedi ki, burda natəmiz var. Mamam belə deyəndə o ona baxdı, bu buna baxdı. Kişinin biri dedi ki, həə, bir ana-bala mənə demişdi ki, nə vaxt ağamın ocağına gedəsi olsaz, mənim imkanım yoxdu ora gedəm, məni də apararsız, qurbanım var. Yadımdan çıxıb o qadını gətirməmişik. Dedi, hə, o olar. Mamam orda dua elədi, ağamın cəddini çağırdı, Süleyman peyğəmbərin duaları var, onu dedi, Allaha and olsun, ilan o tərəfə baxdı, bu tərəfə baxdı, getdi girdi çinarın arxasına (S.2).

**44.**

O vaxt ağam hardasa oturupbuş, yapıncısı dağda imiş. İlanın biri gəlib kokələnib, ağamın yapıncısının bir küncündə yatıb. Ziyarətə gəlib da. Bir nəfər ilanı görüf. Ağamnan görüşəndə deyif ki, Mirəli ağa, cəddinə qurban olum, tərpənmə, böyründə bir ilan var. Deyib, oğul, heş nə olmaz. Ağam orda deyib ki, ay Allahın heyvanı, səni and verirəm Süleyman peyğəmbərin taxtı-tacına, get burdan. Gəldin, Allah ziyarətini qəbul eləsin, get burdan. İlan ordan başını çıxardıf, baxıf ora-bura, – mamam deyirdi ağam onu həmişə bizə deyirdi, – başını iki-üç dəfə yapıncıya sürtüb ki, gəldim ziyarətini elədim də. Ordan sürüşüb gedib dərəyə tərəf.

Günü bu gün də bizim ocaxda sarımtıl ilan var. Mən özüm gözümnən görmüşəm. Divarın üsdüynən gəldi, mən də uşax idim, çığırdım. Dedim, mama, ilan, mama, ilan. Mamamın da burda əkin yerrəri var idi. Mamam dedi, təpənmə, o ağamın ilanıdı (S.2).

## 45.

Ağam deyir ki, bir gün sübhə durubmuş. Görüf ki, bir maral gəlib qapıda yatıfdı. Ağam çölə çıxıf, gəlib deyib, Allah ziyarətini qəbul eləsin, get, Allahın heyvanı, get. Bu bir-iki belə gəlif həyətdə yatırmış, gedirmiş. Vaxt-vədə ötür, oğul. Bir gün görür ki, bu maral balaynan gəldi. Gəlif gənə yatıf, ziyarətini eliyif, gedəndə balanı qoyur gedir. Balanı qoyuf gedəndə – demək, bunun balası qalmırmış, – ağam deyib ki, Allahın heyvanı, mən bildim sən nəyə gəldin? Allah səni yadına saldı, bala verdi, mən də sənə verirəm, götür apar, balanı yekəlt. Aradan bir müddət keçir, ana gəlir balasını götürür, çıxıb gedirlər (S.2).

## 46.

Bizim burda bir qonşumuz oluf. Onun on bir uşağı olub, ölüb, qalmıyıb. Bir gün ağam evin dalında oturupbuş öz yaşıddarıynan. Görür ki, yayın günü ana paltoda, yaylıxda uşağı aparır. Deyib, ay qızım, yayın bu istisində uşağı niyə o vəziyyətdə aparırsan? Gəlib yaxına, əlinnən öpüb. Deyib, ağam, cəddinə qurban olum, vallah, utanıram da deməyə, bu on ikinci uşaxdı. On biri ölüf, – yəni bir-birinin üzünü görmür də uşaxlar, – bu qalıf. Ağam uşağın paltarlarını bir-bir çıxardıf. Onda Bəstixanım xalam da balacaymış. Ağam həmin qadına deyif ki, ay qızım, sən get suya, qoy bu uşax burda Bəstixanımnan oynasın. Qorxma, Bəsdixanım son beşiyim idi, bu da oldu lap sonbeşiyim. Allah tərəfinnən qalan bircə o uşağ oldu. O yekəldi, böyük qız oldu. Mamam, həmişə deyirdi ki, o bizim bacımızdı. Ərə gedəndə ona servant, yorğan-döşək aldı verdi ki, ağamın adı bundadırsa, mən buna nəsə eləməliyəm. Mamam həmişə deyirdi ki, ağamın bir sözü var idi. Seyidin əyninə geyindiyi paltarda olan kəramət heç nədə yoxdu. Yəni, onu uşağa geyindir, Allah ona dayaq olsun (S.2).

## 47.

Gəncədə mamam yatanda orda bir sestrası var idi. Bu sestralar mamamı tanımır da kimdi, nəçidi. Mamamın seyid qızı olduğunu bilәndәn sonra bir gün iynəvuran sestra mamama dedi ki, mənim bacımın iki qızı var, oğul uşağı olmur deyə pozuluşurlar, ayilə dağılır. Mamam əl atıb cibinnən bir dəsmal çıxardır. Dəsmalnan üzünü sildi. Dedi ki, Allahın köməhliyinən mən sana köhnə dəsmalımı verirəm, bunu apar, bacına ver, bunu saxlasın. Qayıdıb dedi ki, nətər saxlasın? Dedi ki, bir az üstündə saxlasın, bir az evdə təmiz yerdə saxlasın, bunu sənnən oğul balasıynan alajam. Bir dənə də təzə dəsmal gətirərsən, bunu sənə verəjəm. Vaxt-vədə hərrəndi, oğul, and olsun Allaha, gözümnən gördüyümdü. Altdakı il bunun oğlu oldu. Həmin o xala yeddi il bura qurban gətdi. Niyyəti özü eliyif axı. Yeddi il qurban gətirdi, uşağın saçı da uzanmışdı nə qədər. Dedi ki, niyyət eləmişəm oğlum olsun, kəsmiyəjəm saçını. Həmin xala bu yaxınlarda da gəldi ki, işdə həkim var, on ildi onun da uşağı olmur. O buna deyib ki, Qəndaf, sən ora gedif gəlirsən. Mənim qızımın da vəziyyəti pisdi. Sən öz adınnan niyyət elə, ağanın cəddini çağır, sənin niyyətini Allah tez qəbul eliyif da. Bura gələndə dedi ki, mən gəlmişəm qızıma niyyətə, on ildi uşağı olmur. Bunnar da niyyət olunmuş qurbanı kəsiflər. Dedi, mən burdan bir dənə kanfet götürəjəm – onnarda adətdi, niyyət olunanda kanfet, şirniyyat, qulpunnan nə çıxsa yığırlar, – aparıf verəjəm qızıma. Onun altdakı ili həmin o həkim bir avtobus adam yığıb gəldi ki, mən həyatda ağanın cəddinin hökmünü gördüm. Mən içəridən ona ağamın qurşağınnan verdim. Dedim, ay doktor, ala, bunu verirəm saa, sən özün həkimsən, mən də bir Allah bəndəsi. Bunu verirəm, apar qızının üstündə saxla.

Ağamın cəddi elə eləsin ki, gələn il bu zaman Mirəli[16] onun qurbanını kəssin burda. And olsun Allaha, indi iki dənə nəvəsi var, hər il gətirir ona qurban kəsir. Ağanın cəddinin hökmü budu, oğul, özünün nəfəsidi. Onda olan kəramət, möcüzə beləydi (S.2).

**48.**

Mən indi ağamın təsbehini, tütün qabını, papkasını saxlamışam. Yatdığı kravatı mamam nətər qibləyə qoyub mən onu tarixi çevirə bilmərəm. Yəni, özünün maa verdiyi tövsiyyəsidi ki, kravata dəymə. Sora sulu qəlyanıdı, onu saxlamışam.

Bu yaxınlarda başı pozulmuş bir xəstə gəldi. Bir ay dayanmadan gəldi, mən dirəndim da, dedim mən belə şey görməmişəm. Ağamın qurşağını sancaxnan xəsdənin üsdünə vururam, xəstənin üstündə dua-zad var deyə bu qəbul eləmir. Ağamın hökmü çox ağırdı da. Ana məni aldatdı ki, üstündə heş nə yoxdu. Bəlkə on dənə oğlan bunu saxlıya bilmir. O həddə çatdı ki, üzr isdiyirəm, it kimi əl-ayağı gəmirir, Allaha and olsun. Axırda anasına dedim ki, aaz, sən nətər insansan? Bunda nə varsa, çıxart çölə. Qızın özü əzab çəkirdi, özünü nə günə salır. Sonra nənəsi dedi ki, üstündədi. Boynunun dalından duanı çıxardannan sonra qız ayıldı. Maa dedi ki, məni öldürürlər, Aliyə nənə. Ağamın qurşağını onun üstünə qoyannan sora, and olsun Allaha, hələ də var qız xəstələnər, gənə də var.

– Cin toxunan adamı gətirirlər?

– Ay oğul, elə onnardı da. Bax, orda ağamın qabı var, özünün babadan qalma Quran ayəli bir daşı var. Mamam qoyduğu qab var, onun içinə sudan tökürəm, onun böyrünnən, qolunnan tuturlar da, özü-özünü idarə eliyə bilmir axı. Mən ona su çilə-

---

[16] Mirəli ağanın nəvəsi, seyidin adını ona veriblər.

dikcə, dualar oxuduxca, and olsun Allaha, onun içindəki nətər təlatüm eliyirsə, mən o qabın suyunnan ona verim haa, ağamın özünün cəddi haqqı, qoymurlar o su aşağı yensin. Ona imkan vermirlər. O suyu, özüm bişirdiyim lavaşdan zulumnan isdadıb onun ağzına qoyuram, tuturlar boğazınnan ki, yemə. Axı onu cin götürmür. İmam, peyğəmbər yazılarıdı qabın içindəki. Onu ta ki mədəsinə salannan sora partdıyır, partdıyır, partdıyır, ta elə bil ki, bir balığı sudan çıxartmısan, insan o vəziyyətə düşür. O mənim ağamın cəddinin hökmüdü. Biz onun quluyux. Tasa tökdüyüm adi sudu, o qabın üstündə o qədər ayələr var. O ağamın babasınnan qalmadı. Mən onu elə xəstələrə, evladı olmayan-nara istifadə edirəm. Bu yaxınnarda biri gəlmişdi. Mən buna dualar elədikcə, su səpdikcə, qız ağladı, ağladı, ağladı, getdi oturdu daşın üstündə. Dedi, mən nə qədər vaxtdı ki, əziyyət çəkirəm, o su içimə gedənnən sora elə bil içimdə nə idisə, çıxdı. Sən duaları oxuduxca, ayələri oxuduxca, Sevda bacı, mən nə qədər yüngülləşdim. İxlası, Fatihəni oxuyurdum. Ən güjdü İxlasdı, Fatihədi. Mənim mamam maa dediyi tövsiyyə odu (S.2).

**49.**

Təftiş Məhyəddin ölümü qabağı bura gəlmişdi, o danışırdı. Deyir, bir gün ağam rəhmətdik gedir Yevlağa bazarrığa. Kəndə təzə gələn vaxdarıdı, burda da kim tanıyır ağamı. Bərdə trasın-da Yarımpoşt deyirlər, ağam duruf orda, əl eliyif maşın saxlamı-yıf, əl eliyif maşın saxlamıyıf. Altı-yeddi maşının hamısı gedif kəndin içində ara-ara dayanıf. Rəhmətdih Məhyəddin kişi gəlif bu Yarımpoştda düşüfdü. Deyir, gəldim ki, Mirəli ağa söykənif plakatın dəmirinə, əynində də arxalıx, durufdu. Dedim ki, baba, nətərsən? Dedi, sağ ol, ay oğul, Allah köməyində olsun. Bayaxdan məni bir maşın götürmür, bəlkə, sana səbəb məni maşın götürə.

Kişi deyir ki, birinə əl elədik keşdi getdi, ikinci maşın bizi götürdü. Gəldik, elə məktəbə çataçatda gördük ki, on maşın yol kənarında dayanıf. Qayıtdı dedi, Allah sizə insaf versin. Siz bilmədiniz mən ağayam, lap ağa deyiləm yaşlı kişiyəm, məni niyə götürmədiz? Allah yolunuzu versin, gedin (S.2).

## 50.

Mirəli ağanı aparıllar Salyana. Salyan istidir axı. Bizim kürdlərdən soruşur ki, mənim kirvəmin uşaxları hardadı. Buna deyirlər ki, sənin kirvənin uşaxları Yevlax rayonundadı. Gəlir Yevlağa, stansiyada düşür. Raypoda Əli var idi, buna rast gəlir. Əli bunu evə aparır. Bu gedir Yədilliyə, mənim qaynatam da orda heyvana gedirdi. Eşidif ki, Mirəli ağa bura gəlif, gedif onu görməyə. Bunun yanına gələndə Mirəli ağa deyir, səndən bir şey soruşacam. Mahmudun oğlu İsmayılı tanıyırsanmı? Deyir, Mahmudun oğlu İsmayıl mənim yeznəmdi. Deyir, onu bura gətir. Mən gəldim, oturdum, onnan söhbət elədim. Axşam olanda dedim, ağa, mən gedirəm, mənə qonax olarsanmı? Dedi, qayıdanda qonağ olacam. Növbəti dəfə gələndə üş gün mənim evimdə qaldı, sonra çıxdı getdi. Yevlağa köçəndə mən onun yanına getdim. Dedim, sən mənim dədəmnən necə kirvə olmusan? Dedi, sənin dədən bir arvad gətirmişdi. Arvadı öldü, sonra sənin ananı gətirdi. Uşağı olmurdu. Bir gün bizə gəldi, oturdu, süfrə açdıx. Dedim, a kişi, sən nə yaxşı bizə gəlmisən? Utana-utana dedi, ağa, uşağım olmur. Arvadının adı Dilbər idi. Dedi, ay Dilbər, dur bir dənə çörək bağla, bu kişiyə ver. Tapşırdı ki, apar bu çörəyi arvada ver. O il mənim bir bacım olur, sonra mən oluram. Məni gətirib onun qucağına qoydular. Sən onun evinə gedəndə ürəynən get. Ürəynən getsən, hər niyyətin qəbul olar. Vedi rayonu, Vedibasar, Cığın dərəsi, Milli dərəsi hamı onu ziyarət edir (S.8).

**51.**

Məhərrəm babam danışırdı ki, 46-cı ildi, məni də Çimən kəndinə ferma müdiri təyin eliyiblər. Yaz ağzıdı, qoyuna xəsdəlik düşüb. Məsələ büroda qaldırıldı. Prakror dedi, Məhərrəm yaxşı kommunistdi, yaxşı işçidi, gəlin möhlət verək, əgər dönüş olmasa, cinayət işi açılsın. On gün möhlət verdilər ki, heyvan ölümünün qabağı alınmasa həbs olunacaxsan. Nəsə, deyir, möhlət aldım, birbaşa getdim fermaya. Fərzonun çayından qoyun qalxır dağa – İşıq bulağa tərəf gedirmiş. Yurda gedəndə yolda görür ki, Mirəli ağa gəlib. Vedidə iki Mirəli ağa olubdu; biri Çidəmli Mirəli ağa, biri də Kotannı Mirəli ağa. Çidəmli Mirəli ağaynan rasdaşıbdı. Babam Mirəli ağanı görən kimi atdan düşüfdü. Babama deyif ki, niyə belə bikefsən, sən həmişə şux olurdun? O da deyir ki, ağa, cəddinə qurban olum, heyvana xəsdəlik düşüb, əgər ölümün qarşısı alınmasa, mənə cinayət işi açılacax. Deyir, narahat olma, ağan bir dua oxuyar heyvanın ölümü dayanar, sənə də həbs verməzdər. Deyir, bir dua oxudu, belindəki qurşağından bir parça kəsdi, dedi sürüdə hansı heyvan yunnudu, qabaxda gedir, onun belinə bağla. Babam, deyir, bu parçanı qoyunun belinə bağladıx, ağaynan görüşdük, ayrıldıx. Atı mindim yaylağa çatana qədər 5-6 heyvan öldü, yaylağa çatandan sora ölüm tamam dayandı (S.1).

## 52-55. SEYİD BAYRAM

Ziyarətgahımız Seyid Bayram ağanın ojağıydı. Erməni də gedif ora sitayiş eliyirdi, inam varıydı. Allah ona qəni-qəni rəhmət eləsin, nalnan mıxın arasında saxlıyardı insanı xatadan. Onun mən nəyini gördüm? Ora mən hər il gedirdim. İki qardaşdılar – Seyid Bayram, Seyid Usuf. Elə bil dikiydi, burdan

çıxırdın Seyid Bayramın kümbəziydi, bu tərəfdə Seyid Usufunuydu. Gəlirdin Seyid Bayramın məzarının üsdünə, elə bilirdin iki-üç dənə gəlin silib-süpürüf, təmiz, sağ-çillə qoyuf çıxıf, üş metr ayna qardaşınkına gedirdin, quş zığıydı, girilləsi döyüldü.

Yaz vaxtı qarının borcu məsələsi var da, dağlıq yerdi, Seyid Bayramın otu qurtarır. Seyid Usufa deyir ki, bir-iki xorum[17] yonca ver mala verməyə. Deyir, yox ə, özümü görmüyəjəh, vermirəm. Deyir, yaxşı. Sən də seyidsən, mən də. Deyir, nə deyirəm. Seyid Usuf qayıdıb gəlir, ağzı üsdə uzanır. – Bunu Qələm rəhmətdih danışırdı. – Aradan yarım saat keşdi, Seyid Usufun ağzı əyilir, it kimi hürür. Bu bir sutkadan artıq belə qalır. Camaat Seyid Bayramın üsdünə gedir ki, ağa, cəddinə qurban olum, dur onun ağzının üsdünə bir şillə vur, qaytar onu. Kənd yığılıb ona minnətə. Bax, belə bir sitayişdi ojax idi.

Sarı yerə nə qədər elat çıxırdısa, hamısı atdelni gəlib onu ziyarət eliyirdi. Deməli, gedirdin ocağa, gərək növbəyə düşəsən. Mən onu görmüşdüm, köhnə eviydi. Nənənin qara sandığı varıydı, girirdin ora, sitayiş eliyirdin, uşağı olmuyan gedib ora nəzir-niyaz qoyurdu. Çox sitayişdi yer idi. Orda elə bir şərait yarandı kı, ojağında iki mərtəbəli ev tikildi. Deməli, beş-altı arvat qulluğundaydı o camaatın, ocaxda qız nəvəsiydi. Qız nəvəsinin də yoldaşı gedir Özbəkistana. Özbəkistanda rusnanzadnan görüşür, bu mundarranır. Qayıdır gəlir ocağa, ocağ bunu qəbul eləmir. Möcüzəyə bax ee? Gəlir burda xəstələnir. Maral gəlir, Allahın heyvanı, ocağa girir, burnunnan balasını vurur qabağa. Seyid gəlir, əlin çəkir maralın belinə, döşündəki südü sağdırır. Deyir, Allahın heyvanı, bu bəsdi. Ona görə deyirlər ki, Seyid Bayramın maral gələn ojağı.

[17] xorum – ot bağı

Seyid Bayramın ocağına getmək üçüm maşın axtarmaq lazım döyüldü. Yola çıxırsan, niyyət eliyirsən ki, mən filan yerə gedirəm, bir də görürsən taksi gəldi (S.46).

**53.**

Seyid Bayram çox hökümlü adam oluf, sözü keçən adam oluf. Birinin əli aşağı düşərmiş. Deyif ki, oğlum salamat gəlsin müharibədən, ona bir dənə inək qurban deyirəm. Oğlu salamat gəlir, inəyi tutur, aparır kişinin qapısına. – Bu nədi? Deyif, oğlumun qurbannığıdı. – Neçə oğlun var? Deyif, üç oğlum var, bir də mən. – Bu inəy neçiyə gedər? – 40 manata. – Bu inəyi 40 manata satırsan, 10 maatı mənim, 30 maat sənin öz halal-xoşun, apar uşaxlara. Mən uşağın çörəyini yeyə bilmərəm. Bax, belə bir səxil[18] adam oluf o.

Seyid Bayram Daşkəntdə basdırılmışdı. Seyid Bayramnan baravar Seyid Bayramın qardaşı da orda idi, kümbəzdəri böyün də durur. Deməli, göyərçin gəlirdi o qardaşının kümbəzini buluyurdu, Seyid Bayramın kümbəzini bulamırdı. Tərtəmiz qalırdı onun kümbəzi (S.43).

**54.**

Bir dəfə bunu tutuf aparıf salıllar KPZ-yə. Gəlirlər, kişi qapıdaja oturuf. Belə məətdəl qalıflar ki, bu nətər şeydi? Deyif, qadan alım, mana qapı bağlanmaz. Kişini onnan da əhv eliyiblər, çıxıf gedib. Çox səxalı adam oluf, çox hörmətdi adam oluf. Qan bağışdıyırmış o kişi. Onun qardaşı Seyid Usuf ağanın döşü qadın kimi süddü oluf. Kimin uşağı durmurmuşsa, kişi döşünü verirmiş uşağa, o uşax onnan yaşıyırmış. Döşündə süd oluf o kişinin (S.43).

---

[18] səxil – səxavətli

## 55.

Seyid Bayram sifdə Çaxırrıda olurdu. Balaca imiş, elə bil on beş, on altı yaşında, quzu otarırlarmış. Yerdən qaynama su çıxır, bunu uşaqlar götürüf atırlar suyun içinə. Bu suya girir, qupquru da çıxır. Gəlif bunu deyirlər, heş kim inanmır. Sabahı Seyid Bayramın dədəsi ordan köçür. Bunun ikinci uşağı olur, arvadın döşündə süd yox imiş. Qaynatasına deyir ki, bir inək al, südünü bu uşağa verək. Deyir, səhər durdular ki, qapı maralla doludur. Arvad durdu, maralları sağdı, gətdi uşağa süd verdi. (Söyləyicinin gözləri dolur – İ.R.) Heylə müqəddəs ojağ idi. Köçəköç başdıyanda erməni katib Qələmə[19] deyif ki, sən getmə, səni gözümüz üsdə saxlıyajıx. Seyid Bayramın kümbəzinə dəymiyiflər, indi də durur.

Bir gün ora getmişdik. Gejə heyvanı kəsdik. Onda Seyid Bayramın arvadı dururdu, gözü tutulmuşdu. Deyir, bala, bir gün qışdı, qar yağıf. Göyçənin də qışı dəhşətdi. Gördük qapıya bir pabeda gəldi, bir də üsdü örtülü maşın. Gördük düşən ermənidi. Dedi, icazə verirsinizmi, biz də bu ojağa gələk. Ojax dal evdə idi, köhnə ev idi, qabağında təzə ev tikmişdilər. Arvad deyif, gəl, amma bura gəl, ojağın üsdünə getmə. Gördük maşından yanı balalı bir inək düşürdülər, bir maşın da ot. İnəyi çəkdilər pəyəyə, otu tökdülər, bir də bir göyçək qız uşağı. Dedi, bu qız xəsdə idi. Bu ojağa nəzir elədik, indi də sağalıb, gətirmişik. Qələm gəldi Tərtərdə oldu, Seyid Bayramın bajıları da Sarovda oldu. Öləndə onları aparıb İmamzadada[20] dəfn elədilər (S.4).

---

[19] Seyid Bayramın qızı

[20] Bərdə İmamzadəsi

## 56-57. QARA SEYİD

Yol çəkirdilər, Qara seyidin qəbrini isdədilər buldozerlə dağıdalar, buldozer işləmədi. Daş qalxıf traktoristin gözünün yarısını aparmışdı. Erməni qızı var idi. Niyyət eliyif ki, mənim bir uşağım olsun, ölənə kimi bu qəbri təmizdiyəjəm. İki ildən sonra bir uşağı olur. Deməli, almışdılar setkaya, qapısın da bağlamışdılar məftilnən ki, gələn ziyarət eləsin. Hər səhər tezdən oranı süpürüf suluyardı. Zeytə deyilən kənd var idi, ordan gəlirdi ki, gedə Terpə. Əsli Terpdən olub. Laçın seyidlərinin yarısı oların köküdəndi. Gəlir ki, badam kolunun dibində lampa yanır. Oturur namaza, səhərə kimi qalır, Quran oxuyur, çırax keçəndə qara kəhər atı varmış, minir gedir. Yeddi oğlu varmış. Gəlir oğlannarına deyir, mən havaxt ölsəm, məni qoyarsız atın üsdünə, buraxarsız. At harda dırnağıynan yeri eşdi, orda məni basdırarsız. At o kənddən ora iyirmi altı kilometr yol gedif, həmin lampa yanan yerdə duruf. Onu orda basdırıflar.

Ermənilər bizdən çox ora ziyarətə gedirdi. Bir dəfə ziyarətə gedirdix, üç erməni idi, bir də mən idim. Getdik ki, bunun qəbrinin üsdündə – bax bırda yeyilən Quran haqqı, – altı manat, ya yeddi manat pul var. Götdux. Erməni mənə dedi, Qaçay, get bir az kalbasa, pivə al, gətir. Dedim, mən gedə bilmərəm. O vədə qastranom deyirdilər ərzaq mağazinnərinə. Getdilər pivə, arax götdülər, gəldıx Arpaçayın qırağında meşənin ətəyində otdux. And olsun Allaha, bugünkü gün haqqı, burulğan nətər gəldi bu sürfəni dağıtdı. Onnara dedim ki, verməyin da bu pulu pivəyə, arağa. İndi heylə ziyarətgah erməniyə qaldı (S.9).

## 57.

Rayonun çıxajağında Qara Seyidin qəbri var idi. Yolun proyekti düz qəbrin üsdündən düşmüşdü. Orda buldozer işdiyəndə nə elədilər buldozer yerimədi, yatdı. Dığa deyər ki, ay rəyis, traktır yerimir. Deyir, traktır yerimir nədi? Nə gij-gij danışırsan? Deyir, yerimir da, zornan deyil ki. Üç-dörd adam olur, gəlirlər, görüllər traktır oraya kimi getdi, orda dayandı. Orda bir erməni deyir ki, bu Qara Seyidin qəbridi, bunu dağıtmax olmaz. Onda yolu həmin qəbrin altından çəkmişdilər, qəbrə dəyməmişdilər. Qəbrdən də ayna bir dənə erməni var idi, orda ev tikmişdi. Bu əhd eliyir ki, mənim uşağım olsun, Qara Seyidin qəbrinə ölənə kimi qulluğ eliyəjəm. İnan Allaha, onun uşağı oldu. Həmişə gedərdin ki, o qəbr gül kimidi. Qəbrin üsdünü də götürmüşdülər, baş daşı da qoymuşdular (S.25).

## 58-63. ŞIX HƏSƏN

Təkyə kəndi 1543-1548-ci illərdə Türkiyənin xəritəsində oluf. Onun birinci adı Təkkə olub, o da ibadət yeri deməkdi. Bu Təkyə kəndində bizim ojağımız olub, Qızıl ocağ. Qızıl ocağın yanınnan çay axır. Bizim kəndə ermənilər sonradan gəliflər. İndi Eçmiədzin kilsəsi deyirlər ey, ermənilər orda sahə alıb, onnan sonra kilsəni tikdirib, yoxsa o torpağlarda erməni olmuyub o vaxta kimi. Rus-İran müqaviləsinnən sonra biraz gəlif kəndə yerləşib, 1905-ci ildən sonra axın gəlib.

Təkyədə yaşayan nəsillər hamısı Türkiyədən gəlmədi, etab-etab gəlmədi. Nadir şah Gürcüstana hüjum eliyif, yəqin ki, eşitmisiz. O Gürcüstana hüjum eliyəndə ona məlumat verilib ki, pir var orda, gedəndə ora dəy, get. Nadir şah Təkyə kəndindən keçəndə, – amma ürəyində tutub ki, mən bunu sınıyajam, görüm

bu həqiqətən ocaxdı? Hər şeyi bilir, yoxsa yox. – ocağın yiyəsi bunu qarşılıyır. Bunları aparır içəri. İcəri aparanda – biz diloy deyirih, balaca fortuşka kimi yer olur divarda, üstünə pərdə çəkirlər, – deməli diloyu çəkir, ordan iki dənə xiyar götürür. Çöldə qış, qar-çovğun, xiyarı harda yetişdirməh olar? İki dənə xiyar götürüb burnunda çiçək, bunların qabağına qoyur. Şah ürəyində deyir ki, arzumun birinə çatdım. İndi mən deyə bilmərəm onun qoşunu min olub, iki min olub, beş min olub. Bu ceyran südünnən Nadir şahın qoşununa – yayma deyirik da biz, – yayma bişirif. Deməli, balaca qazandı, o qoşunun hamısına yayma verif. Şah vəzirnən bunu görüf. Ürəyinnən keçirif ki, bu qazanda çox olar on beş nəfərlik, iyirmi nəfərlik yemək, bu yemək bu boyda qoşuna çatmaz axı. Nadir şah qəlbini belə dolandıranda qazanda yayma qurtarır. Şıx Həsən çömçəni qazana çırpır ki, səni daşa dönəsən. Səni də bədnəzər kəsdi? Qazan, içində də çömçə daşa dönür, ocağın içində indiyə kimi də durur. Həmin tavaya Şıx Həsən tavası deyilirdi.

Deməli, biz həmin nəsildən törəməyik. Axırıncı ojaxlıx, Allah ölənlərinə rəhmət eləsin, mənim atama verilif. Verilif deyəndə gəlif demirlər, sən ocaxsan. Atamgilin babaları doqquz qardaş oluf, o doqquzunun yeddisinin evladı olub, ikisinnən olmuyuf. O ojağın həyətində qoz ağaşları oluf, atamdan başqa heş kim o qozu çırpıb götürə bilmirmiş. Yəni bu o deməkdir ki, ocağın sahibi budur ki, çıxıb çırpır. Havarlı[21] kəndində Musdafa kişi vardı. Bu bir gün deyif ki, elə bu qoz Həsənə qalıfdı? Bu il mən çıxıb çırpajam. Camahat deyif, ay kişi, çıx çırp da, sənə kim nə deyir. Qozun başına çıxan kimi ordan yıxılıf boynu qırılıf. Elə boynu əyri də bura gəldi, burda rəhmətə getdi. Yəni dediyim odur ki, ocağın sahibliyi dədəmə verilib.

---

[21] Yevlax rayonu Havarlı kəndi

– Nadir şah dediz gəlir, görüşür, axırı necə olur?

– Bunlar gedirlər Gürcüstana. Nadir şah deyir ki, biz Gürcüstana gedirik, səfərimiz necə olajax? Bu deyir ki, Allahın köməhliyinnən qalib gələssiz, amma ordan gələndə filan yerdə kilsə var, orda keşişin yanında bir uşax var əli pəncəli. Necə qazın ayağında pərdə olmur? Onun kimi. Bir onu gətirərsiniz mənə, bir də kilsədə kürk var, onu gətirərsiniz. Bular da gedirlər, həqiqətən, qalib gəlirlər, qayıdanda – indi bu ordunun başçıları var da, hamısı müsəlmandı, – deyillər keşişin evindən çıxan kürkü nətər aparax ojağın həyətinə, ojağa verək. Bunu çayda yuyurlar. Gəlirlər. Gəlib çatan kimi ziyarət eliyib getməlidirlər da. Bu, uşağı götürür, kürkü götürmür. Deyir ki, kürkü gətirmiyin. Deyir, niyə? Deyir, o kürkü suya salmısız, onda nə var idi artıq gedib. Deməli, bu o qədər biləndər olub ki, buna ayan oluf ki, o kürk suya salınıf, buna lazım döyül.

Nadir şahla görüşən şəxs bizim ulu babalarımız olub. Ocaxqulu var, Şahqulu, İmamqulu, Vaxqulu var, bular hamısı bizim bildiyimizdir, amma kişiyə (Şıx Həsəni nəzərdə tutur – İ.R.) çatmaq müşkül məsələdir. O Qızıl ocağ ibadət yeri olub. Ona görə tikilib ki, bu gedib-gələnlər həm burda dincəlirmiş, day karvansara kimi yox, həm də ibadət eliyirmişlər ocaxda. Bu ocağın da gücü çox olub. Bax, Havarda Əbdülhəsən kişi var idi, mənim atamnan əmizadə oluf onlar. Burda Mürsəl varıydı rəhmətdih, o da atamın əmizadəsinin oğlu imiş. Bular gediflər ojağa. İndi bular orda yaşıyıb, bular tanıyırlar da. Bu Mürsəl gejə yatıf tanış evdə. Ocağın yanından çay axır. Çayın şaqqıltısı, səsi bunu yatmağa qoymur. Obaşdan oyanıf, yata bilmir axı. Özü deyirdi ki, düşdüm ocağın həyətini bir gəzdim. Bu da saqqallı gəzəniydi. Deyir, ojağın həyətinə girmişdim, bir də gördüm

erməni arvad dalında çırpı məni görən kimi özündən getdi. Deyir, tez çatdım, gördüm arvad huşun itirif. Üzünə bir az su vurdum, özünə gəldi. Dedim, qorxma, mən Mürsələm, Teymurun oğluyam. Onda arvad özünə gəldi. Bildi ki, bu ocağın sahibidi. Deyif ki, mən bu çırpını heş hara aparmıram. Buyün bizimkilər gələjək bura, burda qurban kəsəjeyik. Biz burda işgi işmirih. Kimin qurbanı var, gətirir burda kəsir, burda bişiririh, burda da yeyirih, paylıyırıx. Köhnə ermənilər də o ojağa inanır.

– Nəyi ziyarət eliyərdilər?

– Ocağın özünü, tikili binanı. Böyük həyəti oluf, qoz ağacları oluf. Mən bir əfsanə də danışa bilərəm, amma əfsanə doyül, həqiqi olmuş şeydi. O vaxdı 29-30-da hamı köçüb gəlirdi, atam da köçüb gəlib. Bax, bu Qayabaşında Məclis kəndi olub, atam köçüb gəlib ora. Orda otuz üçüncü ildə ekiz bacım olub, birin adın Tavat qoymuşdular, birin Xavər. Anam söhbət eliyirdi ki, qızıl ilan varıydı. Ona heş kim dəymirdi, o evdə olurdu. Küşdə onun addelni qavı varıydı, xörək bişirəndə gətirib onun içinə qoyurdum, gəlif yeyirdi. O vaxtı beşik-zad olmuyuf, nənni quruflar. Deyir, gəlib gördük ki, ilan nənnidə o iki uşağın ortasında yatıf. İlan gəliv orda yatanda uşağ ağlamırdı. Kəndə ofsuncu gəlif. Deyiflər, ilanı tut. Deyif ki, mən onu tuta bilmərəm. O ilan döyül, o ilan donunda mələkdi, özü də bu kişinindi (dədəsini nəzədə tutur – İ.R.). Mən onu tutaramsa, kənddən çıxarda bilmərəm, genə qayıdıf gələjək.

Demək, zəlzələ oluf. Evdə iki qardaşım oluf – biri on bir, biri dokquz yaşında, bir də bu uşaxlar oluf. Bular görüllər ki, ev tərpənir, qaçıf hərəsi bir uşağı götürüf qujağına, yerə yatıf ki, üsdlərinə torpax tökülməsin. Tir düşüf buların ikisin də öldürüf, uşaxlar qujağında sağ qalıf. Qardaşlarımı dəfn eliyiflər. Atam deyif ki, mən burda qala bilmərəm, bura mənə düşmədi. Təzdən qayıtmışdı Təkyəyə (S.35).

## 59.

Altmış səkkizinci ildə mən Bakıdaydım, məktəbi qutardım, orda işlədim, yetmiş səkgizdə kəndə gəldim. O ilanı da Xavər bajımdan başqa heç kim görmürdü. Mən gəlmişdim, üstündən bir ay keşmişdi. Bir gün bacım gəldi ki, ana, dədəmin ilanın çəpərdə görmüşəm. Anam dedi ki, ağzına gələni sayıxlama. Dedi, dədəmin goru haqqı, mən ilanı tanıyıram. Dədəm ölənnən o ilanı görməmişdim. Dədəm altmış səkgizdə rəhmətə gedib, yetmiş səkgizdə də mən qayıdıf gəlmişəm Bakıdan. Dedi, dədəm ölənnən o ilanı görməmişdim. Firudun gəlif, bugün o ilanı çəpərdə gördüm. İndi fikirrəşdiyimiz odur ki, ilan uje mənnən ötəri gəlif, məni qoruyur (S.35).

## 60.

Bir hadisə deyim sizə. Hamı cavannığında içir, mən də yaxşı işmişəm. Bir dəfə gəldim gördüm ki, anamdı, bajımdı, beş-altı qonşu yığılıf söhbət eliyir. İşgidən danışıllar. Mən dedim ki, ana, bu işgi nə şeydi ki? Desən işmə, işmərəm. Anam dedi ki, pah, sən İrza əmin kimi tumun divində yatırsan. Orda üzümü tərməyə çıxartmıyıflar, yerdən cıznan əkirdilər. Ona tum deyirdilər. İrza əmim də, deməli, pastayannı içən olub. Dedim, mən sizə burda söz verdim, altı ay işgi işmiyəjəm. Anamın da bir xəsiyyəti varıydı, onda anamın təxminən doxsan yaşı varıydı, ona baxmayarax harda ilan gördü onu çatıb öldürməliydi. Mənim də dostum varıydı, qardaş kimiydik. Mən gedəndə orda qalırdım, o kamandrofkaya gələndə bizdə qalırdı. Sözüm onda döyül. Axşam getdik bulara, yemək-zad, yoldaşı gətdi arax qoydu. Dedim ki, mən içmirəm. Anama söz vermişəm ki, altı ay içmiyəjəm. Başdadı gülməyə ki, anan kənddə, sən burda, anan nə bilir sən içmisən. Nəsə, otdux işdik. Kamandrofkadan qayıtdım. Gələndə yoldaşım

maa dedi ki, o günnəri bir dənə ilan seyvana dırmaşırdı. Anam əlinə tuğu götürüb tuğnan ilanı seyvannan aşağı saldı. Dedim, nətər ilan idi? Dedi, qırmızı ilan idi. Dedim, bir dəyqə dayan. Bu filan günü olmuyuf ki? Dedi, hə, nə bildin? Dedim, axşam içmişəm, səhər ilan seyvana dırmaşırmış ki, oğlun səni aldatdı, içib.

Ocaxqulu, Şahqulu, İmamqulu, Vaxqulu babalarımız olub, amma bizdən xeyli əvvəldi. Atam Həsən, onun atası Məmmədhəsən, onun atası Şıx Həsəndi. Bu Şıx Həsən ocağa adı verilən döyül, o, bunnan çox əvvəl oluf. Onnan o yananı tanımıram (S.35).

## 61.

Ojaxlıların hökmü olub. Ojağın üsdünə ziyarətə gedəndə qurban aparırmışlar. O qurbanları da atam ordaydısa, o kəsərdi, onnan qabax kim kəsib, bilmirəm. Gələn adamlar yeyərmiş, yerdə qalanın da paylıyarmışlar bütün kəndə. Bu ermənidi, bu müsəlmandı, fərq qoymazdılar, doğrayıf hamıya paylıyardılar. Bir rəvayət də yadıma düşdü, deyim. O kəndin erməniləri nəyə görə belə inanırlar? Adı yadımdan çıxıb, bir nəfər ev tikdirirmiş, özdə ikimərtəbəli. Ojağın yanında qəbirstannıx da var. Keçəndə görür ki, qəbir daşı var, yaxşı yekə sal daşdı. Dəqiq bilmirəm başdaşı olub, yoxsa sinə daşı olub. Axı hər adamın üsdündə daş olmur. Bu gejəynən gedir, başdaşını kəndirnən belinə bağlıyır, bir zulumnan gətirir evə. Evi tikəndə – divar enli olurdu axı, eni bir metr olurdu, səksən santı divar olmurdu, – daşı evin divarına qoyur. Evi tikir qurtarır. Həmin bu erməni gejə yuxusunu başdıyır qarışdırmağa, gejə bunu boğurlar, qan-tərin içində yuxudan durur. Bir dəfə, iki dəfə, üş dəfə. Bu kənddə ağsakqallara danışır ki, mən gejə yata bilmirəm, məni boğullar, öldürüllər, mənə deyillər götdüyünü yerinə qoy. Bunnan soruşurlar ki, sən nə götmüsən? Bu and içir, qan qusur ki, heş nə

götməmişəm. Sonradan sonraya xatırlayır ki, ojağın həyətində sal daş varıydı, onu gətirif divara qoymuşam. Ağsakqallar buna deyir ki, sən dəli olassan. Get onu sök, apar, yerinə qoy. Bu təzdənnən usta çağırır, həmin daşı sökür, aparıf qoyullar yerinə. Gəlib deyir ki, Allah sizə kömək olsun, indi rahat yatıram. Bu bir növ möcüzə kimidi. Bəzi adamların yanında danışanda deyirlər ki, ağlınıza gələni danışırsız, amma bu həqiqi olmuş şeydi. Ora gedəndə, əgər orda nəzir eliyiblər, qurban kəsib orda yeyəcəklərsə, yeyib-içənnən sora da duzuna kimi, çorəyinə kimi hamısın yığışdırıf gedirdilər. Burda adətdi, ocağa nəsə bağlamaq. O bizdə qəbul olmuyuf (S.35).

**62.**

Şıx Həsən ocağının ətrafı dağ döşü idi, ətrafı hamısı əriklik, almalıx, üzümlük idi. Orda olan meyvəni bir ocaxlı yığırdı. Ocaxlı nəsli gedif ürəkli onnan götürüf yeyə bilirdi. Orda elə bir mundar iş oluf ki, qurban olduğum elə həmən gün onun cəzasını verif. Niko adlı bir erməni Andranikin qoşunun-nan gəlif kənddə məskunlaşıf. Kalxozdu, bunlar işdiyirlər. Kalxoz ərik, alma, üzüm emal eliyir, meyvəlikdir da bizim kənd. Gəlif o ocağa çatanda deyiflər ora yaxın durmuyun, ora ziya-rətgahdı. Niko deyif, ara, mən bilmirəm ey, mən çıxıb qozu çırpacam, siz də yığın. Yığmasanız, sizə gün yazılmıyacax. Çıxıb, hər yeri döyüb tökür, bir adam ordan qoz götürmür. Axırıncı bir putax qalır, o da gəlir ziyarətgahın düz üsdünə düşür. Bu əlində ağac çırpa-çırpa gəlir, burda durur. Deyir, alə, orda qaldı ey bir putax. O putağa çıxanda putax nətər qırılırsa, yerə düşəndə rəhmətdiyin üsdünə düşmür ha, Allaha qurban olum, kənarda bir daşın üsdünə düşür, elə orda da canın tapşırır.

Ziyarətgahın qabağında iki daşın arasında yol var idi, hara getsən genə gəlib ordan keşməli idin. Daşları öpə-öpə keçirdilər içəri, içəridə namaz da qıla bilirdilər, çıxanda gəlib o iki daşın arasından çıxırdılar. Ziyarətin varsa, o daş səni buraxırdı, ziyarətin yoxsa, ordan keçə bilmirdin, sənə yol vermirdi (S.18).

**63.**

Deyillər, o vaxdı Teymurləng gələndə o ocaxda bir kişi var imiş, Teymurləngin qoşununa yemək verif. Teymurləng gedirmiş Gürcüstana müharibəyə. Deyif ki, mən müharibəyə gedirəm, de görüm, mən qalib gələjəm? Deyib, hə, qalib gələjəksən. Orda bir dənə kürk var, bir də bir uşax var. Gələndə onları maa gətir. Deyif, yaxşı. Uşağı da, kürkü də gətirif. Amma kürk kirli imiş. Onu yuyuf ki, belə aparmax ayıfdı. Gətirəndə deyif ki, kürkü yumusunuz, bu lazım döyül, amma bu uşax qalsın. Ocaxlı nəsli, deyilənə görə, o uşaxdandı. Kürk Gürcüstandakı ocağın kürkü imiş, uşağı qəbul eliyif, amma kürkü yox. Mən tanıdığım olufdu Ocaxqulu, ondan olufdu Şahqulu, ondan oluf Məşəmirzə, Məşəmirzədən də oluf mənim babam Abbasəli, ondan oluf mənim dədəm Həsən. Ocaxqulu tayfası qəbir qazmırdı. Böyük bir sərdabə var, kim rəhmətə getsə, köhnə sümükləri bir böyrə yığırmışlar, təzə ölünü qoyullarmış onun yanına, qapını da örtüb gəlirmişlər. Ancaq ocaxquluları orda dəfn edirdilər, ayrı adamları olmaz. Qızıl ocax da ora deyirdilər. Ocağın içində həmin sərdabə idi.

Şıx Həsən ocağının yanında ərik ağaşları, qoz ağaşları var idi. Müharibə vaxdı mənim qardaşım gedif ordan odun yığıf gətirirdi, heş bir ziyan görmürdü. Amma ayrı adam ora girif bir şey götürə bilməzdi, ziyanın çəkirdi (S.42).

## 64-69. MİRİSMAYIL AĞA

Bizim soykökümüz başdıyır Tovuz rayonu Ağdam kəndindəki Mirəli ağadan. Onun oğlu Hajı Mirsadıx ağa Toğluca kəndinə köç edif. Ondan oluf Məşədi Mirismayıl ağa. Hajı Mirsadıx ağanın qardaşı, bacısı uşaxları bu gün də Ağdam kəndində yaşıyır. Mirismayıl ağadan sonra mənim atam Mirqələm ağa anadan olub. Bizim camaat bu ziyarəti gürz ziyarətgahı adlandırır. Mirsadıx ağadan, Mirismayıl ağadan qalan əşyadır. İnan səmimiyyətimə, mən də bilmirəm o gürz nədir, illərlə qapalı şəkildə qoruna-qoruna gəlir. Onun möcüzəsi elə onun sirrindədi. Camaatımız and içəndə deyir, gürz haqqı. Daha demirlər ki, Məşədi ağanın ojağı haqqı. Deyirlər ki, gürz haqqı.

Məşədi Mirismayıl ağa tas qururdu, tilsim yaradırdı, cin toxunan adamları sağaldırdı. Deməli, anam bunların hamısını gözünnən görüb. Cin toxunan adamlarda ekstra güc yaranır, onları idarə eləmək çətin olur. Heləsi o kişinin qabağına gətiriləndə tamamilə süsdəşirmiş. Onu tutan adamlara deyirdi ki, buraxın onu. Azad, rahat gəlirmiş. Yarım saatın içində o adamı sağaldırdı, iki-üç gün də öz evində işdədirdi. Onun tas qurduğu kasa, dua oxuduğu kitablar indi də durur. Tas alminum cəmdir, onun içində yazılar var. Tasa suyu tökürmüş. Toxunan adamın, toxunanların o suyun içində səhnəsini yaradırmış. Ona toxunan cinnərin onun bədənindən uzaqlaşması üçün and işdirirmiş. Orda proses belədir: ya sən onları məhv eliyirsən, ya da onlar tövbə eliyirlər, həmin insanı rahat buraxırlar. Cinlərin and içməyini dəqiqləşdirmək üçün, yəni həqiqətən and içdi, bu insanı tərk elədiyinə şahid olması üçün əmim qızınnan bacıma deyirdi ki, gəlin baxın bu suyun içinə, görün o həqiqətən də, and içirmi, əlini Qurana basırmı. O da baxırdı, deyirdi hə, baba, basdı, ya

basmadı. Anam deyirdi onu ancaq bakirə qızdar görə bilərdi. Anam deyirdi ki, duz-çörəyi qoyurdu suyun qırağına, bir də baxırdı ki, duz darmadağın oldu. Yəni and içirdisə cinnər, o duz dağılırdı. Tabe olmurdusa, onları qamışın içinə doldurub yandırırmış (S.44).

**65.**

Anam deyirdi ki, baban oturanda on gündən bir, üç aydan bir baxardın ilanlar gəlir, iki dənə ilan. Hələ deyiflər, buranı qazax, bu bizə xəta yetirər. Kişi sağlığında qoymuyuf. Onun ev damı deyilən bir otağı var, taxdı da orda idi. Deyir, ilanlar kişini ziyarət eliyirdi, papağını ziyarət eliyirdi. Süd verirdi onlara. Anam gözüynən görüb ha. Deyir, mən qorxurdum, hamımız qaçırdı ki, bizə xətər yetirər. Deyirdi, a bala, narahat olmuyun.

Nənəm danışırdı ki, kənddə sıxışdırıllar bunları, köç yığılır haravıya, getmək isdiyirlər. Qaradaş tərəfdən keçəndə, deyir, bir dənə gürzə ilanı haravanın təkərinə dolanır. Hajı Mirsadığ ağa deyir ki, o ilan harda duracaxsa, mən orda kök salacam. O gəlif Toğlucada bizim evimiz olan yerdə dayanmışdı. Toğlucaya çatanda gözdüyüflər, ilan sürüşüf təkərdən düşüf, gedif harda dayanmışsa, orda ev tikmişdi. Babam deyirdi ki, bizim təndir olan yer imenni ilan duran yerdi. Təndirimizi də ilan duran yerdə qazdırmışdı (S.44).

**66.**

Qaçaqaç vaxdı idi. 88-ci ildə, deməli, gürzün saxlandığı sandıx qoyulur maşının arxasına, gəldik Tovuza əmimgilə. Şəmkirdə pajarnının binasında müvəqqəti yaşamax üçün iki otaxlı ev vermişdilər. Yataqxana kimi yer idi, dədəm buranı bəyənmədi. Gəldik Tovuza əmimgilə. Əmimgilin həyətində bir neçə gün maşının dalında bu gürz gəzdi. Qardaşım da Qaz-53 şoferi idi,

evin veşini yığmışdı maşına, onu gətirdi eləcənə əmimgilin qapısında navesin altında saxladı. Dedi, ayə, bu gürz hardadı? Babam dedi ki, məndədi, maşının dalındadı, qoyacayıx o veşin içinə. Təsəvvür elə ki, o sandığı qoymuşdular Qaz-53-ün arxasına. Necə olmuşdusa, mən də analmıram, gürz yoxa çıxmışdı. Hamı panikaya düşmüşdü.

Bir neçə gündən sonra dədəm getdi kəndə. O gürz kəndə nətər getmişdi, necə olmuşdu onu bilmirəm. Sən təsəvvür elə ki, bu ojax, bəlkə, səkkiz ay, doqquz ay maşında qaldı. Gürz sandıxdan yox olmuşdu, gedif onu kənddən gətirmişdilər. Panika yadımdadı. Bir gün axşama kimi o panika sürdü. Axırı qərara gəldilər ki, gedif kəndə baxsınlar. Özü də pis vaxd idi, az-az adamlar gedib-gələ bilirdi. Gedif kəndə ev damında gürzü harda saxlıyırdısa, ordan da tapmışdı. Biz Bakıda erməniynən evimizi dəyişdik. Onu maşından düşürtmədilər, ta ki evimizin qabağından ayrıca otax tikdirdik, ondan sonra onu otağa yerrəşdirdilər.

Gürz əvvəl Al dədənin olub. Ona deyiblər möcüzəni göstər, gürz onun əlində ilana dönüşüb. Al Dədədən Mirsadığ ağaya keçib, ondan da mənim babam Mirismayıl ağaya keçib (S.44).

## 67.

Kəbəyə gedəndə Mirsadıx ağa əlində ələm dəsdənin önündə gedib. Onun gəzdirdiyi ələmin dirəyi indi də durur. Mirsadıx ağa Kəbəyə ziyarətə gedəndə orda dünyasını dəyişib, elə orda da dəfn olunub. Mirismayıl ağanın papağı, pencəyi, köynəyi, eynəyi qalıb, tas qurduğu cəm qalıb. Bir nəfər gəldi, yaxın adam idi. Dedi, mənim ruzum yoxdu, batıram. Dedim, gəl Məşədi Mirismayıl ağanın kaşlyokunu verim, – parçadan əldə tikilmə idi, – bir müddət üsdündə gəzdir. Allahın işidi, bəlkə, sənə ruzu verər. Onu itirdi, ondan sonra onun əşyalarını kimsəyə vermirəm (S.44).

**68.**

Atam toya çağrılanda ayrıca stolda otururdu, ora içgi qoyulmurdu, içgi içməyənlər də gəlib onun stolunda oturardı. İki mininci ildə əsgər idim, bir komandirim vardı. Evə gəlmişdim, hərbi hissəyə qayıdanda dedim, ona araq alıb aparım. Özüm də zabitəm, institutda hərbi kafedra var idi, zabit kimi xidmət etmişəm. Hər evdən gedəndə gözü əlimdə idi. Dedim, bir araq alıb aparım. Pasılkanı düzəltmişəm, sabah aparajaxdım. Dedilər, bunun evə niyə gətirmisən? Dedim, evə salmıyajam, eşikdə durajax. Həyət evində qoymuşam kuxnaya. Gecənin bir yarısı kuxna yanmadımı? Aləm dəydi bir-birinə. Hay-haray düşdü, birtəri söndürdülər, xeylax da zərər dəydi (S.44).

**69.**

Kənddə olmuş hadisədir, dədəmin yaşıtdarı bilir. Kalxoz sədri Bəkir idi. İnstitutu qutarıb, təyinatnan bizə mexanik gəlib, ondan sonra iki il də kalxoz sədri işdədi. 71-ci ildə güclü quraxlıx olur. Örüşün, otun nə sezonu imiş bilmirəm, yağış lazım imiş, amma yağış da yağmır. Axırı kalxoz sədri dədəmi çağırıb deyir ki, ay Mirqələm, ayağını suya sal, bəlkə, Allah rəhm eliyər. Bu ayağını suya salmır. Bunu zornan götürüb aparıllar, çayın içində oturdurlar. Bunu çox adam görüb ha. Ayə qardaş, bir yağmaq yağır, bir yağmaq yağır. İki gün yağış yağır.

Bir gün də buna deyiblər ki, get Mirqələmə de, qoy suya daş atsın. Gəlib deyir, sən seyidsən, suya daş at, qoy yağış yağsın. Bu da belə baxıb deyib, bəlkə, seyitdiyimə şübhən var? Bunu deyib yerdən daşı götürüb suya atır, ondan sonra yağış yağdı. Kəsmək üçün də kalxoz sədri Bəkir côngə gətirib qurban kəsmişdi ki, yağış kəssin (S.44).

## 70-71. HACI ƏMİRXAN

Dərələyəzdə bir kümbəz var idi, Hajı Əmirxanın kümbəzi idi. Hajı Əmirxanın atasıynan oğlunu o kümbəzdə basdırmışlar. Erməni gəlif o qəbirstannığın böyründə ev tikmişdi, gedif bir dənə daşını gətirif çənədə[22] qoymuşdu. And olsun Allaha, neçə dəfə bünövrəni qoydu, uşdu. Gedif Yerevanda keşişə baxdırıf. Keşiş deyif ki, bir seyidin ojağından daş aparmısan. O daşı apar, hardan götürmüsən qoy yerinə, höör, sənin bünövrən o zaman başa gələcək. Yoxsa, isdiyir yüz il qala, sənin bünövrən başa gələn deyil. Həmən Hajı Əmirxanın qəbrini qoydux gəldik. Göynən gedən durnalar Hajı Əmirxana səjdəyə gəlirdi. Onnar kimi seyid yox idi. Maral, ceyran, ilan onnarın ojağına ziyarətə gəlirdi.

Köçdük gəldik bura[23]. Mənim bajım da Hajı Əmirxanın oğluna ərə gedib. Bura gələndə Hajı Əmirxanın nəvəsi, Gülarəyə deyir ki, bu gejə gördüm, Hajı Əmirxan babam gəlib maa deyir ki, mənim qəvrimi ermənінin içindən çıxart apar. Aparmasan, binövrən olmuyajex. Bunu Hajı Əmirxanın oğluna deyir. Biz də bunları Səhləbada sünnətə çağırmışıx. Gələndə maşın avariya eliyir, həmən o Yusif[24] ölür. Qujağında bir uşax, boynunda da bir uşax bajım qalır. Bunlar da həddi-buluğa çatır, ölən ölür, qalan qalır. Nəysə, Hajı Əmirxan bu dəfə bajım Gülarənin yuxusuna girir. Deyir ki, bax, sözümə baxmadınız. Daşı ətəyinizdən tökün, gəlin, heç olmasa, külünü aparın. Aparmasanız, xeyir apamıyejehsiz. Gedif gətirən olmadı, bajım kimə dedi, heş kim yaxın durmadı. Örkən kola doladılar. Elə kökləri kəsildi ki, biri də qalmadı (S.13).

---

[22] Evin küncü

[23] Tərtər rayonuna

[24] Hacı Əmirxanın oğlu

## 71.

Rəhmətdih atam danışırdı, durna göynən gedəndə başın qaldırıb baxırdı. Deyir, gözümnən gördüm dəstədən bir durna aralandı, gəldi, düşdü Hajı Əmirxanın yanına. Deyir, əlin belə çəkdi durnanın üsdünə, dedi ki, arıxsan. Ruxsatını verirəm, get dəstənə qoşul. Deyir, odu getdi, dəsdəsinə qoşuldu. Heylə seyid oluf Hajı Əmirxan. Hajı Əmirxanın atası ağır seyid oluf. Quşdar da ona ziyarata gəlirdi. Kəlbəcərdə Bəzirxanda olurdular (S.13).

## 72. SEYİD ƏSƏDULLAH

Seyid Əsədullahın məzarı Kəlbəcərnən bizim arada – Söyüdlü dərəsindədi, Qızıl mədəninin yanında. Orda qurban kəsmişəm. İnanın Allaha, möcüzə var, olub, olajaxdı. Jiquli ora gedəsi döyüldü, o maşınnan getdik ordan quş kimi, maşının baqajındadı heyvan. Düşdük, elə bil ki, yolun bu tərəfindədi rəhmətdiyin məzarı. Bu qız dedi ki, deyirlər burda heyvanı tutmax lazım döyül, tutmuyun heyvanı. Maşının baqajınnan götdük, qoydux yerə. Allahın adı haqqı, o heyvan qızın dalınca üç dəfə əl dəymədən məzarın başına fırlandı, qız məzarın ayağında durdu, gəldi o da durdu. Bax, o qurbanı orda kəsdik. Seyid Əsədullah ziyarətiydi. Heyvanı kəsdik, qazan asdıq orda, onun yarısını bişirdik, yarısın da maşına qoyub çıxıb gəldik (S.46).

## 73. ZÜLFÜQAR AĞA

Zülfüqar ağa kəndimizin seyidi idi. Göyçədən Tərtərə ölü yerinə yığışır bizim camaat. Onda belə lekqovoy harda idi. Samanı tökürdülər ZİS-lərin üsdünə, hərə də bir palaza bürünürdü özünü isdi saxlamaq üçün. Dilicandan bəri keçəndə sel

gəlib, yol bağlanıb. Gəlir ki, İrəvana gedən maşınnar da duruf, ordan gələn də duruf. Bu Kərəm, Allah rəhmət eləsin, çox lotu kişi idi. İçgi içən idi. Sağa-sola baxır, qayıdır deyir ki, ay seyid, babanın cəddini çağır, maşını vurajam selə. Seyid ağlıyır, deyir, sən allah, yavaş. Deyir, yox ey, cəddin haqqı, getdim. Maşını vurur selin içinə, elə bil asfalt yolnan maşın sürür, keçir o tərəfə. Erməni o tərəfdən deyir, ərə, sənə seyid var, mənə yoxdu? Maşını sürür, sel maşını aparır. Uşağı olmuyan ermənilər də o ojaxlara gəlirdi, nəzir-niyaz verirdilər (S.46).

## 74. SEYİD ƏLƏSGƏR OCAĞI

Babam danışırdı ki, bizim ocağa maral gələrdi. 41-45-də müharibəyə gedir. Deyir Krımdayıq, nemes o tərəfdən gəlir. Mataskiletdərin üstündə pulamyot, stanoklar, aradabir tanklar, piyadalar da bunların arasıynan. Biz də iki yüz nəfərik. Nemesinki avtomat, bizdə də beşaçılan tüfəng, hərəmizdə də beş-on patron. Gəldilər, kamanda verən olmadı ki, atın. Biz də kirimişcə durmuşuq. Gəldilər bizi mühasirəyə aldılar, indi ərazini gəzirlər. Kolluğa tərəf getdilər, bir rus mayoru, sən demə, yaralanıbmış. Bunu ayağa qaldıranda pıçağı nemes afiserinin boğazına sapladı, o biri saldatdar bunun təpəsinə gülləni çaxdılar. Bizi arapdılar, doldurdular baraka. Dedilər, kim nemes dilini bilir? Bir özbək var idi, adı Osman idi, bularnan nemes dilində danışanda bunu apardılar. Səhər gördüm başında nemes papağı gəlir. Mənə dedi, dayı, qorxma. Babamın da Osmanla nətər münasibəti yaranıb? Deyir, iki dənə pıçax tapmışdım. Bizi baraka yığanda rusun biri gəldi əlində katlyok, dedi ki, borş var, kim isdiyir? Dedim, nə verim? Dedi, nəyin var? Dedim, pıçağım var. Dedi, pıçağı ver. Aldı, katlyokuma borşu tökdü. Birin də

gətirəndə o biri pıçağı da verdim, özbək balasın da qabını doldurdum. Burdan, deyir, onunla münasibətim yarandı. Osman, deyir, maa çox kömək elədi, o olmasaydı ölmüşdüm. Sonra Tallinə bunları aparıb çıxarıflar. Allahdan, deyir, sidq-ürəknən ölüm isdiyirəm. Titriyif qırılıq. Hər gün soyuxdan 25-30 nəfər ölür, meyidlərin arabalara yığıf aparıllar. Bir gün, deyir, ölürəm, dişim dişimə dəyir, ayağımda taxta başmax. Bir nemes maa dedi ki, kakoy natsi? Hardan ağlıma gəldi, dedim türkəm. Maa dedi, gəl. Dedim, nə qələt elədim, indi məni aparıllar güllələməyə. Məni apardılar böyük bir yeməkxanaya, nemesin cəbhəyə gedən saldatdarı gəlib orda yolüsdü yemək yeyib gedirdilər. Orda ölürdüm soyuxdan, amma bura isdi yer, yemək də bol idi. Bir müddət burda qaldım. Deyir, bir gün Sovet samalyotları hərbi əsir düşərgəsini bombaladı. Bombalanan gejə mən evimizə gələn maralı yuxuda gördüm. Böyrümdəki yoldaşıma dedim ki, mən ölmüyəjəm, mən evə gedəjəm. Düşərgəni bombaladılar, şinelimin parası cırılıb getdi, amma özümə heş nə olmadı (S.15).

## 75. XUDO OCAĞI[25]

Ağdamın Əlimərdan kəndi olub, babalarımız ordan gəliblər. Məmmədxan, Məmmədxandan olub Novruz, Novruzdan oluf Şahverdi, Binnətalı, Həsən. Kök burdan gəlibdi. Əlimərdan 15 ev idi, sonra onu Yellicəyə birrəşdirdilər.

Bizdə iki kişi olur. Deyirlər, gedək Göyçəyə Hajı Nağıya nökər işdiyək. Bunlar gedirlər Hajı Nağıya üç-dörd il nökər işdiyillər, bunlara yeməyə görə hər şey verillər. Bir gün bunun

[25] Əlimərdan kəndində yerləşir.

biri deyir, gəl çıxax gedək. Deyir, ə, niyə gedək? Gəlif deyir, Hajı Nağı, biz getmək istiyirik. Deyir, bala, niyə? Nə pisdih eləmişəm ki? Yeməyin, içməyin, hamamın, geyməyin – hər şey, hər il də sizə bu qədər heyvan verirəm. Mən sizə neynəmişəm? Deyir, yox, gedirik. Birinə deyir ki, Xudo, saa nə verim? Deyir, Hajı Nağı, maa çörək ver. Bu Allaha yalvarır, əlini çəkir Xudonun başına. Deyir, get, çörək başından tökülsün. O birsinə də deyir, bəs saa nə verim? Hajı Nağının da bir qızı var imiş. Deyir, Hajı Nağı, qızı da maa ver. Deyir, Allah sənə nəhlət eləsin. Sən hara, mən hara? Sən məni gör hara dirədin? Mənə Allaha and verdiribsən, qızı da verdim sana. Get, ac öləsən. Həqiqətən də, ac öldü o, mən onu gördüm. Amma o Xudo ki var, and olsun Allaha, onun qapısına maral gəlirdi. Yatırdılar, gövşüyürdülər, ağızlarından köpük tökülürdü (S.23).

## 76-78. MİR QAFAR AĞA

Firdovsi Belarusiyada əsgərrikdə idi. Eşitdim ki, Firdovsi xəsdələnib, Minski şəhərində xəstəxanadadı. Bacıoğluynan getdik Bakıdan təyyarəyə mindik, – Qafqaz dağlarının üsdündən keçəndə təyyarə nətər aşağı yendisə, kaşlyokumun civində də bir paçka beşlik var idi, – dedim, ya Mir Qəfər babanın cəddi. Əlimi atıb pulu çəkəndə bircə dənə beşdik gəldi. Bunu bükdüm qoydum pencəyimin civinə. Samalyot düzəldi. Nə hangama idisə, Xarkovda düşdük, gecəni qaldıq. Xarkovda bizə dedilər ki, kastinsiyada hamının yerrəri var. Gecəni yatdıq, səhər durduq getdik. Minskidə bunun adresini örgəndik, gəldik buna baş çəkdik. Bir həftə orda qaldıq. Maşınnan Rastova gəldik, Rastovda da Tiflis-Bakı vaqonuna oturduq, üç bizik, dörd nəfər də ayrı adam, başqa adam yoxdu. Andropovun vaxdlarıdı, heş kəs heç hara addım

ata bilmir. Gəldik Gorana, qarrı havadı. Bir maşın danışdıq, dedik bizi apar kəndə. Alator havadır, hava tam işıqlaşmayıb. Maşından düşdük, mən darvazadan içəri girən kimi telefon zəng çaldı. Götürdüm. Mir Qəfər baba dedi ki, qardaş, gəldin? Dedim, baba, gəldim. Bax o göydəki Allah haqqı. Dedim, baba, gəlirəm sizə. Heş paltarımı da dəyişmədim, çıxdım yola. Dedi, mən də yavaş-yavaş gəlirəm siz tərəfə. Camaat yatışıb ey hələ. Düz idarənin qabağında rasdaşdıx. Sağlıx olsun, qucaxladı məni, o da öpdü, mən də öpdüm. İstədim əlindən öpəm, qoymadı. Çıxartdım beşdiyi də verdim, əlavə pul verəndə dedi ki, bu bəsdi. Qafqaz dağlarının üsdündə samalyotda demişəm ey, ya Mir Qəfər baba. Bu ondan necə xəbər tutdu, o möcüzədi. Var ey belə şeylər, dədə (S.10).

**77.**

Papam deyir, Kərim müəllim var, PMK-nın müdiri olub. O vaxdı da belə telefonnar yox idi. Ev telefonuna zəng gəldi səhər-səhər. Dəstəyi qaldırdım ki, Kərim müəllimdi. Xoş beş, on beş. Dedi ki, evdə ol, gəlib səni götürəcəm, gedək babagilə. Bizim ev də onlara yaxın idi. Yolda mənə dedi ki, bəs gejə yuxuda gördüm ki, bir yekə ilan düşüb dalıma, mən qaçıram, ilan qovur. Mən qaçıram, ilan qovur. Daha nəfəsim kəsilif, qaça bilmirəm, ilan da çatır maa. Bir də onda gördüm ki, Mir Qəfər baba oturub bir təpənin üsdündə, məni çağırır ki, ay Kərim, ay Kərim, gəl bəri. Gəldim, buna çatdım. Qışqırıram ki, ay baba, qoyma, məni ilan öldürür. Qoyun dərisindən seyid papaqları olur ey, ondan bir dənə papağı var idi. Papağın qaldırdı, dedi, ay Allahın heyvanı, gəl, dur burda. İlan, deyir, qıvrıldı yanında yatdı, papağı qoydu bunun üsdünə. Deyir, bu halda ayıldım. Baxdım ki, tərin, suyun içindəyəm, ölürəm. Bunu yolda mana danışdı. Getdik Mir Qəfər babanın qapısına. Dedi, ay Kərim, niyə görsənmirsən? Bilirəm,

niyə gəlmisən. Axşam səni ilanı qovurdu, qoymadım səni sancmağa. Deyir, oturdux, Kərim müəllimın yolda danışdığın bu kişi bizə danışdı. Kərim müəllim ağzını hələ açmıyıb ki, mən nəyə görə gəlmişəm. O kişiyə ayan idi (S.10).

**78.**

Şahmar babam o vaxd Haramıya qoyun aparırmış. Bular vədələşiblər ki, saat neçədə çıxıb gedəsiyik. Babam da səhər Mir Qəfər babanı götürəsidi. Amma yatıb yuxuya qalır, ayılıb ki, artıq hava işıqlaşıb. Tez-tələsik əl-üzünü yuyur, daha çörək yemir, gəlir Mir Qəfər babanı çağırır. Mir Qəfər babadan üzrxahlıq eliyir. Deyir, narahat olma, olan işdi. Deyəsən, beş maşın idi, biri babam, dördü də əlavə. O biri maşınlar səhər tezdən çıxıb gedib, bular geri qalıblar. Deyir, bəlkə də, arada bir saatdan çox interval var. Deyir, mən kənddən çıxanda fikirrəşdim ki, bunlar Beyləqana çatmış olarlar. Yolda gedəndə dedim, baba, yaman gejikdik. Dedi, narahat olma, gedib kom çatajeyik. Babam and içirdi ki, getdik ki, dörd maşının dördü də Beyləqanın girişində dayanıb, heç biri də xodanmır. Gəlib buların yanında saxladıq. Dedilər ki, baba, maşınnarımız işdəmir. Qaz-53də ayağaltı olmur? Mir Qəfər baba onun üsdünə çıxdı, dedi, ə, sürün gəlin, narahat olmuyun. Açarı vuran kimi maşınnar xoda düşdü (S.10).

## 79. SEYİD BƏHRAM

Bəhram babanın iki oğlu Urisiyetdə gavırın içində olub. Bulara deyif ki, gavırın içindən çıxın gəlin, orda çörək tapa bilməzsiniz, ordan sağ baş gətirə bilmiyəjəhsiz. Heylə də oldu. Nəvələrinin ikisi də öldü, oğlu öldü. O kişi heylə kişi idi. Ağzından çıxan söz yerinə yetirmiş. Çıxırmış çölə, deyirmiş bu gədiyin

arxasından Yerəvandan filan qohumumuz gəlir. Qara-çovğuna düşüf, çox çətinnih çəkir. Deməli, nə telefon var, nə yanınnan gələn adam var. Bir sutkadan sonra həmən adam gəlif çatırmış, deyirmiş ki, az qalmışdı öləm o qar uçurumlarında. Bax, bunnarın ojağında heylə şey var imiş. Ermənistandan gələn bizim camaat onun yanına gedəndə dizin yerə qoyuf onun ayağından öpərmişdər.

Mən məktəbə girəndə də, qurban deyiləndə də onun qapısına getmişəm. Burda Marquşavan var, erməni kəndi idi. Marquşavandan üzüm gətirif əkmişdilər onun qapısına. Bu kişiyə deməmişlər ki, desək, qoymujax əkməyə. Amma ona ayan olmuşdu. Deyif ki, o üzüm maa yaman pis təsir eliyir, onu mənim qapımdan çıxardın. Onu hardan gətirmisiz? Onda açıf deyiflər ki, ermənilər yaxşı üzüm əkif, ordan gətirmişik. O kişiyə agah olur ki, o üzüm ermənidən gəlif (S.11).

## 80.

O ölən axşamı camaat yığışıb, oturub söhbət eliyir. Rəhmətdik yeznəm var idi, həm də kişinin əmisi qızının oğlu idi. Ona dedi ki, sən səhər bazara inəh çıxardajaxsan, dur get. Hamı durdu bir-bir, mən duranda dedi, otur. Oturdum. Dedi, səhər tezdən Molla Ağacanı gətirərsən bura, saat altıda mən gedirəm. Dedim, qoja kişidi də, sayıxlıyır. Bajımgil baxırdı ona. Altıda qapını döydülər ki, kişi deyir mollanı çağırsın. Getdim ki, gözüaçıq uzanıb. Yerin özü saldırıf, duruf bir istəkan sərin su içif. Deyif ki, Nərimana deyin mollanı çağırsın. Getdim, bax belə başın qujağıma götürdüm, molla Quran oxudu, ordaca keçindi.

Bir gün qapıda oturubbuş. Kənddə də bir nəfər var, özü də bu bədbaxt adam bizi tanıyandı. Atnan gəlib kişinin qabağınnan keçəndə deyif, baba, sənin elə halvanı yeyərdim! Demək, atnan beton kanala qədər gedir, elə orda atdan yıxılıb ölmüşdü, meyidin gətirmişdilər (S.24).

## 81. SEYİD ABBAS

Seydimli kəndinin adı çox adam deyir seyid sözündən götürülüb. Kəndin seyidi çox olub. Babam Tofiq, Tofiqin dədəsi Salman, Salmanın dədəsi Abbas seyid olubdu, ona Qara Seyid deyiflər. Kəndin üst tərəfində yaşıyıbdı. O vaxdı qoja nənəm danışırdı ki, Abbas kişi dağdaymış. İmkannı, malı-heyvanı çox olan şəxs olub, bunun bir yaxşı dişi atı olub, amma bu at bala vermir. Bir gün Qara Seyidlə söhbətdə deyir ki, ay seyid, at bala versin, birinci balasın verəjəm saa. Bu da deyir, inşallah, olar. Bir müddət keçir, at bala verir. Yavaş-yavaş daylaq yekəlir. Bu imkanlı adam görür ki, at nədirsə, daylaq beş ondan da güjdüdü. Bir az keçir, artıq minilən vaxdıdır. Bu tamahsılanır ki, bu atı verməsin. Bir gün seyidi çağırır evlərinə. Gətirir inəklərin içinə. Deyir, istədiyin beş inəyi seç, amma səndən bir xayişim var ki, daylaq qalsın mənə. Bu da deyir ki, halal-xoşun olsun, nə inəyi isdiyirəm, nə daylağı. Öz dilindən çıxıb, indi vermirsən, vermə da. Bunnan görüşür, çıxıb gəlir. Aradan iki-üç gün keçir. Oğlu həmin daylağı minib mal gətirməyə getmişdi. Deyir, birdən qara bulud gəldi, bir leysan, bir yağış yağdı, ildırım həmin uşağı atın belində vurdu, at da öldü, uşax da. Təzdəndən gəlib kişinin əlinə, ayağına döşənib. Deyib ki, mən halallığın vermişəm, məndən asılı olmuyan şeydi. Uşağı da, atı da dağda ildırım vurub (S.37).

## 82-83. CUAR RƏHİM

Rəhim kişi yetimlihnən böyüyüb, qoldan qüvvətdi oluf. Hətta Şəkidən pəhlivannar gəlirmiş bu kəndə onnan güləşməyə. Elə yetənin qolunu burub arxasını vururmuş yerə. Həmin Rəhim bu kəndin suvarılmasını təmin etməkdən ötrü camaatı töküb

Xanabad dağının yanında Alazan çayından arx qazdırır. Arx qazılandan sonra suyu buraxmamış kəl arabasını arxın içinə salıf Xanabaddan bu kəndə kimi sürə-sürə gəlir. Araba harda dirənsə, oranı bir də qazdırırmış. Elə bir insan olub, qoldan qüvvətdi.

Bunun dörd oğlu olur. Vaxt gəlib çatır, bu dünyasını dəyişir. Bax, durduğumuz bu ərazi şəxsən mənim evimin yanıdır. Həmin bu zonanın bu hissəsi – sol tərəfi olub qəbirsənnih. Evladları gətirib bu qəbirsənniyə dəfn eləmək istəyəndə bir az narazılıx olub, qəbirsənniyin lap kənarında boşduxda Rəhim kişini dəfn eliyiflər. Keşmişdə kvadrat kərpişdər oluf. Həmin kərpişnən də üsdünü götürüflər, bir dənə də böyük lay çay daşını ona başdaşı qoyuflar. Dəfndən sonra çıxıf gediflər. Səhər gəliflər ki, həmin daş uçuf, kərpişlər də dağılıf. Götürüf bunu təzdən bir də təmir eliyiflər ki, yəqin üzdən irağ ermənilər bunu eliyif. Bərpa eliyif gediflər, sabahısı gün gəliflər genə dağılıf. Üçüncü gün qəbri bərpa ediflər, hərəsi bir xəndəyə düşüf, gözdüyüf ki, görək bizim atamıza gəlif ilişən kimdi? Bəlkə, cavannıxda nəsə oluf, kimsə bunnan hayıf almax isdiyir, bəlkə, ermənilər narazılığını belə bildirir. Gecənin bir vaxdı, el arasında deyilən kimi, ay dana qalanda görüflər ki, qəbr öz-özünə dağıldı. Həqiqətdi ha bu, bunu uşaxlıxdan yanımda danışıblar, mən eşitmişəm. Görüflər ki, qəbir özbaşına dağıldı, qəbirdən bir yalo çıxdı, – bax bu istiqamətdə məscid var, 300 il də tarixi var, bir bəy öz evini məscidə verif, – üzü məscid tərəfə həmin yalo getdi. Bular gözdüyüflər, səhərə doğru görüllər, həmin yalo gəldi, qəbirə girib qeyb oldu. Ondan sonra gedif məsləhətdəşiblər, deyiflər ki, o qəbrin üsdünü götürmək günahdı. Gözümü açandan bu nar burdadı; nə böyümür, nə qurumur, nə də buna su tökən var. Onu da deyim, hətta sovet hökumətinin vaxdında, onda 8-9 yaşlarında olardım, gözümün

şahidiyəm Kuban avtobuslarnan burdan köçən ermənilərdən əmələ gələn züryətlər Ermənistandan bura ziyarətə gəlirdilər. Burda veteran kişi vardı – Əbdüləli kişi, sifdə bura o baxırdı. Onu çağırırdılar, bir heyvan gətirirdilər, qoyunu burda kəsirdilər, imkansızlara paylıyırdılar, nəzir-niyaz da qoyuf gedirdilər.

Kəndin o hissəsinə dədə-babadan Cuərrəm deyiflər. Ora niyə Cuərrəm deyirlər onu da deyim. Cuar Rəhimin adıynan o yaşadığı oymağa Cuarrəm adı qoyuluf, yəni Cuar Rəhimin yaşadığı yer. Pəhlivan oluf, heç kim onnan qol-qola girə bilmiyif. Əsasən də, Şəki zonasının pəhlivannarı ilə güləşif[26].

**83.**

Ermənilər kəndin o başında Cuərrəmdə yaşıyıblar. Rəhim də cavan uşaq oluf, bazburtlu oğlan oluf, onu tutuf gətiriflər, öz uşaxları kimi böyüdüflər, həm də nökər kimi işdədiflər. Onu müsəlman qızıynan evləndiriflər ermənilər. O qədər qoçax oluf. O Rəhim evlənəndən sonra dörd dənə qoçax oğlannarı oluf. Nəysə, bu Rəhim rəhmətə gedif, onu gətirif orda basdırıflar. O daş da durur. Deyiləni deyirəm ha. Daşı üsdünə qoyuflar, səhərisi günü gəliflər ki, daş köndələn duruf. Yalan olmasın, dörd-beş dəfə helə eliyiflər, onnan sonra daşa dəymiyiflər, elə helə də qalıf. Arxı camaat əlnən çəkifdi. Arxın uzunu 19 kilometrdir Şirvan kanala kimi. Onda bizim kəndə su gəlmirdi. Xanabad kəndinin üst tərəfinə bənd qoyuflar, dağın döşüynən çəkif su gətiriflər. Dokquz kənd bu arxa baxır. Kəl arabasın salıf içinə, araba harda dayandı oranı təkrar bir də qazdırırdı. Erməni-müsəlman davasında onun uşaxları da köçüf Ermənistana gedif. Erməni saxladığı üçün ona Erməni Rəhim deyiflər (S.42).

---

[26] Bu mətn Havarlı kənd icra nümayəndəsindən yazıya alınıb.

## 84-85. SEYİD YUSİF AĞA[27]

Hardasa heyvana yara düşüfdü. Altmış-yetmiş heyvandı, hər gün yıxıram yerə dərmannıyıram, marqanisnən yuyuram, əmələ gəlmir. On gündür bu proses gedir, axırda bezdim. Dedim, qırılır qırılsın, daha gücüm çatmır. Acığ elədim, evə qalxdım, günorta vaxdıydı, yatdım. Yatanda rəhmətdih kişi[28] girdi yuxuma. Mənə dedi, bala, nə vaxdı yanıma gəlmirsən, məni ziyarət eləmirsən. Niyə gəlib məni ziyarət eləmirsən? Yuxudan durdum, dedim Şakirə deyin, gedirik ojağa. Yolda gedəndə buna danışdım ki, kişi girib yuxuma, deyir çoxdandı məni ziyarət eləmirsən. İndi olmasın, atamı çox isdiyirdi, nə vaxd gedirdik ora, atamnan azı bir saat söhbət eliyirdi. Oturdux, çay-zad qoydular. Atam getdi bunun yanına. Həmişə hamının çiyninə əlin qoyurdu, dua-zad oxuyurdu. Atam buna dedi, bəs gejə mənim yuxuma girmişdin. Mənə deyirsən, çoxdandı ziyarət eləmirsən. Kişi gülümsündü. Dedi, on gündü heyvana yara düşüfdü, daha bezmişdim, getdim evdə uzanıb yatdım, yuxuma sən girdin, duruf gəlmişik bura. Kişi güldü. Əlini qoydu bunun çiyninə, nə oxudu, nə dedi, əlini üç dəfə kürəyinə vurdu. Dedi, get, bir həftəyə kimi sənin heyvanın sağalajax. Deyir, o gündən bir dənə də dərman eləmədim, heç üç gün keçmədi heyvanlar sağaldı (S.1).

### 85.

Pulun təzə dəyişən vaxdıymış, Seyid Usuf ağa da təzə pulu tanımırmış. Yolda gələndə bir maşın saxlayır. Deyir, məni filan kəndə apara bilərsən? Deyir, hə. Deyir, neçəyə aparırsan? Deyir,

---

[27] Bərdə rayonunun Seyid Yusifli kəndində yerləşir.

[28] Seyid Yusif ağanı nəzərdə tutur.

məsələn, bir şirvana. Oturur maşına, gəlir kəndə çatır. Deyir, burda saxla, mən düşüm. Düşəndə kişi də pulu tanımır axı, çıxardır onnux verir, deyək ki, beş şirvan. Bu da görür, kişi pulu tanımır. Deyir, dayı, düz verdin, gedə bilərsən. Nəysə, kişi maşından düşüb gedib. Bu neyniyir, maşın xoddanmır. Yoldan kim keçir, nə bilim, maşın şoferi, taksi şoferi, baxıblar, bir şey yoxdu. Gediflər usda gətiriflər, bu da baxıf, toku var, benzini var, amma maşın xoddanmır. Camaat da yığışıf, kəndin ağzı imiş. Deyiflər, nətər oluf? Deyir, yolda gələndə bir kişi götürdük, bizi tamah basdı bir şirvanın əvəzinə beş şirvan aldıx. Kişi düşüb gedəndən maşın bu vəziyyətdədi. Deyirlər, nətər kişi idi? Bu təsvir eliyir, deyirlər Allah sənin öyünü tiksin, o seyiddir, özü də ağır seyiddir. Get qapısına, yalvar-yapış, gör bağışdıyırsa elə bilginən Allahın verib. Həmən maşının şoferi gedər seyidgilə. Seyid görər ki, həmin adam gəlir. Seyidin yanına çatanda dizin yerə qoyar, yalvarar ki, bir səhvdi eləmişik, maşın xoddanmır. Seyidi qoyarlar maşına, gətirəllər maşının yanına. Deyir, seyid gəlir maşının yanına, əlini üç dəfə kapotun üsdünə vurub deyir, ay Allah, sən bunnarın günahın bağışda, mən bağışdadım. Deyir, otur maşına, xodda. Maşına, deyir, açarı vuran kimi tapança kimi xoddandı (S.1).

## 86. ŞIX ŞƏMİL

Şıx Şəmil adında biri olub. Ermənistanda olub, biznən barabar köçüf gəliflər bura. Bu yolnan gedirmiş, bir nəfər də kəlağayını yuyuf ipin üsdünə sərib qurudurmuş. Bu görür ki, inək kəlağayını götdü yedi. Səhər iki qardaş bu kəlağayının üsdündə bir-birini qırıllar. O buna deyir mənim kəlağayımı sən oğurlamısan, bu and-aman eliyir ki, mənim xəbərim yoxdu.

Gəlif deyif ki, a kişi, qırmıyın bir-birinizi, mən bilirəm kəlağayı hardadı. Deyillər, a kişi, sən nə bilirsən hardadı? Deyif, inəyin qarnındadı. Deyiflər, ağlına gələni danışma, inəyin qarnında kəlağayı nə gəzir? Deyir, kəsin, əgər kəlağayı ordan çıxmasa, mən sizə bir inək alıf verəjəm. İnəyi kəsillər, kəlağayı inəyin qarnından çıxır. Elə adı ordan da qalır Şıx Şəmil (S.42).

## 87. KEYTİ VƏ MEHDİ

Keytiynən Mehdi iki qardaşdılar. Onlar Molla Bayramlıda olurdular. Bajımın yoldaşı şofer idi, Keytidə qızıl mədənində işdiyirdi. Bizi aparmışdı Keyti dağına yeyib içməyə. Keytidə ziyarət yoxuydu, amma Keytiynən Mehdinin qəbri var idi. İkisinin də qəbri orda idi. Deyirdilər ki, Keytiyə ceyran gəlir, bular da ora ceyran ovuna getmişdilər. Qardaşın biri ceyranı vurur, dərisini soyur, ona bürünüb yatır. O biri qardaş elə bilir ceyrandı, atıb onu öldürmüşdü. İkisinin də qəbrini getdik gördük. Mələk addı anası vardı, oğlanlarına ağlayanda deyirdi:

Ayax gözdədim, baş vurdum,
Var olsun əllərin, qardaş.
Ceyran deyif, qardaş vurdum,
Kor olsun gözdərim, qardaş (S.13).

## 88-89. ARDANIŞDAKI OCAQLAR

Gədəbəyə, Tovuza yol bizim kənddən keçirdi, bizim dağları aşıb Gədəbəyə keçirdilər. Göyçənin Gədəbəylə əlaqəsi bizim kəndlər vasitəsi ilə idi. Şorca, Cil, Ardanış, Ağbulaxdan aşanda gedib çıxırdılar Gədəbəyə, Tovuza. Nadir şahin qoşunu

da Gürcüstana gedəndə bizim kənddən keçib. Şahdağın ətəyində Öküz vurulan yer var, düzənlikdi, qoşun orda düşərgə salır. Orada nə qədər əsgər qızdırmadan, isitmədən ölür, onları Nazdı bulax tərəfdə bir təpədə dəfn edirlər. Orda kənd camaatından heç kəs dəfn olunmuyub, yalnız Nadir şahın əsəglərindən ölənləri orda dəfn eliyiblər. Xəbər verillər, yuxarı çıxmaq lazımdır. Xəsdə olanları qaldırıllar Şah dağına. Orda artıq meh gəlir, oranın havası tamam başqadır. Artıq orda qoşundan ölən olmur, ora adlanır Şah ocağı. Orda Nadir bulağı da var. İki Nadir bulağı var: biri aşağıda, biri yuxarıda. Uşağı olmuyanı, uşağı olub öləni aparırdılar Şah ocağına ziyarətə. Üst-üstə qoyulmuş daşlar idi, həmin daşları ziyarət edirdilər (S.12).

**89.**

Bizim kəndin qabaq tərəfində Kilsə deyilirdi, orda vaxdilə alban kilsəsi olmuşdu. Sonralar o kilsə dağılmış, onun özülü qalmışdı, qara daşdar idi. Altının altı metrə yer idi. Həmin yerə Kilsəli deyirdilər. Ondan yuxarıda təpə var idi, orda da bir ocaq var idi. Ora Ocağın başı deyirdilər. İşi çətinə düşənnər niyyət edirdi ki, mənim işim düzəlsin, ocağa gedəcəm. Kimi heyvan kəsirdi, kimi nəzir qoyurdu. Ziyarətə gedənlər ora pul, konfet qoyurdu, daşların ətrafına dövrə vurub daşdarı öpürdülər. Kim qurban deyibsə, gətirib orda heyvan kəsirdi, əlsiz-ayaqsız insannara paylıyırdı. Nəzir olaraq kanfet, pul qoyurdular, uşaqlar da gəlib pulu götürürdü. Lavaşın arasında halva qoyurdular.

Kalba Bayram deyirlər, Allah rəhmət eləsin. Deməli, otax tikir, onda qara dam tikirdilər, mal pəyəsi tikirdilər, bir dənə də otax tikirdilər. Uzun kəvəh daşdar idi, ordan iki dənə daş

gətirir evin küşdərinə qoyur, hörür, divar uçur. Bir neçə dəfə təkrarən qoyur, gecə divar uçur. Ağsaqqallar deyir ki, ora biz ocax deyirik, apar o daşı yerinə qoy. Aparır daşın birini çatdırır qoyur, o birsi daşı ocağa 600-700 metr qalmış Gəzdəh deyilən yer var, ora qoyur. Ona elə Kalbay Bayramın kəvəyi deyirdilər. Onu da ziyarət edirdilər, halva bişirib üstünə qoyurdular, pul nəzir edirdilər (S.21).

## 90-95. DİGƏR MÜQƏDDƏS MƏKANLAR

Adatəpədə[29] "Koroğlunun başı" deyilən yer var, hündür bir yer idi. Ermənilər 1918-ci ildə orda top qurmuşdular, ordan kəndi top atəşinə tutmuşdular. Onda camaat kəndi tərk edib Gədəbəyə doğru qaşmışdı. Koroğlunun başının aşağı hissəsi böyük meşə idi. Ağsaqallar deyərdi ki, meşə buludu çəkir. Koroğlunun başına çən, bulud gələndə deyirdilər yağış yağajax. Ora bir dənə dəmir basdırmışdılar. Deyirdilər ki, o dəmir Koroğlunun atının toylamıxıdı. Koroğlu toylamıxı sancıb ora, atını ona bağlayıb (S.12).

## 91.

Bizdə Ojax dağı[30] deyirdilər, deyəsən əvvəllər ziyarət olub, amma sonra ziyarət edilmirdi. O təpədən sarı torpaq çıxırdı, təndiri onnan düzəldirdilər. Orda sal daşdar olub, bu kişinin də evinə yaxın olub. Deyib, elə tövləyə daşı burdan aparım. İki nəfərnən gəlib daşı götürüb, aparıb tövləyə yerə döşüyüb. Qəbirin sinə daşı olub. Həmin tövlədə toy çaldırıf, daşın

[29] Göyçə mahalının Ardanış kəndində

[30] Toğluca kəndi

üsdünə arax tökülüf, onun fəsaddarını sonra çəkdilər. Oğlunun biri dəli oldu, özü də tez öldü. O daşları tövlədən çıxartdı, yudu, aparıb qəbrin üsdünə qoydu. Deməк, daşı gətirəndə iki nəfər gətirib, amma aparıb yerinə qoyanda üç nəfər onu götürə bilmiyib (S.33).

**92.**

Bizdə Seyid ölən[31] deyilən yer var idi. Təsadüfən güllə açılır, bir seyid orda ölür. Seyidin qanı ora dağılır. O qanı heş kim ayaqlamasın deyə ordan keçən hər kəs ora daş atırdı. O qədər daş atmışdılar ki, daşdan təpə əmələ gəlmişdi. Quraxlıq olanda o daşdan birin götürüb nişannıyırdılar, aparıb çaya atırdılar. Yağış çox yağanda da həmin daşı çaydan çıxarırdılar (S.33).

**93.**

Miskin Abdalın ziyarətgahı Çorax dərəsində yerləşirdi. Mollaqışlaqla arasında bir kilometr məsafə var idi. Seydilidə Məsim müəllim onun üsdünü düzəltmişdi, kümbəz tikmişdi üsdündə. Miskin Abdal yeddi qardaş olub. Nənəsi süd bişirirmiş. Uşax hirssəndirif, südü ocaxda daşıf. Nənəsi ordan kösöyü götürüf atıf. Kösöy gedif yerə batıf, orda söyüd ağacı bitif. Ora da ziyarət olub[32]. Onun dörd qırağını kümbəz düzəltmişdilər. Hansı tayfadasa oğul uşağı qıt imiş. Bu əhd eliyir ki, mənim oğlum olsun, mən gedif onun üsdündə kümbəz tikəcəm, ürəyi isdiyən gedər ziyarət eliyər, qurbanını kəsər. Rzalı tayfası Miskin Abdaldan qalıf (S.6).

---

[31] Toğluca kəndi

[32] Qarakilsə rayonu Heydərli kəndi

## 94.

Bizim kənddə[33] ocax varıydı, daşdan hörüb düzəltmişdilər, oruyu ziyarət edirdilər, aparıb qurban kəsirdilər, oranın adı Çay ocağı idi. Digərinin adı İsso yalının ocağı idi. Çay ocağında qəbir varıydı, İsso yalında yoxuydu. İsso yalı ocağında daşdan-zaddan toparlamışdılar, məzar idi, nəydi deyə bilmərəm. Mən özüm də oruyu ziyarət edirdim. Dörd qızın üstündən bir oğlan uşağı oldu, yeddi il ona qurban verdim. O yeddi ilin qurbanının ikisini apardım İsso yalının ocağında kəsdim, kimi görürdüm, dəvət eliyirdim ki, heyvan aparıram kəsəm, gəlin gedax, bişirəx, orda yeyax, evə qəytarmıyax. Pomidorun, göyüngöyərtisin, hər şeyini alırdım, yığırdım 20-25 nəfər, aparırdım, mal-heyvanı orda kəsirdim, bişirib yeyirdıx, çıxıb gəlirdıx ocaxdan.

Çay ocağı çayın kənarında yerləşdiyinə görə elə adlanırdı. Oruya da iki il qurban kəsdim. Yeddi illik qurbanımın dördünü verdim, qaldı üçü. Gəldim burıya. Getdim mollanın yanına, dedim, ay molla, vəziyyət belədi. İndi qapımda mal yox, heyvan yox, heş nə yox, mən nətər eliyim? Dedi, nəyə imkanın çatır, hinduşkan-zadın var? Dedim, hə. Dedi, ildə birini kəs. Elə heylə də elədim (S.36).

## 95.

Rəvayətə görə, İmam Əli gəlib ordan keçəndə qılıncı daşa çalıb. Daşın üsdündə qılıncın izi qalmışdı. Ora Əli daş qılışdıyan deyirdilər[34]. Orda həm də at nalının izi var idi (S.45).

---

[33] Gomur kəndi

[34] Hallavar kəndi

## 96-99. VERGİLİ İNSANLAR

Hajı Nağı[35] güjdü həkim olub. Kimisə qılıncla vurublar, sifətində çapıq qalıb. Bunu aparıblar Hajı Nağının yanına. Onu necə müalicə edib? Səhər tezdən saat beşdə dənizin (Göyçə gölünü nəzərdə tutur – İ.R.) üstünnən sahilə doğru bulud gəlirmiş. Deyib ki, bunu bir ay səhər tezdən dəniz sahilinə aparın, o bulud bunun üzünə vursun. Onnan onun üzündəki çapıq sağalıb.

Biri dolma yeyəndə dolamın içində tük olur, bu tük bunun ürəyinə dolaşır. Gej aparıflar, bu uşağın dərdini bilmiyif, ölüf uşaq. Sonra bunu yarıf, bilif ki, bunun ürəyinə tük dolanıf. Deyif, heyif, bilsəydim bunun dərdi budu, bunu bir ata bağlıyardım. At çapan adamın ürəyi möhkəm çırpınır, genişlənir. Onda ürək genişlənib o tükü qırajaydı.

Balaca vaxdı su içmirsən? Onda qurbağanın külüşkəsi gedib birinin mədəsində böyüyür. Nələr eliyif ki, onu ordan çıxartsın, nəkqədər çalışıb, sağalda bilmiyif. Bu adam ölən mametdə qurbağa bunun ağzından sıçrıyıb heyvan bağlanan postağa düşüf da, sidiyin içinə. Düşdüyünnən öldüyü bir olub. Deyib, paho, mən buna hər şeyi eləmişəm, bircə mal sidiyi içirtməmişəm. İçirtsəydim, qurbağanı öldürərdi. Elə cannılar var təmiz suda yaşıyır. Qurbağa ömrü boyu çirkli suya girməz, tembole mal olan yerə. Görürsən, ora düşən kimi öldü (S.37).

### 97.

Hajı Nağı özü danışırdı ki, üş dənə həkim gəldi. Çay təklif elədik, dedilər, heş nə içən deyilik. Bizə bir qazan verin,

---

[35] Göyçə mahalının Zod kəndindən olub.

qapağını verin, filan şey verin. Bunları verdik, deyir, mən də bunnarnan getdim. – Dədəmə danışırdı. Yanına xəsdə aparmışdıq, onda dədəm soruşmuşdu, o danışırdı. – Dedi, Məmməd kişi, mən də bunnarnan getdim. Gördüm, getdilər dağa. Dağda qazanı ocağın üsdünə asdılar, nəysə də doğradılar, tökdülər qazanın içinə. Bişirif yedilər, amma mana təhlif etmədilər. Qavı da təmiz siyirdilər. Dedilər biz burdan belə gedəjeyik, sən qayıt get. Mən, deyir, orda çox diqqət elədim, bunların yediyi nədisə, ondan bir noxud boydası yerə düşmüşdü. Onu götürüf dilimin altına qoyanda o ot dedi, mən filan dərdin dərmanıyam, bu ot dedi, mən filan dərdin dərmanıyam. Demək, buna görə o yeməkdən mana təhlif etmədilər. O noxud boyda tikəni dilimin altına qoymaxla hər şeyin dilin bildim (S.37).

## 98.

Bunun atası[36] uşağ imiş, anasıynan hardansa gəlirmişdər. İlan çıxır bunu vurur. Dəvəlidə ilan tutan var imiş, erməni idi. Bunu aparıblar Dəvəliyə. Qaynənəm deyirdi ki, qutu-qutu ilannarı var idi. Çağırdı, bir ağ ilan gəldi. Dedi ki, niyə bu uşağı vurmusan? Dedi ki, acıxlı gəlirdim, uşax qabağıma çıxdı, vurdum. Erməni deyif ki, mən bu uşağın ağzına tüpürəcəm, mən öləndə mənim yerimdə bu otursun.

Bir günnəri çöldən pambıxdan gəlmişəm. Gədəni ilan vurubdu, İsəynən Seyid Yusif gətirifdi bunu. Bu da bağayarpaxsız tüpürmürdü. Onu maa deməzdi ey, o sirridi, onu gərək aşmıyasan. Onu danışmaq günahdı, mən heç bu qızdarın yanında da danışmıram. Gedib bağayarpağı gətirdi, yarpağa tüpürdü, qoydu yaranın üsdünə, damcı-damcı ilanın zəhəri gəldi töküldü (S.30).

---

[36] Söyləyici əri haqqında danışır.

## 99.

Mən bura on yeddi yaşında gəlin gəlmişəm. Qaynatam mənə dedi ki, qızım, səsin xoşuma gəlir, gəl bu Quranı örgədim sana. Onda da gah tükan işdədirdim, gah kalxoz işinə gedirdim, gah dərzilik edirdim. Dedim, yox, mənnik döyül. Əl çəkmədi. Dedi, ay bala, gəl bunu örgədim sana, lazım olar. Dedim, yox ey, mənnik döyül. Nəysə, kişi rəhmətə gedənnən sonra bir gejə yatmışdım. Gördüm dağın döşü, göy çimənnik, orda dirsəklənib kitab oxuyur. Maa dedi, gəl bura. Gəldim ora. Dedi, saa dedim ki, bu kitabı oxu. Dedim, mən oxuya bilmirəm. Dedi, mən oxuyajam, sən də mənnən barabar oxu. Başdadı "Cümə" surəsini oxumağa, mən də başdadım bunnan oxumağa. Bir-ikisin kişi dedi, dalın Allahtaala elə düzdü ki, tamam əzbər başdadım oxumağa. Səhər duranda yoldaşıma dedim ki, dədən bu gejə yuxuda mana Quran örgətdi. Dedi, səy-səy danışma. Quran çətindi, sən örgənə bilməzsən. Dedim, oxuduğun o Quran haqqı, Quran oxuyurdum. Dedi, yaxşı, bir-ikicə kəlməsin de görüm. Başdadım deməyə. Maarif, and olsun Allaha, "Cümə" surəsin başdan ayağa oxudum. Dedi, halaldı. İndi mən Quranı əzbər oxuyuram, əlimə kitab almıram (S.16).

## 100. SÖYLƏN

Bizim tayfa Cəfərri tayfasıdı. Orda kənddə dörd tayfa varıydı: cəfərri, səməddi, hacıoğlu, qəmərri. Bu dörd tayfa bir-birindən qız almışdılar, qız vermişdilər, qaynıyıb-qarışmışdılar. Hamı zəncir kimi bir-birinə bağlıydı. Bizim əsl-kökümüz türkdü. Mənim babamın ləqəbi Kor Hüseyn olub. O türk vətəndaşı imiş, Türkiyədə yaşıyırmış. Bu nəsə cinayət törədir. O vaxt da cinayət törədəni sürgün eliyirmişdər, elə bil Yevlaxı tərk elə,

get, harda yaşıyırsan, yaşa. Babamı ordan sürgün eliyirlər, babam gəlir İrana. Nadir şahın vaxtı olub. Mənim babam Nadir şahın yanında işdiyib, böyük vəzifədə işdiyib da. Elə millət deyirmiş ki, Nadir şah, sən dünyanı dəyişənnən sora Hüseyn gələjax sənin yerinə padişah. Belə söz-söhbət gəzirmiş ha.

Nadir şah çox qəddar adam imiş. Nadir şahın oğlu nəsə bir cinayət törədir. Nadir şah əmr eliyir, deyir, oğlumun gözdərinin ikisin də çıxardın. Bunun oğlunun gözdərinin ikisin də çıxartdırannan sonra, atalar deyir, hers gələndə üz qızarır, hers gedəndə üz utanır. Bu hersli vaxt qərar verdi, oğlunun gözdərini çıxartdırdı. Gecə yatdı, hersi sakitdəşdi, səhər duranda dedi, baho, mən nə səhv iş tutmuşam. Çox qəddar imiş, çox. Nadir şah bir məcməyi gətirib qoyur ortuya, bütün böyür-başında işdiyənnərin əksəriyyətini yığır burıya. Deyir, mən hersdənmişdim, bəs sizə nolmuşdu? Biriniz yaxınnaşıb mənə demirdınız ki, ə, Nadir şah, hersdənmə, oğlunun gözdərini çıxartma. Ay kişi, hersdənmisən, buna bir cəza ver, buna bir işgəncə ver, bə niyə gözdərini çıxardırsan? Böyük vəzifədə olannarın hamısını yığır orıya, deyir bunnarın gözdərini çıxardın. Bunnarın ki biri gəlib maa demiyib etmə, eləmə, uşağın gözünü çıxartma. Onun acığına deyir ki, gözdərini çıxardın. Mənim babam Hüseynin gözdərinin ikisin də Nadir şah orda çıxartdırır. Çıxartdırır, bunnar da hamısı belə zəlil olur.

Bir gün Nadir şah çıxmışmış, şəhərdə gəzirmiş. Mənim babamın da gözdərin çıxartdırıb, Hüseyn də zəlil olub, işdiyə bilmir, bir şey eliyə bilmir. Nadir şah gəzən vaxt başını çevirib həyətə baxanda görür ki, ə, Hüseyni qoyublar bəstəyə (gəbənin, palazın üstünə qoyurlar, yastıq-zad arxasına qoyurlar, belə oturax olur da, ona bəstək deyirlər). Keçib getmir, qayıdır

Hüseynin yanına. – Hüseyn kişi, salamməleykim. – Əleykimsalam. Addı-sannı adamdı, tanıyırmışlar da. Deyirmişdər, ə, çox savaddı, çox cəsarətdidi, Nadir şah ölənnən sora bunu Nadir şahın yerinə verəjəxlər. Bu söz-söhbəti Nadir şah bilirmiş. Hə, Nadir şah gəlib babamnan görüşür. Deyir, Hüseyn kişi, sana pisdih eləməyinə eləmişəm, gəlsənə elədiyim pisdiyin qarşılığında sənə bir yaxşılığ eliyim. Deyir, nə yaxşılıx? Deyir, səni evləndirim. Deyir, ə, pir olmuş, mənim gözüm yox, işdiyə bilmirəm, kim gəlajax mana? – Əşi, – deyir, – sənin nə işinə e. Mən evləndirirəm da. Hüseyn kişi deyir, nə bilirsən elə.

İranda addarın da deyirdi, Məcid, Cəlal – bu qardaşdar xan-bəy nəslinnən imişlər ha. Onnarın da bir bacısı varmış. Deyir, o xannarın bacıların alım sana. Deyir, alırsan al, amma mənim bu vəziyyətimdə mənə qız verməzdər. Deyir, sənin nə işinə, mən evləndirəcəm. Nadir şahın bir sözünü kim iki eliyər? Nadir şah qardaşları çağırır. Deyir, siz gəlin bacınızı verin o kişiyə ərə. Evləndirir bunnarı. Bu bir müddət qalannan sora – arvadının adı olur Gülxanım, – deyir, ay Gülxanım, İranda məmə deyənnən pəpə deyənə hamı məni tanıyır da. Mən bu vəziyyətdə burda yaşamax isdəmirəm. Gəlsənə köçək başqa yerə, bizi heç kim tanımasın. Deyir, nətər məsləhət bilirsən. İki at təşkil elətdirir, minirlər atdara, Arazdan addıyıllar, keçillər Noraşen torpağına. Arpaçay bizim kənddən keçir, gəlir düz Noraşenə çıxırmış. Babam soruşurmuş ki, – bələdimiş da oralara – Gülxanım, bura nətəridi? Deyirmiş, məsələn, çaydı, çayın arxasında dağ var, dağın o tərəfində meşə var, belə istinadlar ala-ala Arpaçay boyu gəlir Paşalı rayonuna çatanda orda da hər tərəf düz, ortasınnan çay keçir, bir tək yolağası var. Əgər o yolağanı tapdın, ora düşə biləssən, tapmadım düşə bilmiyəssən. Babamgil

gəlir düz pendir trestinin altında bünövrə qoyur. Kəndlərdən, ordan-burdan adamlar baxır ki, ə, Arpaçayın böyrü, ətrafı dağdı, o tərəf meşə, orta da belə düzəngah, çay ortasınnan gedir. Nəysə, beş-altı ayilə yığışıllar babamın başına, başdıyıllar burda yaşamağa.

Babamın orda üç oğlu olur. Analarının qardaşı xandı, bəydi da. Neçə il imiş bacılarını görmürmüşlər. Qardaşdarı deyir ki, durun gedax Gülxanımı axtarax. O gedən gedib, heç səsi-sorağı çıxmadı bacımızın. Nəysə, qardaşdarı atdarı minir, Arazı addıyırlar, Arpaçay boyu gəlhagəl, gəlhagəl, gəlhagəl, gəlir düz mənim babamın bünövrə qoyduğu yerə çatırlar. Orda körpə, cavan-cavan uşaxlar aşığ oynuyurmuşdar. Qan çəkir da. Böyük oğlu Cəfər idi. Aşıx atarlar, aşıx uzaqlaşar. Cəfər gəlir aşığı götürür. O ordan qışqırar, ə Cəfər, at məə, bu burdan qışqırar at məə. Nəysə, Gülxanımın qardaşdarı da bu mament baxır, uşax aşığı qaytarıb verənnən sora uşağı çağırallar ki, bala, gəl burıya, sana söz deyirix. Uşax gələr bunnarın yanına. Uşağa deyərlər ki, bala, sənin atan, anan var? Deyir, var. Deyir, gəl bizi apar, sizə qonax getmək isdiyirıx, – deyəndə bu uşax düşər bunnarın qabağına, bunnarı götürər gələr. Həyətə çatanda, bacıları çıxanda baxarlar ki, bunnarın bacıları elə buymuş.

Nəysə, burda görüşəllər, qonax qalarlar, bunnar dəvət eliyər ki, gəlin bir də qayıdın İrana da. Babam deyər, yox, mən bu vəziyyətdə o torpağa qayıda bilmərəm, orda məni hamı tanıyır, mən zəliləm, yaşıya bilmərəm orda. Bunun böyük uşağı Cəfər bunun kimi varmış (yanındakı uşağı göstərir – İ.R.). Deyir ki, aparırsız bacınızı aparın. Uşaxlardan biri 7-8 aylıxdı, qanmır, o birsi də ki danışa bilmir, həylə şeyləri araşdıra bilmir. Böyükdən soruşurlar ki, ə, atannan gedirsən, yoxsa anannan? Böyüyü deyər ki, mən atamı bu vəziyyətdə qoyub heç yana gedə bilmə-

rəm. Orda Cəfəri tərk edirlər, körpələrin ikisin götürürlər, bir də bacılarını, qayıdırlar İrana.

Onnar gedənnən sora ta bu Cəfər də yekəlir. Mənə belə danışıblar ki, Hüseyn imkannı adam olub, variyatı-zadı olub. O qədər zehinli adam olub ki. O orda variyat gizlətmişmiş. Oğlu ki böyüyür, həddi-buluğa çatanda deyir ki, oğul, iki dənə at tap, gedəjeyix İrana, mənim orda əmanətim var, gedəx onu çıxardax. Oğlu at təşkil eliyir, atdarı minirlər. Bax, dərvaza nətər dərvazadı? Qırmızı kraskalı, göy kraskalı, mavi kraskalıdı, istinad ala-ala nəhayət variyatı harda gizdədib gəlib oranı tapırlar. Variyatı da çıxardırlar, qayıdan başı genə soruşur bu nətər küçədi, bu nətər darvazadı, istinadı ver mənə bir-bir. Oğlu deyəndə ki, göy darvazadı, atın başını çəkir, at dayanır. Bunnarın öz həyətiymiş. Atdan düşür. Oğluna deyir ki, məni də atdan düşürt, məni sal bu həyətə. Oğlu onu salır həyətə. Gülxanım baxır ki, Hüseyn. Oğlanı tanımır, oğlan cavan oğlan olub. Nəysə, görüşürlər, öpüşürlər. Orda deyir ki, Gülxanım, bu bizim böyük oğlumuzdu. Gəl biznən qayıt geri. Orası yadımdan çıxdı. Qardaşları Gülxanımı götürüb qayındanda Arazı keçəndə körpə uşağı salırlar Araza, Araz götürüb gedir. O birsi də orda xəstələnir, müalicə elətdirə bilmirlər, o da elə ölür. Qalırlar bir tək böyüyün ümidinə. Ordan Gülxanım minir bunların tərkinə, bir də gəlib çıxırlar Söylənə. Söylənin adı əvvəl Daşaltıymış. Mənim babam deyir, mən bu kəndin adını qoyuram Dərdim Söylən. Mənim dərdim, söylən hər yerdə. Söylən adı, bax, ordan qalıb.

Babam oranı yaşıllığına görə seçib. Şüşənin qayaları kimi rayon tərəf bütün boyaboy, bəlkə, bir kilometr məsafə o boyda qayalardı. Üstdən heş nə gələ bilməz. Təsadüfi Allah gətirib çıxardıb ora, elə bünövrəni də ordan qoyub, oranın da adı Daşaltı

olub. O Daşaltı söhbətini də babam ləğv eliyir, deyir dərdim, söylən. Köşkünlüyə qədər ağsakqallar bizə söylənni deyirdi.

Ulu babam Hüseyn, Hüseynnən sonra Cəfər, Cəfərdən sonra Xudo, Xudodan sonra Məhəmmədəli, Məhəmmədəlidən sonra Əcəb, Əcəbdən sonra bizik. Yeddi nəsil olur (S.36).

## 101-103. KÖÇBƏK

Köşbəkdəki nəsillər: alıbəylilər, səfililər, mərətüstülər, hətəmlilər, hüsüklülər. Beş dənə tayfa yaşıyırdı, amma hamısı qohum idi. Mənim tayfam alıbəylı tayfasıdı. Öz tayfamızın bioqrafiyasını sənə danışım. Atamın atası danışıb, atam da mənə danışıb. Ora ən birinci gələn bizim tayfa oluf, amma dəqiq məlumat verə bilmərəm, o İrannan olufdu, yoxsa Qazaxdan oluf, bu ikisinin birinnəndi. O vaxtı atam da dedi ki, bunu dəqiqləşdirə bilmədıx ki, görək bular hardan addıyıfdılar. Burda Alıbəy olufdu, Alı bəyin oğlu Teltel Həsən olufdu, bunun əlində adam ölüfdü. Qannıçılıx oluf denən, məjbur oluflar çıxmağa. Bunnar çıxandan sonrasına gəliflər Paşalı rayonunun Axta kəndinə. Teltel Həsənin iki dənə oğlu olufdu, birinin adı oluf Bevdalı, birinin adı oluf Murtuzalı. Bunnar da bəy adamdılar, xeyli devlətnən gəliflər, nə vaxtı gəliflər dəqiq deyə bilmərəm. Hə, gəlif çatdılar orıya. Axta da heyvandarrığ yeri dəyil, elə bağa-bağçıya yaxşıdı. Bu iki qardaş atdarı minifdi, belə gəzirmişdər. Gəlif baxıfdılar ki, bu nə muğandı, bu nətər otdu? Nəysə, burda dayanıfdılar. Deyiflər ki, heyvanımızı gətirax. Bunnar beş il, üç il yayda gəlillər bura, havalar soyuyanda qayıdıllar Axtaya. Axtaynan da bizim aramız olar iyirmi kilometr. Bir günnəri bu qardaşdar deyir ki, bilirsən nə var? Deyir, nə var? Deyir, ə, otu burdan biçirıx, pencəri burdan yığırıx, burdan da yühlüyürüx ata-eşşəyə,

aparırıx Axtaya. Elə tavlamızı, malımızı burda saxlıyax. Dəli dəyilik ki, bir belə otu çəkib aparırıx. Bunnar burda bünövrə salır. Adı Behbudalıdı, Bevdalı deyirdilər. Behbudalı qalır burda, Murtuzalı gedir Axtaya. Bunun bünövrəsi burdan başdıyır. Mutuzalıdan törüyənnər axtalılardı, Bevdalıdan törüyənnər köşbəhlilərdi.

*Dağların adı:* Divlər yalı, Haçadağ, Qazma, Qara çoban, Erkək çalası, Keçəl dağ, Pənik, Kəllə qaya, Qısırın dağı.

*Yaylaqlar:* Ağ göl, Sarı yer, Hacı Fərhadın yurdu (S.25).

**102.**

Mərətüsdülər özdəri danışıllar. Deyir, balaca kəndləri yığdılar böyük kəndlərin üsdünə[37]. Paşalı rayonunda üç dənə böyük kənd oluf: Cul, Gomur, Köşbək. Mərətüsdü köçürəndə deyirlər Cula yığacağıq. Deyiflər, yox, biz Culnan dolanmırıx, bizi yığın Köşbəyə. Dəmirçiləri, Tarpı, Mərətüsdü, Çarşanlını yığıflar Köşbəyə. Orda qəbirsannığımızda bir dənə qoşdaş vardı. Xəlil müəllim adında bir adam vardı, o Nehrəmnən gəlmişdi. O vaxtı bəyləri departasiya eliyirdilər, öldürürdülər, onda bu ayiləsin götürüb qaçıf gəlmişdi Köşbəyə. Gəlib orda müəllim işdiyirdi, demiyəsən bu axundumuş. Həmməşə yas olanda gələrdi qəbirsannığı gəzərdi, gedif o Qoşdaşa belə baxardı. Buruya köçməmişdən dörd-beş il əvvəl buna deyillər, ay Xəlil müəllim, sən savaddı adamsan da, burda nə yazılıb? Yığdı bu camaatı. Dedi, bilirsən bu qoş daşın üsdünə nə yazılıbdı? Yazılıb ki, mən Əbili Əbilhəsən oğlu, hər rəng inəkdən yüz elədim, axırı əliboş getdim. Köşbək adı ordan qalıfdı. Ağıllı adam deyifdi, burda devləti qırajaxsan, bəy, köç burdan. Köşbəy ordan qalıb (S.25).

---

[37] Kolxozlaşma ilə əlaqədar balaca kəndləri böyük kəndlərə birləşdiriblər.

**103.**

Culnan Köşbəyin arasında kənd var idi, Mərətüst. Mərə arxac yeri idi, kəndin qoyun-quzusu yığılan yerə deyilir. Mənim nənəmin 115 yaşı vardı. Onun dediyinə görə, bizim ulu babalarımız Türkiydən gəlmədi. Deyirdi, 1612-ci ildə Osmanlıda ələvi üsyanları baş qaldırdı, onda camaatı sürgün eliyirlər, bizim camaat gəlir İran tərəfə. Orda bir müddət qalırlar, sonra bir azı İranda qalır, bir hissəsi Mərətüstə, Səfolar İstisuyuna gəlir. Sovet hakimiyyəti qurulanda 26-ci ildə balaca kəndləri birləşdirmə siyasəti gedir. Tarp heylə dağıldı, onları Terpə birləşdirdilər. Gümüşhana, Herher, Göyərçin, Dəmirçilər – bunları Terpə birləşdirdilər, Mərətüstü də Köçbəyə birrəşdiriblər. Bizim camaat qırx ev oluf. Hansı tayfasa qız alıb boşuyub, aralarında nə ziddiyyət olufdusa, köçən vaxd kəndin ağsaqqalı camaatı yığıb başına. Bir yasdı daş alıb əlinə. Deyif, hamınız tüpürün bu daşın üsdünə. Kişilər hamısı tüpürüf. Daşı çəvirif. Deyif, yad yerə gedirik, bir-birimiznən düşmankarrığı aparmıyax. İndən sonra olduğ əmioğlu, bir-birimizin təəssübün çəkməliyik.

Bizim kənddə qəbirsannıxda iki dənə qoç daş var idi, üç dənə sandıx var idi. Xəlil müəllim deyirdi ki, o sandığın üsdündə yazılıb, hər şeydən min eylədim. Ağ qoyundan min, qara qoyundan min, maldan min baş eylədim, amma axırda kuzə belimdə burdan əliboş gedirəm. Çox vəfasız yerdi. Deyiblər, bəy də olsan, burdan köç get (S.22).

## 104-107. SƏFOLAR VƏ QURBANALILAR

Səfolar İstisuyunda iki əsas nəsil var: səfolar və qurbanalılar. Səfolar azərbaycanlıdı, qurbanalılar kürtdü. Mənim nənə

tərəfim səfoludur. Səfo Qazaxlıdı. Qazaxda bunlar adam öldürüflər, ordan qaçıf gəliflər İsdisuya. Ora da elə bil qaladı, bərk yerdi. Burda yaşıyırmışlar. Naxçıvanda da Movro varmış, padşahdı, hər nədi. Movro bilir ki, Səfo İsdisuda yaşıyır, ona güjü çatası dəyil. Səfonun oğlu Məmmədalı olufdu. And içirlər ki, Məmmədalı, bəlkə də, Rüsdəmzaldan qüvvəli imiş. Heylə bir adam olufdu. Bir şey ki, cöngəni boynuna alıf iyirmi kilometr yol gəlifdi, cöngəni qoymuyuf yerə ki, qara izi düşər. Haman bu iki ata-oğul burda məskunlaşır.

Naxçıvana hardansa hüjum olur. Movro görür ki, buna güjü çatmıyajax, bir dənə çapar göndərir ki, get Məmmədalıya deginən düşmən üsdümüzə gəlir, gəlsin mana kömək eləsin. Bu gəlir İsdisuya çıxır, Səfonu görür. Deyir ki, Movro sənə xəbər göndərif, nə deyirsən? Bunlar yığılıf məsləhətdəşir. Məmmədalı deyir ki, ata, bu al dilnən bizi çağırır, aparır orda qırdırmağa. Deyir, oğul, düşmən bizi köməyə çağırır, qırdırsa da getməliyix. Bunnar qırx dənə atdı olurlar, gəlirlər çıxıllar Naxçıvanın Kültəpə kəndinə. Otuz səkgiz adamı qoyur burda, deyir mən Məmmədalıynan gedirəm şəhərə. Əgər bir hak-hesab oldu, nişana verəjəm ki, bizi qırıllar, durmayın gəlin. Dosdux oldu, işara eliyəjəm.

Gedillər. Nəysə, Movro bunu yaxşı qarşılıyır. Deyir, Səfo, düşmənçiliyimiz öz yerində qalsın, düşmən gəlir üsdümüzə. Vətənimizi qoruyax, genə düşmənçiliyimiz düşmənçilik olsun. Adamları da yığılır gəlir. O vaxdı insan az imiş, qoymurdular qırğın olsun. Hər iki tərəfdən pəhlivan çıxırmış, hansı pəhlivan qalib gələrsə, o tərəf qalib hesab olunurdu. Nəysə, bunnar daqavorraşıllar. Movroya deyirlər, hər iki tərəfdən üş dənə pəhlivan çıxardax, hansı qalib gəlsə, demək o tərəf qalibdi.

Səhər meydan qurulur, birinci Səfo çıxır. Məmmədalı deyir, dədə, birinci mən gedəjəm. Səfo razı olmur ki, oğul, səni öldürsələr, mən sənin fəroğuna dözə bilmərəm, amma məni öldürsələr, sən lap coşa gələrsən. Birinci Səfo gedir, bunnan qabax qabağa gələndə elə birinci zərbədən vurur bunu atdan salır, tutub başın kəsir, gətirif qoyur Movronun qabağına. İkinci Məmmədalı gedir. Məmmədalı gedən kimi düşməni atdan çəkir salır yerə, qolun-qıçın bağlıyır, gətirif qoyur Movronun qabağına. Bunnar məğlub oldu, çəkilib gedir. Movro qızıl medalı çıxarıf Məmmədalının boynunnan asır. Məmmədalının boynunnan asanda bu dəfə Səfo cırnıyır[38]. Deyir ki, sənə baş gətirən mən, sən Məmmədalıya medal verdin. Bu düz dəyil. Deyif, Səfo, Məmmədalı mərtdi, sən namərtsən. Deyir, niyə? Deyir, ona görə ki, bax, Məmmədalı tutdu, gətirdi, əl-ayağın bağladı, qoydu mənim yanıma. Mən sizə əmr eləmişəm getmisiz, özbaşına getməmisiniz ki? Onu öldürsəm də mən bilərəm, buraxsam da mən bilərəm. Amma sən namartdıx elədin, öldürdün. Bəlkə, mən onu buraxajaydım. Ona görə də Məmmədalıya çatır. Bax, həmən medalı mən özüm gözümnən görmüşəm. Qaratel adında arvad vardı, o gəlmişdi bizim kəndə, həmin qızıl medalı bizə göstərdi ki, bax, bu Məmmədalıya verilən medaldı (S.25).

**105.**

Bazarçay Köşbəkdən sonra Zəngəzurun ən birinci kəndidir. Elat gələndə orda bir bazar olurdu, Bərdənin bazarı onun yanında yalanmış. Bir adam itirdin, ta ki bazar dağılmayana kimi tapmaq olmurdu. O bazar 59-cu illərə kimi işlədi. Qaratel arvadın danışdığına görə, Məmmədalıgil gəlirdilər bazara, oranı

---

[38] cırnıyır – inciyir

qarışdırırdılar, hay vururdular, huy vururdular, ürküdürdülər, əllərinə düşəndən götürüb gedirdilər. Bu Məmmədalı bir dəfə yenə gələr bazara, əlinə bir şey keşməz. Bu gələr gədiyin qəbirsannığından[39] keçəndə görər, at xoflandı. Keçif gedər, bir az da uzaxlaşmışdı. Öz-özünə deyər, mən Məmmədalı olam, mənim atım burda xoflana, mən bundan bir şey bilmiyəm. Bu qayıdar, həmən yerə çatanda görər, at yenə xoflandı, getmədi. Düşər atı bağlıyar qəbir daşına, axtara-axtara gedər ki, burdan nəysə hənirti gəlir. Görür qəbir çöküfdü. Əlini salar qəbrin içinə, hərriyər, bunun əlinə bir dənə buynuz keçər. Çəkər çıxardar ki, bir dənə saz qoşdu. Deməli, günüzdən ki, qoyun gəlifdi, qəbir yatıf, erkək arxası qatda qəbrin içinə düşüfdü, çıxa bilmiyifdi. Çoban da çıxıf gedifdi. Bunu alar atın qujağına, götürər gələr. Arvadının adı Fəğri imiş. Gələr çıxar kəndə. Arvadı çıxar qabağına. Deyər, Məmmədalı, sən nə qədər bərkə-boşa düşsən də, indiyə qədər sənin rəngin saralmıyıf. Sənin niyə rəngin saralıf? Deyir, arvad, danışaram, hələ qoy bu erkəyi kəsim. Erkəyi kəsir, ciyərin bişirillər, bunlar yeyəndən sonra əhvalatı danışır ki, haq-hesab belə. Arvad səhər çıxar bulağın üsdə, orda danışar ki, Məmmədalı belə eliyif. İsdəmiyən var da, bunlar deyir Məmmədalı şişirdir, guya bu qorxmazdı. Məmmədalı deyir, mən sizə bir söz demirəm, amma mənim nişanam var. Köşbəyin qəbirsannığına gedin, atımı hara bağlamışam, qəbir hardadı hamısın nişanasın verir. Ordan üş nəfər minər ata, düz gələr çıxar həmən qəbirsannığa. Sən öl, gələrlər ki, atı bağlıyıf baş daşına, qəbri taparlar ki, qəbrin yanında dizdərinin yeri qalıf, erkəyin də qığı qəbrin içindədi. Ordan qayıdıf gələrlər kəndə ki, Məmmədalı doğru deyir (S.25).

[39] Elat qəbiristanlığı idi.

## 106.

Bir gün Məmmədalı gələr çıxar Saybalı adında kənd var, ora. Gejə, qışın günü, qar da dizdən, gələr çıxar dosdunun evinə. Düşər tavlaya ki, sən öl, bir dənə saz cöngəsi var, keçiləsi dəyil. Bunnarı gejə yuxuya verəndən sonra durar cöngəni alar boynuna, – Saybalıynan Səfolar İsdisuyunun arası aşağısı on səkgiz kilometr var, – cöngəni alar boynuna, gələr, gələr, gələr, Osman bulağında bu susuyar. Bu fikirrəşər ki, mən neyniyim? Cöngəni yerə qoysa, bunun rəddi düşəcək qara, onda biləjəhlər. Cöngə boynunda əyilib bulaxdan su içəndə cöngənin dörd ayağı düşər qara. Səhər ev yiyələri durar ayağa ki, cöngə yoxdu, Məmmədalı da çıxıf gedif. Deyillər, sən öl, bu Məmmədalının işidi. Cöngə getsə hər tərəf qardı, bunun ayağının rəddi düşəcək qara. Düşüflər bunun rəddinə, görüflər bir nəfərin ayağ izi gedir, amma cöngənin izi yoxdu. Osman bulağına çatanda baxıllar ki, cöngənin dörd ayağının rəddi də qardadır. Əmin olurlar ki, bu Məmmədalının işidi, cöngəni boynunda aparıf. Gəlillər Məmmədalıgilə. Görüllər ki, Məmmədalı cöngəni kəsif. Deyillər, Məmmədalı, sən ki bu qüvvənin yiyəsisən, halal xoşun olsun, yeginən (S.25).

## 107.

Qurbanalıdan sana bir epizod danışım, yaxşı qulaq as. Gindibasda erməniyən azərbaycannı qarışıxdı, böyük də kənd idi. Burda bir erməni olur, bunun bir saz atı olur. Özü də Qurbanalınan möhkəm dosd olur bu erməni. Erməniyə deyir ki, bu at sənə yaraşan dəyil. Bu at mənə yaraşandı. Çünki mən bir gejədə dörd-beş arxaj[40] gəzirəm, gəl bu atı ver mana. Deyir, dəlisən-nəsən, mən at verərəm sənə? Nə danışırsan? – A kişi,

[40] arxac – qoyun saxlanan yer

mal deyirsən verim, öküz deyirsən verim, iki dənə at gətirim verim, bu atı ver mənə. Deyir, yox, vermərəm. Bu Qurban deyər, vermirsən, vermə. Dəqiq olan şeylərdən danışıram ha.

Yaydı, ot biçini gedir, bu ermənilər çıxıf yaylaxda ot biçillər. Demək, bu, atı gözündən kənara qoymur, hər günorta atı götürür gətirir bulaxda suvarır, bir də qaytarır o bişdığı yerdə hörühlüyür. Qurbanalı bir adam da götürür yanına, gəlir. Özünü salır palçığın içinə, – biz ona qərəmə deyirix, – özün elə vəziyyətə salır ki, nətər. Okqədər gözdüyür ki, görür erməni budurana atın noxdası əlində yendi. Yendi, gəldi bulaxda atı suvardı, atı da bir az sığalladı, təmizdədi. Qurbanalı baxır ki, atı tumarradı, atı suvardı, daha qıymır bu yoxuşu minə ha, yavaşca yedəyində çəkir. At axı insanı iyindən tanıyır. Bu yavaş-yavaş atın dalıncax gedir, erməni də atın cilovundan çəkir. O qədər gözdüyür ki, yoxuş azalanda atın başınnan noxtanı çıxardır, keçirir öz başına, atı yoldaşına verir. Deyir, atı yayındır. Erməni çıxır ki, yalı addıyajax bu tərəfə gedəjəx, bu ayağın diriyir, başın belə çəkəndə erməni deyir, ay at, niyə gəlmirsən? Çönüb geri baxan kimi ermənінin ürəyi gedif yıxılır. Erməni burda ölmaxda olsun Qurbanalı da başınnan noxdanı çıxardır, yallah, getdi. Ermənіyə deyirlər, at hanı? Deyir, şeytan oldu getdi. Deyilənnərə görə, Qurbanalı aparar bu atı – at oğruları ata nişana qoyurlar, ona qaşqa, səkil qoyullar, pis şeylər qoyullar, orda ağ tük əmələ gəlir. Məsələn, mən deyirəm mənim atım kəhər idi, o deyir yox, mənimki kəhər səkil idi. – Bir ildən, para ildən sonra bu Qurbanalı atı minif gedir dosdunun evinə. Erməni ata baxıf, baxıf, deyif ki, Qurban kirvə, bilirsən nə var? Deyir, nə var? Deyir, vallah, mənim atım şeytan oluf getməsəydi, elə deyərdim bu at mənimkidi.

Qurbanalı, deməli, neynir? Atın alnına qaşqa qoyur, ayağına da səkil. Erməni baxıf ki, bunun atı qaşqalı deyildi axı, bu atın qaşqası var, ayağında da səkil. Səkil qoymaq üçün insan nəcisindən istifadə eliyirdilər. İnsan nəcisini atın alnına və ya ayağına bağlıyırlar, iki-üç gün qalandan sonra yenisi ilə əvəzləyirlər. Bir neçə dəfə təkrar etdikdən sonra oranı yandırır, ordan ağ tük çıxır (S.25).

## 108. XARABA KOTANLI

Kotannıdakı tayfalar: mamkilər, başkilər, səfkilər. Türkiyədə qan davası üsdündə onlar Diyarbəkirdən didərgin düşüblər. Anamın əmisi oğlunun dediyinə görə, Türkiyənin Diyarbəkir vilatəyində yüzbaşı Pullu Həsən varmış. Bunun evli qardaşı oğlu minbaşının nişannı qızını qaçırdıbdı. Buna deyiblər ki, sən burda qalası olsan, sənin nəslini kəsəcəklər. Bular məjbur olub Diyarbəkirdən çıxıb gəliblər Vedibasara. Soruşublar ki, bizə torpaq lazımdı, kimə müraciət eləsək alınar? Deyiblər ki, Çimən kəndində iki dənə ağa var – Usub ağa, Eyyub ağa. İstiqamət alıblar Usub ağanın qapısına. Deyiblər, qonaq gəlmişik, bizi qonaq qəbul eliyərsən? Usub ağa deyir ki, qonaq Allah qonağıdı, buyurun qonağımız olun. Bir neçə dənə hinduşka kəsdirər, oturub yeməklərin yeyərlər. Deyir, eşidirəm sizi. Onlar da, deyir, başımıza belə bir hadisə gəlib, məjbur olub ordan çıxmışıx, isdiyirik burda məskunlaşax. Maldarrıxla məşğul olan adamıx, elə bir yer olsun ki, oranı əkək. Usub ağa deyir, mənim torpaxlarım var, Milli dərəsi, Kotannı ərazisi. Həmin torpaxları çıxıb gəzillər. Bəli, bu Kotannı ərazisində yaşamaq mümkündü, həm əkin əkmək olar, həm mal-qara saxlamaq olar, suvarma suyu, mal-qaranı otarmağa örüşü var.

Bir müddət yaşadıqdan sonra Usub ağanın oğlu Süleyman ağa tez-tez həmin əraziləri gəzirmiş. Pullu Həsənin Hazara adında bir qızı oluf, həmin Hazaranı gözaltı eliyifdi. Deməк, Pullu Həsənin arvadı cavan ölür, bir türk qızı alır. Həmin türk qızından da Hazara olur. O qədər göyçək imiş ki, altı-yeddi qardaşın bir bacısıymış. Evdən eşiyə buraxmırdılar ki, qaçırıf eliyərlər. Süleymanda da qadın gözəlliyi varmış, o qədər gözəl imiş. Süleyman ağanın evlənmək yaşı çatıbdı. Evdən deyəndə artıq evlən, anasına bildirir ki, Pullu Həsəngildə bir qız var, gözəldi, xoşuma gəlir. Atam icazə versə, onnan ayilə qurmaq isdiyirəm. Usub oğlu Pullu Həsəngilə elçiliyə gedir. Pullu Həsən Usub ağaya deyir ki, biz səndən çox razıyıx. Biz ordan məjbur olub bura gələndə sizə pənah gətirdik, siz də bizi yernən təmin elədiz. Bilirəm nə məqsədnən mənim qapıma gəlmisən. Sənin oğlun Süleyman ağa mənim qızım Hazaranı sevir. Mən bilirəm, Süleyman ağa yaxşı at minir, yaxşı nişangahı var, namaz qılır. Mən də isdərəm sizin kimi ağaynan qohum olam, amma müəyyən şərtdərim var. Deyir, buyur, şərtini eşidirəm. Deyir, şərtim ondan ibarətdir ki, biz kürdük, kürdün evladı çoxdu. Amma verdiyin torpax bizə azlığ eliyir. Bizə əlavə torpax versən, ayrı yerdə kənd qurarıx, o adamları da gətirərik həmin əraziyə. Atı minillər gəzillər, Milli dərəsi deyilən ərazidə ulu babamızın torpaxları olub. Baxıflar ki, ərazi çox genişdi, xoşlarına gəlib. Qayıdıf deyir ki, qızım Hazaranı sənin oğlun Süleymana verdim, üsdündə də əlli dənə doğan qoyun, neçə dənə yanı balalı inək. Bu minvalla onnar ordan çıxıllar, yeni ərazidə yerləşirlər, o kəndin adını qoyurlar Kotannı. Seyid Mirəli ağanın babasıgil o kənddə yerrəşdiyinə o kəndin adı qalır Seyidlər Kotannısı. Köhnə kotanının yeri isə boş qaldığı üçün oranın adı qalır Xaraba Kotannı. Sovet dövləti qurulanda

Usub ağaynan oğlu İsmayıl ağanı tutub İrəvan qalasına salıblar. Birini göndəriblər Qazaxıstana sürgünə, Usub oğlu İsmayılı da uzaq Maqadana göndəriblər, orda da dünyasını dəyişibdi (S.1).

## 109. BÖYÜK MƏZRƏ VƏ BALA MƏZRƏ

Göyçə mahalı 36 kəndiydi. Hərəsinin öz adəti, öz ləhçəsi olubdu. Məsələn, Göyçə mahalında ayrım ləhçəsi oluf. Bura[41] əksəriyəti 88-ci ildə gələn camaatdı. Sumqayıt hadisələri olanda ermənilər orda qoyma-haray düşmüşdülər. Bizim camaat o vaxtı mitinq-zad elədilər ki, bizə muxtariyət verin. O vaxt erməni kimiydi, rus dayanmışdı onun arxasında, verib eləmədilər. Camaat ordan qaçdı. Camaat qaçmamış bütün silah-sursatları yığdılar millətdən, ov tüfənginə qədər yığdılar. Sonra başladılar camaatı darlamağa, camaat da qaçdı gəldi bura evsiz-eşiksiz, burdakı erməniləri döydülər, girdilər evlərinə.

Böyük Məzrə var, Bala Məzrə var. Bizdən yeddi kilometr aralıydı Böyük Məzrə. Basarkeçərdən gələn Qırxbulağın çayı Böyük Məzrəni iki hissəyə bölürdü. Bu tərəfə gətirib tökdülər ermənini, blan adını qoydular, planlı şəkildə evlər tikdilər, azərbaycanlılar qaldı bu tərəfdə. Köhnə kişilər danışırdı ki, bizim kəndin üst tərəfində gətirib erməni məskunlaşdırıblar, sovetin planıydı. Kəndin üst tərəfində Qaraimana doğru erməni evləri tikiblər, günüz onlar tikib, gejə bizim yaşdılar, qananlar onu cavannara dağıtdırıf, qoymuyuflar erməni yığıla ora. Təzdən Göyçə gölünə doğru bizdən iki kilometr aralıda meşəyə doğru bunlara aparıb kənd salıflar, adını qoymuşdular Norakert. Həmin kəndə də İrandan, Suriyadan, Türkiyədən gələn erməniləri yerrəşdirmişdilər. Onların əksəriyəti sünnətdiydi.

---

[41] Tərtər rayonu Bəyimsarov kəndi

Biz Göyçə mahalının Kiçik Məzrə kəndindənik. Orda iki kənd vardı: biri vardı Böyük Məzrə, biri də var Kiçik Məzrə. Məzrə sözü düzəngah deməkdi. Göyçə mahalının kəndlərin çox hissəsi dağ dibi kəndləriydi deyə dərəli, təpəlihdi, bizim kəndlər düzən kəndləriydi. Ona görə kəndlərin adı kiçik düzənlik və böyük düzənlikdir. Bala Məzrədəki nəsillər: mollaəlilər, süsənnilər, korlar, arıxlar, haroylar, xıdırlılar, qızıl hajılar, hacı əhmədlilər. Arıx Nəsif kişinin böyük oğluydu, Ay Nəsif deyərdilər. O da gör nətər kişi oluf? Çox cəmdəkli, hündür kişi oluf. Tapança-zad təzə çıxanda bunlar nə görüf, atışırlar, bu bir az aralıda olub, tapança əli metrdən artıq vurammır axı. Güllə ona dəyib düşür. Deyir, bu qoyun qığısın ayna elə, bu nağarajax maa. Bizim tayfa mollaəlilər olub. O vaxdı cadu-duva bilirmişdər da. Görən ağsakqallar danışırdı ki, arpanı divara yeridirmiş. Burda məhərrəmlik ayını dəbdəbəli keçirtmirlər. Biz orda din içərisində din bəsləyirdik. Tütündə arvadlar işləyirdi, ramkaların üstündə qurudulurdu. Biz də uşağıydıq, gedib baxırdıq. Rəhmətdih Hapi Rüstəm oxuyurdu, uşağın boğazına qırmızı bağlayırdılar, ülgüc əlində uşağın alnını burdan çərtirdilər, qan tökülürdü. Ondan sonra başlayırdılar özlərini döyüb ağlaşmağa. Üç, yeddi və qırxı imam ehsanı verilirdi, mərsiyələr deyilirdi orda. Orda televizoru açmaq yoxuydu, matəm saxlayırdılar. Televizor açılmırdı, sabun işdənmirdi. Deyirdilər, sabın əzmək olmaz, baş yumaq olmaz (S.46).

## 110. KƏSƏMƏNLİ

Kəndin belə bir tarixi var ki, guya kimsə kəndin adamlarıynan bir yerdə faytona minib. Faytonda sözləri çəpləşib, o adamı öldürüblər. Sonra məhkəmə olub, bunlar da yeddi adam olub. Bunnardan soruşublar ki, onu kim kəsdi? Deyir, kəsən

mənəm. O birisinə deyiblər, kim öldürdü? Deyib, kəsən mənəm. Yeddisi də deyib kəsən mənəm. Nəysə, bunları o kənddən köçürdüb ayrı bir yerdə yer veriblər. Deyiblər, kəsən mənəm deyənlərin kəndidir ora. Belə rəvayət danışırlar da, guya kəndin adı ordan qalır Kəsəmən. Ordan da Ermənistana köçən olub, Kəsəmənli kəndini onlar salıblar. Kəsəməndə yaşayan sırf azərbaycanlılar idi. O kəndə üç kənddən gələnlər vardı: çoxu Kəsəmən, Məzrə, Göysu. Göysudan iki ayilə olub, çoxu kəsəmən və məzrəli olub. Bizim nəslə deyirdilər şeşəllər. Guya həmin yeddi nəfər bizim tayfadan olub. Onlar hamısı Haca gediblər piyada altı ay müddətinə. Bir gözəl xanım olub, ona elçi gediblər. Kim gedirmiş, yox deyirmiş. Bizim nəsildən də yeddi qardaş bir-bir gedif. Birinin yaxşı buxara papağı varmış. Papağı başına qoyuf gedif elçiliyə, qız yox deyif və papağa bir dənə sap bağlıyıf. Sonra ikinci, üçüncüsü gedif, hərəsinə bir rəng sap bağlıyıb. Kimsə də bir şeir qoşmuşdu ki:

Şeşəllər nə cür geyir papağı?
Sənə nə dəxli var, a bimürvət yağı,
Sinəsinə çəkmisən dağı.

37-ci ildə kimin qoyunu, mal-qarası çox idi, onları sürgün eliyirlərdi. Anam söylüyürdü ki, bizim də otuz qoyunumuz vardı. Qonşudan adam çağırdıx, bir gejədə qoyunun iyirmi beşini kəsib doldurdular – qapıda dərin quyu vardı, – həmin quyuya. Gələndə gördülər ki, beş qoyun, bir inək var, bizə toxunmadılar. Vəli yeznə deyir, həmin quyuya qartof doldururdux. 88-də köçüb gələn vaxdı istədim bir az qartof çıxardam gətirəm, erməni boynumun dalından tutdu ki, – tanıyırdı özü də, – Vəlican, sən əziyyət çəkmə, biz özümüz çıxardarıx. Qoymadılar qartof gətirməyə (S.29).

## 111-112. HERHER

Bizim ulu babalarımız Qazaxdan gedib çıxmadı ora, Qazaxuşağı deyirdilər onlara, alıoğlu yerli adamlar olub, ağauşağı olub, eyvazlı, kəngərlilər olub. Kəngərlilər sonradan gəlib, amma çox qoçu adam olublar, kəndi də onlar götürüblər. Kəlbəcərin böyük hissəsi Dərələyəzdən gəlmədi. Nadirxanlı kəndi Dərələyəzdən gəlmədi. Orda erməni olmuyub, orda olan yerli tayfalar olub. Ermənilər çox sonra gəlib ora. Mənim atam 1895 təvəllüd idi. O deyirdi ki, ermənilərdən sonra ora yezidi kürtdər gəldi. Bardan kimi geyirdilər, ayağın da sıxırdılar, meşox kimi olurdu. Dil-zad bilmirdilər. Bunları qapazdıyırdıx ki, bunlar imamlarımıza güllə atıblar, yezitdi bunlar. 1918-ci il müharibəsində ermənilər yezidi kürtdəri silahlandırır, bizim kəndi onlar dağıtdılar. Bizim qonşu kənd olub Cul kəndi. O Cul kəndi beş yüz ev olub. Herher ondan çox imiş ha. 1918-ci ildə qaçıblar Naxçıvana. Dağ adamlarıdı, uyğunlaşa bilmiyib, gündə 10-15 adam ölürmüş. Qayındanda beş yüz evdən əlli ev qayıtdı deyir. Arvad olmadı almağa, Kəlbəcərdən evdə qalmış, qarımış qızları alıblar. Kəlbəcərlə qohumluq ordan yaranıb. Bir də Kəlbəcərin Geştək kəndi sırf bizim kənddən getmədi. Biz erməninin içində yaşadıx, amma erməniyə nə qız verdik, nə də qız aldıq. Erməni çörəyin də yemirdik. Atam deyir bir dığaynan yer əkirdik. Özü də atamın dolanışığı çox yaxşı olub. Deyir, əkinə gedəndə yemək götürürdük, o mənim çörəyimi yeyirdi, amma mən erməni çörəyini yemirdim (S.41).

### 112.

O vaxd Qazaxdan gəlib bizim babalarımız. Üç qardaş olublar. Biri qalıb Kəlbəcərdə, ikisi keçib Dərələyəzə. Bunu danışım, yaxşı yadıma düşdü. Dərələyəzdə Məşədi Raşo varmış,

kəndin yiyəsi oymuş. Alıoğlu imiş, onlar yerli adamlar imiş, kəndin yarısı onlar idi. Bizim babalarımız gəlib burda beş-altı ay qalıblar. Görüblər bunların şətəli[42] işdəmir da burda, bunnar qaçqın adam, heş kim bunnarı saymır. Bunlar burdan köçüblər. Məşədi Raşo eşidib ki, Qazax uşağı burdan köçüf. Bunlar da iki qardaş imiş da. Bunlar piyada gediblərmiş, Məşədi Raşo atı sürüb qonşu kənddə çatır bunlara. Deyir, niyə köçürsünüz? Deyir, bəs belə-belə, biz görürük bizim şətəlimiz burda işdəmir. Bizdərdə də çox cannı adamlar olub. Deyir, köçməginən, bax bacımı da verirəm o böyük oğluna, gedək mənim yanımda olun. Qazax uşağının südü Alo oğluynan orda qarışır.

Ondan sonra bunlar dəsdəynən İran tərəfə, Arazın o üzünə keçirmişlər, adam öldürüb bir dəfəyə üç yüz, beş yüz qoyun, mal gətirirmişlər. Bir dəfə də on-on beş nəfər gediblər. Bunlar günüzə düşürlər, girillər qamışdığın içinə. Kəndə səs salıblar ki, gəliblər camaatın heyvanın oğurluyub aparalar. Onda da Məşədi Raşo yox imiş. Alıoğlunnan bir nəfər olur, bu da mənim kimi ağıldan səy olur. Bu çıxır çölə, özün göstərir, qayıdır qamışdığa girir. Çoban bunu görür. – Kənddə də bəyin oğlunun toyu imiş. – Xəbər salır ki, kənddə oğru var. O vaxdı hamı toya atnan gedirmiş. Hamı atdanır, bəy də atdanıb gəlir bu qamışdığa. Bunlar çatan kimi qamışa şappaşap güllə atırlar, necə gəldi atırlar. Amma qamışdıxda gizdənənlər bunları görür da, bunlar atarlar, toyu olan oğlanın təpəsinə güllə dəyər, düşər yerə. Obşim, nə qədər eliyərlər bunlar çıxmaz, qamışa od vurarlar, bunları tutarlar. Hamısın əlin bağlıyarlar. Quzu başı kimi qoyub bir-bir hamısın başın kəsirlər. Burda bir nəfər seyid varmış, baxır ki, buların içində sarıyanız gözəl bir oğlan

---

[42] şətəl – qayda-qanun

var. Deyir, bunu mənə bağışdıyın. Qıymır da onu öldürələr. Qoyur atın tərkinə, qaçırdır. O bizim babamız oluf. Baxıllar ki, içərilərində axmaq biri var, alıoğlu dediyim, adı Vəli imiş. Bunu da eşşəyin üsdünə qoyullar ki, get bunların dədələrinə, analarına xəbər ver. Deyir, həmin hadisədə bir arvadın iki oğlunu öldürmüşlər. Bu gəlib qara xəbəri verəndə həmin arvad deyir ki, Vəli, sənə güllə dəysin. Deyir, axmaq köpək qızı, mənim İranda nə işim var mənə güllə dəyə. O vaxdan bizdə misal qalıb, alıoğlu qara xəbərdi.

Qazaxdan gələn üş qardaş olub. Birinin adı Mərdan olur, Kəlbəcərdə qalan Mərdan olub. Birinin adı Alı olub. Atam deyirdi bizim Dərələyəzə gedib çıxmağımız Molla Pənah Vaqifin Şuşaya gedib çıxdığı dövrə təsadüf edir (S.41).

## 113. HALLAVAR

Bizim sovetdik beş para kənd olub. Hallavar, Heydərri, Aşağı Kilsə, Yuxarı Kilsə, bir də Güllüdərə. Əkinçilik və maldarrıxla məşğul idi. 1780-1790-cı illərdə tayfa-tayfa gəliblər. İlk dəfə Qədim kişi, sonra Xanbəli (Xanvəli), sonra İsgəndərri tayfası. Xanvəli Türkiyədən gəlmədi, Qədim kişi Qazaxdan, İsgəndər də eynən Qazaxdan getmədi, Seyidli tayfası da Qazaxdan getmədi, Hamoylu tayfası Kəlbəcərdən gəlmədi. Məşədilər, rzalar, səfilər tayfası oluf. Çavuşdu tayfası Türkiyədən gəlmədi. Bu yerlər Qazax qəzasının yaylaq yerləri olub. Mal-qaralarını yayda bizim dağlara gətirirdilər. Görüblər, bura yaxşı yerdi, çaylarında qızıl ala balıqlar, meşələrində bütün meyvələrdən var. Deyiblər, bu yerin halı var, Hallavar da ordan yaranıb.

Bizim tayfa seyidli, aşıxlı tayfasıdı, Ərdəbildən gəlmədi. Mollaqışlağında əmizadəm var idi, Molla oğlu Əli deyirdilər. Müharibə iştirakçısı olmuşdu, o danışanda eşitmişəm. O deyirdi bizim babamız Tozdu Məmməddi, qardaşı Mollaqışlağında yaşıyıb, mənim də, deyir, babam əmisinin yanına gəlib orda yurd salıb, yaşıyıb. Mən ondan eşitmişəm ki, on iki qardaş olublar. Şahnan yola getmiyib ordan çıxıblar. Beş qardaş Qazağın Qızılqaya kəndinə gəlib. O kənd indi dağılıb. O beş qardaşı da çar hərəsini bir tərəfə sürgün eliyib. Üç qardaş Hallavar kəndinə gəlib, bir qardaş Amasiyaya gedib, biri də Allahverdi kəndinə. Atam Əlidi, atası Səlixan, onun atası Alı, Alının atası Süleyman, Süleymanın atası Məmməd, onun atası Gülməmməd, Gülməmmədin atası Süleyman, Süleymanın iki qardaşı olub, biri Heydərriyə gedib, biri Mollaqışlağına, Süleymanın atası da Tozdu Məmməddi. Tozdu Məmmədin oğlu Süleyman bizim kəndin kefası[43] olub.

On iki qardaş oluflar. Orda şahnan yola getmiyiflər, ordan qovuflar bunları, gəlif Qazaxda məskunlaşıblar. Qazaxda da çarnan yola getmiyiflər. O vaxdı buğda verərdilər ki, torpağı əkin, hökumətə də bu qədər buğda verərsiniz. Bizimkilər də çarnan yola getmədiyinə görə buğdanın hamısını bişirib əkiblər. Hamının zəmisi göyərib qalxıb, bizimkilərin əkdiyi taxıl cücərmiyib. Çarın çinovnikləri gəlif ki, bu nə olan şeydi? Komissiya yaradıb yoxlayıflar ki, buğdanı bişirib əkiflər. İsdiyiflər bunların hamısını güllələsinlər, bir başbilən deyif ki, biz isdiyirdik bizim zəmi lap yaxşı bitsin, ona görə buğdanı qovurdux. Deyiflər, bunlarda nəsə çatmıyan cəhət var. Qara böcüknən qara xırnıx olur ey, bunları bir kisədə qarışdırıb stolun üsdünə

---

[43] kefa – koxa

tökürlər. Deyirlər, həqiqətən bunlarda nəsə çatmırsa, böcüyə əl atarlar, xırnığa dəyməzlər. Xırnıxnan böcüyü tökəndə böcüklər qaçışır axı. Başbilənləri deyir, nəbadə durana əl atasınız, qaçanı qovun. Onlar da başdıyıf böcükləri yeməyə. Ondan sonra bunları ayırıb, üçünü bizim kəndə göndəriflər, biri Amasiyaya gedir, babamızın bir qardaşı da Amasiyada olur. Bizim babamız olub Tozdu Məmməd. O vaxdı yapıncı geyərlərmiş, o qədər sürətli gedərmiş ki, yapıncıdan toz qalxardı. Ona görə ona Tozdu Məmməd deyiflər. Sonra İsmayıl, Alı, Qulu olub, onların qardaşdarı olub, bunlar seydili nəslidir. Bizim nəslin bir qolu ayrılıb Heydərli kəndinə köçüb, onlar tapdıqlı kimi tanınır. Güllüdərənin böyük əksəriyəti seydili nəslidir. Mən bizim nəsildə seyid görməmişəm, amma söylənənə görə, seyid nəslindən gəlməyik. Seydililər gələndə bu kənddə yaşayış olub, Qədim kişi, Xanvəli, İsgəndər kişi olub. Onlardan sonra seydililər gəlib, ondan sonra da rzalılar, məşədilər, talıblı, panoylu, dəlləklilər gəliblər. Deyilənə görə, yetim bir uşaq azıb gəlib, onu da İsgəndər kişi götürüb saxlıyıb. İsgəndər kişinin də bir qızı olub, böyüdüb qızını ona verib. Dəlləklilər də onlardan törəyənlərdi.

*Kəndəki məhlələr:* talıblı, panoylu, qaraxan, çavışdı, aşıxlı, porallı (porallılar Türkiyədən gəlmədir), acı alma, qaş kəndi, yelvuran təpəsi.

*Dağlar:* Ley[44] dağı, ən hündür dağımız Maynağan dağı idi, zirvəsində pir var idi.

*Yaylaqlar:* Qoşa bulaq, Xarxaşan, Çırçır, Kəndirbaz, Gölqoşunu, Nədiralı, Keçidaşı, Qaraquş evi (S.45).

---

[44] Qartal kimilər fəslindən olan quş növü

## 114. SARAL

Saral kəndində on üç tayfa oluf: mustoylu, göyəbaxan, şıxlı alı, əlmuraddı, vərəzəlli, məmmədqulu uşağı, məmməd eminnər, qarasaqqalı, incəllər və sair. Göyəbaxanla Şıxlı Alı tayfası Qazağın Şıxlı kəndindən gəliflər. Eşitdiyimə görə, orda kimnənsə dava eliyiflər, iki qardaş kəndi tərk edif. Gəliflər, Saral kəndinin yerləşdiyi yerdən keçəndə baxıflar ki, çox gözəl, mənzərəli yerdi. Deyirlər, suyu varsa, elə burda məskunlaşaq. Nəysə, burda məskunlaşırlar. İllər keçir, göyəbaxan tayfası görür orda yaşayış çətindi, deyirlər filankəs getmişdi, gəlin biz də gedək ora. Bunlar gəlib kəndə çatanda hava hələ işıqlaşmamış olur. Görüllər ki, bir xoruz bannadı. Deyillər, xoruz bannayırsa, burada yaşayış var. Qoy sabah açılsın, gedək görək müsəlman kəndidimi. Gəlirlər görüllər ki, Şıxlı Alının tayfasıdı. İndi, bu iki tayfanın sözü çəp gələndə şıxlı alılar deyərdi ki, o xoruzun dili kəsilsin. O niyə bannıyırdı ki, siz də gəlib çıxırdınız bura. İlk gələn İsmayıl və Şıxlı Alı oluf. Onların ulu babaları Bayram kişi oluf. Muratdı tayfası Qarabağdan, incəllər İncə dərəsindən gəlmədi (S.39).

## 115. BALA QARAQOYUNLU

Dədəm deyir ki, Bala Qaraqoyunnu on bir tayfa idi. Birinə Hacıöyü deyirdilər, bizə Təllər tayfası deyillər. Bizim ulu babamıza Təl Məmməd deyirdilər. Bir adamın başını təlliyib nəyi var əlindən alırsan, yolunnan çıxarırsan. Təl sözü ordan gəlir. Təllərnən hacıöylülər biri-birinən qohumdu. Ulu babam Göyçəyə gələndə tək gəlifdi. Gəlib Məmməd babamnan qarşılaşıb,

Məmməd babamın bajısın alıb. Xəlil babam da, oğlu Mustafa da müşdehit oluflar. Müqəddəs Nəcəf şəhərində ali ruhani təhsili alıflar, alim adamlardılar. Yəni o təllərnən mollalar, mənim babalarım qohum olmuşuğ, qız verib qız almışığ. Dib binövrədən belə də gəlirik.

Babamgil Türkiyədən gələndə Qazağa düşüfdülər, dədəmin dediyin deyirəm, İncə dərəsinə. Təxminən yüz il orda yaşıyannan sora yerli bəylərnən, ağalarnan davaları düşüb. Babamgil, üş qardaş, ordan da bir qız götürüf qaçıf gəliflər Goranboyun Qazanbulağ kəndinə. Ora çataçatda dörd at qoşulmuş arabalar oluf, arabada Mustafa babamı vurullar. Elə qızı da Mustafaya götürüflər, yerli bəylərin qızdarının birini. Mustafa babam yaralanır, ölümcüldü. Silahları da qutarıf. Qardaşdarına deyir ki, bizim hamımızı qırajaxdılar. Hərəniz atın birini açın, eyni istiqamətdə yox, ayrı-ayrı istiqamətə çapın. Açıllar, nəysə, gedillər, Mustafa babam orda ölür, qızın yiyələri də gəlir, qızı götürüf aparıllar. Rəhimliynən Qazanbulağ arasında Mustafa ölən yer var, babamı orda basdırıllar. Xəlil babam ordan dağ yollarıynan gedir çıxır Bala Qaraqoyunnuya. Orda Təl Məmməd babamnan sözü düz gəlir, uyğunnaşırlar, tay Məmməd babam qoymur onu arıya getsin. O biri babam Novruzəli gəlif Şəfi bəynən rastdaşır. Goranboyun Şəfibəyli kəndi onun adınadı. O da orda qalır, Novruzəlilər tayfası onun nəslindən gələnlərdi. Novruz babamın oğlanlarından biri, – anamgilin qolunu deyirəm, – Əhməd babadı, oğlu Mustafa babadı, Mustafa babanın oğlu, anamın dədəsi Kərəm babadı, ondan da anam. O biri qol Xəlil babamdı, Mustafa babamdı, oğlu Xəlil babamdı, oğlu Abduləli, onun oğlu dədəmdi, sonra mənəm (S.27).

## 116. KƏRBƏLAYI İSMAYIL

Mən eşitdiyimə görə, Usub oğluynan Kəlba İsmayılın araları olmuyub, düşman olublar. Günlərin bir günü Kəlba İsmayıl gəlif gejə qapını döyüf. İsmayıl ağa da taxtın üsdündə uşağın boynunu sevəliyirmiş. Deyif ki, gedə, dur, gör kimdi qapını döyən. Gəlif deyif, Kəlba İsmayıldı. Duruf oturub. Öz-özünə deyir, xeyir ola Kəlba İsmayıl, gejənin bu vaxdı. – Get denən, ağam deyir, gəlsin içəri. – Bunu rəhmətdik Məhərrəm dayı söhbət eliyirdi. – Gəlif içəri, görüf yanında bir dənə çarşaflı qadın var. Deyir, xeyir ola. Deyir, biz düşmənik, amma mən səni qeyrətli düşmən bilirəm. Mən bilirəm ki, sənin qapına etibar eliyif gəlmək olar. Mən İrana getmək isdiyirəm, bu da oğlum Yədullanın yoldaşıdı, hamilədi. Bunu qoyum, gedim. Deyir ki, düz fikirrəşmisən. Gəlini burada qoyuf çölə çıxanda İsmayıl ağa gədəyə deyif, get denən ağam deyir, zəhmət olmasa bir dəyqəlik qayıtsın dala. Deyif, gəl otur bir istəkan çay iş, işim var. Oğlunun adı Usuf imiş. Deyir, gədə, get paltarını dəyiş, yaraxlan-yasaxlan, – on beş yaşı var imiş, – Kəlba İsmayılnan getginən. Deyif ki, İsmayıl ağa, nəyə görə? Deyif, gəlininə tam arxeyin olmaxdan ötəri oğlumu verirəm sana, götür, apargi-nən. Gedəndə sərhəddə atışma olur, Usuba güllə dəyir, ölür. Kəlba İsmayıl bunun qapısına gələndə ağ geyinir, kəfənə bükə-lənif gəlir. Deyif ki, İsmayıl ağa, belə bir hadisə oldu. Boynum qıldan nazikdi, vura bilərsən məni. Bu da deyif, oluf, oluf da, hadisədi. Qəsdən olmuyuf ki. Bu mamentdə gəlinin uşağı oluf. Uşağı olanda düşmən olduxlarına baxma götürüf uşağın adını qoyuf Usub. Belə xatirələr olub (S.19).

**117.**

Kərbəlayi meydana çıxıb 1905-1915-ci illərdə özünün dəstəsiynən. Təmiz rusca bilən adam olub. Abbasqulu bəy Vedini qoruyan dəstənin başçısı olub. Bibimin yoldaşı danışırdı ki, iki dəfə erməni kəndə hüjum elədi, girəmmədi. Kərbəlayının qoşunu var idi, qabağını aldı. Vediyə hüjum elədilər, orda da Abbasqulu bəy qarşısını aldı. Yaz ağzı idi, üçüncü dəfə erməni hücum elədi Çimən kəndə. Hamı sahədə işdiyirdi. Bir vaxt başdarın qaldırdılar ki, Çimən kəndin baş tərəfindən erməni girif. Xəbər çatdı Kərbəlaya. Sırazı silahdaşları yığıldı, çıxdılar ermənin qabağına. Camaata dedi ki, vurun Arazı, keçin, burda bizi qırajaxlar. Andranikin qoşunu gəlmişdi, deyir. Camaat özünü vurdu Araza, sərhəddə rusun qoşunu qabağın kəsdi, buraxmır. Mən də on dörd, on beş yaşında bir uşağ idim, ağlım kəsirdi. Kərbəlayıya xəbər göndərdilər. Bir də gördük Kərbəlayı qoşunun bir hissəsinən gəlir. Bircə dəfə beşatılanı qaldırdı: "Otriyad Kərbəlayı, peryod!" Hüjum eliyəndə rusun qoşunu aralandı, biz vuruf Araz çayını keşdik. Biz İrana keşdik, Abbasuqulu bəy Türkiyəyə keşdi. Bir müddət qaldıx orda, deyir. Orda oluf Usub oğlu İsmayılın tayfası, Kərbəlayının özünün, qardaşının tayfası. Deyirlər, guya Usub oğlu Kərbəlayının qan düşməni olub. Usub oğlu İsmayıl Kərbəlayının xalası oğludu. Aralarında heş nəyin üsdündə narazılıq olufdu, onu da bilirəm, amma yazmax lazım döyül. Deyir, keşdik İrana, alaçıqlar quruldu. İranda sərbazlar silah adıynan gəlif girir alaçığa, silah axtarıllar guya. Burda da qız-gəlin, arvad-uşax. Kərbəlayi duruf gedir İran şahının qəbuluna ki, biz bura qaçqın kimi gəlmişik, sənin də sərbazdarın belə hərəkət eliyir. Orda şah tapşırdı, bir müddət yaxın gəlmədilər. Təzdən gənə başdadılar. Təzdən başdıyanda

Qəmlo bunlardan bir-ikisin güllələdi, deyir, aləm dəydi bir-birinə. İranda da, deyir, qana qan söhbəti var, ya da mal-pul verməlisən bağışdıyalar. Kərbəlayı, deyir, ağsaqqalları yığdı, getdi. Söhbət ora-bura, irannılar yerə-göyə sığmır, ancaq qana qan deyirlər. Deyir, a kişi, qızıl deyirsən qızıl verim, mal deyirsən mal verim, amma qan söhbəti olmasın. Deyif, yox ey, olmalıdı. Kərbəlayı, deyir, sapoğundan qamçın çıxartdı çırpdı yerə, dedi bunlar kişi döyül, durun. Bu vaxd Türkiyədən çapar gəlir. Xəbər gətdi Abbasqulu bəydən ki, durma, gəl. Türkiyədə gözdüyürəm səni. Gejəynən çadırı yığdılar, Tükiyəyə keşdilər. Deyir, o mamentdə gəldilər ki, Abbasqulu bəy hazırdı. Deyir, Kərbəlayı, mənə xəbər gəlib ki, Ermənistanda Sovet hökumətini qurmalıyıx. On birinci qızıl ordu Bakıdan keçif gəlir İrəvana, biz də onlara qoşulub getməliyik. Orda qırmızı taboru yaradırlar, komandiri olur Abbasqulu bəy, müavini olur Kərbəlayinin qardaşı oğlu, Kərbəlayı də bunların ağsaqqalı. İki yüz nəfərnən Arazı keşdilər, Yerevanda sovet hökumətin onlar qurublar.

Gəlir kalxoz quruculuğu. Kinoda[45] da var o iclas. O iclasdan sonra kəndin ağsaqqalları yığışıb Kərbəlayinin eyvanında söhbət eliyirmişdər. Var-gəl edirmişlər ki, nətər olajax. Kalxoz oyunun atıblar ortalığa, torpağı bunnardan alırlar, verirlər hökumətə. Deyir, invalid bir adam var, cavan uşaxdı, danışığın-zadın bilmir. Kərbəlayinin həyətində işdiyirmiş. Bunu sovet sədri qolundan tutub gətirir – Kərbəlayinin evi hündürdə idi, – balkonun altında xəncərin dalıynan bu xəsdə oğlanı döyür. O da ordan qışqırır ki, Kərbəlayi, qoyma məni öldürdü. Qurmadır da ki, Kərbəlayi reaksiya versin. Deyir, belə oturub söhbət eliyirlər, bir-ikisi vurmax isdiyəndə deyif ki, sakit durun, bu oyundu.

[45] “Axırıncı aşırım” filmini nəzərdə tutur.

Xəncərin dalıynan bunu möhkəm döyəndə, gənə bu qışqıranda yanındakı əl atdı beşaçılana. Əli beşaçılana dəyməyinən güllənin açılmağı bir oldu. Sovet sədrinin qulağından atmışdı. Polis rəisi də erməni idi. Orda Kərbəlayi, burda Kərbəlayi, Kərbəlayi çəkildi meşəyə. Kinoda göstərillər ki, Abbasqulu bəy vurulandan sonra qoşun dağılır, amma atriyad orda dağılmıyıb, qırx gün rusun qoşunuynan meşədə atışdılar. Bibimin yoldaşı deyir, axırıncı dəfə mən onları harda gördüm? El yaylağa getmişdi, onda qoşun meşədən çıxdı, hərə gəldi öz ayiləsiynən görüşdü. Paltarı yuyulan, yemək-içmək, azuqə götürmək, axırıncı dəfə onları mən orda gördüm. Ondan sonra Arazı keşdilər o taya. Sonra ermənilər bunları al dilnən alladıb gətirdi, birin kalxoz sədri qoydular, birin anbardan qoydular, birin birqadir qoydular. Yavaş-yavaş Kərbəlayinin başının dəstəsin qaytardılar. Üş dəfə Kərbəlayinin dalınca adam göndərillər ki, onun ölüsü, ya dirisi gəlməlidi. Onu da bacarmamışlar. Axırıncı dəfə bir dostu varmış, kürd imiş. Kərbəlayinən görüşəndə evində – burdan beş nəfər getmişdilər, plan qurmuşdular ki, Kərbəlayini çölə çıxarıb çöldə atalar, – qucaqlaşıb ayrılanda qulağına deyib ki, çıxma çölə, səni öldürəcəklər.

46-cı ildə bir dəfə gəlib Azərbaycana ayiləsin dalınca. Görüb ki, hamısı sürgündədi, elə o gedən gedibdi. Dörd oğlunu erməni Qəmərlidə öldürüb. Bir oğlu 16 yaşında qız isdiyirmiş qonşu kənddən, ora gedif gələndə orda atıf ödürmüşlər. Bir oğlu Tərtərin İrəvanlı kəndində idi, Stalin öləndən sonra sürgündən qayıdıb gəlib. Bir dənə qızı olubdu, mən də onun qız nəvəsiyəm. Zəhra arvad idi. Rəhmətdiyin yoldaşı and içirdi ki, bir gejədə doldurdular vaqona, hamısın Qazaxıstana sürgün elədilər oğlunan ayiləsin. Qızı mənim babama ərə gəlib, babam da o vaxtın cekisti olub, ona görə ona dəymiyiblər (S.32).

## 118.

Oğlu Yədulla 16 yaşında olubmuş, qonşu kənddən qız isdiyirmiş. Qızın dalınca kəndə gedif gəlirmiş. Buna bir-iki dəfə deyiflər, a bala, bura gəlmə, bunnarnan atanın arasında narazılıq var, səni öldürəllər. İki-üş dəfə xəbərdarlıq eliyirlər, bu da cavan uşax, beyni qandı, gedifdi. Gedəndə orda xəncərnən bunu doğruyuflar. And içirdi ki, – indi o rəhmətə gedib, anamın ata tərəfdən qohumlarıdı, – gəlin deyirdi ki, o vaxdı on iki qat tumannar vardı, onun altında gizdətdik, gənə də vijdansızdar onu xəncərnən doğradılar. Abbasqulu bəy onu gedif alıfdı.

Abbasqulu bəynən Kərbəlayi yaxın dostuydular. Kinoda göstərillər ki, Abbasqulu bəy gəldi, Kərbəlayi ilə söhbət elədi, getdi. Amma anamın nənəsi deyirdi ki, üş gecə Abbasqulu bəy bizim evdə qaldı. Kərbəlayının yoldaşı danışırdı. Kərbəlayi hamını çıxartdı, onnar qalan otağın böyür-başında heş kim qalmadı. Bir dənə döşək salıblar, gejə səhərə kimi kürək-kürəyə onun üsdündə yatıblar. Üş gejə onnar söhbət elədilər. Çayı-çörəyi getdi, çölə çıxmadılar. Orda nə danışdılar, nə danışmadılar bilinmir. Mən idim, məni də yaxın qoymurdular. İki versiya var. Talıbov KKB işçisi olub, nə meyidi tapılır, nə özü. Silahlı bir o olur. Bir versiya onu deyirlər, Abbasqulu bəyi vuran o olub. Bir versiya da odur ki, Kərbəlayinin xəbəri olmadan bunların dalınca beş nəfər gedir. Yolda bunların qabağın kəsib Abbasqulu bəyi öldürüllər (S.32).

## 119-123. QƏMLO

Qəmlonun bir epizodun deyəcəm, olmuş şeydi. Ağa dayı, bir də Xudo baba dediyim – bunlar ikisi də dost idi. Qəmlo bir gün gəlib Əlimərdana. Özü də çox girri adam olub ha Qəmlo, atı da saz at olub. Bir az da gobud danışan olub. Deyib ki, ayə, görəsən,

mənim bu atımı minə bilən olar?! Ağa dayım da bəy uşağıdı, neçə il kənddə atamın yanında olubdu. Deyib ki, niyə? Sənin atını minmək çətindi? Mən minərəm. O da deyib ki, ayə, sənin gönünü alaram ha minə bilməsən. Özü də qarrı vaxt olub. Deyib ki, ay kişi, sən ağsaqqal adamsan, gönümü alsan da, sənə bir şey deyəsi döyüləm. Eyifə deyif ki, bu gecə o atı minəcəm. Rəhmətdih Eyif dayı da bunnan dostdu da, nətər bunun sözündən çıxsın. Ağa dayı deyir, getdim, at qulağını şəklədi. Minmək istəyəndə qulaqlarını qırpdı, məni istədi vurub yıxa. Godək ağaş var idi, burnunun üstündən vurdum, qayıtdı geri. Ev damı var, bircə dənə qapısı var. Ta at hoppanıb ordan çıxası döyül. Deyir, ötürdüm ora, payanı aldım əlimə. Bir-ikisin nətər vurdumsa, hava da təzə işıqlaşır, Qəmlo görsə, güllələyəcək ey, uşaq-zad vecinə döyül. Nəysə, cilovu, deyir, keçirdib atın başına, mindim elə kalafanın içində, çıxardım çölə. Dedim, Eyif dayı, get Qəmloya deginən. Atın yəhəri yox, bir dənə cilovu var. Yəhərri atdansa, çılpax atı minmək etibarrıdı. Bərkə düşəndə tullana bilirsən. Nəysə, Aşağı bulaq deyilən yer var, ordan isti su çıxır. Üzü aşağı sürəndə Qəmlo çıxıb. – Əyə, bu pörtdəmiş onu nətər minib? Çöyrülüb görüb ki, Qəmlo durub baxır. Orda düzənlik bir yer var. Atam and içir ki, dedim, bu bədbaxt oğlu uşağı güllələyər. Bunların evinə də bizim ev yaxın olub. Atam beşaçılanı götürüf elə pencərədən Qəmlonu nişan alır ki, əgər Qəmlo tüfəngi götürüb Ağaya tərəf güllə açsa, gərək birinci vura onu. Allahdan olan işdi, elə bir şey eləmiyib, qayıdıb gəlib. Bir dənə erkəkdən mərcləşibmişlər. Rəhmətdih Hüseyn kişinin də yaxşı erkəkləri var imiş. Deyib ki, Hüseyn, bu pörtdəmişə mən məcburam erkək verəm, amma canımçün bütün verə bilmərəm. Erkəyi kəsdirib, bir şakqasın vurdurur, deyir, aparginən, halal xoşun

olsun. Ə, bu kimin oğludu? Deyirlər ki, Abbas bəyin oğludu. – Ayə, bu bacı oğludu ki. Eyif dayı da dilavər adam idi. Deyif ki, ay kişi, Hantda bəyəm bəy olub? O, bəy oğludu. Qəmlo gülüb deyib ki, əsl mənim bacım oğludu (S.10).

**120.**

Nənəmə bibiqızı deyirmiş, bunlar çox yaxın qohum olub. Qəmlo bir gün axşamüsdü Teyfəyə deyir ki, arvad, mən özümü buyün yaman pis hiss eliyirəm. Deyif, gəl səni çimizdirim, uzan yatginən. Bu axşam aşıx-aşıx oynamağa getmə. Aşıx-aşıx oynadığı da kimlər imiş? İki nəfərin adı yadımda qalıf, nənəm deyərdi biri Ağa, biri də Balaca Əmrah. Ağaynan da bu silahdaşmışlar, ermənini bu iki nəfər qırırmış. Sən demə, NKVD ermənilərnən əlaqə qurur, Ağanı tutullar. Deyirlər, səni bu şərtnən öldürmürük ki, sən Qəmlonun ölümündə şəxsən iştirak eləməlisən. Onu öldürə bilmirmişdər. Qəmlo hara gedirmişsə, beşatılan əlində gedirmiş. Bu dəfə Ağanın evinin içində ocağın başında aşıx-aşıx atırmışdar. Altı nəfər imişdər. Ağa deyif, mən onu öldürə bilmərəm, çünki Qurana and içmişəm, əlimi Qurana basmışam. Mən onun qolunu tutajam, öldürməyinə Əmrax, sən öldür. Heylə də eliyiflər. Nənəm deyir ki, fikirrəşiblər ki, birdən bu altı nəfərin əlindən çıxar. Onun üçün qapıya iki dənə adamcıl it qoyuflar. Nənəm deyirdi ki, o itdən hər oğul qutara bilməzdi. Adamcıl itdər bağlıyıblarmış qapıya, çıxanda o itdər bunu tutsun. Ayrı varyatı yoxdu, bunu belə öldürə bilərlər. Əmrah da üçdişdi gödək saplı yavanı gizdədibmiş. Oturublar, aşıx-aşıx oynuyanda həmin Ağa keçir arxadan Qəmlonun qolun tutanda deyir, Ağa, nə iş görürsən, axı biz Qurana and işmişik, – deyəndə Əmrax əlindəki yavanı saplıyır bunun sinəsinə. Həmin günü gejəynən gəlif Teyfəyə deyillər ki,

Qəmlonu ödürdülər. Deyif ki, Qəmlonu öldürüfsə, Ağa öldürüfdü. Ona deyin ki, onu nejə öldürüfsə, onu da heylə öldürəjəhlər.

Deməli, həmən günün səhərisi aparıllar Qəmlonu dəfn eliyirlər. Teyfə arvad Qəmlonun ətrafındakılara tapşırıq verir ki, qırxı çıxmamış Ağa ölməlidi. O vaxdı da Hant kəndində belə bir adət varmış. Bunların mal-örüş yerini heş kəs otara bilməzdi. O, namusa toxunmaq demək imiş. Deyir, yeddi dənə atdı gəlif düşüllər ora, gözdüyürlər. Bilirlər ki, Ağa gələjək. Camaat deyir ki, ayə, bizim mal örüşünü yeddi nəfər atdı otarır. Bu nə bilsin ki, burda iş quruluf. Deyir, durun gedək. Baxıllar ki, Ağa qavaxda gəlir əlində beşatılannan. Birinci Ağanın sinəsindən gülləynən necə vurullarsa, kürəyi açılmışdı, güllə kürəyinnən çıxmışdı. Onnan ölməmişdi, 15-20 metr aralıda yemişan kolu varmış, qanı axa-axa yemişan kolunun divinə kimi sürünmüşdü. Ağanı, deyir, heyləcə öldürdülər, bunnan da Qəmlonun qanın aldılar.

Sana bir tarixi hadisəni danışım. Mən Xankəndində institutda oxuyanda nənəmin bu danışdıxları yadımda idi. Dedim gedəjəm İmişlinin Şahverdilər kəndinə, həmən o kişinin oğlu orda yaşıyırdı. Mən tək getdim o evə. Dedim, mən gəlmişəm Qəmlonun öldürdükləri yavanı görməyə. Qırmızı məxmərə bükülmüş üşdişli yavanı çıxartdılar göstərdilər. Dedi, bu mənim atamın sinəsinə girən yavadır. Bu gün də həmən yava saxlanılır (S.11).

### 121.

Nənəm deyirdi Qəmlo altı qardaş olub. Əliqulu, Mehdiqulu. Bu ikisi yadımda qalıb, onun da əsl adı Qəmbəralı idi. Nənəm deyir ki, ermənilər Qəmlonun gözünün qabağında o biri qardaşlarının başın kəsibdi. Qəmlo onda taxdın arxasında gizdənibmiş, bunnarın hamısın gözüynən görüb. Ona görə

Qəmlo onnarın on dəfə artıq qanını aldı. Nənəm deyir mənim bildiyim dörd kəndin erməni əhalisini qayadan tökdü, güllələdi, evini yandırdı. Ona görə NKVD Ağaya demişdi ki, ya onu tut gətirginən, ya da onu öldür, səni buraxax. Heylə də oldu (S.11).

**122.**

Qəmlo o qədər gözdən iti imiş ki, atdığı güllə yayınmırmış. Demək, 1905-ci ildə əmisiynən gedirmişdər. İki dağın arasıdı, bular da bərəynən gedirlər. Dağın başından bunları veriblər güllənin qabağına. Qəmlo deyib, əmi, at dana. Deyir, hara atım? Deyir, görmürsən dağın başında. Tüfəngi əmisinin əlindən alıb özü atır, ikisin də vurmuşdu. Hətta belə bir rəvayət söylüyürlər ki, anası Qəmloya hamilə olanda ərinə deyib ki, mənim ürəyim ov əti istəyir. Atası ovçu imiş. Nə qədər ov gəzirsə heş nə tapmır, yolda qabağına bir canavar çıxır. Canavarın ciyarın gətirir, bişirib arvadına verir. Deyirlər, onun güclü olmağı canavardan keçmədir (S.41).

**123.**

Kərbəlayi imenno[46] Qəmloynan özünə Türkiyədən sığınacaq almışdı. Qəmlo darıxıb, ordan çıxıb gəlmişdi. And içirdi ki, Qəmlo kəndin bu başından girəndə o başından sovet hökumətin adamları çıxıb qaçırmış. Heylə qoçaq adam olub. Özünə də, Qəmloya da vətəndaşlıq alıb, amma Qəmlo qalmıyıb orda. O da hökumət dağıldandan sonra gəlib öz kəndlərində yaşıyıb. Onu da düşmənçilik üstündə öldürüblər. Barışıq adıynan onu gətiriflər bir evə seyidlərin əliynən. Bir-bir seyidlər aradan çıxır, bir Qəmlo, bir də sovet sədrinin qohum-əqrabası qalır. Malın gələn vaxdı bu deyir mən də gedim, duruf gedəndə hərə

[46] imenno – məhz

bir tərəfdən düşüb bunun üsdünə. Yavanı bunun qarnına soxullar, çıxıllar çölə. Birini göndərillər ki, get, gör ölüb, yoxsa sağdı. Onu bibim yoldaşı Vəli kişi danışırdı. Deyir, içəri girəndə görüb bu yerdə uzanıb, amma sağdı. Sağdı deyəndə kənddə bir dənə sovet hökumətinin adamı qalmır, hamı qaçır. Ögey qardaşı varmış, o köməyə gələndə onu da atıb yaralayıblar. Kəndin seyidi olub, kim olub deyəmmərəm. Qəmlo bunlardan xahiş eliyir ki, bu qədər düşmənçilik olmaz, barışıq eliyək. Bunlar deyiblər gedək. Aparıblar, orda barışıblar. Çay da içiblər, çörək də yeyiblər. Bunnan gələnlər yavaş-yavaş aradan çıxır. Bu tək qalanda hiss eliyir, intaası, silah yox. Deyib, malın gələn vaxdıdı, mən də durum gedim. Durum gedim deyəndə sovet sədrinin adamları yavanı bunun qarnına sancıblar (S.32).

## 124. SƏMƏND AĞA

Səmənd ağa Göyçədə ən səxavətdi adam olub. Onun Dərə kəndində yatağı var imiş. Babam danışır, bir gün Səmənd ağanın köçü dağa gedirmiş. Məzrədən keçəndə kəntdə də kasıb bir adam var imiş. Səmənd ağanın çobanı da itdərə yal çalmaq üçün bir eşşək yükü qara un aparırdı. O kənddə bir imkansız adam var idi, babam adın da deyirdi, yadımdan çıxıb. Bu dedi, ə, bəyin iti un yeyəjək, mənim də külfətim evdə ajınnan qırılajax? Eşşəyi, deyir, apardı qapıya boşaltdı. Səmənd ağaya dedilər ki, filankəs eşşəyi unnu-zaddı apardı. Gəldi dedi, – indi bilmirəm o kənddə imkannı adam kim imiş, – dedi Allah ona bir ölüm versin, bir nəfəri saxlaya bilmir o? Gəldi dedi, ay filankəs, o undan hələlik bir az götür, dağa gedillər, itdər orda aj qalar. Getsinnər bunnar, tapşırajam, evdən sənə neçə meşox isdiyirsən un versinlər. Səmənd ağanın helə səxavəti olub (S.15).

## 125-126. OĞRU MEHDİ

Köşbəhdə məhşur oğru Mehdi olup. Cəbrayılın Mərcannı kəndi var, bax o Mərcannı tam bizim dağa oturdu. Onnarın yurtdarı varıydı, nağdı bı dəyqə Hajı Fərhad yurdu durur orda. O Mehdi də çox bərk oğruydu, mamamın əriydi. Biz mama deyirıx atamızın bajısına. Bı gedəndə oğurruğa itdər bını görüf da. Fəğri qarı varmış, itdərin səsinə çıxıb yala. Deyir, ay Mehdi, ay Mehdi, Allah ya səni öldürsün, bizim canımız kutarsın, ya bizi öldürsün, sənin canın kutarsın.

Mehdi, – Allah rəhmət eləsin öləninə, – bınnar üş bajanaxdılar, üçü də bərk oğrudular. Amma Mehdiyə heş biri çatmazdı. Bı tərəkəmə çıxıf gəlifdi, bir dənə çoban qalıfdı, alaçıx qalıfdı. Ağır da bölühdü. Kasıflıx, özü də on bir uşağı olufdu. Üş dənə oğlu, altı qız, hələ bir də nəvəsi yeddi. Deyir, məjburux oğurruğa getmağa, day mümkün dəyil. Deyir, çıxdıx ki, gedax, payızdı da, bir-ikisin gətirəx. Deyir, arxaca girəndə dedim, uşaxlar, gəlin bir şey eliyax. Birin adı Göyüşdü, birin adı Ağaverdi. Ağaverdi dedi, nə deyirsən? Deyir, dedi ki, siz burda durun, mən gedim arxajı yoxluyum. Bınnar dedi, yaxşı, get. Mehdi getdi, aradan bir xeylax keşdi, bir də baxdıx ki, sarı qoş gətirifdi, bir uju burda, bir uju orda. Ağaverdi dedi ki, ə, sənin nənənin kəlləsi belə-belə olsun, sürünün içinnən bir qoyun tapa bilmədin, getdin, xalxın toxumluğun gətdin? Ə, bını qaytar sənə deyirəm, xalxın toxumluğun qaytar. Bı Mehdini məjbur eliyir. Mehdi deyir, onda gəlin belə eliyax. Gedim, gətirə bilsəm bını bıraxax, gətirə bilməsəm da, əlaş yoxdu, bunu aparax. Deyir, elə arxaja çatdım, girdim qoyunun içinə, bir də onda gördüm ki, biri deyir, ə, sənin ananın kəlləsi belə-belə olsun, doymadın, bir də gəldin? Demiyəsən ev yiyəsi görübmüş, amma

səsin çıxarmırdı ki, eybi yox, birin aparsın. Bu təkrar bir də qayıdanda daha dözə bilmir, səsin çıxardır ki, doymadın bir də gəldin? (S.25)

## 126.

Mehdi rəhmətdih danışırdı. And içirdi ki, Qayıb adında bir oğlanıydı, Allahtala elə bil qaybınnan yaradıf da. Deyir, bı hər gün gəlir, deyir ki, Mehdi əmi, məni də oğurruğa apar. Deyir, olar bir 18-20 yaşı. Deyirəm, ə, vallah, bu bir sənət dəyil, mən məjburam, bir belə külfətim. Gəl nəhlət şeytana denən. Əl çəhmədi, dedim, yaxşı, gedax. Orda Leyliqaçan adında kənt var, bını götürdüm, getdıx bırıya. Deyir, bıra dərədi, tavla[47] düz qaşda tikilif. Getdi bı tavlanın divarın dəldi, baxdı ki, heyvan içərdədi da. Deyir, elə dəliyi aşdıx, təzəcə kutarmışdıx ki, onda gördüh çırax yandı, elə o saat da keşdi. Deyir, Qayıba dedim, bir bekara dəyan, qoy çıxıf getsin. Demiyəsən, ev yiyəsi ayılıf, dəlikdən düşən işığı görür. Elə Qayıb bajaan ağzına çatmağıy-nan güllənin açılmağı bir olur. Burdan dəyir, kürəyin arasınnan çıxır. Yombalanır gedir suya. Deyir, yombalandı, mən də qaşdım bının dalınca. Elə suya çatdı, ağzın suya uzatmağnan canın orda tafşırdı.

Nəysə, deyir, bını çəvirdim daşın divinə. Gəldim mamama dedim ki, Avdıkərimə deginən Mehdini vuruflar. Bı öz adını verif ha. Deyir, gejənin bir aləmi, bajım bajadan qışqırdı ki, a Avdıkərim, Avdıkərim, Mehdini vurdular. Dedi, oğul, durdum gəldim, Mehdi əvdə sağdı. Dedim, ə Mehdi, bu nə oyundu bizim başımıza açırsan? Dedi, məni vurmuyuflar, Qayıbı vuruflar. Qayıf da qalıf orda, indi gedif gətirmax lazımdı meyidi. Deyir,

---

[47] tavla – tövlə

əmim Rzanın atı olur, getdim bının atını yəhərrədim, palannadım, mindim. Atam da dərziydi, o kəntdə Usda Sadığa beş-altı il şəyirtdih etmişdi. Deyir, elə getdim dərənin qaşınnan keşdim kəndə tərəf, məni orda verdilər beşaçılanın qabağına. And içir dədəm, deyir, güllə atın yalmanınnan belə keçir, mənə dəymir. Deyir, bərdən qışqırdım ki, ayə, atmayın, mən Avdıkərimməm. Deyir, ordan Sadığın arvadı çıxdı. Dedi, ay köpəyuşağı, Avdıkərimdi, siz kimə güllə atırsız? Deyir, güllənin səsi dayandı. Yendim dəriyə ki, meyit çayın qırağında qayanın yanındadı. Nəysə, bını bir təhərnən yühlədim ata. Belə qənşərə çıxdım, gördüm camaat baxır, da mana güllə atan olmadı. Bı meydi götdüm, apardım yiyəsinə verdim. Verənnən sora atı apardım buraxdım həmən yerə. Gəldim ki, əmim ordadı. Dedi ki, Avdıkərim, atı neylədin? Dedim ki, əmi, buraxdım orya. Dedi, atın boynuna bir şey bağlamışdın, bağlamamışdın? Dedim, əmi, nə bağlıyardım? Dedi, ə, köhnə çarıxdan, patinkadan bir şey bağlıyardın, at çərriyajax öləjəx. Sən öl, getdim ki, at çərriyif ölüfdü. Dedi ki, oğul, meyit gətirən at hökmən çərrəməlidi, gərəh onun boynuna bir şey bağlıyasan, çarıx, patinka, o götürür da (S.25).

## 127. AŞIQ ALI

Bir gün bir nəfər gəlir deyir ki, Aşıq Alı, filan bəy gəlib. Bəy gəlib deyir, Aşıq Alı, böyük oğluma toy eliyirəm, onu sən eliyəssən. Deyir, mənim gözüm üsdə. Havaxt? Deyir, ayın iyirmisində. Bu gedir, bundan iki-üç saat sonra mənim kimi yetimin biri gəlir. Deyir ki, Aşıq Alı, mənim vur-tut bir dənə oğlum var. Mən əhd eləmişəm ki, mənim oğlumun toyunu sən eliyəsən. Neçə ildi gözdüyürəm. Deyir, toyun nə vaxdı? Deyir, ayın iyirmisində. Deyir, mən iyirmisinə söz vermişəm axı. Çox fikirrəşir. Deyir,

bəyin altı oğlu var, bunun bir oğlu. Şəyirtdəri göndərərəm bəyin oğlunun toyunu eliyərlər. Özü də şəyirtdərinə deyir ki, bəyə deyin, altı oğlu var, söz verirəm onun beşin də toyun mən eliyəjəm, özü də təmənnasız. Bunun bir oğlu var, özü də əhd eliyib, mən gedirəm bunun oğlunun toyuna. O vaxdı yaxşı kişilər olub. Bəyin toyuna iki dənə şəyirdini göndərir, özü isə yetimin oğlunun toyuna gedir. Bəy xəbər alır Aşıq Alı hanı? Deyir, Aşıq Alı dedi onun beş oğlunun da gəlib təmənnasız toyun eliyərəm, bunun bir oğlu var, onu gedib eliyəcəm. Deyir, heylə şey yoxdu. Aşıq Alı gəlməsə, bir kopoğlu da toy eliyəmməz. Oğlannarın çağırır. Deyir, atdanın. Hamısı atdanır. Deyir, gedirsiz molla çağırırsız, bu günnən kasıbın oğluynan olursuz siğə qardaş. Altı yox bu gündən olursuz yeddi qardaş. Gedin o toyu eliyin, Aşıq Alını da götürüb gələrsiz toyu burda başdıyarsız (S.41).

## 128. QAÇAQ ŞAHPƏLƏNG

Orda Muradtəpə var, onun başında bir dənə qəbir var, yalan olmasın, qəbrin uzunnuğu, bəlkə, iki metr yarım, üç metr olub. Şahpələng adında adam olub, Nikolay vaxdı qaçaq olub. Onun qardaşına deyiblər ki, qardaşını öldürüblər. Deyib ki, mənim qardaşımı heç kim öldürə bilməz. Nə qədər böyük, cannı adam imişsə. O da nətər olub? Üç nəfər imişlər. Nikolay hökumətindən gəlib – demirəm kəndin yiyəsi Alhüseyn oğlu Elyas olub, – gəlib Elyasa deyiblər ki, burda üç dənə qaçaq var. Sən demə, bu qaçaxlar da Alhüseyn oğlu Elyasnan dost imiş. Elə bilginən səhərə yaxın imiş, ay işığı imiş, güllə atırlar, bunlar da durub yuxulu-yuxulu qaçıllar düz ordunun üstünə. Ordunun üsdünə qaçanda burda atışma düşür. Beş-altı metrdən şəlalə tökülürmüş, bunlar girillər şəlalənin altına, yoxa çıxıllar. Sən

demə, bura bunların məskəni imiş. Axırda Alhüseyn oğlu Elyasa deyirlər, o da tüfəngi tuşluyur, atır suya. Görüllər ki, sudan qan gəlir. Qılıncı sıyırır, sən demə, burda oturmuşlar, birinə burdan girir, birini də yaralıyır. Tüfəngi dirəyir bunun təpəsinə. Deyir, Allah sənə lənət eləsin, bir xurcun orda qızıl var. O qızılı da götür, Elyas, düşmənə qalmasın. Atam danışırdı ki, 18-ci ildə Elyasın qızı rəhmətə getdi. Atamın anasına vəsiyyət eliyir ki, filan pəyədə əhəngdən təndir qayırıb qızılı basdırmışıq onun içinə. Ermənilər 70-80-ci illərdə o qızılı tapmışdılar. Qaçaqlardan biri Şahpələng olub, o birinin adı yadımdan çıxıb. Şahpələngi, deyir, uzadıblar atın üsdünə, o qədər uzun imiş ki, əli qabaxdan yernən sürünürmüş, ayağı da arxadan sürünürmüş. Bir dənə bayatı deyirdi rəhmətdik atam. Yaralı olan deyirdi ki:

Arandan dağa gəldik,
Dağdan arana gəldik.
Əli qannı, üzü qannı
Əcəb bu yaylağa gəldik.

– bu bayatını deyib ağlıyırdı. Alhüseyn oğlu Elyas da atamın dayısı idi. Nə qədər buna deyifdi ki, bunu burax, deyir hara buraxıram. Bunu tutmuşam, mənə vəzifə verəjəklər (S.41).

## 129-131. QAÇAQ CƏMİL

Babamız Qaçax Cəmil oluf. Qaçax Cəmil də ermənilərin qvardiyasını qırdığına görə qaçax düşüb. Sovet höküməti qurulanda o dövlət adamı oluf, on səkgizinci ildə Göyçə İnqilab Komitəsinin sədri olufdu. On səkgizinci ildən sonra gənə də hökümət işində işdiyib, hətta otuzuncu illərdə polisdə işdiyib. Göyyurd deyillər, o yaylaxda oluflar. Öz qohum-əqrabasını,

kim yaxınıdı hamısını yığıb, orda ermənilərə qarşı mübarizə aparıb, qaçaxçılığ eliyib. Rus da o vaxtı gəlib, kəndin də içində satqın oluf da. Qış vaxdı buları satıflar. Urusun qoşununnan ermənilər bunları mühasirəyə alıflar. Orda bizim nəsil-kök çox qırılıfdı. Deyilənə görə, o mühasirədən iki nəfər sağ çıxıb: biri mənim babam Qaçaq Cəmil olub, biri də onun dostu olub. Olar mühasirəni yarıb çıxıflar. Ağızdan eşitmişəm mən də. Nənəm də yanında oluf, atam da yanında olufdu. İsdiyib arvadı vura ələ keçməsin, yanındakılar deyif ki, bə bu uşağa kim baxacax? Vurmuyuf, öldürmüyüf. Deyif, mən getdim, bu uşağın başının hər bir tükünə – mənim atamı deyif, – bir erməni öldürəjəm. Aradan çıxıflar. Onnan sora ondan xəbər çıxmadı. Kimi dedi Naxçıvandadı, kimi dedi Türkiyədədi. Amma bir versiya var, o ağlım kəsən versiyadı. Deyir, Gədəbəy tərəfdə onun dostu varmış, qaçıllar ora. Əmmə qışın günü qara düşüflər, bunların ayağı donufdu. Kahada yaşıyırlarmış, dostu bunları yeməknən təmin eliyirmiş. Bax, belə yaz vaxdı oluf. Bular görüf kü, artıx qılçaları işdəmir, heç hara gedəmmiyəjəhlər. Deyir ki, bizi, onsuz da, gəlif tapajaxlar. Dostum da yazıxdı, onu incidəjəklər. Əvvəl dostunu vurub, sonra da özünü vurub öldürüf. Bir gün, deyir, Gədəbəyli dostu bunlara yemək aparanda görüf kü, ikisinin də meyidi var (S.27).

**130.**

Qaçaxçılığ etməsinin səbəbi odu ku, o vaxdı ermənilər camaatı qırırdılar. Bu da Selikovun başını kəsir, onnan sora qaçağ olur. Dövlətdə də vəzifəsinnən imtina eliyir, erməninən mübarizəyə girişir. Əsas səbəb bilirsən nə olub? Səmənd ağa olub Zod kəndində. O deyif ki, Bala Qaraqoyunnuda qoçağ oğlan var, onu çağırax. Bunlar gejəynən xəbər göndərif ki, Qaçax

Cəmili çağırın gəlsin. Gəlib köməyə, Selikovu öldürənnən sonra düşmənçilih başdıyıf.

Onnan qabax kənddə fəal adamları "bunlarda silah var" bəhanəsiynən aradan götüzdürürmüşdər. Kəntdə iki nəfər cavan oğlanı da silah bəhanəsiynən salıblar hökümət şöbəsinə, sonra səyyar məhkəmə keçirdib güllələnmə veriblər. Babam Qaçax Cəmil birinci ordan qaçax düşüb. Hökümət işçisi ola-ola öz beşaçılanını aparıb gizzədib qəbirsənnixdə. Məhkəmə hököm oxuyub, oğlannarı gülləliyən zaman beşaçılanı götürüf, gəlif həmən o məhkəmə üzvlərinin hamısını gülləliyif. Onnan sora başdıyıf qaçaxçılığa. Onnan sora öz dəstəsiynən gəlif Selikovun başını kəsif. Bax, belə bir oğlan oluf. Selikovu öldürmək üçün tələ qurullar. Məşədi İsə söhbət etmək bəhanəsiynən Selikovu çölə çıxardıb. Bu da hazır gəlib gözdüyür, çıxanda bunu vurub. Selikovun başını kəsif. On altı put oluf o it oğlunun başı. Cəmil babamı hökümət yox eliyənnən sora nə olasıydı, yerdə qalan adamlar kimə güvənəsiydilər? Nənəmi Qazaxıstana sürgün elədilər. Kənddə beş-on ev qalmışdı, onları da köçürtdülər Qaraqoyunluya. O vaxta qədər də qohum-əqraba Goranboy ərazisinə, Şəkinin ərazisinə, Tovuz rayonu ərazisinə, ayrı-ayrı yerlərə dağılıb. Qaçağ nəsli olduğuna görə Sovet höküməti heç iş də vermirmiş ey, qoymurmuşdar irəli gedə. Bax, müəllimin dədəsi hökumət tanımasın deyə gəlib bura. Bizim kəntdə Kürd Hasay olub, o, Şirasdan əmimi özünə qardaş yazdırıfdı. İsmayılov Şirastan Nəcəfqulu oğlu. Ölənə qədər əmim bu adnan yaşadı.

Nənəm Qaçaq Cəmilin əmisi qızıdı, qardaşdarı hamısı qaçaqdı. Qardaşı türmədən gəlif, yazığı şərriyif bir də tutuflar. Nənəmgildə də guya silah oluf. O silaha görə dədəmi qırx gün döyüflər. Dədəmin dayısı oğlu var, rəhmətdih Səfyar əmi. Gəlif

ermənin milis rəisinə deyif ki, ə, bunu niyə tutufsan? Deyir, filan şeyin üsdündə. Deyir, sabah Şəmistanı göndərəcəm, gəlif silahı verəcək sənə. Erməni ayna gedəndə dədəm deyif ki, məndə silah nə gəzir? Səfyar əmim deyir, sənin nə işinə qalıf, nə desəm gedif onu deyərsən. Sabah ora gedəndə deyərsən məndə silah vardı, bəs verdim Səfyar əmimə. Erməni Səfyar əmimə nə deyəjək, qolu zorru adamdı. Kəsəsi, gedir ora, erməni bunnan soruşanda bəs silahı neynədin, deyir silahı verdim Səfyar əmimə. Səfyar əmim də qəsdən qapıda durufmuş. Milis rəisi girir içəri, deyir Səfiyar can, silah hanı? Deyir, nə silah, ə? Qırx gündü mamam oğlunu döyüf öldürürsən. Yazığı gündə bir cürə döyürsən, bir gün deyir Məmmədddədi, bir gün deyir Həsəndədi, indi də deyir Səfyardadı. Onlarda silah var, silah axtarırsan?

Kəsəsi dədəmgilin ayiləsinə iyiri dörd saat vaxd veriflər ki, axşam saat səkgiz radələrinə kimi kənddən çıxırsan. Babam, nənəm, dədəm, iki qardaşı, bir də bacıları bütün var-dövlətin orda qoyuflar, bir at, irağ üzündən, bir eşşək götürüflər, üsdlərinə yühləyə bildiklərindən yühlüyüf ordan çıxıflar. Axşam tərəfi nənəm çuğula deyif ki, oğul, filan şeylər damdadı, ged onları götür. Amma bizdən satqınnığ eləmə, hansı yolu getdik demə. Deyir, yaxşı, demiyəjəm. O da qohum adamdı, yad adam döyül. Babamgil ordan addıyıflar Kəlbəcər istiqamətinə. Ermənilər gəlif görüflər ki, dədəmgil səhrəddən xeylax uzaqlaşıb. Deyiflər, əşi, onların dalınca güllə atmağın xeyri yoxdu. O yazıxlar da gəlif çıxıflar indiki Samux rayonuna, Kolayır kəndinə. Bir az orda qalıflar, – 1940-cı ildə oluf bunlar, – sonra Goranboyun Şəfibəyli kəndinə köçüflər, orda əmisi evi oluf. Bala Qaraqoyunlu kəndini o şəkildə sürgün eliyiflər, Böyük Qaraqoyunlu kəndi qalırdı, onları da 1948-1952-ci illərdə köçürdülər (S.27).

## 131.

Atam qaçağ oluf, iyirmi-beş il Sibir türməsində yatıb Qaçax Cəmillə eyni vaxtda. Qaçax Cəmilin dəstəsində olufdu da, əmi uşağıdılar. Atam iyirmi beş il qutarandan sonra qayıdıf gəlifdi bura. Atamın qaçaxçılığ etməsini savet qurluşunnan, savet ideologiyasının əlaqələndirillər, o səhv məlumatdı. On səkkizinci ildə erməni-müsurman davası başdıyır. Onun danışığından deyirəm ha. Cəmil əmim qaçaxların başçısı idi. On səkgizinci ildə Selikov orda general olufdu. O gəlif deyif ki, mən belə yeyəjəm-içəjəm, musurmannarnan belə kef çəkəjəm. O kəntdərin ağıllı kişilərin Cəmil əmin topluyur. Deyir, ə, bunnan nağayrax? – Zod kəndində qoyuna hündür ağıl düzəldirmişdər daşnan. – Deyir, onu ağılın yanına çağır, ora çatanda onu vurajam. Vurur, onun başını da Cəmil əmim kəsir. Onnan sora qaçaxlığ eliyir. Bunun hamısını atam mənə deyirdi. Deyirdi, o yalandı guya biz savet hökumətinə qarşı vuruşurdux, biz savet hökumətindən qabax erməniyə qarşı vuruşmuşux.

Qaçax Cəmilin dəstəsində Qaçax Yaqub, Bəhrəm, Ədil, Məmməd, Qələndər, Bahadur, Qaçax Qurban oluf. Onlar Göyçə ətrafında, bir də Göyçəynən Kəlbəcər ətrafında Ala Göllərdə yığışıb, zərbə vurub, oralarda hərrənirmişdər. Olar silahı gəlib Gəncədən aparırmışdar. Çerez Murov it yolunnan gəlib, ordan silahı aparırmışlar. Təhlüləynən otuzuncu ilə qədər döyüşüflər. Xasayın atası Bəhrəm əmi də döyüşüf. Bəhrəm əmi deyir, ermənini öldürmüşüh, bunun şinelin geyindik, lağ-lağı elədik də. Dedim, ə, bax gör mən çekistə oxşuyuram? Deyir, döyüşəndə bunu mühasirəyə alıflar, bunu tutuflar. Deyillər ə, kimə oxşuyurdun sən? Deyif, indi özümə oxşuyuram. Bax, o ətrafda atamgil, yeddi əmisi uşağı, Cəmil əminin qardaşdarı, maması uşağı, dayısı uşağı, Bala Qaraqoyunnuda nə qədər tayfa var onun

hamısı Göyçə uğrunda vuruşub, onlardan salamat qalan bircə atamdı. O da nə salamatdı? İyirmi beş il gedib türmə çəkif. Bayaq adını çəkdiklərimin hamısı Bala Qaraqoyunnudu, başçıları da Qaçax Cəmil oluf. Ora tam dağılıf, qalan da sürgün olunuf (S.27).

## 132-133. QAÇAQ QANBOY

Qaramannıda[48] Qaçaq Qamboy olub. O vaxd Nuru paşaynan Ənvər paşa gələndə Qaçaq Qamboya qonağ olublar. Qaçaq Qamboy erməniyə qarşı döyüşüb, gedib Əskərandan ermeninin generalın tutub gətirmişdi. Axırda Mir Cəfər Bağırov bu kəndin başında quyular qazdırıb tüfəngləri düzmüşmüş. Deyir, o qədər atmışdı, bu barmağı[49] yara olmuşdu. Qoşun girə bilməmişdi bura. Zirehli maşınnan gəlib öldürmüşlər. Mircəfər Bağırov deyibmiş ki, bilsəydim bu təkdi, mən belə oğulu öldürməzdim (S.41).

## 133.

Qamboyun düşməni çox imiş. Atam deyirdi, mən bəlkə əlli dəfə görmüşəm Qanboyu. Bunun nökəri var imiş. Buna deyirlər ki, bu nökəri sənin düşmənlərin göndərib ki, səni öldürə. Dədəm deyir, dedi ki, mən doqquz dənə adam öldürmüşəm, hamısı da özümdən iyid, mən yetim-yesirə güllə atmaram. Gəlib nökərə deyir ki, mən yetim-yesirə güllə atmıram, səni öldürməyi də özümə şərəf saymıram, çıx get, səni öldürmürəm. Nökər, nəhlət kopoğlu da, Quran götürüb gəlib ki, bu Quran haqqı, məndən sənə xəta gəlməz. Gejə bu harasa gedir, gələndən sonra atı verir nökərə, tut ağacının divində taxtın üsdündə yatır çöldə. Nökər

[48] Yevlax rayonu

[49] İşarət barmağı

gəlib xəncəri bunun boğazına çəkmək istəyəndə özün sıxır, axı gərək xəncəri endirəsən ki, boğazını kəssin, taxtın kənarı qoymur xəncəri yendirməyə. Bu qalxır, üzünü belə tutur. Dədəm deyir, üzündə bir şıram vardı bura kimi. Bu qalxanda nökər xəncəri atıb qaçır. Sonra bunu müalicə eliyirlər, bu sağalır. Deyir ki, mən onu öldürsəm, ona güllə atsam, deyərlər ki, Qamboy da o səviyyədədi. Nökər də qonşu kəndə qaçmışmış. Deyir, Qamboy qonşu kəndə gedəndə həmin nökər bunu görən kimi qorxusundan yatırmış yerə. Qamboy atnan kəndin içində o yana, bu yana keçirmiş. Deyirmiş, mən ona güllə atmıyajam, amma onun ürəyini partdadıb öldürəjəm (S.41).

## 134. İLYAS BƏY

Bu kişinin atası bəy idi. O kişini gördüm, 75-ci ildə öldü. O vaxdı irannılar gəlib burda işdiyirmişlər. Cavan oğlandı, boylu-buxunnu oğlandı. Burda nəsə bir səhv iş tutub, kiminsə qızına söz atıbdı, bunu gejə tutub əlin-qolun bağlıyıblar. Aparıllar ki, bunu öldürələr. İlyas bəyin məhləsinin o tərəfi də çökəkdi, bu tərəfi də. O vaxdı da çəpər kol-kos imiş. Bu özün atır kolun üsdünə, yumalanıb düşür bu kişinin məhləsinə. Bular qorxurlar bəydən. Əmisi oğlu deyir ki, bura girmək olmaz, bura girərik – həddindən artıq amansız adam olub – bizi öldürər. Bunu çağırax, deyək filankəsi aparırdıx öldürməyə, sizin həyətdə gizdənib. Bunu çağırıflar, deyillər filankəsi aparırdıq öldürməyə, özün atdı sizin çəpərə. Deyir, burda durun, gəlirəm. Gəlir ki, – bunun bir dənə damı vardı, – damın ağzına qısılıb durufdu. Cibində pıçağı vardı, pıçağı çıxardır, bunun əlin kəndirin açır. Deyir, qorxma, səni mən heç kimə verməərəm. Özü də əmisi oğlannarı idi bunu aparanlar. Gəlib deyir ki, mən onu verəsi olmadım sizə. – Ə, – deyib, – niyə? Deyir, o mənə pənah gətirib. Bir quş adama pənah gətirə, ona dəymirlər. Bu da mənə pənah gətirib, mən onu sizə

verə bilmərəm. Nə qədər dirəniblər, beşaçılanı çevirib deyir, sən öl, tərpənsəz atajam. Bu biri deyir, bu allahsızın biridi, burda qan tökəjək, çıxax gedək. Helə olub həmin adamı verməmişdi (S.41).

## 135-137. TOY GÜLƏŞİ

İndi Səhləbadda olur o kişinin nəvəsi, onlar eyvazlılar nəslindən idi. Əmimin hardasa on səkgiz-on dokquz yaşı var imiş, cavan uşaq imiş, amma bunun iyirmi beş-iyirmi altı yaşı var imiş. Bizdə hər bir toyda cavanlar güləşirmiş. Ən çox da güjdü adamları güləşdirirmişlər. Rəhmətdih atam deyirdi ki, mən quzuya gedirəm, böyük qardaşım qoyuna gedir. Həmin gün məni saxladılar, kənddə də toydu, əmimnən güləşdirməyə. Böyük əmim çox güjdü adam olub, amma əl tutumu olmuyub. Atam deyir, bir dəfə məni böyrümdən sıxmışdı, sümüyümü qırmışdı tək əlli. Atam da cannı adam idi. Bunnan qabaxlaşanda çiyninə qaldırıb bunu, fırrıyıb tulluyub. Tullayanda bu dizi üstə düşüb. O da pəhlivan imiş ha, hətta gəvəni ortadan çəkib cırırmış. Onun barmaxları gödək idi, əl tutumu yox idi. Amma əmimin əlləri yekə olub, biləyi də anam deyir ki, bir qarış idi. Əmim onu götürüb tulluyub, bu dizi üstə düşüb. Qayıdıb bir də tutaşanda orda bir dənə ağsakqal erməni olub. O deyib ki, bunları tutun, bunların hansısa birinin yıxılmağı ölümdü bunlar üçün. Böyük əmim görüb ki, qardaşı üsdəliyir, deyir ki, dəymə, dəymə, qoy güləşsinnər. Erməni də olsa, yaxşı adama hörmət vardı da. Deyir, Süleymana bax ey, Süleymana bax. Bunların hansısa birinin basılması onu üçün ölümdür. Həmin erməni onları güləşməyə qoymuyub. Həmən pəhlivanın adı Həsən olub. Onu da sovet hökuməti tutub sürgün eliyib Sibirə. İllər sonra oğlu Sibirə əsgərliyə gedəndə gedib atasının qəbrini tapmışdı (S.41).

## 136.

Rəhmətdih Məhərrəm dayı söhbət eliyirdi. Deyir ki, kənddə toy gedir. Kəlba İsmayıl dağdan bir kürd gətirif, üş gün-üş gejə toy gedəcəh. Bu toyda güləş olub. İsmayıl ağa da mənim babamı çıxardıf, kimi çıxarıfsa, bu kürd də bedroya[50] çəkif hamısın belini yerə vururmuş. Səhər toyun axırıncı günüdü. Deyir, qar yağıf, İsmayıl ağa qapıda o yan bu yana gedif var-gəl eliyir. Birdən qayıtdı oğlu Usufa dedi ki, atı min, filan obaya getginən, orda filankəs var. Get ona deginən ki, başın orda isdatsın, burda qırxsın. Usuf gəldi, bunu da gejə gətirif, nə bilim saat birdi, ikidi, üşdü. İsmayıl ağa dedi ki, səhər toyun axırıncı günüdü, güləş gedəjəhdi. Kəlba İsmayıl bir kürd gətirif, bizimkilərin hamısının belin vuruf yerə. Səhər onnan güləşə bilərsən? Dedi ki, güləşərəm, ağa, filankəslərdən artıx döyüləm ki. Bu da, deyir, pələ kimi adamdı, qüvvəli.

Deyir, səhər toy başdadı. Şahvələd də mənim yanımda oturuf. Səsi əsə-əsə mənnən soruşur ki, o hansı kürtdü? Dedim, qorxursan Şahvələd? Dedi ki, yox, qorxmuram. Cəngi çalınır, bunlar çıxıflar. Bunu soyundururam, barmaxları nervidən əsir. Bu, deyir, kürdün burasından tutdu, dik qaldırdı qoydu yerə. Hamı başdadı əl çalmağa. Başdadılar fırranmağa. Kürd, dedi, hərrədi bunu qoydu g..ünün üsdünə. Onda mən gördüm ki, insanın gözü nətər yerindən çıxırmış. Məhərrəm dayı deyir, insanın böyründəki əzələlər yoxdu? Bu, kürdün əzəllərindən tutdu, nətər nərə çəkdisə, deyir, gözdəri yerindən çıxdı. Kürdü qaldırdı başı üsdünə, fırradı, fırradı, nətər böyrü üsdə yerə çırpdısa, kürd ayağa qalxası olmadı. Onda, deyir, gördüm İsmayıl ağanın əli tapançadadı. Demək, kürd bunu yıxası olsaymış, kürdün təpəsinə bir güllə vuracaxmış (S.19).

---

[50] Bedro – güləşdə fənddir, rəqibi ombanın üstündən aşırmağa deyilir.

## 137.

Faytonnan gedib başqa kənddən gəlin gətirirdilər. Gəlin gətirəndə yolu kəsirdilər. Gərək yolu kəsənlərə ya iki-üç dənə qoyun verəsən ki, yolu açsınlar. Ya da bir nəfər çıxıb onlarla güləşməlidi. Onda güləşməyə mənim atamı aparırdılar. Həmişə toylarda atam güləşirdi. O vaxdı üç günlük toy olardı, toyun axşam tərəfi güləş olardı. Cəngi havası çalınırdı, onun sədası altında güləşirdilər. Hətta biz təzə gəlmişdik, əllinci ildə mənim bacımın toyu oldu. Bizim kolxoz sədri Çobankərədən idi, adı Mamoş idi. O da güləşən idi. O cannı adam idi, amma mənim atam tökmə kişi idi. Toyda dedilər ki, bunlar güləşsin. Mamoş yıxsa kolxoz sədri qonaxlığ verəcək, Teymur kişi yıxsa ispalkom qonaxlığ verəcək. Bular gözümün qabağında tutaşdılar, birdən mənim atam bir nərə çəkdi, o yekəlikdə kişini qaldırdı başı üsdünə, başdadı fırramağa. Dedi, indi necəsən, salım səni yerə? Dedi, yox. Onu qoydu yerə (S.20).

## 138-139. ALLAHA İNAM

İnsanların o vaxt məşğuliyyəti mal idi, əkin idi. Arpa, buğdanı əkmişdilər, hamısı qızıl sümbül idi. Bir də baxdılar ki, göyün üzünə qara bulud gəldi. Guruldadı, tırıldadı, elə bir dolu düşdü ki, gəl görəsən. Gördülər ki, ruzi əldən gedir. Kəndin camaatı yığışdı, Allaha yalvardı, kimi qurban dedi, kimi özünü döydü, kimi ağladı, ay Allah, bizə rəhmin gəlsin, ruzimiz əldən getməsin. Ancaq orta yaşlı bir kişi papağı vurdu qoltuğuna, başladı nanay çalıb oynamağa. Camaat buna baxdı, şəkkə düşdü. Dedi, əşi, bu nə işdi, biz Allaha yalvarırıq, bu isə çalıb-oynayır.

Nə isə... Dolu kəsdi, bu dolu öz işini görmüşdü. Camaat tarlaya sarı yeriş elədi. Gəldilər ki, tarla nə gəzir, arpa-buğda

hamısı torpağa qarışıb. Amma bu çalıb-oynayan kişinin zəmisinə şeh düşüb. Tarla yırğım-yırğım yırğalanır, qızıl sümbüllər valay gedir. Camaat lap yolunnan çıxdı, həm ruzanın getməsi, həm də bunu belə görəndə lap dəli oldular. Peyğəmbərin vaxtı idi. Töküldülər gəldilər peyğəmbərin yanına. Dedilər, ya peyğəmbər, bizə cavab ver görək ki, bu nə işdir. Peyğəmbər dedi ki, axı nə olub? Dedilər ki, dolu gəldi, bizim ruzamızı apardı. Bu öz yerində. Axı biz Allaha yalvardıq, qurban dedik, başımıza-gözümüzə döydük, amma bax bu filankəs nanay çalıb oynadı. Gedib gördük ki, onun zəmisi salamat qalıb, bizimki viran olub. Peyğəmbər fikirrəşdi ki, bunlara tez cavab vermək çətindir, inanmayacaqlar. Dedi, ay camaat, indi mən sizə nə deyə bilərəm, bu Allahtalanın işidi, gedin rahat olun, mən bu gecə Allahla kəlmə verib, kəlmə alaram, görərəm bu nə olan işdir.

Gecəni camaat yatmadı. Səhər açılar-açılmaz hücum elədilər peyğəmbərin yanına. Dedi, ay camaat, Allahla danışdım. Dedi ki, nə qədər dolu yağmamışdı, ruzi əldən getməmişdi, o qurban deyənlərin, Allaha yalvaranların bir dəfə də olsun yadına mən düşməmişdim. Amma o nanay deyən, çalıb oynayan var ha, həmişə oturanda da, duranda da məni çağırıb. İndi mənim Allahlığım nədə isbat olardı? O həmişə məni anıb, bu gün mən onun yerini doludan saxlamasaydım, o zaman mənim allahlığıma şübhə edərdilər. Demək, Allaha inam gərək gen gündə olsun, dar gündə yox (S.26).

**139.**

İki dənə öküzçü dağdan küləş gətirirmiş. Biri çox Allaha yalvarırmış, biri heş tanımırmış Allahı. Bir qayanın başında öküzdər bir-birinə dəyir, bular hellənir gedirlər dərənin divinə. Allahı çağıranın öküzü yaralanıb, yükü də tökülüb, amma o

birinə heş nə olmuyub. Deyir, bəs belə. Allahdan səda gəlir ki, gejə-gündüz mən onun ürəyindəyəm, amma sən dara düşüfsən deyə məni çağırırsan (S.23).

## 140. İNSAN VAR QOCALANDA AĞLI AZALIR

Peyğəmbər əleyhsalamdan sonra bir cavan oğlan hakimiyyətə gəlir. Elan verir ki, peyğəmbər əleyhsalamı görən varmı bu dünyada. Deyirlər, qonşu kənddə yüz yaşında bir kişi var, o görüb. Deyir, gedin, onu gətirin mənim hüzuruma. Gəlib deyirlər, şah sağ olsun, o yeriyə bilmir. Deyir, qoyun gəjavəyə, gətirin mənim hüzuruma. Bunu qoyullar gəjavəyə, gətirillər şahın hüzuruna. Şah deyir ki, baba, qurban olduğum nə buyurdu, nə dedi? Bu başdıyır qurban olduğumun buyruxların hamısın deyir. Qutaranda deyir, bir də dedi ki, insan var qojaldıxca, nurlanır. İnsan var qojaldıxca, ağıl azalır, tamah çoxalır. Bu söz şahın çox xoşuna gəlir, gətirib buna bir ovuc qızıl verir. Əmr eliyir ki, bunu aparın qoyun evinə. Evə çatanda bu qoja kişi deyir, şaha bir sözüm də qalıb. Bunu qaytarıllar. Gəlib deyir ki, şah sağ olsun, de görüm, bu qızılı bu gün verdin, yoxsa genə verəssən? Deyir ki, nə vaxt lazım olsa tapşıraram, genə verəllər. Qaytarıllar, evə çatanda genə deyir, dayanın, şaha bir sözüm də qaldı. Qaytarıllar geri. Deyir, şah sağ olsun, de görüm bu qızılı sən öləndən sonra kim verəjəh maa? Şah gülür. Deyir ki, mən tapşıracam, öləndən sonra da versinlər. Vəzir-vəkil deyir ki, şah sağ olsun, sən cavan adamsan, necə qəbul edirsən o sənə gəlib bu sözü deyir? Dedi, peyğəmbər əleyhsalamın indicə buyurduğu sözüdü ey. Ağıl azalıb, tamah çoxalıb. Mən cavan adam, dünyanı fəth eləmək isdiyirəm, amma bu özü can üsdədi, mənə deyir, sən öləndən sonra qızılı kim verəjək (S.41).

## 141. ALLAH VERSƏ, DAŞDA DA VERƏR

Üç nəfər olur, biri qoja olur, ikisi cavan. Deyirlər ki, başqaları taxıl əkir, biz də gedək taxıl əkək. Gedirlər bir yer götürüllər. Bu iki cavan sövdələşir ki, yerin harası yaxşıdı, oranı götürək, o qojanı salaq pis yerə. Püşk atırlar, o qojanınkı gedif düşür daşdıx yerə. Qoja deyir, bala, Allah versə, daşda da verər. Oğlu gəlif deyir, nə tutufsan Allahın ətəyindən? Deyir, bala, ağlın olsun. Allah versə, daşda da verər. Bular əkirlər, kişi də toxumu götürür "Allah, Məhəmməd, ya Əli" – deyib toxumu səpir. Aradan bir-iki gün keçir, bərk yağış yağır. Bir həftədən sonra gedirlər ki, buğda çırtalıb. Səhəri bir fırtına başdıyır, bir tufan başdıyır, orda nə qədər torpax var aparıb hamısın tökür bu kişinin əkdiyi daşın içinə. Gedillər görüllər bir dənə də torpax qalmıyıb. Deyir, bala, ağlın olsun, Allah versə, daş da verər (S.23).

## 142. QARA DAŞA MURAZ VERƏN ALLAH

Allah rəhmət eləsin, Bənövşə bajı danışırdı. Deyirdi ki, bir qadının uşağı olmurmuş, bunların da ayiləvi dosdarı var imiş. Hər dəfə gəlib görəndə ki, evdə uşax yoxdu, Allaha əl açıb yalvarırmış ki, ay Allah, mənim niyyətimi tutursan, mənə xatir bu ayiləyə bir uşax ver. Günnərin bir günü bu gəlin baxır ki, qonax genə gəlir. Deyir, ay Allah, gəlif yüyrüyü genə boş görəjək, pis olajax. Neynəsin, neynəməsin. Ojax qalıyırmış, qacıf ojağın daşını götürür, bələyə bükör, yüyrüyə qoyur. Qonax gəlif görör ki, yüyrühdə uşax var. Günorta namazı imiş. Elə qapının ağzındaca iki rükət namaz qılır, Allaha dua eliyir ki, ay Allah, nə yaxşı mən gəldim bu ayilədə uşax gördüm. Bu namazını qılıf qalxanda baxır ki, uşax başladı ağlamağa. Qız özü də çaş-baş qalır.

Bax, "göy daşı göyərdif qara daşa muraz verən Allah" misalı ordan qalıf (S.39).

## 143. MIXI MİSMARA DÖNDƏRƏN ALLAH

Bir padşah ova gedibmiş. Dəmirçinin arvadı da çayda paltar yuyurmuş, bunun dizi açıx imiş. Padşah ovdan qayıdanda dəmirçinin arvadını görür, ona gözü düşür. Vəzirinə deyir ki, ay vəzir, bu kimin arvadıdır? Deyir, filan dəmirçinin arvadıdır. Deyir, bunu mən alajam. Deyir, padşah sağ olsun, sən padşah adamsan, sənin adına xələl gələr, belə hərəkət eləmə. Sən elə-belə adam döyülsən, padşahsan, hamı səni qınıyar. Gəlir evə. Deyir, yox ey, o arvad yadımdan çıxmer, mən onu almalıyam. Get o dəmirçiyə deynən ki, bu gejə qırx atın nalını-mıxını düzəltsin. Düzəldir düzəltsin, düzəltmir onun boynu vurulajax. Vəzir də bikef gəlir dəmirçiyə deyir ki, ay dəmirçi, bəs padşah belə deyir. İndi bax da, düzəldə bilərsən düzəlt, hazırı varsa, ver, kim biləjəh? Deyir, məndə o qədər nal-mıx hardandı? Qırx atın nalı-mıxı hasand şeydimi bir gejənin içində düzəltmək?

Dəmirçinin gövdəsinə qor dolur, bikef gəlir evə. Arvadı soruşur, ay kişi, noluf, nə hadisə baş verif? Deyir, ya arvad, bəs belə-belə. Padşahın vəziri gəlif dedi ki, qırx atın nalını-mıxını düzəlt. Düzəltməsən, boynun vurulajax. Arvad deyir, ay kişi, qırx atın nalı-mıxı düzələndimi? Bir gejənin özü də bir şeydi, gəl yıxıl yat. Allah kərimdi. Allah var, rəhmi də var. Gözünə yuxumu gedər dəmirçinin? Obaşdan saat beş idi, baxır ki, qapı döyüldü. Dəmirçi geyinir, arvadıynan halal-hümmət eliyir. Gəlir qapını açır, baxır ki, padşahın nökərrəridi. Deyir ki, padşah bu gejə rəhmətə gedifdi, onun tabutuna mismar lazımdı. Bax, mıxı mismara döndərən Allah misalı da ordan yaranıb (S.39).

# III. XATİRƏLƏR

## 144-152. 1905-1918-Cİ İL DEPORTASİYASI

1918-ci ildə də erməni-müsurman davası olub. Onda dayım oğlu Alhüseyn oğlu Elyas var idi, addı-sannı adam idi, özdə meşə naziri idi. Bizim kəndin bir tərəfi meşə idi. Atam mana dedi ki, bir gejə ermənilər Alhüseyn oğlu Elyası, iki oğlunu öldürdü, ayiləsini öldürdü, varını-dövlətini, malını-qoyunu nətər dağıtdılarsa, itdər ulaşdı qapıda. Deyirdi, müharibə vaxtı arvad-uşağı yığdılar Alhüseyn oğlu Elyasın ev damına. O vaxt dörd dirəkli ev damıydı. 157 nəfər arvad-uşağı yığdılar dama, üstlərinə beş-altı da cavan qoydular ki, bu arvad-uşağı gözdə. Cavannar quş tüfəngi götürüb özünü veriblər cərgəyə ki, ermənilər gəlib bizi qırmasın dana. Təpəsdəlikdə topun qurub Andranik, kəndi verib topun qabağına. Ta camaat dözə bilmiyif, əlli-ayaxlı qaçıb, əlsiz-ayaxsızı da Elyasın əl damında otu töküb üsdünə yandırmışdılar. Bunu atam mana o vaxtı belə danışdı. Dedi, bax, ermənilər başımıza belə müsibət gətirdi. Naxçıvana qaçanları da orda vəba xəstəliyi tutdu. Camaatın çoxu da Naxçıvanda qırıldı. Camaat Naxçıvandan qayıdanda kənd dağılmışdı, ermənilər yandırmışdı. Heç nə yerində qalmamışdı. Camaat gəldi, daşdan, qayadan balaca-balaca evlər tikdilər, dolandılar (S.40).

### 145.

Atam deyirdi ki, Cul camaatı 18-ci il müharibəsində çox yaxşı ad qazandılar, çox yaxşı döyüşdülər. Nətər döyüşüblər? Nikolay höküməti yıxılandan sonra rus qoşunu qayıdır Rusiyaya. Atı, qılıncı, bir də tüfəngi bir araq puluna satırlar. Cul camaatı xəbər tutub hərə gedib beş yüz at, beş yüz tüfəng, beş yüz də

qılınc alıblar. Ona görə Cul camaatı ermәniyә qarşı döyüşdü, ad qazandı, silah vardı. Amma bizim kәnddә bir heylә evdәn on nәfәrdә tüfәng vardı, onun da yarısında patron vardı, ya yoxdu. 18-ci ildә bizim kәnddә döyüş başdıyanda özü dә әvvәli Herherdәn başdıyıb döyüş. Cul kәndi xәbәr tutub, beş yüz atdıynan gәlib pencәr kimi qırıflar ermәnini. Orda Tәpәsdәlik dağı var, dağın ortası yarğandı, ordan da su çıxır. Ermәnilәr qaçıb çıxıb ora. Ağ bayraq götürüb gәliblәr ki, üç gün bizә möhlәt verin, üç günә ya köçüb gedәjeyik, ya da tәslim olajeyix. Bizim azәrbaycanlılar da deyir, ayan-bayan elәsәlәr, bir dә qırajeyıx bunları. Üç gündәn sonra kәnar kәndlәrdәki ermәnilәr xәbәr tutub onlara kömәyә gәlib, topu çıxarıblar Tәpәsdәliyin başına. Ordan kәndi topnan vurublar, kәnd qaçıb. Böyük әmimin iki uşağı, bir arvadı itkin düşüb. O kәnddә әn varlı adamlar kәngәrlilәrdәn olub. Alhüseyn oğlu Elyas deyirmişlәr, kәndin yiyәsi oymuş. Kәnddә әn varrı adam olub. Onun bajısı oğlu Qlava Kәrim dә kәnddә yüzbaşı imiş. Onun özünü, bir dә oğlunun birini yan-yana qoyub atmışdılar. Bunların patronu qutarıb, daha müqavimәt göstәrә bilmәyiblәr, onda onları atmışdılar, yoxsa ermәnilәr onun qorxusundan kәndә yaxın gәlә bilmirdi. Deyirdilәr Alhüseyn oğlu Elyasın qorxusundan hamilә haxçıxlar bala salırmış (S.41).

**146.**

1750-ci ildә olub Nağı kişi, ondan da törüyüf Hacı Әsәd. Hacının beş oğlu oluf – Hәsәn, Hüseyin, Mustafa, İbrahim, Heydәr. Hәmin Mustafa çar devrindә general oluf. Andraniki Göyçәdәn o qovuf. Çamırrı adında kәnd oluf. Bax, beş qardaş yerrәşif orda, 17 min qoyunu oluf. Bәrdәnin Qırmızı Azәrbaycan kalxozu olub. O vaxdı qışda gәlirmiş bura, yayda da dağa qalxır-

mış. İbrahim də onun rəhbəri oluf. Andraniki Göyçədən qaçırdıf. Xeyli erməni qırıf, Andranik qoşununu götürüf İrana qaçıf.

Erməni-müsəlman davasında Andranik üç dəfə bizim kəndə hüjum eliyif. O türkün generalı olub. Onun qulağını kəsəndən sonra qoşununnan keçib bura. Qoşununnan gəlib Göyçə gölünün qırağında düşüb. Bəxtiyar adında bir erməni var idi, dəyirmanın qabağında oturub atama danışırdı. Deyir, yaz gələndə ermənilər görüf Çamırrıdan heç qoyun-quzu çıxmır piçənəyə. Gödəkbulaq kəndi var, camaat yığıldı, dedilər püşk atırıx, kimin püşkünə düşsə, o getsin kəndə, görsün Mustafa, Həsən durur. Deyir, püşk bir uşağa düşdü. Anası ağladı ki, mənim oğlumu Mustafa vurajax. Getdi, sevinə-sevinə qayıtdı ki, kənddə heş kim yoxdu, kənd boşdu.

İndi Çamırrı kəndi yoxdu. Sovet hökuməti gələndə balaca kəndləri birrəşdirdi, o kəndin də əhalisin qonşu kəndlərə köçürtdü. Dədəm danışırdı ki, Abbasqulu bəy 70-100 atdı göndərmişdi ki, gedin onnarı köçürdün, erməni onları sovet hökumətinin əlinən qırdırajaxdı. Andranik üş dəfə hüjum elədi, üç araba meyid gəldi Çamırrıdan. Andranik qoşunun yığdı, çıxdı getdi. Dedi ki, siz məni aldatmısız. Orda türkün qoşunu var. Səngərrəri mən gördüm. Şəxsən özü qazdırıb, bax, bu qəlbidə. O kəndin arxası Dikpiləkandı. Deyir, üçüncü dəfə erməni hüjum eliyəndə Həsən baba (Hajı babanın böyük oğlu) dedi ki, bu gün ermənінin ən güjdü afiserrəri gələjəh, özünüzü gözdüyün. Deyir, döyüşdük, erməni kəndə girə bilmədi. Andranik gəldi, qoşunun qalanın da yığdı, üş araba da meyid, iki-üç topu vardı, qoşunu götürdü o gedən getdi. Milli dərəsinə girəmmədi, ordan İrana keşmişdi. İrandan qayıdanda bizimkilər Qubatdıda dağı mühasirəyə alıflar, ortadan keçəndə hamısın qırmışdılar.

Mustafa çarın general oluf, vaxdında silah, patron yığmışdı. Aşıq Ələsgərin oğlu Bəşir də üş gün orda döyüşdə oluf. Ermənilər kəndlərə hüjum eliyəndə gəlmişdi ki, Həsən dayı, dədəmgil keşdi Kəlbəcərə. Aşıq Ələsgərin bir şeiri də var.

Özüm aşıq oldum, oğlum gülləçi
Qırıldı var-dövlət, qalmadı keçi.
Qalmışdı cüt əkməyə bircə kəlim,
İndi də yıxılıb kəl, qoca baxdım (S.24).

**147.**

Musafa babam haqqında mənim bir az məlumatım var. Mustafa baba bir gün camaatı yığıb danışır ki, mən hər gün sübh tezdən durub görürdüm ki, mənim qapımda bir dənə şir oturubdu üzü gündoğana. Bu gün səhər-səhər çıxdım gördüm ki, o şirin üzü günbatanadı. Bu nəsə mənim xoşuma gəlmir, bu gün ermənilər bir yerə hücum eliyəjək. Hazırraşın, lazım olan vaxdı canımızı qutarax. Erməni-müsəlman müharibəsi başdıyanda Mustafa babam Çamırrı kəndində olufdu. Mustafa babamda pulamyot olubdu, Osmanlı çapı deyirmişdər, hər adamda yox idi. Ermənilər Çamırrıya hücuma keçəndə Mustafa babam qardaşı oğluynan orda vuruşub, camaatı ordan çıxarıb Kəlbəcər istiqamətinə gətiribdi nə zülümnən. Kəlbəcər istiqamətinə çatanda camaata deyibdi, siz keçin, biz bunnarın qarşısını alceyih. Qardaşı oğluynan orda vuruşuf, orda şəhid olublar. Kəlbəcərin Yellicə kəndinin camaatı Yevlağın Malbinəsinə yerrəşibdi. Mən onnardan soruşdum belə bir məsələ. Dedilər, Kəlbəcərlə Göyçə arasında Sümüklü dərəsi deyilən yer var. O vaxt qaçaqaç olanda ermənilər orda camaatı qırıflar. Mustafa babam da o istiqamətdə həlak olub (S.31).

**148.**

Babamdan eşitdiyimi deyim. Deyir, 18-ci ildə gejəynən ermənilər Bala Məzrə kəndini mühasirəyə aldı, risk eləmədilər kəndə girməyə. Kruqavoy ojax yandırıblar, kənddən heç hara çıxa bilmirik. Həmin arxı mən də görmüşdüm. Abbasəligilin evinin yanında kanaldan arx gəlirdi. Babam deyir, gejəni gözlədik, gejə atam bizi götürdü, o arxa girdik. Nətər qorxmuşdumsa, bir arxa girəndə nəfəs aldığım yadımdadı, bir də arxdan çıxanda. Deyir, ordan çıxdıx, Kəsəmənin dağından yuxarı qalxanda artıq hava işıqlaşdı. Gördük uje kəndi yandırıflar. Orda kəndi nətər qırıflarsa, atamın dayısıgilin su quyularına nə qədər diri-diri adam dolduruflarmış. Kənddə kiminsə nəyisə qalıf da, gejə gedif nəyisə götürməyə, deyir quyudan səs gəlirdi, insanlar zarıyırdılar. Papamın dayısı ev üçün bünövrə qazanda gedif o sümüklərin üsdünə çıxmışdı. Sonra bünövrənin yerini dəyişmişdi. Sovet hökuməti qurulandan sonra qayıdıblar kəndə (S.15).

**149.**

Ümumiyyətlə, çar dövründə qərar verildi ki, müsəlmanlardan əsgər aparmırlar. Bizimkilər, xanlar, bəylər də deyir ki, nə yaxşı hökümətdi, bizi əsgər aparmır, biz donuz əti yemirih. Fikirrəşmiyiblər ki, ona görə aparmırlar ki, buların silahdan başı çıxmasın. Ermənilərin hamısında silah olub, türklərdə silah olmuyub. İkinci, bu yerli ermənilər qalxmıyıf, həmişə gələn ermənilər bizləri qırıf. 1905-ci ildə olub, atamın Mələk adında yoldaşı oluf, üçüncü arvadı. Ermənilər gəlif, qaçaqaç düşüf, həmən kadını, yanında doqquz yaşında oğlunu da ermənilər öldürüf. Anamın qulağının biri cırığ idi. On səkkizdə gəlif doluflar evə. İndi o gəlmə ermənilər girəndə bularnan yerlilər

də gəlir da. Yerli girən kimi deyif Növrəstə, nə qızılın var ver. Deməli, bu sırğanın birin çıxardınca kopoyoğlu gəlmə erməni o birini dartıf, qulağı cırılıf. Bu insannığa yaraşmır da. Bax, bizi bu günə qoyuflar, həmişə qalmışıx tapdağ altında. Amma orasın da deyim ki, o köhnə yerli ermənilər kim ki dostduğ eliyif, hörmət eliyif, olar insan oluf. Bax, bir epizod deyim. Hardasa on səkkiz, on doqquzuncu illərdə oluf. Olar xonaxa deyirdilər kirvəyə. Atamin kirvəsi oluf erməni Sükas. Deməli, bular çıxa bilmiyif kənddən, o təklif eliyif ki, gəl bizdə qal. Atamgil ara sakitləşənə qədər oların evində qalıf. O gəlmə ermənilər də bilirlər harda kim var. Kişini tutarlar yolda ki, sənin evində müsəlman qalır, onu ver, öldürək. Deyif ki, doqquz oğlum var, bir də mən. Gərək bizim hamımızı öldürəsiz ki, o müsəlmanı öldürəsiz. O mənim xonaxamdı, özdə mənim qonağımdı, bir kopoğlu ona bir söz deyə bilməz. Bax, beləsi də oluf, amma baş kəsənləri də oluf (S.35).

**150.**

Atam danışıb. Deyir, on səkgizinci ilin yazıdı, mal-heyvan təzə-təzə çölə çıxır. Mən də təzə evlənmişəm, iki ay olar. Onda gördük gədikdən top açıldı. Divlər yalı vardı, top vurdu orya, ikinci top düşdü Daşqına, üçüncü top düşdü kəndə. Top düşəndə kəndə hay düşdü ki, erməni gəldi. Qaçaqaş düşdü. Qaynatam çox varrı idi. Bunun xeylax malı var idi. Bunun gəvəsin, yaxşı şeylərin üç dənə öküzə yühlədim, bunnarı yola saldım. Bir dənə öküzü yühləyən kimi – heyvan da haya gedən olur, – mal camaatın hayına gedir. Gəldim ki, öküzdər qərəmədə[51] batıfdı zığa, çıxa bilmirlər. Öküzlər qaldı orda. Culun üsdündən addadıx

[51] Qərəmə – palçıq, lehmə

Naxçıvanın Vayxır kəndinə. Aj, susuz, yalavac. Anamnan atam dedi ki, əvimizdə dirəyin divində sağ tərəfdə yağ küpəsi, sol tərəfdə pendir basdırmışam. Gedin onları gətirin. Deyir, üç nəfər oldux, gejə gəldix çıxdıx burya. Şişnən axtardıx, küpün yerin tapdıx. Eşələdim bunu çıxartdım, amma yağın əvəzinə pendir küpün çıxartmışam. Nəysə, üçümüz də vədə vermişdih, yığıldıx orya. Dedik, düşək bir kəndə, görək nə var, nə yox? Kənddə də evlərin hamısın yandırıflar, Hümbət adında adam vardı, onun evindən gördük səs gəlir. Yaxınnaşdıx ki, on beş-iyirmi erməni yığışıf, Fəxri qarı da qojalıfdı, qaça bilmiyif, ermənilər buna dəymiyib, bunlara çay verir, çörək verir. Baxdıx bunnara, deyir, çıxdıx. Gəldik ki, Cula tərəf adıyajayıx. Divlərin yalına çıxanda bir də baxdıx ki, Qurbanalı kişiynən bir nəfəri vuruflar. Top açılıf, ikisin də meyidi gədihdə qalıfdı. Ordan, deyir, çıxdıx gəldix. Mən küpü aşdım, baxdım ki, pendir küpəsidi, bunu qırıxladım. Dedim bunu neynirəm özümə yük eliyif. Amma Fərman yağ küpəsin götürmüşdü. Culun qaşına çatanda bir dəsdə adam çıxdı. Dedik yəqin ermənilərdi, biz öldürəjəhlər. Gəlhagəl, gəlhagəl, gəldik ki türklərdi, iyirmi-otuz saldatnan gəlirlər. Soruşdular hardan gəlirsiz? Dedıx, kənddən gəlirik. Dedi, bə əlinizdəki nədi? Türk zabiti küpəni Fərmanın əlindən aldı, dizin arasına qoydu. Saldatdar düzüldü sıraya, əlin doldurur yağnan, basır çörəyə, verir bunlara. Təmiz yağ qutardı, çəliynən vurub küpəni qırdı. Türklər getdi ağzı erməniyə tərəf, biz də çıxıf gəldik Vayxıra. Bir il qalandan sonra dedik ara sakitdəşdi, qayıdax gedək kəndə. Qayıtdıx kəndə, elə orda qırğına düşdük. Bir də sovet hökuməti gələndən sonra kəndə qayıdıflar (S.25).

## 151.

1905-ci ildə ermənilər bizim camaatı qovuf kənddən[52]. Atam deyirdi ki, bizi apardılar o vaxdı göbəkli ev damları var idi, yüz nəfəri qatdılar göbəkli ev damına. Dedilər ki, gejə saat on ikidə bajadan neft tökək, odduyax. Orda da bir dənə haxçih[53] olub, o da mənim əmimgildə qalırmış. Müharibə düşəndə bu qaçıf gedir. Atam deyir, qatdılar dama. Haxçix görür burda bir tanış səs gəlir. Deyir, Vəli deyilsən ki? Deyir, hə, mənəm. Deyir, səni mən burdan nejə buraxım? Deyir, gəlginən qapının ağzına. O vaxdı da petlə yox imiş, dabanalı qapı imiş. Qapını dabanalıdan çıxardıf, yeddi nəfər çıxırlar. Bir xeyləx uzaqlaşandan sonra haray salırlar ki, müsərmanlar qaşdı. Yolda bunları güllələyirlər, üş nəfər sağ qalır. Deyir, bir bağ var idi, o gülüfdən bağa nətər girdiksə, qaldıx orda. Görüllər ki, bir ağac çöldən gəlif barıya tərəf. Bir-birinin belinə çıxıf barıdan aşıllar. Baxıllar ki, su hansı tərəfə axır. Suyun axdığı istiqaməti tutub gedirlər. Gejələr gedirmişdər, gündüzlər gizdənirmişdər. Bu minvalnan gəlib çıxıblar Əlimərdana (S.23).

## 152.

Ermənilər rus əsgərlərinin hesabına helə qudurmuşdular, yoxsa onlar o ürəyin sahibi deyildilər. İrəvanda yağış yağanda erməni qorxusundan çıxmırdı bazara ki, yağış yağar, yağışın damcısı ona dəyib müsəlmanın üsdünə düşər, onun dəsdəmazı pozular. O qədər çəkinirdilər bizdən, sonra onlar oldu əjdaha. 18-ci ildə Mehmandar kəndinin camaatı qaçıflar Turkiyəyə. Əmim o vaxdı qızılca olufdu. Qızılcalı adama da

[52] Vedi rayonunun Əlimərdan kəndi

[53] haxçih – erməni qadını

soyuq olmaz. Arazdan keçəndə soyuq olub buna, bunun gözləri tutulmuşdu, elə gözləri kor qaldı. O vaxdı camaatı öldürürmüşlər. Hətta mənim atamı gizdədiflər pambığın içində. Ermənilər gəlif xənçəli soxuflar pambığın içinə, çəkib çıxardandan pambıq təmizdiyir axı xənçəli. Ordan-burdan vurmuşlar, atama dəyməmişdi, budunun böyrünü bir balaca deşmişdi. Çıxardanda orda qan qalmır axı. Bunlar gedəndə sora ordan qaçıb getmişdilər.

Mənim atam eşşəknən gedifdi İçmiədzinə, ayın-oyun aparıfdı, orda satıf evə bazarrığ eləsin. Orda da xonaxamız vardı, olar kəndə gələndə bizdə qalırdı, biz şəhərə gedəndə olarda qalırdıq. Bu gedif ora bazarrıx eliyif, gejə düşüfdü bu xonaxanın evinə. Erməni qoymuyuf gedə. Çünki çöllərdə canavar çoxdu. Atama deyif ki, getməginən, sabah gedərsən. Gecə saat on birdə bunun hərbiçi oğlu gəlif. Deyif, evdə kimsə var? Deyir, xonaxamız Teymurdu. Deyir, mən onu öldürəjəm. Atam da yan tərəfdəki otaqda olub, qapıdan bunların danışığını eşidir. Atam görür qapı açılıb örtülür, içəridən torpax daşıyırlar bayıra. Evin içində qəbir qazırlar ki, atamı öldürüb ora basdırsınlar. Atam bunu başa düşəndən sora erməniyə deyir ki, bəs ayaqyoluna çıxmaq isdiyirəm. Evdən çıxır, bunların da geniş bağı varmış, bu bağdan addıyır o birisinə. Gedir çıxır bir ağacın başına, hava işqılaşanda qaçıf kəndə gəlir. O cür canını qutarmışdı. Eşşək də, nə alver eləmişdi hamısı da qalır ermənin qapısında (S.20).

## 153. 1948-1952-Cİ İL DEPORTASİYASI

Mən Paşalı rayonunun Herher kəndindənəm. 1948-ci ilin payızı idi, rəhmətdih atamın erməni dostu var idi. O gəldi dedi

ki, Məmməd kirvə, bu gejə ermənilər sizi qırajax, başınıza çarə qılın. Onda mənim iyirmi yaşım var idi. İyirmi yeddi ev, gejə ilə nəyimiz var idi, şələləndik, kimin eşşəyi var idi eşşəyə, kimin eşşəyi yox idi şələ ilə gejə çıxdıx. Gəldik çıxdıx Muradtəpəyə. Muradtəpədə hava işıqlandı. Kimsə deyər ki, Orucov Məmməd kalxozun altı öküzünü apardı. Muradtəpədə gördük ki, yeddi dənə atdı erməni gəldi qabağımızı kəsdi. Hamımız şələmizi qoyduq yerə, oturdux. Erməni gəldi baxdı, dedi, mərdiməzar kopoğlu, bunlar şələli qaçıb gəliblər, öküzü hardan gətiriblər ki? Atlıların ikisi dostumuz idi, erməni olduğuna baxma. Dədəmə dedi ki, Məmməd kirvə, bağışdaginən, bizi səhv başa salıblar. Səhər işıqlanmamış bizə dedilər ki, bu gejə Məmməd kişi kalxozun altı öküzün də götürüb gedib. Amma siz canınızı götürüb qaçmısınız. Gəldik çıxdıq Kəlbəcərə şələli, arvad-uşaq, kişi, ağsakqal. 27 ev idi. Kəlbəcərin camaatı bizim camaatnan əlaqəli idi.

1915-18-ci ildə Andranik topu qoyub bizim kəndi qırıb. Qırılan qırılıb, qaçan da qaçıb Naxçıvana. On ildən sonra qayıdıb gəliblər. 500 evdən 70 ev gəlib çıxıf. Gələn vaxtı arvat tapılmıyıb cavannara. Bizim cavannar gəlif Kəlbəcərdən qız alıblar. Kəlbəcərlə bizim kəndin əlaqəsi ordan yaranıb. Deməli, bizim kəndin arvatdarının çoxu bu kənddəndi, onların uşaqları, nəvələri var. O 27 ev dağıldı Kəlbəcərin kəndlərinə – Əlibayrama, Zara, Zəyliyə, Vəzirxanaya, Çırağa. Bir ay qaldıq orda. Bizim bir ağsaqqal kişimiz var, amma o vaxt cavan bir qız alıfdı. Zardan bir nanəcib oğracın biri bu kişinin arvadın götürüb qaçar. Zəyliyin bir yurdu var, Çaxmax deyirlər, aparıb orda saxlıyıb. Bir aydan sora şələləndik, gələsi olduq. Orda Seyid Miriş varıydı. Gəlib deyir ki, Məmməd kişi, gözləyin, gedib qızı

gətirim, götürün, gedin. Dədəm dedi, səni vurub öldürərəm, aralanginən. Bir qurumsaxçılıx qoydunuz boynumuza, ikinci qurumsaxlığı götürən deyilik! Çıxdıx, gəldik. Bir gün gəldik Həsən düzünün altında qaldıx, o biri gün Umutduda, o biri gün Çaylı kəndinnən aşağıda düzdə qaldıx. Ta o birsi gün gəldik çıxdıx Tərtərə. Rayon partiya komitəsinin sədri Ağamalıyev varıydı, dədəmlə Süleyman kişi getdilər onun yanına. Dedilər ki, qaşqın gəlmişik, bizə yer verin. Dedi ki, gedin Əskipara kəndinə, gələcəm ora. Getdik Əskipara kəndinə, böyürtkən kolu varıydı bəridən ənə, töküldüh ora. Gözdədik, gəldi çıxdı. Kalxoz sədrini çağırdı dedi ki, kimin iki evi varsa, birini al bunlara verginən, bunlar qalsın. Bizimkilər dedi bura istidi, ajlıxdı, camaat acından qırılır. 1948-ci il, müharibədən çıxmışıx. Arvatdar dedi, yox, burda dura bilmərih. Çıxdıx gəldih bu kəndə[54]. Burda kəndin qırağında birinci ev İlyas kişinin idi, onu sürgün eləmişdi Savet hökuməti. Onun evində bir həfdə qaldıx. Gördük ki, burda da çox ajdıxdı, dolanmaq mümkün döyül. Dədəm o vaxt erməni-müsurman davasında qaşqın kimi gəlib düşmüşdü Yevlağa. Orda dədəmin qardaşağası varıydı, Məhəmməd kişi. Getdih töküldüh onun qapısına. Məhəmməd kişi 27 evi payladı tanış evlərə, qohum evlərə. Pis-yaxşı birtəhər dolandıx. Elə oldu ki, 1949-cu ildə bizim kənddə qalan camaatı gətirdilər Qaradağlı, Səhlabad, Kəngərli kəndinə tökdülər. Biz də ordan yığışdıx gəldik öz camaatımızın içinə. Hökümət köçürüb gətirdiyi adamlara inək pulu, ev pulu verdi, amma biz 27 evin sənədi yoxuydu, köşkün biletimiz yoxudu deyə biz havada qaldıx. O vaxtdan da bu kənddə yaşıyırıx (S.40).

---

[54] Qaradağlı kəndinə

## 154-157. 1988-1991-Cİ İL DEPORTASİYASI

Ermənistanın Vedi rayonunun Xalisa kəndi. 1948-ci ildə çıxanların hamısına ərizə yazdırırdılar, guya camaat könüllü gedir Azərbaycana. Halbuki yuxarının göstərişiynən idi. Qurd buludlu günü axtaran kimi Ermənistanın rəhbərliyi də siyasi aləmdə qarmaqarışıqlıq düşəndə öz məqsədləri üçün isifadə eliyir. Bax eləcə də bizi. Həştad səkgizin fevralında Sumqayıt hadisələrindən sonra ara tamam dəydi. Mən özüm şəhərdə işdiyirdim, gündəlik gedib gəlirdim. İşə gedib axşam da qayıdırdım. Həm də erməni dilini təmiz bilirdik, onlarnan ünsiyyətimiz var idi. Yığılırdılar meydana, ay haray salırdılar. Bizimkilər də o vaxtı, sözün düzü, əhəmiyyət vermirdi. Noyabr ayının otuzu günü mən işə gedirdim səhər tezdən, avtobus dayanacağı da Avşar deyiləndə idi. Avşar deyilən artıq Yerəvana gedən tras idi. O ərəfədə də artıq noyabr ayının son günüydü, otuzu idi. Mən dönmək istəyəndə bir rus milis mayoru əl elədi, məni saxladı. Dedi, hara gedirsən? Dedim, işə gedirəm. – Hansı istiqamətə? Dedim, şəhərə gedəcəm. Dedi, yolüstü məni də Kirov savxozunun məktəbinə qədər götürərsənmi? Bizim qərargah orda olur. Kəndlərdə post qurmuşdular, hər gejə gəlif postda qalırdılar, güya əmin-amannığı, asayişi qorumaq üçün, səhər də smen dəyişəndə gedirdilər. Nəysə, bu minvalnan apardım onu düşürtdüm, çıxdım getdim işə. Artıq camaatın əksəriyyəti ordan yavaş-yavaş çıxırdı. Qaynatamgil də qonşu kəndiydi, olar çıxıb gəlmişdilər Tərtərə. Mən də getdim işdə komandirdən icazə aldım ki, mən bir həftəliyinə gedəjəm, ayiləmi aparıf yerrəşdirəm. Həmən günüsü işdən qayıtdım axşam, gəldim ki kənd köçüb, heş kim yoxdu. Kəndin girəjəyinə gələndə gördüm ki, bir yığın insan yığılıb, hərbiçi, erməni, polis – hamı qarışıb bir-birinə. Bir milis kapitanı varıydı, saxladı. Dedim, nə istəyirsən? Erməni dilində

danışırıx. Bəs hara gedirsən? Dedim, işdən gəlif evə gedirəm. Dedi, burda olursan? Çıxartdım sənədə baxdı, qaytardı sənədi verdi. Dedi ki, məsləhət görmürəm girəsən kəndə. Dedim, nə hakhesabdı? Ona kimi heç nə bilmirdim. Dedi ki, sizinkiləri çıxarıblar, Naxçıvan istiqamətinə aparıblar. Gedərsən, saqqallılar kəndə dolub, bir hadisə olar, istəmirəm. Kənddə erməni uşaqları varıydı, bunlardan da maraqlandım, gördüm ki, vəziyyət o yerdə döyül, qayıtdım həmən trasnan Naxçıvana tərəf. Naxçıvana çatanda görüm ki, bütün millət ordadı. Bir müddət orda qalannan sora Şərur rayonunda camaat yavaş-yavaş hərə bir tərəfə dağıldı. Xalisada əksəriyyət azərbaycanlı idi, bir qismi də erməni idi. Camaat əksəriyyəti çıxmışdı, az qismi qalmışdı. Biz də çıxanda heç nə qoymadılar gətirməyə, bir əynizimin paltarın götürüb çıxdıq. Mən səhər tezdən çıxdım getdim, saat on-on bir arasında kəndə dolub saat 3-ə qədər nə var hamısını çıxarmışdılar. Çıxmaq istəmiyəni də döyürdülər. Qardaşımın göz nahiyəsinə iki bıçaq vumuşdular, təndirə basıb yandırmaq istəmişdilər. Bunları aldadıblar, deyiblər heç kimə toxunan döyülük, əlinizdə götürə biləcəyiniz nəyiniz var, götürün, çıxın. Bular da götürəndə kəndin başında maşını saxlıyıblar, qadınları qadınlar, kişiləri də kişilər yoxluyub, nəyi var əllərinnən alıb – pulunu da, qızılını da, əliboş yola salmışdılar. Bax belə (S.14).

**155.**

Mən Qərbi Azərbaycanın, yəni indiki Ermənistan Respublikasının Dərələyəz mahalınnan gəlmişəm, Dərələyəz mahalının Köşbəh kəndinnən. Deməli, o kənd ən məşhur kəntdi. Onun məşhurluğu nədəndi? O Zəngəzurnan Dərələyəzin gədiyindədi[55]. Çox gözəl yerdi, amma qışı çox sərt keçirdi.

---

[55] gədik – iki dağın birləşdiyi yer

Səksən yeddinci ilin payızı yalançı bir səs yayıldı kı, Sovet höküməti yıxılır. Sovet hökuməti neçə ki sağıydı, qüvvədə idi, heç bir təcavüz yoxuydu. Ermənilər bizə heç bir şey eliyəmməzdilər. Elə ki səksən səkgizinci ilin fevralı gəldi, ermənilər bizə çox əziyyət verdilər. Vartanyan adında katibimiz vardı, bu gəldi, mən o vaxtı ferma müdüri işdiyirdim. Gəldi, camaatı yığdı. Onda Sumqayıt hadisələri baş vermişdi. Dedi, ay camaat, getməyin, bu bir faniyədi. Hara gedirsiz? Elə bir az söhbət elədik, qayıtdılar, getdilər. Sonra Azərbaycana məlumat vermişdilər, Azərbaycannan dörd dənə nümayəndə gəldi. Biri İbrahim Qurbanov, Azərbaycanın ağsaqqalı idi, Cəlilabadın da katıbi idi. O bizim kəndin yetirməsi idi. Gələndə camaatı, ağsaqqalları yığdı, dil bilənləri çağırdı, gizdin dedi ki, nejə ki sizə bir şey olmuyufdu, yavaş-yavaş aradan çıxın, ara bərk qarışıxdı.

Camaat başdadı yavaş-yavaş, bir-bir, iki-iki, üç-üç, beş-beş. Necə ki o təzə vaxtı, hələ bir şey eləmədilər. Orda Çərkəz vardı, rəhmətdih, müharibə veteranı idi, qıçının biri yoxuydu, ən birinci kəntdən o çıxdı. Qar dizdən, əlaj kəsilib, hara çıxmağ olar, hara ketmağ olar, hayana tərpənmağ olar? Yava götürən kim, on altı qaliber tüfəhləri vardı, götürən kim? Kəndin aşağısında qaroul çəkirik. Beş-beş, on-on qaroul çəkməhnən neyniyəjeyih? Hələ bizə bir şey eləmədilər. Aprel ayı gələndə başdandı, nə başdandı. Orda tutdular döydülər, burda söydülər, bizi maşına götürmədilər, rayona buraxmadılar. Onnan sorasına Sumqayıtdan camaat qaşdı gəldi, çoxu bizim o kəndə, savxoza gəldi. Elə çıxdıxcan, heş mümkün döyül ey, o dəyqə erməni gəlir oturur evdə. Rayona gedirdix, necə ki savxozun maşınnarı əlimizdə idi, maşınnan gedirdix. Maşınnarı əlimizdən alandan

sonra daha bizi yolda bir adam da götürmədi. Rayona da iyirmi iki kilometr məsafə var idi, o yolu piyada gedif gəlirdix.

Bir günnəri ot biçini başdıyıf, may ayının axırıdı. Mənim bir qaynım vardı, Qaçay. Gəldi dirəndi ki, heş nə olmuyajaxdı. Bı ermənilər hamısı tökülüf otu biçillər, vallah, bu yaxşı dəyil, gəlin gedax biz də köməh eliyax. Düzün axtarsan, mən dedim, ə, gəlin getmiyax. Yox ey, məni məjbur elədi, on-on beş nəfər yığıldıx getdih. And olsun Allaha, ermənilər kərəntiynən, ot biçən maşınnarnan töküldülər üsdümüzə. Nəysə, axır ki, bunnarnan bir təhər yalvar-yapış, söz-söhbət, aradan çıxdığ.

Gəldi may ayı, bir xeylax malım-heyvanım var. Bu uşax da bunnarı aparır çöldə otarır, gətirir. Mən də dirənmişəm, deyirəm sovet hökumətidi, heş nə olmuyajax. Birdən ayıldım, dedim nə danışıram mən. Bu uşağı da göndərmişəm heyvanın dalıncax. Axşam gəldi. Səhər malı buraxdıx, on beş mal idi, elə o gedən getdi. Kim apardı bilmədim, atdarım getdi, qaldı qoyun. Qoyunu götürdüm kü, aparam Naxçıvanda satam. Elə dağ vardı, dağdan addıyırdım, Suren adında erməni varıydı, qoyuna gedirdi. Qabağımı kəsdi, dedi qoyunu harıya aparırsan? Dedim, harıya aparıram? Heyvandı, otarıram da. Dedi, ə, heyvan otarıram nədi? Bax, indiki bu Cullular var ey, orıya Ardavan adını qoymuşdular. Elə bil bizdən addıyırdın o Cula, həmən Culun ermənisiydi. Qoyunu tutdular əlimnən aldılar. Dedilər ki, necə ki sağ-salamat-san, burdan çıx get. Təzədən ordan yendim gəldim kəndə, qoyun əldən gedib, mal əldən gedib, hər şey əldən gedib.

Naxçıvannan maşınnar gəlirdi, bir maşın gəldi. Kənd gedifdi təmiz, beş-on ev qalıf. Day nəyim vardı, iki dənə yorğan-döşək atdığ maşına, götdıx gəldıx. Gəldıx çıxdıx Yevlağa. 1988-ci il avqustun 24-də gəldim Yevlağa. Qardaşım o vaxd Yevlaxda yaşıyırdı. Dedi, qardaş, sən burda yaşaya bilməzsən, gəl kəndə

gedax. Telmankəndə gəldik. Bu kənddə də ermənilər yaşıyırdı. Səksən səkgizin axırında ermənilər burdan qaşdı. Deyən olmadı ki, erməni qaçıb gedir, sən get gir də onun evinə. Nəysə, gəldim bax bu evə, bunu da yandırmışdılar, təzdən tikmişdilər, nə qapısı, nə pəncərəsi vardı. Ermənininin evi idi, on beş min ona ödədim, bu evi ermənidən aldım, o vaxdan burda məskunnaşdım.

Mənə sual elədin ki, nəyiniz qaldı, malın, heyvanın, evin? Malım da qaldı, heyvanım da qaldı, evim də qaldı, onların hamısı bir yana. Gör mənim nəyim qaldı?

Sənə deyim, a qardaşım,
Bir görginən nəyim qaldı?
Kəllə qəyə, Mansır xanım[56],
Pənik kimi dağım qaldı.

Dört yanı əlvan meşəli,
Ətrafı gül bənövşəli,
Bahar vaxtı o gülşənli,
Sonalı göllərim qaldı.

Çınqıllıynan Haça bulaq,
Deyim hansın yada salaq.
Qısır dağı salıb soraq,
Quzeylərdə qarım qaldı.

Kürd dərəsi, payız yurdum,
Erməniynən cəngi qurdum,
Ata-baba, dədə yurdum,
Külli qəbiristanım qaldı.

---

[56] bulaq adı

Əyyub ağlar yana-yana,
Yanıq bağrım dönüb qana.
Sevindihnən Yaqub[57] kimi,
Dalımca ağlarım qaldı (S.25).

**156.**

Fevralın iyirmi neçəsi Dağlıq Qarabağ məsələsini qaldırdılar. Onda biz qorxudan rayona gedə bilmirdıx. Mən benzin kalonkada işdiyirdim. Elə maşınnarnan gedib benzin verib, maşınnarnan da qayıdırdım. Bizim kəndə çox hücum elədilər. Ermənistanın Əzizbəyov rayonundan olannarın əksəriyyəti bilir. Gomur kəndi olmasaydı rayonda yaşayan azərbaycannıların hamısın, bəlkə, qırardılar. Bizim kəndin qorxusundan hücum eləmirdilər. Benzin kalonkada maşınnarı yola saldım Arazdəyəndən yem gətmağa, özüm qayıtdım. Haman günü, sən demiyəsən, köpooğlunun erməniləri hazırlaşıbmış ki, gələ bizim kəndə, hücum eliyib bizi qıralar da. Oranı qırdın, ta vəssalam, batdı getdi rayondakılar. Gecə saat on oldu, qarannıx düşdü, bu maşınnar gəlib çıxmadı. Biz də səngərdən baxırıx da. Saat ona işdəmişdi, gördük bir dənə maşın gəldi. Dedik, yəqin, Arazdəyənə yemə gedən maşındı. Xaçdərə tərəfdən üç maşın gəldi. Orda dayanannan sora gözdədik, gözdədik, xəbər-ətər yoxdu. Amma camaat da kimin nəyə gücü çatır – lapatkıya, baltıya, səngər düzəldirlər ki, özümüzü müdafiə eliyək. Demək, bu üç maşın gəlib orda dayanannan sora xeylax vaxt keçdi. Bəlkə, 15-20 dəyqə dərədən o maşınnar çıxmadı, sonradan biri çıxdı. Köpəkuşağı xitri millətdi e. Heylə millət yer üzündə yoxdu. Bunlar rəyislə əlaqə saxlıyıblar ki, biz kəndə girə bilmirik,

---

[57] Biri qardaşı, biri bacısı oğlu. Kənddən çıxanda onları dəfn eləyib çıxıblar.

qorxurux. Rəyis deyir ki, gözdəyin, mən özüm gedim, vəziyyətdən halı olum, onnan sora girərsiz. Maşının biri gəldi, gəlhagəl, gəlhagəl, gələ ki, rəyisin maşınıdı. Millətin qorxudan nervi pozulmuşdu. Elə maşını saxladı camaatın içində, maşını verdilər otdoğruyanın qabağına. Otdoğruyannan iki dəfə vurdular, maşının kapotu dağıldı. Doldular vilisi aşırdalar, qadınnar yaylıq açdılar ki, rəyisdi, bunun axırı pis olajax, işiniz olmasın. Rəyisin maşınını buraxdılar. Gedər orda deyər ki, ə, eviniz yıxılmasın, Əzizbəyov rayonu yox e, başqa bir rayonu gətirəsən bu kəndin üstünə, ordan bir adam salamat qutarmıya, hamısı silahlanıfdı. Silahları balta, dəhrə idi, bir dənə də beşaçılan varıydı. Bizim kənd 250 təsərrüfat idi, quş tüfəngi-zad varıydı, başqa heş-zad yoxuydu. Babam deyirdi ki, 5-ci tarixdə[58] erməni-müsəlman davası olanda silah yoxuydu, kopooğlun urusu gətirib erməni silahlandırmışdı, müsəlmanı qırırdı. Guya deyirdilər ki, mənim babamın türk istehsalı olan bir dənə topu var. Ermənilər soruşanda ki, sizdə silah-zad var? Uşaqdan tutmuş böyüyə kimi yalandan deyirdilər, bizdə bir dənə türk topu var, onnan qorxurdu çoxusu. Nəysə, o, rəyis qayıdar gedər millətə deyər ki, ə, qayıdın gedin. Eviniz yıxılmasın, bu kəndə nə qədər sizin kimi adam getsə də, salamat qayıtmıyajax. Silahlanıb dayanıblar orda. Səhərsi gecə katibin özü, kim inanar ki, katib gecə saat 11-12-də gələ vəziyyəti öyrənməyə. O da gələndə – millət səngərdə gizdənmişdi da, – vilis dayananda millət tökülüşdü vilisin başına. Bunu da isdədilər aşıralar, baxdılar ki, bu da katibdi. Əə, katibdi, işiniz olmasın. Nəysə, aşırıb eləmədilər. Katib dedi, ə, qalın yaşayın, sizə heç kim heç nə demir, siz niyə belə eliyirsiz? Qalın yaşayın nə deməkdi? Rayona getmək olmur,

[58] 1905-ci ili nəzərdə tutur.

gəlmək olmur, bir şey eləmək olmur. Nəysə, may ayına qədər baxdıq ki, qardaş, beləliknən yaşamax mümkün deyil da. Bir gün deyil, beş gün deyil.

Avqustda baxdıq ki, əlac yoxdu da. Dağ yolu aşdıx, ordan çıxdıx. Demək, dağ yoluynan aşağısı 15-20 km piyada gəldıx, çıxdıx Naxçıvanın Kükü kəndinə. Ordan da gəldıx Naxçıvannan kamaz tutmağa, veşimizi gətirməyə. Gəldıx Naxçıvanda kamazları danışdıx, kamazlar biznən bərabər gəldilər düz Gomura. Mən, bir də Nizami veşimizi yığdıx, – ayilə-uşağı qorxudan o yollarnan gətirə bilmirik, – veşdəri yığdıx maşına, ayilə-uşağı tərk etdıx orda, gəldıx. Postdarda saxlıyırlar, yoxluyurlar, baxırlar ki, veş aparırıx, dillənmirdilər. Xankəndi postuna gəlib çatanda baxdıx ki, kalon dayanıb burdan haraya. Şuşadan yenəndə Xankəndinə dönən yol var, o yolda post qoyub kəsiblər, maşınnarı yoxluyurlar. Orda 3-4 saat qaldıx. Yoxluyullar. Ə haraya? – Veş aparırıx. Dedilər, veş aparannarı açın buraxın, haraya gedirlər getsinnər. Biz də tanımırıx, eləmirıx. Gorus-Sisyan yolu gəldıx, çatdıx Ağdama. Ev yox, eşik yox, heş yanı tanımırıx. Şoferi başa saldılar ki, bunnarı apar Ergiyə. Ergi haradı, tanımırıx. Gethaget, maşın dörd saat, beş saat yol getdi, getdıx çıxdıx ki, ev yox, eşik yox, türemşiklərin kalonudu. Kalon dağılıb, boş evlər qalıb. Beş-altı ayilə veşnən gəlib, tökülübdü yağışın, boranın altına. Qanqaldan insan görsənmir. Dedim, ə, bədbəxt uşağı bədbəxtlər, bə niyə veşi, yorğanı yağışın altında saxlıyırsız?! Ə, dolun bu boş evlərə, axırımız haraya çıxar, çıxar da. Mən elə maşının dalını verdim, pəncərəni aşdım, bu veşin hamısını boşaltdım oraya. İki dənə ev tutdum balaca, nəfərə görə da, yeddi nəfər idi. Təzdən ordan qıfıl aldım, o veşi yığdım, evlərin qapısını kilitlədim, bu səfər burdan bir də Füzuli-Ağdam avtobusuynan gəldim çıxdım Qoradizə. Həmin günü Allah göstərməsin. Saat onda mindim

Qoradizdən poyezə ki, gedəm Naxçıvana. Səhər onda poyez sərhəddən Ermənistana keçəndə, demiyəsən, Nüvədi camaatınnan altı nəfəri ermənilər girov götürüb. Nüvədi camaatı ordan tökülüb, ermənilər ordan, ara qarışıb, dava düşüb. Poyezin qabağını bağlıyıblar, poyez neçə saat orda dayanıb bilmirəm. Nüvədi camaatı dolub poyezə, erməniləri axtarırlar.

Söz vaxtına çəkər. Bu vaxt idi, poyezin qabağını aşdılar, urus o tərəf bu tərəfdə durdu əlində avtomat. Poyezi Meğridən yola saldılar, getdıx. Getdıx Naxçıvanda düşdüx, erməninin yollarıynan gedə bilmirəm axı. Bir də Naxçıvannan gəldim Küküyə, ordan gəldim Gomura. Öz maşınnarımız hələ kənddən çıxmamışdı, təxminən on-on iki ailə çıxmışdı kənddən. Ayilə-uşağı yığdım maşına, düz Küküyə. Küküdən də gəldim Naxçıvana dəmiryol vağzalına. Ordan bilet aldım Naxçıvan-Qoradiz qatarına. Bir də həmən yolnan ayilə-uşağı götdüm, gətirdim çıxardım Ağdama. Ağdamnan da gəldim Ergiyə. Ergidə bir il qaldıx. Ta haraya gedim, tanımıram. Nəfər çox, iş yox, vəziyyət get-gedə pisləşir. Mal-heyvan da Naxçıvanda, ta neynədilər elədilər, ta özdəri bilər. Yanı balalı qoyunu inanırsan ki, 70 manata aldılar. Yanı balalı inəyi 500 manata. Mal-heyvanımızı suya atdıx da dəyər-dəyməzinə. Neyniyəsən, vəziyyət getdikcə pisə gedir. Ağdamda Kökəltmə birliyində bizim camaatdan 10-15 ayilə yaşıyırdı, getdim onnarın yanına. Oranın direktoruna Allah rəhmət eləsin, yaxşı adam idi. Gejəydi şofer ora çatanda. Gözdədıx, səhər açıldı, bizə sarı gələndə oranın direktoru Əyyub müəllim bizi görür. – Ə, siz kimsiz? Bu nə uşaxdı, bu nə vəziyyətdi? Dedik ki, Əyyub məllim, axşamnan veşdərimiz gəlib, qalıb asfaltın üstündə. Əgər mümkündüsə, burda bizə yer ver, yığılax ora. Sağ olsun, orda bizə yer verdi, Kökəltmə birliyində məskunlaşdıx.

Əşi, bizimkinin dərdini danışanda adam, vallah, əsəb tapır e. Sağ olsunnar, qəpiysiz-quruşsuz hər ailəyə 6 sot torpax verdilər, ev tikdıx. Heç 6-7 ay qalmadıx, Ağdam işğal olunanda ordan da qaşdıx, gəldik Yevlağa. Kimin buralarda qohumu-zadı varıydı, adamı varıydı, veşin vaxtında çıxartmışdı. Amma mənim heş kimim yoxuydu. Bir kamaz veş qaldı Ağdamda. Biz beş qardaşıx. Tək mən burıya düşdüm. Hərə bir diyara dağıldı. Biri Ordubad rayonuna, biri Şahbuz rayonuna düşdü, biri o vaxtdan baş götürdü getdi Rusiyetə, biri İsmayıllıda. Rəhmətdik böyük qardaşım yazanıydı. Yazmışdı:

Eşidin, a dostdar, dastan yazıram,
Ümidsiz vətənin damı dağıldı.
O yerdə yaşayan bütün xalqımın
Heç biri qalmadı, hamı dağıldı.

İzzət, bu yerlərdən köçmək lazımdı,
Ömürlük bir vətən seçmək lazımdı,
Xayin körpüsünnən keçmək lazımdı,
Bu vətənin ehtibarı dağıldı (S.36).

**157.**

Kənddən birinci kalon noyabr ayının 28-də çıxdı. Ondan da bir on gün əvvəl Hamamlının birinci katibi gəlib demişdi ki, kənddən çıxın, əks təqdirdə mən cavabdeh döyüləm. Ermənilər də iki cür idi. Bu işin başında duran onların keşişləri olmuşdu. Demişdi ki, biz artıq türklərə tab gətirə bilmirik. Bizə on gün müddət vermişdilər, amma heş kim çıxmaq istəmirdi. Axırda axşamüsdü kəndə hücum başladı. Onda mən Bakı Dövlət Universitetində oxuyurdum, Bəxdiyar Vahabzadə, Abuzər Xələfov

müəllimim oluf. Onlar bilirdilər ki, mən o zonadanam. Onda da hadisələrin ən qızğın yeri Saral idi. Bəxtiyar Vahabzadə gəldi mənə dedi ki, bir məktub var. Azərbaycandan gedən məktubları yandırırlar, amma bunu əllə aparmaq lazımdı. Orda poşta sal, öz ünvanına çatacaq. Mən burdan çıxanda artıq noyabrın 28-i idi. Azərbaycanla sərhəddən buraxmırdılar, biz Gürcüstan yolu ilə getdik. Bir gecə Sadaxlıda qaldıx, Tiflis-Yerevan qatarıynan gəldik. Sadaxlının mərd insanları qatarın qabağını kəsdilər, – biz on dörd nəfər idik, – dedilər ki, bunların başına bir iş gəlsə, biz poyezi partdadacağıq. Bunlar gedif Saralın qabağında düşməlidi. Saralın qabağına çatanda maşinist dedi ki, məni başa düşün, bu gün sizin kəndə hücum oluf. Bu dəyqə hamının gözü bir-birini izdiyir, poyez dayananda biləjəhlər nə hadisə baş verir. Ona görə bir az kənarda saxlayax, düşün, meşəlihnən gedin kəndə. Noyabrın 28-29-u kəndə gəldik, gecə saat 3-4 olardı biz kəndə çatmışdıx. Gördük hamı oyaxdı. Söz arası onu da deyim ki, Bəxtiyar Vahabzadənin göndərdiyi məktubu Tiflisdə poşta atmışdım. Məktubda onun azərbaycanlılara müraciəti var idi ki, çıxmıyın kəndinizdən. Aldadıb çıxarda bilərlər, hədə-qorxu gələ bilərlər, amma siz dözün, çıxmıyın. Bu mövzuda azərbaycanlılar yaşayan bütün rayonlara göndərmişdi. Artıq biz gəldik kəndə. Dedilər ki, iki dəfə kəndə hücum oluf. O zonada Saral savadlı insanları ilə tanınırdı. 58-ci ildə bizim kənddə elə orta məktəb var idi ki, heç ermənilərin helə məktəbi yox idi. Qonşu kəndlərdən də oxumağa bura gəlirdilər. Ermənilər hədəf kimi Saralı seçmişlər. Saqqallı ermənilər tez-tez kəndə hücum edirdilər, bizim camaat da gördü artıq qalmaq mümkün döylü. Rayondan 25-26 maşın ayrıldı, üç ayiləyə bir avtobus verildi, ancaq paltarlarını götürüb çıxa bildilər. Avto-

buslar Həmzə Çimənə çatanda saqqallı ermənilər hücuma keçdi, avtobusları güllə-barana tutdular. Orda bizdən ölənlər oldu, yaralananlar oldu. Teymur Balacayev, onun həyat yoldaşı öldü. Teymuru hədəfə almışdılar, çünki ermənilər kəndə hücum edəndə əlində ov tüfəngi ilə onların qarşısına çıxmışdı. Yolda artıq bilmişdilər Teymurun özü, ailəsi hansı avtobusdadı, həmin avtobusu güllə-baran eləmişdilər. Güllə onun sinəsindən dəymişdi, yoldaşı özünü avtobusdan atanda güllənin biri də onun böyründən dəymişdi. Onun yoldaşını aparmışdılar Həmzə Çimənə xəsdəxanaya. Deməynən, orda bir azərbaycanlı süpürgəçi işdiyirmiş, erməniyə ərə gedibmiş, ermənilər də onun azərbaycanlı olduğunu bilmirmiş. O deyirdi ki, Teymurun yoldaşını tənzifnən boğuf öldürdülər, üstündəki qır-qızılını da götürdülər. Ondan başqa həmin avtobusda Teymurun qardaşı oğlu öldü, Teymurun uşaqları yaralandı. Mənim xalam uşaqlarını daşa tutmuşdular, daşın biri Alı qaqaşın başına dəymişdi, uzun müddət xəsdəxanada müalicə olundu.

Orda Fiyatov kəndi var, ruslar yaşayan kənd idi. Yaralıların hamısı qaçır bu kəndə ki, bizə kömək eliyin. Olar da deyir, vallah, incimiyin, biz sizi evə buraxa bilmərik. Yerli ermənilərnən dil tapmaq olur, amma saqqallı ermənilərnən[59] mümkün döyül. Gejəynən bizi yandırallar ki, siz azərbaycanlılara kömək elədiniz. Bint-zad verillər ki, gedin özünüz yaranızı sarıyın. Onda mən kənddə idim, çıxmamışdım. Xəbər gəldi ki, belə bir hadisə olub. Teleqram vuruldu, Azərbaycana xəbər verildi. İllərnən bizə iş verilmədiyi üçün bizimkilərin hamısı məcbur idi gəlib Azərbaycanda iş tapırdı, işləyib Azərbaycanda qalırdı-

[59] Söyləyicinin dediyinə görə, saqqallı ermənilər Suriyadan gələn ermənilər idi, azərbaycanlılara qarşı aqressiv münasibətləri ilə seçilirdilər.

lar. Dekabrın altısında Ukraynadan bizə kömək gəldi. Dedilər narahat olmuyun, ayın yeddisində yerdə qalanınızı çıxardacağıq. Dekabrın yeddisində gündüz güclü zəlzələ oldu, biz artıq yaddan çıxdıx. Dekabrın 15-ə qədər kənddə qaldıq. Fransadan, xaricdən Ermənistana yardım gəlirdi, onu erməni kəndlərinə paylıyırdılar, amma bizə göndərmirdilər, heç kim bizlə maraqlanmırdı. Kərəm Məmmədov var idi, Birinci Qarabağ Müharibəsində iştirak edib. Erməni dilini səlist bilirdi. O, erməni adıynan yardımları alıb bizim kəndə gətirirdi. Neçə gün kənd o yardımlarla dolandı. Axırda vertalyot gəldi. Genə də bizimkiləri aldatdılar, yalandan dedilər Azərbaycandan vertalyot gəlib, 17-18 nəfəri mindirdilər, İrəvana apardılar. Orda nəkqədər eliyiflər, bizimkilər vertalyotdan düşməmişlər. Azərbaycan işə qarışandan sonra vertalyotu göndərmişlər Qazağa.

Kənddə bizim Armud ocağımız var idi, zəlzələ oldu, evlərimiz dağıldı, onda hamımız armud ocağına sığındıx. Zəlzələ ermənilərin başını qatdı, yoxsa biz o kənddən sağ çıxmıyacaxdıx. Həmin ocağın dörd bir tərəfində məskunlaşdıx, Azərbaycandan bizə kömək gələnə qədər orda qaldıx. Azərbaycandan avtobuslar gəldi, daşın altından kim nə çıxarda bildi onu götürdü, gəldi. Mən idim, Melis Aslan, Yəhya Sələdi idi, kəndin axırıncı sakinləri idik, dekabrın 15-də ordan çıxdıx.

Ermənilər kəndə hücum eliyəndə Teymur dediyim atəş açmışdı. Polis gəlmişdi ki, atəş səsi gəlib. Heş kim onu satmamışdı. Kimi yabaynan, kimi ağacnan gələnlərin qabağını kəsib kəndə girməyə qoymamışdı. Kəndə də üç yerdən hücum ola bilərdi. Biri körpünün üsdündən, biri Hajı Qara kəndindən, bir də Qursalıdan. Qursalı Azərbaycan kəndi idi, ordan qorxumuz yox idi. Ən çox qorxduğumuz Hajı Qara kəndi idi, çünki hajı

qaralılar bizə on səkkizinci ildə də divan tutuflar. Qara Usufun köməyi olmasaydı, bütün Saralı qırajaydılar. O zaman 11-ci firqə deyirdilər, türk alayı gəlmişdi köməyə. Ermənilər duz-çörəknən gəlib and işmişdilər ki, biz sizə dəymiyəjeyik. Onları aladıb arxeyin salmışdılar. Səhər yeməyinə duran mamentində Daşxanadan hücum edib, – onlar yuxarıda idilər, türk alayı isə aşağıda məskən salmışdı, – türklərin hamısını qırmışdılar. Orda türk qəbirstanlığı vardı, onları orda dəfn elədilər. Türkiyəyə xəbər getdi, ordan bizə kömək gəldi. Ermənilər bildi ki, türklər köməyə gəlib, qaçıb iki dağın arasına yığılmışdılar. Türklər orda hamısını qırmışdı, qan su yerinə axmışdı. O dərənin adı ordan qalmışdı Qannı dərə.

1918-ci ildə Vartana kəndində insanları dama doldurub diri-diri yandırmışlar. Qırılan qırılmış, qalanlar dağlarnan, meşələrnən Sarala gəlmişdi. Bizim kəndnən üzbəüz Qızılörən kəndi var idi, bizimkilər istiyirdi Vartananı Qızılörənnən dəyiş-sinlər, azərbaycannılar Qızılörənə köçsün, ermənilər Vartanaya. Bu təklif Qara Usufdan gəlmişdi, amma ermənilər bununla razılaşmamışdı. Türk alayı gələndən sonra vartanalılar öz kəndlərinə qayıda bilmişlər. Qara Usufun çoxlu malı-qoyunu vardı, Sovet hökuməti qurulandan sonra ermənilər onu xalq düşməni kimi damğalayıb tutmaq istəyirdi. Pənah[60] öz ayiləsini aparmışdı Türkiyəyə. Geri qayıtmışdı ki, görsün burda vəziyyət nətərdi, yaxşıdırsa, ayiləsini də götürüb gəlsin. Təkrar Türkiyəyə qayıdanda Amasiyada güllə-baran olmuşdu. Pənah ölmüşdü, Qara Usuf da yaralanmışdı. Qara Usuf Sibirə sürgün olunmuşdu, on beş il sürgündə qalmışdı (S.39).

---

[60] Qara Usubun kiçik qardaşı

# IV. NAĞILLAR

## 158. ŞƏRAB İÇƏNİN AQİBƏTİ

Xristianlar, cuhudlar müsəlmanlara qarşı olub. Onların böyüyü Məhəmməd peyğəmbərin fikirlərini izləyirdi. Məhəmməd peyğəmbər nə deyirdisə, hamısınnan xəbərdar idi. Nə isə... Günlərin bir günündə Məhəmməd peyğəmbərin kəlamlarını oxuyanda, gördü ki, peyğəmbər içkini, şərabı haram buyurur. Buna bu çox qəribə göründü. Dedi, ayə, bu qədər haqq-hesablar, deyək ki, bunun hamısı düzdür. Bə bu şərab ki, meyvə suyudur, bunu niyə camaat üçün haram buyurur? Bununla bu ülama razılaşmadı. Dedi ki, gərək gedəm bunu onun şəxsən özünnən soruşam. Bu durdu hasasını götürdü, gəldi yavaş-yavaş çıxdı Məhəmməd peyğəmbərin huzuruna. Salam verdi, salam aldı. Məhəmməd peyğəmbər sual elədi, dedi xeyir ola? Niyə gəlmisən? Dedi, Məhəmməd, sənin dediklərinin, camaata çatdırdıqlarının çoxunnan mən razılaşıram, amma bu gün mənə bir iş rast gəlib, onnan razılaşmıram. Dedi, nədir? Dedi, şərabı niyə haram buyurursan? Sən də bilirsən, mən də bilirəm ki, bu meyvədən düzəlib, meyvə suyudur. Məhəmməd peyğəmbər bildi ki, bunu nə qədər başa salsa da, başa düşməyəcək, inanmayacaq. Amma gözünnən görsə, bəlkə də, inanar. Dedi, bunu bilmək istəyirsənsə, şəhərin filan küçəsində, filan ev var, get ora. Orda sən bu gəldiyin mətləbi öyrənə bilərsən.

Nə olajax. Bu xristian üləması durdu bir faytona oturub, gəldi peyğəmbər deyən yerə. Qapını döydü, qapıya orta yaşlı bir qadın çıxdı. Salam, bəli, əleyküməsalam. Dedi, ay qızım, qonaq istəyirsənmi? Dedi, əmi, qonaq Allah qonağıdır, buyur. Bunu

içəri təklif elədi. Bu gəldi içəri. Arvad bunun altına kötük qoydu, kişi əyləşdi. Bu qadın getdi çaydan-çörəkdən hazırlamağa. Bu gedən kimi kişi başladı evə göz gəzdirməyə. Gördü ki, evin o biri küncündə iki qəbir var. Biri böyük qəbirdi, üstünə qılınc sancılıb, biri ondan kiçikdir, üstünə xəncər sancılıb. Amma hər iki qəbirin üstündə də bir beşik var, beşikdə də bir uşaq yatır. Dedi, hə, burda bir məna olmasa, bir möcüzə olmasa Məhəmməd peyğəmbər məni bura göndərməzdi. Demək, burada böyük sirr var.

Bu fikirləşməkdə olsun, arvad da çay qoyurdu. Birdən beşikdəki uşaq ağladı. Beşikdəki uşaq ağlayanda arvad əlindəki işini bir kənara qoydu, gəldi, beşiyi silkələdi, dedi:

– Kiri, kiri, oğlumun oğlu, qardaşımın nəvəsi, – deyəndə, bu kişi də ağıllı adam idi, gördü ki, arvad elə söz işlətdi ki, bunu başa düşmək çətindi. Kiri, kiri, oğlumun oğlu, qardaşımın nəvəsi. Yox, dedi, burada bir sirr var.

Nə isə... Arvad çayı gətirdi, bunun qabağına qoydu, süfrə açdı. Özü də oturdu. Kişi dedi:

– Qızım.

Dedi:

– Bəli.

Dedi:

– Qızım, səni and verirəm bizi yaradan Allaha, Məhəmməd peyğəmbərin üzünün nuruna, mənim sənə verdiyim sualı gərək rədd eləmiyəsən, cavab verəsən.

O vaxtlar da and çox möhkəm idi. Arvad gördü yox, iş çətindi. Bu buna and verdi, deməsə olmaz. Dedi:

– Buyur, əmi.

Dedi:

– Ev nədir, bu qəbir nədir, bundan məni hali elə? Bir də bax, o beşikdəki uşağa sən nəyə görə dedin "kiri, kiri, oğlumun oğlu, qardaşımın nəvəsi". Bu nə deməkdir? Bax, bu sirrdən məni hali elə.

Dedi:

– Əmi, bu sirdən heç kimin xəbəri yoxdu. Nə çarəsən, nəsən, bilmirəm. Gəldin bura çıxdın, bu sirri gördün. İndi ki mənə and verirsən, qoy bu sirr ta açılsın, gələcək nəslə görk olsun. İndi qulaq as. Dedi, mən və qardaşım hələ on dörd yaşında ikən atadan-anadan yetim qaldıq. Mən özümə sənət seçdim, onun-bunun qapısında paltar yuyub, çörək qazanmağa başladım. Qardaşım isə ov dalınca getməyə başladı. Bu minvalnan hər ikimiz gəldik həddi-buluğa çatdıq. İriləndik, mənim ərə gedəsi vaxtım oldu, qardaşımın evlənəsi vaxtı oldu. Yuvaş-yuvaş güzəranımız yaxşılaşdı. Amma fikirləşdim ki, əvvəlcə qardaşımın əlini başına yığım, evləndirim, sonra özüm ərə gedim. Qardaşım da fikirləşdi ki, məni ərə versin, sonra özü evlənsin. Bu minvalla bizim ötkünlük vaxtımız keçmək üzrə idi. Sözüm onda döyül, güzəranımız yaxşılaşmışdı, mən nökərçilikdən əl çəkmişdim. Da qardaşımın ovu bizi qane eləyirdi. Qardaşım hər gün ova gedir, eyni vaxtda da evə gəlirdi.

Nə isə... Bir axşam qardaşım vaxtında gəlmədi. Gecə oldu, gözlədim, gəlmədi. Gecədən keçdi, nə yatmağa dincliyim gətirdi, nə də bir şey eləməyə. Bir az keçdi, mürgülədim oturduğum yerdə. Gördüm ki, qapı heybətli döyülür. Sərsəm ayılıb qapıya qaçdım. Qardaşım bağırdı ki, aç qapını. Amma bunun niyə belə gec gəlməsi, niyə belə qışqırması mənə qaranlıq qaldı. Qapını açdım. Qardaşım içəri girən kimi məni hop yerdən götürdü. Ay dad, ay aman, nə qədər yalvardım, nə qədər əlləşdim, əmələ gəlmədi.

Nə isə... Qardaşım mənə toxundu, özü də quru torpağın üstündə meyit kimi düşüb qaldı. Səhərəcən ahu-zar edib ağladım, bir şey başa düşə bilmədim. Səhər açılanda qardaşım torpağın üstündən qalxdı, təəccüblə mənə baxdı. Dedi, ay bacı, bu nə işdi, niyə mən burda, torpağın üstündə yatmışam? İstədim gecə olanları açıb deyəm, ancaq üzüm gətirmədi, deyə bilmədim. Nə isə, dilim gətirmədi. Bu da heç nə başa düşməyib, adi qaydada ova getdi. Mənim gözümün yaşı oldu, çörəyimin yuvanlığı ki, əşi, bu nə işdi. Belə-belə mən hamilə oldum. Mənim hamiləliyimi qardaşım hiss elədi. Başladı mənə pis gözlə baxmağa, tərs münasibət göstərməyə, məni pis dindirməyə.

Günlərin bir günü bu ova getməyib evdə qaldı. Bu mənim hamiləliyimi sindirmədi. Dedi, bacı. Dedim, nədir? Dedi, gəl otur. Gəldim oturdum. Dedi, bacı, biz nə qədər istəkli, mehriban bacı-qardaş olmuşuq. Mən istəyirdim ki, səni köçürüm, sonra özüm evlənim. Bəs bu nə iş idi, sən dostun, düşmənin qarşısında mənim dilimi gödək elədin. Belə idi, deyəydin, mən səni verərdim ərə. Dedim, qardaş. Dedi, nə var? Dedim, gəlsənə bu işi açıb-ağartmayaq. Dedi, sən nə danışırsan, belə şeyi mən qəbul edə bilmərəm, hələ mən sənnən yumşaq danışıram, de görüm, kimnən, nə vaxt olmusan? Dedim, ay qardaş, sən haqlı sual verirsən, amma mən də sənnən bir şey soruşum. Düzgün cavab versən, mən də sənə düz cavab verəcəyəm. Dedi, de. Dedim, ayın filanında, filan gündə gecənin yarısınnan sonra həmişə gəldiyin vaxtdan niyə evə gec gəlmişdin? Dedi, nolsun, bunun nə mənası var? Dedim, soruşuram, cavab ver. Dedi, o günü getdim meşəyə ova. Ovu qova-qova getdim çıxdım bir yerə, orada əcnəbi ovçularla rastlaşdım, bunlarla yoldaş oldum, ov elədik, günorta oturduq bir yerdə çörək yeməyə. Bunlar amma

gedib ağacın dibinnən çanaqda bir qırmızı su gətirdilər. Dedilər, bunnan gözəl, bunnan təmiz su yoxdur. Bu meyvənin suyudur, indi içərsən, görərsən, necə ləzzətli şeydir. Nə isə... Mənə çox üz vurdular, amma bir kruşka içdikdən sonra gördüm ki, yaxşı şeydir. Bunlarla bərabər içərəm, nə qədər içərəm, necə içərəm, onnan sonrası yadımda döyül. Evə necə gəlmişəm, məni kim gətirib, bunu da bilməmişəm. Səhər torpağın üstündən qalxdığım yadımdadır. Dedim, qardaş, indi ki belədir, gəl bu işi qurdalama, bu işdən yan keç. Dedi, əşi, bu nə deməkdir, yan keç nədir? Sən məni binamus eləmisən, indi də deyirsən bu işdən yan keç. Elə şey yoxdur, gərək deyəsən. Dedim, ay bədbəxt qardaş, mənim üzümü açan sən oldun. Mən nə qədər yalvardım, neylədim, əmələ gəlmədi. Bax, haqq-hesab belə oldu. Qardaşım əlini alnına qoyub fikirləşdi, dedi, bay, dili-qafil, məni içirdənlər gavurlar imiş. O haram deyirdi Məhəmməd peyğəmbər, bu ondan içib, kefli gəlib bu işi tutub. Dedi, bacı, get o biri evdən mənim bıçağımı gətir. Keçdim o biri evə ki, bıçağı gətirim, qayıdıb gələndə gördüm ki, qılıncı siyirib qoyub ürəyinin başına, yıxılıb üstünə. Qılınc daldan çıxıb. Nə olajaq. Ağladım, özümü döyüb-tökdüm, fikir elədim ki, gərək bu sirri heç kimə bildirməyəm. Gecəni gündüzə qatıb, bax, evin o küncündəki böyük qəbri qazdım. Qardaşımı orada özüm dəfn elədin, həmin qılıncı da qəbrin üstünə özüm sancmışam.

Arvad dedi, əmi, qulaq as. Ay keçdi, gəldi bir oğlan uşağı doğdum. Fikir elədim ki, mən ərə getməmişəm, bəs bu uşağı necə üzə çıxara bilərəm. O vaxtı qəbahət iş tutanları daş-qalaq eləyirmişlər. Nə isə... Bir neçə gün bunu mayaladım, əmizdirib saxladım. O vaxt da belə uşaqları alanlar var idi. Aparıb verərdin, böyüdüb, tərbiyələndirib, sonra da satardılar. Gecəni

gündüzə qatdım, xəlvətcə bu uşağı aparıb filan yerdə bir Hacı vardı, verdim ona, qayıdıb gəldim evə.

İndi dönərgə döndü, vəziyyət daha da ağırlaşdı. Mən oldum heçin heçi. Bayaq yenə yaxşı idi. Başladım onun-bunun qapısında nökərçilik eliyə-eliyə güzəran keçirməyə. Amma sənə hardan xəbər verim, bizim bu qonşuluqda bir dənə adlı-sanlı adam var idi. Evi həmişə qonaq-qaralı olurdu. Bir gün bir tacir karvanı gəldi. Bu karvan bizim qonşuluqdakı adlı-sanlı kişiyə qonaq oldu. Mənim də nədən xəbərim var. Bu karvanın da başçısı cavan bir oğlan ola. Bu, səhər tezdən çıxıb çölə hərlənəndə mən də qapıda toyuq-cücəyə dən verirdim. Bu məni görər, vurular. Qayıdar gedər o qonşu ki var, ona deyər, əmi, bu qonşuluqda bir gəlindi, qızdı bilmirəm, gördüm, ona vurulmuşam. Gərək onu mənim üçün alasan. Deyir, ay bala, sən bir tacir, o da yetimin, kasıbın biri. Deyir, istəyir yetim olmur, nə olur olsun, mən onu almalıyam. Nə isə. Bu cavan oğlan kişini üzdən-gözdən salır. Bir də baxdım ki, bu qonşumuz gəldi mənim yanıma. – Salam. – Bəli, salam. Dedim, ay əmi, səndən nə əcəb? Dedi, qızım, hal-əhval belədir. Amma mən də məəttəl qalmışam. Mənim bir qoca tacir dostum var, özü qocalıb, gəlməyib, oğlu gəlib, səni görüb bənd olub. Əl çəkmir, deyir, gərək onu mənə alasan. Dedim, ay əmi, neçə yaşı olar? Dedi, vallah, sənə baxanda çox cavandır. Deyir, fikir-fikir elədim ki, sevgi qadağan deyil, evlənmək qadağan deyil, ərə getmək də qadağan deyil. Amma uyğarı yoxdur. İndi gəl buna elə təklif göndər ki, özü-özlüyündə geri çəkilsin. Dedim, əmi. Dedi, bəli. Dedim, gedib ona deyərsən ki, əvvəla mən qız deyiləm, gəlinəm. İkincisi, o cavandı, mən onnan yaşdıyam. Üçüncüsü, məni alsa, mən bu evdən heç yana gedəsi deyiləm. O burda qalmalıdır. Əgər üç şeyi qəbul edərsə, onda ona ərə gedərəm.

Nə isə. Kişi qayıdıb gəldi. Oğlan dedi, ay əmi, nə oldu? Dedi, a bala, getdim, dedim, belə oldu. Deyir ki, qız döyüləm, gəlinəm, ondan yaşdıyam, bu evdə də qalmalıdır. Oğlan deyir, əmi, üç yox, beş şərt qoysa da, onu almalıyam. Bu minvalnan oğlan mənim sözümü kəsdi. Bu oğlan karvanı yola saldı, pulnan toy elədi, məni aldı, qaldı bizdə.

Bəli, bir müddət yaşadıq. Amma bu gələn gündən qəbri görmüşdü, üstünü vurmurdu. Nə isə, bu üstünü vurmur, mən də heç nə demirəm. Ay keçdi, il keçdi, mən hamilə oldum. Da bu ayağını bərkitdi. Gördü ki, hamiləyəm, bir yerdə yaşayırıq, bir-birimizin xasiyyətini bilirik. Bir gün evdə oturmuşdum. Dedi, ay qız, mən istəmədim sənin qəlbinə dəyəm, o qəbri görənnən öz-özümə fikirdəyəm. Deyirəm, ayə, mən bunnan evlənəndə bu qız döyül gəlin idi, yəqin bunun həyat yoldaşını düşmən öldürüb. Bunu soruşaram, bu da bikef olar. Buna görə də soruşmurdum. İndi artıq biz bir yerdə yaşayırıq, yaşaya-sıyıq da. Bə bilmirsən ki, bu mənə təsir eləyir, evdə də qəbir olarmı? Niyə açıb demirsən ki, bu kimin qəbridi? Dedim, ay oğlan, bir elə mənası olmadığınnan açıb demirdim ki, qəlbin qırılar. Nə isə, olmadı, bu məni məcbur elədi. Mən sənə necə söyləmişdim əmi, əvvəldən yetimçilikdən, nökərçilikdən, ovçuluğdan ta qardaşımın özünü öldürdüyü vaxta qədər açdım danışdım. O vaxtı da elə qanun vardı, elə insaniyyət vardı. Bilirdin ki, o işdən sənə ölüm gəlir, yenə də düzünü danışmalı idin. Mən danışdım, bu bir qədər fikrə getdi. Gedənnən sonra dedi, ay qız. Dedim, nə var. Dedi, nə qardaşında günah var, nə də səndə günah var, bu həyatın qəzasıdır. Bu bir. İkincisi də, Məhəmməd peyğəmbərin dediyini kim yerinə yetirməsə, axırı belə faciəli olar. O şərab içməsə idi, bir nəticə də verməzdi.

Burda mən səni günahkar hesab etmirəm. Amma de görüm o uşağı niyə yazıq eləmisən? Bax, aradan iyirmi, iyirmi beş il keçir, əgər o uşaq qalsaydı, indi mənə də, sənə də böyük arxa olardı. Bəs onu niyə itirmisən? Dedi, dur gedək oğlanı tapaq.

Bu durdu, məni də götürdü, bir faytona oturub gəldik həmin Hacının öyünə. Girdik Hacının yanına. Hacı soruşdu ki, bala, nə istəyirsən? Dedim ki, əmi, yadında olar, filan ildə, bu nişanədə sənə bir oğlan uşağı vermişəm. Xahiş edirəm ki, onun öldüsündən, qaldısınnan mənə bir nişan ver. Nə olajax? Hacı kitabını vərəqlədi, oxudu. Dedi, bala, oğlanı mən böyüdüb filan şəhərdə, filan tacirə satmışam, getsəz filan yerdə taparsız. Xudafizləşib çıxdıq. Gördüm ki, oğlan bikeflədi. Təzədən faytona oturub gəldik bu dağılmış öyə. İçəri girdik, oturanda bu dedi, ana. Dedim, nə ana? Dedi, həmin Hacıya aparıb verdiyin oğlan mənəm. – A kişi, nə danışırsan, bu dəhşət deyilmi? Xəncəli siyirməyi ilə ürəyinə əldən qoymağı bir oldu. O da ora yıxıldı, həmin qəbir də onun qəbridir. Xəncəri də üstünə sancmışam.

Bu xristian üləması təəccüb qaldı. Dedi, qızım, bəs sonra? Dedi, sonrası da nə olajax, həmən ondan olan uşaq indi beşikdə yatır. Ona görə ona dedim ki, kiri, kiri, ağlama, oğlumun oğlu, qardaşımın nəvəsi. Bax, sirr bundan ibarətdir.

Təzədən üləma qalxıb birbaşa Məhəmməd peyğəmbərin huzuruna gəldi. Gəldi Məhəmməd peyğəmbərin qabağında diz çökdü, dedi:

– Peyğəmbər, Allahı səndən qabax tanıyıb-bilməsəydim, mən sənə yer üzünün Allahı deyərdim. Sənin dediyinin hamısı öz yerini alıbdır. Bu gün şərab haqda dediklərin də öz yerini aldı. Deməк, nə müsibət qopsa, işkidən, şərabdan törəyir (S.26).

## 159. AĞACIN ŞAHİDLİYİ

İki nəfər pul qazanmaq üçün səfərə çıxırdılar, gedirdilər fəhləlik eləyirdilər, muzdurluq eləyirdilər, bir qədər pul toplayırdılar. Amma indi insanlar belədi də, biri bexərc olar, qazandığını xərclər, kimi də pulunun qədrini bilər. Yenə bunlardan biri bexərc idi. Əlinə gələni xərcləyirdi, biri isə pul yığırdı. Qayıdıb gəlirlər, kənd keçirlər, şəhər keçirlər. Bir şəhərə girəndə görürlər ki, bir nəfər dünya gözəlinin əlinnən tutub satır. Bu pulu olan yazıq, ailəsinnən başqa heç kəsi gözəl bilmirdi. Bu pulu olmayan nanəcib bu dünya gözəlinə vurulur. Durub dincələ bilmir. Dəli-divanə olur. Amma bunlar ikisi də çox mehriban, səmimi yoldaş idilər. Deyir, ə qardaş, mənim ölməyimə razısan, ya yox? Deyir, ayə, Allah eləməsin, niyə? Biz dostuq, heç elə şey ola bilərmi, niyə öləsən? Deyir, ə, artıq mən öləcəyəm, vurulmuşam o gözələ. Deyir, onda bəs mən nə qayırım? Deyir, indi gizlin deyil, səndə pul var, məndə yox. Gəl o pulları ver mənə, mən o dünya gözəlini alım, arzuma çatım. Sonra satıb sənin pulunu qaytarıb verərəm. Bu çox and-amandan sonra bir çinarın dibində oturub düyünçəsini açıb, pulları sanıyıb verir bu nanəcibə. Bu da pulları götürüb dünya gözəlini alır. Qayıdıb gəlirlər kəndə. Bu pulu verən xəcalət, əli boş, cibi boş gəlir ailəsinin yanına.

Nə isə... Bir müddət keçir, bu pul verən görür ki, ayə, bu heç tərpənmir, dünya gözəli əldən veriləsi şey deyil. Deyir, ayə, qardaş, bə nə oldu? Deyir, darıxma, satajam. Amma satmır ki, satmır. İş gəlib o dərəcəyə çatır ki, bu pul verən qazıya şikayət edir. Ərizə yazır, deyir ki, haqq-hesab belə olub, indi bu vijdansızlıq eləyib mənim pulumu vermir.

Nə olajeydi. Günlərin bir günü qazı məhkəmə qurur, başqa cinayətkarları da çağırır, bunları da çağırır. Başlayır başqa adamların işinə baxır. Gəlib bunun ərizəsinə çatanda, qalxızır bunu ayağa. Deyir, söylə görüm, nə təhər olub? Nə təhər mən söyləmişdim, bu da qazıya belə söyləyir. Qazı deyir, o pulu harda verdin, nə təhər verdin? Yanında adam-zad varıdı, ya yox? Deyir, qazı sağ olsun, adam-zad yox idi, ancaq filan yerdə bir çinar var idi, bax, o çinarın altında verdim. Deyir, yaxşı, otur. Bu oturur. Qazı o birini qaldırır. Deyir, ayə, bu düzmü deyir? Deyir, qazı sağ olsun, yox. İkimiz də fəhləyik, o pulu hardan alıb mənə verirdi, hələ bəlkə mənim pulum onunkundan da çox idi. Bu mənə şər atır, – deyəndə qazı deyir, eləmi? Deyir, elə. Deyir, onda gəl Qurana and iç ki, bu mənə pul verməyib. Bu qalxır ki, gedib and içsin. Bu and içəndə pul verən bar-bar bağırır ki, ay qazı, sən neyləyirsən? Bu işi tutan, bu vijdansızlığı eləyən yalannan Qurana da and içər. Amandı qazı, mənim pulumu batırma, – deyəndə qazı deyir, yaxşı, hay-küy salma, otur. Qazı qayıdır ki, o çinar yaxındadır, ya uzaqdadır? Pul verən deyir ki, filan yerdədi. Qazı deyir, dur get, bu kağızı çinara ver. De ki, qazı səni çağırır. Bu pul verən yazıq başlayır bu yayın istisində ləhləyə-ləhləyə getməyə. Qazı da başlayır başqa işlərə baxmağa. Aradan bir müddət keçəndə qazı bu pul alana deyir, bir ayağa qalx görüm. De görüm o kişi indi çinarın yanına çatar, ya yox? Deyir, qazı sağ olsun, hələ çatmaz. Deyir, yaxşı, otur. Qazı arif adam idi. Baxır ki, bu bayaq çinarı da danırdı, indi deyir çatmaz.

Təzədən bu yazıq kişi gəlib çatır çinara. Kağızı verir, deyir, ay çinar, qazı səni çağırır. Çinardan səs çıxmır. Bu çox yalvarır, görür ki, çinar gəlmir ki, gəlmir. Qayıdır qazının yanına.

Qazı deyir, gəldin? Deyir, gəldim. Deyir, qazı sağ olsun, çinar gəlmir. Deyir, a ağılsız, nə təhər gəlmir? Çinar səndən qabaq gəldi. Gəldi də, şahidliyini elədi də, özü də çıxıb getdi, – deyəndə bu pul alan deyir ki, qazı sağ olsun, bəs havaxt gəldi? Heç mən onu görmədim. Qazı deyir, a biqeyrət, bə bayaq sən danırdın, deyirdin nə pul, nə çinar! İndi hardan bildin ki, o çinar yaxındadı, ya uzaqda? Bu kişi ora çatıb, ya çatmayıb, hə? Ondan sonra qazı onun günahını boynuna qoydurdu. Bir həftənin içində dünya gözəlini satdırdı, kişinin pulunu özünə qaytardı (S.26).

## 160. NUŞİRƏVAN ŞAH

Gözəllikdə Yusif, səxavətdə Hatəm, ədalətdə Nuşirəvan. Bu üş kimsənə kimi insan dünyaya gəlmiyif, gələ də bilməz.

Bir günnəri şah eşitmişdi ki, Hatəm bı qədər qonaxpərvərdi, yeddi yolun ayrıcında restaran tikdirif gələnə çörəh verir, gedənə çörəh verir. Vəzirinə dedi, eşitdiyimə görə onda bir saz at var, getginən o atı mana gətir. Amma çoxlu qızıl yüklə aparginan, nə istəsə verərsən. Bı vəzir getdi, Hatəmin qapısında düşdü. Oturdular, məclis quruldu, oyan-bıyan, çörəh-zad yedilər. Dedi, bilirsən, Hatəm, nəyə gəlmişəm? Dedi, nəyə gəlmisən? Dedi, eşitdığımıza görə səndə bir dənə at var, gəlmişəm, onu aparam. Dedi, ay namarat, bını iki saat bınnan qavax deyərdin da. Atı kəsdim sizə qonaxlıx verdim. Vəzir belə baxdı, baxdı, nə qədər ayın-oyun aparmışdı bırda töhdü, qayıtdı şahın yanına. Əhvalatı şaha danışdı. Dedi, şah sağ olsun, haqq-hesaf belə-belə. Dedi, apardığını neynədin? Dedi, verdim ona. Dedi, verməsəydin, boynunu vurajaydım.

Nuşirəvan da ən qaddar padşah olufdu. Bınnar çıxıflar ova, gediflər, gediflər, günortaymış, hava od tutuf yanırmış. Görüllər,

bir soma var, bir məhlə var. Deyir, elə bı məhlədə bir az dincələh. Vəzirə deyir, qoşunu dayandır, mən düşüm bı məhlədə bir bekara istirahət eliyim. Düşüllər ki, doğurdan da, məhlə o qədər gözəldi, gül gülü çağırır, bülbül bülbülü. Bir çarhovuz var, bir dənə də qadın var. Dedi, bajı, icaza verərsən bir bekara bı seyvanda dincələh? Dedi, bəli, gəlin dincəlin, istəsəniz, gedin o çarhovuzda çimin, sonra gedərsiniz. Bınnar çıxdılar, seyvanda oturdular. Məhlədə belə bir üzüm sallanmışdı, bı üzümün birin qopardı, qoydu qonaxların qabağına. Bı üzümü yeyəndə, gördü üzüm yerindədi. Yedilər, genə üzüm yerindədi. Şah qayıtdı, ə, mən bir belə fəhlə tuturam, bir belə işdədirəm, bir belə xərc qoyuram. Elə məndə də bunun biri olsa, mən niyə bir heylə xərc qoyuram, – deyəndə üzüm yoxa çıxdı. Üzüm yoxa çıxanda gəlin dedi, Allah şahımızın taxtını tarac eləsin, ürəyini bulandırdı, üzüm yoxa çıxdı. Vəzir bını çimdiklədi. Dedi, ə zalım oğlu, dünya sənin əlindədi, üzüm nədi ki ona görə ürəyini bulandırırsan? Bı ürəyini düzəldəndən sonra üzüm gəldi yerinə.

Bir dənə qaragöz inəh gəldi qapıya, İlkin. Qaragöz inək gəldi, dayandı. Bu arvat vedrəni götdü, getdi, başdadı sağmağa. Bir vedrə, iki vedrə, üş vedrə, beş vedrə. Bu şah genə ürəyin bulandırdı, süd qurudu. Arvat genə dedi ki, padşahın taxtı tarimar olsun, ürəyini bulandırdı, inəyim süd vermədi. Genə vəzir dedi ki, ə kişisən e, dünya-aləm sənin əlindədi, sən niyə ürəyi dolandırırsan?

Nəysə, bu qaldı belə. İsdi düşdühcə Nuşirəvan şah dedi, düşəh çarhouzda bir az yaxalanım, qoşun da gözdüyür. Vəzirin ağzı nədi ki, onnan qavax çarhouza tüşə. Bı soyundu, çarhouza tüşəndə bını götdülər apardılar bir qaratikannıx sahəyə atdılar. Bir dənə qoja kişidi mənim kimi, lapatka əlində bı qaratikan

kolunu suvarır. Nuşirəvanın əlinə lapatkanı verdi, dedi suvarajaxsan. Deməli, Nuşirəvan üç il o qaratikan kolunu suvardı. Nəynən çörək yeyir? Duznan çörəhdən başqa ayrı bir tam vermillər. Üç ili tamam olannan sonrasına gətdilər genə çarhouza qoydular. Vəzir dedi ki, şah sağ olsun, nə çox suda qaldın? Dedi, nə bilim, xoşuma gəldi qaldım da. Üç il də qoşun orda gözdüyür ha, gör Allahın hökmünə bax e sən. Getdilər qoşunun yanına. Dedilər, şah sağ olsun, bir az ləngidin. Dedi, hə, bir az ləngidim.

Bınnar yolnan gəldilər, gəldilər, bir xarabadan keçillər. Bir xarabadan keçəndə baxdı ki, iki dənə bayquş bu burdan ovluyur, o ordan ovluyur. Dedi, vəzir, deyillər sən yaxşı dil bilirsən, o quşdar nə danışır? Dedi, şah sağ olsun, neynirsən nə danışır? Sənin ziyanınadı, gəl gedax. Dedi, sana deyirəm deginən, görüm. Dedi, şah sağ olsun, oankı oturan bayquş bu biri bayquşdan qızın istiyir oğluna, o da cehiz istiyir. Deyir, mana yeddi dənə xarava kənt verginən, qızımı verim. O da deyir ki, neçə ki Nuşirəvan patşah sağdı, sən yeddisin deyirsən, mən on yeddisin verəjəm. Həə, Nuşirəvan barmağın dişdiyir, onnan sora gəlir olur ədalətdi padşah. Ona görə deyillər ki, ədalətdə Nuşirəvan, şücayətdə Yusif, səxavətdə Hatəm (S.25).

## 161. ƏZRAYILIN KİRVƏLİYİ

Onnar beş qardaşdılar, Əzrayıl, Mikayıl, İsrayıl, Cəbrayıl, bir də İsrafil. Onnarın hərəsi bir işə baxır. Azrayıla deyəndə ki, sən can alansan. Dedi ki, Xudavəndi-kərim Allah, mən onu bacarmaram. Dedi ki, elə eliyəjəm heş kim səndə günah görmüyəjəh. Birin qayadan uçurdajam, birin daşdan, birin avariya, sən heş yada düşmüyəjəhsən.

Bir günnəri bir adamın uşağı olmurdu, bir oğlu oldu. Dedi ki, bına mən kirvə tutmalıyam. Mən elə bir kirvə tutajam ki, dünyada ona bərabər adam olmuya. Nə onda tamah ola, nə haqqı nahaqqa verə. Getdi İlkinin yanına. Dedi, yox, qardaş, sənnən mənim kirvəliyim tutmaz, sən yazı yazırsan, pozursan, gah düz yazırsan, gah səhv yazırsan, sənnən kirvəliyim tutmaz. Getdi Əyyuf kişinin yanına. Dedi, yox, sənnən də tutmaz, sən də bir az çox danışırsan, ya az danışırsan. Belə-belə, belə-belə gördü yox, bı məmləkətdə adam tapılmadı. Atını mindi, dedi sən öl, gedəjəm bir başqa yerdən özümə kirvə tapam. Getdi, elə meşənin ortasıynan yol gedirdi, gördü bir dənə göy atdı gəlir. Gəldi çatdı, salamməlöyküm, əlöykümsalam. Dedi, a qardaş, hara gedirsən bı meşənin içiynən? Dedi, vallah, Allah-taladan xayiş elədim, mənə bir oğul verdi, indi ona mən kirvə axtarmağa gedirəm. Dedi, ə, dünya doludu kirvəynən. Dedi, yox, maa gərəh elə adam ola ki, düz adam ola. Düz adam tapmıram. Dedi, düz adam mən. Dedi, sən kimsən? Dedi, mən Əzrayiləm. Dedi, həə, sən nə qojuya baxırsan, nə cavana baxırsan, nə bəyə baxırsan, nə xana baxırsan, heş kimə baxmırsan, hamını eyni bərabərdə tutursan. Sənnən kirvə oldum.

Bunnar gəldilər, İlkin, bu xeyir işi yola saldılar, bu uşağı müsəlman elədilər. Əzrayıl çıxıb gedəndə dedi, kirvə, bilirsən nə var? Dedi, nə var? Dedi, sənə mən həkimlih verdim, həkimlihnən çörəyini qazan. Yaxşı da qazanajaxsan, amma bir şərtnən. Dedi, nə şərt? Dedi, sən bir xəstənin üstünə gedəndə məni xəsdənin əyağında gördün, müalicəni elə arxeyin. Yox, məni xəsdənin başında gördün, nə badə, nə badə xəsdəyə əl vurasan ha, boynuna götürəsən. Dedi, mənim gözüm üsdə.

Nəysə, Əzrayıl yox oldu, çıxdı getdi. Bu kişi də bir dənə ağ xalat geydi, başdadı kəntbəkənt, şəhərbəşəhər gəzməyə. Bının adı dünyanı götdü. Hansı xəsdənin üsdünə getdi ki, Əzrayıl əyağında duruf, o dəyqə müalicəsini elədi, ot verdi, neynədi, xəsdə durdu ayağa. Bunun şöhrəti getdi çatdı padşaha. Padşahın da qızı iflic olmuşdu, neçə il idi yatırdı. Padşaha xəbər elədilər ki, belə bir həkim əmələ gəlif. Dedi, onu gətirin mənim yanıma. Gətirəndə dedi ki, bax, mənim qızım iflicdi, bunu gərəh sağaldasan. Səni belə tərifliyirlər, filan-bəhmədan. Dedi, gedim xəsdəyə baxım, ağlım kəsdi eliyəjəm, ağlım kəsmədi yox. Bını apardılar xəsdənin yanına, xəsdənin yanına çatanda baxdı ki, Əzrayıl başının üsdündə duruf. Qayıtdı şaha dedi ki, şah sağ olsun, mənnıx deyil. Dedi, qızım nə ağırrıxdadı, o ağırrıxda sənə qızıl verəjəm. Dedi, yox, mənnıx deyil. Dedi, iki ağrı verirəm. Qayıtdı qızın yanına, gördü genə Əzrayıl qızın başı üsdündədi. Qayıtdı dedi, yox. Dedi, üç ağrı verirəm. Üç ağrı verirəm deyəndə gəldi baxdı ki, Əzrayıl başı üsdündə. Dedi, onda bı qaravatı belə çəvirin. Qaravatı çəvirəndə Əzrayıl əyağına tüşdü. Nəysə, bir dərman verdi, qız ayıldı. Bı da şahın vəd etdiyi qızılı aldı.

Nəysə, indi həmən meşənin içiynən gedir. Göy atdı qavağını kəsdi. – Ə kirvə, sən də əyağı başa, başı əyağa çəvirən kirvələrdənsən? Bə deyirdin mən düzəm? Onun da həkimliyini əlinnən alır. Ondan sonra Əzrayılnan o kişinin kirvəliyi pozulur (S.25).

## 162. BİR ABBASILIQ RUZİ

Deyir, bir günnəri biri Gəncədən, biri Bakıdan möhkəm dosd olullar. Bakıdakı olur qəssaf, Gəncədəki olur ticarətçi. Bı ticarətçi həmməşə gedərdi bı qəssabın yanına, ticarətin eliyərdi, qəssaf da dostuydu da. Qəssaf da qəssaflıx eliyirdi, malın, heyvanın

kəsif dolanardılar. Elə oldu ki, Xalx cəbhəsi gəldi, yol kəsildi, bu on beş il, iyirmi il burya gedəsi olmadı.

Bu burda qalsın, indi qayıdıram dala. Bı tacir bir günnəri genə getmişdi bırya. Dostu qapıda idi. Hə, salamməleykim. Gördü dostu bunun heş üzünə baxmadı. Nəysə bı başın orya-bırya daldalıyır, bunu görməməzdən gəlir. Bı da arif adamıydı da. Dedi, qardaş, biz neçə ildi qardaşıx, dosdux eliyirih, sən niyə belə eliyirsən? Dedi, qardaş, sən bilmirsən, mən niyə belə eliyirəm. – Axı o vaxtı ev üş dəyildi, beş dəyildi, bir ev idi da, qonax da həmin evdə yatırdı, bala da, uşax da, gəlin də, qız da. – Dedi, vallah, utanıram deyəm. Bir nökərin olufdu, anası təzə yatıfdı, utandığımdan deyə bilmirəm. – Ə, – dedi, – nəyin olufdu? Dedi ki, bir oğlum olufdu. Dedi, oğul verənə qurvan olum mən, utanmax nədi.

Bınnar bir-birinə ürəh-dirəh verillər, azdan-çoxdan yeyillər, içillər, bınnar yatır. Qəssaf adamdı, yorulmuşdu, axşama kimi balta vurur. Bu da ticarətçi adamıydı. Dedi, ə, görüm bu şalı neçiyə verəjəm, bu bakkuşu neçiyə verəjəm, ha beynində vuruşdurur görəh nə qazanajam, nə gətirəjəm. Gejənin bir aləmi gəldi keçdi, çırax his verən çıraxlardan idi. Gördü qapı açıldı, içəri bir əmmamalı adam girdi. Bı da yorğan altından baxırdı. Girdi içəri, gəldi bu uşağın başı üsdündə durdu, nə dedi, nə yazdı, isdədi gedə, yıxıldı bının qışdarına. Dedi, sənə fəda olum, sən bilmirəm nəçisən, nə karəsən. Maa de görüm sən kim idin, nəyə gəldin? Heş bir şey götürmədin, oğurramadın. Dedi, əşi, qonağ adamsan, get yerində yat, nə işin var ayrı şeynən. Dedi, səni ant verirəm o gözə görünməzə, sən kimsən, nəsən maa de. Belə dayandı. Dedi, mən taleh yazanam. Gəldim bu uşağın talehin yazmağa. Ta bı əvi yıxılmış demədi e, ə, bu uşağı alim yazırsan, elm yazırsan, nə

yazırsan? Gözü ticarətdəydi, puldaydı da. Dedi, buna nəxətər urza yazdın? Dedi, iyirmi qəpih. İyirmi qəpih dedi, yox oldu, getdi. Bı da bını ürəyində sirr olarax saxlamışdı.

On beş il tamam oldu, qapı açıldı, bı bir də gedəsi oldu Bakıya. Evi tanıyır, getdi evin qapısını döyəşdədi, gördü bir dənə cavan oğlan çıxdı. – Ə bala, salamməleykim, bıra filankəsin evidi? Dedi, hə, oradı. – A bala, atan hanı? – Atam qırx gün bınnan qavax irəhmətə gedif, biri gün qırxıdı. Vaay düştü, arvat bını tanıdı da. Öpüşdülər, görüşdülər. Dedi ki, səhər yox, biri gün qırxıdı. Nəysə, oturdular, bının qırxın verdilər. Verənnən sonrasına bı dedi ki, qardaş oğlu, nə sənətin yiyəsisən? Dedi, nə sənətin yiyəsi olajam, əmi? Elə atam qəssabıydı, mən də qəssab oldum. Dedi ki, onda belə eliyax. Dedi, nə var? Dedi, səhər gələrsən əmiynən gedəsən heyvan almağa. Dedi, gedax da. Bınnar getdilər. İlkinin qabağında beş dənə saz erkəh var. Dedi, o erkəyin beşin də alginən. Getdi danışdı, bını neçiyə deyirsən? Dedi, on maata. Çıxartdı on maatı verdi, erkəhləri kəsdi, doğradı, satdı. Axşam da nə lazımdı apardı bişirdilər, yedilər. Dedi, əmin balası, indi hesab elə görəh nə qədər xeyrin qaldı? Hesab elədi, dedi, Allah min bərəkət versin, iyirmi qəpih. Dedi, səhər də gedax. Dedi, əmi, çox gözəl, gedax da.

Getdilər səhər, genə də birin qabağında üş dənə erkəh var. Ondan da aldı, genə həmən qaydaynan bını kəsdilər, soydular, doğradılar, satdı. Axşam düşəndə dedi, əmin balası, bir hesab elə gör nə qaldı? Dedi, əmi, min bərəkət, genə iyirmi qəpeh qalıf. Dedi, Allah min bərəkət versin. Səhər də gedəjəm, amma elə eləginən ki, mən tezdənnən yola çıxajam gedəm, elə sənnən maraxlanıram. Getdilər, İlkinin əlində bir dənə saz erkəh var. Dedi, elə onu böyün alginən, tələm-tələsik kəs, sat, mən gedə-

jəm. Getdi bını danışdı, aldı, gətdi, kəsdi satdı, bir az da götdü gətdi, pişirdilər yedilər. Dedi, əmin balası, hesab elə görəh nə qaldı? Hesab elədi. Dedi, əmi, Allah min bərəkət versin, iyirmi qəpeh qaldı. Dedi, qardaş oğlu, sənin talehində iyirmi qəpehdən artığı yoxdu. Beşinin qanına bayis olana kimi birinin qanına bayis ol. O iyirmi qəpehdən artığın ala bilmiyəjəhsən. Sənin talehin belə yazılıf. Ola bilər ki buyün alarsan on manat, üş gün ala bilmərsən, günün gəlif düşəjəh iyirmi qəpiyə. Talehi, qisməti, urzanı yazan o kişidi (S.25).

## 163. İSGƏNDƏR ZÜLQƏRNƏ

İyirmi səkgiz dənə əfsəl peyğəmbərimiz var, onnardan üş dənəsi əfsəl deyil, amma iyirmi beşi tanınmış peyğəmbərdi. O əfsəl olmayan peyğəmbərlərdən biri Yunisdi, biri Loğmandı, biri də İsgəndərdi. İsgəndər o vaxdı çox fironnux elədi, bütün dünyanı fot eliyənnən sonra dedi mən gərəh dirilix suyunu tapam, ölmüyəm dünyada. Gəldi, gəldi, bir xeylax gələnnən sonrasına dedi, ay camaat, hər yeri fot elədim, kim isdiyir evinə qayıtsın, kim isdiyir burda evlənsin, mənnən də gələn gəlsin. Mən gedirəm dirilix suyunu axtarmağa. Gələn mənnən gəlsin, gəlməyən də azatdı. Böyük qoşunu vardı, ayrılan ayrıldı, qalan qaldı. Bu dedi, qoja gəlməsin ha, qojaları qaytarın getsin. Bir oğlan da dedi, mən bu qoja atamı tək qoyub hara gedim? Qatırı var idi, gəldi iki dənə sandıx düzəltdi, birinə atasını qoydu, bir gözünə də daşdan-qayadan yühlədi. Bunu yühlədi qatıra, bunnarnan barabar getdi. Axşamlar gəlir atasın düşürdür, yedirdir, içirdir, təzdən qaytarıf qoyur sandığa.

Bunnar bir müddət gəldilər, çıxdılar o yerə ki, ordan Qarannıx dünyasına gedif dirilix suyunu götürajaxlar. Burda

dayandılar. Deyir, yaxşı, biz gedırıx Qarannığ dünyaya, nətər qayıdajağıx? Yolu azarıx. Bunnar üç gün burda dayandılar. Bu cavan oğlan kor-peşman gəldi. Atası dedi ki, ay oğul, niyə kor-peşmansan? Dedi, ay ata, üş gündü burda dayanıfdı. Deyir, yaxşı getdıx, bəs nətər qayıdajağıx? Deyir, oğul, onnan hasant nə var? Əşi, – deyir, – nə danışırsan. Deyir, ondan hasant iş yoxdu. Sən məni apar şahın yanına, mən ona gəlmağın qaydaların deyim. Sən apar, qorxmaginən, öldürsə, qoy məni öldürsün.

Apardı bunun yanına. Bunnan üzrxaxlıx elədi, dedi mən atamı tərk edə bilmədim. Bir səyfdi eləmişəm. Atam da deyir ki, mən onun yolun bilirəm. Dedi, ağsakqal, nə yolun bilirsən? Dedi, mən elə bilirdim sən çox ağıllı adamsan. Bir dənə təzə doğmuş qulanı burda saxla, atı özünüznən aparın. Orda tapdın, içənnən sonra atı buraxın, at sizi gətirif çıxardajaxdı. Gördülər bu çox ağıllı adamdı. Bunnar burda qaldı, bu atı da götdülər getdilər, həmən cavan oğlan da bunnarnan getdi. Bunnar üş nəfər oldular – İsgəndər, İlyas, bir də Xıdır. Bunnar getdilər, getdilər, getdilər, baxdılar ki, əyə, çay axır, biri gümüşü rəhdədi, amma biri adi sudu. İsgəndər dedi, hə, dirilix suyu budu. Özün atdı gümüşü suyun içinə. Xıdır da dedi, mən kiməm ki özümü İsgəndərə tay tutam, bu da özünü atdı adi suyun içinə. İsgəndər çıxdı baxdı ki, bunlar yoxdular. Çay da yox oldu getdi. Onnan sonra bu qayıdıf gəldi. Yolda bir çay qavaxlarına çıxdı. İsgəndər dedi, ay mənim qoşunum, əyilin bu çaydan bir xışma daş götürün, götürən də peşmandı, götürməyən də peşmandı. Mənim kimi ağılsızdar dedilər neynirəm, onsuz da götürən də peşmandı, götürməyən də. Eləsi oldu dedi, nolajax, əyilim götürüm. Əyildi bir xışma götürdü. Nəysə, bunnar çıxdılar qırağa. Götürən dedi ki, bu daşdarı neynirəm mən? Əl atdı ki daş nədi, hamısı qızıldı. Götürməyən də başına döydü ki, başın

batsın, sən də bir xışma götürəydin da. Onçün deyir götürən də peşmandı, götürməyən də. Onda Xıdır İlyasa peyğəmbərrik gəldi. Vergini verən Xıdırnan İmam Əlidir.

İsgəndər qoşunuynan gəlirdi. Münəccimləri çağırdı. Dedi, mənim ölən günümü deyin. Dedilər, şah sağ olsun, ölüm Allahın əlindədi. Şahsan, şahlığını elə. Dedi, mən müfdə yerə sizi saxlamıram ey, nə deyirəm onu eliyin. Bunnar kitaba baxdılar, dedilər şah sağ olsun, sənin üsdün polad, altın daş olanda öləjəxsən. Dedi, ayə, mənim ömrüm getdi min il. Mənim altım daş olmaz, üsdüm də polad olmaz.

Danışığa görə, gəldilər çıxdılar kimi deyir Özbəkistana, kimi deyir Hindistana, qumlu səhradı. Şah gördü ki, başı ağrıyır. Qoşunu yığdı. Dedi, mənim başım ağrıyır, mana bir daldanajax, bir kölgəlih. Dedilər, bu qumlu səhrada nə daldanajax? Dedilər, gətirin nizələri yerə sancax, çadırı çəkəh üsdünə, kölgəlix olsun. Qumu təmizdədilər ki, bir belə sal daşdı. Dedilər, elə yaxşı oldu. Gətdilər burda nizələri dik yerə sancdılar, üsdünə çadırı çəkdilər, İsgəndəri gətdilər uzatdılar burya. İsgəndər baxdı ki, altı daş, üzün də çevirdi baxdı ki, üsdü də polat. Dedi, hə, mənimki burya kimi idi, mənim əjəlim tamamdı. Dedi, tez vəziri çağırın, gəlsin. Vəziri çağırdılar, gəldi. Dedi, bilirsən nə var? Mən ölürəm, nə deyirəm onu elə. Dedi, şah sağ olsun. Dedi, nə deyirəm onu elə, uzatma. Dedi, nə deyirsən? Dedi, mənim meyidimi yühlüyərsən bir qatırın belinə, hər şey keçəndən sonra axırda mənim meyidimi apararsan. Əlimin də birini çöldə qoyursan, tavlana-tavlana gedir. Şəhərə çatanda əvvəlcə mənim nəkqədər pəhlivannarım var onnarı göndər, sonra qoşunu göndər, sonra bu qədər qızıl-gümüş, qəlfə-qatır yığmışam, onnarı göndər, sonra mollaları, təbibləri göndər, axırda da mənim meyidimi aparın. Nə deyirəm onu elə. Dedi, baş üsdə.

Bu dünyasın dəyişdi, bunu yühlədi bir qatırın üsdünə, qolunun birin açıx qoydu. Bunnar getdilər Makedoniyaya çatanda xəbər getdi anasına ki, arvad, sənin oğlun dünyanı fot eliyif gəlir. Dedi, məni çıxarın küləfirəngiyə[61]. Çıxartdılar küləfirəngiyə, əlini qoydu gözünün üsdünə, gördü darvaza açıldı, qabaxca pəhlivannar gəldi, qoşun gəldi, təbiblər gələndə dedi mənim oğlum ölüf, hazırrıx görün. Dedilər, ay arvad, ağlına gələni danışma. Dedi, sizə deyirəm oğlum ölüfdü, gedin hazırrıx görün. Əmir əmir idi, getdi hazırrığın gördü. Lap axırda İsgəndərin meyidi gəldi, bunu apardılar kəfn-dəfn elədilər. Aqil adamlar bu arvaddan soruşdular ki, ay arvad, sən nə bildin ki, sənin oğlunun meyidi gəlir? Dedi, mənim oğlum o qədər ağıllı oğul idi ki. Mana təsəlli verdi ki, ana, bax, mənim bu qədər pəhlivanım var, güjü çatmadı, bu qədər qoşun var, güjü çatmadı, bu qədər variyatım var, güjü çatmadı, bu qədər təbiblər gəldi, güjü çatmadı, bu qədər Allaha dua eliyənnər, Quran oxuyannar gəldi güjü çatmadı. Axırda bir belə variyatın yiyəsi, bax, əliboş gedirəm. Mənnən nagüman olma. İsgəndərin əhvalatı da bax belə (S.25).

## 164. DƏVƏNİN SAVABI

Qaynatam danışırdı ki, Məhəmməd peyğəmbər əleyhsalam (söyləyici salavat çəkir – İ.R.) – qaynatamın yanımda danışdığıdı – qızı Fatiməni Əliyə verəndə çağırıb deyir ki, qızım, səni əmim oğluna verirəm. Nə badə haa, evində birdən bir şey olmaz, özündə bir şey olmaz, Əlidən isdiyərsən. Qətiyən istəmə. Deyir, baba, yaxşı.

Vaxt gedir, dolanır, Həsən, Hüseyin, Gülsüm, Zeynəb dünyaya gəlir. Bir gün bu işdən gəlir. Əlin yuyur, gəlir içəri. Deyir ki,

[61] küləfirəngi – eyvan

əmiqızı, ajından ölürəm, yeməyə nə var? Deyir, əmioğlu, heş nə yoxdu. Axşamdan mən də ajam, uşaqlar da ajdı, sən də ajsan. Deyir, bəs niyə demədin? Deyir, nə deyərdim? Babam, – olar ataya baba deyir, – mənə dedi ki, Əliyə heş nə demə. Ona görə sənə demədim. Deyir, əbanı gətir mana, aparram satam, verəm ərzağa, gətirəm sana. Aparıb bazara çatan kimi əbanı 60 dirhəmə satır. Bazardan çıxanda görür ki, bazarın ağzında bir dilənçi oturub, cındırından cin ürkür. Əlin açıb deyir, ya Əli, cəddinə fəda olum, nə olar, dörd gündü balalarım da ajdı, özüm də ajam. Əli yolunda mana, bəlkə, əl tutasan. Əlin burdan salır cibinə, isdiyir ki, bir neçə dirhəm versin, pul kom çıxır, hamısın verir buna. Deyir, mənim də suabımı, Fatimənin də suabını verdim, apar get, nə alırsan al.

Bu getdi bazarrığ elədi, evinə apardı, Həzrət Əli də aj ayannan bəri qayıtdı gəldi. Gələndə əmisi qızı çıxır qabağına. Deyir, boy, Əli, bəs sən əbanı satmısan, sənin bazarrığın hanı? Deyir, əmiqızı, başıma belə bir oyun gəldi. Sayıla yazığım gəldi, götdüm verdim, getdi. Elə əlimi atdım, əlimə kom gəldi, mən də hamısın verdim ona. Deyir, əmioğlu, sənin ürəyin okqədər təmizdi, əlin okqədər açıqdı ki, Allahtaala sənin başından tökəjək. Narazı olmaginən, harda olsa ruzanı Allah verəjək.

Gəlir evə, uje namazın vaxtıdı. Dedi ki, gedim dəstəmazımı alım, gəlim namazımı qılım. Deyir, nolar, get. Belə çıxanda evin qabağı yoldu. Deyir, qoy bir yola sarı çıxım, qayıdım gəlim dəstamazı alım, namazımı qılım. Görür ki, bir ərəb əlində bir dəvə gətirir. Gəlib buna çatanda deyir, salamməlöyküm. Deyir, əleykümsalam. Deyir, ağa, cəddinə qurvan olum, bu dəvəni almazsan, satıram? Deyir, vallah, alardım ey, amma pulum yoxdu. Yalandan mən nə deyim sana. Deyir, ay kişi, mən səni

tanıyıram. Ala bu dəvəni apar, istiyirsən sat, istiyirsən saxla, havaxt əlinə pul düşər, verərsən. Dəvəni verir buna, bu əənə gedəndə əənnən bəri biri gəlir. Qardaş, bu dəvəni satmırsan? Deyir, vallah, satıram, indicə almışam. Deyir, nə verərsən? Deyir, yüz iyirmi dirhəm. Deyəndə deyir, ver bura. Yüz iyirmi dirhəmi alır bunnan. Dəvə yiyəsini çağırır ki, gəl bura. Dəvə yiyəsi qayıdır. Deyir, qardaş, dəvəni satdım. Demədin 60 dirhəmə sat? 60 dirhəmə satmışam, ala dəvənin pulunu. Verir buna. Bu əənə gedir, bu da dəvənin pulun götürür gedir bazara. Gedir polnu bazarrığın eliyir, götürür gəlir evə. Gələndə Fatimə deyir ki, boy, Əli, bəs sənin pulun yox idi, bunları hardan aldın? Deyir ki, bəs belə-belə, başıma belə bir iş gəldi. Sənin də suabını verdiyimə dəvəni satdım ikiqat artığına, getdim bazarrığ elədim.

Nəysə, bazarrığ eliyir, gəlillər, oturullar, yeyillər, içillər. Məhəmməd peyğəmbərə agahdı axı. Məhəmməd peyğəmbər gülə-gülə gəlir, girir içəri. Deyir, Əli, nə yaman kefiniz sazdı, nə yaman belə şənliklisiniz? Deyir, hə, əmi, bu gün başıma belə bir iş gəlib. Deyir, Əli, bazarın qapısının ağzında oturan bildin kim idi? Dedi ki, yox. Dedi, Əzrayıldı. Dedi, o dəvəni gətirib sənə satan kim idi? Dedi, əmi, bilmədim axı. Dedi, Cənabi Cəbreyildi. Dedi, bəs səndən dəvəni alan kim idi? Dedi, onu da bilmədim. Dedi, o da Cənabı Mikayıldı. Sən orda suab qazandın. O səni yoxladı ki, bu peyğəmbərin vəsisidi, görək bu bizi razı eliyir, ya eləmir. Sən orda onu sevindirdin, o da səni sevindirdi. Biri Cənabı Mikayıl idi, biri Cənabı Cəbrayıl idi. Allah, – dedi, – başından tökəjək. Sən bir versən, Allah əvəzində sənə beş verər.

İndi helə adam nə gəzir, a qadan alım. Hələ bunu görəndə əlindəkini gizdiyir ki, birdən bunu görəllər, əlimdən alarlar. Ayannan biri gələndə tez qazanı burda gizdiyir ki, birdən gələr

bir qismət yeyər. Maarif özü bilir, bu ev həmişə qonax-qaralı oluf, mənim surfam həmişə açığ olub. Allahtaala göydən töküb, mən heş kimi bu evdən aj yola salmamışam (S.16).

## 165. ŞEYTANLA MƏRDİMƏZARIN BƏHSİ

Bir günnəri şeytannan mardımazar ispora girdilər. Mardımazar da bilirsən da nədi, insanın şeytanı. Bınnar ispora girdi, şeytan dedi mən quvvalıyam, mardımazar dedi mən quvvalıyam. Deyir, nətər yanı sən deyirsən mən quvvalıyam? Şeytanam mən, sən mənnən bajara bilərsən? Dedi, nə deyirəm, şeytan, sən də elə, mən də eliyim. Dedi, yaxşı.

Şeytan getdi birinin gəlinin örgətdi, birinin də oğlunu örgətdi, apardı bınnarı bir kalafada görüşdürəndə mərdımazara dedi, baxginan, bax gör neynirəm. Mardımazar bının təpəsinə bir yumrux vırdı. Dedi, başın batsın, bir tərəfdən günah eliyirsən, bir tərəfdən də savab eliyirsən. Dedi, indi gör mən neynirəm. Getdi mənim gəlinimi örgətdi, onun da oğlunu örgətdi. Dedi, ayə, ay kişi, sənin öyün yıxılmasın, sənin qızının başına bilirsən nə oyun açıllar? – Ayə, neynillər? – Ayə, sən öl, bı dəyğə onnarın evində qırğın gedir, səni güllələliyəjəhlər, səni asajaxlar. Burdan da gəldi oğlan evinə dedi ki, o gəlinin ata evi səni öldürməyə girəvə axtarır. Bınnan ona, onnan bına, bınnan ona, onnan bına, heş birinin xəvəri olmadan o ordan tüfəngi götdü, bu burdan tüfəngi götdü, o ordan qırdı, bı bırdan qırdı, o ordan qırdı, bı bırdan qırdı. Şeytan gəldi dedi, Allah sənə nəhlət eləsin, mən elə bilirdim mən qüvvəliyəm, sən on dəfə mənnən qüvvəlisən.

Mardımazarnan şeytanın arasında dağlar qədər fərq var, mardımazar çox pisdi. Mardımazar ölümə doğru gedir, amma şeytan şeytannıyır da (S.25).

# V. LƏTİFƏLƏR

## 166-168. MOLLA NƏSRƏDDİN

Mollaya deyirlər ki, molla, insan əlli yaşdan sonra cavannıx gücünü itirir. Molla deyir, mənə fərq eləmir. Çox dirənillər ki, etmə, eləmə. Yenə deyir, mənə fərq eləmir. Deyir, nətər yanı fərq eləmir? İnsan yaşdancıxca gücün itirir. Deyir, vallah, bizim qapıda bir qara daş var idi. Nə cavannığımda qaldıra bilirdim, nə də indi. Maa fərq eləmir (S.41).

## 167.

Teymurun məclisində Teymura bir eşşək bağışdıyıblar. Bütün məclis bu eşşəyi tərifliyib, molla da başdıyıb tərifləməyə. Deyir ki, şah sağ olsun, bunu maa versən, ona kitab oxumağı örgədərəm, amma aya bir qızıl verəssən maa. Deyir ki, verrəm, amma eləməsən səni bir təhər eliyərəm. Deyir, yaxşı, baxarsan. Eşşəyi alır, qatır qabağına, gətirir. Arvad deyir ki, molla, bu nədi? Deyir, buna kitab oxumağı örgədəjəm. Arvad deyir, səy-səy danışma, eşşək kitab oxuyar? Deyir, görəssən da. Gətirir dəridən kitab kimi tikir. Bir vərəqin arasına arpa yığır, birinin arasına darı yığır, birinə buğda. Gündəlik eşşək dilinən dərini çevirib arpanı, buğdanı yeyirmiş. Bir gün arpanı kəsir, bir gün buğdanı kəsir, eşşək diliynən vərəqləri çevirir, yeməyə heç nə tapmıyanda başdıyır anqırmağa. Belə-belə vaxt yetişir. Teymur gəlib baxır, buna hörmət eliyir.

Aradan bir müddət keçir, Teymura bir dənə də eşşək bağışdıyırlar. Teymur gözünün ujuynan baxır ki, bütün məclis eşşəyi tərifliyir, amma molla tərifləmir. Deyir, molla, bəyəm bu

eşşək o biri eşşəkdən pisdi? Bütün məclis mənim eşşəyimi tərifliyir, amma sən tərifləmirsən. Deyir, şah sağ olsun, bu eşşək o eşşəkdən çox qanacaxlı eşşəkdi. Əgər bunu maa versən, ona dil örgədərəm. Deyir, ə kopoğlu, durub sənin başını əzərəm. Sən məni dolayırsan? Deyir, əgər eləməsəm, boynumu vurdurarsan. Deyir, bilirsən ki, namərd kopoğlu, mən səni kəsərəm. Bu bilir da Teymur amansızın biridi. Deyir, amma şah sağ olsun, beş il müddət ver mənə. Deyir, olsun. Deyir, bunun xərci ağırdı. Deyir, nətər ağırdı? Deyir ki, günümə bir qızıl verəcəksiz. Beş il müddətinə buna adam kimi dil örgətməsəm, boynumu vurdurarsan. Obşim, Teymur bunnan razılaşır. Eşşəyi götürüb evə gələndə arvad deyir ki, genə bu nə fırıldaxdı eləmisən? Deyir, bu eşşəyi gətirmişəm, buna adam kimi dil örgədəjəm, getsin Teymurnan danışsın. Deyir, ə kopoğlu, başına at təpib, nədi? Bilmirsən, allahsızın biridi, səni öldürər? Deyir ki, aaz, beş il müddətinə almışam. Deyir, lap on beş il müddətinə alsan da. Deyir, qəm eləmə, beş ilə kimi ya eşşək öləjək, ya Teymur (S.41).

**168.**

Bir dəfə də qırx lotularnan mərcləşir ki, mən gejə soyuxda qarın üstündə qala bilərəm. Ə, etmə-eləmə, qala bilmərsən. Bunnar mübahisə eliyirlər, bir qonaxlıxdan şərtdəşirlər. Bunlar abuşkədə qoyur şamı, onun işığına içəridə oturullar. Molla çöldə səhərə kimi qarın üstündə qalmalıdı. Molla fikirrəşir ki, bu soyuxda necə qalsın?! Görür ki, bir dənə dəyirman daşı var, onu qatır qabağına, belədən-belə gedir, belədən-belə gedir, səhərə kimi qalır. Bunlar deyir, bu qaldı qarın üstündə, indi biz nağarax? Biri deyir ki, narahat olmayın, mən bu dəyqə qonaxlığı onun boynuna qoyajam. Molla çox dirənir ki, qonaxlıx verəcəksiz. Bunlar deyir, yox e, sən gəlirdin bura dəyqə başı,

biz şam qoymuşdux, şamın isdisinə isinmisən, ona görə qaldın, yoxsa qalmazdın. Molla çox dirənir, görür ki, bunlar yola gəlmir. Deyir, onda səhər gəlin, qonaxlığı mən verəjəm. Səhər hamı gəlir. Molla heyvan kəsdi, əti qaldırır ağacın başından asır, yerdən ojağı qalıyır. – Molla, yemək. Deyir, yarım saata hazır olur. Biri çıxır ki, üç saat keçib, dörd saat keçib, amma yemək hazır deyil. Görür yeməyi asıb göydən, yerdə də ojax qalıyıb. Deyir, səy kopoğlu, burdan ora yemək bişər? Deyir, axmaq kopoğlu, bəs nətər olur, şamın işığına mən isinə bilirəm, burdan bura yemək bişə bilmir? (S.41)

## 169-174. BƏHLUL DANƏNDƏ

Bir gün Harun ər-Rəşid içgini qadağan eliyir. Camaat yığışır, gedir Bəhlulun yanına. Deyirlər ki, ya Bəhlul, qardaşın içgini qadağan eliyif, qoymur arağ içməyə. Get, qardaşına denən, icazə versin da bizə. Bu, ağıllı adamlardan bir neçəsin götürüf özünnən aparıf Harun ər-Rəşidin yanına. Bu, arağı tərifliyif. Deyir ki, topala ayağ verir, kora göz verir, kara qulax verir. Sən niyə onu qadağan eliyirsən? Deyir, dayan, dayan, dayan. Nətər ə, kara qulax verir? Deyir, yaxşı. Ordan bir kar adamı çağırıllar, bir kor adamı çağırıllar, bir də bir topal adamı çağırıllar. Stol açırlar, arax qoyurlar stolun üstünə. Başdıyırlar yeyib-içməyə. Bir az içəndən sonra, hallanandan sonra kor deyir, gözün görmür, bunu belə eliyirsən? Topal deyir ki, sən öl, duruf saa bir təpih vuraram, üç yerdə dombalax aşarsan. Lal da öz sözün deyir. Bəhlul deyir, qardaş, gördün. Bax, kora göz verir, topala ayax verir, lala dil verir. Siz də bu arağı qadağan eliyirsiz. Ondan sonra Harun ər-Rəşid arağ içməyə icazə verir (S.7).

## 170.

Bəhlul qəvirsannıxdan gəlirdi. Qamışı minifdi, at idi qamışı. Uşaxlar bunun dalına döşənib:

– Bəhlul, hardan gəlirsən, hardan gəlirsən?

Deyir:

– Görmürsüz yol birdi, qəvirsannıxdan gəlirəm. Birin apardıx dəfn elədix, ikisi qaldı.

Sənin kimi biri də qıraxdan deyir:

– Bəhlul, bizi sarımağın bəs döylü, uşağı da sarıyırsan?

Deyir:

– A bədbaxt, niyə sarıyıram? O biri quru cəsətdi onu basdırdıx, yaxşı əməlinən pis əməli qaldı. Dünya getdixcə gedəcəx (S.9).

## 171.

Biri də yeddi yoldaşdılar, dörd meşox qoz tapırlar. Bəhlul o yannan gəlir. Bunlar yeddi nəfər, qoz da dörd meşox, bunu nətər bölsünnər. Çağırıllar, deməyəsən, bu da Bəhlul Danandə imiş, gəlir. Deyir:

– Qardaş, biz yeddi nəfərik, dörd tay da qoz tapmışıx. İndi bunu bölə bilmirik.

Götürüb ikisin buna verir, üçün sənə verir, birin ona verir. Deyir ki, düzgün bölmədin axı. Deyir:

– Qardaş, mən Allahtala kimi bölürəm. Allah birinin başından tökür, birini də çörəyə tamarzı qoyur (S.9).

## 172.

Deyir, ey Danəndə, mən neyniyim ki, varlı olum? Deyir, get, dəmir al, kömür al, vur ambara, bir qədər də su vur. Soradan satarsan, varlı olarsan. Ağlı kəsir, Danəndə adamdı Bəhlul. Gedib dəmiri, kömürü alır, vurur ambara. Aradan bir az keçir.

Suyu dəyəndən sora axı havaynan oksidləşmə gedəndə dəmirin çəkisində bir az dəyişkənlik olur, yəni artır. Bu baxımdan onu satır, varranır.

İnsan evladı belədi ki, varranandan sonra, irağ üzündən, quduran olur. Aradan bir neçə vaxt keçir, bir də gəlir Bəhlulun yanına. Deyir, ey Bəhlul Divanə, mən neynim ki, varranım? Deyir, get soğan al, sarımsağ al, vur ambara, bir az da su vur. Bu da eləmir təmbəllik, – insan evladı tam ağıllı olmur, çoxusu yarımçıx ağılda olur, – gedir yarımçığ ağılnan onu eliyir. Aradan bir neçə gün keçir, görür kü, ambardan pis iy gəlir. Özünü yetirir ambara. Baxır ki, hər şey çürüyüb əldən gedifdi. Gəlir Bəhlulun yanına. Deyir, ey Bəhlul, bu nə iş idi mənim başıma gətirdin? Deyir, nədi, nolufdu? Deyir, soğan-sarımsağ aldım, vurdum ambara, bir az da su boşdadım, cücərdi, hamısı xarab oldu. Deyir, əvvəl gələndə mana nə dedin, sonra nə dedin? Deyir, əvvəl gələndə Bəhlul Danəndə dedim. Deyir, bəs sonra nə dedin? Deyir, Bəhlul Divanə dedim. Deyir, mən də əvvəlcə sənə danəndə sözü dedim, getdin satdın varrandın. Bir az varranandan sonra yolundan çıxdın, gəldin maa divanə dedin. Mən də sənə divanə sözü dedim. İndi get, ağlın başına cəm olsun (S.27).

**173.**

Harun ər Rəşid Bağdad şəhərinə xəbər salır ki, kim Bəhlulu harda deyən-gülən, oynayan görsə, gəlsin mana xəbər eləsin, ona ənamım var. Bir gün, deyir, Bəhlul bakqal bazarının yanından keçirmiş. Gəlir görür kü, baqqalnan şəyirdi yanaşı durufdu, dükanda inək öz qılçasınnan asılıf, qoyun öz qılçasınnan asılıf, dəvə öz qılçasınnan asılıfdı. Ayrı-ayrı kəsilmiş heyvannardı. Bunu görəndə Bəhlul sevindiyinnən hoppandı göyə, ayağının birinən də qarğı atına bir təpik vurdu. Atını səyirtdi, çıxdı getdi. Baqqal dükanının yiyəsi şəyirdinə deyir ki, get Harun ər Rəşidə

xəbər verginən ki, filan yerdə qardaşını deyən-gülən görmüşəm. Bu da eləmir tənbəllik, gəlib xəbər verir. Deyir ki, o harda idi? Deyir, filan yerdə. Gəlir, bakqalın özünnən də soruşur. – Bakqal, belə bir söhbət oluf? Deyir, oluf. Qardaşını çağırır yanına. Deyir, ay Bəhlul, bu nə hərəkətdi? Mən ömrü boyu səni deyən-gülən görməmişəm. Qarğı atını minib dəli kimi sağa-sola səyirdən birisən. Deyirlər bu gün o qədər sevinmisən ki, hətta göyə hoppanıb qarğı atına bir təpik də vurmusan. Deyir, hə, sevinmişəm. Deyir, səbəb nə? Deyir, səbəbi odur ki, indiyənə qədər elə bilirdim ki, ölkədə bir qovğa olsa, sənnən baravar məni də öldürəcəklər. Amma bu günnəri gördüm ki, bakqal dükanında hər heyvanı öz ayağınnan asıblar. Annadım ki, sənin qisasını mənnən almıyacaxlar. Ona görə sevinmişəm (S.27).

### 174.

Deyir, bir gün Harun bunu yanına çağırır. Deyir ki, qardaş, oğlum filan şahın qızın isdiyir, gəl gedək onu alağ oğlumuza. Deyir ki, bəlkə məni aparmıyasan? Deyir, niyə? Deyir, ora gedəndə sən öz bildiyin kimi danışassan, mən də öz bildiyim kimi danışacam. Deyir, yox, gəlginən gedək, mənim ayrı qardaşım yoxdu a, sənnən baravar gedəcəm. Deyir, oğlun da biznən gedəcəh? Deyir, hə!

Gəlillər, nəysə, lazım olan yerə. Söz əsnasında indi Harun dəməlidi də, ölkənin şahıdı, onnan böyük adam var? Şah deyəndə, şah döyül, xəlifədi, heş kim də bir söz demir, bunnan qorxurlar. Bəhlul deyəsi olur. Deyir ki, ay filankəs. Deyir, nədi? Deyir, qızını verginən mənim qardaşım oğluna, aparsın özünə arvad eləsin (o ayrı sözdər deyir)[62]. Qızın atası deyir ki, durun burdan çıxın gedin, bizim sizə veriləsi qızımız yoxdu.

---

[62] Biədəb ifadə olduğu üçün söyləyici onu işlətmək istəmir.

Gəlir, nəysə, Bağdada çatıllar. Harun deyir, Allah sənin evini tiksin, sən dəlisən, cinnisən? Sən getdin orda nə dedin? Deyir, ayə, mənə Bəhlul Danəndə deyillər, yeri gələndə də Divanə deyillər. Ora getdim sözdərimi dedim də. Deyir, bir az ağıllı deyə bilmirdin? Deyir, o sözün sonu, nəticəsi budu da, qardaşım oğlu onu alıb belə eliyəcəhdi, mən də onu dedim.

Harun ər Rəşid ayrı adamlarnan gedib, nəysə qızı alır. Bu ora gedəndə Bəhlul qardaşı oğlunu yanına çağırır. Deyir, qardaşoğlu, bura gəl! Deyir, nədi? Deyir, əgər mən deyənə qədər filan şahın qızına barmağını vursan, sən adda qardaşım oğlu yoxdu, mən adda da sənin əmin yoxdu. Vurmaginən əlini. Deyir, əmi, o nə sözdü? Sənin dediyinnən bir nöqtə də ayna çıxası döyüləm, elə nədi, odu.

Kəsəsi, toy eliyillər bir neçə günə qızı gətirillər. Bir gün, iki gün, üş gün. Beş-altı aydan sonra qızın dədəsiynən anası bura qonax gələsi olur. Gəlillər, beş-altı gün də oturullar. Gedəndə qız gəlir anasının üstünə, ağlıyır ki, məni də aparın. Deyir, ay bala, niyə? Deyir, mən elə öyümüzdən nətər gəlmişəm, eləyəm. Qızın anası başılovlu gəlir gədənin anasının yanına. Deyir, bə bu nə hərəkətdi belə? Deyir, vallah, nə bilim, oğluma kim nə deyif, nətər deyif, məən başım çıxmır, elə öz bildiyindədi. Söhbət böyüyüb Haruna çatır. Harun Bəhlulu çağırır. Deyir, Bəhlul. Deyir, nədi? Deyir, düzün de, mənim oğluma nə deyifsən ki? Zəhmət çəkif toy eləmişik, qız gətirmişik, bunu evləndirmişik. Bu hələ qıza yaxın duruf bir dənə söz demiyif. Deyir, nədi, nə istiyirsiniz mənnən? Deyir ki, sən nə deyifsən, onu deginən, biz sənnən nə istiyəcəyik. Deyir, ə, yadınnan çıxıfdı? O köpəkoğlunun xarabasında dedim ki, qızını verginən qardaşım oğlu belə eləsin. Vermədi, sən də yolda ağzına-dilinə gələni mənə dedin. Mən

də gələndə ona tapşırdım ki, mən demiyənə qədər gedib ona əlini vursan, köpəkoğlusan. İndi mən deyənə gəldiz? Deyir, hə. Gəlir qardaşı oğluna deyir ki, get nə eliyirsən elə. Gecə keçir, sabahları açılır. Qızın anası deyir ki, qəflə-qatırımız hazırdı, gəl gedəh. Qız deyir, day getmirəm. Deyir, niyə? Deyir, dəydi (S.27).

## 175-177. ABDAL QASIM

Allah rəhmət eləsin Abdal Qasıma, yaxşı kişi olufdu. Ağdamın Abdal-Gülaflı kəndində yaşıyıfdı. Samson addı bir erməni dostu varmış. Məclislərin birində Samson gəlif qapıdan belə addıyanda deyir ki, ay Qasum? Bu da buna cavab verir:

– Vayin çasun[63].

Samson deyir:

– Ağzına b..um.

Qasım kişi yanır-yaxılır ki, Samson buna belə dedi. O vaxtı Abdalda toy məclisi, deyir, üş-dörd gün davam eliyərmiş. Sabahısı gün qəsdən Qasım kişi bir az gej gəlir. Gəlir girir, görür kü, Samson məclisdə lap yuxarı başda oturufdu. Camaata başınnan salam verir, Samsona çatanda deyir:

– A Samson.

Deyir:

– Ara, Qasımcan, nə var?

Deyir:

– Ara, vəziyyətin necədi?

Deyir:

– Yaxşıdı.

Deyir:

– Ağzına b..ım.

---

[63] Ermənicə necəsən deməkdir.

Deyir:

– Ara, kafiyəsi düz gəlmədi.

Deyir:

– Ara, qafiyəsi düz gəlsə də, basım, gəlməsə də basım (S.27).

**176.**

Bir gün bəyin biri gəlir Abdal Qasımı sındırmaqdan ötəri, özünün imkannı olduğunu göstərməkdən ötəri deyir:

– A Qasım, bu gejə bir dənə siçan gəlib iki küpənin arasında ölüb. Biri yağ küpəsidi, biri bal küpəsidi. – Buna eşitdirir ki, yəni mənim yağım da var, balım da var. – İndi bilmirəm bunun hansına toxunubdu.

Deyir:

– Onu bilməyə nə var ki? Götür siçanın başını, ağzınnan dadına bax, yağ dadırsa, yağ küpəsinə toxunub, bal dadırsa, bal küpəsinə toxunub (S.15).

**177.**

Deyir, Abdal-Gülablı kəndində hər şeyi qaş-göznən, işarəynən həll eliyəllərmiş. Bir gün gənə Qasımgilin kəndində bir məclis varmış, Şəkidən iki nəfər gəlir onlara. Məclisin başdıyan vaxtıdı dana. O stalovaya gedillər, bağlıdı, bu stalovaya gedillər, bağlıdı. Deyillər, biz harda çörək yeyək? Yönəldillər bu məclisə. Məclisə girəndə görüllər ki, məclisin qabağında üşdörd dənə uşağ var. Soruşur ki, a bala, bu nədi belə-helə? Görür, uşaxlar bunlara cavab vermir. Girillər məclisin içərisinə. Görüllər ki, bu camaat bir-birinnən qaş-göznən danışır. Ağılları bir şey kəsmir. Çölə çıxanda bu adamların birinə yanaşır. Deyir ki, a qardaş, biz buralı döyülük, bu adamlar bir-biriynən qaşgöznən danışıllar. Onlar niyə belə eliyir? Deyir ki, ə, onlar deyir

ki, bura iki dənə pe..x gəlifdi. Deyir, nə bildilər iki dənə pe..x gəldiyini? Deyir, nə bilim, bildilər da. Burda nə var ki? İndi oturuşdarınnan bildilər, duruşdarınnan bildilər, bilmirəm.

Nəysə, bunlar gedillər Şəkiyə. Orda söhbətdərin danışıllar, Şəkidə bunlara inanmırlar. Deyirlər, heylə şey olmaz. Deyir, inanmırsız? Deyirlər, yox! Deyir, onda biriniz gəlin bizə qoşulun, gedəh ora, görərsiniz ki nədi, nə döyül? Gəlillər, məclisə keçillər. Görüllər, gənə adamlar biri-birinnən him-cimnən danışıllar. Obşim, məclisdə bir qədər oturullar, çölə çıxanda gənə bir adamdan soruşullar ki, bu nədi, bu adamlar nə danışıllar? Deyir, ə, heş nə? Deyirlər ki, keçən dəfə iki pe..x gəlmişdi, bu az imiş, getdilər bir pe..x da özdərinə qoşdular gətirdilər. İndi oluflar üç (S.27).

## 178. AŞIQ CANU VƏ AŞIQ VALEH

Aşıq Canu gedirmiş Aşıq Valehlə deyişsin. Aşıq Valeh də kənddə su suluyurmuş, yorğun olub, çinar ağacı varmış, bu çinar ağacının divində yatıb. Bunun da yanında bir boz it bərdən arı uzanıb. Aşıqlar bir-birin tanıyırmış da. Aşıq Canu gəlib deyir:

– Salamməleykim.

– Əleykimət salam.

Deyir:

– Aşıq Valeh, bu it nə yaxşı sənə valeh olub, burda valehlənib yatır?

Deyir:

– Ə, bu o qədər yatsın ki, canu g..tündən çıxana kimi.

Aşıq Canu bunu eşidib qayıdır geri. Valeh deyir ki, niyə qayıtdın? Deyib:

– Ta məni birinci kəlmədə itin g..ünə soxdun (S.41).

## 179. ONU SƏN DEDİN

Şah Abbasın Miraj adında bir atı olur. O qədər sevirmiş bu atı. Deyif, kim Mirajın ölüm xəbərin maa desə, boynun vurdurajam. Vaxt gəlir Miraj ölür. Bir dərviş – o vaxd dərvişdər gəzirmiş, – gəlib çıxır bura. Ə, sən öl, elə bil ki hamının başına qaynar su töküblər. Bunlar ayaq üsdə ölüblər. Bu nəsə burda oxuyur, buna gətirib bir az pul verillər. Biri deyir ki, dərviş baba, bizim kefimiz yoxdu ey. Kefimiz olsaydı, saa yaxşı hörmət eliyərdik. Deyir, ə, nolufdu? Deyib, vallah, şah deyib kim atın ölümünü gəlib maa desə, boynunu vurdurajam. Deyib ki, mən gedib deyim də onu. Maa nə verəssiz? Bir az pul yığıb verillər buna. Deyillər, get de də. Deyillər, qoy bunun boynun vurdursun, xata bizdən sovuşsun. Bu gedir, başdıyır şahı tərifləməyə. Şahın da ferması ayrı imiş da. Deyir, şah sağ olsun, girdim sənin fermana, gördüm belədi. Deyir, ə, Mirajı da gördünmü? Deyir, hə, gördüm, şah sağ olsun. Kürəyi yerdə, qılçaları göydə idi. Deyir, ə, at ölüb? Deyir, şah sağ olsun, mən demədim ha, sən dedin. Deyir, hə, düz deyirsən, bundan ötrü mən bir qan eliyəjeydim (S.41).

## 180. BU ÇOX SIRTILIB

Biri oğlunu gətirir axundun yanına. Deyir ki, buna mollalıx örgət. Axund baxır, görür bu uşax çox avırlı uşaxdı. Deyir, bu uşağı sərbəst burax, bir az açılışsın. Bu da gedif uşağın başın buraxır, uşax təmiz sırtılır. Gətirir axundun yanına. Axund uşağı yoxluyur, baxır bu çox sırtılıfdı. Deyir, saa bir məsləhət verim. Bu uşax çox sırtılıb, bunnan molla yox, yaxşı aşıx olar (S.7).

## 181. ATA, MƏNİ URVATSIZ TUTURLAR

Bir kənddə bir qızı gəlin aparıllar. May ayında Arpaçay elə gedir ki, maşını aparar. Gəlinə də atası başlıq almıyıf. Deyifdi, kasıb adamdı, bunnan nə alajam mən, qızı başlıq pulu almadan verif. Gəlin indi qaynatanın tərkində oluf, kimin tərkində oluf. Deyiflər:

– Çaya çox su gəlir, bu gəlini su aparajax.

Qaynata deyif:

– Aparır aparsın, başlıq verməmişəm, pul verməmişəm, mal verməmişəm.

O vədə də başlıx ağır oluf. Qız bunu eşidir. Özün vuruf ölmağa ki, məni aparın atamın evinə, mən ölürəm. Qızı qaytarıflar. Atası deyif:

– A qızım, niyə gəldin?

Deyir:

– Ay ata, at Arpaçaydan keçir, deyirlər gəlini çay aparajax, qaynatamın vecinə deyil. Deyir aparır aparsın, pul verməmişəm, mal verməmişəm. Ata, məni urvatsız tuturlar (S.9).

## 182. MƏNƏ DƏ HEYLƏ DE

İki dosd olur, bunlar möhkəm dosd imişlər. Kənddə möhkəm oğurruğ olur, camaatın mal-heyvanını oğurruyurlar. Dosduna deyib ki, mənim bir az qoyunum var, nətər eliyim onlar oğurranmasın? Deyir ki, səhər çıx camaatın içinə, yalandan deginən ki, mənim heyvanımı oğurruyublar. Hamı bilələk ki, heyvanın oğurranıb, heş kim gəlmiyəjək qapına. Deyir, hə, bu ağıllı fikirdi.

Gejə gəlir dosdu bunun heyvanın oğurruyur. Səhər tezdəndən başıyalolu çıxıb hamıya deyir ki, – həqiqətən oğurranıb axı bunun heyvanı, – ay qardaş, mənim heyvanımı oğurruyublar. Gəlir dostunun yanına. Deyir ki, bilirsən başıma nə gəlib?

– Nə gəlib?

– Bu gejə həqqətən gəlib mənim heyvanımı oğurruyublar.

Dosdu da deyir ki, hə, maa da heylə de (S.41).

## 183. VAYQAYĞI

Deyirlər, bir kənddə bir vayqayğı varmış. Bu çox qayğılanıb dərd-sər çəkərmiş, hey qayğı içində yaşayarmış. Arvadı daha bunun əlindən bezib zara gəlibmiş. Bir gün arvadı bir xoruz öldürür. Ərinə deyir ki, a kişi, sən allah, bu xoruzu bişirib yeyənə kimi qayğılanma. Kişi də söz verir ki, yaxşı, ay arvad, qayğılanmaram.

Arvad xoruzu bişirib hazırlayır. Süfrənin üstünə qoyanda kişinin kiçik oğlu eşikdən yüyürə-yüyürə gəlib atasına deyir ki, ay dədə, qonşumuzun eşşəyi doğdu, hoduğun da nə quyruğu var, nə də qulağı. Bunu eşidən kişi əlini bərk-bərk dizinə vurub deyir:

– Vay, gördünmü sən!

Arvad kişiyə deyir ki, a kişi, nə olubdu? Sənə demədimmi xoruzu bişirib yeyənə kimi qayğılanma? Kişi deyir:

– Nə olajax, ay arvad, qonşunun eşşəyi doğub. Hoduğunun nə quyruğu var, nə də qulağı. İndi deyirəm o hodux böyüyüb eşşək olacaq. Ona taxıl yükləyib dəyirmana aparacaqlar. Yolda yıxılıb palçığa batacax. Hoduğun da nə quyruğu var, nə də qulağı. Deyirəm, indi onu nejə qaldırıb palçıxdan çıxaracaqlar, görəsən? (S.5)

## 184. AL, XUDA

Kəndin bir dənə xudası[64] quyuya düşür. Hamı yığılır bunu quyudan çıxartsınlar. Nəxədər deyirlər, xuda, əlini ver, səni çıxardax, bu əlini uzatmır. Xuda, əlini ver, səni çıxardax, bu əlini uzatmır. Bir çoban gəlir. Deyir ki, mən çıxardaram. Deyir, bu qədər oxumuş, təhsilli insan çıxarda bilmədi, bir dənə çoban qabağında yüz dənə qoyun otarır, bəlkə, heç qoyunun sayını da bilmir, bu gəlif xudanı quyudan çıxardacax? Çoban deyir, nəynən mərcə girirsiniz, gəl gedək mən onu quyudan çıxardım. Hamı yığılır, gedillər. Çoban deyir:

– Ay xuda, əlimi al, əlimdən tut.

Al deyəndə xuda bu çobanın əlindən tutur, dartıb onu quyudan çıxardır. Deyir, indi gördüz çıxartdım mən onu. Bu almağa örgənif, verməyə örgənmiyif axı siz ona deyirsiz əli ver. İndi gətirin mənim mərcimi verin, mən gedim (S.6).

## 185-189. BALA MƏZRƏNİN BAMƏZƏ ADAMLARI

Bayram müəllim bir gün texnologiyanın müəllimlərini yığıb aparır Göyçəyə. Göyçədə də necədi? Getdin, oturub yeyib içirsən, bu gəlir səhər bizdəyik, o birisi gün başqası aparır, daha bir gün boş qalmırsan. Gələndə bunlardan soruşuflar ki, Göyçə nətər yerdi, xoşunuza gəldimi? Biri deyif, ayə, daha belə gözəl insannar, belə gözəl yer yoxdu. Gedənnən gələnə kimi bizi uçiretə qoymuşdular (S.15).

---

[64] Kəndxudaya xuda deyir.

**186.**

Burdan biri gedəndə buna deyiflər orda Qod İsa var. Adı İsadı, elə Qod İsa desən onun yerini sənə nişan verəcəklər. Bu da gedif orda deyif ki, burda Qod İsa kimdi? Camaat pıkqıldaşıb gülübdü. Bu huyuhuf, isdiyif gedə. Qod İsa bunun qolundan tutuf deyir ki, qadan alım, getmə, elə düz gəlmisən, Qod İsa mənəm (S.15).

**187.**

Arıxların dədəsi Baxdıyar kişi bircə uşaxları əkifdi, başqa heş bir şey eləmiyib. Elə bil ştili torpağa ək, çıx get da. Uşaxların heş biri ilə maraqlanmıyıb, onların hamısın əziyyətin arvadı Fatma çəkib, onları böyüdüf, yekəldifdi.

Müharibə vaxdıdı, Fatma arvad ayran süzdürüfdü. Usuf kişi isdiyir ayrandan çox götürsün, Fatma deyir:

– A Kor Usuf, bəlkə elə Allahın yazığı gələjək, birinci qaşıxdaja doyajaxsan. Bir helə ayranı neynirsən? (S.15)

**188.**

Tamam arvad oluf. Müharibə vaxdıdı, ajdıxdı, bu hörrə bişirər. Hörrə də o vaxd bəy-xan yeməyi idi. Pencər yeməkdən camaat qırılırdı. Hörrəni bişirər, hamıya çatsın deyə suyunu çox eliyər, hörrə duru alınar. Göyçədə də duru şeyə cuyux deyirlər. Kişi deyər ki, a arvad, deyəsən hörrən axı bir az cuyuxdu? Cuyuxdu deyəndə çömçəni qazandan çıxardıb kişinin təpəsinə birini vurar.

– A kopoğlu, qazan gətir cuyux eləmiyim, qatı eliyim də. Olan budu, bunu bişirmişəm. Nə isdiyirsən?

Kişi də heç nə deməz. Orda da evləri elə tikirdilər ki, təndir damı deyirdilər, yeriyə-yeriyə onun üsdünə çıxırdın, ordan da evin üsdünə. Da nərdivan qoymax yox idi. Ev damının

üsdünə baja qoyurdular, onun da üsdünə şüşə qoyurdular ki, içəri işıq düşsün. Kişi başının qanı axa-axa heş nə demədi, kirimişcə getdi, yeriyə-yeriyə cıxdı bajan üsdünə, ordan şüşəni kənara çəkib dedi ki, hörrən cuyuxdu, üsdən bir də cuyuxdu. Aşağıda qorxubdu deməyə, cıxıb bajadan deyib, hörrən cuyuxdu, üsdən bir də cuyuxdu (S.15).

**189.**

Rəhmətdik Baba Fətini göndərib toy dəvətnaməsi paylamağa. Axşam oluf, toy çalınır, amma Fəti yoxdu.

– A bala, Fəti hanı?

Deyiflər ki, evdə.

– Ayə Fəti, niyə toya gəlmirsən?

– Ə, məni toya kim çağırıf?

Deyiflər:

– Ə, sən özün adam çağıransan, səni kim çağırajax? (S.4)

## 190-193. ARDANIŞIN BAMƏZƏ ADAMLARI

Mamedin qızı tibb texnikumuna qəbul olur. Daha doğrusu, iki min verib bunu texnikuma qoyublar. Qız kəndə gəlir. Eşidən qohum-qonşu gəlir bunu təbrik eləməyə. O deyir təbrik eliyirəm, bu deyir təbrik eliyirəm. Mamedin də həyətində bir eşşəyi var idi, ağaca bağlıyıbmış. Evdən çıxır, əlini eşşəyin belinə çəkib deyir ki, iki minim olsaydı, səni də doxdur eliyərdim (S.12).

**191.**

Bir gün Mamed eşşəynən gedir fermaya. Təyyar buna deyir, ayə, hara gedirsiniz? Mamed bir az uzaqlaşmışdı. Eşşəyi saxlayıb deyir ki, elə bilirsən başa düşmədim? Niyə cəmdə deyirsən, mən tək getirəmmi? (S.12)

## 192.

Bizim kənddə bir kişi var idi, adı Bəşir idi, ləqəbi Qara Bəşir oluf. Anasının adı Zeynab idi, amma hamı ona Qara Zeynab deyirdi. Bəşir əsgərrikdən gələndən sonra bunu evləndirəsi olurlar. Bizim kənddə də Qara Kərim oluf, onun da qızı Qara Bilqeyis oluf, onu Bəşirə alırlar. Camaat belə söz qoşmuşdu ki, Qara Zeynabın Qara Bəşiri Qara Kərimin Qara Bilqeyisini Qara Reyhanın[65] qara damına götürüb qaçmışdı (S.12).

## 193.

Deyir, Aşıq İsfəndiyar[66] çimmirmiş, sudan qorxurmuş. Arvad görür yorğan-döşək əldən gedir. Deyir, a kişi, insaf elə, su qoymuşam, yorğan-döşək əldən gedir, gəl çim. O vaxt da indiki kimi hamam yox, bir şey yox. Gətirir kötük qoyur, kişi oturur. Suyu tökür, kişi çimir. Qutarandan sonra qabı doldurub deyir:

– A kişi, ala, qüsulunu özün tök.

Deyir:

– Arvad, bu nə toydu, nə sünnətdi, bu zülm idi, vacibən qürbətən illallah (S.21).

## 194-199. TOĞLUCANIN BAMƏZƏ ADAMLARI

Tovuz elindən bizim dağlara yaylağa gəlirdilər, görürdün onların heyvanları bizim sürüyə qarışırdı. Qara Vəli də həmin heyvanı oğurruyurmuş. Bir gün gənə bir heyvan yox olur. Bilirlər ki, bu, Qara Vəlinin əməli olacaq. Gəlirlər Qara Vəlinin qapısına, görüllər Qara Vəli heyvanı artıq soyub. Gedib milisə

[65] Qara Reyhan Bəşirin böyük bacısına deyirlər.

[66] Gədəbəyli Aşıq İsfəndiyar

xəbər verillər. Milis gejə vaxdı gəlir ki, qazan ocağın üsdündə qaynıyır. Milis Vəli kişiyə tapşırır ki, qazanı da götürüb onların dalınca gəlsin. Bunlar çaydan keçməlidi. Çayda körpü yox idi, su da sakit axırdı. Yağış yağanda gur axardı, amma adi günlər sakit axırdı, dayaz idi. Ayaqların daşların üsdünə qoyub çaydan addıyırlar, Qara Vəli də buların dalınca gəlirdi. Qara Vəli buların gözündən yayınıb tez qazanı boşaldır suya, qazanın içini də yaxalayır, yağı qalmır. Qazanı götürüb gəlir. Kənd sovetliyində Vəli kişini sorğu-suala tuturlar:

– Heyvanı niyə oğurlamısan?

– Nə heyvan, nə oğurluq – deyə Vəli kişi cavab verir.

– Qazandakı nədir? – deyə soruşurlar.

– Qazanda nə var ki?

– Qazandakı əti deyirik.

– Ay rəis, qazanda heç nə yoxdur.

– Necə heç nə yoxdur?! – deyən milis qazanın qapağını açır ki, həqiqətən, qazan boşdur.

– Rəis, qazanda heç nə olmayıb, siz nədən danışırsınız? – deyə Vəli kişi özünü bilməməzliyə qoyur.

– A kişi, bəs qazanı nə üçün gətirmisən?

– Rəis, siz dediniz qazanı götür idarəyə gəl, mən də elə bildim ki, nə isə pay verirsiniz.

Vəli kişiyə yenə heç nə sübut edə bilmirlər. Kor-peşman geri qayıdırlar (S.33).

## 195.

Bir gün yenə Vəli kişini oğurluq üstündə milis idarəsinə çağırırlar. Vəli kişiyə çimib gəlməyini tapşırırlar. Vəli kişi başa düşür ki, bu dəfə bunu Qurana and içdirəcəklər. Çimib qüsul alır. Geyinib qurtardıqdan sonra döş cibinə biz qoyur.

İdarədə sorğu-sual başlayır. Heç nə sübut edə bilməyən milislər Qurani-Kərimi ortaya qoyub deyirlər, əgər yalan demirsənsə, onda bu kitaba and iç. Vəli kişi də əlini Qurana toxundurur, sonra döş cibindəki bizin üstünə qoyub deyir:

– Bu Quran bu bizə qənim olsun ki, bu iş mənlik deyil.

Deyirlər:

–Nə, bir də and iç.

Yenə deyir:

– Bu Quran bu bizə qənim olsun ki, bu iş mənlik deyil.

And içdiyini görüb Vəli kişini sərbəst buraxırlar (S.33).

**196.**

Savxozun qoruqçusu olduğu üçün savxozun bir atı həmişə Vəli kişidə olarmış. Yaz vaxtı bunun kartof səpməyə toxumu olmur, toxumluq kartof almaq üçün rayon mərkəzinə gedir. Malakanlar, əsasən, rayon mərkəzində məskunlaşmışlar, onlarda toxumluq kartof olurdu. Bu da savxozun atını minib gəlir. Bir malakanla danışıb razılaşır, savxozun atını kartofa dəyişir. Amma malakana demir savxozun atıdır, öz atı kimi qələmə verir. İndi kartofu aparmaq lazımdı, bu da atı verib. Malakandan xahiş edir ki, bir günlük atı ona versin, kartofu aparıb kəndə boşaltsın, sonra gətirib verər. Malakan razılaşır.

Üstündən bir həftə keçir, Vəli kişidən səs-soraq yoxdu. Malakan özü Toğluca kəndinə gəlir, soraqlaşıb Vəli kişinin evini tapır. Malakanı görən Vəli xəcalətli-xəcalətli dil-ağız eliyir. Deyir:

– Baş qarışıq idi, gələ bilmədim, at çöldə hörükdədir, apara bilərsən, mənim işim var, yarımçıq qoymayım.

Malakan atın dalınca gedən kimi Vəli kişi uşağı idarəyə xəbər verməyə göndərir ki, bəs malakan savxozun atını oğur-

layıb aparır. Malakan at yedəyində idarənin yanından keçəndə qışqırırlar:

– A kişi, atı hara aparırsan?

Deyir:

– Vəli kişidən almışam, aparıram.

Deyirlər:

– Ayə, nə Vəli kişi, bu savxozun atıdı.

Deyir:

– Nə savxozun? Vəli bunu mənə satıb, katofnan dəyişmişəm.

Malakana izah edirlər ki, bu, savxozun atıdır, Vəli onu sata bilməz. Aldandığını başa düşən malakan kor-peşman evinə qayıdır (S.33).

## 197.

Qara Vəli kəndin naxırını otarardı, kömək üçün oğlunu da yanında götürərdi. Oğlunun da on iki-on üç yaşı olardı. Bir gün Tovuz camaatının üç-dörd dənə düyəsi gəlib bizim kəndin nahırına qarışır. Uşaq xəbər alır ki, ata, bu heyvanları nağarajan? Daha demir ki, aparıb kəsəjəyik. Deyir, islama görə oğurrux heyvan haramdı. Üç dəfə çağırmalıyıx, mal yiyəsi tapılsa, ona qaytarmalıyıx. Tapılmasa, deməli, bizə çatır. Deyir, ata, onda mal yiyəsini çağırmax lazımdı da. Dərənin içində olublar. Vəli kişi alçaq səslə başdıyıb çağırmağa:

– Ay mal yiyəsi, ay mal yiyəsi.

On dəyqədən sonra bir də çağırıb:

– Ay mal yiyəsi, ay düyə yiyəsi, ay düyə yiyəsi (Sonuncu kəlmədə söyləyici səsini bir az ucaldır – İ.R.).

On-on beş dəyqədən sonra bir də çağırır. Kimsə hay verməyəndə deyir:

– A bala, heş kim gəlmədi, mal elə bizimdi (S.33).

**198.**

Deməli, bizdə biri olur, kolxozun heyvanını otarırdı. Fermanın yanında da tütün parniki salmışlar, tütün də yetişibmiş. Savxozun heyvanını günorta sağırdılar. Nətər olursa, heyvan yiyəsiz qalır, gedir tütünü dağıdır. Bu dəmdə savxozun aqranomu, birqadiri gəlir ki, heyvan qalıf yiyəsiz, tütünü dağıdıb. Birqadir başdıyır çobandan şikayətlənməyə ki, gedif rayona deyəjəm. Çoban da Kalbaya getmiş adamdı. Baxır ki, rayona xəbər versələr, bunun evi yıxılajax, yaşının bu vaxdında buna iş kəsəjəklər. Heyvanı fermaya salır, oğluna da tapşırır ki, qoyma heyvan çölə çıxa. Gedir dəsdəmaz alır, iki rükət namaz qılır, Allaha yalvarır ki, İlahi, məni bu bəladan qutar. Bu namazı qutarandan sonra həmin əraziyə möhkəm yağış yağır. Elə bir sel gəlir ki, bütün daş-kəsəyi gətirib parniyə tökür. Səhərisi gəlirlər ki, fermanı yoxlasınnar. Görüllər bura heyvan dağıdana oxşamır, sel dağıdıb. Deyir, bəs siz deyirsiniz bunu heyvan dağıdıb, görmürsüz sel dağıdıb? Aqranomu orda işdən çıxartmışlar ki, tutaq ki, sel deyil heyvan dağıdıb. Heç heyvanın ayağının altında parnik salarlar? (S.33)

**199.**

Murad kişi çox arvad almaqda ad çıxarıbmış. Tanıyanlar nə ona qız verirmiş, nə də qadınlar ona ərə getmək istəyirdi. Bir dəfə də arvad almaq üçün kişi qonşu Şınıx mahalına yollanır. Nə isə, birini tapır. Bu da kişidən vardan-dövlətdən nəyi olduğunu soruşur. Kişi:

– Bir hektar kartof sahəm olsa, yaxşıdırmı?

– Yaxşıdır, – deyə qadın cavab verir.

– Geniş, işıqlı evim olsa, yaxşıdırmı?

– Yaxşıdır.

– Bir sürü qoyunum olsa, yaxşıdırmı?

– Yaxşıdır.

– Bir naxır inəyim olsa, yaxşıdırmı?

– Yaxşıdır – deyəndə qadın sevinir, daha heç nə soruşmur, boxçasını götürüb Murad kişi ilə Toğlucaya gəlir. Təqribən avqust ayı imiş. Murad kişi qadını öz evinə gətirir. Qadın görür ki, evin ətrafı, həqiqətən, kartof sahəsidir. Fikirləşir ki, yəqin sürü və naxır dağda olar. Bir neçə gün bişirmək üçün evin yaxınlığından, kartof sahəsindən kartof yığıb bişirir. Bir gün yenə bişirmək üçün kartof yığanda qonşu qadın yeni gələn gəlinə deyir ki, kimdən icazə alıb kartofu yığırsan? Gəlin deyir ki, kimdən icazə almalıyam, bura bizim deyil? Qonşu izah edir ki, bu kartof sahəsi onlarındı, Murad kişinin deyil.

Axşam kişi evə gələndə qadın ondan soruşur ki, bu kartof sahəsi kimindir? Murad da cavabında:

– Qonşunun.

– Bəs sənin kartofun hansıdır? – deyə soruşur.

– Mənim kartof sahəm, bax, buradır – deyib balaca sahəni göstərir.

– Bəs sənin naxırın, sürün hardadır? – deyə soruşur.

– Nə naxır, nə sürü? – deyə kişi cavab verir.

– A kişi, bəs sən deyirdin bir sürü qoyunum, bir naxır malım, bir hektar kartof sahəm var, hanı?

– Ay arvad, mən demədim varımdı. Dedim ki, olsa, yaxşıdırmı? – deyə kişi cavab verir.

Aldandığını başa düşən gəlin səhər kor-peşman öz evlərinə qayıdır (S.33).

## 200-206. QARAİMANLI ƏHMƏD KİŞİNİN LƏTİFƏLƏRİ

Burda Əhməd kişi vardı. O, Göyçədə çox hazırcavab adam olub. Bayram kişi var, Əhməd kişinin qohumudu. Əhməd əmi gedif onnara. O vaxdı da yaxşı tikililərə otax deyirdilər. Bayram kişi də səkgizin ona yaxşı bir otax tikdirib. İndi Əhməd kişiyə bildirmək isdiyir ki, Əhməd kişi də dillənə ki, Bayram kişi, yaxşı otax tikdiribsən, Allah mübarək eləsin. Əhməd əmi gəlib oturub. Bayram kişi deyir, görürsən də, nə tikdirmişəm? Əhməd əmi heş zad demir. Bayram kişi başdan ayağa qədər metirriyir, bir də enini metirriyir. Deyir, görürsən, nejə geniş otaxdı? Axı içərisində heş zad yoxdu. Əhməd əmi deyir, ay Bayram, xətrinə dəyməsin, içində otu yox, suyu yox. Bunnan ayda beşini tikdirərəm. Ondansa, balaca bir şey tik, içi dolu olsun (S.37).

### 201.

Uçaskovu Rasimnən biri kəndə gəlibmiş, rütbəsi leytenat idi. Göyçədən gələndə ştank durbalar olur, onlar çox möhkəm olurlar. Əhməd kişi də bu durbaları atnan gətirib damın üsdünə atıfdı. Baxıf ki, bu leytenantın mədəniyyəti Rasimin mədəniyyətinnən döylü. Rasim mədəni ayilədən çıxıf, atası polis, anası müəllimdi. Leytenant deyif, əşi, bu durbaları hardan alıfsan? Əhməd kişi deyif, qadan alım, yaşınnan qabağı danışma. Yəni sən olmadan əvvəl bu durbalar var idi (S.37).

### 202.

Hidayət kişi qəbirsannığın qaroulçusu idi. O vaxdı da qaroulçulara əməkhaqqı yazırdılar. Mənim babam eşidib ki,

Hidayət rəhmətə gedib, qaroulçu yeri boşalıb. Özünü çatdırıb Əhmədin yanına.

– Əhməd.

– Nədir, Əmir?

Əhməd kişinin də gözünün biri bozarıb, Əmir babamın da.

– Əyə, Hidayət rəhmətə gedib. Gedək Ələddinin yanına, bizi onun yerinə qəbirsannığa qaroulçu qoysun.

Deyir:

– Əmir.

Deyir:

– Nədi?

– Bə ölən kim olajax?

Yəni kənddə yaşdı adam bizik, bizim ölən vaxdımızdı, sən də deyirsən qəbirsannığa qaroulçu olax (S.37).

**203.**

Əhməd baba qapının ağzında daşın üsdə oturufdu. Aydın müəllimin qızı baxıf ki, bu kişinin bir gözü bombozdu. Deyif:

– Kişiyə bax, kişiyə bax, bir gözü var.

Demək, qızın bir babasına Kor Qoşun deyillər, birinə Kor Yahya deyillər, bir əmisinə də Kor Əmir deyillər.

Əhməd baba deyif:

– Qadan alım, mənim bir gözüm kordu, amma sənin üç babanın bir gözü var (S.37).

**204.**

Kərəntini aparmışam ki, Əhməd dayı ağzını döysün. Birdən bunun arvadı qayıtdı ki, Əhməd, mallar pambıxdan pırtdı, getdi qəbirsənniyə. Get onları qaytar. Dedi:

– Aaz, get gətir dənə.

Dedi:

– Yox ey, mən qəbirsənnixdən qorxuram.

Dedi:

– Ay Nuru bala, sən də məni qınama, qəbirsənnixdəkilər bundan qorxur, bu da qəbirsənnixdən qorxur (S.37).

**205.**

Biri deyir Əhməd baba, arvad tapmırdın alasan? Bu uzunnuxda da arvad olar? Deyir, ay bədbaxt oğlu bədbaxt, nə vecinə, ağzınız isdi yerdə. O vaxdı arvad tapılırdı? Bunu da at minnətinə tapmışam (S.37).

**206.**

İrəlidə ferma var, orda qumar oynuyurlar. Bunun oğlu qumarda uduzur. Üş nəfərnən gejəynən dananı tövlədən çıxarır, aparıf satır 680 manata, qumar borcunu ödəyir. Əhməd kişi Uçaskovu Rasimə şikayət eliyir ki, bu gejə dananı damdan aparıblar. Rasim də bir-iki serjant götürüb gəlir. Əhməd kişidən soruşur ki, sən kimdən şübhələnirsən? Deyir, qadan alım, mən kimdən şübhələnəjəm? Dana oğurruyan mənnən dana gəzir. Deyir, Əhməd əmi, bu nə demək? Deyir, mən sənə sözümü dedim da, sən polissən, başa düş. Dana oğurruyan mənnən dana gəzir (S.37).

**207-208. TERTE İSLAM**

Pənbək kəndində anbardar var idi, Tetre İslam deyirdilər. Bir nəfər də imkansız adam idi. Deyir, ay İsa, bu gün bizim novatdı. Mənim yerimə novata get, sana yarım meşox yem

verəjəm. Anbardar işdiyir dana. Nəysə, bunun yerinə novata gedir. Axşam novatdan gələndə deyir, mənim yemimi ver. Deyir, ədə, verəjəm, amma kalxoz sədri burdadı, səhər verəjəm. Yubadır da, verməк istəmir. Bir gün də gəlir dirənir ki, tez ol, söz verdiyin yemi ver. Bir qırıx vedrəsi var idi, yarım vedrə meşoğa töküb deyir:

– Götür qaş, kalxoz sədri gəlir.

Bu razılaşmır, yarım meşox tələb edir. Deyir:

– Nağardın, ay bala. Qoyunu yığdın duzdağa, duzdaxdan da yendirdin aşağı. Nə iş görübsən? Yemini götür, çıx get (S.17).

## 208.

Bir gün də gəlir birindən üç kilo bal alır. Bal da indiki kimi baha döyülmüş da. Yəqin beş-altı manat olarmış. Bal yiyəsi balın pulunu bundan ala bilmirmiş. Bir gün gəlib deyir:

– Ədə, ay İslam, balın pulunu ver?

Deyir:

– Əyə, nağarırsan ey? Çölün çivinidi, getdi, dız-vız gətdi doldurdu yeşiyə, sən də ordan üç kilo bal vermisən (S.17).

## 209. SƏN LAP AĞ ELƏDİN

Ağdaşın özündən bir dostum var idi Aydın adında. Yaxşı da imkannı idilər. Deyir, Ələddin, Rusiyetdə çox oldum, yaş keçib, 35-37 yaşım var. Gəldim kəndə, dədəm əl çəkmədi, məni evləndirdi. 11-12 il uşağım olmadı. Hər səhər çıxıram – evin də qabağından arx gedir, – dədəm yay-qış ayağın soyunub girib suya, Allaha yalvarır. – Ay dədə, niyə Allaha yalvarırsan? Deyir, oğul, Allaha yalvarıram ki, sən Aydına bircə dənə evlad ver,

ondan sonra mənim canımı al. Kişinin də 80-81 yaşı var. İki-üç ildən sonra bir uşağımız oldu. Adını qoydux Ramin. Yanvar ayı idi, çıxıram ki, kişi ayağını soyunub gənə suyun içində Allaha yalvarır. – Ayə, rəhmətdiyin oğlu, dedin ki, Aydının uşağı olsun, uşağım olub. İndi niyə yalvarırsan? Deyir, oğul, indi də yalvarıram ki, mənə imkan versin bu uşağın məktəbə getdiyini görüm, sonra canımı alsın. Heş nə demədim, amma içimdən yanıram ey. Uşaq böyüdü, məktəbə getdi. Məktəbə gedəndən sonra bu kişi gənə suya girib yalvarır. Dedim, rəhmətdiyin oğlu, uşaq dedin oldu, məktəb dedin uşaq məktəbə də getdi. İndi nəyə yalvarırsan? Dedi, oğul, indi də yalvarıram ki, bunun böyük toyunu görüm, ondan sonra Allah canımı alsın. Deyir, dedim, a kişi, yaşıyırsan yaşa ey, amma səninki lap ağ eləmək oldu (S.17).

## 210. KİŞİ DƏ KİŞİNİ KÜPƏDƏN ÖTRÜ DAĞA GÖNDƏRƏR?

Bizim kənddə bir Molla Alı var imiş, mollalıq eliyərmiş, amma Molla Nəsrəddin kimi bijin kəlləsiymiş. Kəlbəcərin Nadirxanlı kəndində bunun qohumu var imiş. Bu bir küpə bal satır qohumugilə. O vaxt da küpə baldan baha imiş. Aradan üç ay, beş ay keçir, bu gəlib çıxır bura. Gələndə qohumuna deyir ki, küpəni ver, aparım. Arvadın əli gəlməyib küpəni qaytara. Yalandan deyir ki, elat çıxıb dağa, küpəni göndərmişəm, dağdadı. Bu da ərinməz-ərinməz gedər çıxar dağa. Dağa çıxanda gəlin deyər ki, Alı əmi, ayıb döyül sən boyda qoja, ağsaqqal kişini göndəriblər bura?! Küpə evdədi, qaynanam düz demir. Qayıdıb gəlir. O vaxdı da stalova yox, bir şey yox. Dağdan enən adam. Deyir ki, ajınnan ölürəm, mənə Allah verəndən gətir. Allah verəndən gətirir, bir ovuc çörək yeyəndə deyir, – Kəlbə-

cərdə cır ərikdən savayı ərik olmaz, – Alı əmi, bu il bizim yaman ərik olubdu, onu siz nətər qurudursuz? Bizdə Dərələyəzdə tonnan ərik qurudurmuşlar. Əriyin məskəni imiş da ora. Deyir, əriyi çırpırıq, səririk damın üsdünə, üç gün keçəndən sonra üsdün küllüyürük. Deyir, Alı əmi, bəs kül yapışmır ona? Deyir, yox, kül onun suyun çəkib qurudur? Bişirəndə də külü silkəliyirik, kül tökülür, yuyuruq, bişirib yeyirik. Bu da gətirib çırpar, ev damının üsdünə sərər. Üç gün keçəndən sonra baxar ki, damın üsdündə ériklər çürüyüb, cüjü[67] əlindən tərpənmək olmur. Bu əriyi kürüyüb yerə tökdükcə Alı kişiyə söyər.

Aradan beş-altı ay keçir, Alı kişi genə gələr bura. Gələndə qohumu deyər, ə kopoğlu, kişi də kişinin malına qəsd eliyərdimi? Sən mənim malıma qəsd elədin. Deyir, ə kopoğlu, kişi də kişini küpədən ötrü dağa göndərərdimi? (S.41)

---

[67] cüjü – cücü, həşərat

# VI. DASTANLAR VƏ AŞIQ RƏVAYƏTLƏRİ

## 211. FƏTTAH VƏ QƏMƏR

Göyçə gölünün adını Həzrət Əli qoyub. O da böyük bir söhbətdi. Zəngibar vilayəti olub orda, bir dənə şah oğlu oluf, Fəttah oluf adı. Həzrət Əlinin quludur, onun adını Əli Əleyh-salam Qəmbər qoyuf. Necə qoyuf indi deyəcəm. Deməli, Fəttah şah oğludu, şahzadədir, milliyyətcə yəhudidir, doğulduğu məkan da Zəngibardır. O əmisi qızı Qəmər xanıma vurulub. Qəmər xanım da çox göyçək oluf, amma əmisi çox əzazil adam oluf, fikri-zikri var-dövlət yığmağ oluf. Qəmərin də eşqi Fəttahın sinəsini dəmirçi körüyü kimi yandırır. Neynəsin, kimi göndərsin əmisinin yanına ki, sözü yerə düşməsin? Çox götür-qoy eliyir. Deyir, gedif özüm deyərəm. Verər verər, verməz də deyərəm əmi, bir daş altda, bir daş üsdə, bu sirr ikimizin arasında qalsın. Məni eldə-obada biyabır eləmə ki, bu necə şah oğlu idi, əmisi qızını buna vermədi.

Gəlir əmisigilə, bir qədər ordan-burdan söhbət eliyirlər. Əmisi deyir ki, ay oğul, bu dünyanın gəlişindən, gedişindən sənin ağlın nə kəsir? Deyir, ay əmi:

Özü qərar qoyuf qadiri-sübhan,
Nə sevincə baxır, nə qəmə dünya.
Hamının sazın özü kökləmiş,
Nə zilə çevrilir, nə bəmə dünya.

Alın yazısından çıxa bilməzsən,
Allah yıxmayanı yıxa bilməzsən,
Elə ki vaxt gəldi qaça bilməzsən,
Nə bazar düşünür, nə cümə dünya.

Altın gördüm tək qalıfdı pasda, bax.
Qürrələnmə, qohumu say, dosda bax.
Zəki İslam, baxanda da asda bax,
Qalmıyıf, qalmaz da heş kəsə dünya.

Dedi, ay oğul, sən şah oğlusan, atanın varı-dövləti, taxtı-tacı hamısı sənindi. Sən dünyadan nə şikayət eliyirsən? Öz qəlbində dedi, düz deyirsən, ay əmi. Atamın varı-dövləti, taxtı-tacı mənimdi, amma sənin gözünün ağı-qarası bircə qızın var. Sənin var-dövlətin kimə qismət olajax, heş o haqda fikirrəşirsənmi? Deyir, düz deyirsən, ay əmi.

Var-dövlət şirindi, dünya malıdı,
Öləndə yurdunda qalanın ola.
Tabutun önündə azan çəkənin,
Bir də son laylanı çalanın ola.

Yaranan öləcək nə ah, nə aman,
Üz cırma, saş yolma, günah yığma.
Yetişə dadına cənnəti-rizvan,
Səni sən tək yola salanın ola.

Ehsanın bol ola halal əməkdən,
Binli-bərəkətli duzdan, çörəkdən,
Təhlifsiz deyilər "amin" ürəkdən,
Soruşub halallıq alanın ola.

Saxə-səxavətdə yadda qalasan,
Öləndən sonra da diri olasan,
Adın çəkiləndə rəhmət alasan,
Qəbrini yadına salanın ola.

Əldə varın ola məhşər günündə,
Məhəmməd peyğəmbər durar önündə,
Zəki İslam, Həzrət Abbas səninlə,
On iki imamla imanın ola.

Dedi, ay oğul, mən ömrümdə belə kəlamlar eşitməmişdim, nə gözəl kəlamlar dedin. Birdən-ikidən bizə gəlməmişdin, sənin bizə gəlməkdə məqsədin, məramın? Görürəm sözdü adama oxşuyursan. Dedi, əmi, nə müddətdir sənin qızın Qəmər xanıma aşiq olmuşam, onun elçiliyinə də özüm gəlmişəm. Əgər qızını mənə verəcəksən ver, vermirsən bir daş altda, bir daş üsdə, əmi-qardaşoğlu bu sirr aramızda qalsın. Əmi sürəknən bir qəhqəhə çəkib gülür. Dedi, mənim çoxdankı arzum idi ki, Qəməri sənə verəm. Səndən artıq oğlana verməyəcəm ki. Amma bir şərtnən. Fəttah gördü ki, əmisi qızın həsini verdi, sevincindən az qaldı ürəyi partdıya. Dedi, ay əmi, sənə də qurban olum, Qəmərə də qurban olum, şərtinə də. Şərtini de. Dedi, ay oğul, Mədinədə Məhəmməd peyğəmbər səllallah ali və səlləm deyirlər, sonuncu peyğəmbərdir, Hatəmi-Nəbidir, ondan sonra peyğəmbər gəlmiyəcək. Onun vəsisi, vəlisi əmisi oğlu Həzrət Əli var. O həzrətin qılıncı məşriqdən məğribə dünyanın hər yerinə işdiyir. Tez-gec gəlib buralara da çıxacaq, bizim ata-babalarımızı ibadət elədiyi bütdərdən əl çəkdirib öz dininə döndərəcək. El məsəli var, deyir qara səni basınca, sən qaranı bas. Gedif o həzrəti öldürüb başını gətsən, və yaxud da ki diri tutub gətirsən, qız elə səninkidi səninki, dur indi apar.

Fəttah baxdı, gördü əmisi çox ağır şərt qoydu, keçiləsi döyül, razılaşdı. Dedi, gedim onda atamnan da məsləhət eliyim, görüm atam nə deyir. Gəldi atasına əmisiynən olan söhbəti dedi. Atası dedi, ay oğul, sən şah oğlusan, şahzadəsən, təlim görmüş

igidsən, hələ bərkdən-boşdan çıxmamısan. Bu işin öhdəsindən ancaq sən gələrsən, amma onu bil ki, bu görüş Həzrət Əliynən görüşdü ha. Özü də çox qüvvəli pəhlivandı deyirlər. Orya tək getmə, qoşunu səfə düz, addı-sannı igiddərdən seç, olarnan get.

Atasının da xeyir-duasını aldı, el kahini var idi, dedi gedim ixtixas elətdirim, görüm bu işə kahin nə deyir. Gəldi kahinin yanına. Kahin gördü Fəttah gəlir, amma çox qəmli, fikirridi. Gəldi salam verdi, salamını aldı. Dedi, kahin qardaş, mənim bir səfərim var, onu ixtixas eylə görək bu işin axırı necə olajax. Kahin dedi, səfərin Mədinəyədi, görüşün Həzrət Əliynəndi. Yaxşı olar, inşallah. Dedi, Həzrət Əli hakkında nə bilirsən? Dedi:

Ağlım kəsənnən, gözüm görənnən
Allah, Məhəmməd, Əli demişəm.
On iki imama, Həzrət Abbasa,
Üz tutub xudaya bəli demişəm.

Ustadlar ustadı ustad pirinə,
Allahın sağ əli Merac şirinə,
Göydə bölünənə, yerdə yerinə,
Üz tutan Əliyə vəli demişəm.

Fatimeyi-Zəhraya qurbandı canım,
Heydarı-kərrarım, şahı-mərdanım,
Mən Zəki İslamam, şöhrətim, şanım,
Əzəldən Əlidi, Əli demişəm.

Baxdı gördü kahin elə Əli deyib Əli eşidir. Dedi, bə Məhəmməd peyğəmbər deyirlər, sonuncu peyğəmbərdi. O nə vaxt dünyaya gəlib, mən onun haqqında eşitməmişəm? Deyir:

Miladi tarixi beş yüz yetmişdə,
Qarannıx aləmlər nura bələndi.
Bu gözəl dünyada, həm də behiştdə,
Məhəmməd yarandı, nura bələndi.

Əbdül Mütəllimə bu gözəl xəbər
Səjdədə yetişdi, dedi mələklər.
Sevindi Əminə, əsdi küləklər,
Məkkə işıxlandı, nura bələndi.

Əbutalib sevincindən göz yaşı
Axıtdı, dirilib doğma qardaşı,
Abdulla balası, hakkın sirdaşı,
Dünya işıxlandı, nura bələndi.

Ya Allah, ya Mahmud, ali Məhəmməd
Hər yandan səsləndi Allahu-əhəd,
Hesabın düz verir hesabda əbcəd,
On səkgiz min aləm nura bələndi.

Ələm dalğalandı, Məkkə yüksəldi,
Dünyaya sonuncu son nəbi gəldi.
Yaranmış nəbilər səjdəyə gəldi,
Zəki İslam, islam sura bələndi.

Dedi ki, mənim səfərim Mədinəyədi, peyğəmbər də Məkkədə anadan oluf. Bəlkə o Məkkə şəhərini görmək mənə qismət olmadı, onun hakkında nə deyə bilərsən? Dedi:

Məkkə, sənin Kəbə adlı
Məkanına qurban olum.

Məhəmmədin din islamı,
İmanına qurban olum.

Ana yurdu Məhəmmədin,
Həzrət Əli vətəninin,
İbrahimin, İsmayılın
Məqamına qurban olum.

Səfa, Mərva dağı gözəl,
Bismillahdı, sağı gözəl,
Zəki, geydin ağı gözəl,
Zamanına qurban olum.

Kahinin də xeyir-duasını alır, gəlir qoşunu səfə düzür, addı-sannı igidlərdən seçir, Mədinəyə səfər eliyir. Yolboyu özü-özünə fikirrəşir. Gah Əli əleyhsalamnan nizə atır, gah ox atır, gah göyləşir, gah yıxır, gah yıxılır, gah ölür, gah öldürür. Nəhayət bu minvalla gəlif Mədinəyə yetişir. Bir dağın dalında qoşuna deyir, tökülün, çadırları qurun, amma ehtiyatı əldən vermiyin ha. Ərəblər yamandı, bir balaca ehtiyatsızdıx eləsəz, qanız batdı. Amma düşmənə qalib gəlmək üçün gərək birinci onun gücünü yoxluyasan. Mən özüm şəhərə tək gedəcəm. Gedim görüm Əli şəhərdədimi, bəlkə, heş şəhərdə deyil. Hücum eliyərik, işimiz alınmaz, məğlub olarıx.

Şahlıq libasını geyindi, yarax-yasağını götürdü, gəldi Mədinəyə. Baxdı minarələrə, meçidlərə, heyran qaldı. Günorta əzanının vaxdıdı. Əzan verdilər, bu səsə çox heyran oldu. Ayağını saxladı, əzanı axıra qədər dinlədi. Baxdı gördü ki, əzan qutarandan sonra tükan-bazar bağlandı, kimi əbasını, kimi çiynindəki palazını sərdi yerə, başdadılar əyilif qalxmağa, yəni

namaz qılmağa. Bu bilmirdi namaz nə olan şeydi. Elə ki namaz qutardı, tükan-bazar açıldı, başdadı hər kəs öz işiynən məşğul olmağa. Gördü bir qoca ərəb gəlir. Qoca kişi yaxınlaşdı. – Salam, ay əmi. – Əlöykümət salam. – Ay əmi, Əli bu şəhərdədirmi? Dedi, ay oğul, odur, bağında iş görür. Belə baxdı, gördü sadə bir adamdı. Elə bilirdi Əli də şahdı, başında tacı var. Dedi, ay əmi, mən Əlini yox, Həzrət Əlini soruşdum. Dedi, ay oğul, sən soruşdun mən də dedim. Görürəm geyimindən, keçimindən ya şahsan, ya şah oğlusan. Danışığından bizim yerin adamı döyülsən. Yarax-yasağından igid bir sərkərdəsən, Həzrət Əlini də tanımırsan. Dedi, onun haqqında nə deyə bilərsən? Dedi:

Ay oğul, sən də öyrən, sirri-sübhandı Əli,
Hələ dünya yaranmamış yaranan insandı Əli.
Ali-əba tanrı nuru, həmin nurdandı Əli,
Bu dünyada, o dünyada şahi-mərdandı Əli.

Dedi, ay əmi, onun pəhlivannığı-zadı. Dedi:

Allahı tək, pak bilirəm, Məhəmmədi rəsulallah,
Əli vəli, həm də vəsi, əsədullah, seyfullah,
Ərşə sütun, göyə löngər, la ilahə illallah,
Qətli-Mərhəb, fəthi-Xeybər, şiri-yəzdandı Əli.

Dedi, onun silahı-filanı, nəynən vuruşur? Dedi:

Zülfüqar tək qılınc olmaz, Əli kimi pəhlivan,
Kəlam Allah kəlamıdır, xəbəri rəsulnan,
Məhəmmədə ilk beyətçi odur, birinci müsəlman,
Surələrdə ayə-ayə qareyi-Qurandı Əli.

Dedi, bəs möcüzəsi-zadı? Dedi:

Dünya yaranmamış Cəbrayılla ustaddır,
Adəmi dardan qurtaran, Nuhun tufan imdadıdır,
İbrahimin xilaskarı, Musa dərdi Sinadadır,
Gözünə görünən kimsə cənnəti-rizvandı Əli.

Səxavətdə yoxdu tayı, qırx yüklü dəvəni verdi.
Qəmbər qorxdu, Qəmbər qaşdı, soruşdular nə xəbərdi?
Dedi, ağam məni də verər, saxəsi cuşə gəlibdi,
Xızır İlyas gəzir, tapmır, alnında pünhandı Əli[68].

İsanı çarmıxda göyə, Yunusu balıxdan alan,
Məhəmmədi müşrükdən Məkkədə dardan qutaran,
Peyğəmbərin əmriynən Kəbədə bütdəri qıran,
Zəki İslam, imdad isdər, ədalət divandı Əli.

Çox məətdəl qaldı. Dedi, ay əmi, mən bu şəhərə gələndə xoş avaznan nəsə oxudular. Onnan sonra tükan-bazar bağlandı, camaat əyildi qalxdı. Bu nədi? Dedi, ay oğul, bu namazdı. Sizdə təbil çalmaqnan, şeypur çalmaqnan namazın vaxdını bildirirlər, bizdə isə əzan verillər. Dedi, bəs namaz nə olan şeydi? Dedi:

---

[68] *Həmin rəvayət belədir:* Xızır İlyas diri peyğəmbərlərdən biridi. Həzrət Əli məsciddə namaz qılanda Xızır İlyas bunun gözünə görsənir. Xızır baxır ki, Əli bunu gördü, qaçır məsciddə dirəyin dalında gizdənir. Həzrət Əli bunu tapır. Bu dəfə qaçır səhrada qumun altında gizdənir. Səhrada da bunu tapır. İndi Xızır İlyas bunu yoxluyur. Deyir, mən gizdənim, görüm, sən məni tapa bilərsənmi? Deməli, bu gizdənir. Xızır İlyas nə qədər axtarır, bunu tapa bilmir. Bulaxda dəsdəmaz alanda görür Əli bulağın içindədi. Yəni Əli bir dənə tük olur, Xızır İlyasın alnına yapışır. Dəsdəmaz alanda o tük düşür bulağın içinə. Görür ki, o Həzrət Əlidir. Həmin hədis ordan qalır (S.21).

Adəm peyğəmbərdən məhşərə qədər
Bəşərə qaydadı, qanundu namaz.
O elə gözəl, elə şirindi,
Mömin bəndələrə qaydadı namaz.

Yunus peyğəmbərin balıx qarnında
Namazı qəbuldu tanrı yanında.
Əsas məhşərdə hakkı-divandı,
Əldə qalan varsa faydadı namaz.

Azan eşidəndə şad olur insan,
Paklaşır, saflaşır qəlbi durmadan,
Arzusu, diləyi səjdədə inan,
Sıldırım qayada laydadı namaz.

İbadət borcun yoxsa ömürdə,
Yeddi əza çıraq olar qəbirdə[69],
Zəki İslam, səbrin olsa de bir də,
Nə dəryada, nə də çaydadı namaz.

Dedi, çox gözəl, ay əmi. Söhbətində Xeybərin pəhlivanı Mərhəb haqqında dedin. Axı Mərhəb yəhudilərin ən güclü pəhlivanıdı, hələ onun dizini qatdıyan, kürəyini yerə vuran olmamışdı. Necə oldu ku, Həzrət Əli ona qalib gəldi? Dedi, ay oğul, Xeybərin alınmasında mən də iştirak eləmişəm. Peyğəmbər Mədinəyə hicrət eliyəndən sonra Mədinənin varlı tacirləri

[69] Yeddi əza dedikdə səcdə üzvləri nəzərdə tutulur. Bura daxildir alın, iki ovucun içi, diz qapaqları və ayaq baş barmaqlarının ucu. Qəbr əzabında mələklər sorğu-sual edəndə onlar işıq salır. Ölü yuyulanda həmin səcdə üzvlərinə kafur vurulur.

peyğəmbərin ideyasını qəbul eləmirdilər ki, peyğəmbər buyurur varlı-kasıb olmamalı, varlılar kasıblara əl tutmalı, bərabər yaşamalıdı. Ona görə Mədinənin ən varlı taciri Səlləm gizdi məşvərət keçirir, yəhudiləri yığır bir yerə ki, peyğəmbərə qarşı qiyam eləsin. Eyni zamanda Xeybərnən Mədinənin arasında Qətvan vilayəti var, oranın da yəhudilərinin razılığını alır, gedir Xeybərə. Xeybərdə də yəhudilərin razılığını alır. Peyğəmbər bundan xəbər tutur, əmisi oğlu Əbu Abdullahı göndərir. Abdullah gəlir tacir tükannarının birində Səlləmi tapır, onu cəhənnəmə vasil eliyir. Peyğəmbər deyir, müsəlman olan gərək belə olsun, şücayətdi olsun. O vaxdı Əli əleyhsalam xəsdə idi. Abubəkiri çağırır, Öməri çağırır, Osmanı çağırır, Səd Vakkası çağırır – bütün sərkərdələri, gizdin məşvərət eliyir. Bizans yolunnan Xeybərə hücum eliyirlər. Üşgünnük yoldu, barlı-bağatdı yerdi. Üçgünnük yolu gecəynən gəlir çatırlar Xeybərə. Qalanın yeddi qapısı var idi. Nağıllarda deyildiyi kimi, quş gəlsə qanad salar, qatır gəlsə dırnaq salardı. Yəhudilər qapını açıb malını, qoyununu çölə çıxardanda görür ki, müsəlmanın qoşunu qalanı mühasirəyə alıb. Qalanın da xəlifəsi yəhudi Haris idi. Ona xəbər verillər ki, bəs müsəlmanın qoşunu qaleyi mühasirəyə alıf. Haris tez məşvərət çağırır, müdafiyə mövqeyini seçir. Birinci gün peyğəmbər salavatullah bayrağı Əbubəkirə verir. Deyir sən olarsan fateh. Nə qədər cəhd eliyir, qalaya yaxınnaşammır. Heş bir itgi vermir, qayıdır. İkinci gün Ömərə verir. Ömər bir qədər itgi verir, nəticə əldə eliyə bilmir. Səd Vəkkas, digər sərkərdələr də heç biri nəticə əldə eliyə bilmir. Peyğəmbər fikrə gedir, əmisi oğlu Əli də yoxdu, mən necə eliyim, bayrağı sabah kimə verim ki, o qalib olsun. Bu vaxd Cənabi Cəbrayıl nazil olur, vəh gətirir. Salam verir və buyurur ki, ya rəsulallah,

əmin oğlu Əliyə xəbər vermişəm, Əli yoldadı, gəlir. Peyğəmbər çox sevinir. Deyir, sabah bayrağı elə bir şəxsə verəcəm ki, doğurdan da, o fateh olacax.

Səhər açılır, üzünüzə xeyirli sabahlar açılsın. Bütün sərkərdələr gözdüyür ki, görək peyğəmbər kimi dəvət eliyəcək. Elə bu vaxd Əli əleyhsalam Düldülün üsdündə yetişir. Salam verir, atdan düşür. – Əmi oğlu, harda idin? Deyir, ya rəsulallah, başım ağrıyırdı, xəsdə idim. Əli əleyhsalam başını sıxır mübarək sinəsinə, əllərinən başına sığal çəkir, başının ağrı-acısı gedir. Ağız suyunnan gözlərinə məlhəm eliyir, gözünün ağrı-acısı gedir. Bayrağı verir, deyir sən olarsan fateh. Deyir, nə vaxda kimi? Deyir, neçə ki dinə-imana gəlmiyiflər, ixdiyar sahibisən. Amma ondan xeyli əvvəl Mərhəbin anası yuxu görür. Yuxusunda görür ki, Mədinə tərəfdən bir şiri-aslan gəlir, onun oğlu Mərhəbi qətlə yetirir. Yuxu yozannarı, münəccimləri çağırır, yuxusunu danışır. Yuxu yozannar, münəccimlər bir ağızdan deyir ki, sənin oğlunun qatili Əli adında bir şəxs olajax. Meydana gedəndə oğluna deynən rəqibinin adını soruşsun. Görsə Əlidi, ondan uzaqlaşsın. Ana çağırır oğlu Mərhəbi, yuxusunu ona danışır. Deyir, ay oğul, indiyə qədər sən meydana gedəndə sənə xeyir-dua vermişəm. İndi and verirəm sənə, mənim döşümdən əmdiyin südə, meydana gedəndə rəqibin adını soruş. Görsən ki, Əlidi, ondan uzaq ol. Mərhəb diz çökür anasının qarşısında, anasının südünə and içir, ayağa qalxanda görür anası da qocalıb. Deyir,

Bax, ana əzizdi, ana şirindi,
Ananın dünyada yoxdu qiyməti.
Tək mənim olsa da dünyanın malı,
Aldanıf dəyişmərəm anamı qəti.

Ana bala üçün hər an oyanır,
O dərd çəkir, o qəm çəkir, o yanır.
Oyan qeyrət, oyan namus, oyan ar,
Var ana isməti, ana hünəri.

Qara torpaq nələr yatır üzündə,
Ana yatır astarında üzündə,
Zəki İslam, qırışları üzündə
Oxunur ananın ana surəti.

Dava qalanın Qamus qapısınnan başdıyır. Qalaya yaxınnaşanda qalanın qapısını bağlıyırlar. Qəflətən qoşunun içində gizlənmiş bir yəhudi vurur, Əli əleyhsalamın əlindən qalxan düşür yerə. Əli qeyzə gəlir, Xeybərin qapısını kökündən çıxarıb atır. Mən bir ədəbiyyatda oxumuşdum qapının ağırrığı 825 kiloqram olub. Harisə xəbər verillər ki, bəs deməsənmi, qureyşlərdən bir cavan oğlan artıq qalaya daxil oldu, qabağına keçəni zəmi kimi biçir. Haris qardaşı Mərhəbi çağırır. Deyir, axı sən bu qalanın sərkərdəsisən, pəhlivanısan. Qureyşlər hücum eliyif, qırıllar camaatı, sən niyə gözdüyürsən? Mərhəb döyüş libasını geyinib meydana gəlir. Baxıb görür on beş yaşına qədəm qoymuş cavan bir oğlandı. Deyir, ay oğul, bir əl saxla, görüm sən kimsən, hansı nəsildənsən, kimin oğlusan, səni bura kim göndərif? Deyir, mən qureyş nəslindən Əbutalıb oğlu Əliyəm. Allah nökəriyəm, rəsul quluyam. Məni bura rəsulu-əkrəm göndərif. Deyir, ay oğul, mən sənin atan Abutalıbnan dosduğ eləmişəm, duz-çörək kəsmişəm. İsdəmirəm əlimi sənin qanına buluyum. Sən cavan oğlansan, yaşamalı vaxdındı. Get yaşa, qoy qureyşdərdən mənə tay-bərabər pəhlivan gəlsin. Deyir, döyüş cavana, qocaya baxmır. Birdən yadına düşür ki, anası buna yuxu söyləmişdi, bunun adı

Əlidi, Abutalıb oğlu Əli. Meydandan çıxır. Çıxanda şeytan insan cildində bunun qabağını kəsir. Deyir, ə, hara gedirsən? Ərəbistanda kimi soruşsan iki nəfərdən birinin adı Əlidi. Elə noldu sənin qatilin bu Əli oldu? Pəhlivannıx şücayəti buna güc gəlir, qayıdır meydana. Deyir, həmən cavan gəlsin, onu aşıma yavannıx elijəm. Əli əleyhsalam da meydanda dolanır, Düldülün üsdündə gəlir bunun qabağına. Deyir, ey Mərhəb, mən cəng eləməmişdən qabax rəqiblərimnən üç şərt kəsirəm. Deyir, düz buyurursan, de şərtdərini. Deyir, birinci odur ki, gəl islamı qəbul elə, müharibə eləmiyək. Dedi, elə mən islama qarşı vuruşuram da, bu mümkün döylü. Dedi, ikinci şərtim, gəl onda sülh müqaviləsi bağlıyax, sən də öz yerində qal pəhlivannıx elə, biznən də işin olmasın. Dedi, bu da mümkün döylü. Üçüncü şərtin? Dedi, üçüncü şərtim ondan ibarətdir ki, sən meydana çıxanda bir neçə pəhlivan tələb eliyirsən, onnara qarşı vuruşursan. İndi gəl təkbətək vuruşax, Allah ya sənə verər, ya mənə verər. Deyir, bu şərtinə razıyam. Deyir, Həzrət Əli fürsəti həmişə düşmənə verərdi. Qalxanını qoyur başına, Mərhəb var gücüylə vurur, qılıncı gəlir əmgək sümüyündə dayanır. Mərhəb Əlidən zərbə gözdəmirdi. Əli sol əlinnən qanını silməkdə sağ əlinnən zülfüqarı endirməyi bir olur. Deyir, ya Mərhəb, nə hiss eliyirsən? Deyir, ya Əli, alnımnan ovcumun içi gicişir, çənəm çənəmi axtarır, dilimə də söz gəlmir. Dedi, düz buyurursan, heç vaxd alnın möhürə gəlmiyib, namaz qılmamısan, əlinnən səjdə verməmisən, dilinə də la ilahə illallah gəlmiyib. Bir balaca atını tərpət. Atını tərpədən kimi iki şakqa olur, yarısı atın o tərəfinə düşür, yarısı bu tərəfə.

Bunun bacısı da, anası da döyüş meydanında idi. Ərəblərdə qayda idi, pəhlivannar vuruşanda onlar baxırdılar. Atdan düşəndə Allahu-əkbər səsi yüksəlir. Bu, qələbədən xəbər verir.

Haris öz elçilərini göndərir peyğəmbər salavatullahın yanına ki, sülh müqaviləsi bağlasın. Peyğəmbər salavatullah razılaşır. Azançısı Bilal Həbəşini göndərir ki, get əmim oğluna denən əl saxlasın, artıq onlar dinə-imana gəliflər. Gəlir Əli əleyhsalamın yanına ki, peyğəmbər buyurur əl saxlasın. Əli əleyhsalam qayıdır gəlir. Mərhəbin bacısının adı Hənifiyə idi. Özünü salır Mərhəbin meyidinin üsdünə. Görür ki, bunun nə zirehinə, nə üsdündəki daş-qaşa, nə zinyətə, nə də silahına toxunulub. Bir könüldən min könülə Əli əleyhsalama aşiq olur. Gəlir Əli əleyhsalamın yanına. Peyğəmbər baxır ki, Bilal Həbəşi iki dənə zənən xeylağı gətirir. Peyğəmbər əleyhsalam deyir, axı bunlar zənəndilər, buların meyidlərin arasında nə işi var? Peyğəmbər buyurur bulara ki, – biri Hənifiyə olur Mərhəbin bacısı, – islamı qəbul eliyin, sizi azad eliyim. Hənifiyə deyir, ya rəsulallah, islamı mən bir şərtnən qəbul eliyərəm. Deyir, nədir şərtin? Deyir, məni əmin oğlu Əliyə kəbin eliyərsən. Peyğəmbər səlavatullah razılaşır, amma Əli əleyhsalam razılaşmır, çünki qabaxda Fatmeyi Zəhra var idi. Peyğəmbər səlavatullah Xədiceyi Kübra dünyasını dəyişənə qədər, Həzrət Əli əleyhsalam da Fatmeyi Zəhra dünyasını dəyişənə qədər başqa qadınnan evlənməmişdi. Dedi, məni ona kəbin eliyərsən, məndən olan oğluna öz adınnan mənim adımı qoyarsan, Məhəmməd Hənifiyə qoyarsan. Bular qalırlar kəniz, Fatmeyi Zəhra dünyasını dəyişəndən sonra onnan evlənir, bir oğlu olur, adını Məhəmməd Hənifiyə qoyur.

Bunların hamısını qoca kişi Fəttaha danışır. Qoca kişidən necə ayrıldığını bilmir, bir də görür ki, Əli əleyhsalam bunu bağda qəbul eliyir. Deyir, qonax qardaş, buyur bağa, hava isdidi, çay-çörək ye, uzaxdan gəlmisən. Bağa daxil olur. Əli əleyhsalam soruşur ki, görürəm biz tərəfin adamına oxşamırsan, sənin

məqsədin-məramın nədi, gəlişinin məqsədi nədi məni agah elə. Deyir, Həzrət Əlini axtarıram. Deyir, neynirsən o həzrəti? Deyir, ola bilsin onun ömrü sona çatıb. O necə adamdı? Deyir:

Axtardığın Həzrət Əli boyca
Mən boydadı, bir əmması var.
Başında qızıldan tacı yox, əmmaməsi var.
Çox həlim adamdı, bir tutması var.
Tutması qəzəbdi, pəncəsi şirdi,
Saxəsi böyükdü, kərəmi-sirdi.

Deyir, əşi, kim olur olsun ey, onun ömrü sona çatıb. Deyir, görürəm çox ürəklisən, igid bir pəhlivansan, cəsarətlisən. Gəl belə eliyək. Əvvəlcə gücünü məndə yoxla. Əgər mənə qalib gəlsən, bil ki, Həzrət Əliyə qalib gəlmisən. Yox, qalib gələ bilmə-din, bəxdindən küs. Deyir, necə eliyək? Deyir, bu qılıncı görürsən? Zülfüqarı gösdərir. Deyir, bunu qoltuğumun altında sıxacam, bunu qınınnan çıxartsan, bil ki, Əlini öldürmüsən. Sıxır qılıncı, bu pəhlivan gücüylə tutur qılıncın dəstəyindən, nə qədər dartır qılınc qınınnan çıxmır ki çıxmır. Fəttah deyir, onda mən nizəmi sıxacam, sən çıxarda bilərsənmi? Nizəsini sıxır. İki barmağını salır, nizəni atır, nizə gözdən itəndə deyir, mənim nizəm hara getdi? Deyir, gendəndə görərsən. Zəngibarda bütlərin başına batıb. Deyir, mən gəldiyim ünvanı buna deməmişdim, bu hardan bildi ki, mən Zəngibardan gəmişəm. Deyir, onda gəl bir güləş tutax. Tuturlar güləş. Fəttah da güjdü pəhlivandı. Bir qədər süpürrəşillər, Əli əleyhsalam yıxır bunu, çıxır sinəsinin üsdünə. Zülfüqarı çəkir başını kəsməyə. Başını kəsmək fikri yox idi. Fəttah başdıyır ağlamağa. Deyir, ayə, niyə ağlıyırsan? İki igid vuruşanda biri qalib gələr, biri məğlub olar. İndi mən qalib gəlmişəm, səni öldürməliyəm. Deyir, yox, ay qoca, mənim iki

arzum var idi. Deyir, de arzularını. Deyir, birinci Həzrət Əlini görəmmədim. Hələ inanmır ki, sinəsinin üsdündəki Əli əleyhsalamdı. İkinci də, əmim qızı Qəmər xanıma deyihli idim, onun vüsalına çatammadım. Deyir, denən la ilahə illallah, Məhəmmədən rəsulallah. Yəni bu kəlmeyi-teyibəni kim dilinnən deyib qəlbinnən təsdiq eləsə islamı qəbul eliyir. Fəttah bunu təkrar eliyir. Tutur sinəsindən deyir, qalx, ey müsəlman qardaşım. Birinci arzuna çatdın, Həzrət Əli mənəm. Al indi bu Zülfüqarı, kəs mənim başımı, apar ver əminə, Qəmər xanımın da vüsalına çat. Götürür Zülfüqarı, qaldırır var gücüylə, isdiyir endirsin, qılınc enmir. Deyir, ya Əli, bu nə sirdi, nə möcüzədi? Mənə deyirsən vur, qoluma deyirsən quru. Qolum qurudu, mənim əlimdən bu qılıncı al. Qılıncı alır. Deyir, görürəm çox güjdüsən, cəsarətlisən, sözünə bütövsən. Mən sənin adını Qəmbər qoyuram. Yəni qəmbər çay daşıdı, sınmır, sınanda da parça-parça olur. İndi get dağın dalında qoşunun var, onları da dəvət elə, gəlin, mənə qonaxsınız. Burda çox kövrəlir. Deyir

Elə bil daşdı canı,
Kəkliyin daşdı canı.
Həzrət Əli quluyam,
Qəmbərin daşdı canı.

Gedir qoşunun yanına. Qoşun görür Fəttah əli ətəyindən uzun gəlir. – Ayə, Fəttah, noldu? Deyir, gəlin, hamınız ağama qonaxsınız. Bu gündən mənim adım Fəttah yox, Qəmbərdi. O vaxdan da Qəmbər qalır. Gəlirlər bir neçə gün qalırlar. Getmək isdiyəndə Əli əleyhsalam deyir, mən də siznən gedim. Gedim görüm sizin camaat nətərdi, yaşayışı nətərdi. Qəmbər deyir ki, mən gedirəm, özüm dəvət eliyəcəm qonax, onda gələrsən.

Öz dəsdəsinnən qayıdır gəlir. Çarçılar xəbər aparır, bəs deməsənmi Qəmbər gəlir. Atası, əmisi bunun pişvazına çıxır. Baxıllar ki, nə Həzrət Əli var, nə onun başı var. Atası soruşur, ayə Fəttah, bəs sən bu işdən ötəri getmişdin, hanı onun başı? Deyir, ata, mən ağamın başının yerinə öz başımı gətirmişəm. Mənim başımı kəssən, yerə tökülən qanım Əli yazacax. Deyir, kimdi o Əli? Deyir:

Allah, Məhəmməd, on iki imam,
Könlümün sultanı, xanı Əlidi.
Yer yoxkən, göy yoxkən yaranan
Bismillah bəşəri tanı, Əlidi.

Cəbrayıl ustaddan dərsin alaraq,
Sən xaliqsən, mən məhluqam, haqqa haqq.
Adəm yaranmağa borc olan torpax
Ağladı, sahibim hanı? – Əlidi.

Elə ki qopmuşdu dünya tufanı,
Nuha səda gəldi zəvvarı tanı.
İbrahim İsmayılın Kəbə qurbanı,
Xəcər nailəsinin canı Əlidi.

Musa Turi-Sinada düşdü təşvişə,
Firon da ox atdı, güldü həmişə.
İsa Məryəm oğlu keşdi təşvişə,
Söylədi dünyanın xanı Əlidi.

Atası dedi, ayə, deyəsən bunun başına hava gəlif. Bunun əlini, qolunu bağlıyın, Zəngi çayının qırağına tulluyun. Bunun əlini-qolunu bağladılar, atdılar Zəngi çayının qırağına. Ata ürəyidi,

dözmədi. Kahini çağırdı ki, bəs sənin dosdundu, get gör bu öldü, qaldı dərədə. Kahin gəldi gördü ki, yatır, şirin yuxudadı. Salam verdi, kahinin səsinə oyandı. Kahin dedi, Əli əleyhsalamdan ayrılanda o sənə duva öyrətmişdi, o duvanı niyə oxumursan ki, o sənin harayına çata. Əli əleyhsalam da izdiyirdi bunu, duvanı oxudu, elə bil ki şimşək qopdu. Buludun arasından düşdü Əli əleyhsalam Düldülün üsdündə. Salam verdi. Kahini də, Qəmbəri də götdü dərədən çıxartdı Ağ Manqana[70]. Orda Qiblə bulağı var, bu saat da durur, üzü qibləyə axır. Ordan su işdi. Baxdı, baxdı, dedi nə göyçək mahaldı, nə göyçəh yerdi. Göyçə gölünə baxdı, güzgü kimi parlıyır. Dedi, nə göyçəh göldü. Orda Zəki İslam deyir ki,

Allah özü bu yerləri pay verib,
Göy dumanı, göy çiskini, Göyçəni.
Timsalı cənnətdi, bənzəri behişt,
Gülüstandı göy çəməni, göy çəni.

Gölünün suyu abi-kövsərdi,
Dörd yannan dağları gölə sipərdi.
Quran ayəsidi, müjdə xəbərdi,
Yadda saxla bu diyarı, Göyçəni.

Kahin, nəzər yetir, Qəmbər, yaxşı bax,
Hər yandan car edib hər yerdən bulax.
Merac gecəsində bu göldən Burak
Deyəsən su içib, sevib Göyçəni.

---

[70] Göyçə gölünün ətrafında yer adı.

Məhəmməd peyğəmbər verib alqışı
Loğmandı payızı, baharı, qışı.
Yayın da dərmanıdı dağların başı,
Xarlanmış qar ətri verir Göyçənin.

İnsanları qonaqpərvər, qeyrətli,
Qadınları yamşaqlı, isмətli,
İslama döndülər Əli qeyrətli,
Zəki İslam görə bir də Göyçəni.

Belə baxanda görür ki, Qəmər xanım da yaylağa çıxıb həmən Ağ Manqan yaylağına, başının dəsdəsiynən gəlir. Əli əleyhsalam deyir, mən peyğəmbərnən vədəliyəm, sabah qayıtmalıyam. Gəl elə sizin kəbinizi kəsim gedim. Qəmbər deyir ki, mən də sənnən gedəcəm. Məni özünə qul qəbul elə, qul qəbul eləmirsən Düldülünə mehtər qəbul elə. Əli əleyhsalam bunu qəbul eliyəndə kahin deyir, Qəmbəri özünə qul qəbul elədin, məni də Düldülə mehtər qəbul elə. Deyir, sən el kahinisən, İncili, Tövratı əzbər bilirsən, Qurandan da məlumatın var. Sən qal camaata Quranı təbliğ eləginən. Deyir, yox, mən də gedəcəm. Qəməri də, Qəmbəri də, kahini də götürür qayıdır Mədinəyə (S.21).

## 212. AŞIQ ƏLƏSGƏRİN NAXÇIVAN SƏFƏRİ

Şair Nağı Ələsgərə şəyird olubbuş. Bunlar Kəlbəcərə toya gedirlər. Yolda toya gedən adamlarnan qarşılaşırlar. Buna deyirlər, biz də Kəlbəcərə toya gedirik, o ağanın toyuna. Sizin adınız nədi? Deyir, oğul, mənim adım Ələsgərdi.

– Göyçəli Aşığ Ələsgər sizsınız?

Deyir:

– Bəli.

– Bə bu yanındakı kimdi?

Deyir, buna da Şair Nağı deyəllər. Noolajaxdı, gedirlər. Yolda bunlar baxıf görür bu kişi təriqətdən, mərifətdən danışır. Səfeh-səfeh danışır. Deyirlər, ə, gedəndə orda görəh Nağını bu kişidən ayıra billihmi. Bu səfehdi.

Toyda Ələsgər dastan söyləyəndə həmən adamlar Nağını çağırıllar:

– Ə, başın batsın, o qoja adamdı, sənin qazancuvu yeyir. Aralaş onnan, ged özgə yerdə aşıxlığ elə. Gəlirinin hamısı sənə qalsın.

Nağı gəlir.

– Ələsgər əmi, mən gedirəm.

Deyir:

– A bala, harıya gedirsən?

– Səndən ayrıldım – deyir.

– Ayə, sənnən nə aşıx çıxajax? Nə danışırsan? Bir şey örgənmiyifsən, peşman olarsan.

Deyir:

– Sənin özün peşman olassan, mən getdim.

Nağı "getdim" deyib, burdan çıxır. Nağı burdan çıxır, gedir. Papağını qavağına qoyub deyir: "Ə, mənə Göyçədə kim aşıxlığ verəjəh?" Oydu ku, tərpənir Naxçıvana. Qavaxda Ələsgər danışıbbış ki, Məhəmməd bəy dostumdu, onun oğlunun toyunu eləmişəm. Bu söhbət bunun yadında qalıbbış. Gedir, kişinin öyünü tanıyır. Deyir, salam, Məhəmməd bəy. Deyir, əleykət salam. – A bala, siz kimsiniz? Deyir, mən Aşığ Ələsgərin şagirdi olmuşam, indi Ələsgər mənnən dərs alar. Deyir, a bala, eyvallah, sağ ol, gəl. Bu gün xoruz dalaşdırırdım, onda da basıldım. İt boğuşdurduğ, onda da basıldım. Bəlkə, aşıxlıxda axşam mənim üzümü ağar-

dasan. Gedillər Əsədullahnan Cəfərullahın meydanına. Aşıx Cəfərullahnan Əsədullah Qazaxdan gəlibmiş, İsrafil bəyin qardaşı oğlunun aşıxları imiş. Aşıq Cəfərullah Abbas Tifarqannının bir qublet sözünnən deyir.

Əzəldən can deyif, can eşidən yar,
İndi bivəfalığ ay nədən oldu?
Deyirdin ölüncə dönmərəm sənnən,
Yadnan aşnalığ ay nədən oldu?

Bunu Nağıya deyir, Nağı cavab verə bilmir. Əlinnən sazını alıllar, özünü də döyüf yola salıllar. Onnan sonra Məhəmməd bəy gəlib deyir ki, səni öldütdürəjəm. Get Ələsgəri gəti.

Ələsgər Zodda toy aparırmış. Nağı gəlir. Deyir ki, Anaxanım xala, Ələsgər əmim hanı? Deyir, a bala, çoxdandı Ələsgər əminin yanına əlmirsən. Sən hardeydın? Deyir ki, Naxçıvana getmişdim. Deyir, Ələsgər əmin Zod kəndində toydadı. İki dənə ağsaqqal adam götürür, gedir Ələsgərin yanına. Ələsgər deyir mən dalaşmamışam ha peşman olum. Peşman odu, gəlsin işdəsin yanımda. Onnan sonra yola düşüllər, gedillər. Naxçıvana çata-çatda baxır ki, Nağı geridə qalır.

– A bala, sən cavan adamsan, niyə geridə qalırsan?

Deyir:

– Ələsgər əmi, nə eləmişəm qələt eləmişəm. Səni aldadıf gətirmişəm. Məhəmməd bəy bax belə deyifdi, belə də oldu.

– Ayə, nanəcif oğlu nanəcif, mənə qavaxdan niyə demədin?

Gedir həftəbazarınnan başına papağ tikdirir, əyninə əba alır, belini çateynan bağlıyır, özgə vidə düşür Ələsgər. Sazın üstündəki Aşıq Ələsgər adının üsdünü mumla örtür, tanınmasın da. Deyir, ə, yanıma düşüf gedirsən, orda olmıya-olmıya mənim adımı çəkəsən. Deyir, bə sənin adına nə deyim? Deyir, soruşanda

denən Solaxqay. Deyərsən qoja adamdı, uşağını dolandırır mənim yanımda.

Axşam Məhəmməd bəyin bajısı Müşkünazın evinə gəlillər. İçəri girəndə Müşkünaz deyir, ay Nağı, bu kimdi? Bu adam ha döyül, bunu buruya nəyə gətirifsən? – Xanım, – deyir, – nə bilim? Qoja adamdı, yanımda şagirtdih eliyir, uşağını saxlıyır. Bu belə deyəndə, da nolajax, Ələsgər kirimişcə bir yerdə oturur. Müşkünaz xanım gətirir samavarın içinə suyu tökür, ordan da od tökəndə Ələsgər deyir:

– A bala, o suyu gətdin odun içinə töhdün, od suyun içində yanarmı?

– Ay Nağı, – Müşkünaz deyir, – Allah öyünü yıxsın, bu vəh-şiyi hardan gətdin çıxartdın buruya? Ayə, bu dünyə görmüyüfdü.

Müşkünaz xanım gətirir düyü seçir, axşam bunlara ploy bişirsin. Ələsgər deyir, ayə, qarışqa boyda şeydən də ploy olarmı? Ploy yekə əriştədən olur. Bu nə danışır? Müşkünaz xanım deyir, çay qaynadıram. Ələsgər deyir, Kür çayımı gələjəh? Özün təmiz avamlığa qoyur. Müşgünaz xanım deyir, Nağı, Allah öyünü yıxsın, bu haranın adamıydı gətdin buruya çıxartdın.

Xörəh ortıya gələndə pismillah eliyillər, Ələsgər yaxşı ustax[71] çörəh yiyir. Müşgünaz xanım deyir:

– Ay Nağı, bu nə yaxşı belə yaxşı ustax çörəh yeyir?

Şair Nağı deyir:

– Xanım, bunu çox bərkə-boşa salma, bunun yaxşı cəhəti də var, vallah.

Çörəyi yeyillər, qutarannan sora Məhəmməd bəy eşidir kin, Ələsgər gəlifdi. Oydu kun, axşam apardılar Əsədullahnan Cəfərullahın meydanına.

---

[71] ustax – iştax

Gedillər. Qapıda Nağıya deyillər ki, ay Nağı, otu. İçəri girəndə yer təhlif eliyillər. Ələsgər qapının ağzında durur, gobud adammış, yağış da yağıbbış, bir az əyni-başı da issanmışdı. Əyağının birini gəvənin üstünə, birini ortıya, bəyin birini belə dirsəyinnən vurur, birin elə. Oturur. Hərəsi bir yannan mauzeri çıxardır ki, kişiyi vuralar. İsrafil ağa ordeymiş. Deyir ki, bunu vurmuş, məni vurmuş. Qoja kişidi, nə istiyirsiniz bunnan? Əmə Ələsgər olduğunu bilir, – gözünnən salam verir da, – tanıyırmış. Deyir, adamdı, gəldi otdu, nağardı sizə, neylədi sizə? Bu maqamda Əsədullah ustad aşıx təki dedi, a başın batsın, özün bir şey bilirdinmi ki, bəyin öyünə qan salırsan? Yanı bunu öldürəjeydilər, bunun öyünə qan düşəjəkdi. Ələsgər dedi, a bala, siz deyişirsiniz, yoxsa döyüşürsünüz? Dedi, deyişəjeyih, qoja. – Bə niyə deyişmirsiniz, döyüşürsünüz? Deyir, nə deyəjeyih? Deyir ki, bir kəlmə siz deyəjehsiniz, bir kəlmə də biz deyəjeyih. Kim bağlandı, sazı qoyajax yerə. Bunu Solaxqay dedi. Nolajaxdı. – Kimlər deyişəjəh? – Şagirtdər. Nağının şagirdi bı qoja kişidi, Əsədullahın şagirdi də Cəfərullahdı. Gənə orda Cəfərullah götdü Tufarqan Abbasın üç qıfılbəndinin birini dedi:

Əzəldən can deyif, can eşidən yar,
İndi bivəfalığ ay nədən oldu?
Deyirdin ölüncə dönmərəm sənnən,
Yadnan aşnalığ ay nədən oldu?

Ələsgər dedi, a bala, o sözü kim deyifdi? Mən qoja adam, hancar açım? Bir onu de, onnan sora.

– A kişi, sözün cavabını deyirsən de, demirsən, sazı buruya qoy.

Deyir:

– A bala, aman elə.

Ələsgər:

Ərşin, kürsün, yerin, göyün, asimanın,
Günün bünövrəsi ay nədən oldu?
Yeri göydən, göyü yerdən kim seşdi,
Hikmətin dəryası ay nədən oldu?

Cəfərullah:

Başına döndüyüm şahın Becanı,
Şahın tovlasına yol budu, tanı.
Deyirdin həftəyə olarmı qane?
Həftə ilə döndü, ay nədən oldu?

Ələsgər:

Oğul, neçə sütun, neçə qəndil vuruldu?
"Sən kimsən, mən kiməm" kimdən soruldu?
Elmin müəmması harda duruldu?
Şeir müəmması ay nədən oldu?

Ələsgər üzünü Nağıya tutur:

– Ay Nağı, a bala, biz səhərə qədər ay nədən oldu, nədən oldu oxuyajeyih?

Belə deyəndə ağalar mat qaldı, bu nə danışır? Orda deyir ki:

Gözəl şahım məni saldı busaya,
Rəhim eylə gəl mən tək müqəvvaya.
Abbas deyər, sirri qaldı xudaya,
Pərim bir bəşərdi, ay nədən oldu?

Ələsgər deyir, a bala, onu Abbas deyib, açan olmuyub, mən qoja adam hancarı açım? Oğul, aman elə.

Bir qoja aşığam, intizarım var,
Alimsənsə, məni eylə xəbərdar.
Elmi hardan aldı cəmi aşıxlar,
Ustadlar ustası ay nədən oldu?

Bunu deyəndə Cəfərullah dedi, day mənim sözüm yoxdu. Əsədullah əmr elədi, o sözü de. Ələsgərin indi bağlı bəndini özünə deyəjəhlər. Cəfərullah orda götürür deyir ki:

Altı gündə dünya neçə don geydi?
Nə üstə əyləşdi, bərqərar oldu?
Kim idi, nə idi ustun binası,
Ulduzlar nətəri yerbəyer oldu?

Ələsgər:

Altı gündə dünya iki don geydi,
Kafı-maf üstündə bərqərar oldu.
Hakk özü oydu ustun binasın,
Ulduzlar göy üstə yerbəyer oldu.

Cəfərullah:

De bu nədi müqərrəyin mələyi?
Onların içinin hansıdı bəyi?
Nə canlı, nə cansız ərşin dirəyi,
Nə ilə çalındı, mühtəvər oldu?

Ələsgər:

Oğul, on altıdı müqərrəyin mələyi,
Hürnisədi onun içinin bəyi.
Nə canlı, nə cansız ərşin dirəyi,
Salavat çalındı, möhtəvər oldu.

Bəylər, ağalar baxır görür, bu qoja kişi ərşdən-kürşdən danışır. Məhəmməd bəynən İsrafil ağa deyir ki, Əsədullahnan Cəfərullahın bir az çəkilməmiş yarması var, onu da bular çəkəjəh.

Cəfərullah:

Ələsgər agahdı etiqadınnan,
Yer də xəbər verir göy-büsatınnan.
Nə ilə danışdın nə isbatınnan,
Müsəlmanam deyənə nə xəbər oldu?

Ələsgər dedi, a bala, o sözü Ələsgər deyiv, mən qoja adam onu hancar açım? Deyir, a kişi, aça bilmirsən, sazı qoy ortaya. Deyif, olammaz helə.

Ələsgər agahdı etiqadınnan,
Yer də xəbər verir göy büsatınnan.
Tut orucun, qıl namazın, ibadətinnən
Müsəlmanam deyənə bu xəbər oldu.

Cəfərullah gördü kü, day sözü qalmadı. Aşıx Əsədullah usta aşıq təki qalxdı, dedi:

– Qoja, neçə yaşın var?

Dedi:

– Oğul, vallah, hansı ildə olmuşam heç özüm də bilmirəm. Altmış olar, yetmiş olar.

Lap avamlığa vurdu özünü. Orda Əsədullah qalxıb deyir:

Solaxqay aşıxsan, çox düşünürsən,
Qeylü-qallı tez bazara düşərsən.
Altmış yaşda təzə şagird olubsan,
Çovğuna, borana, qara düşərsən.

Ələsgər:

Məğrurluq eliyib ustayam demə,
Olar ki, bir gün sən də dara düşərsən.
Baş tüləh deyilsən, çolpa balasan,
Cərgəndən ayrılıf tora düşərsən.

Əsədullah:

Nabələdsən aşıxlığın zatına,
Dözəmməzsən mən təh nər savaşına.
Yönünü salaram dağlar başına,
Vəzifədən tez kənara düşərsən.

Ələsgər:

Alçaxda otur ki, dırmaşma başa,
Tülküsən, aslanla girmə savaşa.
Gəl yapışma zorun yetmiyən daşa
Götürə bilməzsən, zora düşərsən.

Əsədullah:

Əsədullahnan gəl sən girmə meydana,
Mən təh aşıxları təh doğuf ana.
Şagirdli, ustalı sallam zindana,
Gözü yolda intizara düşərsən.

Ələsgər:

Oğul, gəl çəhmə Nağının işvə-nazını,
Zimistana döndərərəm yazını.
Soyaram libasını, alaram sazını,
Yal-quyruğu qırxığ yola düşərsən.

Mərəkə gülüşəndə Ələsgər deyir:

Saxla dilin, özün üçün yağıdı,
Aşığ Ələsgərin odlu çağıdı.
Çəkər qaynağına səni dağıdır,
Göydən yerə parça-parə düşərsən,

– deyəndə mərəkə əhli bütün hamısı qalxır, ağalar təzdənnən gəlir əl tutullar, öpüşüllər, bilməmişih deyir. Ələsgər paltarını soyunur, öz libasını geyinir, sonra dastanı başdıyır. Bu da belə (S.47).

## 213. AŞIQ HÜSEYNİN ŞAGİRDİ MIQIÇ

Söyün 1810-cu ildə anadan olub, 1890-cı ildə ölübdü. Səksən yaş yaşıyıbdı. Bunun Mıqıç adında bir şagirdi olufdu. Mıqıç erməniymiş. Aşıq Söyünün bir sözünü öz adına çöörüf Kəlbəcərdə Aşıx Mikayıla deyifdi. Deyif ki:

Bir gün bir heyvanat gördüm,
Zənbur kimi şan verir.
Xörəyi yüklə gəlir,
Nəfəsi duman verir.

Əyləşifdi bir məqamda,
Nalə verir asimana.
Nə yerdədi, nə göydədi,
Sədrin üstə yan verir.

Bir başı, bir əyağı var,
Gör neçə barmağı var.
İki qolu, bir boğazı,
Təh bircə dodağı var.

Əyləşifdi bir maqamda,
Neçə min oylağı var.
Qoy eşitsin, hamı bilsin,
Hər gələnə nan verir.

Gəl biçarə aşıx Mıqıç,
Qıl sözünü müxtəsər.
Abı onun bol olanda,
Olur dəli, dəngəsər.

Eşidənlər, fikir verin
Bu sözümə sərbəsər.
Əyər ki, ağam olmasa,
Sıtqınan güman verir.

Bunu belə eşşəhlənir deyir. Kəlbəcərli Mikayıl nə bilirdi? Bunu aça bilmir. Gəlir Ələsgərin yanına. Ələsgərin də qoja vaxdıymış. Ələsgər deyir, aşıxların xasiyətidi, dara düşməsə, gəlməz. Deyir, əmi, ölmüşəm, məni yerdən götür. Deyir, ə, üş kəlmə sözdü də, onun cavabın verə bilmədin? Deyəjəm, özü də get orda senzurlara de ki, bu mən deyən kimi olmasa, bir yəhərri-yüyənni at alarsan olardan. Orda Ələsgər deyir:

Gələndə usta kəlamı,
Köhnə yaram qan verir.
Moca gəlir bəhri-çeşmə,
Qətreyi-baran verir.

Dananı torpax içində,
Göyərdir kərəm kanı.
Bir mələh müqərrayı
Bizlərə ərzan verir.

Şirzandan dən gəlməyəndə,
Düşər bir qeyri-hala.
Dahanınnan atəş qalxar,
Ah çəkər, eylər nala.

Qəzəbinnən ləngər verir,
Gah qabağa, gah dala.
Hay verəndə alov törər,
Dul qalxır, duman verir.

Anlamaz nadan eşitsə,
Deyər hədyandır bu söz.
Ali-ürfan məclisində
Ləli-mərcandır bu söz.

Müxtəsəri türki-zəban,
Oğul, bil dəyirmandı bu söz.
Ab səcara, əng-səngər
Gör neçə cövran verir.

Soruşsalar, Aşığ Ələsgər,
Dərsi kimnən alıfsan?
Nahaq yerdə saz götürüf,
Elə qovğa salmısan.

Üç qublet sözdən ötrü, oğul,
Sən ki məətdəl qalmısan.
Nahaq yerdə İran tatdarı
Mikayıla döyran verir.

Burda yazdırır, gedir orda o sözdəri deyənnən sora Mıqıç aça bilmir. Senzurlar onnan yəhərri-yüyənni bir at alıf Mikayıla verirlər (S.47).

## 214. AŞIQ ƏLƏSGƏRİN ŞƏRUR SƏFƏRİ

Şərur mahalının bütün xanları, bəyləri yığılır kı, Ələsgər deyillər tamahkar adam döyül, düz adamdı. Böyüh bir yığınağ keçirdillər, bunu çağırıllar. Gejə sabaha qədər dastan danışır, ortaya mələfə gələndə həməşə bir manat, iki manat atardılar, bu dəfə hərə bir onnux qızıl tulluyur. Ələsgər arif adamıydı. Başa düşdü kü, burda nəsə var. Ağzı göyçəyin biri dedi ki, Aşığ Ələsgər, Səmənd ağa əlaçığ olar, yoxsa biz? Orda deyir ki, ağalar, bəylər, məni anam doğanda düz doğufdu. Mən sözü düz deyəjəm. Orda götürüf deyir ki,

Sərraf yüz bəzəsə səngi-siyahı,
Üzdə mütəllədi, ləl ola bilməz.
Məkəs fəqan eylər zənbur sovtilə,
Künhi yox fəhmində bal ola bilməz.

Ustad dərin, kamal dərin, söz dərin,
Qoyma sinəm üstə eşqin közdərin.
Mərifətsiz, qəbiliyyətsiz qızdarın
Yüzü bir dərdimənd dul ola bilməz.

Qafıl olma, dilim, düşmə həvəsdən,
Hərcayı sözdərə incimə dostdan.
Muşlar pələng olmaz, tülkülər aslan,
Danalar meydanda kal ola bilməz.

Ələsgərəm, cəm eylərəm dəfdəri,
Mərtlərin vəsfidi dilim əzbəri.
Naxçıvanın xanları, Şərurun bəyləri,
Saxada Səməndə qul ola bilməz (S.47).

## 215. EYLƏ ETİQAD

Məytuf dədə Ələsgərə gələndə aşdı, baxdı gördü kü, oxuya bilmir. Axşam oğlu evə gələndə dedi, a bala, bir bu məytufu oxu, bəlkə ağalardan, bəylərdəndi. Yaylaxda-zadda toya dəvət eliyəllər, geri qalarıx, yanı ayıb olar. Bəşir hər sözün cavabının çoxun özü verərmiş. Belə diqqətnən baxır. Ələsgər deyir, ə, oxuya bilmirsənmi? Deyir, ateyi-mehriban, yaxşı oxuyuram. Bu qıfılbənddi. – Ə, yeyin oxu, lal ha döyülsən, – Ələsgər deyir. Bəşir qıfılbəndi oxuyanda dedi, oğul, bu Xəstə Həsənin sözü döyül, bu Xəstə Qasımın sözüdü. İki yüz həşdat il bunnan qavax deyifdi. Onu onda da olseydı cavabın verəjeydim, amma indi də açajam bunu mən. Orda Bəşirə deyir ki, dəfdər-qələmin götür. Deyir:

Dörd kitab hər yana yolu göstərir,
Nəfs ilə mərifət oldu şeş cahat.
Böylə əmr eylədi qüdrəti-qadir,
Bu nəfsə qol qoyan tez tapar nəcaat,
Eylə etiqad.

Şəhr aydı, bayram onun gülüdü,
İki ay bir-birinin müttəsilidi.
Üç yüz altmış altı günümüz bir ildi,
Səkkiz min yeddi yüz səksən dörd sahat,
Gəl verim isnat.

Neçə müddət qərq oldular tufana,
Əmr etdi kəbutərə, gəzdi hər yanı,
İki yüz otuzda tafdı bir danə,
Nuh ilə fəhmində gətirdi sovqat,
Qıldı ibadət.

Altmış altı ayəni sən nə danmısan,
Belə məlum, bizi avam sanmısan.
Dünya cəfasına sən aldanmısan,
Unutma uqbanı, bu dünyanı at,
Afərin, ustad!

Qasım "qas"nandı, Həsən "hey"nən,
Xeyir tapbaz ustasınnan deyinən.
İşim yoxdu oğruynan, bəynən,
İxtiyarımdadı qalan məxluqat,
Daimül-övqat.

Aşığ Ələsgərəm, soruşsan adım,
Huş başımnan gedif, yoxdu savadım.
Sözlə mətləb yazmax deyil muradım,
Aləmə ehkamın çəkərəm sursat,
Sədrin olsun, sat.

Altda da yazdırır ki, Həsən, sənə ar olsun. Bu Xəstə Qasımın qafiyasıdı, sən kimi kimin yerinə qoyursan? Həsən yazır ki, Aşığ Ələsgər, dünyada gəzməh sana halal olsun. Bunu mən heç bilimirdim. Götürüb yazmışam, görüm kim aça bilər (S.47).

## 216. BUGÜN

Aşıq Alı[72] qonşu Çaxırrı kəndində toydan evinə əlirmiş. Evinə gələndə görür ki, yolda bir dənə burulğan qopdu. Tufanın içinnən bir dənə ağsaşdı nurani kişi çıxdı, gəldi Aşıq Alıya dedi ki,

[72] Söyləyicinin dediyinə görə, Aşıq Alıya Göyçə mahalında Təcnis Alı deyirdilər. Çığalı təcnis, müstəzad təcnis, dodaqdəyməz, dildönməz təsnis kimi təcnisin fərqli növlərində şeirlər yazıb.

– bunu mənə Aşıq Niftalı danışıb, ustadı Aşıq Alının şəyirdi Aşıq Qulu oluf, – dedi ki, aşıq, tez get evinə, gəlib canını alajam. Aşıq Alı haqq aşığı idi. O dəyqə bildi ki, bu Azreyildi. Tez evə gəlir, konulsuz halda arvadı Bəsdi xanıma deyir ki, bütün qohum-əqrabamı, şagirtdərimi çağır, halallaşım, bugün bu dünyadan köç eliyəjəm. Arvadı Bəsdi xanım deyir ki, sən nə danışırsan, sənin heş nəyin yoxdu. Sən niyə bəduğur danışırsan? Deyir, dediyimi elə, çağır. Arvad çar-naçar razı olur, bütün qohum-əqrabanı, şagirdləri – hamısını çağırtdırır. Hamısı da gələndə deyir ki, Alı dayı, sənin heş nəyin yoxdu. Sən niyə deyirsən o dünyaya köçürəm? Belə deyəndə deyir, a bala, divardan asılan sazı köklə, maa verginən. Sazı divardan çıxardır, köklüyüb verir. Aşıq Alı sazı sinəsində müstəhkəm eliyir, bu sözdəri deyir:

Dərsi azdar gəlib məndən dərs alsın,
Sinəmin dəfdərin açıram bugün.
Bir quş kimi qalmış idim yuvada,
Dövr edib havada uçuram bugün.

Yox oldu atam, yox oldu anam,
Dağıldı hasarım, söküldü binam,
Yühlənifdı qəflə-qatır, bərxanam,
Bu yurddan o yurda köçürəm bugün.

Aşıq Alı mindi şəcərdən atı,
Üzünə oxundu əcəl baratı.
Qıldan çox nazikdi, qılışdan iti,
Sirat körpüsündən keçirəm bugün.

Bunu deyəndən sonra bütün qohum-əqrabaynan, şagirtdəriynən halallaşır, bununnan da canını tapşırır (S.28).

## 217. NÖVRƏS İMAN

Ələsgərin qardaşı oğlu öləndə Ələsgər Növrəs İmana deyir ki, gərək qardaşın arvadını alasan. Növrəs İman çarəsiz qalır. Tayfa yığılır ki, bu gəlin evdən çıxmasın. Bu evlənir. Üç gündən sonra qardaşı yuxusuna girir ki, sən adam tapmırdın alasan? İman səhər-ertə durur, çarığın geyinib evi tərk edir. Kəlbəcərə çatanda görür toy çalınır. Kəndin yanınnan keçəndə – o vədə də aşığa yanşaq deyirmişdər, – iki nəfəri göndəriflər ki, get o yanşağı gətir, burda bir az oxusun. Gəlif bunun qabağın kəsifdilər. Deyiflər, gedəjəyin o toya. Deyir, o toydu, yoxsa vaydı? Deyir, görmürsən, qara zuranın səsini? Deyir, yox ey, qardaş, siz məni başa düşmədiz. Könül könülü tutufsa, o toydu, zorakıdırsa, o vaydı (S.9).

## VII. İNANCLAR, YASAQLAR

1. Əlində duzdu çörəyi götürürsən, lap bəyquş olsun, lap ilan olsun. Bəyquş bəy quşudu, onun fəzilətdəri çoxdu. Eləsi var ki, düşərri bir quşdu, xeyir xəbərə gəlir. Çörəyi əlimə götürüb deyirəm ki, səni and verirəm Süleyman peyğəmbərin taxtı-tacına, sənə bunu verirəm, ye, Allahın heyvanı, sən özün istədiyin bir səhralığa get. Süleyman peyğəmbər, qurban olduğum bütün quşdarın dilini bilən olub. Ona görə deyir ki, hər quşun dilini bildim, bir bəyquşun dilini bilmədim. Süleyman peyğəmbər bütün quşdarın elmini, dilini bilib, onnarın hamısını yönəldib da. Qaranquşa deyib ki, get mənim yaratdığım bəndənin istəkli bir yerində yuvanı qur. Heç görmüsən ki, qaranquş gedib hansısa ağacın başında yuva qursun? Yox. Evlərdə, evin girəcəyində, bir küncündə yuva qurur. Ona da peyğəmbər əl çəkib da. O vaxt imamları ki susuz qoyublar, həmən tuluğu gətiriblər ki, sudan paylıyalar, bunnar qırılmasın da. Onda qaranquş gəlib o dəri tuluğunu açıf ki, ağzında su aparsın həmən can verənnərin ağzına töksün. Onun ovurdu niyə yekədi? O su tutarı qədərində aparıf həmən can verənnərin ağzına tökürmüş. Ona görə deyir ki, hər quşun dilini bildim, bir bəyquşu bilmədim, o səhralıxda yaşıyır. Onu mən evlərə, yaxşı yerlərə vadar eliyə bilmədim (S.2).

2. Mamamın əmisi qızı var idi, uşağa Mirəli adını o qoymuşdu. Ağamın adını qardaşım Miryusifə isdiyiflər qoyalar, mamam razı olmuyuf ki, mən onun hər dəyqə adını çəkəmmərəm. Mamamın əmisi qızı da İrəvanın Şirazdı kəndində olurdular. Papam rəhmətdih onu toya çağırıf. Toya gələndə deyif ki, əmiqızı, sənin boyuna bir babal qoyuram. Deyif, nədi, əmiqızı? Mənə babal qoyma. Deyif, mən əmimi Miryusifdən isdiyirəm.

Miryusif gələn il bu vaxt mənə əmimi versin. İl qutardı, Mirəli oldu. Mirəli olanda onda papam sağ idi, bu arvadı çağırdı. Gətirir ağama bir ehsan verir adını yerdən götürməyə. Mamamdan icazə alır. Deyir ki, sənin atandı, mənim əmimdi, sən halallıx ver. Sənin atanın adını qoyuram, sən halallıx ver, səhər o uşağa heş nə demə. Deyir, əmiqızı, sənin sözün bizim üçün qanundu. Helə olur uşağa Mirəlinin adını qoyurlar. Amma mamam onu heç vaxt adıynan çağırmadı, qaqaş dedi (S.2).

3. Gözümnən gördüyümü deyim. Üzr isdiyirəm ifadəmə görə, mənim qardaşımın yoldaşının uşağı olanda mamam həmişə onun əlinə şiş verirdi. Deyırdi, Gülnar, bu astanalar çox apasnıdı. Adamı qapının ağzında vururlar. Deyirdi, keçəndə, gələndə şişnən get, gəl da. Mən mamamdan soruşdum, onu nəyə görə ona vermisən? Dedi ki, zahı tez qorxur, suyun üsdünə gedəndə fəhmələnir. El arasında deyirlər cin dəmirdən qorxur. Mamam şişi onun əlinə vermişdi ki, qırxın çıxana qədər, qızım, bunu əlində götür (S.2).

4. Sizlərdə siğə qardaşlığı olub?

– Hə, öz qardaşının arvadını ala bilərsən, amma siğə qardaşının arvadını ala bilməzsən. Siğə qardaşını almağa şəriyət yol vermir. Siğə qardaşı köynəhdən keçirilməklə, qanı qana tutmaqla olur. Mənim fikrimcə qan yaxşıdı, qanı kəsirsən qan qarışır, o oldu siğə qardaşı. Ananın köynəyinnən keçir hər ikisi, oldu siğə qardaş (S.25).

5. Mənə demişdilər ki, toyuq kəsəndə birdən bismillahirəhmani-rəhim deyərsən ha! Dedinsə, o toyuğu burax, rəhm eləməlisən. Sən deməlisən bismillahi Allahu-əkbər (S.35).

6. Ay görəndə salavat çəkirik. Salavat çəkəndə deyirəm ki, Allahın məsəli əla Məhəmməd və ali Məhəmməd (S.30).

7. Axşam olanda, şər düşəndə canım qurban olduxları şam paylıyırlar. Şər düşəndə gəlin arada gətirib surfa salır. Onda deyirəm, qoy şər keçsin, bu vaxd canım qurban olduxlarım şam paylıyır. Ondan sonra gətirin çörəyimizi yeyəyin. Onda onların qəlbi qırılır ki, mən ruzanı verməmiş bunlar niyə süfrə açıllar (S.30).

8. Çölə çıxırsan, işə gedirsən. Denən Allah, Məhəmməd, ya Əli. Allah, sən qismətimi ver, çölə çıxıram. Onda günün uğurlu keçər (S.30).

9. El dağa köçəndə gözəl bir adətimiz varıydı. İndi burda hamı səpin səpir, amma o vaxdı belə şey yoxuydu. Eldə səpin başlayanda birinci kalxozdan başlayırdı, kəndin ağsakqalı gəlib xeyir-dua verirdi, ilk vedrəni də o doldurub səpirdi ki, urzalı olsun. Biçində də heylə idi. Ağsakqal gəlirdi xeyir-dua verirdi, ondan sonra kombayın biçinə başdıyırdı (S.46).

10. Sonra belə adət varıydı. Tutaq ki, kiminsə qonağı gəlirdi, bütün tayfa hər gün o qonağı aparırdı evinə. Bugün mən apardım, səhər sən apardın, hərə bir heyvan kəsirdi. Orda toyuq kəsilmirdi, ancaq heyvan kəsilirdi. Toyuq ancaq ev üçün, ayilə üçün kəsilirdi. Qonağa toyux kəssən, o biyabırçılıq hesab olunurdu (S.46).

11. Sacarası təbərrikdi, onu öpürlər, qoyurlar gözlərinin üsdünə, sonra yeyirlər. Bizdə bişmə qurban deyirdilər, millət yığılırdı. Onun suyu da yerə tökülməz, sümüyü də atılmaz, təbərrikdi. Bişmə qurban ildə bir dəfə olur, hansı aya düşürsə, onda eliyirdilər. Bişirirdilər, evdə beş adam varsa, beşi də yeyirdi. Onu kənara aparmaq olmazdı. Deyir, aparallar onu tökərlər yerə, itə-pişiyə verəllər, günahdı (S.23).

12. Uşaqların başı ağrıyanda bir də görürəm Xanımzar maa deyir ki, bir dənə filankəsə sacarası hazırrıyaq. Deyirəm, Allah qəbul eləsin. Bişirib gətirir, qəşəh kəsib paylıyırıx, qonşulara da veririk. Sacarasına gücü çatmayan niyaz bişirir. Sacarası iri olur, bir sacarasına kilodan çox yağ gedir. Amma niyazı yoğurur südnən, bir az da altına yağ vurur, təndirdə bişirir, sacda da bişirmək olar. Niyazı bıçaqla kəsmək olmaz, əl ilə kəsilməlidi. Amma sacarası bıçaqla kəsilir. İki əlin arasına alıb verilən şəxsə uzadırlar. Sacarası, niyaz Milli camaatına məxsusdur. Bir sacarası, üç niyaz bir qurbana bərabərdir (S.10).

13. Uzun müddət xəstə, dili tutulan, problemli, tutmalı (özündəngedən) və bu qəbildən olan digər adamları son anda çarə kimi torpaqdan keçirərdilər. Bundan ötrü, həmin adamı bu işi yaxşı bilən birinin yanına aparardılar. O adam da torpaqda, xəstə adamın keçə biləcəyi iki oyuq açır və həmin oyuqlar arasından yerin altı ilə yol qoyur. Bu yol çox da uzun yox, təxminən bir-iki metr olur. İşin icraçısı xüsusi dualar oxuyub xəstəni o qazılmış yeraltı torpaq yoldan kecirər və bununla da o xəstənin bütün ağrı-acısının torpaqda qaldığına inanaraq şəfa tapacağına ümid edərdi[73].

14. Məhərrəmlikdə Aşuraya qədər biz[74] güzgüyə baxmazdıq, dırnaq tutmazdıq, saç kəsməzdik, acxəmrədən xəmir eləməzdik, paltar yumazdıq, sabun əzməzdik, imamın qırxı çıxana kimi güzgüyə baxmırdıq, qurban kəsmirdik. Onda qurban oldux-

---

[73] Bu mətn Bala Məzrə kənd sakini Nəcibə İslam qızı Hüseynovadan yazıya alınıb. Topladı Sevinc Hüseynova.
[74] Heydərli kəndi

larım küsür, inciyir. Deyir, mən sizdən ötrü vuruşmuşam, qan tökmüşəm, siz öz bəzəyinizdə, öz güzgünüzdəsiz. Aşura günü kənd camaatı pul yığıb çöngə alırdı, kimin də niyyəti var gətirib bir qoyun verirdi, yağın verirdi, bir maşın odun verirdi. İmam ehsanı bişirilirdi, onu da kəndin başından düşüb ayağına kimi hamıya paylıyırdılar. Yeddi-səkgiz yerdə sac asırdılar, qızlar-gəlinlər lavaş bişirirdilər, mərsiyə deyirdilər. Aşura günü ələm gəzdirirdilər. Niyyət eliyirdilər ki, mənim bu niyyətim baş tutsun, Qara Mollanın ələmi gəlib mənim çiynimə düşsün, mən ona beş manat bağlıyım. Ələm gəlib düşürdü onun çiyninə, ələmi üş dəfə öpüb alnına qoyurdu, nəzirin bağlıyırdı (S.6).

15. Matəm başdıyan kimi güzgülərin üzünə qara pərdə çəkilirdi, televizor, radio açılmırdı, paltara sabun vurmaq olmaz. Qətl sınana kimi gözdüyürdülər, paltar yuyanda da elə belə suya çəkərdilər, amma sabun vurmazdılar. Qətl sınanda məhlə-məhlə qadınlar yığışardı, neçə kisə lavaş bişirərdilər, bir dənə mal kəsərdilər, neçə qazan imam ehsanı bişirərdilər. Onu da lapetin arxasına qoyub ev-ev paylıyırdılar (S.45).

16. Bizdə nehrə yağından istifadə edirdilər, maqazinə yağ gəlirdi, amma alan olmurdu. Qalıb xarab olmasın deyə savet sədri məcbur edirdi, hər evə o yağdan nə qədərsə verirdilər. Anam qoymurdu onu evdə istifadə edək. Qardaşım ya onu kiməsə verirdi, – beş-altı ailə vardı ki, onlar istifadə edirdi, onlara verirdi – ya da alıb gətirirdi, yoldaşına verirdi. Xəngəlin xəmirini anam yoğururdu, amma yağını yoldaşı atırdı, anam əl vurmurdu ona. Ondan sonra qabı da aparıb axar suda qumnan yuyub salavatdıyırdılar ki, ona hökumət yağı dəyib (S.33).

17. Əştərəkdən gələnlərin hamısı əl-qol dirsəyə kimi çirmənib carramasa, bir qabı on dəfə axar suda yuyub üsdündən su axıtmasalar onda qətiyən yemək bişirməzdilər. Paltar vannada yuyulub arxda carranardı, qav-qaşıx arxda carranardı. Carramax suya çəkməkdi. Vannada yuyardı, sonra aparıb arxda suya çəkərdilər, ondan sonra gətirib sərərdilər. Maqazin yağı, maqazin çolpası, maqazin kalbasası qətiyən yeməzdilər (S.18).

18. Rəhmətdih anam deyirdi ermənin əli dəyən qabdan istifadə etməzdik. Özləri də bunu bilirdi. Su isdiyirdilər, ovucların açırdılar, suyu ovuclarına tökürdük, ordan içirdilər. Kalxoz əmək gününə yağ paylıyırdı, onu yemirdik, qonşuda erməni vardı, ona verirdik. Mal kəsəndə ermənilər malı müsürmana kəsdirirdilər ki, bizim camaat da o ətdən alsınlar. Yoxsa onlar kəsən heyvanı almazdıq (S.42).

19. Göyqurşağının altından keçəndə desən barmağım qızıl olsun, qızıl olur barmağın (S.13).

20. Bizdə Məhərrəm kişi var idi. Deyir ki, mənim oğlum olmurdu. Atam öldü, öləndə dedi ki, Məhərrəm, oğlun olsa, gəl qəbrimin daşımı tıqqıldat. Denən ki, ata, narahat yatma, mənim oğlum olubdu (S.7).

21. Yuxuda atanı, ananı, qardaşını – dünyasını dəyişən kimisə görəndə evdə deyirəm halva çalın, qoy ruhu şad olsun. Halva bişirirlər, lavaşın arasına büküb aparıllar qəbirstannığa, orda adam varsa onlara paylayırlar, adam olmuyanda qoyurlar qəbrin üsdünə, çıxıb gəlirlər (S.20).

22. Bizim camaat[75] çox qonaqpərvər oluf. Yolnan adam gedəndə çağırıllarmış ki, gəl otur, çörək ye. Zornan çörək yedizdirillərmiş. Çörək yemiyəni kənddən buraxmıllar. Deyirlər, sən əgər bu çörəkdən yeməsən, səni bu kənddən o biri kəndə buraxmıyajam. Mehmandar sözünün kökü də ordan gəlir, qonaq sevən, qonaqpərvər deməkdir. Zəngibasarın ən böyük kəndi olub. Ev tikəndə qonaq otağı nəzərdə tuturdular. Qonaq üçün ayrıca yorğan-döşək salırdılar. Yemək bişirəndə qonağın payını qoyurdular qırağa ki, birdən çağırılmamış qonaq gələr, gərək onun qabağına yemək qoyasan. Əziz qonağa toğlu kəsərdilər, özü də qara toğlunu. Mən çörək yemişəm, doymuşam da, bir də görürəm qonaq gəlir. Ə, nə yaxşı gəldin, ajınnan ölürəm. Mən yeməsəm, o qonax da yemiyəjək. Yalandan deyirəm ki, o da yesin (S.20).

23. Bir otağı gəlin otağı kimi bəzəyirdik, adını da qonaq otağı qoymuşduq. Yorğan-döşəyin ən yaxşısını qonaq üçün saxlıyırdıq, yeməyin ən yaxşısını qonağa verirdik. Qonax Allah qonağı sayılırdı. Qonaq təsadüfən gəldi, evdə qız uşağını gördü, ona elçi düşsə, deməli, onun niyyəti düz döyüldü. Dosdun o evin qızına elçi gedirdisə, o yaxşı əlamət sayılmırdı, demək, sən o qıza görə gəlirdin. Amma ev yiyəsi dostunun qızına elçi gedirdisə, o yaxşı əlamət sayılırdı. Çünki öz dosdunun qızını oğluna isdiyir (S.39).

24. Adət beləydi da, anam deyərdi ki, kişi gələndə qadın heç vaxt kişi ilə üzbəüz oturmamalıdı. Yoldan bir kişi gəlirsə, hər şeyin öz qaydasındadı, heç yerində nöqsanın yoxdu, o kişiyə hörmət əlaməti olaraq başındakı şalı yalandan da olsa üzə doğru çək ki, o görsün ki, sən onu gördün, özü yığışdırdın. Evə yad kişi gələndə qadın gərək otaqdan çıxsın, oturmasın orda.

[75] Mehmandarlı kəndi

Qaynata gələndə, böyük qayın gələndə, qardaş, ata, ana gələndə gəlin oturubsa, mütləqdi ki, qalxsın ayağa, təzədən otursun. O böyüyə hörmət əlamətidi (S.39).

25. Kimin imkanı yoxuydusa, gedirdi mollaya gənəşirdi. Deyirdi, ağzımdan çıxıfdı, qurban kəsmək isdiyirəm, amma imkanım yoxdu. Onda deyirdilər ki, xoruzu bir həftə çölə buraxma. Xoruz adətən çöldə murdar şey yeyir da. Bir həftə çölə buraxma, bədəni təmizdənsin, çörəknən bəslə. Onun qüsulu var, qüsulunu ver, ondan sonra kəsə bilərsən (S.39).

26. Təzə gəlin gətirəndə oğlan öyü gəlirdi imenni gəlinin atasını-anasını toya aparırdılar. Gəlinin ata-anası oğlan toyunda iştirak etməzdi, amma oğlan evi hörmət əlaməti olaraq dalınca maşın göndərib onları toya gətirərdi. Ana da qızının dalınca baxmamalı idi. İnanca görə, ana gəlin köçən qızının dalınca baxırsa, gözü qızında qalır, qız qayıda bilər (S.39).

27. Axır çərşənbədə səhər tezdəndə çay qırağına gedirdik, əl üzümüzü yuyurdux, çaydan da bir dənə daş götürüb gətirirdik, guya bərəkət daşıdı. Gətirdiyimiz suyu evin dörd bir küncünə çiliyirdik, bərəkət daşını da gələn il Novruz bayramına kimi evdə saxlıyırdıx. Novruz bayramından on-on beş gün sonra göy gurulduyur. Yazda birinci dəfə nə vaxt göy guruldasa, sırazı yerdən bir daş götürməlisən. Onu da gətirib unun içinə qoyurdux, ona görə evdə unumuz əksik olmurdu (S.39).

28. İlaxır çərşənbədən əvvəlki çərşənbəyə ölü çərşənbəsi deyirlər. Qəbr üsdünə onda gedirdik. Ölən şəxs üçün məcburi yeddi il hər ölü çərşənbəsində qazan asılır, molla çağrılır, adamlar yığılır, ehsan verilirdi. Yeddi ildən sonra da sənin vijdanına qalırdı, verə də bilərdin, verməyə də bilərdin (S.39).

29. Haydarlı, Hallavar kəndləri Novruz bayramını daha təmtəraqlı keçirirdi. Onlar başdan ayağa təzə geyinərdilər. İldə bir dəfə paltar alardılar, o da Novruz bayramında. Özü də onlarda qoja-cavan deməzdin. Bizdə yaşlılar qırçınlı qara tuman, üstdən bafta geyərdilər, amma onlar qara rəngə meyl eləmirdilər, alqırmızı, güllü paltarlar geyinirdilər. Mütləq idi ki, Novruz bayramında qırmızı geyinsinlər. Deyərdilər, Hərzət Əli taxta çıxan gündü, qırmızı geyinmişik. Bizdə Novruz bayramında təzə gəlinlərə xonça tutulurdu, təzə paltar alınırdı (S.39).

30. Deməli, yeddi-səkgiz ildi armud ağacı calamışdım. Qəşəh çiçəkliyirdi, amma meyvə tutmur. Dedilər ki, ilin axır gecəsi baltanı götür, arvadı da çağır gəlsin. Mən guya vurajam, arvad gəlsin qolundan tutsun ki, kişi, kəsmə. Onu elədim, indi ağac bir tutub ki (S.17).

31. Böyüklərin yanında uşağ qucağa almaq, onu adı ilə çağırmaq ayıb hesab olunurdu Xeyirbəyli kənd sakini Həsən Cabbarovun dediyin görə, ailədə dörd bacı, iki qardaş olublar, nənələrinin yanında anaları onların adını dilinə almazdı. Birinə Sarı, birinə Göy deyə çağırardı.

32. Bölgədə qurbanın iki növünə rast gəlinir: İsmayıl qurbanı, qada qurbanı (buna həm də demə qurban deyilir). İsmayıl qurbanı hər kəsin gücündən, imkanından asılıdır, imkanı neçə kiloya yetirsə, o çəkidə də heyvan alıb kəsə bilir. Kiçik buynuzlu heyvanlarda hər adama bir heyvan düşür, amma iri buynuzlu heyvanlarda bir neçə nəfər şərikli bir heyvan alıb qurban kəsə bilirdi. Danaya yeddi, dəvəyə isə on dörd adam ortaq olardı. Dana qurban kəsiləndə onun əti yeddi, dəvə kəsiləndə isə on dörd yerə bölünərdi. Hər kəs də ona düşən paydan

yeddi və ya on dörd qapıya pay ayırardı. Qada qurbanı isə hansısa xəta-bəlanı sovmaq, hansısa təbii fəlakətin qarşısını almaq məqsədilə kəsilən qurbana deyilir. Əyyub Həşimovun dediyinə görə, İkinci Qarabağ Müharibəsi vaxtı oğlanlarının ikisi də cəbhə bölgəsində idi, onların sağ-salamat qayıdıb gəlmələri üçün kəl qurban demişdi. Oğlanları cəbhədən qayıtdıqdan sonra həmin heyvanı kəsib ətinin hamısını bütün kəndə paylamışdı. Dini ədəbiyyatda qoç, keçi, kəl və dəvədən qurban olduğu deyilir, amma bölgədə xoruzun da qurban niyyətinə kəsildiyi məlumdur. Ziyarətgahlarda müəyyən arzu və diləklərin gerçəkləşməsi məqsədilə xoruz da qurban kəsilirdi.

33. Müəyyən heyvanlar haram hesab olunur, onaların əti yeyilmir. Bunlardan biri donuzdur. Donuzun nəinki əti yeyilməyib, ondan hazırlanan məhsullar da istifadə edilməyib. Marketdə satılan şam donuz piyindən hazırlandığı üçün onlardan qətiyyən almırdılar, ev şərayitində hazırladıqları şamlardan istifadə edirdilər. Bəzi heyvanlar məkruh hesab olunur. Onların yeyilməsinə qadağa yoxdur, nəfsi çəkən bir dəfə yeyə bilər, amma yeyilməməsi daha məqbul sayılıb. Bunlardan biri dovşandır. Dovşan qadın kimi ana halı keçirir, bundan əlavə, caynaqlı heyvandır, ona görə məkruh hesab edilir. Nəfsi çəkən şəxsin yeməsinə qadağa yoxdur, amma kimsə diksinirsə, yeməməsi məsləhət görülür. İkincisi atdır. At və eşşəkdə yediklərini üyütmək üçün qarın yoxdur, ancaq düz bağırsaq mövcuddur. Ona görə onların əti məkruh hesab olunur. Xamralı çörək qıcqırmış balatıdan hazırlandığı üçün o da məkruh hesab olunur. Bundan əlavə, ət yeyən quşların əti yeyilmir.

34. Bölgədə siğə qardaşlığı geniş yayılıb. Ailə kimisə övladlığa götürürdüsə, onu ananın köynəyindən keçirib sonra

övladlığa qəbul edirdi. Qardaşın qızını almaq olardı, amma siğə qardaşın qızını almaq olmazdı. Söyləyicinin dediyinə görə, rəhmətlik ana nənəsi 1905-ci ildə erməni-müsəlman davasında qaçıb İrana keçir. İranda olduğu müddətdə əri, övladı dünyasını dəyişir, oradan dul qayıdır. Ailə ağsaqqalları bunu 15-16 yaşında bir oğlana ərə verirlər. Bunların övladı olmur. Bayram adında yetim uşaq olub, ailə böyükləri məsləhət görüblər ki, onu köynəyindən keçirib övladlığa götürsün. Nənənəsi də onu köynəyindən keçirib övladlığa götürmüşdü.

35. Ocağı su ilə söndürmək olmaz. Çünki ocaq sahibi həmişə ocağın yanında olur, sənə zərər yetirər (S.33).

36. Ağacları, kolları çiçəyi yaşıl vaxtı qırmazdılar ki, bu vaxt onlar muraz üstə, bar vermək dövründə olurlar, qıranda murazı gözündə qalır, onu kəsən adama qarğış edir deyirdilər (S.33).

37. Uşağı bələyəndən sonra əlini yerə toxundurub kürəyinə vurardılar və deyərdilər: "Yuxum sənin". Onda uşaq rahat yatardı (S.33).

38. Qırxı çıxmayan uşağı tək qoymazdılar, çünki hal anası uşağı əmizdirər, uşağın ağlı-huşu olmaz (S.33).

39. Uşağın ovcunu yumazdılar. Deyərdilər ki, ovcun içindəki kir onun yuxusudur, yuyulsa, uşağın yuxusu dağılar (S.33).

40. Boş beşiyi (nənnini) yelləmək olmaz, yelləsən, o evdə uşaq olmaz (S.33).

41. Körpə uşağı astanadan keçirəndə onun qoynuna çörək qoyar, sonra "bismillah" deyib keçirərdilər (S.33).

42. Gəlin gələndə qucağına oğlan uşağı qoyardılar ki, onun ilk uşağı oğlan olsun (S.33).

43. Nalı qapının üstündən ağzı yuxarı vurardılar ki, bəd nəzərlərdən qoruyur, xoşbəxtlik olur (S.33).

44. Şər vaxtı qapı astanasında oturmaq olmazdı, çünki bu vaxt cinlər içəri keçər, adama zərər toxunardı (S.33).

45. Adam öləndə tənha qoymazdılar və yanında çıraq yandırardılar, çünki əcinələr gəlib onun imanını aparar, o dünyaya imansız gedərdi (S.33).

46. Gecə vaxtı dırnaq tutulmazdı, deyərdilər gecələr ölülərin dırnağını tuturlar (S.33).

47. Göy guruldayanda salavat çevirməli və kəlmeyi-şəhadətini deməlisən (S.33).

48. Pay gələn qabı boş qartarmazdılar. Qaytaranda icinə acı şey olmayan (əsasən şirin şey) qoyub qaytarardılar. Qatıq və süd verilən qabı yuyub verməzdilər, çünki həmin heyvanın bərəkətini yuyursan (S.33).

49. Qulaq cingildəyəndə deyərdilər, kimsə səni anır və ya sənin sözünü danışır (S.33).

50. Sağ qulaq qızaranda yaxşıma, sol qulaq qızaranda pisimə danışırlar deyərdilər (S.33).

51. Sol göz səyirəndə ziyan gəlməsin deyə gözün üstünə qırmızı sap qoyardılar (S.33).

# VIII. BAYATILAR

1. Qardaş[76] mənim əliyim,
Yaxamda düyməliyim.
Köçəndə köçüm qardaş,
Düşəndə kölgəliyim (S.13).

2. Gedən boz atdı, getmə.
Yolun uzaxdı, getmə.
Səni and verirəm Allaha,
Bajılarının göz, yaşı,
Sana duzaxdı, getmə (S.13).

3. Haray ellilər, haray!
Şana tellilər, haray!
Bostanı sel aparır,
Əli bellilər, haray! (S.13)

4. Haray elli neyləsin,
Şana telli neyləsin?
Başdan köçüm gedifdi,
Əli belli neyləsin? (S.13)

5. Dağda dolu durufdu,
Dolu boynun burufdu.
Biz doludan qorxurux,
Dolu ölkəni vurufdu.
(*Yeddi qardaş-bajım ölüf, qardaşım oğlannarı, nəvəm ölüf. Onnarın hamısının yarası məndə var*) (S.13).

6. Qardaşım gəl, qalam gəl,
Ərşə çıxıf nalam, gəl.
Basılıfdı ölkəm,
= Ölüfdü sərkərdəm
Alınıfdı qalam, gəl (S.13).

7. Ay qardaş, apardı çaylar məni,
Həftələr, aylar məni.
Yüküm qurğuşun yükü
Yoruf o taylar məni (S.13).

8. Duman, dağdan belə gəl,
Dolan dağdan belə gəl.
Azreyil ova çıxıfdı,
Səni vurar, belə gəl (S.13).

9. Aşıq, yara yemişəm,
Xallı yara yemişəm.
Ölüb qoşa qardaşım,
Onnardan yara yemişəm (S.13).

[76] Söyləyici Aşıq Mehdinin bacısıdır, 1-19 saylı bayatıları qardaşının cənazəsi üsdündə oxuyub. Meyid yuatdan götürüləndən sonra cənazə namazı qılınmaq üçün ortaya qoyulur, o zaman bu bayatıları söyləyir.

10. O tayda qoş yatıfdı,
Buynuz buynuza çatıfdı.
Atam, anam ordadı,
Qardaşım gedif onnarı tapıfdı.

11. Qoyun mələyən olar,
Duza gələyən olar.
Oğlu ölən analar,
= Balası gedən analar
Yaman öləyən olar (S.13).

12. Analar anar ağlar,
Kirpiyin sanar, ağlar.
Ana olar göyərçin,
Qonar daşdara, ağlar (S.13).

13. Qarabağda talan var,
Zülfün üzə salan var.
Hara gedirsiz, ey camaatımız,
Gözü yolda qalan var (S.13).

14. Azreyil, ağzın yekə.
Yekədən də yekə.
Qojanı qoyuf cavanı öldürürsən,
Dadanmısan bizim kökə (S.13).
(*Mənim qardaş-bajımı öldürüb, bircə mən qalmışam).*

15. Fələyi dindirəydim,
Dindirif güldürəydim.
Mənə çaldığı qələmlərin
Hamısın sındıreydim (S.13).

16. Ağaşda var ağ alma,
Böyrü çürük ağ alma.
Sana kimlər qarğadı,
Dərdə düş, sağalma (S.13).

17. Ay ana, məni az ağla,
Payız ağala, yaz ağla.
Əlinə bir qələm alginən.
Fikirlərimi yaz, ağla (S.13).

18. Dağdan aşıb gələnin,
Qanı çoşub gələnin.
Xoş halına o kəsin
Halallaşıb ölənin (S.13).

19. Göynən gedən sonalar,
Bir-birini yan alar.
Şəhidlərimizə kim qurban?
Oğlu ölən analar (S.13).

Getmişdim Qaradağlıya. Bayramın dədəsi yerdə yatırdı. Eşidif ki, mən ora getmişəm, qızına deyif, Həmayəni gətirin, qulağım eşidə-eşidə məni ağlasın. Gəldilər mənə dedilər, Məmməd

kişi yatır, səni çağırır. Desəydi ağlamağa çağırır, getmiyəjeydim. Dedilər ki, Məmmədin ürəyi səni isdiyir. Getdim. Dedim ki, Məmməd dayı, niyə yatırsan, noluf? Dağlar adamı döyülsən, dağdan su işməmisən? Başın qaldırdı dedi, səni and verirəm dədənnən, nənənnən kəsdiyim o duz-çörəyə. Nənən mana o qədər çörək verib, o qədər yaxşılıq eliyib. Bir-iki kəlmə məni ağla. Dedim:

20. Göydağın bulaxları
Qurusun qıraxları.
Ölsün sənin kimi majqalı,
Dağılsın hodaxları[77] (S.13).
= Göydağın bulaxları,
Göyərif qıraxları.
Gedif majqalları,
Dağılıf hodaxları.

21. Hanı mənim çal quzum?
Çal qoyunum, çal quzum.
Duman gəldi, itirdim,
Duman getdi, gəl, quzum (S.13).

22. Dağlar başı ala qar,
Ala çisgin, ala qar.
Hər yerə qar düşmüşdü,
Yağmamışdı belə qar (S.13).

23. Göydağ bir qəlbi dağdı,
İçi meyvəli bağdı.
Mən oranı unutmaram,
Neçə ki canım sağdı (S.13).

24. Eləmi, Göydağ hanı?
Qaraxaç, Göydağ hanı?
Lələ bir bostan əkib,
İçində göy tağı hanı? (S.13)

25. Dağda qar səsi var,
Yağıfdı, qar səsi var.
Atdar itgin nallanır,
Genə səfər səsi var (S.13).

26. Eləmi, yasdı dağlar,
Qar gəldi, basdı dağlar.
Üç ay toylu, bayramlı,
Doqquz ay yasdı dağlar (S.13).

27. Eləmi, sənə dağlar,
Göy geymiş sənə dağlar.
Nə olaydı bir də çıxaydım
Sənə dağalar (S.13).

[77] Məmməd kişi cütcü olduğu üçün bu bayatını söyləyir.

28. Eləmi, daşdı dağlar,
Yol qoynunnan aşdı, dağlar.
Gəldi dumanın, çiskinin,
Yurdunnan elin köşdü, dağlar
(S.13).

29. Eləmi oyan, dağlar,
Lalaya, nərgizə boyan, dağlar.
Yurduna elin gəlir,
Yatmısan, oyan, dağlar (S.13).

30. Nə yaz, nə yay istəməm,
Nə gün, nə ay istəməm.
Mənə daxmam əzizdir,
Özgə saray istəməm (S.7).

31. Əzizim, gözəl alma,
Ara, axtar, gözəl alma.
Alırsan əsilli yerdən al,
Almırsan, gözəl alma (S.23).

32. *Babam yatax xəstəsiydi. Bir də görürdün bayatılıyıb ağlıyır.*
Gecələr keşdi mənnən,
Bayqular uşdu mənnən.
Sinəm ellər körpüsü,
Gör, nələr keşdi mənnən (S.36).

33. Eləmi haran yaxşıdı?
Dedin haran yaxşıdı?
Gedənnərim gedib,
Qalanımın hamısı yaxşıdı (S.18).

34. Eləmi ağ düyünü,
Sehranın ağ düyünü.
Dövranı sürən sürsün,
Hər kimin ağdı günü (S.5).

35. Bağça könlüm, bar könlüm,
Heyva könlüm, nar könlüm.
Şadlıqla aram yoxdu,
Ağlamağa var könlüm (S.5).

36. Eləmi, yazda ağla,
Qış sızılda, yaz ağla.
Bu gün kimsəsizlərin,
Talehini yaz, ağla (S.5).

37. Pərişanam, pərişan,
Halım yoxdu danışam.
Mənim kimisi varmı,
Dərdi dərdə qarışan? (S.5)

38. Dərdim dərdə nə bağlar?
Gümüş gərdənə bağlar.
Apar dərdli yanına,
Gör dərdimə nə bağlar? (S.5)

39. Su deyin ağlar,
Sünbülüm su deyin ağlar.
Dəryada bir gül bitib,
O da su deyin ağlar (S.5).

40. Bu dərədən xan gedər,
Xan gedər, sultan gedər.
Aşma yaram ağzını,
Ajal gəlib, can gedər (S.5).

41. Əzizinəm, olmadı,
Sənək suda dolmadı.
Dərdim çox, dərmanım yox,
Dərdə əlac olmadı (S.5).

42. Bulaq başı buz bağlar,
Dörd yanı yarpız bağlar.
Anam sağ olsa indi,
Yarama o buz bağlar (S.5).

43. Ağlama, naçar ağlama,
Günlər keçər, ağlama.
Qapıyı bağlayan Allah,
Bir gün açar, ağlama (S.5).

44. Yaxası var,
Köynəyin yaxası var.
Fələk əlin çəkməmiş,
Gör kimin yaxası var (S.5).

45. Eləmi, üzüm qara,
Bağında üzüm qara.
Ya dərdimə şərik ol,
Ya da ki üzün qara (S.5).

46. Dağlar, otun qurusun!
Bağlar, tutun qurusun!
Fələk, sənin də mən tək
Matın-mutun qurusun! (S.5)

47. Eləmi, yaxşı yola,
Çalış get yaxşı yola.
Nə qədər cəhd elədim,
Dərdlərim yaxşı ola (S.5).

48. Eləmi, yana canım,
Od tutub yana canım.
Özüm nə gündəyəm ki,
Sənə də yana canım? (S.5)

49. Eləmi, yaxşısına,
Dostunu yaxşı sına.
İlahi, qismət elə,
Ölümün yaxşısına (S.5).

50. *Nənəm deyərdi:*
Əzizim, yoldaşına,
Quş qonar yoldaşına.
Özünü kişi bilən
Toxunmaz yoldaşına (S.27).

51. *Babam belə bayatı deyərdi:*
Ay dolanır batmağa,
Yuxum gəlmir yatmağa.
Əllərim öyrəşifdi,
Şux məmə oynatmağa (S.27).

## IX. TAPMACALAR, BAĞLAMALAR

1. Min minarə
Divi qarə.
Min bir çiçək
Bir yarpaq (S.3).
(kainat, torpaq, ulduz, ay)

2. O nədir
Başı fındıq,
Quyruğu qayçı,
Altı keçi? (S.3)
(qaranquş)

3. O nədir,
Göbəyim göbəyinə,
Mı..m dəməyinə.
Mən töküm, sən dara? (S.3)
(kirkirə)

4. Kəsdim, qanı yox (S.3).
(gəvə)

5. Tüfəngin vəznəsiyəm,
Küpüyəm, xəznəsiyəm.
Atam mənim oğlumdu,
Mən atamın yeznəsiyəm[78].
(..............)

[78] Söyləyici bu tapmacanın cavabını bilmir.

6. Bənd olub,
Zülfün mara bənd olub.
Dörd min dörd yüz dörd taxta
Bir mismara bənd olub[79].
(göbələk)

7. İki qapı aşdım, bir həyət gördüm,
O həyətdə iki sürü dolanır.
On beşi keçidi, on beşi qoyun,
Nə ölüdü, nə də diri dolanır.

İki çoban iki quzu buraxdı,
Səkkiz bərəsi var, dörd də daraxdı.
O iki quzunun vardı qırx iki gözü
Aparıb otarırdı çobannar özü.

(iki qapı nərdtaxtadı, iki sürü nərdin zərləridi, iki çoban nərdi oynayanlardı, 42 də nərddəki rəqəmlərin cəmidir)[80]

8. İran Şahının Aşıq Şenniy addı bir aşığı olufdu, çox deyişiflər. Ələsgərə axırda bir sual verif.

O nədi ki, göydədi,
Göydü, yenə göydədi?
Burnu yerə tikilif,
Əyaxları göydədi?

---

[79] 5-6 saylı tapmacalar Cul kənd sakini Orucov Nizami Səyyaf oğlundan yazıya alınıb.

[80] Söyləyicinin dediyinə görə, bu bağlama Molla Cumanın nəvəsi Aşıq Sıraca məxsusdur.

Ələsgər çox fikirrəşir, ayə, bu nədi, ay Allah. Qəlyanı doldurur, belə hərlənir. Ə, görür odu e yamaşda bir dənə dana otduyur. Dananın rəngi göydü, burnun yerə tikif ot otduyur, əyaxları da göydədi, yəni otun içindədi (S.43).

9. Birinin ilxısı çox imiş, birinin də on bir dənə qoyunu var imiş. Çox qoyunu olan on bir qoyunu olan adamın evinə qonaq gedir. Bu qoyunu kəsir, bişirir. Qabax-qabağa oturub kabab yeyirmişdər. Bu yeyəndə deyir, nə gözəl ətdi bu. Ev yiyəsi görür ki, qoyunun hansı tikəsi bunun xoşuna gəlib. Bu gedir qalan qoyunları da kəsir, həmin tikələri şişə taxır, bişirib gətirir. Qonaq evdən çıxanda görür hasarın üsdünə on bir dənə qoyunun dərisi sərilib. Deyir, bir belə qoyunu niyə kəsmisən? Deyir, gördüm sən o tikəni xoşladın, onun üçün o qoyunları kəsdim ki, həmin tikəni bişirib sənə verim. Bu gedir sürüdən ayırıb əlli qoyun göndərir buna. İndi de görüm bunun hansı səxavətlidi?

*Cavab:* on bir qoyunu kəsən, çünki o, qonağı razı salmaq üçün qoyununun hamısını kəsir (S.20).

# X. ATALAR SÖZÜ, MƏSƏLLƏR

1. Hər kəntdən bir adam gətir, Zoddan da qabağına çıxanı. *Yəni Zodda düz əməlli adam yoxdu* (S.37).

2. Rəhmətdih atamın bir yaxşı sözü olub. Deyir, harda erməni görsən, başına bir daş sal, yenə günah ondadı. Soruşma ha, görürsən yolun qırağında yatıbdı, başına bir daş vur, yenə günah ondadı (S.43).

3. Qadının ağlaması adətdi, kişinin ağlaması müsibətdi (S.46).

4. Göyçəli it unu kimi bütün Azərbaycana dağılıb. *İt unu arpa unudur, adi un kimi yapışmır, dən-dən olur, eşiyə çıxaranda külək onu aparır (S.4).*

5. Ərəbistanda bir peyğəmbər koma tikibmiş, yatanda ayağı çölə çıxırdı. Deyiflər, ay peyğəmbər, bunu bir az iri tikərdin, ayağın da sığardı. Deyif, özümüznən aparmıyajeyih ki. Buna da hayıf (S.4).

6. Hantlı qan eləmədiyi günü qəmli gəzər (S.15).

7. Göyçəli uşaxlarnan vedili uşaxlar mübahisə eliyirdi. Biri dedi Göyçə yaxşıdı, biri dedi Vedi yaxşıdı. Bir tarix müəllimimiz var idi, özü başqa yerdən idi. Dedi, mən neytral adam kimi deyəjəm. Göyçəlilər bir dənə erkəyi kəsillər, təndirin başındaja yeyif qutarırlar. Vedililər də yarım kilo ətnən dörd dəfə dolma qoyurlar (S.15).

8. Bal yeyən barmağın yalayar (S.2).

9. Boğaz boydan aşağıdır. *Bunu mən yesəm də olar, yeməsəm də olar. Özü yemir, başqasına verir* (S.2).

10. Qonşu qonşuda yekəlir. *Anam xəngəli bişirirdi, iysi getdi qonşuya, dedi bir padnos tez apar qaynar-qaynar ver, qayıt gəl (S.2).*

11. Ağ gün insanı ağardır, qara gün qaraldır (S.36).

12. Hers gələndə üz qızarar, hers gedəndə üz utanar (S.36).

13. Mən kabab iyinə gəlmişəm, burda eşşək dağlanırmış.

*İşləndiyi kontekst:* Yerevanda oxuyurdum, bazar günü evə gəlirəm. O vaxtı da avtobus-zad yoxuydu, hamısı balaca qruza-voy maşınnardı. Bir dənə Zil gəldi, əlimi qaldırdım, saxladı. Bundan soruşdum, hara gedirsən? Dedi ki, Sisyana gedirəm. Dedim, mən gedəjəm Paşalıya. Dedi, otur. Oturdum maşına, gəlirik. Mənə dedi ki, bir dənə oxuginan. Dedim, mən oxumax bilmirəm. Bir az gəldix, Arazdəyənə yaxınnaşmışıx. Dedi, birin oxu. Dedim, oxumax bilmirəm. Arazdəyəndə dönəjağ Şərura, Kərkidən addıyajax. Bu türkcə başdadı oxumağa, düz kəndə kimi oxudu. Dedi, bilirsən nə var, ay kirva? Dedim, nə deyirsən? Dedi, mən türk ermənisiyəm, Türkiyədən gəlmişəm. Otuz səkgizinci ildə bizi aldatdılar ki, ay Sovet hökümətinin yerində toyuxlar kollarda yumurtduyur, yığan yoxdu. Amma mənim atam ağıllı adamdı. Atam dedi ki, bala, hələ tələsmə, qoy birimizi göndərax, ordan bizə məlumat gətsin, onnan sonra köçax. Deyir, məsləhətdəşdik, məni göndərdilər. Gəldim buruya. Gəldim ki,

*mən kabab iyinə gəlmişəm, burda eşşək dağlanırmış*. Mən təzdəndən xəbər verdim ki, ay dədə, birdən gələrsiz haa, burda vəziyyət bu formudu. Deyir, indi nə məni buraxırlar gedəm, nə də onlar gəlir. Mən qalmışam belə zulma. Elə ağladı, elə ağladı. Gəldıx kəndin yanında düşəndə pul çıxardanda dedi, yox, ayıbdı, çıx get. Bax, belə hak-hesablar olubdu (S.25).

14. Vedililər deyir, hinduşka əti, ağ lavaş, çaşır şorbası (S.25).

13. Qurbağaya deyiblər, niyə danışmırsan? Deyib, çox şey bildiyim üçün ağzımı açan kimi ağzıma su dolur (S.25).

14. Ağılsıza ağıl vermək kümbəzin başına qoz atmaq kimidir. *Kümbəzin başında qoz durar? Yox. Ağılsıza da nə qədər desən xeyri yoxdur* (S.25).

15. Kişinin simici ev yıxar,
    Qadının simici ev tikər (S.25).

16. Əyilən başın cəlladı çox olar (S.25).

17. Arvad qohumu şirin olar (S.25).

# XI. SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

1. Abbasov Sahib Sabir oğlu, Yevlax rayonu Nemətabad kəndi, təvəllüdü 1967-ci il. Valideynləri Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) Çimən kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 51, 84, 85, 108.*

2. Abbasova Sevda Tofiq qızı, Yevlax rayonu Malbinəsi kəndi, təvəllüdü 1962-ci il. Valideynləri 1950-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) Şuğayıb kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 37-49; İnanclar: 1, 2, 3; Atalar sözü: 8, 9, 10.*

3. Abdullayev Əhməd Mamed oğlu, Qərbi Azərbaycanın Qırxbulaq mahalının (Ellər rayonunun) Nurnus kəndindən deportasiya olunub. Tərtər rayonu Cəmilli kəndində məskunlaşıb.. *Tapmaca: 1, 2, 3, 4.*

4. Abdullayev Saleh Mövsüm oğlu, 1952-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Basarkeçər rayonunun) Bala Məzrə kəndindən deportasiya olunub, təvəllüdü 1942-ci il. Tərtər rayonu Cəmilli kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 55, 189; Atalar sözü: 4, 5.*

5. Abduyeva Sehran Musa qızı, 1988-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Çəmbərək rayonunun) Ardanış kəndindən deportasiya olunub. İki yaşı belə yoxkən atası Stalin repressiyasının qurbanı olmuş, QULAQ edilərək sürgünə göndərilmişdir. O vaxtdan ailəsi gözümçıxdıya salınmış, onu uşaqlığını yaşamağa qoymamışlar. Anasından belə uzaq salmışdılar. Həyatı anladıqdan sonra dərdini, kədərini bayatılarla ovutmağa çalışmışdır. *Söylədiyi mətnlər: 183; Bayatılar: 34-49. Toplayan Əli Vəliyev.*

6. Allahverdiyeva Tovuz Oruc qızı, 1988-ci ildə Qərbi Azərbaycanın Pəmbək mahalının (Böyük Qarakilsə rayonunun) Heydərli kəndindən deportasiya olunub, təvəllüdü 1963-cü il, orta təhsilli. Bakı şəhəri Nəsimi rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 93, 184; İnanclar: 14.*

7. Almuradov İman Məhəmməd oğlu, 1949-cu ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının (Paşalı rayonunun) Herher kəndindən deportasiya olunub, təvəllüdü 1945-ci il. Tərtər rayonu Səhləbad kəndində məskunlaşıb. *Söylədiyi mətnlər:169, 180; İnanclar: 20; Bayatı: 30.*

8. Bakayev İsmayıl Mahmud oğlu, 1937-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) Çatma kəndindən Qazaxıstana sürgün olunub. İ.Stalinin ölümündən sonra Azərbaycana qayıdıb, hazırda Yevlax rayonu Nərimankənd kəndində məskunlaşıb. *Söylədiyi mətn: 50.*

9. Balakişiyev Qaçay Kamran oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının (Paşalı rayonunun) Köçbək kəndindən deportasiya olunub, təvəllüdü 1943-cü il. Yevlax rayonu İrəvanlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 56, 170, 171, 181, 217.*

10. Bünyatov Rəhim Məhəmmədəli oğlu, 1951-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) Əlimərdan kəndindən deportasiya olunub, təvəllüdü 1940-cı il. Tərtər rayonu Seydimli kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 10, 24, 25, 76, 77, 78, 119; İnanclar: 12*

11. Cəfərov Bəxtiyar Cəfər oğlu, Tərtər rayonu İrəvanlı kəndi. Atası 1949-cu ildə Vedibasar mahalının (Vedi rayonunun) Yellicə kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 79, 120, 121.*

12. Cəfərov Qəmbər Məhərrəm oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Çəmbərək rayonunun) Ardanış kəndindən deportasiya olunub, təvəllüdü 1957-ci il, ali təhsilli. Bakı şəhərində məskunlaşıb. *Söylədiyi mətnlər: 88, 90, 190, 191, 192.*

13. Cəfərova Həmayə Ataş qızı, 1949-cu ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının (Paşalı rayonunun) Herher kəndindən deportasiya olunub, təvəllüdü 1935-ci il. Tərtər rayonu Səhləbad kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 12, 30, 32, 70, 71, 87; İnanclar: 19; Bayatılar: 1-29.*

14. Cəlilov Abbasqulu Nəsib oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) Haxıs kəndidən deportasiya olunub, təvəllüdü 1956-cı il. Tərtər rayonu Bəyimsarov kəndində məskunlaşıb. *Söylədiyi mətn: 154.*

15. Ələsgərov Ağa Əziz oğlu, Tərtər rayonu Təzəkənd kəndi, təvəllüdü 1955-ci il. Atası 1953-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Basarkeçər rayonunun) Bala Məzrə kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 74, 124, 148, 176, 185, 186, 187, 188; Atalar sözü: 6, 7.*

16. Əliyarova Mirvari İldırım qızı, Tərtər rayonu Qaradağlı kəndi, təvəllüdü 1950-ci il. Qayınatası, əri Qərbi Azərbaycandan deportasiya olunublar, danışdığı rəvayətləri də onlardan eşidib. *Söylədiyi mətnlər: 16, 17, 18, 22, 99, 164.*

17. Əliyev Ələddin Əli oğlu, Tərtər rayonu Cəmilli kəndi, təvəllüdü 1954-cü il. Atası 1953-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Basarkeçər rayonunun) Bala Məzrə kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 207, 208, 209; İnanclar: 30.*

18. Əliyev Təvəkkül Əbdül oğlu, 1949-cu ildə Qərbi Azərbaycanın Karbibasar mahalının (Əştərək rayonunun) Təkiyə kəndindən deportasiya olunub, təvəllüdü 1929-cu il. Yevlax rayonu Havarlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 62; İnanclar: 17; Bayatılar: 18.*

19. Əliyev Utariz Cəbrayıl oğlu, 1950-ci il Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) Çimən kəndindən deportasiya olunub, orta ixtisas təhsilli. Yevlax rayonu Nemətabad kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 116, 136.*

20. Əzizov Əyyub Teymur oğlu, 1948-ci ildə Qərbi Azərbaycanın Zəngibasar mahalının (Zəngibasar rayonunun) Mehmandar kəndindən deportasiya olunub, təvəllüdü 1934-cü il, ali təhsilli müəllim. Bakı şəhəri Nəsimi rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 137, 152; İnanclar: 21, 22; Tapmacalar: 9.*

21. Həsənov Abbasəli Əliisgəndər oğlu, Qərbi Azərbaycanın Göyçə mahalının (Çəmbərək rayonunun) Ardanış kəndindən deportasiya olunub, təvəllüdü 1948-ci il, orta-ixtisas təhsilli, molla. Bakı şəhəri Binəqədi rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 89, 193, 211.*

22. Həsənov Hasay Kərəm oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının (Paşalı rayonunun) Köçbək kəndindən deportasiya olunub, təvəllüdü 1961-ci il. Yevlax rayonu İrəvanlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 103.*

23. Həsənov İqbal Qara oğlu, 1949-cu ildə Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) Əlimərdan kəndindən deportasiya olunub, təvəllüdü 1929-cu il. Tərtər rayonunun İrəvanlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 75, 139, 141, 151. İnanclar: 11; Bayatı: 31.*

24. Həsənov Nəriman Bəhram oğlu, Tərtər rayonu Seydimli kəndi. Atası Qərbi Azərbaycanın Göyçə mahalının (Basarkeçər rayonunun) Çaxırlı kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 26, 80, 146.*

25. Həşimov Əyyub Abdulkərim oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının (Paşalı rayonunun) Köçbək kəndindən deportasiya olunub, təvəllüdü 1946-cı il. Yevlax rayonunun Nemətabad kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 19, 20, 21, 23, 27, 28, 57, 101, 102, 104, 105, 106, 107, 125, 126, 150, 155, 160, 161, 162, 163, 165; İnanclar: 4; Atalar sözü: 13, 14, 15, 16, 17.*

26. Xəlilov Cəmil Şəmil oğlu, 1950-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalından deportasiya olunub, təvəllüdü 1924-cü il. Daşkəsən şəhərində məskunlaşıb. Ondan toplanmış mətnlər 1991-ci ildə yazıya alınıb. *Söylədiyi mətnlər: 138, 158, 159. Topladı: Füzuli Bayat*.

27. Xəlilov Elbrus Şəmistan oğlu, Tərtər rayonu Cəmilli kəndi, təvəllüdü 1956-cı il. Atası Xəlilov Şəmistan Abduləli oğlu 1940-cı ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Basarkeçər rayonunun) Bala Qaraqoyunlu kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 115, 129, 130, 131, 172, 173, 174, 175, 177. Bayatılar: 50, 51.*

28. Xəlilov İmran Həsən oğlu, Qərbi Azərbaycanın Göyçə mahalının (Çəmbərək rayonunun) Ardanış kəndindən deportasiya olunub, təvəllüdü 1965-ci il, ali təhsilli. Hazırda Bakı şəhərində məskunlaşıb. *Söylədiyi mətn: 216.*

29. İbrahimov Həmid İman oğlu, 1953-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Basarkeçər rayonunun) Kəsəmən kəndindən deportasiya olunub, təvəllüdü 1941-ci il. Tərtər rayonu Təzəkənd kəndində məskunlaşıb. *Söylədiyi mətn: 110.*

30. İbrahimova Laçın Hətəm qızı, 1950-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) İmirzik kəndindən deportasiya olunub, təvəllüdü 1943-cü il. Tərtər rayonu İrəvanlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 9, 11, 98; İnanclar: 6, 7, 8.*

31. İsmayılov Fəti Müqəddəs oğlu, 1949-cu ildə Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) Yellicə kəndindən deportasiya olunub, təvəllüdü 1937-ci il. Tərtər rayonu İrəvanlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 8, 31, 147.*

32. İsmayılov Rasif İlyas oğlu, Yevlax rayonu Qaraməmmədli kəndi, təvəllüdü 1959-cu il. Valideynləri 1949-cu ildə Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) Çimən kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 117, 118, 123.*

33. Qasımov Kamran Mehralı oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Çəmbərək rayonunun) Toğluca kəndindən deportasiya olunub, təvəllüdü 1961-ci il, ali təhsilli. Bakı şəhəri Binəqədi rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 91, 92, 194, 195, 196, 197, 198, 199; İnanclar: 16, 33-51.*

34. Mədətova Əsmər Hüseynalı qızı, 1951-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının (Vedi rayonunun) Yellicə kəndindən deportasiya olunub, təvəllüdü 1930-cu il, ibtidai təhsilli. Tərtər rayonu İrəvanlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 7, 13.*

35. Məmmədov Firudin Həsən oğlu, 1949-cu ildə Qərbi Azərbaycanın Karbibasar mahalının (Əştərək rayonunun) Təkiyə kəndindən deportasiya olunub, təvəllüdü 1946-cı il. Yevlax rayonu Hacıselli kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 58, 59, 60, 61, 149; İnanclar: 5.*

36. Məmmədov İzzət Əcəb oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının (Paşalı rayonunun) Gomur kəndindən deportasiya olunub, təvəllüdü 1953-cü il. Yevlax rayonu İrəvanlı qəsəbəsində məskunlaşıb. *Söylədiyi mətnlər:94, 100, 156; Bayatı: 32; Atalar sözü: 11, 12.*

37. Məmmədov Nurəddin Qoşun oğlu, 1953-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Basarkeçər rayonunun) Qaraiman kəndindən deportasiya olunub, təvəllüdü 1952-ci il. Tərtər rayonu Seydimli kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 81, 96, 97, 200, 201, 202, 203, 204, 205, 206; Atalar sözü: 1.*

38. Məmmədova Gülüstan Əkbər qızı, 1949-cu ildə Qərbi Azərbaycanın Karbibasar mahalının (Əştərək rayonunun) Üşi kəndindən deportasiya olunub, təvəllüdü 1939-cu il. Yevlax rayonu Bəydili kəndində məskunlaşıb. *Söylədiyi mətn: 33.*

39. Mustafayeva Şəmsiyyə Məmməd qızı, 1988-ci ildə Qərbi Azərbaycanın Pəmbək mahalının (Hamamlı rayonunun) Saral kəndindən deportasiya olunub, təvəllüdü 1961-ci il, ali təhsilli. Bakı şəhəri, Nəsimi rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 14, 15, 29, 34, 35, 36, 114, 142, 143, 157; İnanclar: 23, 24, 25, 26, 27, 28, 29.*

40. Orucov Bayram Məmməd oğlu, 1948-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Paşalı rayonundan deportasiya olunub, təvəllüdü 1928-ci il. Tərtər rayonu Qaradağlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 144, 153.*

41. Orucov Səməd Məmməd oğlu, Tərtər rayonu Qaradağlı kəndi, təvəllüdü 1960, orta təhsilli. Atası Qərbi Azərbaycanın Dərələyəz mahalının (Paşalı rayonunun) Herher kəndindən deportasiya olunub. *Söylədiyi mətnlər: 111, 112, 122, 127, 128, 132, 133, 134, 135, 140, 145, 166, 167, 168, 178, 179, 182, 210.*

42. Rzayev Salman Həsən oğlu, 1949-cu ildə Qərbi Azərbaycanın Karbibasar mahalının (Əştərək rayonunun) Təkiyə kəndindən deportasiya olunub, təvəllüdü 1945-ci il. Yevlax rayonu Havarlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 63, 83, 86; İnanclar: 18.*

43. Rzayev Sırac Əmir oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Basarkeçər rayonunun) Çaxırlı kəndindən deportasiya olunub. Tərtər rayonu Bəyimsarov kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 53, 54; Tapmaca: 8; Atalar sözü: 2.*

44. Seyidov Miralay Mirqələm oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Çəmbərək rayonunun) Toğluca kəndindən deportasiya olunub, təvəllüdü 1975-ci il, ali təhsilli. Suraxanı rayonu Zabrat qəsəbəsində məskunlaşıb. *Söylədiyi mətnlər: 64, 65, 66, 67, 68, 69.*

45. Süleymanov Oruc Əli oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Pəmbək mahalının (Böyük Qarakilsə rayonunun) Hallavar kəndindən deportasiya olunub, təvəllüdü 1961-ci il, orta təhsilli. Hazırda Bakı şəhəri Nəsimi rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 95, 113; İnanclar: 15.*

46. Şərifov Aqil Xıdır oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının (Basarkeçər rayonunun) Bala Məzrə kəndindən deportasiya olunub. Tərtər rayonu Bəyimsarov kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 52, 72, 73, 109; İnanclar: 9, 10; Atalar sözü: 3.*

47. Zeynalov Məhəmməd Mehdi oğlu, Qərbi Azərbaycanın Pəmbək mahalının (Hamamlı rayonunun) Qursalı kəndindən deportasiya olunub, yaş 81. *Söylədiyi mətnlər: 212, 213, 214, 215. Topladı: Əfzələddin Əsgərov.*




**Rəhim Bünyatov, Tərtər rayonu Seydimli kəndi**




**Səməd Orucov, Tərtər rayonu Qaradağlı kəndi**




**Tərtər rayonu Seydimli kəndi**




**Tərtər rayonu Cəmilli kəndində məskunlaşmış sakinlərlə görüş**




**Tərtər rayonu**



**Həmayə Cəfərova, Tərtər rayonu Səhləbad kəndi**




**Əsmər Mədətova, Tərtər rayonu İrəvanlı kəndi**




**Laçın İbrahimova, Tərtər rayonu İrəvanlı kəndi**




**Firudin Məmmədov, Yevlax rayonu Hacıselli kəndi**




**Əyyub Həşimov, Yevlax rayonu Nemətabad kəndi**




**Yevlax rayonu Nemətabad kəndi**




**İzzət Məmmədov, Yevlax rayonu İrəvanlı qəsəbəsi**




**Sevda Abbasova, Yevlax rayonu Malbinəsi kəndi**




**Gülüstan Məmmədova, Yevlax rayonu Bəydili kəndi**




**Kamran Qasımov və Miralay Seyidov, Bakı şəhəri Zabrat qəsəbəsi**




**Şəmsiyyə Mustafayeva, Bakı şəhəri Nəsimi rayonu**



**Abduyeva Sehran Musa qızı, Ardanış kəndi**




**Mirismayıl ağanın ocağı, gürzün saxlandığı sandıq**

**Ələm dirəyi**




**Ələm dirəyi**



**Qızıl ocaq, Əştərək rayonu Üşü kəndi**




**Cuar Rəhim ocağı, Yevlax rayonu Havarlı kəndi**



**Armud ocağı, Hamamlı rayonu Saral kəndi**




**Çırttığan bitkisi**




**Mirəli ağanın qəbri üstündə tikilmiş kümbəz, Yevlax rayonu, Malbinəsi kəndi**




**Qurudulmuş əvəlik**




**İrəvan taxtı**




**Ərzaq saxlanan şirli qab**

# KİTABIN İÇİNDƏKİLƏR

**ÖN SÖZ** .......................................................................... 3

**ETNOQRAFİK MƏTNLƏR**
Novruz bayramı .......................................................................... 18
Toy adətləri .......................................................................... 44
Yas adətləri .......................................................................... 66
Kirvəlik .......................................................................... 71
Qərbi Azərbaycan mətbəxi .......................................................................... 85
Xalq təqvimi .......................................................................... 111
Bişmə qurban .......................................................................... 120
Sacarası .......................................................................... 127
**MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Hal və cin .......................................................................... 129
Əzrayıl .......................................................................... 131
Musa peyğəmbər .......................................................................... 133
Həvva nənə .......................................................................... 136
Məhəmməd peyğəmbər .......................................................................... 137
Həzrət Əli .......................................................................... 141
Təpəsdəlik piri .......................................................................... 143
Görgəc .......................................................................... 144
Ərgəz piri .......................................................................... 144
Ağoğlan .......................................................................... 144
Armud ocağı .......................................................................... 146
Çidəmli Mirəli ağa .......................................................................... 147
Seyid Bayram .......................................................................... 162
Qara Seyid .......................................................................... 166
Şıx Həsən .......................................................................... 167

Mirismayıl ağa ..........175
Hacı Əmirxan ..........179
Seyid Əsədullah ..........180
Zülfüqar ağa ..........180
Seyid Ələsgər ocağı ..........181
Xudo ocağı ..........182
Mir Qafar ağa ..........183
Seyid Bəhram ..........185
Seyid Abbas ..........187
Cuar Rəhim ..........187
Seyid Yusif ağa ..........190
Şıx Şəmil ..........191
Keyti və Mehdi ..........192
Ardanışdakı ocaqlar ..........192
Digər müqəddəs məkanlar ..........194
Vergili insanlar ..........197
Söylən ..........199
Köçbək ..........204
Səfolar və qurbanalılar ..........206
Xaraba Kotanlı ..........212
Böyük Məzrə və Bala Məzrə ..........214
Kəsəmənli ..........215
Herher ..........217
Hallavar ..........219
Saral ..........222
Bala Qaraqoyunlu ..........222
Kərbəlayı İsmayıl ..........224
Qəmlo ..........228
Səmənd ağa ..........233

Oğru Mehdi ........ 234
Aşıq Alı ........ 236
Qaçaq Şahpələng ........ 237
Qaçaq Cəmil ........ 238
Qaçaq Qanboy ........ 243
İlyas bəy ........ 244
Toy güləşi ........ 245
Allaha inam ........ 247
İnsan var qocalanda ağlı azalır ........ 249
Allah versə, daşda da verər ........ 250
Qara daşa muraz verən Allah ........ 250
Mıxı mismara döndərən Allah ........ 251
**XATİRƏLƏR**
1905-1918-ci illər deportasiyası ........ 252
1948-1952-ci illər deportasiyası ........ 260
1988-1991-ci illər deportasiyası ........ 263
**NAĞILLAR**
Şərab içənin aqibəti ........ 277
Ağacın şahidliyi ........ 285
Nuşirəvan şah ........ 287
Əzrayılın kirvəliyi ........ 289
Bir abbasılıq ruzi ........ 291
İsgəndər Zülqərnə ........ 294
Dəvənin savabı ........ 297
Şeytanla mərdiməzarın bəhsi ........ 300
**LƏTİFƏLƏR**
Molla Nəsrəddin ........ 301
Bəhlul Danəndə ........ 303
Abdal Qasım ........ 308

Aşıq Canu və Aşıq Valeh ........................................ 310
Onu sən dedin ........................................ 311
Bu çox sırtılıb ........................................ 311
Ata, məni urvatsız tuturlar ........................................ 312
Mənə də heylə de ........................................ 312
Vayqayğı ........................................ 313
Al, xuda! ........................................ 314
Bala Məzrənin baməzə adamları ........................................ 314
Ardanışın baməzə adamları ........................................ 316
Toğlucanın baməzə adamları ........................................ 317
Qaraimanlı Əhməd kişinin lətifələri ........................................ 323
Terte İslam ........................................ 325
Sən lap ağ elədin ........................................ 326
Kişi də kişini küpədən ötrü dağa göndərər? ........................................ 327
**DASTANLAR VƏ AŞIQ RƏVAYƏTLƏRİ**
Fəttah və Qəmər ........................................ 329
Aşıq Ələsgərin Naxçıvan səfəri ........................................ 347
Aşıq Hüseynin şagirdi Mıqıç ........................................ 356
Aşıq Ələsgərin Şərur səfəri ........................................ 359
Eylə etiqad ........................................ 360
Bugün ........................................ 361
Növrəs İman ........................................ 363
**İNANCLAR, YASAQLAR** ........................................ 364
**BAYATILAR** ........................................ 376
**TAPMACALAR, BAĞLAMALAR** ........................................ 381
**ATALAR SÖZÜ, MƏSƏLLƏR** ........................................ 384
**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT** ........................................ 387

**Qərbi Azərbaycan folkloru, III kitab**
Bakı, “Elm”, 2024.

“Elm” nəşriyyatının direktoru:
**fil.ü.f.d. Səbuhi QƏHRƏMANOV**

Nəşriyyat redaktoru:
**Zəfər Fərhadov**

Kompüterdə yığan:
**Səfa Əliyeva**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Ləman Həsənova**

Kağız formatı: 60x84 $^{1}/_{16}$
Mətbəə kağızı: №1
Həcmi: 26 ç/v
Tirajı: 150